2019
1
ELMİ ƏSƏRLƏR 86



AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

cild 86, №1 , 2019

ISSN 2409-8817

ELMİ əsərlər

НАУЧНЫЕ ТРУДЫ

RESEARCH PAPERS

ISSN 2409-8817

ISSN 2409-8817

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

ELMİ ƏSƏRLƏR

cild 86, № 1, 2019

НАУЧНЫЕ ТРУДЫ

том 86, № 1, 2019

RESEARCH PAPERS

volume 86, № 1, 2019

BAKI – 2019

Azərbaycan Respublikasının Təhsil İnstitutu Elmi Şurasının 18 dekabr 2018-ci il tarixli iclasının qərarı ilə nəşr edilir.

Təsisçi: Azərbaycan Respublikasının Təhsil İnstitutu

"Elmi əsərlər" 1934-cü ildən nəşr olunur.

"Elmi əsərlər" məcmuəsi Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin 11 iyul 2002-ci il tarixli 23 №-li əmri ilə qeydə alınmışdır.

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə tövsiyə edilən nəşrlər siyahısına daxil edilmişdir

Baş redaktor: Akif Abbasov – *pedaqogika üzrə elmlər doktoru, professor*
Məsul katib: İlham Cavadov – *pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

Redaksiya heyəti:

Ənvər Abbasov – *pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
Rəfiq Qəndilov – *kimya üzrə fəlsəfə doktoru*
Qulu Novruzov – *hüquq üzrə fəlsəfə doktoru*
Yəhya Kərimov – *pedaqogika üzrə elmlər doktoru, professor*
Asəf Zamanov – *fizika-riyaziyyat üzrə elmlər doktoru, professor*
Faiq Şahbazlı – *filologiya üzrə fəlsəfə doktoru, dosent*
Fərahim Sadıqov – *pedaqogika üzrə elmlər doktoru, professor*
Vidadi Xəlilov – *pedaqogika üzrə elmlər doktoru, professor*
Hümeyir Əhmədov – *pedaqogika üzrə elmlər doktoru, professor*
Fərrux Rüstəmov – *pedaqogika üzrə elmlər doktoru, professor*
Hikmət Əlizadə – *pedaqogika üzrə elmlər doktoru, professor*
Ramiz Əliyev – *psixologiya üzrə elmlər doktoru, professor*
Rövşən Hümbətəliyev – *riyaziyyat üzrə elmlər doktoru*
İntiqam Cəbrayılov – *pedaqogika üzrə elmlər doktoru*
Piralı Əliyev – *pedaqogika üzrə elmlər doktoru*
Şahin Tağıyev – *pedaqogika üzrə elmlər doktoru, professor*
Novruz Musayev – *pedaqogika üzrə elmlər doktoru, professor*

© ARTİ, 2019

MÜNDƏRİCAT

BAŞ REDAKTORDAN

Akif Abbasov — Müasir dövrün və yeni pedaqoji təfəkkürün tələbi: təhsilalanları müstəqil ailə həyatına hazırlamaq — 15

ÜMUMPEDAQOJİ PROBLEMLƏR

Əbülfət Pələngov, Günel Şəmilzadə — Ənənəvi və müasir təlim metodlarından vəhdətdə istifadə prinsipləri — 22

Sevinc Əliyeva — "Fənlərarası sahə" anlayışının metodoloji aspektləri — 27

Yeganə Əskərova — Şagirdlərin şəxsiyyət kimi formalaşmasına ailə və məktəbin təsiri — 34

Nahidə Əhmədova — Keyfiyyətli təhsil almaq hər bir Azərbaycan vətəndaşının hüququdur — 38

Şəhla Ələkbərova — Müəllimin pedaqoji fəaliyyətinin təhsilin keyfiyyətinə təsiri — 41

TƏHSİLİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ, QİYMƏTLƏNDİRMƏSİ VƏ İDARƏ OLUNMASI MƏSƏLƏLƏRİ

Firəddun İbrahimov, Xuraman Həmidova — Ümumtəhsilin keyfiyyətinin idarəolunmasının bəzi aspektləri barədə — 44

Vüsalə Əliyeva — İnsan kapitalının inkişaf etdirilməsində təhsilin rolu — 51

Firuzə Abdullayeva — Təhsilin keyfiyyətinin qiymətləndirilməsi — 56

MƏKTƏB VƏ PEDAQOJİ FİKİR TARİXİ

Emilya Hüseynova — Mustafa Kamal Atatürkün həyatı və fəaliyyəti böyük məktəb yaşlı şagirdlərdə fəal vətəndaşlıq mövqeyi formalaşdırmağın mənbəyi kimi — 59

İradə Əmirəliyeva — Abbas Səhhətin maarifçilik ideyaları — 63

Səbinə Hacıyeva — Fransız filosofu, yazıçısı və mütəfəkkiri Jan–Jak Russonun pedaqoji konsepsiyası — 67

TƏRBİYƏ MƏSƏLƏLƏRİ

Talıb Paşayev, Eyvaz Məmmədov — Şagirdlərin və tələbələrin vətənpərvərlik tərbiyəsini şərtləndirən amillər — 72

Mirhəsən Eminov — Dərnək məşğələlərində və maraq kurslarında şəxsiyyətyönlü təhsilin tərbiyələndirici imkanlarından istifadə etməklə vətəndaş yetirməyin formaları — 76

Zemfira Səlimova	Gənc nəsildə əxlaqi hisslərin inkişaf etdirilməsi	81
Ayfər Şakirli	Dərsdənkənar və məktəbdənkənar tədbirlər zamanı şagirdlərin ekoloji tərbiyə məsələləri	84
	METODİKA: FƏNLƏRİN TƏDRİSİNİN ÜMUMİ MƏSƏLƏLƏRİ	
Qurban Əliyev, Çinarə Hüseynova	İnkişafetdirici təlim və onun funksiyaları	87
İranə Məmmədova	İbtidai siniflərdə innovativ proseslərin inkişafının əsas istiqamətləri	90
	AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ METODİKASI	
Maya Qasımova	İbtidai məktəbdə fonetikanın tədrisi prosesində nitq inkişafı üzrə aparılan işlər	95
Samirə Həsənova	Orfoqrafik-orfoepik baxımdan çətin sözlər üzərində işin şagirdlərin yazı bacarıqlarının inkişafında rolu	100
Səmra Bayramova	Ana dili dərsliklərində ailə tərbiyəsi məsələləri (XIX əsrin II yarısı – XX əsrin əvvəlləri)	104
	RİYAZİYYATIN TƏDRİSİ METODİKASI	
Sərxan Feyziyev, Rasim Şükürov	İnkişafetdirici təlim şəraitində fəndaxili varislik və fəndaxili rekursiv əlaqələr təfəkkür prosesinin keyfiyyət göstəricisi kimi	111
Rövşən Hümbətəliyev, Gülarə Babayeva	Alqoritmik fəaliyyət və onun formalaşdırılmasının əsas mərhələləri	118
Tinatin Əliyeva, Pərvanə Mustafayeva	Müstəvi üzərində həndəsi kəmiyyətlərin öyrənilməsi haqqında	121
Məftun Heydərova	IV sinif riyaziyyat dərsliyində təlimin məzmunu və şagirdlərin riyazi hazırlığına verilən tələblər	124
Mübariz Əsədov, Səbinə Hümbətli	İbtidai siniflərdə riyazi məsələ həllinin öyrədilməsi	128
Firidə Mustafayeva	İnkişafetdirici çalışmalar və onların ibtidai siniflərin riyaziyyat dərslərində rolu və əhəmiyyəti	131
Zaman Məmmədov	İbtidai siniflərdə şifahi hesablama üsulları və onların təlim prosesində tətbiqi	135
Cabir Tarıverdiyev	İbtidai siniflərin riyaziyyat dərslərində interaktiv təlim metodlarından istifadənin xüsusiyyətləri	139
Növrəstə Bayramova	İbtidai siniflərin riyaziyyat dərsliklərində problemlər və onların metodik tədqiqatlarda qoyuluşu	143
Qumru İsmayılova	Riyaziyyat dərslərinin təşkili formaları	146

Azadə Şirəliyeva	Riyaziyyat təlimində müqayisə metodunun öyrənilməsi və tətbiqinə dair	149
Dəstəgül Zeynalova	Riyaziyyat dərslərində problemli təlim metodunun tətbiqi imkanları	152
Sevil Muradova	Məktəb riyaziyyat kursunda ibtidai funksiya anlayışının daxil edilməsi	156
Əzimə Məlikova	Fırlanma cisimlərinin təsviri və müstəvi kəsiyinin qurulması haqqında	159
Jalə Abdullayeva	Metodik ədəbiyyatda məsələ həlli anlayışına yanaşmalar	163
Könül Əsədova	Məktəb riyaziyyat kursunda tənliklərin tədrisi	166
Mirvari Rüstəmova	Məktəb riyaziyyat kursunda vektorların hasilinə dair biliklərin mənimsənilməsi yolları	169
Bəsti Məmmədova	Xətti bərabərsizliklər sisteminin həlli metodikası	173
	XARİCİ DİLLƏRİN TƏDRİSİ METODİKASI	
Rəbiyə Qəniyeva	İdrak marağı ingilis dilinin öyrənilməsinin vacib şərti kimi	175
Ülviyyə Mehdiyeva	İbtidai siniflərdə ingilis dili təliminin praktik məsələləri	179
	KİMYANIN TƏDRİSİ METODİKASI	
Əyyub Əzizov, Kamil Haqverdiyev, Aygül Məmmədli	Karbon turşularının akmeo-pedaqoji üsullarla tədrisi	182
Qaliya Aziyeva	Kimya fənninin tədrisi və qiymətləndirilməsi ilə bağlı məsələlər	186
	FİZİKANIN TƏDRİSİ METODİKASI	
Gülbəniz Valehova	Fizika dərslərində səriştəliliyin formalaşdırılması təcrübəsindən	190
	BİOLOGİYANIN TƏDRİSİ METODİKASI	
Qəzənfər Əliyev	"Birhüceyrəli heyvanlar" mövzularının öyrənilməsi yolları	195
Gülşən Hacıyeva	Biologiya müəllimi hazırlığında ali pedaqoji məktəblərdə biologiyanın tədrisi metodikası fənninin rolu	199
	TARİXİN TƏDRİSİ METODİKASI	
Şöhrət Namazova	Azərbaycanda milli ideyanın inkişafında ilkin mərhələ (1828-1875-ci illər)	202
Aygün Cəfərova	Fəal təlim metodlarından istifadə tarixin təlimi keyfiyyətini yüksəldən vasitəsi kimi	208

Həddiqə Mayılova	Tarixin tədrisi prosesində Blum taksonomiyasının tətbiqi - şagirdlərdə zəruri bacarıqların formalaşdırılması vasitəsi kimi	211
Gülnar İmanova	Azərbaycan tarixi dərslərində elm, təhsil və mədəniyyətə aid mövzuların tədrisi şagirdlərin estetik tərbiyəsi vasitəsi kimi: problemin işlənmə səviyyəsi	214
	MUSİQİNİN TƏDRİSİ METODİKASI	
Rəhimə Cəlilova, Mərhəmət Quliyeva	Alplogo musiqi informasiyasının redaktə edilməsi metodikası	217
	HƏYAT BİLGİSİNİN TƏDRİSİ METODİKASI	
Sevinc Vəliyeva	II sinifdə həyat bilgisi fənninin tədrisində şagirdlərdə təbiətə həssas və qayğıkeş münasibətin formalaşdırılması	220
	İNFORMATİKANIN TƏDRİSİ METODİKASI	
Roza Məmmədzadə	İnformatika kursunun mənimsənilməsi nəticələrinə verilən tələblər və şagird nailiyyətlərinin təhlili	226
	PSİXOLOGİYA VƏ KORREKSİYA PEDAQOGİKASI	
Nailə Hüseynova	Rinolaliya zamanı diafraqmal nitq tənəffüsünün formalaşdırılması üçün didaktik material	230
Gülnarə Əlixanova	Yeniyetmələrin temperament tipində yaş xüsusiyyətləri və fərdi üslubun nəzərə alınması	235
Telli Cabbarova	Şəxsiyyətin özünüdərki prosesində koqnitiv və emosional amillərin qarşılıqlı təsiri	239
	İNFORMASİYA KOMMUNİKASİYA TEXNOLOGİYALARININ TƏHSİLƏ TƏTBİQİ	
Səid Həmidov, Xumar Calalova	Multimediya texnologiyalarının köməyi ilə tədris prosesinin təşkili	244
Leyla Mustafazadə	İnternetin informasiya resursları və təhsildə tətbiq imkanları	247
	MÜƏLLİMİN ÖZÜNÜTƏHSİLİ	
Seyidəli Məmmədli	Azərbaycan Xalq Cümhuriyyəti və dövlət dili	250

ОГЛАВЛЕНИЕ

ОТ ГЛАВНОГО РЕДАКТОРА

Акиф Аббасов	Требование современного мира и нового педагогического мышления: подготовка обучающихся к самостоятельной семейной жизни	15

ОБЩЕПЕДАГОГИЧЕСКИЕ ПРОБЛЕМЫ

Абульфат Пеленгов, Гюнель Шамильзаде	Принципы применения традиционных и современных методов обучения в единстве	22
Севиндж Алиева	Методологические аспекты спорного понятия в педагогической науке	27
Егяна Аскерова	Влияние семьи и школы на формирование учащихся как личности	34
Нахида Ахмедова	Качественное образование является правом каждого гражданина Азербайджана	38
Шахла Алекперова	Влияние педагогической деятельности учителя на качество образования	41

ВОПРОСЫ ПОВЫШЕНИЯ КАЧЕСТВА ОБРАЗОВАНИЯ И УПРАВЛЕНИЯ

Фиреддун Ибрагимов, Хураман Гамидова	О некоторых аспектах управления качеством общего образования	44
Вусала Алиева	Роль образования в развитии человеческого капитала	51
Фируза Абдуллаева	Оценивание качества образования	56

ИСТОРИЯ ШКОЛЫ И ПЕДАГОГИЧЕСКОЙ МЫСЛИ

Эмиля Гусейнова	Жизнь и деятельность Мустафы Кемаль Ататюрка как источник формирования активной гражданской позиции у старшеклассников	59
Ирада Амиралиева	Просветительские идеи Аббас Саххата	63
Сабина Гаджиева	Педагогическая концепция французского философа, писателя и мыслителя Жан Жака Руссо	67

ВОПРОСЫ ВОСПИТАНИЯ

Талыб Пашаев, Эйваз Мамедов	Факторы, обуславливающие патриотическое воспитание учеников и студентов	72
Миргасан Эминов	Формы воспитания граждан с использованием воспитательных возможностей личностно-ориентировочного образования в кружках и на любительских курсах	76

Земфира Салимова	Развитие моральных чувств у молодого поколения	81
Айфер Шакирли	Вопросы экологического воспитания учащихся во время внеурочных и внешкольных мероприятий	84

МЕТОДИКА: ОБЩИЕ ВОПРОСЫ ПРЕПОДАВАНИЯ ПРЕДМЕТОВ

Гурбан Алиев, Чинара Гусейнова	Развивающее обучение и его функции	87
Ирана Мамедова	Основные направления развития инновационных процессов в начальных классах	90

МЕТОДИКА ПРЕПОДАВАНИЯ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА

Мая Касумова	Работы по развитию речи в начальной школе в процессе преподавания фонетики	95
Самира Гасанова	Роль работ над трудными словами в развитии письменных умений учеников с орфографически-орфоэпической точки зрения	100
Самра Байрамова	Семейное воспитание в учебниках родного языка (вторая половина XIX века - начало XX века)	104

МЕТОДИКА ПРЕПОДАВАНИЯ МАТЕМАТИКИ

Сархан Фейзиев, Расим Шукюров	Внутрипредметная преемственность и внутрипредметные рекурсивные связи как показатели качества мыслительного процесса в условиях развивающего обучения	111
Ровшан Гумбаталиев, Гюлара Бабаева	Алгоритмическая деятельность и основные этапы его формирования	118
Тинатин Алиева, Парвана Мустафаева	Об изучении геометрических величин на плоскости	121
Мафтун Гейдарова	Требования, предъявляемые в учебнике математики IV класса к математической подготовке учащихся и содержанию обучения	124
Мубариз Асадов, Сабина Гумбатли	Обучение решения математических задач в начальных классах	128
Фирида Мустафаева	Развивающие задания и их роль и значение на уроках математики в начальных классах	131
Заман Мамедов	Способы устного вычисления в начальных классах и методы их применения	135
Джабир Таривердев	Особенности использования интерактивных методов обучения на уроках математики в начальных классах	139
Новраста Байрамова	Проблемы, возникающие в учебниках по математике в начальных классах и их постановка в методических исследованиях	143

Гумру Исмаилова	Формы организации уроков математики	146
Азада Ширалиева	Об изучении и применении метода сравнения при преподавании математики	149
Дастагюль Зейналова	Возможности использования проблемного метода обучения на уроках математики	152
Севиль Мурадова	Ведение элементарной функциональной концепции в школьный курс математики	156
Азима Маликова	Описание о вращении тел и о строении усеченной плоскости	159
Жаля Абдуллаева	Подходы к понятию решения задач в методической литературе	163
Кёнул Асадова	Преподавание уравнений на школьном курсе математики	166
Мирвари Рустамова	Пути усвоения знаний о векторных понятиях на школьном курсе математики	169
Басти Мамедова	Метод решения системы линейных неравенств	173

МЕТОДИКА ПРЕПОДАВАНИЯ ИНОСТРАННЫХ ЯЗЫКОВ

Рабия Ганиева	Познавательный интерес - важное условие изучения английского языка	175
Ульвия Мехтиева	Практические вопросы преподавания английского языка в начальных классах	179

МЕТОДИКА ПРЕПОДАВАНИЯ ХИМИИ

Эйюб Азизов, Камиль Ахвердиев, Айгюль Маммадли	Преподавание углеродных кислот акмео-педагогическим способом	182
Галия Азиева	Вопросы, связанные с преподаванием и оцениванием предмета химии	186

МЕТОДИКА ПРЕПОДАВАНИЯ ФИЗИКИ

Гюльбениз Валехова	Из опыта формирования компетентности на уроках физики	190

МЕТОДИКА ПРЕПОДАВАНИЯ БИОЛОГИИ

Газанфар Алиев	Пути изучения темы «одноклеточные животные»	195
Гюльшан Гаджиева	Роль методики преподавания предмета биологии при подготовке учителей биологии в высших педагогических школах	199

МЕТОДИКА ПРЕПОДАВАНИЯ ИСТОРИИ

Шохрат Намазова	Начальный этап развития национальной идеи в Азербайджане (1828-1875 годы)	202

Айгюн Джафарова	Использование активных методов обучения как средство повышения качества преподавания истории	208
Хадига Майылова	Применения таксономии Блума как средство формирования необходимых навыков в процессе преподавания истории	211
Гульнар Иманова	Преподавание на уроках истории Азербайджана тем о науке, образовании и культуре как средство формирования эстетического воспитания учащихся: уровень разработки проблемы	214

МЕТОДИКА ПРЕПОДАВАНИЯ МУЗЫКИ

Рахима Джалилова, Мархамат Гулиева	Методика редактирования музыкальной информации в alplogo	217

МЕТОДИКА ПРЕПОДАВАНИЯ ПОЗНАНИЯ МИРА

Севиндж Велиева	Формирование бережливого отношения к природе у учеников второго класса на уроках познания мира	220

МЕТОДИКА ПРЕПОДАВАНИЯ ИНФОРМАТИКИ

Роза Мамедзаде	Требования предъявляемые к результатом усвоение курса информатики и анализ достижений учащихся	226

ПСИХОЛОГИЯ И КОРРЕКЦИОННАЯ ПЕДАГОГИКА

Наиля Гусейнова	Дидактический материал по формированию диафрагмального речевого дыхания при ринолалии	230
Гюльнара Алиханова	Возрастные характеристики подростков по типу темперамента и с учетом индивидуального стиля	235
Телли Джаббарова	Взаимодействие эмоциональных и когнитивних факторов в процессе самопознания личности	239

ПРИМЕНЕНИЕ ИНФОРМАЦИОННО-КОММУНИКАЦИОННЫХ ТЕХНОЛОГИЙ В ОБРАЗОВАНИИ

Саид Гамидов, Хумар Джалалова	Организация образовательного процесса посредством мультимедийных технологий	244
Лейла Мустафазаде	Информационные ресурсы интернета и их применение в учебном процессе	247

САМООБРАЗОВАНИЕ УЧИТЕЛЯ

Сеидали Маммадли	Азербайджанская демократическая республика и государственный язык	250

CONTENTS

FROM EDITOR IN CHIEF

Akif Abbasov	The requirement of the modern world and new pedagogical thinking: preparing students for independent family life	15

GENERAL PROBLEMS OF PEDAGOGICAL

Abulfate Pelengov, Gunel Shamilzade	Principles of application of traditional and modern methods of training in the unity	22
Nahida Ahmedova	Quality education is the right of every Azerbaijani citizen	27
Sevindj Alieva	Methodological aspects of the controversial concept in pedagogical science	34
Yegana Askarova	Influence of family and school on formation of pupils as personality	38
Shahla Alakparova	Impact of teacher's pedagogical activity on the quality of education	41

PROBLEMS OF IMPROVEMENT OF QUALITY OF EDUCATION AND MANAGEMENT

Firaddin Ibrahimov, Xuraman Hamidova	About the aspects of controlling of the quality of total education	44
Vusala Aliyeva	Role of educatıon ın development of human capıtal	51
Firuza Abdullayeva	Evaluation of quality of education	56

HISTORY OF SCHOOL AND PEDAGOGICAL THOUGHT

Emilya Huseynova	Life and activity of Mustafes Kemal Ataturk as a source of formation of active civil position at senior pupils	59
İrada Amiraliyeva	Abbas Sahhat’s enlightenment ideas	63
Sabina Hajiyeva	The pedagogical concept of the french philosopher, writer and thinker Jean-Jacques Rousseau	67

PROBLEMS OF UPBRİNGİNG

Talyb Pashaev, Aivaz Mamedov	Factors affiliating of pupils’ and students’ patriotic upbringing	72
Mirqasan Eminov	Forms of citizens’ upbringing by using educational opportunities of person-oriented education in curiosity courses	76
Zemfira Salimova	Developing moral feelings in the younger generatıon	81
Ayfar Shakirli	Theoretical issues of ecological education of students in extracurricular activites	84

METHODICS: GENERAL ISSUES OF TEACHING OBJECTS

Gurban Aliyev, Chinara Huseynova	Developing training and its functions	87
Irana Mamedova	Basic areas of development of innovative processes in the primary grades	90

METHODICS TEACHING OF THE AZERBAIJAN LANGUAGE

Maya Gasimova	Works on the development of speech in the teaching process of phonetics at primary school	95
Samira Hasanova	The role of working on difficult words from the orthographic-orphoepic point of view in the development of pupils' writing skills	100
Samra Bayramova	Family upbringing in native language textbooks (the second half of the XIX century – the beginning of the XX century)	104

METHODICS OF TEACHING MATHEMATICS

Sarkhan Feyziev, Rasim Shukurov	Interdisciplinary continuity and interdisciplinary recursive relations as the qualitative characteristics of the flexibility of the thinking process	111
Rovshan Humbataliyev, Gulara Babayeva	Algorithmic activity and main steps for formation of algorithmic activity	118
Tinatin Aliyeva, Parvana Mustafayeva	About studying geometric quantities on the plane	121
Meftun Haydarova	Requirements to be taken in the textbook of mathematics class IV for the mathematical training of pupils and the training content	124
Mubariz Asadov, Sabina Humbatli.	Teaching solutions of mathematical tasks in primary grades	128
Firida Mustafayeva	Developing tasks and their role and value at the lessons of mathematics in the primary grades	131
Zaman Mammadov	Methods of application and their application in the process of training in elementary school	135
Jabir Tariverdiyev	The features of using interactive teaching methods in maths classes of elementary grades	139
Novrasta Bayramova	Problems arising in textbooks of mathematics of primary classes and statement of these problems in the methodological tools	143
Gumru İsmailova	Forms of math classes	146
Azade Shiraliyeva	Learning and applying warranty methods in radiation training	149

Dastagul Zeynalova	Learning mathematical methods in mathematics	152
Sevil Muradova	Introducing elementary functional concept in school mathematics course	156
Azima Malikova	About the description of the operating institutions and the creation of upgrade goods	159
Jala Abdullayeva	Applications to solution of problems in methodical literature	163
Konul Asadova	Teaching equations in school mathematics course	166
Mirvari Rustamova	Ways to master the knowledge on the production of vectors in school mathematics	169
Basti Mammadova	Method for solving a system of linear ınequalities	173
	METHODICS OF TEACHING FOREIGN LANGUAGES	
Rabiya Qaniyeva	Cognitive interest is an important condition for learning english	175
Ulviyya Mehdiyeva	Practical aspects of teaching english in primary classes	179
	METHODICS OF TEACHING CHEMISTRY	
Kamil Hagverdiyev, Eyyub Azizov, Aygul Mammadli	Akmeology pedagogy teaching of carbon acids	182
Galiya Aziyeva	Issues related to the teaching and evaluation of chemistry	186
	METHODICS OF TEACHING PHYSICS	
Gulbeniz Valehova	From the experience of formation of competence in physics lessons	190
	METHODICS OF TEACHING BIOLOGY	
Gazanfar Aliyev	Ways of studying the subject of "single-cell animals"	195
Gulshan Hajiyeva	The role of the methodology of teachinq biology in hiqher pedaqoqical schools in the preparation of secondar school bioloqy teacher	199
	METHODICS OF TEACHING HISTORY	
Shohret Namazova	The first stages of the national ideas in Azerbayjan	202
Aygun Jafarova	Use of active learning methods to improve the quality of teaching in history teaching	208
Khadigha Mayilova	The role and signıfıcance of the application of blum taxonomy in history teaching skills of students	211

Gulnar Imanova	Development of a problem of formation of aesthetic upbringing in pupils in the subjects of science, education, culture in the historical lessons of Azerbaijan	214

METHODICS OF TEACHING MUSIC

Rahima Jalilova, Marhamat Guliyeva	Methodology for editing music information in alplogo	217

METHODICS OF TEACHING THE KNOWLEDGE OF PEACE

Sevinj Valiyeva	Formation of sensitise and careful attitude to nature on pupils ın teaching II form life science subject	220

METHODICS OF TEACHING INFORMATICS

Rosa Mamedzade	Requirements for the results of the informatics course and analysis of student achievements	226

PSYCHOLOGY AND CORRECTIONAL PEDAGOGY

Nailya Quseynova	Teaching material on the formation of diaphragmatic speech breathing during rhinolalia	230
Gulnara Alikhanova	Age characteristics of teens in temperament type and taking into account the individual style	235
Telli Jabbarova	İnteraction of emotional and cognitive factors in the process of self-knowledge of personality	239

APPLICATION OF INFORMATION AND COMMUNICATION TECHNOLOGIES IN EDUCATION

Said Hamidov, Xumar Calalova	Organization of educational process through multimedia technologies	244
Leyla Mustafazade	Information resources of the internet and their application in the educational process	247

TEACHER'S SELF-EDUCATION

Seidali Mammadli	The democratic republic of Azerbaijan and the state language	250

BAŞ REDAKTORDAN

UOT 37.

Akif Nurağa oğlu Abbasov
pedaqogika üzrə elmlər doktoru, professor,
respublikanın Əməkdar müəllimi

MÜASİR DÖVRÜN VƏ YENİ PEDAQOJİ TƏFƏKKÜRÜN TƏLƏBİ: TƏHSİLALANLARI MÜSTƏQİL AİLƏ HƏYATINA HAZIRLAMAQ

Акиф Нурага оглу Аббасов
доктор наук по педагогике, профессор, Заслуженный учитель республики

ТРЕБОВАНИЕ СОВРЕМЕННОГО МИРА И НОВОГО ПЕДАГОГИЧЕСКОГО МЫШЛЕНИЯ: ПОДГОТОВКА ОБУЧАЮЩИХСЯ К САМОСТОЯТЕЛЬНОЙ СЕМЕЙНОЙ ЖИЗНИ

Akif Nuragha Abbasov
doctor of pedagogical sciences, professor, Honored teacher of the republic

THE REQUIREMENT OF THE MODERN WORLD AND NEW PEDAGOGICAL THINKING: PREPARING STUDENTS FOR INDEPENDENT FAMILY LIFE

Açar sözlər: *müasir dövr, pedaqoji təfəkkür, yeni pedaqoji təfəkkür, ailə həyatı, müstəqil ailə həyatı, ailə həyatına hazırlamaq*

Ключевые слова*: новый мир, педагогическое мышление новое педагогическое мышление, семейная жизнь, самостоятельная семейная жизнь, подготовка к семейной жизни*

Keywords: *new world, pedagogical thinking, new pedagogical thinking, family life, independent family life, preparation for family life*

Hazırda ailənin, təhsil müəssisələrinin qarşısında bir çox vəzifələr dayanır. Həmin vəzifələr sırasında yeniyetmə və gənclərin məhəbbət, nikah və ailə münasibətlərinə sistemli, məqsədyönlü və fasiləsiz şəkildə hazırlamaq vəzifəsi özünəməxsus yer tutur. Bir sıra ailələr, bəzi valideynlər, ümumiyyətlə, şagirdlərlə məhəbbət mövzusunda söhbətlərin aparılmasının əleyhinədirlər. onlar belə bir fikri əsas götürürlər ki, məhəbbət, sevənlərin davranış mədəniyyəti, cinsi tərbiyə, nikah məsələləri ilə bağlı söhbətlərin aparılması, məsləhətlərin verilməsi vaxtından əvvəl şagirdlərdə məhəbbət hissləri yaradar, əks cinsə maraq oyadar, oğlanların və qızların qarşılıqlı münasibətlərində xoşagəlməz hallar baş verə bilər və s.

Məktəbdə vaxtilə "Ailə həyatının etika və psixologiyası" fənni tədris olunurdu. Sovet hakimiyyəti çökə-çökdə SSRİ Maarif nazirliyi həmin fənni də tədris planlından çıxardı. Deməli, təhsil ocağında da təhsilalanları müstəqil ailə həyatına və gələcək övladlarının tərbiyəsi işinə hazırlamaq sahəsində məqsədyönlü və planlı iş lazımı səviyyədə aparılmır. Məhəbbət, nikah, ailə problemlərini özündə birləşdirən xüsusi fənn yoxdur, ayrı-ayrı fənlərin imkanlarına müraciət olunur. Bu imkanlardan faydalanmaq da müəllimlərin həvəsindən və ustalığından asılıdır.

Ümumtəhsil məktəblərində əsasən ədəbiyyat, Azərbaycan tarixi, Həyat bilgisi, biologiya və s. fənlərinin tədrisi prosesində təhsilalanları müstəqil ailə həyatına və gələcək övladlarının tərbiyəsi işinə hazırlamaq məsələsi diqqət mərkəzində saxlanıla bilər.

Ali məktəblərdə pedaqojiyönlü fakültələrdə də ədəbiyyat, Azərbaycan tarixi, pedaqogika, psixologiya fənlərinin imkanlarından faydalanmaq mümkündür.

Ailələrdə uşaqları ailə həyatına, nikah və ailə münasibətlərinə hazırlamaq ata-anaların, baba-nənələrin ümdə vəzifəsidir.

Yeniyetmə və gənclərin vaxtında müstəqil ailə həyatına səmərəli şəkildə hazırlanmamaları bir sıra hallarda acı nəticələr verir. Müstəqil ailə həyatına hazır olmayan gənclər evlənərkən problemlərlə qarşılaşırlar, qarşılarına çıxan çətinliklərini öhdəsindən gələ bilmirlər, ailə ixtilafları, söz-söhbət baş qaldırır. Bir sıra hallarda boşanma zərurətə çevrilir.

Ölkəmizdə ailələrin əksəriyyəti uğurludur. Bu ailələrdə müsbət mənəvi və psixoloji atmosfer hökm sürür. Lakin uğursuz ailələr də mövcuddur ki, onlar ər-arvadın özləri, onların valideynləri, uşaqları və cəmiyyətimizin özü üçün problemlər yaradır. Respublikamızda boşanmaların sayı artır. Boşanma uğursuz nikahın, möhkəm olmayan ailənin nəticəsi kimi meydana gəlir.

Boşanma mürəkkəb sosial hadisədir. O öz mənbəyini ailə ixtilaflarından alır. Ailə ixtilafları isə ər-arvad münasibətlərinin düzgün qurulmaması nəticəsində baş verir. Ona görə də boşanmanın səbəblərini aydınlaşdırmaq üçün, hər şeydən əvvəl ər-arvad münasibətlərində özünü büruzə verən nöqsanları aşkara çıxarmaq lazımdır.

İxtilaflar ər-arvad həyatının dramını ifadə edir, lakin o, ailə faciəsinə çevrilməməlidir. Bunun üçün ailə mədəniyyətinin tələbləri gözlənilməlidir. Onlardan ən sadələri aşağıdakılardır: vuruşub barışmaqdansa, artıq-əskik danışıb birbirini təhqir etməkdənsə münaqişəyə başlamamaq daha asandır.

Ər-arvad ixtilafın yaranmasına, imkan daxilində, yol verməməlidir.

Həllindən asılı olaraq ailədə baş qaldıran münaqişələri iki tipə bölmək mümkündür:

1. *Yaradıcı* – a) bir-birinə münasibətdə dözüm, səbir, təmkin nümayiş etdirmək. Hövsələli olmaq, yersiz tənqiddə, təhqirlərə, insan şəxsiyyətini alçaldan tənələr yol verməmək; b) münaqişələrin meydana gəlməsi səbəbləri barədə fikirləşmək; ixtilaflardan yaxa qurtarmaq üçün bir-birinə sarı addım atmaq, yaranmış vəziyyəti dəyişməyə, aradan qaldırmağa çalışmaq.

Nəticə: ər-arvad arasında xeyirxah münasibətlər yaranır, ünsiyyət daha konstruktiv olur.

II. *Dağıdıcı* – özündə yersiz tənqidləri, təhqirləri, hədələri, alçaltmaları, vəziyyətdən çıxış yolunu axtarıb tapmaq əvəzinə deyinmələrə, öyüd-nəsihət verməyə, qınamaya uymağı nəzərdə tutur.

Nəticə: qarşılıqlı hörmət yoxa çıxır, birbiri ilə ünsiyyət vəzifəyə, bir çox hallarda xoşagəlməz vəzifəyə çevrilir.

Bu, bir həqiqətdir ki, dağıdıcı münaqişələr çox zaman qadınların ucbatından baş qaldırır. Kişilərlə müqayisədə, onlar "qəsdən", "qisas almaq üçün", "boynuna qoymaq üçün", "dilini qısaltmaq" səbəbindən buna çalışırlar. Kişilər çox vaxt ixtilafı yaradıcı yolla istiqamətləndirməyə, yəni vəziyyətdən çıxış yolu tapmağa səy göstərirlər.

Ər-arvadın mübahisəsini, dava-dalaşını özünəməxsus döyüşə bənzədən sosioloqlar çox düzgün olaraq qeyd edirlər ki, bu döyüşdə qalib yoxdur, ola da bilməz, yalnız məğlub olan vardır. Onlar dalaşa-dalaşa qohumların, qonşuların, valideynlərinin, ən başlıcası, uşaqlarının yanında hörmətdən və nüfuzdan düşürlər. Bu, o deməkdir ki, ər də, arvad da mənəvi cəhətdən məğlubiyyətə uğrayırlar.

İxtilaflar dağıdıcı olur. Ailədə baş qaldırmış hər söz-söhbət, dava-dalaş boşanma ilə nəticələnmir. Ər-arvad ailədə yaranmış münaqişəli vəziyyətdən hörmət və izzətlə çıxmağa çalışmalı, ölçü hissinə əməl etməlidirlər. Vəziyyətdən ən yaxşı çıxış yolu ər və arvadın eyni vaxtda və qarşılıqlı surətdə özünün haqsız olduğunu etiraf etməsidir.

Boşanmanın səbəbləri müxtəlifdir. Əslində hər bir boşanmanın öz psixologiyası vardı. Bəzən oğlanlara və qızlara elə gəlir ki, ailə qurmaq çox asan və sadə işdir: qəlbinə yatan oğlanı (qızı) seçirsən, evlənirsən, daha bunu nə üçün problemə döndəriblər? Diplom alanda iş yerində, ərə gedəndə evdə hər şey qaydasına düşəcək. Gənclər məhz belə fikirləşirlər.

Lakin bir də görürsən ahəngdarlıq nə işdə, nə də evdə alınır. Xoşumuza gəlmədikdə iş yerini dəyişirik, mebeli bəyənmədikdə başqasını alırıq. Mənzili də dəyişmək mümkündür. Lakin atanın yersiz ciddiliyi, sərtliyi, kobudluğu, vasvasılığı; ananın hövsələsizliyi, deyingənliyi nə qədər həddini aşsa da, öz valideynlərini dəyişmək heç kimin ağlına gəlmir. Çünki dünyaya göz açmağımız üçün başqa heç kimə yox, məhz onlara – bu iki nəfərə borcluyuq. Onları dəyişə bilmərik və bu iki nəfər bir-biri ilə yola getməsələr də, bizə

qarşı münasibətdə nə qədər sərt (hətta bəzən ədalətsiz) olsalar da, onları SEVİRİK.

Bəs ər və arvad? Burada bizim iddiamız dərhal prinsip səviyyəsinə çatır. Ona görə də baş qaldırmış problemi yoluna qoymaq çətin olur.

Ailə həyatına hazırlığın lazımi səviyyədə olmaması ailələrin dağılmasına şərait yaradır. Mənbələrlə tanışlıqdan görünür ki, respublikamızda "biruşaqlı ailələrdə boşanma halları 71 faiz, iki və daha çox uşağı olan ailələrdə 38 faiz artıb. ... 1990-cı ildə ölkədə 14 040 boşanma halı qeydə alındığı halda, 1995-ci ildə bu rəqəm 2 dəfədən çox azalaraq 5 669-a enib. 2017-ci ildə isə boşananların sayı yenidən 14 514-ə çatıb ki, bu da 1990-2017-ci illər ərzində qeydə alınan ən yüksək göstəricidir. 2018-ci ilin yalnız yanvar-oktyabr aylarında qeydə alınmış boşanma hallarının sayı 12. 396 təşkil edib. ...1990-cı illə müqayisədə 2017-ci ildə, yəni 27 il ərzində (2018-ci il istisna olmaqla) bir uşağı olan ailələrdə boşanma halları 70,95 faiz, 2 və daha çox uşağı olan ailələrdə boşanma halları 38,25 faiz artıb. 1990-cı ildə boşananların 8 853 nəfəri uşağı olmayan, 2 045-i bir uşağı olan, 3 142-i iki və daha çox uşağı olanlar olduğu halda, 2017-ci ildə boşananların 6 444 nəfəri uşağı olmayan, 3 946 nəfəri bir uşağı olan, 4 124 nəfəri iki və daha çox uşağı olan şəxslər olub. 2017-ci illdə boşanma nəticəsində valideynlərin biri ilə qalmış uşaqların sayı 13 110 olub ki, bu da hər 100 boşanmaya 162 uşağın düşməsi deməkdir. 2017-ci ildə boşanma halları ən çox 30-34 (3 568) 30-34 yaşlı kişilər, 25-29 yaşlı qadınlar (3 803) arasında baş verib" (2).

Möhkəm, sabit və xoşbəxt ailə gənclərin ailə həyatına uğurla, sistemli, məqsədyönlü və fasiləsiz hazırlanmaları şəraitində yarana bilər.

Ailə həyatına hazırlıq anlayışı sosial-mənəvi, psixoloji, pedaqoji, sosial vətəndaşlıq, təsərrüfat-iqtisadi, tibbi və fizioloji-gigiyenik hazırlığı əhatə edir.

Ailə həyatına sosial-mənəvi hazırlıq vətəndaşlıq yetkinliyi (yaş, tam orta təhsil, peşə, mənəvi şüurun səviyyəsi), iqtisadi müstəqillik və sağlamlıq kimi mühüm məsələləri özündə birləşdirir.

Vaxtında nikah ittifaqına girmək ər-arvad arasındakı münasibətlərin səmərəliliyinə son dərəcə müsbət təsir göstərir. Respublikamızda kişi və qadınlar üçün nikah yaşından artıq bəhs etmişik. Qanunda nəzərdə tutulduğu kimi, ailəni qızlar da, oğlanlar da 18 yaşında yarada bilərlər, lakin tibbi baxımdan nikah bağlamaq üçün ən münasib yaş qızlar üçün 20-22, oğlanlar üçün 23-28 yaşdır (bu, kişi orqanizminin tam yetkinliyə gec çatması ilə əlaqədardır).

Mənbələrin məlumatlarına əsasən deyə bilərik ki, uğurlu ailələrdə qadınların yalnız 43 %-i, uğursuz ailələrdə isə 69 %-i 21 yaşına qədər nikaha daxil olub. 21 yaşına qədər kişilər arasında nikahın pozulması həmin yaşda nikah bağlanma hallarından 2,2 dəfə çoxdur. Deməli, ailənin uğurlu olmasına, ər-arvadın ailə həyatına uyğunlaşmasına əlverişli şərait yaradan əsas məsələ onların yaş nisbətidir.

Ər və arvad arasında yaş fərqi. Bu məsələdən söz düşəndə müasir gənclər bəzən xəbər alırlar: əgər sevirsənsə, yaşın nə fərqi var? İlk baxışda sual bəlkə də məntiqi görünür. Lakin yalnız ilk baxışda. Halbuki ailə həyatı, ər-arvad münasibətlərinin sonrakı inkişafı üçün yaşın da öz əhəmiyyəti vardır. Bu sahədə hələ qədim zamanlardan mövcud etalon və stereotiplər qadının (arvadın) yaşca kişidən (ərindən) kiçik olmasını nəzərdə tutur.

Kişilər əksər hallarda özlərindən nisbətən yaşca kiçik, qadınlar yaşca böyük kişilərlə ailə qururlar. Ərin arvaddan 5-7 yaş böyük olması ən əlverişli seçimdir. Nə üçün?

Qızlar təkcə fizioloji cəhətdən deyil, həm də psixoloji cəhətdən oğlanlara nisbətən tez yetkinləşir. Bəzi mütəxəssislərin fikrincə, 16-18 yaşlı qızlar 20-22 yaşlı oğlanları, 20 yaşlı qızlar isə bəlkə də 30 yaşlı kişilərin səviyyəsində olurlar. Burada söhbət pasport yaşından deyil, psixoloji yaşdan gedir. Mütəxəssislər belə hesab edirlər ki, kişi ilə qadının pasport yaşı eyni olduqda və ya kişi özündən yaşlı qadınla evləndikdə onların qarşılıqlı münasibətlərində tədricən müəyyən çətinliklər meydana çıxır. Onların psixoloji yaşı eyni olduqda (yəni oğlanın özündən beş-yeddi yaş kiçik qızla evləndikdə) ailə münasibətlərinin inkişafı üçün daha əlverişli şərait yaranır. Kişi özündən bir neçə yaş kiçik qadınla evləndikdə bu yaş fərqinin hesabına onların psixi yetkinlik səviyyəsi nisbətən bərabərləşir: ər və arvad bir-birini daha yaxşı başa düşür, onların qarşılıqlı münasibətlərinin inkişafında emosional amillərlə yanaşı intellektual amillər də mühüm rol oynamağa başlayır.

Əlbəttə, hər bir kişi özünün həmyaşıdı olan qadınla da xoşbəxt ailə qura bilər. Belə ailələr də az deyil. Hətta arvadın kişidən 5-8 yaş böyük olduğu ailə də xoşbəxt ola bilər.

Sosioloqların qənaətinə görə, arvadın ərdən yaşca böyük olduğu ailə çox vaxt möhkəm olmur. Yaşca ər arvaddan olmamalıdır. Məsələn. əgər ərə gedən qız 20-22 yaşındadırsa, oğlan təxminən 30 yaşında olmalıdır. Ər-arvad arasındakı yaş fərqi 8-12 ili aşmamalıdır.

Gənclərin mənəvi şüurunun səviyyəsi ailə həyatına hazırlıqda əhəmiyyətli yer tutur. Mənəvi şüurun inkişafı gənc oğlan və qızlar tərəfindən ailənin sosial dəyərinin başa düşülməsində, nikah ittifaqına ciddi münasibətdə, yaradılan ailəyə görə məsuliyyət hissində ömür-gün yoldaşını ağıllı ölçüb-biçərək seçməkdə, gələcək ərinə (arvadına), onun valideynlərinə və qohumlarına dərin hörmətdə, nəzakətli və mərifətli davranış və həssaslıqda, səmimilikdə və mehribanlıqda, qayğıkeşlik və xeyirxahlıqda, həmçinin onlarla qarşılıqlı münasibətləri, ünsiyyəti düzgün qura bilməkdə, xoş rəftarda özünü göstərir.

İkinci yerdə - qadına dostcasına münasibət onun şərəf və ləyaqətinə, mənliyinə hörmət, əməksevərlik, ailəyə, uşaqlara qayğı, səbir, hövsələ və təmkin, iradə, gözüaçıqlıq, yumor hissi, hərtərəfli təkmilləşməyə və fiziki kamilliyə və estetik gözəlliyə cəhd dayanır.

Oğlanlar ömür-gün yoldaşı kimi seçdikləri qızlarda səmimiyyət, xeyirxahlıq, fədakarlıq, xoş rəftar, nümunəvi davranış, mehribanlıq, incəlik, ər-arvadlıq borcuna sədaqətlə qadınlığın uzlaşdırılması və s. bu kimi önəmli keyfiyyətləri görmək istəyirlər. Bütün bunlarla yanaşı, seçdiyi əri ilə bir bərabərdə əmək sərf edən qızın ağlı və işgüzar ləyaqəti vacib sayılır.

Ailənin firavanlığı xeyli dərəcədə gənclərin sağlamlığından asılıdır. Sağlamlıq isə, bir gündə deyil, insanın bütün ömrü boyu qazanılır. Sağlam həyat tərzi insanın mənəvi mədəniyyətinin inkişafı, ailədaxili münasibətlərin səmərəliliyi, ətrafdakı insanlara dostcasına yanaşmaq və yüksək mənəvi münasibətlərin bərqərar olması üçün vacibdir. Bütün bunlar psixoemosional çətinliklərin və stress vəziyyətlərin asanlıqla aradan qaldırılmasına imkan verir.

Ailə həyatı qurarkən maddi vəziyyət və ayrıca mənzilə sahib olmaq da çox vacib məsələ kimi qarşıda durur. Gənclər bu barədə də düşünməlidirlər. Maddi həyat şəraitinin lazımi səviyyədə olmaması evdə söz-söhbətə, mübahisələrə səbəb olur və münaqişəli şərait yaradır. Bütün bunlarla yanaşı, kiminsə "qoltuğuna sığınan", yaxud kirayədə yaşayan ailə, ər-arvad və uşaqlar son dərəcə böyük əziyyət çəkirlər.

Mənəvi hazırlıq xeyirxahlıq, həssaslıq, düzlük, namusluluq, insanpərvərlik, sədaqət, əməksevərlik, qayğıkeşlik, güzəştə getmək bacarığı, bir-birinin sevincinə və kədərinə şərik olmaq, qarşılıqlı anlama, birinin digəri üçün fədakarlığa hazır olması, bir-biri üçün, necə deyərlər, «yanmağı» bacarmaq, bir-birinə görə ürəkdən narahatçılıq hissi keçirmək (yəni laqeyd olmamaq), ailənin, ərin (arvadın) şərəfini qorumaq, uşaqları düzgün tərbiyə etmək və s. bu kimi müsbət keyfiyyətlərin formalaşdırılmasını nəzərdə tutur.

Mənəvi istiqamətdə iş yeniyetmələr, oğlan və qızlar arasında yaxşı münasibətlərin formalaşdırılmasına imkan verir, onları dostluq və məhəbbət kimi məsələlərə düzgün baxışın tərbiyə olunmasına dair biliklərlə silahlandırır. Oğlan və qızlar ailə xoşbəxtliyinin əsasını öz məhəbbətlərini necə qorumağı bilməli, ixtilaflara, sədaqətsizliyə aparan vəziyyətlərdən yan qaçmağı bacarmalıdırlar. Mənəvi cəhətdən tərbiyəlilik - qızlıq qüruru, kişi ləyaqəti, təvazökarlıq, bir-birinin mənliyinin qorunmasına cəhd və s. bu kimi xüsusiyyətləri özündə birləşdirir.

2. Psixoloji baxımdan hazırlığın vəzifəsi yeniyetmə və gəncləri ailə həyatına və gələcək övladlarının tərbiyəsinə istiqamətləndirməkdən ötrü ailə kollektivində lazım olacaq keyfiyyətləri tərbiyə etməkdən, başqa adamların psixologiyasını anlamaq bacarığını aşılamaqdan ibarətdir. Nikah və ailənin psixoloji əsaslan; ünsiyyət vərdişlərinə yiyələnmək; yeniyetmə və gənclərin şəxsiyyətlərarası münasibətlərinin xüsusiyyətləri; ər-arvadlıq həyatı və ailə qurmaq üçün zəruri olan hisslərin inkişafi və s. haqqında biliklərlə əhatə olunmaq da bu vəzifələrə daxildir.

Ailə həyatına *psixoloji hazırlıq* – insanlarla əlverişli qarşılıqlı, ünsiyyət vərdişlərinə, ailə həyatına və ümumilikdə dünyaya baxışların vəhdəti və yaxud uyğunluğu, ailədə sağlam mənəvi-psixoloji iqlimi bərqərar etmək bacarığı, xarakter və hisslərin sabitliyi, iradı keyfiyyətlərin inkişafı deməkdir. Oğlan və qızın böyüyüb

boya-başa çatdığı ailənin atmosferindən gələcək ailənin taleyinin necə olacağı, onun uğurlu və xoşbəxt, yaxud uğursuz və bədbəxt olacağı, çoxsaylı problemlərlə və çətinliklərlə üzləşəcəyi, ailənin dağılacağı və s. xeyli dərəcədə asılıdır.

Ailədə sağlam psixoloji iqlimin qaydaya salınması, ailə üzvlərinin hərəkətlərinin qiymətləndirilməsində ədalətli, təmkinli və səbirli olmaq, ərə (arvada), yaşlı nəslin nümayəndələrinə və digər şəxslərə dərin hörmət bəsləmək, onlarla ünsiyyətdə həssaslıq və mərifət göstərmək və s. də psixoloji hazırlığın vəzifələrindəndir,

3. Ailə həyatına *pedaqoji hazırlıq* ailə tərbiyəsinin pedaqogikası üzrə biliklərin əsaslarım verir, pedaqoji savadı, təsərrüfat-iqtisad bacarıq və vərdişləri, seksual tərbiyəliliyi nəzərdə tutur. Gələcək ata-analar ailədə uşaqların tərbiyə olunması xüsusiyyətləri, uşaqların inkişafi qanunauyğunluqları ilə tanış edilir, ailə tərbiyəsində yol verilən nöqsanların səbəbləri və onların aradan qaldırılmasının səmərəli yolları aydınlaşdırılır. Pedaqoji istiqamət gələcək valideynləri ailə tərbiyəsinin məqsədi və vəzifələrinə, tərbiyənin prinsiplərinə və metodlarına, təşkili formalarına dair biliklərə və praktik bacarıqlara, körpəyə qulluq üzrə vərdişlərə yiyələnmələrini vacib hesab edir.

4. *Sosial-vətəndaşlıq baxımdan hazırlığın* qarşısında dayanan əsas vəzifə gənclərə ailənin sosial mahiyyətini, ailə ittifaqının bağlanmasının və onun möhkəmləndirilməsinin ictimai əhəmiyyətini aydınlaşdırmaqdan, oğlan və qızları "vətəndaş" və "ailə sahibi" anlayışlarına dair zəruri təsəvvürlərə yiyələndirməkdən, onlarda mənəvi inamın və əqidənin yaradılma-sından ibarətdir.

5. *Hüquqi istiqamətin* vəzifəsi gənc nəsli nikaha və ailəyə dair zəruri hüquqi biliklərlə silahlandırmaq, onları ailə hüququ məsələləri ilə tanış etməkdir. Məktəblilərə aydın olmalıdır ki, ailə cəmiyyətin ilkin özəyidir və dövlət ailənin, ər-arvadın, valideynlərin və uşaqların hər birinin mənafeyi keşiyində durur. Bunun üçün də gənclər ailə qanunvericiliyinin əsasları ilə, o cümlədən valideynlərin və uşaqların, ər-arvadın hüquq və vəzifələri, nikah və ailə münasibətlərini tənzimləyən hüquq normalan ilə tanış olmalı, ailənin yaranması və mühafizəsi üçün məsuliyyət hiss etməlidirlər.

Azərbaycan Respublikasının Konstitusiyasının və "Ailə Məcəlləsi"nin, həmçinin "Cinayət Məcəlləsi"nin müvafiq maddələri və bəndləri üzrə yeniyetmə və gənclərlə ailədə və məktəbdə maariflənmə işləri aparılmalıdır.

Yeniyetmə və gənclər bilməlidirlər ki, nikah ailənin hüquqi əsasıdır.

6. *Təsərrüfat-iqtisadi istiqamət.* Gənclər ev işlərində zəruri sayılan iqtisadi və təsərrüfat bacarıq və vərdişlərinə yiyələnməlidirlər, qızlar (qadınlar) evdarlıq işlərini, evdəki səliqə-sahmanı əmrə, buyruğa görə deyil, maraq və sevgi ilə, daxildən gələn təhriklə görməlidirlər. Onlar yadda saxlamalıdırlar ki, evdarlıq səriştəsinə malik olan şəxslər həmişə ailə üzvləri tərəfindən sevilirlər. Onlar həm də təsərrüfat işlərində ailənin bütün üzvlərinin bərabər surətdə iştirakını təmin etməyə, asudə vaxtın təşkilinə, ailənin büdcəsinə, məişət mədəniyyətinə və s. dair biliklərə malik olmalıdırlar.

Ailə həyatına hazırlıqda təsərrüfat-iqtisadi bacarıq və vərdişlər dedikdə, ailə büdcəsini planlaşdırmaq, bölüşdürmək və ondan səmərəli faydalanmaq, məişəti və asudə vaxtı məq-sədəuyğun şəkildə təşkil etmək, ailədə rahatlıq yaratmaq bacarığı anlaşılır.

Tibbi istiqamət uşağın doğulması, alkoqolun, zöhrəvi xəstəliklərin, siqaret çəkməyin nəslə zərərli təsiri və s. dair biliklərin verilməsini nəzərdə tutur. Ər-arvad bir-birinin, valideyn kimi övladlarının, ailənin digər üzvlərinin, sağlamlıqlarının möhkəmləndirilməsi qayğısına qalmalı, bunun üçün isə müəyyən həcmdə tibbi biliklərə malik olmalıdırlar, Bu biliklər qızlara ümumtəhsil, orta ixtisas və ali məktəblərdə oxuyarkən müvafiq məşğələlərdə verilir. Analar ilk tibbi yardım göstərməyi, iynə vurmağı bacarmalı, müvafiq dərmanlardan istifadə etmək qaydalarına yiyələnməlidirlər. Xalq təbabətinin bəzi faydalı məlumatlarına yiyələnməli, müalicəvi əhəmiyyətli otlardan istifadə etməklə ailə üzvlərinin sağlamlığı keşiyində dayanmalıdırlar.

8. *Fizioloji-gigiyenik istiqamət* kişi və qadın orqanizminin fizioloji xüsusiyyətlərinə, şəxsi gigiyena məsələlərinə dair biliklərin verilməsini nəzərdə tutur. Bədənin, cinsi orqanların təmiz saxlanması, vaxtlı-vaxtında çimmək, saçlara qulluq göstərilməsi, dırnaqların tutulması, alt paltarının, üst geyiminin təmiz saxlanması, ya-

taq ləvazimatının vaxtında dəyişdirilməsi və s. bu istiqamətdə başlıca yer tutur.

9. Ailə həyatına hazırlıq üzrə işi də gənclərin *seksual tərbiyəliliyi* də az əhəmiyyət daşımır. Seksual tərbiyəlilik insan həyatının intim tərəfləri, cinslərin qarşılıqlı münasibətlərinə yönəlmiş zəruri biliklərin qavranılmasını, məhəbbəti, oğlan və qızların bir-biri ilə psixoloji məsafə saxlamaları, nikahı və ailəni səmərəli qurmaq bacarığını nəzərdə tutur.

Nikah münasibətinə girməzdən əvvəl oğlan və qız nişanlanır. Onların barmaqlarına üzüklər taxılır. Bunlara *nişan üzüyü* deyirlər. Nişan üzüyü ənənəsinin Misirdə meydana gəldiyini deyənlər də var, Qədim Yunanıstanda yarandığını söyləyənlər də. Beləliklə, üzük əbədi məhəbbət rəmzinə çevrilib. Üzük dairə şəklində olduğundan sonsuz sabitliyi əks etdirir. Oğlan və qızın nişanlanarkən barmaqlarına taxılan üzük; yaxud toy günü bəy və gəlinin bir-birinə bağışladıqları üzük nişan üzüyü adlanır. Bizdə nişan üzüyünə həm də bəxt üzüyü deyirlər. Nişan üzüyü tarixən adsız barmağa taxılmışdır. Bunun da səbəbi var. Ürəyə aparan damar bu barmaqdan keçir .

Üzüyün adsız barmağa taxılması o deməkdir ki, həmin şəxs ailəlidir. Qədim Yunanıstanda sol əlin adsız barmağında gəzdirilən üzük bu şəxsin sevgilisi olduğunu; çeçələ barmaqda olan üzük həmin adamın nikah ittifaqına hələ hazır olmadığını; şəhadət barmağındakı üzük onun özü üzün həyat yoldaşı axtardığını; orta barmağındakı üzük isə bu oğlanın məhəbbət aləmində hələ təcrübəsiz və təzə olduğunu bildirərdi.

Qədim misirlilər nişan üzüyünü sol əldə gəzdirərdilər. Şərq ölkələrində indinin özündə də nişan üzüyü sol əldəki barmağa taxılır. Avropanın bir çox ölkələrində nişan üzüyü əvvəllər sol ələ, toyda və toydan sonra sağ ələ taxılır. Hindistanda nişan əlaməti olaraq barmaqların hər birinə bürcə uyğun gələn rəmzi daşlarla bəzədilmiş qızıl üzüklər taxılır.

Orta əsrlərdə nişan üzüyünü birinci dəfə briliyantla italyanlar bəzəmişlər. Üzüyün içərisinə ad və sevgi sözlərinin nəqş edilməsi ənənəsi Avstriya hersoqu Maksimilianın adı ilə əlaqədardır. Hersoq Mariya Burqundskaya ilə evlənərkən ona bağışladığı nişan üzüyünün içərisinə adaxlısının şərəfinə *M* hərfi yazdırmışdı.

Vaxtilə taxılmış üzükdən nişan üzüyü kimi istifadə olunması təqdir edilmir. İrsi verilən üzük istisnalıq təşkil edir.

Nişan üzüyünün bahalı, yaxud ucuz olması əsas deyil. Sevginin qiyməti bahalı üzükdən də çoxdur. Başlıcası odur ki, bu sevgililərin zövqünə uyğun gəlsin.

Nəzərdən keçirdiyimi problemlə bağlı hansı nəticəyə gələ bilərik?

Yeniyetmə və gənclərin müstəqil ailə həyatına və gələcək övladlarının tərbiyəsi işinə hazırlanması sahəsində pedaqoji, psixoloji və sosioloji tədqiqatlar genişləndirilməlidir.

Respublikamızda bu problem tədqiqatların obyekti olmuşdur.

Hələ vaxtilə K. Şiriyeva Cənub zonasının materialları əsasında şagirdlərin ailə həyatına hazırlanması problemlərini; L.A. Əliyeva tələbələrin ailə həyatına hazırlanmasının psixoloji xüsusiyyətlərini araşdırmış; Fəhim H.N. Dadaşzadə İranda ailə ziddiyyətlərinə münasibət bildirmiş və onları sosial-psixoloji baxımdan təhlil etmişdir.

S.B. Hacıyeva Azərbaycan ailəsində qız tərbiyəsinin etnopsixoloji xüsusiyyətlərini; E.Ə. Mollayeva yeniyetmə qızlarda şərəf və ləyaqət hisslərinin tərbiyə olunması məsələlərini; N.Ş. Şahbazova-Eminbəyli yuxarı sinif şagirdlərinin nikah-ailə münasibətlərinə hazırlanması üzrə işin pedaqoji əsaslarını nəzərdən keçirmiş; V.Q. Nağıyeva müasir gənclərdə gender təsəvvürlərinin formalaşmasını sosial-psixoloji baxımdan tədqiq etmiş (müqayisəli təhlil: Azərbaycan və Ukrayna gənclərinin nümunəsində); Sousan Ağacanbeqlo Aliəsgər İran İslam Respublikasında gənclərin ailə həyatına hazırlanmasının sosial-psixoloji problemlərini diqqət mərkəzinə gətirmişdir.

Pur Üfüqi Fərhad Şahbaz oğlunun dissertasiyası gənc ailələrdə sosial persepsiyanin ailənikah münasibətlərinə təsirinə; Z.N. Nəsrullayevanın əsəri ailədaxili münasibətlər və şəxsiyyətin formalaşmasına onun təsiri probleminə; T.V. Rüstəmlinin dissertasiyası V-İX sinif şagirdlərinin ailə həyatına hazırlanmasında etnopedaqoji materiallardan istifadə üzrə işin imkan və yollarına həsr edilmişdir.

S.V. Orucova Azərbaycan ailəsində oğlan-qız tipli münasibətlərin etnopsixoloji xüsusiyyətlərini; R.M. Qarayeva yeniyetmə qızların

etnopsixoloji xüsusiyyətlərini; B.Ə. Mohəmməd ailədaxili münasibətlərin yeniyetmələrin şəxsiyyətinin formalaşmasına təsirinin müqayisəli təhlilini (Baki-Təbriz) tədqiq etmişlər.

Prof. N. Quliyevanın "Azərbaycanda müasir kənd ailəsi və ailə məişəti" monoqrafiyası və dos. L.M. Qurbanovanın "Ailənin psixoloji problemləri və həlli yolları" kitabı da ailə problemlərini əhatə edir.

Azərbaycanda yeniyetmə və gənclərin məhəbbət, nikah və ailə münasibətlərinə hazırlanması sahəsində professorlar Ə.Ə. Əlizadə və A.N. Abbasov uzun illər səmərəli fəaliyyət göstərmişlər.

Onlar XX əsrin səksəninci illərində ailə tərbiyəsi, təhsilalanların müstəqil ailə həyatına mənəvi, psixoloji, iqtisadi, tibbi, hüquqi, gigiyenik, sosial baxımdan hazırlanması problemlərini nəzərdən keçirmiş, eyni zamanda onların öz gələcək övladlarının tərbiyəsinə hazırlanmaları məsələsinə münasibətlərini ifadə etmişlər.

1985-ci ildə ümumtəhsil məktəblərində "Ailə həyatının etika və psixologiyası" fənni keçilirdi. IX sinif şagirdləri Ə.Ə. Əlizadə və A.N. Abbasovun "Ailə" dərsliyindən, "Ailə həyatının etika və psixologiyası üzrə müntəxəbat"ından, müəllimlər isə "Ailə həyatının etika və psixologiyası" vəsaitindən istifadə edirdilər. 1991-ci ildə "Ailə" dərsliyi həm də rus dilinə tərcümə edildi. Dərslik tez bir zamanda Azərbaycan məktəblərinin rus bölmələrinin istifadəsinə verildi.

Hazırda humanitaryönlü kolleclərdə və Gəncə Dövlət Universitetinin magistratura pilləsində "Milli əxlaq və ailə etikası" fənni tədris edilir. Bu kursların tədris proqramını və dərsliklərini də professor A.N. Abbasov hazırlamışdır.

Təklifimiz budur ki, yeniyetmə və gənclərin müstəqil ailə həyatına və gələcək övladlarının təlim-tərbiyə işlərinə uğurla hazırlanmaları üçün ümumtəhsil məktəblərində "Ailə həyatının etika və psixologiyası", institut və universitetlərdə isə, "Milli əxlaq və ailə etikası" fənlərinin tədrisi məqsədəuyğun hesab edilsin.

Ədəbiyyat:

1. A.N. Abbasov. Milli əxlaq və ailə etikası. Bakı: Mütərcim, 2015.
2. http://qafqazinfo.az/news/detail/azerbaycanda-usaqli-ailelerde-bosanma-sayi-artib-242771

E-mail: a.abbasov@arti.edu.az
Redaksiyaya daxil olub: 17.12.2018

ÜMUMPEDAQOJİ PROBLEMLƏR

UOT 37.01.

Əbülfət Qulam oğlu Pələngov
pedaqoji elmlər doktoru,
Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru,

Günel Rahil qızı Şəmilzadə
fəlsəfə doktoru proqramı üzrə dissertant
Azərbaycan Dövlət Pedaqoji Universiteti

ƏNƏNƏVİ VƏ MÜASİR TƏLİM METODLARINDAN VƏHDƏTDƏ İSTİFADƏ PRİNSİPLƏRİ

Абульфат Гулам оглу Пеленгов
доктор наук по педагогике, профессор Азербайджанского Государственного Педагогического Университета

Гюнель Рахиль гызы Шамильзаде
диссертант по программе доктора философии
Азербайджанский Государственный Педагогический Университет

ПРИНЦИПЫ ПРИМЕНЕНИЯ ТРАДИЦИОННЫХ И СОВРЕМЕННЫХ МЕТОДОВ ОБУЧЕНИЯ В ЕДИНСТВЕ

Abulfate Ghulam Pelengov
doctor of pedagogical sciences , professor at Azerbaijan State Pedagogical University

Gunel Rachel Shamilzade
doctorial student in the proqramme of a Ph.D
Azerbaijan State Pedagogical University

PRINCIPLES OF APPLICATION OF TRADITIONAL AND MODERN METHODS OF TRAINING IN THE UNITY

Xülasə: Məqalədə bir neçə parametr üzrə prinsiplər nəzərdən keçirilmişdir. Bu prinsiplərin hər birinin bu və ya digər dərəcədə təlim metod və vasitələrinə aidiyyəti vardır. Əvvəlcə təlim vasitələrinin seçilməsi zamanı müəyyən prinsiplərə riayət edilmişdir. Daha sonra kompüter təliminin prinsipləri sadalanmışdır. Ən başlıca məsələ və bu gün təlim prosesi üçün problematik sayıla biləcək ənənəvi və müasir təlim metodlarının vəhdətdə tətbiqinə dair müəyyən edilmiş prinsiplərdir. Bunların hər biri ayrı-ayrılıqda izah edilmişdir.

Açar sözlər: *təlim vasitələri, proqram təminatı, prinsiplər*

Резюме: В статье принципы предусмотрены по нескольким параметрам. Но они в той или иной степени относятся к учебным методам и средствам обучения. Сначала рассмотрен вопрос о принципах выбора средств обучения. Дальше перечислены принципы компьютерного обучения. Сегодня архиважной проблемой в обучении является использование традиционных и современных методов обучения во взаимосвязи, поэтому важно определение принципы комплексного применение этих методов.

Ключевые слова*: средства обучения, программное обеспечение, принципы*

Summary: The article provides principles for several parameters. But they are more or less related to educational methods and teaching aids. First considered the question of the principles of choice of learning tools. The following lists the principles of computer learning. Today, an important problem in teaching is the use of traditional and modern teaching methods in interconnection, therefore it is important to define the principles of the integrated application of these methods.

Key words: *learning tools, software, principles*

İstənilən təlim fəaliyyəti dövründə pedaqoq müəyyən prinsipləri rəhbər tutur. Bu cəhətdən, ilk növbədə, təlim vasitələrinin seçilməsi üçün müəyyən prinsiplər mövcuddur. Prinsiplər qoyulmuş məqsədə çatmaq üçün bir vasitədir.

1. Öyrədici mühiti təlimin fənn sahəsində məqsədlər çərçivəsinə uyğun gələn məzmunla tamamlamaq.

2. Təlimin məzmununu seçərkən onun kompüter təminatının effektivliyini nəzərə almaq lazımdır.

3. Öyrədici mühitdə obyektin və ya fənn sahəsinə aid hadisələrin elə modeli təqdim edilməlidir ki, təkcə onu adekvat əks etdirmək deyil, həm də daha parlaq şəkildə struktur elementlərini açmaq mümkün olsun.

4. Təlim proqram mühitinin məzmunu başa çatmalıdır, seçilmiş model isə obyekt və hadisəni bütövlükdə əks etdirməlidir.

5. Obyekt və hadisənin sistem kimi tam tədqiq olunması üçün elə alətlər düşünmək lazımdır ki, struktur elementlərlə, əlamətlərlə, əlaqə və münasibətlərlə əməliyyat apara bilsin. Məhz göstərilmiş çərçivədə video dəyişikliklərin variantları formalaşmalıdır.

6. Öyrədici mühiti təmin edən məzmun özündə həm nəzəri, həm də əldə edilmiş bilik, bacarıq və vərdişləri möhkəmləndirmək üçün tapşırıq materialını (adekvat hərəkətlər) birləşdirməlidir.

7. Məqsədə müvafiqdir ki, öyrədici sistemin strukturuna məlumatverici komponentlər, öyrədici mühitlə işləməklə bağlı kontekstə uyğun kommentarilər daxil edilsin.

8. Öyrədici mühitdə nəzarət üsulları və əldə edilmiş bilik, bacarıq, vərdişlərin səviyyəsinə qiymət verilməsi nəzərdə tutulmalıdır. Həmçinin, nəzarətin nəticələrinin statistik emalı və onların əyani təqdimatı diqqətdən qaçmamalıdır.

S. Kondratyev, V. V. Laptev və A.İ. Xodanoviç hesab edirlər ki, kompüter təliminin ən aparıcı prinsipləri bunlardır (1):

1. Təlimin kompüterləşdirilməsi müasir didaktikanın inkişaf tendensiyası kimi nəzərdə tutulur.

2. Məktəbin hesablama texnikası ilə təchizatından asılı olmayaraq, "şagird-kompüter" qarşılıqlı əlaqəsi üçün müəllim mərkəzi fiqur olaraq qalır, çünki o, ümumi kompüter savadlılığı zamanında təlim prosesinin metodika və metodologiyası ilə silahlanmışdır.

3. Kompüter təliminin metodikası və metodologiyaya yaxından bələd olan müəllim onun peşə təmayülündən asılı olmayaraq, öz peşəsinin tələb etdiyi bütün keyfiyyətlərə malik olmalıdır.

4. Kompüter texnikasından sinifdənxaric iş zamanı istifadə təlimin vəzifə və məqsədindən asılı olaraq kompleks xarakter daşımalıdır, yəni müxtəlif vasitələr birləşdirilməlidir. Burada dərsin mərhələlərinin də rolunu danmaq olmaz.

5. Şagirdlərin alqoritmik mədəniyyətinin formalaşması hər bir məşğələ zamanı həm maşın vasitəsilə, həm də maşınsız təlim prosesində formalaşmalıdır. Burada alqoritmik formada olan konspektlər yazıla, məsələlərin təqdim olunması və həllinin tələb edilməsi, laborator məşğələlərin və praktikumun aparılması və s. nəzərdə tutula bilər

6. Hesablama texnikası (HT) texniki təlim vasitələri (TTV) kompleksinin tərkibinə daxil olduğu üçün müasir təlim vasitələrinə tədris və tərbiyə prosesində aid olan əsas didaktik tələblər ona da aiddir.

7. Kompüter təlimi (KT) müəyyən mənada proqramlaşdırılmış təlimin analoqu olduğuna görə onun imkanlarını genişləndirmək, ona daha elastik forma vermək lazımdır.

Təlimin proqramlaşdırıması prinsiplərini nəzərdən keçirərək bir sıra müəlliflər (Q.A. Bordovski, V.A. İzvozçikov, A.M. Slutski, E.A. Tumaleeva) (3) onların kompüter təliminə tətbiq edilməsini göstərirlər: materialın kiçik, lakin bir-biri ilə bağlı olan bərabər hissələrə bölünməsi; şagirdlərin fəaliyyətinin aktivləşdirilməsi, proqramlaşdırılmış mətnin hər bir hissə üzrə

məzmununun dərindən araşdırılmasını bacarmaq; şagirdin hər bir cavabının yubanmadan qiymətləndirilməsi; refleksiya - özünüdərketmə, şagirdlər tərəfindən öz hərəkətlərinin qiymətləndirilməsi; proqram mətnlərinin empirik yoxlanılması.

Ənənəvi təlim metodları ilə müasir təlim metodlarını vəhdətdə tətbiq edən zaman prinsiplərin müəyyən olunması üçün xüsusi situasiya yaranır. Bu zaman təkcə ənənəvi və müasir təlim metodlarından ayrılıqda istifadə prinsipləri deyil, eyni zamanda, iki didaktik vasitənin birgə tətbiqi zamanı yaranmış situasiyaya uyğun prinsiplər işlənib hazırlanmalıdır.

Ənənəvi və müasir təlim metodlarından vəhdətdə istifadə üçün biz aşağıdakı prinsipləri müəyyən etmişik :

Təlim fəaliyyətinin rasional idarə olunması prinsipi tələb edir ki, həm ənənəvi, həm də müasir təlim metodları üçün seçilmiş məzmun didaktik və metodik cəhətdən əsaslandırılsın. Burada bu və ya digər (ənənəvi və müasir) təlim metodlarından hansı ardıcıllıqla istifadə edilməsi vacib rol oynayır. Təbii, söhbət təlim vasitələrinə verilən tələb və prinsiplərdən gedir. Bu prinsip aşağıda göstəriləcək prinsipləri xeyli ümumiləşdirir. Ona görə də bu prinsipin düsturu kifayət qədər ümumidir və istənilən təlim prosesinin planlaşdırılmasına tətbiq edilə bilər. Lakin biz təlim vasitələrinin optimal birliyini, dəqiq planlaşdırılmasını təmin etməliyik ki, zaman itkisinə yol verməyək. Aydın məsələdir ki, müxtəlif didaktik metodların qarşılıqlı əlaqədə istifadə edilməsi pedaqoqdan sistem yanaşma tələb edir. Bu sistemi biz ibtidai siniflərdə tədris edilən fənlərin həm daxilində, həm də bu fənlər arasındakı əlaqədə axtarmalıyıq.

İnformasiyanın qoşalaşması prinsipini həyata keçirərkən mühüm diqqət ona yönəlməlidir ki, hansı informasiya şagirdə ənənəvi, hansı, müasir və nəhayət, hansılar hər iki metodu tətbiq etməklə çatdırılmalıdır. Bu zaman müəllim şagirdlərin psixofizioloji qanunauyğunluqlarını nəzərə almalıdır, çünki informasiya bolluğu, onu təqdimetmə vasitələrinin çoxluğu müəyyən qarışıqlıq yarada bilər. Ona görə də müəllim uşaqların yaş xüsusiyyətlərini mütləq nəzərə almalıdır. Müxtəlif informasiyaların qarşılıqlı şəkildə qovuşması təlim prosesinin intensivləşməsi ilə çox bağlıdır. İnformasiyaların qoşalaşması prinsipi aşağıda qeyd olunan qıcıqlandırıcıların növbələşməsi prinsipi ilə sıx əlaqədədir.

Virtual obrazın konkret obyektə uyğunluğu prinsipi özünü onda ifadə edir ki, ekran obrazı obyektin natural obrazına nə qədər uyğundur. Məlum məsələdir ki, real dünya ilə virtual dünya obyektlərinin dərk olunması arasında ciddi fərqlər vardır. Psixolo-pedaqoji və metodik ədəbiyyatda bu fikrə tez-tez rast gəlmək olur. Proqram məhsulunun yaradıcısının başlıca vəzifəsi ondan ibarətdir ki, obyektin virtual görünüşünü onun real görünüşünə maksimal dərəcədə yaxınlaşdırsın. Digər tərəfdən, kompüter vasitələri abstrakt obyekt və situasiyaları modelləşdirmək üçün bizə sonsuz imkanlar verir. İbtidai siniflərdə kompüter vasitələrindən istifadə metodikasını işləyib hazırlayarkən nəzərə almaq lazımdır ki, virtual obrazın hansı situasiyada və nə qədər surətini çıxarmaq lazımdır və real və abstrakt obyektləri və hadisələri hansı səviyyədə modelləşdirmək lazımdır. Deyək ki, yuxarı sinif şagirdləri üçün ətraf aləmi dərk etməkdən ötrü hərəkətverici aktivlik və taktil hisslər vacibdir. Bununla əlaqədar olaraq səs, qrafik və mətn informasiya bloklarının yaradılması zəruridir.

Qıcıqlandırıcıların növbələşməsi prinsipi Əgər informasiyanın dublikasiyası analizatorların birindən və ya bir neçə analizatordan daxil olursa və digər analizatora ötürülürsə, təlim materialının müvəffəqiyyətlə mənimsənilməsi lazımi keyfiyyət kəsb edəcəkdir. 10-11 - ci sinif şagirdləri üçün nəzəri informasiyalar çox vacibdir, ona görə də onlara təqdim ediləcək informa-siyanın məzmunu və strukturu fərqli olmalıdır.

Şagirdin optimal təlim yükü prinsipi məntiqi olaraq bundan əvvəlki prinsipdən yaranır. Tədris prosesində kompüter vasitələri təlim prosesini intensivləşdirdiyi, mənimsənilmiş biliklərin möhkəmləndirilməsi nəzarətə götürüldüyü üçün konkret informasiya bloku ilə iş vaxtı dəyişir və ya ola bilər ki, müəyyən zaman çərçivəsində öyrəniləcək materialın həcmi dəyişir. Bu halı nəzərə almaqla təlim yükünü optimallaşdırmaq lazım gəlir, ya məktəb proqramının hər hansı sualını fundamental şəkildə nəzərdən keçirmək, ya da yeni materialın öyrənilməsi üçün zaman qazanmaq zərurəti yaranır. Bu prinsipin tətbiqi diferensasiya və fərdiləşdirmə kimi iki vacib didaktik prinsipin fəaliyyətdə rəhbər tutulması ilə bağlıdır.

Məzmun dominantlığı prinsipi

Didaktik prinsiplərin (xüsusilə illüstrativ-əyani) rəngarəngliyi, bu və ya digər təlim vasitələrinin imkanları informasiyanı maskalamamalı, ibtidai sinifdə keçilən materialı ikinci plana ötürməməlidir. Təlim alətlərindən istifadə etməyin məntiqi təlimin məzmun məntiqinə uyğun olmalıdır və təlim materialından diqqəti yayındırmamalıdır. Digər tərəfdən, bir sıra təlim situasiyalarında başqa cür də mümkündür: təlimin yeni yüksək texnoloji vasitələri şagirdlərin diqqətini həm də gündəlik mövzunun məzmununa cəlb edir. Təlim materialını planlaşdıran zaman bu ana diqqət yetirmək vacibdir, fənn üzrə bilikləri prioritet sahə hesab etmək üçün təlim vasitələrini ona uyğun quraşdırmaq lazımdır.

İnformasiyanın vahid mənbə prinsipi müxtəlif təlim vasitələrindən elə istifadəni nəzərdə tutur ki, bu zaman təlim informasiyası həmin təlim vasitələri ilə şagirdə bir neçə mənbədən deyil, vahid axın şəklində çatdırılır. Bu ona görə vacibdir ki, şagirdlərin diqqəti maksimum müəyyən təlim materialı üzərində cəmləşsin, çünki eyni zamanda dərsliklə işləyərək təlim videofraqmentinə baxmaq və diqqəti gah bu, gah da digər təlim vasitəsinin üzərinə yönəltmək mümkün deyil. Nəticədə müəllim öz işini səmərəli təşkil edə bilməz və şagirdlər təlim materialının məntiqini tuta bilməzlər. Ənənəvi və müasir təlim metodlarından eyni vaxtda istifadənin çətinliyi də məhz bundadır. Lakin bəzi təlim fəaliyyəti istisna təşkil edir, məsələn, natural obyektlərlə iş zamanı kompüter təminatı bu qəbildəndir. Tutaq ki, şagirdlərə ev heyvanları haqqında məlumat verilərkən elektron vasitədən istifadə etmək heç də onların diqqətinin yayınmasına səbəb ola bilməz. Bu prinsipi müəllim təchizat zamanı da nəzərə almalıdır. Nümunə: kiçik kompüter stolunun üstündə kompüter və ona quraşdırılmış vasitələrdən başqa dərslik, paylama materialları, məktəb və yazı ləvazimatı və s. yerləşdirilir.

Qarşılıqlı tamamlama və ziddiyyətin olmaması prinsipinə görə, şagirdlərin bir təlim vasitəsilə təqdim etdikləri təlim informasiyası başqa vasitələrdən əldə olunmuş informasiyaya zidd olmamalıdır. Burada söhbət təkcə faktiki uyğunsuzluqdan (düzdür, təlim prosesində belə hallar da müşahidə edilir) deyil, həm də təsvir olunan natural obyekt və hadisə kompüter modelinin aydınlığına adekvat olmalıdır - ənənəvi təsvir vasitələrində olduğu kimi.

Didaktik imkanların tamamlanması və bölüşdürülməsi prinsipi - bu prinsipin mahiyyəti belədir: müxtəlif çeşidli təlim vasitələrinin eyni zamanda və effektiv tətbiqi yalnız o zaman baş verir ki, bu vasitələrin ehtiva etdiyi didaktik imkanları bir-birindən dəqiq fərqləndirilmək mümkün olsun.

Təlim informasiyasının rasional şəkildə addım-addım bölünməsi prinsipi - əvvəlcədən də qeyd olunduğu kimi, ənənəvi təlim metodu ilə müasir metodların vəhdətdə istifadə edilməsi təlim materialını ayrı-ayrı komponentlərə bölməyi və məhz tətbiq olunan metodların da buna uyğun olaraq bilavasitə istifadə olunması deməkdir. Bu fikirlər bir sıra tədqiqatçıların elmi-metodik ədəbiyyatında özünə yer tapmışdır. Fikrimizcə, bunu da ayrıca prinsip kimi ayırmaq olar. Ola bilər ki, birmənalı qarşılanmasın, amma bir halda ki, qarışıq metoddan istifadə edərkən təlim materiallarını parçalamadan bu mümkün deyil, deməli, çıxardığımız nəticə doğrudur. Ona görə də müəllim təlim materialını planlaşdırarkən təkcə didaktik deyil, həm də təşkilati aspektdə bu prinsipi nəzərə almalıdır. Bu zaman informasiyanı təqdim edən təlim vasitələrinin bir-birini əvəzləməsi müxtəlif analizatorlar üçün xüsusi əhəmiyyət kəsb edir.

Biz bu məqalədə həm ənənəvi, həm müasir təlim metodlarının, eləcə də bu metodlardan kombinə olunmuş şəkildə istifadənin prinsiplərini sadaladıq. Təlim prosesi həmişə yaradıcılıq tələb etdiyi üçün hansı prinsipin gözləndiyinə diqqət etmək müəllimdən və onun qiymət verdiyi təlim situasiyasından çox asılıdır. İşini effektiv qurmağı bacaran müəllim həmişə dediyi dərsin pedaqoji analizini aparır. Bu, iki mərhələdə olur.

Birinci mərhələdə müəllim özünə aşağıdakı sualları verir: 1. Dərsin hansı anları müəllim üçün gözlənilməz oldu? 2. Dərsi planlaşdırarkən o, nəyi nəzərə almamışdır? 3. Hansı suallara şagirdlər cavab verə bilmədilər? 4. O, planlaşdırdığı təlim hərəkətlərindən imtina etdimi? Nə üçün? 5. Müəllim öz nitqi zamanı dil qüsurlarına yol verdimi? 6. Hansı sualın formalaşdırılmasını dəqiqliklə yerinə yetirə bilmədi?

Problemin elmi yeniliyi. Ənənəvi təlim metodları ilə müasir təlim metodlarını vəhdətdə tətbiq

edən zaman prinsiplərin müəyyən olunması üçün xüsusi situasiya yaranır.

Problemin aktuallığı. Məqalədə həm ənənəvi, həm müasir təlim metodlarının, eləcə də bu metodlardan kombinə olunmuş şəkildə istifadənin prinsiplərini sadalanır.

.

Problemin praktik əhəmiyyəti. Müəllim təlim materialını planlaşdırarkən təkcə didaktik deyil, həm də təşkilati aspektdə bu prinsipi nəzərə almalıdır. Bu zaman informasiyanı təqdim edən təlim vasitələrinin bir-birini əvəzləməsi müxtəlif analizatorlar üçün xüsusi əhəmiyyət kəsb edir

Ədəbiyyat:

1. Pedaqogika . F. N. İbrahimov və R. L. Hüseynzadə, Bakı, 2012.

2. Кондратьев А. С, Лаптев В. В., Ходанович А. И. Информационная методическая система обучения физике в школе. СПб.: Изд-во РШУ им. А. И. Герцена, 2003.

3. Бордовский Г. А., Извозчиков В, А., Слуцкий А, М., Тумалева Е, А. Электронно-коммуникативные средства, системы и технологии обучения. СПб.: Образование, 1995.

4. Дрига И. И., Рах Г. И. Технические средства обучения в общеобразовательной школе: Уч. пособие для студ. пед. инст. М.: Просвещение, 1985.

E-mail: gshamilzada@beu.edu.az
Rəyçi*: psix. ü. fəls. dok.*,**İ.H. Sultanova**
Redaksiyaya daxil olub: 07.12.2018

UOT 37.013.31

Sevinc Sərdar qızı Əliyeva
pedaqogika üzrə fəlsəfə doktoru
Bakı Dövlət Universiteti

“FƏNLƏRARASI SAHƏ” ANLAYIŞININ METODOLOJİ ASPEKTLƏRİ

Севиндж Сардар гызы Алиева
доктор философии по педагогике
Бакинский Государственный Университет

МЕТОДОЛОГИЧЕСКИЕ АСПЕКТЫ СПОРНОГО ПОНЯТИЯ В ПЕДАГОГИЧЕСКОЙ НАУКЕ

Sevindj Sardar Alieva
doctor of philosophy in pedagogy
Bakinsky State University

METHODOLOGICAL ASPECTS OF THE CONTROVERSIAL CONCEPT IN PEDAGOGICAL SCIENCE

Xülasə: Mübahisə obyekti olan anlayışın normativ olduğunu iddia etmək o qədər də düzgün olmazdı. Belə hallarda yalnız, demək olar ki, mübahisəlilik bir neçə qənaətin nəzərə alınmasının müqəddəm şərtidir. Eyni zamanda, bu kifayət etmir. Ona görə ki, bəzi normaları xüsusi meyarları təyin etmək yolu ilə tapmaq olur. Digər tərəfdən, burada tarixi və mədəni dəyişkənliyə məruz qalan fikirləri əsas anlayış kimi götürmək olmaz. Yaxud bu anlayış bir o qədər düzgün tətbiq olunmayıb. Bu cür empirik və təsadüfi iddialar adicə mübahisəlilik sahəsi ilə bağlıdır. Pedaqoji nöqteyi-nəzərdən fənlərarası təlimin ən böyük üstünlükləri müzakirələrdə iştirakı ilə eyni mövzuya müxtəlif yanaşma kəsiyindən qiymətləndirmək imkanıdır. Bu zaman müxtəlif təlim metodları üçün geniş fürsət yaranır, nəticədə şagirdlərin koqnitiv bacarıqlarının formalaşması üçün zəruri şərait yaradılır. Beləliklə, mübahisəli olan anlayışlar öz təbiətinə müəyyən mənada zidd olan hadisəyə, yəni yeniliyə, tədqiqat perspektivlərinə yol açır.

Açar sözlər: *tədris prosesi, elmi paradiqmalar, fənn və elm sahələri, fənlərarası sahə*

Резюме: Было бы неправильно утверждать, что понятие спорности является нормативным. В таких случаях речь идет лишь о том, что спорность здесь есть условие для рассмотрения одного или нескольких вариантов суждений. В то же время этого недостаточно. Потому что некоторые из норм можно найти, лишь установив конкретные критерии. С другой стороны, в основу этого не следует класть понимание того, что понятие это подвержено историческому и культурному разнообразию. Или это понятие не было применено правильно. Подобные эмпирические и случайные обвинения просто связаны со спорной областью. С педагогической точки зрения основным преимуществом междисциплинарного обучения является способность оценивать одну и ту же тему через разные подходы через участие в дискуссиях. В это время появляется отличная возможность для разных методов обучения, что создает необходимые условия для формирования когнитивных навыков учащихся. Таким образом, спорные понятия приводят к явлению, которое противоречит его природе, то есть инновациям и перспективам исследований.

Ключевые слова*: учебный процесс, научные парадигмы, предметная и научная области, межпредметная сфера*

Summary: It would be wrong to say that the concept of controversy is normative. The controversy may only be a condition for considering one or more variants of judgments. At the same time, this is not enough. Because some of the norms can be found only by setting the specific criteria. On the other hand, this

understanding should not be based on the notion that this concept is subject to the historical and cultural diversity. Otherwise it would mean that this concept was not applied correctly. Similar empirical and accidental accusations are related to the disputed concept. From a pedagogical point of view, the main advantage of the interdisciplinary learning is the ability to evaluate the same topic through different approaches in the course of participation in discussions. At this time, there is an excellent opportunity for the application of the different teaching methods, which creates the necessary conditions for the formation of the cognitive skills of students. Thus, controversial concepts lead to a phenomenon that contradicts its nature, which are innovations and research perspectives.

***Key words**: educational process, scientific paradigms, subject and scientific field, interdisciplinary sphere*

Problemə giriş. "Fənlərarası sahə" anlayışının konseptual təhlili

Bu məqalənin məqsədi fəlsəfə və elmin metodologiyasında *fənlərarası sahə* anlayışının mahiyyətinin aşkar edilməsidir. Bəzi alimlər iddia edirlər ki, *fənlərarası sahə* anlayışının müəyyənedici ünsürü inteqrasiyadır. Eyni zamanda digərləri burada konseptual və empirik maneələri göstərirlər. Bir də ki, güman edilir ki, *fənlərarası sahə* anlayışı mübahisəli bir sahədir [1, s. 25; 32-83]. Bəs *fənlərarası sahə* və *inteqrasiya* anlayışları arasında əlaqələrə fərqli yanaşmaların xarakterini necə müəyyən etmək olar? Qeyd olunmalıdır ki, fənlərarası sahə və inteqrasiya barədə aparılan disputun kökləri bizi uzaq keçmişə aparır və bu gün də nəzəri və metodoloji müzakirələrdə öz əksini tapır.

Mübahisəli anlayışı özü-özlüyündə həm normativ standartları, həm də onun düzgün tətbiqində tədqiqatçıların mübahisələr və mövqelərini bildirir. İlk dəfə olaraq bu qəbildən olan anlayışları Uilyam Qelli "mübahisəli" ya da ki, "mübahisəli olan" kimi qiymətləndirilmişdir. Elmdə normativ anlayışlar çoxdur. Bunların ənənəvi qəbul edilməsi mübahisə obyektlərindən uzaqdır. Ənənəyə sadiq olan tədqiqatçılar "mübahisəli" adlanan anlayışa qarşı olduqca həssasdırlar. Bu tədqiqatçılar belə anlayışların tətbiq edilməsinə aid normativliklə bağlı mübahisələrdə iştirak etmək istəmirlər (2).

Əslində müasir debatlarda "fənlərarası" anlayışının mahiyyəti ətrafında gedən mübahisələr elə bu istiqamətdə gedir. "Fənlərarası olmaq" nə deməkdir? O cümlədən, təhsil elmləri sahəsində. Tədqiqatçılar mübahisəli anlayışının konseptual təhlilində iki mərhələni fərqləndirirlər:

1) Təsviri (bu zaman normativ anlayışların obyektiv tətbiqinin minimal meyarları təyin edilir və müəyyən olunur). Bu zaman burada həmin anlayışların normativliyi öyrənilir.

2) Bu mərhələdə anlayışların dəyəri qiymətləndirilir. Buraya nə daxildir? Hesab olunur ki, normativ anlayışlar ətrafında mübahisələri kriterial (yəni konkret) anlayışlar ilə (məsələn, kitab, stul) müqayisə etmək olmur (3). Belə hallarda konsensus kifayət edir ki, bu cür meyarların düzgün tətbiqinin və isbatın minimal meyarları qəbul olunsun. Bu zaman burada yanlışlıqlar və səhvlərin izahını vermək olur. Əgər anlayışın mahiyyəti bütün elmi birlik tərəfindən qəbul olunubsa, bu cür mübahisələr həmin anlayışların "kökündən" vurur, yəni az rast gəlinən tətbiqolunma halları ilə kifayətlənmir.

Əgər "düzgün tətbiqolunma" adlanan meyarlar səhv olunduğu ehtimalı varsa, unutmayaq ki, bu bir ehtimaldır. Bütövlükdə belə hallarda normativliyə aid mübahisələri konseptual təhlil müstəvisindən ayırmaq düzgün olmaz. Şübhəsiz, mübahisə obyekti olan anlayışın normativ olduğunu iddia etmək o qədər də düzgün olmazdı. Belə hallarda yalnız demək olar ki, mübahisəlilik buraya bir və ya bir neçə qənaətlərin nəzərə alınmasının müqəddəm şərtidir. Eyni zamanda bu kifayət etmir. Ona görə ki, bəzi normaları xüsusi meyarları təyin etmək yolu ilə tapmaq olur. Digər tərəfdən burada əsas kimi bu fikirləri də götürmək olmaz ki, anlayış tarixi və mədəni dəyişkənliyə məruz qalır (4). Yaxud bu anlayış bir o qədər düzgün tətbiq olunmayıb. Bu cür empirik və təsadüfi iddialar adicə mübahisəlilik sahəsi ilə bağlıdır.

Ümumiyyətlə, anlayışın mübahisəli olub-olmaması barədə fikir yürütmək həmin mübahisə obyekti olan anlayış barədə yekun rəyin və yaxud qənaətin olmamasına dəlalət edir. Nəhayət, anlayışının predmet sahəsində bəzi xüsusiyyətlərin istifadəsində böyük şübhələr yarandığı zaman bu anlayışı mübahisəli olduğunu göstər-

mək olar. digər tərəfdən bu anlayışın "mahiyyətinin" mübahisəli olmaq faktı heç də demək deyil ki, burada yaranmış fikir müxtəlifliyi aradan qaldırıla bilməz. Bu prosesin faydalı cəhətləri də var. Bir tərəfdən anlayışın məzmunu və mahiyyəti barədə mübahisələr işin əsl mahiyyətinə aid olduğu üçün rəqib paradiqmaların və tətbiqolunma meyarları təyin edə bilər. Digər tərəfdən mübahisəliliyin özü əslində anlayışın elə bir mahiyyətidir ki, özü-özlüyündə də mübahisəlidir (5).

"Mübahisəli" anlayışın düzgün tətbiq edilməsi meyarları.

Tədqiqatçılardan biri, Konomilli bəyan edir ki, anlayış belə hallarda mübahisəli ola bilər:

1. Əgər burada qiymətvermə var. Aydındır ki, anlayış vasitəsilə təsvir edilən hadisələrin görünüşü əvvəlcədən müxtəlif tərzdə qiymətləndirilir.

2. Əgər ümumiyyətlə təsvir olunan hadisə və yaxud proseslər daxilən mürəkkəb xarakterlidir. Burada göstərilən xüsusiyyətlər mənaların müxtəlif ölçülərinə (hətta fərqli və yaxud ziddiyyətləri olanlar) aid olduğu üçün fərqlənir və mübahisə üçün zəmin yaradır (məsələn, "qırmızı", "yaşıl" və s.).

3. Əgər həmin anlayışın tətbiq edilməsi meyarları (ümumi ya mübahisəli olması əhəmiyyətli deyil) nisbətən rahat və sərbəstdirsə, onda hətta ümumi meyarların izahında müxtəliflik müşahidə olunur. Özü də belə müxtəliflik istər məlum, istərsə də yeni, gözlənilməz hallarda yaranır.

Beləliklə, istənilən anlayışı mübahisəli adlandırmaq üçün ən azı üç başlıca meyarı nəzərə almaq lazımdır: bu anlayış olmalıdır: a) normativ; b) daxilən mürəkkəb; c) düzgün tətbiq olunması üçün bunun sabit minimal meyarları olmamalıdır (6).

Bir misala müraciət edək. "Fənlərarası" anlayış, bir neçə başlıca keyfiyyətləri və "ya xüsusiyyətləri özündə birləşdirir. Bu keyfiyyətlər öz forma və məzmununa görə fərqlidir. Belə qənaətə gəlmək olar ki, "paradiqma" anlayışının təyini özünə daxil etdiyi keyfiyyətlərdən, bir də həmin anlayış ətrafında hamı tərəfindən qəbul olunmuş qaydalar üzrə aparılan mübahisələrdən kənar olmaz və kənar deyil. İkinci şərt mübahisəli anlayışın daxilən mürəkkəb olması ilə bağlıdır. Sadə anlayışlardan fərqli olaraq, mürəkkəb anlayışlar bir çox mənaları və cəhətləri əhatə edir. Bununla əlaqədar mübahisəli anlayışın üç əsas tərəfini qeyd edək: nəticə, sual və dəyərlər (mənalar). Ümumiyyətlə, anlayış bir növ nəticədir? Nəhayət, "dəyərlər baxımından həmin nəticə necə əsaslandırılmalıdır?"- sualına cavab axtarmağa çalışmalıyıq.

Burada hansı çətinliklər meydana gəlir? Əsas çətinlik odur ki, ümumi anlayışlar bir çox meyarlara və prinsiplərə bölünür ki, onların məzmunu özü də bir çox mübahisələr doğurur. Mübahisəli anlayışın üçüncü, sonuncu meyarı həmin anlayışının düzgün tətbiqində vahid, sabit, dəyişilməz meyarların olmamasıdır. Deməli, sabit əsas, dəyişilməz meyarlar yoxdursa, bunların hər birinin tətbiqolunma hallarını şübhə altına almaq olar. buna görə də anlayışın əsas meyarları ətrafında yaranan hər bir şübhə və yaxud mübahisəyə qarşı çıxmaq olur. Qeyd olunmalıdır ki, anlayışın əsas meyarları ətrafında da mübahisə yarana bilər. Bununla belə paradiqma anlayışı ətrafında aparılan müzakirələri (onun əsas meyarlarını nəzərdə tuturuq) adicə anlaşıqsızlıq və yaxud konseptual hərc-mərclik əsasında izah etmək düzgün deyil.

Mübahisə tərəfləri (yəni paradiqmalarla) bölüşə bilərlər. Tədricən həmin yanaşmaların formatını elə dəyişdirmək olar ki, nəticədə həmin anlayışla bağlı yeni konsepsiya formalaşa bilər. Paradiqmanın bu yolla da dəyişməsi elə onu izah edir ki, mübahisəli anlayış elmi debatların müzakirə obyekti yaxud çıxış nöqtəsi necə ola bilər. Beləliklə, belə bir qənaətə gəlmək olar ki, mübahisəli anlayış, bir tərəfdən, adi bir hadisənin xüsusiyyətlərini təyin edə bilir, digər tərəfdən isə bunların mahiyyəti üzrə qənaətləri ya da fikirləri şübhə altına alaraq yenidən nəzərdən keçirə bilər. Bu yol ilə müzakirə yeni paradiqmanın yaranması ilə nəticələnə bilər.

Mübahisəli anlayış üzərində qurulan konsepsiyalar və nəzəriyyələrin plüralizminə əsasən daimi inkişafda olan elm dünyasında mühüm rol oynaya bilər. Belə uyğun adaptasiyaya səbəb olaraq yeni reallığa daha səmərəli statusunun axtarışı üzrə debatlar stimullaşdıra bilər (7).

"Fənlərarası vəziyyət" anlayışının müxtəlif formaları, tətbiqolunma meyarları, fənlərarası vəziyyətlərin tipologiyası problematikası elmi ədəbiyyatda necə öyrənilir?

Elmi ədəbiyyatda "fənlərarası vəziyyət" anlayışı sözün həm dar, həm də geniş mənalarında istifadə oluna bilər. Dar mənada bu söz birləşməsi iki, artıq mövcud olan fənlər arasında yerləşə biləcək yeni fənnin yaradılması prosesini bildirir. Son illərdə bu fənlərarası tədqiqatların bəziləri bir çox fənlərin qovşağında formalaşdırılmışdır: sosial psixologiya, biofizika, psixolonqvistika, hüquq sosiologiyası, mədəniyyətşünaslıq və s.

Belə hallarda fənlərarası vəziyyət çox vaxt digər, qeyri yanaşmalardan (yəni tədqiqatlarda və yeni sahələrin formalaşmasında) terminoloji baxımından fərqlənir: çoxfənlər vəziyyəti, multifənlər vəziyyəti, fənlərarası vəziyyəti, transfənlərarası vəziyyəti, krossfənlərarası vəziyyət və s. sözün geniş mənasında isə bu termin ümumiyyətlə tədqiqatlar, təhsil və idarəetmə sahələrin "qeyri-fənn" səylərini bildirir. Bundan başqa fənlərarası tədqiqatları "fənlərarası vəziyyət" deyilən mövhumdan da fərqləndirmək lazımdır: fənlərarası tədqiqatlar zamanı fənlərarası biliyin inteqrativ və sintetik xarakterini bildirirsə, ikinci halda isə "fənlərarası vəziyyət" barədə biliklərin metodoloji və yaxud fəlsəfi müstəvisi nəzərdə tutulur.

Bildiyimiz kimi, ədəbiyyatda istifadə olunan təriflər, təyinlər, terminlər barədə vahid rəy yoxdur. İlk növbədə öz həllini gözləyən məsələ fənn olaraq hər hansı bir elm sahəsinin hüdudları barədə sözlər, terminlər nəzərdə tutulur. Müxtəlif tədqiqatçılar tərəfindən irəli sürülən adlar fərqlidir. Bu fərqlilik isə tədqiqatçının malik olduğu fəlsəfi dünyagörüşü, həmin sahənin ümumi məzmunu barədə barədə təsəvvürlər, elmin və təhsil sisteminin cəmiyyətdə sosial-siyasi rolu, yaradılan yeni, fənlərarası sahənin başlıca məqsədin mahiyyəti, fənlərarası məsələlər üzrə müzakirələrdə həmin tədqiqatçının mövqeyi, nəhayət, fənlərarası məsələlər üzrə (məsələn, təhsil ilə bağlı, tədqiqatçı, təhsil və idarəetmə prosesləri və s.). (6)

Əgər fənlərarası sahədə müzakirələrin vəzifəsi praktik mahiyyət kəsb edirsə, burada bütün dolaşıqlıqlar aradan qaldırılmalıdır. Heç kəs düşünməsin ki, bütün müvafiq mübahisəli məsələlər öz həllini tapan zaman hamı razı qalacaq. İlk növbədə, istifadə olunan kateqoriyaların mənası şəffaf və aydın olmalıdır. Ümumiyyətlə, fənlərarası tədqiqatlarda terminlər seçilən zaman tədqiqatçılar "mübahisəli anlayış" ifadəsinin istifadəsi prinsiplərini belə təyin etməliyik.

1. Terminlər siyahısında fənlərarası vəziyyət barədə aparılan debatlara aid heç bir məlumat verilməməlidir.

2. Siyahı tam olmalıdır, yəni təhsil proseslərin idarəolunması, öyrənilməsi və burada təlim və tərbiyə işlərin təşkili ilə bağlı seçilən terminlər adları çəkilən sahələrdə aparılan qeyri fənlərlə bağlı axtarışların təsvirinə uyğun olmalıdır.

3. Seçilən anlayışlar mədəni dəyərlər, təhsilin məqsəd və nəticələri kontekstində dəqiq təyin edilməlidir.

4. Terminologiyanın və adları çəkilən tərəflərdə mütləq şəkildə barəsində ümumi razılıq olmayan metodoloji, siyasi və fəlsəfi məsələlərə istinadlar olmalıdır.

5. Nə qədər ki, ümummetodoloji mövqelərin tətbiq olunmasında məhdudluq var, həmin mövqelərin əsasında duran fəlsəfi ehtimallar da hamı tərəfindən qəbul olunmayacaq. Çox az bir ehtimal var ki, fənlərarası tədqiqatlar sahəsində çalışan mütəxəssislər hansısa yeni universal, təhsil proseslərə aid ontologiyanın və yaxud epistemologiyanın yaradılmasına tərəfdar olardılar.

XX əsrin əksər müddətində təhsildə aparıcı tərəf ümumi fənlər və məktəb fənləri olmuşdur. Təhsil sistemində fənlərin nüfuzu belə bir maraqlı xüsusiyyətlə səciyyələnir: onun yaşı 100 ildən bir qədər artıqdır. Düzdür, "fənn" sözün etimologiyası daha qədimdir. "Dissiplina" latın sözü olaraq şagirdlərin təlimində şagirdlərin təlimini və ümumiyyətlə təhsil mühitini bildirirdi (8). Məlum olduğu kimi, XIX əsrin sonu, XX əsrin əvvəllərində müasir təhsil sistemi artıq institusional səviyyəyə ucala bilmişdir. Nəticədə fənlər ayrı-ayrı akademik sahələrə bölünmüşdür. Biliklərin "fənləşməsi" sahəsinə aid əsas proses, adı çəkilən tarixi inkişafına məhsulu olaraq iki qrup əlamətləri ilə səciyyələnir:

İlk əlamət müəyyən yanaşmanı və yaxud dünya görüşünü müəyyən edən funksional, yəni struktur bölgüdür (disserensiyaya):

-Tədqiqatın predmeti və obyektləri;

-Nümayəndələr, modellər, paradiqmalar və hüquq;

-Konsepsiyalar və nəzəriyyələr;

-Metodlar, prosedurlar, fəndlər və bacarıqlar;

-İzahedici rejim, dil üslubu, arqumentlər üslubu;

-Epistemologiya və ontologiya.

İkinci əlamət – dəqiq müəyyən edilmiş sahədə işin xarakterinə nəzarət edə biləcək hakimiyyət və idarəetmə sistemi:

-Tədqiqatların və tədrisin inzibati vahidləri;

-Peşənin institusional strukturları;

-Praktik işin legitimliyi və reallığın meyarı;

-Kollektiv və fərdi idetikləşməni formalaşdıran davranış mədəniyyəti;

-Təlim və təhsilin modelləri, maliyyə və çaplar;

-Fənn tarixinin nəzərə alınması;

-əmək və məşğulluq bazarları;

-maliyyə, prestik və imtiyazların paylanması;

-sosial, siyasi və intellektual potensialın qorunması və təşkili.

Bir sıra terminlər tədris proqramın fənlərarası təsvirin müxtəlif modellərini göstərir. Doğurdan da, fənlərarası vəziyyətə aid problematikada terminologiya məsələsi elmi ədəbiyyatda aparıcı sahələrdən biri olmuşdur. Müxtəlif terminlər inteqrativ tədris planların müxtəlif inteqrasiya və strategiya modellərini özündə əks etdirir.

Fənlərarası təhsil və pedaqoji strategiyalar. XXI əsrin dünyası üçün hazırlanan kadrların oxumaq və işləmək şəraiti dövlət təhsil müəssisələrin yarandığı dövründən çox fərqlidir. Sənaye aləmin birölçülü mentallığı kooperativ yanaşmada əsaslanan mentallığa çevrilmişdir. Bu da imkan yaratdı ki, fənlərarası vəziyyətin üstünlüklərindən yararlanan şəxslərdə müvafiq bacarıqları və yanaşmalar formalaşsın (müxtəlif tədris kursları vasitəsilə). Peşə sahəsində uğur qazanmaq üçün indiki universitet məzmunları gərək adicə fənn məzmununu mənimsəməklə kifayətlənməsin, öz təfəkkür, düşüncə səviyyəsini artırsın.

Müəllimlər getdikcə daha yaxşı başa düşürlər ki, tələbələr onlara verilən qeyri-müəyyən real həyat aləmi ilə bağlı olmayan biliklərin "yersiz" olduğunu başa düşür və onları asanlıqla unudurlar. Əgər oxumaq məqsədi tələbəni həyata hazırlamaq, onları əhəmiyyətli inkişaf sahələrinə qoşmaqdırsa, onda başa düşmək olur ki, tələbələr niyə biliklərin dinləyib danışmaq metodikasından uzaqlaşmağa çalışırlar. Həyatın real hadisələri, vəziyyətləri, nizamlanmış təsnifatlaşdırılmış fənlər daxilində öyrədilən zaman heç də öz həllinə gəlib çıxmır. XXI əsrin real həyatına tələbələri daha yaxşı hazırlamaq, nəzəriyyə və fənn məzmununu həyat təcrübəsi ilə uzlaşdırmaq üçün universitetlər ali təhsil pilləsi üçün müxtəlif fənlərarası yanaşmaları hazırlayır.

Biliklər təcrid olunmuş şəkildə qəbul olunmadığı üçün fənlərarası inteqrasiya üzərində qurulan təhsil yeni təfəkkür tərzinin yaradılması işində vacib alət olaraq ardıcıl şəkildə sahələrə bölünmüş bilikləri birləşdirməyə köməklik edir.

Məlumdur ki, fənlərarası inteqrasiya bir yanaşma kimi təhsil üçün yeni deyil. Bunun bünövrəsi ilk dəfə olaraq XX əsrdə qoyulmuş və həmişə olduğu kimi təhsilin mütərəqqi hərəkəti ilə əlaqəlidir. Fənlərarası əlaqələrin nəzərə alınması şagirdlərə təlimin perspektivlərini görməyə, tədris zamanı fənlərin sintez edilməsi işini son məqsəd kimi başa düşülməsinə şərait yaradır. Bu işdə şagirdlərə dəstək vermək, həvəsləndirmək lazımdır. Nəticədə onlarda tənqidi təfəkkür formalaşır, yaradıcılığa, əməkdaşlığa və ünsiyyətə meyl yaranır.

Fənlərarası əlaqələr üzrə mütəxəssislər biliklərin qovuşması, inteqrasiya olunması əhəmiyyəti və vacibliyini qeyd edir, müxtəlif fənlərin elmi-metodoloji əsaslarına tənqidi yanaşmaq, ziddiyyətləri aradan qaldırmaq üçün ümumi çıxış nöqtələrini axtarmağı təklif edirlər. Keçirilən tədqiqatlar göstərir ki, fənlərarası təhsil müəllimlərə öz həmkarları ilə fikir mübadiləsini aparmaq, ümumi təhsil məqsədlərini təyin etmək və müxtəlif mövqelərdən deyilən fənləri qiymətləndirmək imkanını əldə edirlər.

Şagirdlər fənlərarası əlaqələr üzərində qurulan proqramlar vasitəsilə görürlər ki, öz müəllimləri fasiləsiz təhsili necə modelləşdirir, fərdi təcrübəsinə əsaslanır və öz işinə səmərə gətirirlər. Şübhəsiz, tələbələr öz maraqları ilə təlimi birləşdirmək üçün daha çox yolları tanıyırlar. Burada təlim təcrübəsi, real dünyanın problemləri ilə birləşsə, bilikləri kompleks şəklində tətbiq olunması üçün tam şərait yaradılır. Fənlərarası əlaqələri nəzərə alan təlimin üstünlüklərindən istifadə olunduqca tədris planı hüdudlarında tənqidi təfəkkür, kreativlik, əməkdaşlıq bacarıqları və ünsiyyət vərdişləri formalaşır. Nəticədə,

şagirdlər hətta öyrənilən fənlərin hüdudlarından kənarda belə qərar qəbul etmək və bilikləri sintez etmək bacarığı qazanmışlar. Onlarda uyğunlaşdırmaq, qiymətləndirmək, vacib məlumatı ötürmək, dünyanın qlobal əlaqələri və asılılıqları daha yaxşı anlamaq və müxtəlif mövqeləri, perspektivləri və dəyərləri qiymətləndirmək bacarığı formalaşır. Bu baxımdan fənlərarası təhsilin təşkili həmkarlarla pedaqoji fikir mübadiləsi üsulu, ekspertlər, əməkdaşlar və tələblər gözü ilə öz fənnini qiymətləndirmək imkanıdır.

Pedaqoji nöqteyi-nəzərdən fənlərarası təlimin ən böyük üstünlükləri müzakirələrdə iştirak ilə eyni mövzuya müxtəlif yanaşma kəsiyindən qiymətləndirmək imkanıdır. Bu zaman müxtəlif təlim metodlar üçün geniş fürsət yaranır, nəticədə şagirdlərin koqnitiv bacarıqların formalaşması üçün şərait yaradılır. Müxtəlif intellektualları cəlb edən elə təlim metodikası, elə bir strukturdur ki, fənlərarası bilikləri nəzərə alan təhsilə səbəb olaraq qrup təlimi və sorğu məlumatlara əsaslanan bilikləri formalaşdırmağa nail olur. Belə strategiyalar tənqidi təfəkkürə, yaradıcılığa, əməkdaşlığa və ünsiyyət bacarıqların formalaşmasına səbəb olur. Hər iki halda qrup təliminindən istifadə olunur.

Nəticə. Bəzi fənlərarası əlaqələr əsasında dərs deyən müəllimlər belə bir məsələni müzakirə edirlər: şagirdlərin mənimsəmə faizini qaldırmaq üçün fənlərarası əlaqələrini nəzərə alan metodika əsasında qrup təlimi həqiqətən ən yaxşı üsuldurmu? Nəzərə almaq lazımdır ki, bir çox hallarda təlimdə fənlərarası problematikanı dərindən bilmədən xırdalıqlara varır və düzgün metodik istiqamətini itirirlər. Qrup şəklində "komanda" halında aparılan təlim çox vaxt ona görə məqsədinə nail ola bilmir ki, həmin komandanın ayrı-ayrı üzvləri fənlərarası yanaşmanı metodoloji və metodik problemlərini dərk edə bilmirlər. Qrup təliminin zəifliyi həm də ondan irəli gəlir ki, birgə işin aparılmasına vaxtın çatışmaması, qrup dinamikasına hazırlığın olmaması, vəzifə bölgüsündə uyğunsuzluq, "fənlərarası" münaqişəli zonalar, rol münaqişələri, maliyyənin azlığı göstərilməlidir (9). Bütün bu çatışmazlıqlara baxmayaraq, fənlərarası qrup (komanda) hazırlığı indi də müasir ali məktəblər və kolleclərdə aparıcı təlim strategiyası olaraq qalır.

Problemin aktuallığı. Fənlərarası əlaqələrin aşkar edilməsi, ilk növbədə, problemin elmi-nəzəri əsaslarının təyin edilməsinə köməklik edir. Elmi ədəbiyyatda bu problem olduqca çox mübahisələr doğurur. Fənlərarası əlaqələrin təhlili ümumelmi yanaşma imkanlarını aşkar etmək üçün bir yoldur.

Problemin yeniliyi. Bu məqalədə fənlərarası inteqrasiya problemi Azərbaycanda həyata keçirilən təhsil islahatına uyğun olaraq nəzərdən keçirilir. Məqalədə təhsil sahəsində fənlərarası təsirlər konkret olaraq təhlil olunur.

Problemin praktik əhəmiyyəti. Problemi öyrənməklə dərs prosesində təlim strategiyasını müəyyənləşdirilməsi mümkün olmuşdur. Qrup şəklində yaradılan komandanın vəzifələri və fəaliyyət meyarları təyin olunmuşdur.

Ədəbiyyat

1. Szostak, R. (2007). Modernism, postmodernism, and interdisciplinarity. Issues in Integrative Studies, 25, 32-83.

2. Blocker, T. Jean; Riedesel, Paul L. (1978). "The Nonconsequences of Objective and Subjective Status Inconsistency: Requiem for a Moribund Concept" // The Sociological Quarterly. Midwest Sociological Society. 19 (2): 332–9.

3. Berger, Joseph; Balkwell, James W.; Norman, Robert Z.; Smith, Roy F. (1992). "Status Inconsistency in Task Situations: A Test of Four Status Processing" // American Sociological Review. American Sociological Association. 57 (6): 843 –55.

4. Hope, Keith (1975). "Models of Status Inconsistency and Social Mobility Effects" // American Sociological Review. American Sociological Association. 40 (3): 322–43.

5. Barton, K.C. & Smith, L.A. (September 2000). Themes or motifs? Aiming for coherence through interdisciplinary outlines. The Reading Teacher, 54(1), 54 – 63.

6. Stryker, Sheldon; Macke, Anne Statham (1978). "Status Inconsistency and Role Conflict". Annual Review of Sociology. Annual Reviews. 4: 57–90.

7. Bolak, K., Bialach, D., & Dunphy, M. (May 2005). Standards-based, thematic units integrate the arts and energize students and teachers. Middle School Journal, 31(2), 57 - 60.

8. Flowers, N., Mertens, S.B., & Mulhall, P.F. (November 1999). The impact of teaming: Five research-based outcomes. Middle School Journal, 36(5), 9 - 19.

9. Jackson, A.W. & Davis, G.A. (2000). Turning Points 2000: Educating adolescents in the 21st century. New York: Teachers College Press

E-mail: sevinc-aliyeva-66@mail.ru
Rəyçilər: *ped.ü. fəls. dok., dos*. **M.A. Quliyeva**
ped.ü. fəls. dok., dos. **H.S. Həsənova**
Redaksiyaya daxil olub: 05.01.2019**.**

UOT 371.

Yeganə Baxış qızı Əskərova
psixologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi

ŞAGİRDLƏRİN ŞƏXSİYYƏT KİMİ FORMALAŞMASINA AİLƏ VƏ MƏKTƏBİN TƏSİRİ

Егяна Бахыш гызы Аскерова
доктор философии по психологии
преподаватель Азербайджанского Государственного Педагогического Университета

ВЛИЯНИЕ СЕМЬИ И ШКОЛЫ НА ФОРМИРОВАНИЕ УЧАЩИХСЯ КАК ЛИЧНОСТИ

Yegana Bakhısh Askarova
doctor of philosophy in psychology
teacher at Azerbaijan State Pedagogical University

INFLUENCE OF FAMILY AND SCHOOL ON FORMATION OF PUPILS AS PERSONALITY

Xülasə. Müasir dövrdə yetişməkdə olan gənc nəslin hərtərəfli inkişafı, onlarda lazımi bilik, bacarıq və vərdişlərin, yüksək mənəvi keyfiyyətlərin təşəkkülü təlim-tərbiyə prosesi qarşısında duran ən ümdə vəzifələrdən biridir. Cəmiyyət üçün gərəkli olan şəxsiyyətin yetişməsində ailə və məktəbin - valideyn və müəllimin rolu danılmazdır. Məhz ailə və məktəb birliyinin möhkəm olması şəxsiyyətin inkişafına əsaslı təsir göstərə bilər. Məqalədə bütün bu məsələlərə toxunulmuş, şəxsiyyətin inkişafında müəllim və valideynin rolu tutarlı fikirlərlə şərh olunmuşdur.

Açar sözlər: *şagird, müəllim, valideyn, cəmiyyət, şəxsiyyət, inkişaf, ailə, məktəb, tərbiyə*

Резюме. Всестороннее развитие растущего поколения молодых людей в современную эпоху, формирование необходимых знаний, умений и навыков, развитие высоких моральных качеств - одна из важнейших задач, стоящих перед учебным процессом. Роль родителей и учителей в семье и в школе - не определена в культивировании потребностей личности в обществе. Именно семья и единство школы может оказать глубокое влияние на развитие личности. В статье основное внимание уделяется всем этим вопросам, роль учителя и родителя была последовательной в развитии личности

Ключевые слова*: ученик, учитель, родитель, социум, личность, развитие, семья, школа, воспитание*

Summary. Comprehensive development of young generation, which presently forms, and development of knowledge, skills, habits and high moral qualities in them are the most important tasks for the educational process. The role of family and schools i.e. parents and teachers in the formation of persons needed for the society is undeniable.

Exactly strength of family and school union can substantially influence development of personality. All these issues were discussed in the article, and the role teachers and parents in the development of personality was commented with weighty thoughts.

Key words*: pupil, teacher, parent, society, person, de velop, family, shool, upbringing*

"Bəşər sivilizasiyasını ailəsiz və ailə həyat tərzi olmadan təsəvvür etmək mümkün deyil. Ailə öz mövcudluğunda bütün ictimai hadisələrin xüsusiyyətlərini əks etdirir" (1, 400 s). "Müasir Azərbaycan ailələrində uşaqlar gələcək həyatlarında əsas keyfiyyətlərdən biri olan ilkin əmək bacarıq və vərdişlərinə yiyələnirlər. İnsa-

na sevgi, hörmət və ətraf gözəlliklərlə uşaq ilk dəfə ailədə tanış olur" (1, s. 107).

İnsan dünyaya fərd kimi gəlir, lakin bir şəxsiyyət kimi özünün həyatı və fəaliyyəti prosesində uzun və mürəkkəb bir yol keçərək yetkinləşir. Şəxsiyyətin formalaşmasında ailə tərbiyəsinin böyük rolu vardır. Tərbiyə sayəsində uşaqda yeni qabiliyyət və keyfiyyətlər yetişir, müəyyən xarakter yaranır və formalaşır. Uşaq təlim-tərbiyə vasitəsilə həqiqi olmağı öyrənir, geniş dünyagörüşünə sahib olur. Bir sözlə, uşaq tərbiyə prosesində formalaşır. Uşağın insanlıq dünyasına daxil olması ailədən başlayır. Ailə üzvləri, yaşlı adamlar uşağın tərbiyəsi ilə məşğul olur, ona qayğı göstərirlər. Valideyn də, müəllim də uşağın uşaq şəxsiyyətinə böyük təsir göstərən şəxslərdir. Təlim-tərbiyə prosesi müəllim və valideynlərdən xüsusi səriştə və işə bələdlik tələb edir. Övlad tərbiyəsinin ən vacib məsələlərdən biri olduğuna xüsusi fikir verən N. Tusi "Əxlaqi-Nasiri" əsərində bu məsələyə ayrıca bir fəsil həsr etmişdir. N. Tusi ailə başçısının sağlam ailənin yaranıb qorunmasındakı rolunu xüsusi qiymətləndirir. O göstərir ki, ailə başçısı, birinci növbədə, evdəkilərin ümumi mənafeyinə riayət etməlidir. N. Tusi uşağın tərbiyəsində ağıla, idraka təsir edən başa salmaq yolunu əsas yol hesab edir və tərbiyədə aldadıcı və ucuz üsulların əleyhinə çıxır. Uşaqlara qarşı həssas olmaq, onların kiçik hərəkətini belə gözdən qaçırmamaq, vaxtında pis adət və hərəkətin qarşısını almaq ən kiçik, yaxşı bir hərəkət baş verdikdə onu tərifləyib adətə çevirmək, onlarda əməksevərlik, düzlük, bilik və peşəyə həvəs yaratmaq, xeyirxahlıq, başqalarına kömək vərdişləri aşılamaq, tənbəlliyə, yalan, böhtan, iftiraya, bədxahlıq etməyə, kədər və qəmlərə biganə qalmağa, xudpəsəndlik, öz hayına qalmaq, nifrət hissi və s. öyrətmək uşaq tərbiyəsinin əsası hesab edilir. Uşaqlarda pis adətlərə, bəd əməllərə nifrət yaratmaq lazımdır. Uşaq inkişafının ilk anlarında çoxlu səhvlərə yol verər, qəbahətli iş görər, çox zaman yalançı, paxıl, oğru, xəbərçi, tərs və inadkar olar və başqalarını da zərərli və xoşagəlməz iş tutmağa vadar edər. Buna görə də N. Tusi uşağı körpəlikdən tərbiyə etməyə xüsusi fikir verməyi məsləhət görür.

Ailədə uşağın tərbiyəsi heç də həmişə müvəffəqiyyətlə getmir, çətinliklər qarşıya çıxır, müəyyən səhvlərə yol verilir. Açılan səhər özü ilə bir ümid, fərəh, qayğı gətirir. O, qapıları döyərək valideynləri, uşaqları səfərbərliyə alır, onları əmək fəaliyyətinə səsləyir. Açılan səhər ideal ailəyə sevinc, ümid gətirir, normal ailədə bu səhərdə hər kəs öz vəzifəsini yerinə yetirir, qalmaqallı ailələrdə isə səs-küy, əsəbilik, qışqırıq yaranır. Ailə tərbiyəsindəki mühüm nöqsanlardan biri uşaqların tərbiyəsində vahidliyin olmamasıdır. Ailə tərbiyəsində ən qorxulu cəhət uşağın tərbiyəsinə laqeyd münasibətdir. Qapalılıq, uşağı hər cür ünsiyyətdən, kollektivdən ayırmaq məktəbli şəxsiyyətinin formalaşmasına mənfi təsir edir. Valideynlərin övladlarına nə qədər çox inamı və etibarı varsa, bunun müqabilində daha yaxşı nəticə əldə edirlər. Tərbiyədə hədə-qorxu, cəza müsbət nəticə vermir, uşaqların ruhi aləmini zəhərləyir, onlarda yalançılıq, qorxaqlıq, ikiüzlülük kimi mənfi keyfiyyətlər yaradır, onları iradəsizləşdirir.

Ailədə uşaqların tərbiyəsinə fərdi yanaşmaq, onların fərdi xüsusiyyətlərini nəzərə almaq vacibdir. Tərbiyə işində uşağın yaş və cinsini də nəzərə almaq əsas amildir. Ailə həyatı şəxsiyyətin inkişafına bütövlükdə təsir göstərir, onun və hisslərinin inkişafında ananın roluna son dərəcə böyük əhəmiyyət verirlər. Uşaq xarici aləmə bütün münasibətləri ana vasitəsilə müəyyənləşdirir. Uşağın işi necə görməsinə nəzarət olunmalı, ona sərbəstlik verilməlidir.

Məktəbdə tərbiyə - həyata hazır olan, hərtərəfli inkişafa və bədii zövqə malik gümrah, nikbin, sağlam vətəndaşların yetişdirilməsinə xidmət edir. Uşaqların hər biri özünəməxsus fərdi xüsusiyyətlərə malikdir. Uşaq özlüyündə kəşf olunmamış dünyadır. Bu dünyaya bələd olmaq, onunla faydalı iş aparmaq üçün müəllim onu dərindən öyrənməlidir. Hər bir uşağın öz təfəkkürü, hissləri, maraq və qabiliyyətləri, idealı, iradi və xarakter əlamətləri, temperamenti vardır. Bu xüsusiyyətləri nəzərə almaq vacibdir.

Ailə və məktəb uşaq şəxsiyyətinin inkişafına əsaslı təsir göstərir. "Məktəbə daxil olması uşağın ictimai həyatındakı vəziyyətini dəyişməklə bərabər, onun qarşısında tamamilə yeni bir aləm açır... Əlbəttə, bu münasibət heç asanlıqla formalaşmır... Bu vaxt müəllimin şəxsi nümunəsi çox mühüm tərbiyəvi əhəmiyyət kəsb edir, hətta şagirdlər ata-ananın dediklərindən müəllimin dediklərini üstün tutur"(2, 242). Təhsilin ilk günlərində uşaq tamam yeni təsirə düşür

və elə həmin andan müəllimini sevməyə başlayır. Və bu andan etibarən "müəllim tapşırdı ki, …" ifadələrini tez-tez eşitməli oluruq. Bu bir daha onu göstərir ki, məktəb yaşlı uşaq üçün müəllim avtoriteti böyük əhəmiyyət kəsb edir. İlk gündən müəllim və şagirdlər arasında qarşılıqlı anlaşma prosesi ehtiyatlı və dəqiq qurulmalıdır. Lakin müəllimlər müxtəlif xarakterli olduğundan kollektivdə bu münasibətlərin yaranması və şagirdlərin yanaşma tərzi müxtəlif olur. Elə bu zaman həm məktəbdə, həm də ailədə müxtəlif problemlər yaranır. Əlbəttə ki, valideynlərin böyük əksəriyyəti belə bir vəziyyətdə müəllimin və məktəbin tələblərinə düşüncə ilə yanaşmalı və uşaqlarını bu prosesə tədricən alışdırmalıdırlar. Belə müəllim valideyn arasındakı münasibətlər zamanı ata, yaxud ana məktəbdə uşağın sinfə oriyentasiyası, kollektiv və təhsilə münasibəti ilə maraqlanır. Bir çox hallarda isə valideyn məktəblə əlaqəsini tamam zəiflədir. Bunu isə vaxtın azlığı ilə əlaqələndirirlər. Bəzən isə: "Biz onu məktəbə vermişik və sizə etibar etmişik. Əgər nəsə baş versə, bizi çağırın " kimi fikirlərlə qarşılaşırıq. Bu halda valideynlər, şüursuz olaraq, uşaqların üzərində məsuliyyət yükünün azalmasını istəyirlər. Şagird 4-cü sinfə keçənə qədər məktəb və müəllimlə münasibət yaratmağa tələsmirlər. Tərəflər arasındakı qarşılıqlı münasibətin zəif olduğunu hiss edən şagird valideynləri ilə qeyri-səmimiliyə üstünlük verir. Məşhur psixoloq V.O. Suxomlinski deyirdi: "Uşağın mənəvi aləmini yalnız təlimə bağlamaq olmaz. əgər biz buna çalışsaq, uşağın həyatı dözülməz olacaq. O, təkcə məktəbli deyil, hər şeydən əvvəl, çoxtərəfli marağa və məqsədə malik olan insan olmalıdır". Bəzən sinifdəki müəllim-şagird münasibətlərinin pozulmasına müəllimin özünü pis hiss etməsi, məişət problemləri, yuxusuzluq və s. səbəb olur. Belə halda müəllim bütün zəifliyi bir kənara qoyub daha tələbkar və ciddi olmalıdır. O bu məharətini asta tərzdə elə həyata keçirməlidir ki, özünəqapanan və astagəl uşaqları təlimdən uzaqlaşdırmasın. K.D. Uşinskinin dili ilə desək, əsl tərbiyəçi bir tərəfdən məktəblə, digər tərəfdən isə həyat və elm arasında əlaqələndirici rolunu oynamalıdır.

Yeniyetmələrə gəldikdə isə onlar valideynlərinin məktəblə əlaqəsinə heç də cəhd göstərmirlər. Onlar belə hesab edirlər ki, yaranmış bütün problemləri özləri həll etməyə qadirdilər. Bu zaman: " Müəllimin vəzifəsi, hər şeydən əvvəl, həmin fərdiyyətin psixoloji xüsusiyyətlərini öyrənərək ona təsir yollarını axtarmaq, seçmək və tətbiq etməkdir "(3, 331 s). Lakin, yaxşı olardı ki, bu hallarda valideynlərdən ana məktəblə əlaqəni kəsməsin. Çünki belə vəziyyətdə yalnız ana başa düşər və onu təhsilə yönəldə bilər. Hər şeydən əvvəl, uşağın ailədə istənilən halda hər iki valideynlə səmimi münasibəti və ünsiyyəti olmalıdır ki, düşdüyü çətin vəziyyətlərdə ilk olaraq problemlərini valideynləri ilə bölüşməyə bağlı olsun.

Uşağın şəxsiyyət kimi formalaşması prosesində bir sıra qaçılmaz olan və ciddi diqqət tələb edən problemlər meydana çıxır. Şəxsiyyətin formalaşması üçün meydana çıxan həlledici məqamları yaşla bağlı çətinliklər adlandırırlar ki, uşağın inkişafında özünü daha çox 2-dən 4-ə, 7-dən 9-a, 13-dən 16 yaşa keçərkən büruzə verir. 2 yaşdan 4-5 yaşa keçid dövründə uşaq şəxsiyyətində özünəməxsus tərslik meydana çıxır. 7-9 yaşlarında isə özünüqiymətləndirmənin ilkin tərəddüdləri meydana çıxır. Keçid yaş dövrü isə xarakterin inkişafına yeni növ çətinliklər əlavə edir. Cinsi yetişkənliklə əlaqəli bəzi problemlərin meydana çıxması da bu yaş dövrünə təsadüf edir. Buraya məhəbbət, sədaqət, həyat, ölüm kimi məfhumlar da daxildir. "Müəllimlər yeniyetmələrin cinsi tərbiyəsinə xüsusi diqqət yetirməlidirlər. Onlar ehtiyatla, səbrlə əks cinsə hörmət hissi tərbiyə etməlidirlər. burada ehtiyatsızlıq, bir söz əks cinsə ya marağı, yaxud da mənfi münasibəti artıra bilər" (4, 186).

2-4 yaşlarında uşağın inkişafında ilk fizioloji böhran özünü göstərir. Bu zaman vegetativ endokrinoloji inkişaf sahəsində bir sıra dəyişiklər baş verir. Belə ki, boyun artması, daxili orqanların böyüməsi və psixo-nevroloji sistemin inkişafında nəzərəçarpacaq dəyişiklər baş verir. Bu keçid yaş dövründə valideynlər başa düşməlidirlər ki, uşaqların əsəb xəstəliklərinə tutulma ehtimalları güclənir. Psixoloqların böyük əksəriyyəti belə bir fikri dəstəkləyirlər ki, uşaq şəxsiyyətinin fizioloji inkişafının lazımı mərhələsində "Mən" obrazını kəşf edir. Bu zaman uşaq üçün sehrli bir "Mən" dünyası mövcud olmağa başlayır və o bunu mövcud əlamətlərlə nəzərə çarpdırır. Belə halda uşaq şəxsiyyəti üçün istək birinci yerdə durur, yəni hər işdə "mən özüm", "mən istəyirəm", "mən edəcəm" ərköyünlüyü nəzərə çarpır.

Məktəb təliminə atılan addım uşaq şəxsiyyətinin inkişafında baş verən ən ciddi proseslərdən biridir. Bu zaman uşaq qayğısız uşaqlıq illərindən məsuliyyətlə dolu olan yeni bir aləmə keçid alır. Aydındır ki, uşaq həyatın yeni sınaqlarına artıq daxilən hazır olmalıdır. Burada uşaq ağlının lazımi inkişaf səviyyəsi ilə yanaşı onun mənəvi keyfiyyətlərinin inkişafı, daxili qaydaları da nəzərə alınır. " ... şagirdlər gözləyirlər ki, müəllim onlara yaxşı dərs desin, yüksək qiymət versin, onların istəyini yerinə yetirsin və s." (5, 76). Uşaq üçün maraqlı olmayan bir kollektivdə artıq özü də bilmədən müəyyən sosial mövqe tutmağa və çalışmağa başlayır.

Yeniyetmə yaş dövrünə keçdikdə isə uşaq şəxsiyyətinin inkişafında kəskin dəyişikliklər nəzərə çarpır. Bu zaman onlarda daha çox eqoistlik, müstəqil qərar qəbuluna və fəaliyyətə can atma, özünü sübut etmə, tərslik və s. kimi xüsusiyyətlər üzə çıxır. "...yeniyetmədə özünə, öz şəxsi həyatına, şəxsiyyətinin xüsusiyyətlərinə maraq yarandıqca, özünüqiymətləndirmə tələbatı, özünü başqaları ilə müqayisə etmək meyli xüsusi məna kəsb edir. Bunun da nəticəsində yeniyetmə özü üçün öz "Mən"ini, bir növ, kəşf edir. Mənlik şüurunun formalaşmağa başlaması və inkişafı yeniyetmənin bütün psixi həyatına, onun təlim fəaliyyətinin xarakterinə, ətrafdakılarla münasibətinə, yaşlılarla, mənsub olduğu kollektivin üzvləri ilə qarşılıqlı münasibətlərinə öz təsirini göstərir"(6, 58). Yeniyetmələr əksər hallarda valideynlərinin onlara qarşı çıxmalarını qəbul etmirlər. Bu yaşda onlarda şəxsiyyətin inkişafına əks təsir göstərən xarici amillərə, məsələn, spirtli içkilərə, narkotiklərə və s. maraq artır. Yeniyetməni bu cür əməllərdən çəkindirmək üçün valideynlərin onlarla söhbəti kifayət deyil. Çünki bu yaş dövründə yeniyetmə özünü müstəqil hesab etdiyi üçün bütün proseslərdən keçməyə hazırdır. Valideynlər uşaqla əlaqədar hər hansı problemə rast gəldikdə kömək üçün məktəbə, məktəb psixoloquna müraciət edirlər. Məktəb psixoloqu uşağın yaşadığı və tərbiyə aldığı ailə, həmin ailə üzvləri arasındakı qarşılıqlı münasibət və s. ilə də maraqlanmalıdır. Məktəbin, məktəb psixoloqunun vəzifəsi uşağı tərbiyə etmək, onda mövcud olan qüsurları aradan qaldırmaq, onun şəxsiyyətindəki müsbət cəhətləri möhkəmləndirməkdən ibarətdir.

A.S. Makarenkonun sözləri ilə desək: "Tərbiyənin əsl mahiyyəti valideynin uşaqla birbaşa münasibətindən, onun hərəkətlərinə təsirindən deyil, ailə və şəxsi həyatın təşkilindən, uşağın dünyasının düzgün təşkil olunmasından ibarətdir".

Problemin aktuallığı. Gənc nəslin tərbiyəsi yaşadığı mühitlə, ünsiyyətdə olduğu insanlarla, təlim-tərbiyə aldığı pedaqoji kollektiv, ən vacibi isə böyüyüb başa çatdığı ailəsi ilə sıx bağlıdır. Ailə - cəmiyyətin insani dəyərlərin qorunmasını, nəsillərin mədəni və tarixi varisliyini təmin edən əsas elementidir. Ölkənin inkişafı haqqında fikir söyləmək üçün cəmiyyətdə ailənin vəziyyətinə və dövlətin ailəyə münasibətinə nəzər salmaq lazımdır. Ailənin əmin-amanlığı ölkənin tərəqqi və inkişaf meyarıdır. Ailəsini sevənlər cəmiyyətini də, vətənini də, xalqını da sevir. Ailəni də məktəb kimi qəbul etmək vacibdir, çünki burada uşaqlar ailə və cəmiyyət qarşısındakı vəzifələrini öyrənirlər.

Problemin elmi yeniliyi. Şagird şəxsiyyətinin inkişafında ailə və məktəbin rolu və vəzifələri hərtərəfli təhlil edilmiş, yeni tərbiyə yolları araşdırılmışdır.

Problemin tətbiqi əhəmiyyəti. Məqalədə göstərilən məsələlər məktəblərdəki pedaqoji-psixoloji prosesə yeni forma və metodların tətbiqində, yeni optimal variantların ortaya qoyulmasında istifadə edilə bilər.

Ədəbiyyat:

1. Çələbiyev N.Z. Ailə psixologiyası. Bakı: Mütərcim**,** 2015**.**
2. Qədirov Ə.Ə. Yaş psixologiyası Bakı: Maarif, 2002.
3. Əmrahlı L.Ş, Rzayeva N.T Uşaq psixologiyası. Bakı, 2010.
4. Əliyev R.İ. Tərbiyə psixologiyası. Bakı: Nurlan, 2006.
5. Həmzəyev M.Ə., Əmiraslanova S.F., Ünsiyyətin psixologiyası. Bakı: Nurlan, 2007.
6. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı: Qapp-Poliqraf, 2003.

E-mail: asgarova_y@mail.ru
Rəyçilər: *psix. ü.fəls dok.,dos*. **U.M. Qəzvini**
*psix. ü.fəls. dok.,dos.***M.C. İsmayılova**
Redaksiyaya daxil olub: 04.12.2018.

UOT 37.

Nahidə Xəqani qızı Əhmədova
Bakı Modern Təhsil kompleksinin müəllimi

KEYFİYYƏTLİ TƏHSİL ALMAQ HƏR BİR AZƏRBAYCAN VƏTƏNDAŞININ HÜQUQUDUR

Нахида Хагани гызы Ахмедова
учитель Бакинского Образовательного Комплекса Модерн

КАЧЕСТВЕННОЕ ОБРАЗОВАНИЕ ЯВЛЯЕТСЯ ПРАВОМ КАЖДОГО ГРАЖДАНИНА АЗЕРБАЙДЖАНА

Nahida Khagani Ahmedova
teacher of the Baku Educational Complex Modern

QUALITY EDUCATION IS THE RIGHT OF EVERY AZERBAIJANI CITIZEN

Xülasə: Məqalədə son illərdə ölkəmizdə aparılan islahatlardan, təhsil sahəsində görülən tədbirlərin bilavasitə təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəlməsindən danışılır. Təhsilin keyfiyyətini yüksəltmək, yeni pedaqoji texnologiyaları öyrənib onlardan səmərəli istifadə etməyin başlıca vəzifə olduğundan bəhs olunur. Daha sonra təhsildə keyfiyyətin təminatı üçün innovativ yanaşmaların əhəmiyyətli dərəcədə rolu haqda da ətraflı məlumatlar verilir.

Açar sözlər: *təhsilin keyfiyyəti, müəllimin mənəvi siması, pedaqoji texnologiya, tədris prosesi, təhsil strategiyası, didaktik tələblər.*

Резюме: В статье говорится о реформах, проводимых в стране в последние годы. В области образования для повышения качества образования применяются новые педагогические технологии. Для повышения качества образования и применения новых педагогических технологий и их эффективное использование является главной задачей в образовании. Затем в статье даётся подробная информация о том, что качество образования в значительной степени имеет инновационный подход в обучении.

Ключевые слова: *качество образования, учитель, моральный образ учителя, педагогические технологии, учебный процесс, образовательная стратегия, дидактические требования.*

Summary: The article is about the measures taken in the field of education in recent years in our country, reforms aimed at improving the quality of education. New pedagogical technologies to improve the quality of education, has studied the rational use of its main task as described. For more information about innovative approaches are significant role in further quality assurance in education.


Key words: *the quality of education, teacher's moral image, quality, pedagogical technology, teaching process, educational strategy, teaching requirements.*

Dövlətin, cəmiyyətin və təhsilalanların təhsil sisteminə sosial tələbi keyfiyyətli təhsildir. Təhsil sahəsində aparılan bütün islahatların məqsədi məhz onun keyfiyyətinin yüksəldilməsinə nail olmaqdır. Təhsilin keyfiyyəti nədir? O, necə müəyyən olunur? Təhsilin keyfiyyətini necə idarə etmək olar? Ümumiyyətlə, istənilən sahədə keyfiyyət anlayışı müəyyən olunmuş standartlara uyğunluğu ifadə edir. Obyektin və ya sistemin halını xarakterizə edən parametrlər standarta nə qədər yaxındırsa, keyfiyyət də bir o qədər yüksək hesab olunur. Təhsildə də belədir. Təhsilin keyfiyyəti əldə olunan nəticələrin əvvəlcədən müəyyən olunmuş meyarlara (standartlara) nisbəti ilə müəyyən olunur. Təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində əsas göstərici şagirdin təlim nəticələridir və bu nəticələ-

rin obyektiv qiymətləndirilməsi keyfiyyəti üzə çıxaran etibarlı mənbə hesab olunur.

Keyfiyyət bir fəlsəfi fikir hesab oluna bilər. Hələ qədim yunan alimi Aristotel keyfiyyət nədir və o necə ölçülməlidir kimi sual ətrafında fikirlər yürütmüşdür. XIX əsrdə alman filosofu Hegel keyfiyyətə belə bir tərif vermişdir: "Keyfiyyət ilk növbədə varlıqla eyni vəziyyətdədir. Əgər keyfiyyət yox olursa, varlıq da özünün var olmasını itirir".

Keyfiyyətə iki yanaşma nöqteyi-nəzərindən baxaq: fəlsəfi və idarəetmə yanaşma.



Müxtəlif təşkilatlar və keyfiyyəti araşdıran mütəxəssislərin keyfiyyətlə bağlı müxtəlif fikirləri vardır:

❖ Keyfiyyət - bir mal ya da xidmətin müəyyən bir zərurəti qarşılama qabiliyyətlərini ortaya qoyan xarakteristikalarının bütünüdür (Amerika Keyfiyyət Nəzarət Dərnəyi, ASQC).

❖ Keyfiyyət - bir malın və ya xidmətin istehlakçının istəklərinə uyğun dərəcəsidir .(Avropa Keyfiyyət Nəzarət Təşkilatı, EOQC).

❖ Keyfiyyət - məhsul ya da xidməti iqtisadi bir yoldan çıxaran və istehlakçı istəklərinə cavab verən bir istehsal sistemidir (Yapon Sənaye Standartları, JIS).

❖ Keyfiyyət - istifadə edilən bir məhsulun və ya xidmətin müştərinin gözləntilərinə cavab verməsini təmin edən bazar və istehsal xarakteristikasının toplanmasıdır (A. Feigenbaum).

❖ Keyfiyyət - ən iqtisadi və ən rahat şəkildə istehlakçını davamlı təmin edən

❖ keyfiyyətli məhsulu inkişaf etdirmək, dizaynını etmək, çıxarmaq, keyfiyyət nəzarəti həyata keçirmək və satış sonrası xidmətləri verməkdir (Dr. Kaoru Ishikava).

❖ Keyfiyyət - bir məhsulun tələblərə uyğunluq dərəcəsidir (P. Crosbiy).

❖ Keyfiyyət - məhsulun bazara daxil olunmasından sonra cəmiyyətdə səbəb olduğu minimal zərərdir (G. Taguchi).

Keyfiyyət - məqsədə və istifadəyə uyğunluqdur (J.M. Juran).

Ümumiyyətlə, təhsildə keyfiyyət nədir? Sualına cavab araşdırılarkən bir neçə tərifə rast gəlinmişdir:

- Keyfiyyət standartlara uyğunluqdur.
- Keyfiyyət şagirdin ehtiyaclarının qarşılanmasıdır
- Keyfiyyət-təhsilin məqsədlərinə uyğunluqdur
- Keyfiyyət davamlı müvəffəqiyyətdir
- Keyfiyyət inkişaf etdirilən bir təhsil proqramında (kurikulumda) eyiblər tapmaq deyil, onu eyibsiz tətbiq edə bilməkdir.
- Keyfiyyət ölçülə biləndir
- Keyfiyyət istifadəyə yararlılıqdır.
- Keyfiyyət-qüsursuzluq axtarışına sistemli bir yanaşmadır.

Keyfiyyətli təhsil hər şeydən əvvəl mənəviyyatı zəngin, yüksək mədəniyyətə malik bir şəxsiyyətin, insanda özünü realizə etmənin və özünü inkişaf etdirmənin, özü-özünü tərbiyələndirmənin, nizamlamanın, insanlar arasında sülh və əmin-amanlıqla yaşama kimi bilik, bacarıq və vərdişlər formalaşdırır. Keyfiyyətli təhsil şagirdə təbiət və cəmiyyət haqqında müəyyən biliklər verməklə kifayətlənmir, həmçinin insanı cəmiyyət içərisində layiqli mövqe qurmağa, nəticədə isə yaxşı vətəndaş kimi formalaşmağa kömək edir.

Dahi ingilis yazıçısı Kiplinq (1865-1936) yazırdı: "Təhsil yer üzərində yaranmışların ən xeyirlisidir, əgər o yüksək keyfiyyətə malikdirsə. Əks təqdirdə təhsil tamamilə faydasızdır".

Keyfiyyətli təhsilin məqsədi, onun strategiyası ilə sıx bağlıdır. Aydın ifadə edilmiş hədəflərin yoxluğu, nəticələrin cəmiyyətin yeni tələbləri ilə ayaqlaşmaması, ənənəvi strategiyalardan əl çəkə bilməmək təhsilin məhsuldarlığını aşağı salan səbəblərdəndir. Təhsilin ənənəvi strategiyaları inkişaf etmək istəyən insanın ümumi və xüsusi qabiliyyətlərini tormozlayan bir səbəbdir.

Təhsildə keyfiyyət asagıdakı sxemdə daha aydın görünür:



Problemin aktuallığı. Müasir dövrdə təhsil və təhsilin keyfiyyəti xüsusi diqqət mərkəzində saxlanılmaqla öz aktuallığını qorumaqdadır. Araşdırılan problem təhsildə keyfiyyət və onun göstəricilərinin nədən ibarət olması istiqamətində aparılmış və müasir dövrdə bu sahə ən aktual problem kimi önə çəkilməkdədir.

Problemin elmi yeniliyi. Araşdırılan problem müasir dövrdə maraq doğuran sahələrdən biridir ki, bu problemin sistemli şəkildə araşdırılması ilkdir.

Problemin praktik əhəmiyyəti. Məqalədə araşdırılan problem gənc tədqiqatçılar və sahə ilə maraqlananlar üçün, həmçinin Təhsilin keyfiyyətin nəzəri məsələləri araşdırılması ilə məşğul olanlar və ali məktəblərdə bu sahədə mühazirələr oxumaq üçün əhəmiyyətli ola bilər.

Ədəbiyyat:

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlətin Strategiyası // Kurikulum, 2013, №5
2. Təhsil Qanunu. Bakı, 2009.
3. Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 13 yanvar tarixli 5 nömrəli qərarı ilə təsdiq edilmişdir.
4. Ramiz Məmmədzadə. Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi. Bakı: "Müəllim" nəşriyyatı, 2010.

E-mail: nahide_ehmed@mail.ru
Rəyçilər: *dos.* **A. Bəkirova,**
dos. **Ə. Gərayev**
Redaksiyaya daxil olub: 06.12.2018

UOT 373.3/5.

Şəhla İsmayıl qızı Ələkbərova
Bakı şəhəri Elçin Qaranzadə adına 270 nömrəli tam orta məktəbin
Azərbaycan dili və ədəbiyyat müəllimi

MÜƏLLİMİN PEDAQOJİ FƏALİYYƏTİNİN TƏHSİLİN KEYFİYYƏTİNƏ TƏSİRİ

Шахла Исмаил гызы Алекперова
учитель азербайджанского языка и литературы
средняя школа № 270 им. Эльчин Гаранзаде гор. Баку

ВЛИЯНИЕ ПЕДАГОГИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ УЧИТЕЛЯ НА КАЧЕСТВО ОБРАЗОВАНИЯ

Shahla Ismayil Alakparova
teacher of Azerbaijani language and literature at
full secondary school № 270 named after Elchin Garanzade of Baku

IMPACT OF TEACHER'S PEDAGOGICAL ACTIVITY ON THE QUALİTY OF EDUCATION

Xülasə: Təhsil sahəsində aktuallığı ilə özünə xüsusi yer ayıran problemlərdən biri də təhsilin keyfiyyəti və bu keyfiyyətə təsir edən amillərdən biri kimi müəllimin keyfiyyət göstəriciləri məsələsidir. Müəllimin keyfiyyət göstəricisi, onun fəaliyyətindəki istiqamətlər, eləcə də xüsusiyyətləri məqalədə öz əksini tapmışdır.

Açar sözlər: *təhsildə keyfiyyət, təhsil islahatları, müəllim peşəsi, yaxşı müəllim, müəllim-şagird münasibətləri*

Резюме: Одной из проблем, которые занимают особое место в области образования, является качество образования и показатели качества учителей как один из факторов, влияющих на качество образования. В статье отражены показатель качества учителя, его тенденции и особенности.

Ключевые слова: *качество образования, реформы образования, профессия педагога, лучший учитель, отношения учителя и учеников*

Summary: One of the problems that pose a special place in the field of education is the quality of education, as one of the factors affecting this quality and the issue of teacher's quality indicators. The article reflects the teacher's quality indicators, directions of its activity as well as its features.

Key words: *the quality of education, education reforms, teacher profession, good teacher, müəllim-şagird attitudes*

Ümummilli lider Heydər Əliyevin Azərbaycanın inkişafı naminə dövlətin bütün sahələrində misilsiz xidmətləri olmuşdur. Bu sahələrdən ən birincisi təhsildir. Çünki, bütün sahələrin əsasında, inkişafında təhsil, müəllim durur.

Bildiyimiz kimi, müəllim öyrədən, tərbiyə edən və inkişaf etdirən bir şəxsdir. Bu şəxs şəxsiyyətin yetişməsində, onun cəmiyyətə hazırlanmasında əsaslı rol oynayır. Müəllim peşəsi digər peşələrdən özünəməxsusluğu ilə seçilir. Çünki bu peşənin nümayəndələri gələcəkdə özünə müxtəlif peşələr seçəcək nəslin yetişməsinə təsir edir, onu mühitə, gələcəyə, cəmiyyətə hazırlayır.

Bu gün aktuallığı ilə özünə xüsusi yer ayıran problemlərdən biri də təhsilin keyfiyyəti və bu keyfiyyətə təsir edən amillərdən biri kimi müəllimin keyfiyyət göstəriciləri məsələsidir.

Müəllim peşəsinə elmi-pedaqoji yanaşmalarda müxtəlif cür tərif verilsə də, həmçinin münasibətlər bildirilsə də cəmiyyətdə də bu peşənin cavabdehlərinə müxtəlif tələblərlə yanaşmalar var. Mövcud cəmiyyət müəllimdən çox şey

gözləyir və bu gözləntiləri nəticələrlə əlaqələndirir. Nəticədə yaxşı şagird yaxşı müəllimin məhsulu kimi dəyərləndirilir. Yaxşı müəllim kimdir? O, hansı göstəricisinə görə yaxşı hesab edilə bilər?

Müəllimin keyfiyyət göstəricisini araşdırarkən onun fəaliyyətindəki istiqamətləri mütləq nəzərdə saxlanılmalıdır. Müəllimin hərəkətləri nümunəvi, dinamik olmalıdır. Bununla yanaşı, o, münasibətlərdə səmimi olmalıdır. Şagird onun üçün "canlı əşya" hesab edilməməli, o da bir cəmiyyətə hazırlanan şəxsiyyət kimi görülməlidir. Sağlam mühit yaratmaqla sinifdə şagirdin özünü rahat hiss etməsini təmin etməlidir. Bəzən müəllim çalışır ki, şagird onun xüsusiyyətlərinə uyğunlaşsın. Əslində, müəllim şagirdlərin xüsusiyyət və xarakterlərinə uyğunlaşmalı, onlarla ortaq bir ünsiyyət xətti tapmalıdır ki, dərs uğurlu və səmərəli alınsın. Müəllimin həddindən artıq temperament nümayiş etdirməsi və ya aşağı temperamentə malik olması sinifin ümumi atmosferinə təsir etmiş olar. Ona görə də dərs zamanı müəllim müəyyən aktyorluq bacarığı nümayiş etdirməli, yorucu olmayan bir dərs mühiti yaratmalıdır. Keyfiyyətə təsir edən amillərdən biri də mühitdir. Yorucu mühitdə dərs şagirdlərin gərginləşməsinə, müəllimin idarəçiliyinin itirilməsinə səbəb ola bilər. Ona görə də müəllim mütləq fəallaşmanı nəzərdən qaçırmamalı, lazımı məqamlarda fəallaşmalar etməlidir.

Təhsilin keyfiyyətində yaxşı müəllimin rolu mühümdür. Yaxşı müəllim bir çox xüsusiyyətlərə malik olmalıdır ki, bunlara aiddir: səbirlilik, qərəzsizlik, demokratik mühütə meyillilik, tolerantlıq, çevik düşüncə, situasiyaya görə çevik çıxış yolları tapmaq, bərabər imkanların yaradılması, qiymətləndirmə bacarığı, intellektuallıq, fasilitatorluq və s.

Özünü inkişafa meyilli müəllim bu kimi xüsusiyyətlərə malik olmaqla təlim mühitində sağlam rəqabətə əsaslanan dərs keçməli, səmərəli strategiyadan istifadə etməklə şagirdlərin bilik və bacarıqlarını inkişaf etdirməlidir. Təhsilin inkişafında müəllim təkcə özünüinkişafla məşğul olmamalı, məktəbin inkişafı ilə bağlı işlərə də cəlb olunmalı, məktəblə valideyn əlaqələrinin qurulmasına, müəllim-şagird-valideyn, eləcə də məktəb əməkdaşlığına can atmalı, bunun üçün müəyyən işlər görməlidir.

Təhsilin keyfiyyətinin yüksəldilməsi üçün, ilk növbədə, məktəbdə bilik və bacarıqlara, elə də pedaqoji səriştəyə malik olan müəllimin olması və yetişməsi əsasdır. Təlim-tərbiyə mühitini formalaşdıran müəllim Təhsil Qanunu ilə yanaşı müəllimə lazım olan bir çox sualların cavabını bilməlidir ki, bunlara aşağıdakılar daxildir:

- Dövlətin Təhsil siyasətini əks etdirən sənədlərlə tanışlığınız varmı?
- **Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (**kurikulumları) sənədi haqqında məlumatlınız varmı?
- Sağlam təlim mühitinin yaradılması üçün nə edirsiniz?
- Kurikulumların tətbiqi ilə bağlı hansı məktəbdə hansı problemlər yaranır və bu problemləri necə aradan qaldırırsınız?
- Fənn kurikulumlarının tətbiqi zamanı təlimdə müasir texniki vasitələrdən necə istifadə edirsiniz?
- Fənniniz üzrə hansı məzmun standartlarının reallaşdırılması zamanı çətinliklə üzləşirsiniz?
- Sizcə təqdim edilən resurslar standartların reallaşmasına imkan verirmi?
- Şagirdin qiymətləndirilməsi zamanı qiymətləndirmə vasitəsini nəyə əsasən seçirsiniz?
- Qiymətləndirmə standartlarından nə vaxt istifadə edirsiniz?
- Təlim prosesi zamanı yeni pedaqoji texnologiyalardan istifadə şagirdlərin idrak fəallığına necə təsir edir?
- Perspektiv planlaşdırmanı tərtib edərkən mövzuları nəyə əsasən müəyyənləşdirirsiniz?
- Perspektiv plan tərtib edərkən mövzulara ayrılan saatları necə müəyyən edirsiniz?
- Dərsdə inteqrativliyi necə həyata keçirirsiniz?
- Təlim tapşırıqları zamanı resurs kimi hansı əlavə ədəbiyyatlardan istifadə edirsiniz?
- Formativ qiymətləndirmə zamanı müəyyən etdiyiniz problemləri necə aradan qaldırırsınız?
- Summativ qiymətləndirmə nəyə əsasən aparılır?
- Dərsin məqsədini nəyə əsasən müəyyən edirsiniz?
- Valideynlərlə əməkdaşlığı hansı formada həyata keçirirsiniz?

- Şagirdləri stimullaşdırmaq üçün hansı tədbirləri həyata keçirirsiniz?
- Tədris prosesi zamanı hansı üsul və vasitələrdən daha çox istifadə edirsiniz?
- Dərsinizi necə qurursunuz və dərsin hansı mərhələsində çətinliklə üzləşirsiniz?
- Müasir dərs hansı mərhələlərdən ibarət olur?
- Motivasiya nədir və onu qurmaqda məqsəd nədən ibarətdir?
- Təlimdə geri qalan şagirdlərlə işi necə qurursunuz?
- Təlim ekskursiyalarını nəyə əsasən planlaşdırırsınız?
- Dərs prosesi zamanı şagirdlərlə məsuliyyəti necə bölüşürsünüz?
- Sağlam təlim mühitinin yaradılması üçün nə edirsiniz?
- Sizin əməyiniz məktəb rəhbərliyi tərəfindən stimullaşdırılırmı?
- Məktəbin həyatında öz rolunuzu nədə görürsünüz?

Qeyd olunan suallar əsasında hər bir müəllim öz üzərində işləyərsə, yetişməkdə olan gələcək nəslin inkişafına yol açmış olar. Müəllim istər müasir dövrdə, istərsə də əvvəllər həmişə təhsilin keyfiyyətinin yüksəldilməsində əsas rola malik olmuşdur. Millətə, vətənə, dövlətə layiqli vətəndaş yetişdirmək təhsilin keyfiyyət göstəricilərindən biridir ki, bu şərəfli işin ən ağır yüklü hissəsi də müəllimin üzərinə düşür.

Nəticə olaraq göstəririk ki, müəllimlik peşəsinə yiyələnmək özü-özlüyündə həyatdır, həyatda özünə mövqe qazanmaqdır. Cəmiyyətin inkişafında müəllimlik peşəsi əsasdır, həyata şüurlu münasibət göstərməkdir. Müəllim üçün onun sənəti əzizdir. Heç bir müəllim bu sənətdən doymur. Müəllim sənətini sevərək yaşadır, inkişaf etdirir. Ulu Öndər Heydər Əliyev öz çıxışlarının birində söyləmişdir: "Məktəbin, müəllimlərin ən əsas vəzifəsi bizim cəmiyyətimizə, xalqımıza, ölkəmizə dəyərli vətəndaşlar hazırlamaqdır".

Problemin aktuallığı. Təhsilin keyfiyyətinin göstəricilərindən biri olan müəllimin fəaliyyəti, onun üzərinə düşən vəzifələr, yaxşı müəllimin xüsusiyyətləri, şagird-müəllim-valideyn münasibətləri, dərsin keyfiyyəti, müəllimin özünü inkişafı və s. hal-hazırda təhsil siyasətinin, eləcə də cəmiyyətin ən aktual problemlərindən biridir.

Problemin elmi yeniliyi. Təhsilin keyfiyyətinin yüksəldilməsində müəllim fəaliyyətinin rolu sistemli şəkildə araşdırılaraq öyrənilmişdir.

Problemin praktik əhəmiyyəti. Məqalədə öz əksini tapan müəllim fəaliyyətinin göstəriciləri, eləcə də yaxşı müəllim olmaq üçün nələri bilmək və bacarmaq kimi məsələlər öz əksini tapdığı üçün bu problem gənc müəllimlər və tələbələr üçün vasitə ola bilər.

Ədəbiyyat:

1. http://www.cabmin.gov.az/?/az/pressreliz/view/437/
2. Əliyev H. Pedaqoji ustalığın əsaslan. (Dərs vəsaiti). Bakı: ADPU, 1999.
3. Həmzəyev M.Ə. Pedaqoji psixologiya. Bakı: Maarif, 1991
4. Mehrabov A.O. Müasir təhsilin metodoloji problemləri. Bakı, 2012.
5. Müəllim hazırlığına yeni yanaşmaları. Bakı, 2012.
6. İbrahimov F.N., Hüseynzadə R.L. Pedaqogika. Bakı, 2012.
7. Сластенин В.А., Исаев И.Ф., Шиянов Е.Н. Педагогика. М.: Академа, 2000.

E-mail: Shehla270@mail.ru
Rəyçilər: *ped.ü.fəls.dok., dos.* **A. Bəkirova,**
ped.ü.fəls.dok. **K. Mahmudova**
Redaksiyaya daxil olub: 14.12.2018.

TƏHSİLİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ, QİYMƏTLƏNDİRMƏSİ VƏ İDARƏ OLUNMASI MƏSƏLƏLƏRİ

UOT 37.

Firəddun Nadir oğlu İbrahimov
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Şəki filialı,
pedaqogika üzrə elmlər doktoru, professor

Xuraman İsa qızı Həmidova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Şəki filialı, baş müəllim

ÜMUMTƏHSİLİN KEYFİYYƏTİNİN İDARƏOLUNMASININ BƏZİ ASPEKTLƏRİ BARƏDƏ

Фиреддун Надир оглы Ибрагимов
доктор наук по педагогике,
профессор Шекинского филиала
Азербайджанского Государственного Педагогического Университета

Хураман Иса гызы Гамидова
старший преподаватель Шекинского филиала Азербайджанского Государственного Педагогического Университета

О НЕКОТОРЫХ АСПЕКТАХ УПРАВЛЕНИЯ КАЧЕСТВОМ ОБЩЕГО ОБРАЗОВАНИЯ

Firaddin Nadir Ibrahimov
doctor of pedagogical sciences , professor at Shaki branch of Azerbaijan Pedagogical State University

Xuraman Isa Hamidova
senior lecturer at Shaki branch of Azerbaijan Pedagogical State University

ABOUT THE ASPECTS OF CONTROLLING OF THE QUALITY OF TOTAL EDUCATION

Xülasə: Məqalədə təhsildə keyfiyyət konsepsiyası izah edilir və o, cəmiyyətin maraqlarına səbəb olan aktual bir problem kimi qiymətləndirilir. Müəlliflər təhsilin effektivliyini təmin edən prinsiplərə diqqət yetirir və təhsildə keyfiyyət konsepsiyasını xarakterizə edən amilləri göstərir. Məqalədə həmçinin, tələbələrin peşəkarlıq qabiliyyətlərinin formalaşdırılması məqsədilə təhsildə keyfiyyətin yeni peşəkar bacarıqlar tətbiq etməklə təmin edilməsi göstərilmişdir.

Açar sözlər: *təhsil sahəsində keyfiyyət, səmərəli idarəetmə sistemi, keyfiyyətin qiymətləndirilməsi üsulları, təhsil fəaliyyətinin nəticələri, sistemli fəaliyyət, cognitiv component, refleksiv component, tənzimləyici component, kommunikativ komponent*

Резюме: В статье описывается концепция качества образования и это рассматривается как одна из актуальных проблем, которая вызывает интерес в обществе. Авторы обращают внимание на принципы, обеспечивающие эффективность образования и показывают факторы, характеризующие концепцию качества в образовании. В статье показывается предоставление качественного образования путем применения новых профессиональных навыков для формирования компетентности студентов.

***Ключевые слова**: качество в системе образования, эффективная система управления, методы оценки качества, результаты образовательной деятельности, систематическая деятельность, когнитивный компонент, рефлексивный компонент, регуляторный компонент, коммуникативный компонент*

Summary: It is explained the conception of quality on education, and the quality of education is appreciated as an actual problem which caused the curiosity of society. The author attracts the principles which ensuring the effectiveness of controlling the education, and shows the factors which characterizing the conception of the quality of education. It is also shown the ensuring the quality on education, applying the new professional competencies approaches to the content and method of education for formulating professionalism ability on learners.

***Key words:** quality on education, effeciently management system, quality evaluation methods, results of educational activities, systematic activity, cognitive component, reflexive component, requlatory component, communicative component*

Təhsilin inkişafı problemləri hamını - ölkə miqyasında idarəetmə qərarlarını qəbul edən nazirdən tutmuş, təhsil müəssisəsi rəhbərlərini, elmi işçiləri, dərslik müəlliflərini, metodistləri, müəllimləri, bir sözlə, müxtəlif səviyyələrdə təlim-tərbiyə prosesini təşkil edənləri və nəhayət, valideynləri, bütün ictimaiyyəti narahat edir, düşündürür, onların həlli yollarını axtarmağa məcbur edir. Təhsilin inkişaf etdirilməsi ilə bağlı problemlərdən biri, bəlkə də birincisi müasir zamanın çağırışlarına adekvat keyfiyyətli təhsilin bərqərar olunması və onun idarə olunmasıdır. Professor R.H. Məmmədzadə haqlı olaraq qeyd edir ki, bu gün təhsildə keyfiyyətin idarə olunması aktuallığı ilə diqqət çəkir (5; 3).

Təhsil sahəsində keyfiyyət dedikdə, təhsilin nəticələrinə uyğun əvvəlcədən müəyyən edilmiş normativlərə müvafiq öyrənənlərin səviyyəsi, ümumi halda isə təhsil sisteminin durumu başa düşülür. Keyfiyyət istənilən obyektin, o cümlədən təhsilin müəyyənliyini bildirən fəlsəfi kateqoriya olub, onun xassələrinin məcmusunda təzahür edən obyektiv və ümumi xarakteristikadır. Keyfiyyət istənilən prosesin elə bir müəyyənləşdiricisidir ki, onun sayəsində proses başqa proses kimi yox, məhz həmin proses kimi çıxış edir və digər proseslərdən fərqlənir.

Tarixən təhsil müəssisələrində təhsilin nəticəsini, keyfiyyətini qiymətləndirmək məqsədilə aşağıdakı kimi kvalimetrik (təsviredici) metodikalardan istifadə olunub:

-müəllimlər tərəfindən müəyyənləşdirilmiş proqnozun əldə edilməsi;

-şagirdin həyatında həmişə baş verən ekstremal situasiyalarda şagirdlərin əxlaqının qiymətlndirilməsi;

-müəllimlər tərəfindən düşünülmüş və təşkil edilmiş diaqnostik situasiyalarda şagirdlərin əxlaqının qiymətləndirilməsi;

-məktəbin özü tərəfindən hazırlanmış meyarlar şkalası üzrə nəticələrin qiymətləndirilməsi;

-psixoloji göstəricilərin, şagirdin həyatında istifadə edilən hər cür hərəkətin, fəaliyyətin qiymətləndirilməsini: necə etməyi bilir (intellektual göstərici); həyata keçirməyi bacarır (iradi göstərici); reallaşdırmaq istəyir (emosional göstərici).

Müstəqillik qazanıldıqdan sonra təhsilimizdə keyfiyyətin yüksəldilməsinə və onun səmərəli idarəolunma modellərinin elmi əsaslarının işlənilməsinə münasibət dəyişmiş və sözügedən yönümdə iş daha konstruktiv xarakter almışdır. Müasir təhsil konsepsiyası təfəkkürün inkişafını şagirdlərin əqli inkişafının başlıca məqsədi sayır (1; 54).

Müasir dövrdə təhsilin keyfiyyətinin cəmiyyətin aktual problemi kimi qəbul edilməsinin əsas səbəblərini aşağıdakı iki obyektiv halla izah etmək olar:

-keyfiyyətli təhsil sisteminin qurulması ilə təhsil fəaliyyətinin bütün subyektləri-öyrənənlər, valideynlər, pedaqoqlar, təhsil sisteminin səmərəli idarə olunması ilə müxtəlif səviyyələrdə məşğul olan rəhbər və başqa işçilər maraqlanırlar. Son zamanlar təhsilalanlar üçün keyfiyyətli təhsil sisteminin qurulmasına diqqət daha da artmaqdadır. İstər cəmiyyət, istərsə də dövlət vətəndaşların keyfiyyətli tədris prosesi ilə əhatə olunmasında çox maraqlıdır;

-ümumtəhsil məktəbləri hazırda təlim prosesinin profilləşdirilməsi, innovatik xarakterli

yanaşmaların tətbiqi, yeni pedaqoji və təlim texnologiyalarından səmərəli istifadə, yeni dərslik və dərs vəsaitlərinin, tədris proqramlarının, tədris-metodik komplekslərin seçim imkanlarına görə bir-birindən fərqlənir. Belə müxtəlifliklərin son illərdə təhsil sistemində daha geniş yer aldığı bir şəraitdə təhsilin keyfiyyətinin stabilləşdirici rolu prosesin səmərəli idarə olunmasına geniş imkanlar açır. Ona görə də hazırda valideynlərin və öyrənənlərin təhsil müəssisələrini sərbəst seçməyə olan meylləri daha da genişlənir, həm də rəqabətyönlü öyrənənin hazırlanmasında, tələblərin yerinə yetirilməsində təhsil müəssisələrinin məsuliyyəti artır.

Təhsil müəssisəsinin idarə olunması mürəkkəb bir prosesdir. Həmin prosesdə təhsil keyfiyyətinin qiymətləndirilməsi barəsində danışılan mürəkkəb prosesin aparıcı istiqamətlərindən biridir. Bu idarəetmədə prosesin özü və onun məqsədyönlü xarakteristikası, prosesin parametrlərinin son nəticəyə uyğunluğu təmin edildiyi halda effektiv idarəetmədən, onun elmi əsaslarından bəhs etmək olar. Təbii ki, nəticə prosesin özündən, onun keyfiyyətli təşkilindən asılıdır. İdarəetmə baxımından tədris prosesinin hər bir mərhələsində təhsilin keyfiyyətini qiymətləndirmək məqsədilə onun keyfiyyət göstəricilərinin qruplaşdırılması, prosesin gedişində dövri, yaxın və uzaq zaman kəsiklərində təhsil nəticələrinin qiymətləndirilməsi nəzərdə tutulmalı və məktəbin fəaliyyəti bu nəticələrə istiqamətlənməlidir. Təhsilin keyfiyyətini idarəetmə tədqiqat xarakteri daşımalıdır.

Elmi-pedaqoji mənbələrdə göstərilir ki, təhsildə keyfiyyətin idarəolunmasının effektivliyini təmin edən pedaqoji prinsipləri aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

1. İdarəolunan sistemin səmərəliliyinin əsas göstəricisi kimi "təhsilin keyfiyyəti" anlayışı haqqında məlumatların dəqiqliyi (əgər idarəolunan obyekt (sistem) dəqiq müəyyən edilməmiş olarsa, onda idarəetmənin mənası itir, əgər idarəolunan obyekt yarımçıq müəyyənləşdirilərsə, bu halda idarəetmə səmərəsiz olur, təhsil sisteminin və ya təhsil müəssisələrinin fəaliyyətində heç bir müsbət irəliləyiş əldə edilmir);

2. Təhsilin keyfiyyətinin səmərəli idarəolunma sisteminin idarəetmənin ümumi qanunlarına uyğunluğu;

3. Təhsilin keyfiyyətinin səmərəli idarəolunma sisteminin tədris-təlim prosesinin qanun və qanunauyğunluqlarına müvafiqliyi (8; 46-47).

Professor A.O. Mehrabov yazır ki, təhsilin keyfiyyətini idarə etmək üçün istifadə olunan yanaşmaların təhlili aşağıdakı nəticələrə gəlməyə əsas verir:

- keyfiyyətin idarə olunmasını təmin etməkdən ötrü idarəolunan hər bir obyekt üçün o anlayışın məna tutumu qabaqcadan müəyyən edilməlidir;

-təhsilin keyfiyyətinin bütün təhsil sistemi üçün eyni olan ümumi, eyni zamanda hər bir idarəolunan obyekti xarakterizə edən və müvafiq xassəyə malik xüsusi elementləri özündə cəmləşdirdiyi nəzərə alınmalıdır;

- təhsilin keyfiyyəti mürəkkəb struktura malik olduğundan, onun idarəolunma üsulları barədə yekdil fikir formalaşmadığından, istənilən təhsil sistemi və təhsil müəssisəsi üçün onun ümumi tərifini və geniş şərhini dəqiq vermək mümkün deyildir

Təhsilin keyfiyyəti anlayışını xarakterizə edən faktorların (amillərin) düzgün müəyyənləşdirilməsi obyektin keyfiyyətinin idarə olunmasına imkan verir. Professor A.O. Mehrabovun fikrincə, belə amilləri müəyyən məntiqi əsasa dayanaraq qruplaşdırmaq mümkündür (3; 214-215).

Təhsil sistemindən istifadə edən konkret istehlakçının tələbləri təhsil sisteminin fəaliyyəti ilə birbaşa bağlı olan təhsilin keyfiyyətinin əsas məzmununu müəyyən edir. Bu tələblərə fəaliyyətin bütün parametrləri tabe olur. Çox hallarda təhsil sistemi eyni zamanda bir neçə istehlakçı ilə işləməli olur. Belə hallarda hansı istehlakçının tələblərini yerinə yetirmək, hansı tələbləri təhsilin keyfiyyətinin müəyyən edilməsində əsas kimi götürmək çox əhəmiyyətlidir. Aparılan təhlillər göstərir ki, belə hallarda öyrənənlərin tələblərinin yerinə yetirilməsi məntiqidir. Məhz belə yanaşma şagirdə istiqamətlənmiş təhsilin qurulmasının tələblərinə cavab verir. Burada qüvvədə olan norma və standartlarda, artıq ictimai və dövlət status almış çoxlu sayda tələblər ümumiləşdirilməlidir. Öyrənənləri eyni və ya oxşar tələblərə görə qruplaşdırmaq lazımdır. Bu tələblər təhsilin keyfiyyətinin müəyyən hissəsini özündə cəmləşdirir və onun məzmununu müəyyən etməyə imkan verir.

Təhsildə keyfiyyətin qiymətləndirilməsi ilə bağlı bir çox üsullardan istifadə olunur. Bunlara aşağıdakıları daxil etmək olar:

- təhsil müəssisələrinin lisenziyalaşdırılması;

- pedaqoji işçilərin və təhsil müəssisələrinin attestasiyası;

- öyrənənlərin aralıq və yekun attestasiyası;

-təhsil müəssisələrinin tədris və digər fəaliyyətinin auditi;

-professional, peşəkarlıqla bağlı müsabiqələr (3, s. 216).

Bu məsələlər içərisində təhsildə keyfiyyətə nəzarət və onun durumunun müntəzəm təftiş edilməsi xüsusi yer tutur. Bu halda istənilən prosesin keyfiyyətinin qiymətləndirilməsi və bircins obyektlər üçün yeni qiymətləndirmə meyarlarının müəyyənedilmə prosedurları əsas kimi götürülür.

Təhsilin keyfiyyətinin effektiv idarəolunma sisteminin formalaşdırılmasında "prosesə" və ya "nəticəyə" görə idarəetmə ilə bağlı yanaşmaların hansına üstünlüyün verilməsi xüsusi əhəmiyyət daşıyır. Bəzi yanaşmalarda təklif olunur ki, təhsil müəssisələrində baş verən prosesləri - əsas, idarəolunan və yardımçı kimi üç qrupa bölmək mümkündür. Əsasa elmi-metodik və elmi-tədqiqat işlərini; idarəolunmaya strateji planlaşdırmanı, istehlakçıların tədris fəaliyyətinin nəticələrindən istifadə səviyyəsinin qiymətləndirilməsini; yardımçıya isə material təminatını, maliyyənin və infrastrukturun idarə olunmasını daxil etmək olar.

Təhsil fəaliyyətinin nəticələri istehlakçının tələblərinə tamamilə uyğun gəlməlidir. Burada əsas məsələ, hansı nəticələri təhsil fəaliyyətinin əsas göstəricisi kimi qəbul olunmasının müəyyən edilməsidir. Məlumdur ki, təhsildə qarşılıqlı təsirlərin obyekti öyrənən olduğundan, məntiqi olaraq təhsilin nəticələrini öyrənənə aid olan xarakteristikalarda vermək lazımdır.

Bəzi tədqiqatçılar təhsilin nəticələrini məhz belə yanaşmalarla müəyyənləşdirmiş və aşağıdakıları əsas götürmüşlər:

-şagirdlərin bilik, bacarıq və vərdişlərini;

-öyrənənin şəxsi inkişaf prosesinin göstəricilərini;

-tədris-təlim prosesinə təsir edən mənfi təsirlərin aradan qaldırılmasına dair işlənilmiş effektiv yanaşmaları;

-şagirdlərin səriştəlilik səviyyəsini.

Bəzi tədqiqatçılar isə təhsilin nəticələri kimi aşağıdakıları ön plana çəkirlər:

-şəxsiyyətin yüksək özünüdərkini;

-fiziki və mənəvi sağlamlılığını;

-yüksək təhsilliliyini, özünün təhsilə olan tələbatını və vərdişlərini;

-yüksək tərbiyəliliyini;

-vətənpərvərlik və yüksək vətəndaşlıq mövqeyini.

Başqa qrup tədqiqatçılar isə təhsilin nəticəsi kimi, təhsilini başa vurmuş öyrənənlərdə aşağıdakı parametrləri özündə birləşdirən təhsillilik səviyyəsini əsas göstərici kimi qəbul edirlər:

-bilik, bacarıq və vərdişləri;

-mədənilik səviyyəsini;

-mənəvi inkişafı, dəyərlilik göstəricilərini;

-orqanizmin intellektual və fiziki inkişafının imkanlarını.

Araşdırmalar göstərir ki, təhsil fəaliyyətinin subyektləri ilə bağlı keyfiyyət xarakteristikaları bütövlükdə təhsilin müasirləşdirilməsində əhəmiyyətli rol oynayır.

Təhsil prosesində baş verən hadisələrlə bağlı hallar prosesin iştirakçılarına müvafiq təsirlər göstərməklə bərabər eyni zamanda tədris-təlim prosesinin keyfiyyət göstəricisinin əsas təminatçısı kimi çıxış etməyə geniş şərait yaradır. Təlim keyfiyyətinin müəyyənləşdirilməsi sanitar-gigiyenik, mənəvi-psixoloji, təhsil prosesinin resurslarla təminolunma şərtləri və s. Çoxlu sayda faktorlardan asılıdır. Ona görə də tədris prosesində belə amillər xüsusi yanaşmalarla müəyyən edilməli və onların təsir sferasının sərhədləri müəyyənləşdirilməlidir.

Təhsildə keyfiyyətin idarə olunmasının səmərəliliyini təmin edən xarakteristikaların, yəni keyfiyyətin idarəolunma sisteminin idarəetmənin ümumi qanunlarına uyğunluğu araşdırılmışdır (6).

Aparılmış təhlillər göstərir ki, ümumi idarəetmənin qanunlarını nəzərə almadan təhsilin keyfiyyətinin idarəolunma sisteminin qurulması, keyfiyyətin idarə olunmasının səmərəliliyini təmin edə bilməz. Təhsilin keyfiyyətinin səmərəli idarəolunma sisteminin metodoloji əsasının yaradılmasında "sistemli fəaliyyət"i təmin edən yanaşmadan istifadə olunmalıdır. Ümumi halda təhsilin keyfiyyətinin idarəolunma sisteminin

strukturu idarəedən və idarəolunan altsistemlərin cəmindən ibarət olmalıdır. İdarəedən altsistemdən idarəolunan altsistemə informasiya xarakterli məlumat gəlir. Bu məlumata reaksiyavermə, məhz idarəolunan altsistemdə gedən dəyişiklikləri göstərir.

Təhlillərdən belə qənaət hasil olur ki, bu halda informasiya xarakterli məlumatı qəbul edən idarəolunan sistemdə aşağıdakı hallar baş verə bilər:

-idarəolunan altsistemin fəaliyyətinin keyfiyyəti yüksəlir;

-idarəolunan altsistemin fəaliyyətində heç bir dəyişiklik baş vermir;

-idarəolunan altsistemin fəaliyyətinin keyfiyyəti aşağı düşür.

Təhsilin keyfiyyətinin səmərəli idarə olunmasının əsas şərti, idarəedən və idarəolunan altsistemlər arasında əks əlaqənin düzgün qurulmasıdır. Bu halda aşağıdakı tələblər ödənilməlidir: tamlıq, münasiblik, adekvatlıq, obyektivlik, əlverişlilik, fasiləsizlik, strukturlaşmalıq (8, s. 34).

İdarəedən altsistemin strukturu, təhsilin keyfiyyətinin mənasını müəyyənləşdirən amillərin kombinasiyasından asılı olub aşağıdakıları özündə birləşdirir:

-təhsilin keyfiyyətinin qiymətləndirilməsi üsullarını;

-təhsil sistemində baş verən prosesləri;

-təhsil fəaliyyətinin subyektlərini;

-təhsil fəaliyyətinin nəticələrini;

-təhsil fəaliyyətinin həyata keçirildiyi şəraiti (3, s. 218-219).

İdarəolunan obyektə (sistemə) nəzərən idarəetmənin subyektləri ardıcıl olaraq müəyyən idarəetmə funksiyalarını yerinə yetirirlər: məqsədli təhliletmə; planlaşdırma; nəzarət; təshihetmə və yenidən təhlil. Təlim keyfiyyətinin idarə edilməsi funksiyaları sırasında planlaşdırmanın mühüm əhəmiyyəti xüsusi vurğulanmalıdır. Hər bir məqsədin əldə edilməsi (nəticə kimi sonuclanması) onun həyata keçirilməsi üsullarının seçilməsindən, prosesin ardıcıllığının təmin edilməsi üsullarının düşünülmüş şəkildə həyata keçirilməsi addımlarının təyin edilməsindən asılıdır. Əslində planlaşdırma sözün müəyyən mənasında proqnozlaşdırma, proqramlaşdırma və işçi planının hazırlanmasından ibarətdir (5; 40). Planın göstəriciləri nəzarətin həyata keçirilməsinə imkan yaradır. Planlaşdırma düzgün həyata keçirilibsə, idarəetmə fəaliyyəti düzgün istiqamətlənir, yaxşı nəticələr əldə edilir və vaxta qənaət olunur. Təhsil sistemində məktəblərin normal təlim prosesinə və məktəbin inkişafına nail olmaq, təhsildə keyfiyyət əldə etmək üçün stabil şəraitə ehtiyac var. Ancaq real həyatda məktəbin daxili və xarici mühiti daim dəyişir, müəllimlərin həyatında nələrsə baş verir, uşaqların həyata münasibətlərində yeniləşmə gedir. Çox zaman baş verən bu dəyişiklikləri qabaqcadan görmək mümkün olmur. Onlar isə planda nəzərdə tutulanların həyata keçirilməsinə ya maneçilik törədir, ya da təhsildə keyfiyyəti yüksəltmək üçün imkanları genişləndirir.

Yaxşı təşkil edilmiş idarəetmədə bu dəyişikliklər vaxtında aşkar olur və ona uyğun olaraq planlara, görülmüş işlərə dəyişikliklər edilir. İdarəedici sistem bu dəyişmələr haqqında məlumatları yaxşı təşkil edilmiş nəzarət və ya vaxtaşırı keçirilən monitorinqlər sayəsində əldə edir. İdarəetmə əks əlaqə tələb edir. Onsuz idarəetmə mümkün deyil. Əgər nəzarətin obyektinin təhsilin keyfiyyəti olduğu nəzərə alınsa, onun əhəmiyyəti daha da artır. Yeri gəlmişkən vurğulayaq ki, təhsil prosesində çoxlu amillər var və onların hesabına təhsildə keyfiyyəti yüksəltmək olar.

Təhsilin keyfiyyətinin əldə edilməsi, nəticələrə istiqamətlənmiş idarəetmənin quruluşu müvafiq əməliyyatlardan formalaşır. Burada vəzifə və məqsədlərin həyata keçirilməsi, lazımi nəticələrin əldə edilməsi idarəetmə strategiyasının seçilməsindən asılıdır. Məktəbin innovasiya rejimində işləməsi, yenilikləri mənimsəməsi və tətbiqi üçün üç əsas inkişaf strategiyası bəllidir: lokal, modul, sistemli (5, s. 56-57)

Lokal strategiya təhsilin keyfiyyətinə təsir edəcək bir-biri ilə əlaqəli olmayan müxtəlif faktorlardan istifadə edilməsini nəzərdə tutur. Belə dəyişikliklər bir-birindən asılı olmayan planlar əsasında həyata keçirilir və müəyyən nəticələr əldə edilir. Onlar məktəbin inkişafına, irəliləyişinə təsir edir.

Müəyyən problemlərin kompleks şəkildə bir sinifdə və ya təhsilin müəyyən mərhələsində modul strategiyasından istifadə olunur. Bu halda hər bir ideyanın həyata keçirilməsi obyekti müəyyənləşdirilir, eksperimentin proqramı hazırlanır, onun parametrləri əlaqələndirilir, tətbiq edilir, nəticələr müqayisə edilir. Maraqlı nəticə-

lər əldə edilirsə, o öyrənilir və istifadə olunur. Bu prosesdə həmfikir-yenilikçi müəllimlər komandası və onlara rəhbərlik edəcək menecerlər formalaşır ki, bu da keyfiyyətin əldə edilməsində böyük əhəmiyyət kəsb edir.

Üçüncü strategiya sistemli dəyişikliklər strategiyasıdır. Bu zaman söhbət təhsilin keyfiyyətinin idarə olunmasında son nəticələrə təsir göstərə biləcək bütün faktorların, yeniliklərin, dəyişmələrin əlaqələndirilmiş və planlı şəkildə həyata keçirilməsindən gedir. Burada tətbiq edilən yeniləşmələr koordinasiya olunmalı, təhsil müəssisəsinin inkişaf proqramı hazırlanmalıdır. Sistemli dəyişikliklərin yenidənqurma proqramı o zaman hazırlana bilər ki, məktəb rəhbərləri, bütün pedaqoji kollektiv innovasiya proseslərinin tətbiqi, təşkili, təcrübəsi ilə tanış olsunlar, eksperimentlər qoymaq metodikasına yiyələnsinlər. Unutmaq olmaz ki, strategiya seçimi həm də tətbiq ediləcək yeniliklərin xarakterindən, mürəkkəbliyindən, həcmindən də asılıdır (5).

Təhsilin keyfiyyəti məqsəd və nəticənin münasibəti kimi dərk oluna bilər. Təhsildə yüksək keyfiyyət əldə etmək üçün mürəkkəb və çətin olsa da, optimal həyata keçirilməsi mümkün olan məqsəd müəyyənləşdirilməlidir. Daha sonra həmin məqsədə çatmaq üçün təhlil prosesində qarşıya çıxan nöqsanlar araşdırılır. Bu nöqsanlara aşağıdakı amilləri aid etmək olar: köhnəlmiş, qeyri-optimal, təhsilin məzmununa xeyr gətirməyən, yaxud da əhəmiyyətini itirmiş təlim-tərbiyə və inkişaf texnologiyaları, yaxud şagirdlərin təlim prosesinə zəif cəlb edilməsi və s. Bundan sonra aydınlaşdırılır ki, təhsil prosesində özünü büruzə verən nöqsanlar hansı şəraitdə yaranmışdır. Onlara, əsasən, aşağıdakılar aid edilə bilər: elmi-metodik şəraitin nöqsanları; yüksək səviyyəli müəllim kadrlarının çatışmazlığı; maddi-texniki bazanın tələbləri ödəməməsi; maliyyələşmədə nöqsanlar.

Təhsildə keyfiyyətin təmin edilməsi və onun səmərəli idarəolunması, öyrənənlərdə yeni peşəkarlıq kompetensiyalarının formalaşdırılması üçün təlimin məzmununa və metodlarına yeni yanaşmaların tətbiqini tələb edir. Bu halda peşəkarlıq kompetensiyalarının strukturuna aşağıdakı komponentləri daxil etmək lazımdır: koqnitiv; tənzimləyici (yönəldici); kommunikativ; fərdi (şəxsi); refleksiv (qeyri-iradi) (4).

Aparılmış təhlillər göstərir ki, peşəkar kompetensiyaların komponentləri refleksiv proseslərin təsiri nəticəsində formalaşır. Ona görə də qeyri-iradi komponentin aşağıdakı formalarını bir-birindən ayırmağı bacarmaq lazımdır:

-retrospektiv (keçmiş təcrübənin tənqidi anlaşılması, dərk edilməsi);

-situativ (cari vəziyyətin, situasiyanın real qiymətləndirilməsi);

-perspektiv (fəaliyyətin nəticələrini qabaqcadan görmək, əxlaq, davranış normalarının optimal strategiyasının dərk olunmuş variantının seçilməsi və s.).

Bu komponentlər öyrənənin refleksiv prosesləri səmərəli həyata keçirməyə və yüksək refleksiv özünütəşkilə geniş imkanlar açdığından, tədris prosesində bunlar nəzərə alınmalı və belə keyfiyyətlərin formalaşdırılması təmin edilməlidir (3; 222).

Təcrübə göstərir ki, təhsildə keyfiyyətin təmin olunması və onun effektiv idarəedilməsinə yeni yanaşmaların tətbiqinin ön plana çəkilməsi, hazır biliklərin mexaniki translyasiyasına yol verilməməsi, peşəkarlıq sahəsində aktivliyin yüksəlməsində yaradıcı xarakterli axtarışların həyata keçirilməsinə müvafiq şəraitin yaradılması vacibdir.

Təhsilin keyfiyyəti vaxtaşırı dəyişən bir kateqoriyadır və o, dövrümüzün çağırışları əsasında sosial sifarişçilərin tələbatlarına uyğun olaraq dəyişir, yeniləşir. Bu reallıq tələb edir ki, təhsilin nəticələrinin monitorinqi sistematik olaraq həyata keçirilsin, keyfiyyətin yüksəlməsi üçün axtarışlar edilsin (9).

Fasiləsiz, real və müvafiq yoxlama və qiymətləndirmə proqramları müəllimləri və valideynləri hər bir şagirdin təlim nəticələri və müvəffəqiyyətləri haqqında dəlillərlə təmin edir. Bu cür obyektiv informasiya şagirdlərə, müəllimlərə, ailə üzvlərinə şagirdlərin təlim məqsədlərini dəqiq müəyyənləşdirməyə və təhsilin növbəti pilləsini dəqiq planlaşdırmağa imkan verir. Şagirdlərin topladıqları balları ayrılıqda götürdükdə onların fəaliyyətlərini qiymətləndirmək, şagirdlərin öz məqsədlərinə nə dərəcədə nail olduqlarını müəyyənləşdirmək üçün kifayət deyildir. Şagirdlər şəxsi məqsədləri müəyyən etmək, öz fərdi inkişafını izləmək və nail olduğu bilik, bacarıq və vərdişlər üzərində düşünmək imkanlarına malik olmalıdırlar. Şagirdlərin təlim mü-

vəffəqiyyətlərini qiymətləndirmək vasitələri də öyrətmə funksiyası kəsb etməli, onlara öz təlim nəticələrini başa düşməyə kömək etməlidir. Yoxlama və qiymətləndirmə meyarları şagirdlərin öyrənmə fəaliyyətlərini həm işin nəticəsi, həm də prosesin özü kimi qiymətləndirməli, şagirdləri fərqli və fərdi xüsusiyyətlərinin aşkar edilməsinə xidmət göstərməlidir. Qiymətləndirmə bir şagirdin başqa şagirdə münasibətdə necə oxumasını müəyyənləşdirməyə xidmət etməməli, şagirdin öz fərdi inkişaf səviyyəsini üzə çıxarmalı, bu zaman xarici motivlərə istinad etməməlidir (8).

Təhsil sistemimizdə keyfiyyətli tədris-təlim prosesinin qurulması və onun effektiv idarə olunması üçün yeni pedaqoji texnologiyaların, interaktiv təlim metodlarının elmi, pedaqoji-psixoloji, metodiki əsaslarının işlənilməsi və onların nəticələrinin pedaqoji prosesə gətirilməsi təmin olunmalıdır.

Problemin aktuallığı. Ümumtəhsilin keyfiyyətinin idarə olunması həmişəyaşar problemdir. Onun həmişəyaşarlığı insanın özünüdərki, sosial-iqtisadi inkişafın səviyyəsi, pedaqoji nəzəriyyənin və praktikanın mükəmməlləşməsi ilə şərtlənir.

Problemin elmi yeniliyi. Problemin həllinə əsas yaradan kateqorial aparatda ehtiva olunan anlayışlara elmi şərh verilmişdir.

Problemin praktik əhəmiyyəti. Ümumtəhsilin keyfiyyətinin idarə olunmasının bəzi praktik yolları göstərilmişdir.

Ədəbiyyat:

1. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Pedaqogika, 2004.
2. Əhmədova M.Ç. və başqaları. Müəllim hazırlığının və orta təhsilin yeni perspektivləri (Qərb təhsil sisteminin təcrübəsi əsasında) //Müəllimlər üçün vəsait. Bakı: Adiloğlu, 2006.
3. Mehrabov A.O. Müasir təhsilin konseptual problemləri. Bakı: Mütərcim, 2010, 516s.
4. Mehrabov A.O. İnformasiyalı cəmiyyətdə kompetensiyaların reallaşdırılmasının pedaqoji-psixoloji əsasları //Azərbaycan məktəbi, 2008, № 3
5. Məmmədzadə R.H. Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi. Bakı: Müəllim, 2010.
6. Болошов В.А. Системы качества образование. М.: Пед. Общество Росии, 2000.
7. Нейматов Я.М. Образование в XXI веке: тенденции и прогнозы. М.: Алгоритм, 2002.
8. Поташник М., Ямбир Е., Матрос Д. Управление качеством образования (подред. М.Поташника). М.: Педагогическое общество, 2000.
9. Шишов С.Е. Мониторинг качества образования в школе. М.: Пед. Общество России, 1999.

E-mail: firedun.ibrahimov@mail.ru
xuraman_hamidova@mail.ru
Rəyçi: *ped.ü.fəl.dok.* S.R. Bədiyev
Redaksiyaya daxil olub: 10.12.2018.

UOT 37.

Vüsalə Sərdar qızı Əliyeva
pedaqogika üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi

İNSAN KAPİTALININ İNKİŞAF ETDİRİLMƏSİNDƏ TƏHSİLİN ROLU

Вусала Сардар гызы Алиева
доктор философии по педагогике, преподаватель
Азербайджанский Государственный Педагогический Университет

РОЛЬ ОБРАЗОВАНИЯ В РАЗВИТИИ ЧЕЛОВЕЧЕСКОГО КАПИТАЛА

Vusala Sardar Aliyeva
PhD in pedagogy,
teacher at Azerbaijan State Pedagogical University

ROLE OF EDUCATION IN DEVELOPMENT OF HUMAN CAPITAL

Xülasə: Məqalədə ibtidai siniflərdə məsələ həlli zamanı müasir texnologiyalardan istifadə yolları müəyyənləşdirilmişdir.

İbtidai siniflərdə məsələ həlli prosesində müasir texnologiyalardan istifadə edilməsi özünəməxsusluğu ilə fərqlənir. İbtidai siniflərdə məsələlərin tərtib edilməsi və seçilməsi müəllimdən xüsusi bacarıq tələb edir. Çünki ibtidai siniflərdə məsələlər uşaqların həm psixoloji, həm də pedaqoji inkişafına təsir göstərir. Belə ki, məsələlərin həllində daha səmərəli olan vasitələrin müəllim tərəfindən seçilməsi çox vacib şərtdir.

Açar sözlər: *insan kapitalı, şəxsiyyətin inkişafı, təhsil, təlimin məqsədi*

Резюме: В статье определены способы использования современных технологий в процессе решения задач в начальных классах. Применение современных технологий в решении задач в младших классах отличается своей оригинальностью. Создание и выбор задач в начальных классах требует специальных навыков от учителя. Так как задачи в младших классах влияют на психолого-педагогическое развитие детей. Поэтому очень важно выбрать средства, которые будут более эффективны в решении задач.

Ключевые слова: *человеческий капитал, развитие личности, образование, цель обучения*

Summary: The article identifies ways to use modern technologies in primary school decision-making.

The use of modern technologies in the problem-solving process at primary grades differs in its originality. Creating and selecting issues in elementary grades requires special skills from the teacher. Because issues in elementary grades affect children's psychological and pedagogical development. So, it is very important to select the tools that are more effective in addressing issues.

Key words*: human capital, personality development, education, purpose of training*

Ulu öndərimizin uzaqgörənliyi sayəsində müstəqilliyimizin ilk pilləsində elmin, təhsilin, milli-mənəvi dəyərlərin inkişafı ölkə prioritetlərindən biri olmuşdur. O dövrdə hələ insan kapitalı anlayışı olmasa da, bu məsələyə belə yanaşılmışdır: "....Məhz bu illərdə respublikada uşaq bağçaları, məktəblər, ali və orta ixtisas müəssisələri üçün yeni binaların tikintisi geniş vüsət almış, təhsil infrastrukturu müasir standartlar çərçivəsində yenidən qurulmuşdur. Həmin dövrdə humanitar və fundamental elm sahələrində də böyük irəliləyişlər əldə edilmiş, elmdə, təhsildə qazanılan uğurların xalq təsərrüfatının ən müxtəlif sahələrində tətbiqi böyük nəticələr vermişdir. Cəmiyyət inkişaf prosesinin elmi-intellektual əsaslar üzərində qurulmuş yeni mərhələsinə qədəm qoymuş, respublikada ixtisaslı kadrlar

hazırlayan onlarca ali və orta ixtisas məktəbləri açılmışdır". (4)

Azərbaycan Respublikasının təhsil siyasətində müvafiq Dövlət proqramlarının təsdiqi və uğurla həyata keçirilməsi təkcə təhsilin inkişafına xidmət etmir, həm də "insan kapitalı"nın inkişafına istiqamətlənmişdir. Bu proqramlar məktəbəqədər, orta ümumtəhsil, texniki peşə və ali təhsil pillələrini əhatə edir. Təsadüfi deyil ki, bu gün təhsil siyasətimiz qarşısında əsas məqsəd olaraq – hərtərəfli inkişaf etmiş şəxsiyyət yetişdirilməsi durur.

Hər təhsil sahəsi üçün ayrılan sərmayə "insan kapitalı"nın inkişafına, gələcək gəlirə çevrilir. Lakin təhsilə çox sərmayə ayırmaqla "insan kapitalı"nın inkişafını daha keyfiyyətli təşkil edə biləcəyimizi desək yanlış olar.

Təhsil sahəsində "insan kapitalı"nın inkişafını xarici və daxili amillərin qarşılıqlı vəhdəti kimi də göstərə bilərik. Təhsil sahəsində xarici amil dedikdə, tədris proqramı, dərsliklər, dərs vəsaiti və müəllimin metodik təsiri nəzərdə tutulur. Bu o deməkdir ki, xarici amillərin elmi-metodik vəziyyəti insanın inkişafına təsir edir. Təhsil sahəsində daxili amil dedikdə isə insanın öz daxili maraq, istək və qabiliyyətləri nəzərdə tutulur. Belə ki, əgər bir insanın rəsm çəkmək qabiliyyəti yoxdursa, onu hər hansı bir sərmayə gücünə rəssam etmək düzgün deyildir. Bu "insan kapitalı"nın inkişafından daha çox sərmayə itkisi kimi qiymətləndirilir. Yəni bir ali təhsilin "insan kapitalı"nın inkişafına xidmət etməsi bu iki amilin (xarici və daxili amillərin) qarşılıqlı vəhdət şəklində nəzərə alınması qaçılmaz faktdır.

Təəssüf ki, bu gün cəmiyyətimizdə ali təhsil anlayışı, bəziləri tərəfindən sadəcə diplom xatirinə oxumaq kimi qiymətləndirilir. Təhsilə belə yanlış yanaşma olan zaman "insan kapitalı"nın inkişafından da danışmaq düzgün olmazdı. Əlbəttə ki, ali təhsilin insan qabiliyyətinə, marağına uyğun seçilməməsi, onun təkrar istehsala edilməsinə, yəni əlavə sərmayənin (xərclərin) qoyulmasına səbəb olur. Bu da, öz növbəsində, həm vaxt itkisi, həm də maddi vəziyyətin ağırlaşmasına səbəb olur.

Əlbəttə ki, bu gün ali təhsil müəssisələrində aparılan bir sıra islahatlar insan kapitalının inkişafına xidmət edir. Buna misal olaraq tələbə təqaüdlərinin verilməsini göstərə bilərik. Əvvəllər ali təhsil müəssisələrində təqaüdlər yalnız dövlət hesabına təhsil alan tələbələrə təhkim olunurdu. Hazırda isə təlimin keyfiyyətini, tələbənin öyrənmə motivasiyasını yüksəltmək məqsədilə ödənişli təhsil alan tələbələrə də təhkim olunur. Bu da, öz növbəsində, tələbələrin bilik, bacarıqlarının inkişafına təsir edir.

Apardığım tədqiqatlara əsasən deyə bilərəm ki, bu gün dünyada və ölkəmizdə yaranan böhranların aradan qaldırılmasının tək çıxış yolu insan kapitalının gücləndirilməsidir. Əksinə baxdıqda da bu böhranların yaranma səbəbləri məhz insan kapitalının zəif olmasıdır.

İnsan kapitalı insanın biliyi, bacarığı və peşəkarlığıdır. Bir cəmiyyətdə insan kapitalının gücü yüksəldikcə, o cəmiyyətin təhsili, elmi, iqtisadi gücü və siyasəti də yüksəlmiş olacaq. Məhz buna görə də insan kapitalının yüksəldilməsi daima cəmiyyətin diqqət mərkəzində olmalıdır. Nəzərə alsaq ki, insan kapitalının inkişaf etdirilməsində əsas amil təhsildir, o zaman təhsil sisteminin inkişafı prioritet məsələlərdən olmalıdır.

Təhsil insanın şəxsiyyət kimi formalaşmasında ən əhəmiyyətli amildir. Təhsil müəssisələrində insanları erkən yaşdan savadı dərk etməyə, milli və ümumbəşəri dəyərləri mənimsəməyə, xalqın mirasını öyrənməyə, mədəniyyətin yüksək dərəcələrinə çatmağa və başqa qabiliyyətləri inkişaf etdirməyə istiqamətləndirmək lazımdır.

Təhsil sisteminin inkişafı xalqın, cəmiyyətin maariflilik səviyyəsinin yüksəldilməsi ilə şərtlənir. Cəmiyyətdə insan kapitalının inkişafının əsas amili təhsildir.

Azərbaycan Respublikasının təhsil sistemi məktəbəqədər, orta ümumtəhsil və ali təhsil pillələrindən ibarətdir. İnsan kapitalının inkişaf etdirilməsi hər üç pillə üçün prioritet məsələ olmalıdır. Çox vaxt biz elə bilirik ki, insan kapitalı təkcə ali təhsili bitirmiş insanlardır. Lakin bu fikir tam olaraq yanlışdır. İnsan kapitalı elə bir gücdür ki, o, cəmiyyətin dəyişməsinə və inkişafına təsir edir.

Ali təhsil müəssisələrindən məzun olan hər bir şəxsi insan kapitalı kimi qiymətləndirmək yanlış olardı. Çünki insanın kapitala çevrilməsi təkcə onun aldığı diplomla ölçülə bilməz. Təhsil sistemi elə qurulmalıdır ki, insanın yaşama tərzinə xidmət etsin. İstər məktəbəqədər, istər orta ümumtəhsil pilləsi insanın həyatı üçün yararlı biliklər verməlidir. Məktəbəqədər təhsil

pilləsi təməl pillə olduğu üçün burada pedaqoji iş daha ətraflı və möhkəm aparılmalıdır. Çünki insan kapitalının yaranması məhz bu mərhələdən başlanır. Orta ümumtəhsil pilləsi isə insan kapitalının inkişafı üçün daha vacib vəzifələr daşıyır. Çünki bu pillə şəxsiyyətin formalaşması pilləsidir. Bu zaman verilən təlim tərbiyənin hərtərəfli inkişafına xidmət etməlidir.

Bu gün ölkəmizdə aparılan təhsil islahatları məqsədli və insan kapitalının inkişafına xidmət edir. Lakin hər islahatda olduğu kimi burada da bəzi dəyişikliklərin təmin olunması gözlənilir. Bu gün orta ümumtəhsil sahəsində tətbiq olunan proqramlar (kurikulumlar), dərsliklər əsas islahat olmaqla yanaşı, nəzəri sahəni də əhatə edir. Unutmaq olmaz ki, təhsilin inkişafını təkcə proqram və ya dərsliklərlə aparmaq mümkün deyildir. Burada əsas işi metodik sahə üzərində görmək lazımdır. Çünki müəllim kapitalı nə qədər güclü olarsa, cəmiyyət üçün bir o qədər güclü insan kapitalı formalaşdıra bilər.

Bəziləri insan kapitalı dedikdə, bir şəxsin hansısa bir sahə üzrə ali təhsil almasına xərclədiyi sərmayə kimi qiymətləndirir. Lakin bu fikirdə yanlış bir yanaşma var. Belə ki, bir şəxsin ali təhsil alması onu insan kapitalına çevirmir. Çünki elə insanlar var ki, onlar aldıqları ali təhsildən gəlir əldə etmirlər və tamam fərqli sahə üzrə çalışıb yaşayırlar. Bu zaman ali təhsilə verilən sərmayə kapitala çevrilmir.

"İnsan kapitalı" yalnız təhsillə bağlıdır. Çünki təhsil insanı formalaşdıran, inkişaf etdirən başlıca vasitədir. Azərbaycan Respublikasının təhsil sistemi varislik prinsipi üzərində qurulduğu üçün hər təhsil pilləsində aparılan metodik işlər bir-birinin davamı və biri digərindən asılıdır. Məsələn, məktəbəqədər təhsil pilləsində öyrədilən biliklərin davamı ibtidai siniflərdə aparılır və s., məhz buna görə də hər təhsil pilləsinin keyfiyyəti və möhkəmliyi öz tədris metodikası qədər əvvəlki təhsil pilləsindən də asılıdır.

Təhsil sahəsində aparılan bütün islahatların uğurlu olması müəllim kapitalından asılıdır. Orta ümumtəhsil sahəsində tədris olunan bütün fənlər uşaqların hərtərəfli inkişafına xidmət edir. Lakin insan kapitalının inkişaf etdirilməsində nəzərə alınması lazım bilinəcək bir sıra fənlər də ola bilərdi. Bir insanın bilik, bacarıq və həyati qabiliyyətlərinin olması onun şəxsi məqsədindən asılıdır. Əgər məktəbdə uşağın hər hansı bir sahə üzrə məqsədi olarsa, o zaman onun kapitala çevrilməsi də asan olar. Çünki məqsədli insan hər bir sahədə öz bacarıq və qabiliyyətlərini həyata keçirəcəkdir. Yetər ki, bu məqsəd düzgün olaraq müəyyənləşdirilsin. Orta ümumtəhsil pilləsində bütün elmlərin başlanğıcını özündə birləşdirən, fəlsəfi, məntiqi biliklərə dayanan fənnin tədris olunması insan kapitalının inkişaf təməlinin güclü olmasına dayanardı. Bu fənn şagirdlərin özünü tanımasına və dünyagörüşünün inkişafına kömək edəcəkdir.

"İnsan kapitalı"nın inkişafında təhsil sisteminin rolunu yüksəltmək üçün cəmiyyətin maarifləndirilməsi başlıca səbəbdir. Yəni valideynlər "insan kapitalı" anlayışını düzgün dərk etməklə, uşaqlarının düzgün istiqamətlənməsinə də kömək etmiş olarlar.

Təhsil amilində "insan kapitalı"nın inkişafı ali təhsil müəssisələrinin daha effektiv biznes struktur fəaliyyətinə məxsus olması kimi göstərilə bilər. Dünya təhsil siyasətinə baxdıqda görürük ki, ali təhsil müəssisələrinə qəbul qaydaları çox asan və sadə üsulla aparılır. Lakin ali təhsil müəssisələrin bitirmək çox çətin olduğu qədər, "insan kapitalı"nın inkişafını da təmin etmiş olur. Yəni ali təhsil kütləvi mövqe daşımadığı üçün burada insanın qabiliyyət və bacarığı nəzərə alınır, onun kapitala çevrilməsi baş verir.

Azərbaycan Respublikası gələcək iqtisadi strategiyasını məhz insan kapitalının inkişafı üzərində qurur. Dövlətin əsas hədəflərindən biri bacarıqlı kadrların formalaşdırılması sahəsinə iqtisadi gəlirlərin daha çox hissəsini ayırır. Bu işlər həm ölkədaxili təhsilin inkişafı üzrə, həm də gənclərin xaricdə təhsili üzrə aparılır. Təsadüfi deyil ki, ölkə başçısı "2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya və onun həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı" qəbul edərək, minlərlə gəncin xaricdə təhsil almasını maliyyələşdirmişdir. Bunlarla yanaşı, Prezident yanında Elmin İnkişafı Fondu yaradılıb və Dövlət Neft Fondunun maliyyəsi hesabına hər il yüzlərlə tələbə xaricdə müxtəlif ixtisaslar üzrə təhsil alır. Bu da dövlətin sərmayəsinin "insan kapitalı"nın inkişafına çevirməsidir.

Dünyada edilən kəşflər insanların elm sahəsindəki inkişafı sayəsində baş verir. Elmi-tədqiqat sahəsində çalışan insanlar cəmiyyət, dövlət və iqtisadiyyat üçün əsl kapitaldır. Ölkəmizin elm sahəsində apardığı islahatlar, ilk

öncə, təhsil səviyyəsindən başlamalıdır. Çünki, təhsil elmi-tədqiqatın ilkin mərhələsi sayılır. Həqiqəti qəbul etsək görərik ki, bu gün Azərbaycanda hər hansı bir sahə üzrə elmi kəşflər yetərincə deyildir. Bunun başlıca səbəbi isə ali təhsil müəssisələrində elmi-tədqiqat işlərinin yerinə yetirilməsində çatışmazlıqların mövcud olmasıdır. Ölkəmizdə elmin inkişafı sahəsində İnkişaf Fondunun olması və bir sıra elmi layihələrin həyata keçirilməsi maliyyələşdirilsə də, hələ də nailiyyətin əldə olunması mövcud deyil. Burdan belə nəticə çıxara bilərik ki, "insan kapitalı"nın inkişafında təkcə sərmayə rol oynamır. Gənc alimlərin beynəlxalq elmi konfranslarda iştirakı maliyyə ilə ölçülə bilər, lakin onun orada uğur qazanması məhz gəncin şəxsi bacarıq və qabiliyyətindən asılıdır.

Ölkəmizin "insan kapitalı"nın inkişafı sahəsində apardığı işlər təkcə təhsillə kifayətlənmir, həm də idman, incəsənət və digər sahələri də əhatə edir. Bu sahələr üzrə uğur qazanan gənclərə göstərilən dövlət qayğısı insan kapitalının inkişafı kimi göstərilə bilər.

Bu gün ölkəmizdə bir sıra sahələr (fizika, kimya, nüvə sahəsi, turizm, İKT üzrə, kosmos və s.) üzrə peşəkar mütəxəssislərə ehtiyac vardır. Hazırda bu tələbatları ödəmək üçün xarici mütəxəssislərə daha böyük vəsaitlər ödənilərək ölkəyə gətirilir. Əlbəttə ki, bu mütəxəssislər öz vətəndaşlarımız olsa idi, bu sərmayə 2-3 dəfə az olardı. Burdan da belə qeyd edə bilərik ki, "insan kapitalı" ölkənin həm gəlirini, həm də xərcini balanslayan əsas amillərdən sayılır. İnsan kapitalı əhalinin rifahı və həyat rahatlığını təmin edən göstəricilərlə müəyyənləşdirmək olar. İnsan kapitalının təkrar istehsalına hər il külli miqdarda vəsaitlər xərclənir. Məsələn, bu xərcləri belə qruplaşdıra bilərik: təhsil sisteminin fəaliyyəti, sağlamlığın və insanların əmək fəaliyyətinə, əlverişli həyat fəaliyyəti üçün şəraitin yaradılmasına və s. Bu, öz növbəsində, ictimai əməyin və əhalinin həyat səviyyəsinin yüksəldilməsinə təsir edir.

Əgər insanın gələcəkdə kapitala çevrilməsi üçün düzgün istiqamətdə sərmayə qoyularsa, o zaman insan kapitalının təkrar istehsalına da ehtiyac olmayacaq.

Ümumdünya Bankı milli sərvətin ən əhəmiyyətli elementi və iqtisadi artımını insan potensialının hesabına və ya insan kapitalına ayrılan xərclərlə göstərir. Bu amilin qiymətləndirilməsi üçün həyat təminatı sahəsində xərclərin məcmusunu müəyyən etmək təklif edilir.

İqtisadiyyatda və cəmiyyətdə inqilabi dəyişikliklər, ən böyük innovasiyalar xalqın, ölkənin, sivilizasiyaların hər tarixi dövründə inkişafının insan kapitalı əsasında həyata keçirilmişdir.

İnsan cəmiyyəti ilə biliklər tədricən toplanır. Onların bazasında təhsil və elm inkişaf edirdi. Bu, olduqca məhsuldar elmi-texniki, idarə və bütovlükdə intellektual təbəqəni formalaşdırırdı, hansı ki, bəşəriyyətin inkişafında növbəti sıçrayış olurdu. İnsan kapitalının artırılması, həmişəki kimi, onun dəyərinin artımı kimi göstərilir, hansı ki, insan kapitalının inkişafında onun keyfiyyətinin artımı dayanır. İnsan resursunun "dəyişiklikləri"ni ölçmək üçün BMT-nin normaları əsas götürülür. Fiziki, mənəvi, əxlaqi dəyişilmə insanın həyat fəaliyyəti ilə şərtlənir. İnsan kapitalının inkişaf etdirilməsi təkcə onun bilik və bacarıqlara yiyələnməsi ilə ölçülə bilməz. Bu, həm də onun yaşadığı həyat tərzi ilə də ölçülməlidir. Belə ki, həyatın çətinlikləri və daimi stresslər insanın fəaliyyət keyfiyyətini azaldır, onun ömrünü isə qısaldır. Həmçinin, insan potensialının dəyişilməsinin dərəcəsini hər il insan kapitalının dəyərinin artımına və bu kapitalın istehlakının səviyyəsinə görə nəzərə almaq lazımdır. Bu vasitələr təhsil, əmək, təhlükəsizlik və həyat şəraitini və s. yaxşılaşdırmaq üçün lazımdır.

Tərbiyəçi insanın şəxsiyyət kimi formalaşması işində heykəltəraş rolunu oynayır. Pedaqoqluq peşəsində məhz, biliklər və tədrisin metodikası əhəmiyyətli rolu oynayır. Bu gün insanlar öz biliklərini təkmilləşdirməyə məcbur olurlar. Əlbəttə ki, müasir dünyada hamı tərəfindən qəbul edilmiş biliklərin əldə edilməsi aspektləri çevrilərək "bütün həyat ərzində təlimə" ənənəvi maarifləndirici sistemin çərçivəsindən kənara çıxır. Hər bir insanın məhsuldarlığını, iş qabiliyyətinin yüksəldilməsi üçün stimullaşdıran amil əhəmiyyətlidir.

Problemin aktuallığı. Bu gün dünyanın inkişaf etmiş ölkələrin iqtisadi gücünə baxdıqda, "insan kapitalı" üzərində qurulduğunu görürük. Proseslərin təhlili göstərir ki, insan kapitalı və onun inkişafı innovasiya dalğalarının yaranmasının, cəmiyyətin və dünya iqtisadiyyatının dövri inkişafının əsas amilidir. Ümumiyyətlə, insan kapitalı yaradıcı, peşəkar, intellektual, keyfiyyətli, məhsuldar əmək və yüksək yaşayış keyfiyyətidir.

Problemin elmi yeniliyi ondan ibarətdir ki, insan kapitalının inkişaf etdirilməsində Azərbaycan Respublikasının təhsil sistemi məktəbəqədər, orta ümumtəhsil və ali təhsil pillələrinin imkan və yolları müəyyənləşdirilmiş, problem baxımından bir sıra materiallar araşdırılıb, tədqiq edilmişdir.

Problemin praktik əhəmiyyəti. Məqalədən elmi işlərin, mühazirə mətnlərinin, tezis və məqalələrin yazılması zamanı istifadə etmək olar.

Ədəbiyyat:

1. İnsan kapitalının inkişafı: nəzəri aspektləri və qiymətləndirmə metodologiyası. Bakı: "Çap ART", 2017.
2. https://banker.az/insan-kapitali-qazanilmasi-vacib-olan-ən-dəyərli-nailiyyətdir/
3. https://az.wikipedia.org/wiki/İnsan_kapitalı
4. http://anl.az/down/meqale/azerbaycan/azerbaycan_noyabr2009/96159.htm
5. http://vergiler.az/art-view/1674/
6. https://jabrayilvaliyev.com/2013/03/17/insan-kapitali-və-iqtisadi-inkisaf/

E-mail: vusale2000@gmail.com
Rəyçilər: *ped.ü.fəls.dok.* **N. Əliyeva,**
X. Həmidova
Redaksiyaya daxil olub: 11.12.2018.

UOT 37.

Firuzə Nüsrəddin qızı Abdullayeva
Bakı şəhəri, Nəsimi rayonu, Tahir Həsənov adına 23 nömrəli məktəbin
Azərbaycan dili və ədəbiyyatı müəllimi

TƏHSİLİN KEYFİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Фируза Нусреддин гызы Абдуллаева
учитель азербайджанского языка и литературы школы № 23 имени Тахира Гасанова, Насиминского района гор. Баку

ОЦЕНИВАНИЕ КАЧЕСТВА ОБРАЗОВАНИЯ

Firuza Nusreddin Abdullayeva
Nasimi district, teacher of Azerbaijani language and literature
at school number 23 named after Tahir Hasanov of Baku

EVALUATION OF QUALITY OF EDUCATION

Xülasə: Məqalədə qeyd olunur ki, keyfiyyətli təhsil cəmiyyəti intellektual, mədəni və mənəvi cəhətdən zənginləşdirir. Təhsildə keyfiyyətə maddi-texniki baza, yüksək səviyyəli kadrlar, müasir tələblərə cavab verən məzmun və obyektiv qiymətləndirmə kimi komponentlər daxildir. Müəllim qarşıya qoyulmuş nəticələrə çatmaq üçün keyfiyyətli planlaşdırma aparmağı bacarmalıdır. Müəllim öz keyfiyyətini artırmaq üçün müxtəlif formalardan istifadə edə bilər: kurslar, təlimlər, seminarlar, dəyirmi masalar, pedaqoji şuralar, metodbirləşmələrdə müzakirələr, tez-tez keçirilən fənn aylıqları və s.

Açar sözlər: *təhsil, keyfiyyət, standart, şagird, problemli şərait, müəllim, bələdçi, dialoq, əməkdaşlıq, dəstək*

Резюме: В статье отмечается, что качественное образование интеллектуально, культурно и духовно обогащает общество. Качество образования включает в себя такие компоненты, как материально-техническая база, профессиональные кадры, содержание, отвечающее современным требованиям, а также и объективное оценивание. Учитель для достижения поставленных результатов должен уметь правильно планировать. С целью повышения качества работы учителя могут быть использованы различные формы: курсы, тренинги, семинары, круглые столы, педагогические советы, дискуссии и т.д.

Ключевые слова: *образование, качество, стандарт, учащиеся, проблемная ситуация, учитель, руководство, диалог, сотрудничество, поддержка*

Summary: The article notes that high-quality education intellectually, culturally and spiritually enriches society. The quality of education includes such components as the material and technical base, professional personnel, content that meets modern requirements, as well as objective assessment. The teacher must be able to plan correctly to achieve the desired results. In order to improve the quality of the teacher's work, various forms can be used: courses, trainings, seminars, round tables, educational councils, discussions, etc.

Key words: *education, quality, standard, student, problem situation, teacher, guide, dialogue, collaboration, support*

Təhsil sosial həyatımızın ən lazımlı sahəsidir. Məhz keyfiyyətli təhsil cəmiyyəti intellektual edir, mədəni və mənəvi cəhətdən zənginləşdirir. Təhsildə keyfiyyət prinsipi aktual məsələlərdən ən önəmlisidir desək, yanılmarıq. Təhsildə keyfiyyətə maddi-texniki baza, yüksək səviyyəli kadrlar, müasir tələblərə cavab verən məzmun və obyektiv qiymətləndirmə kimi komponentlər daxildir.

Ümumiyyətlə, "keyfiyyət" nədir?. "Keyfiyyət" anlayışına bir neçə tərif verə bilərik. **Keyfiyyət** - bu müəyyən məqsədlərin nəticələrlə uyğunluğudur, məhsulun və xidmətin xarakteristikasının məcmusudur, istehlakçının tələblərinin təmin olunması, onun məmnunluğudur, təhsil standartları ilə əldə olunan nəticənin uyğunluğudur.

Keyfiyyətli müəllim. Məşhur pedaqoq Amonaşvili seminarlarında tez-tez bu kəlməni işlədir: "Allahdan gələn vergidi müəllimlik" (Uçitel ot Boqa). Yaxşı bir müəllim ola bilmək üçün peşəmizə və ümumiyyətlə, insanlara xas olan bir çox xüsusiyyətlərə sahib olmalı, malik olduğumuz bu xüsusiyyətləri də hər gün artırmalı və çox üstün bir şəkildə peşəmizi təmsil etməliyik. Yaxşı bir müəllim necə, hansı xüsusiyyətlərə sahib olmalıdır, nəzərdən keçirək: öz sahəsində kifayət qədər məlumat sahibi olmalı, bütün yeniliklərdən xəbərdar olmalı, tərbiyə etmək xüsusiyyətinə malik olmalı, tərbiyəçi xüsusiyyətinə uyğun, mədəni səviyyəsi yüksək olmalı, peşəsini sevməli, idarəçilik və rəhbərliklə əlaqəli bütün rəsmi qaydaları bilməli, gülərüz və təvazökar olmalı, hərəkətləri və danışığı təsiredici olmalı, hər bir hərəkəti ilə nümunə olmalı, zamandan şüurlu bir şəkildə istifadə etməli, prinsipli və şüurlu hərəkət etməli, xitab etdiyi kütləni ruhlandırmalı, motivasiya etməli, problem çıxaran deyil, problemləri həll edən olmalı, bütün şagirdləri bərabərhüquqlu görməli və rəftar etməli, özünü dəyişdirə, inkişaf etdirə, yeniləyə bilməli, dünyaya açılan qapılardan istifadə edə bilməli, inkişafda olan texnologiyadan istifadə edə bilməlidir.

Bundan başqa, şagird və tələbələrə soruşmaq imkanı verməli, soruşulan mövzuda məlumatı olmadığını deməkdən çəkinməməli, ancaq bir sonrakı gün onu araşdırıb suala cavab verməli, taraz, müsbət və tutarlı davranışlar nümayiş etdirməli, düşüncələri ilə davranışları uyğun gəlməli, natiqlik bacarığına sahib olmalı, özünə inamlı və cəsarətli olmalı, etimad edilən olmalı, problemləri həll edən və müəyyən nəticəyə gələ bilən olmalı, səhv etdiyi zaman səhvini qəbul etməli, müvəffəqiyyətləri həssas və ədalətli şəkildə qiymətləndirməli, cəza və mükafatlardan konstruktiv (faydaverici) və təşviqedici formada istifadə etməli, tənqidləri qəbul edə bilməli, rəhbərlik, iş yoldaşları, şagirdlər və valideynlərlə müsbət əlaqələr qurmalı, humanist olmalı, nikbin olmalı, mövzuları mənəviyyatdan, elmdən və məntiqdən istifadə edib müsbət və ümidverici şəkildə izah etməli, şagirdlərlə tez-tez gö-rüşməli və dərdlərinə şərik olmalı, qarşısında duran şəxsə mütləq dəyər verməli, "özünüzə qarşı hörmət görmək istəyirsinizsə, ilk əvvəl siz hörmət edin" prinsipi ilə hərəkət etməli, şagirdləri tənqid etdiyi zaman onların şəxsiyyətini deyil, mənfi hərəkətlərini tənqid etməli, şagirdini tənqid etməyi zəruri hesab edirsə, bunu dostları içində deyil, təklikdə və sakit bir şəkildə etməlidir.

Müəllim qarşıya qoyulmuş nəticələrə çatmaq üçün keyfiyyətli planlaşdırma aparmağı bacarmalıdır. Müəllimin keyfiyyətini artırmaq üçün müxtəlif formalardan istifadə edə bilər: kurslar, təlimlər, seminarlar, dəyirmi masalar, pedaqoji şuralar, metodbirləşmələrdə müzakirələr, tez-tez keçirilən fənn aylıqları və s.

Keyfiyyətli təlim mühiti. Keyfiyyətli təlim 4 mexanizm üzərində qurulmalıdır. **Problemli şəraitin yaradılması.** Şagirdin qarşısına problem qoyulur, problemli şəraiti yaradılır və onun problemi həll etməyə yönəldilməsi nəticəsində idrak fəallığı yaranır. **Şagird tədqiqatçı, müəllim fasilitator.** Şagird subyekt mövqeyini tutmalı, bu prosesin bərabər iştirakçısı olmalıdır. Şagird tədqiqatçı, müəllim isə - bələdçi rolunu həyata keçirməlidir. Şagirdlər bilikləri müstəqil şəkildə tədqiqat zamanı əldə etməlidirlər.

Dialoqun və əməkdaşlığın zəruriliyi. Təlim dialoji şəkildə əməkdaşlıq şəraitində keçirilir. **Psixoloji dəstək: hörmət və etibar.** Şagirdlərin idrak fəallıqlarını saxlamaq vasitəsi – onların psixoloji dəstəklənməsidir: müəllimin xeyirxah münasibəti, şagirdlərə hörmət və etibarı, onların bacarığına inamı.

Keyfiyyətli şagird. Keyfiyyətli şagirdi bir neçə meyarla müəyyənləşdirmək olar:

1. Şagirdin kompetensiyaları.
2. Şagirdin tərbiyəsi.
3. Şagirdin fiziki-mənəvi sağlamlığı.
4. Ailələrin sosial səviyyəsi və rifahı.

Şagirdin kompetensiyaları. Şagirdin bilik, bacarıq, vərdiş və dəyərləri. Hər bir fənn üzrə təlim nəticələri vardır ki, şagird il ərzində onlara yiyələnməlidir. Eyni zamanda şagirddə həmin fənnlə bağlı həyati bacarıqlar da formalaşdırılmalıdır. Şagird həyatda hansısa bir prob-

lemlə qarşılaşarkən parta arxasında öyrəndiyi bilik və bacarıqlardan istifadə edə bilməlidir.

Şagirdin tərbiyəsi. Tərbiyə – insanın şəxsiyyətinin inkişafına, onun müasir mədəni dünyagörüşünün formalaşmasına, müəyyən baxışların yaranmasına yönəlmiş məqsədyönlü professional fəaliyyətdir. Tərbiyə təlim-tədris müəssisələrində xüsusi təlim almış mütəxəssislər tərəfindən şəxsiyyətin formalaşması və yaranması məqsədilə hazırlanmış bütöv, şüurlu təşkil edilmiş prosesdir. Şagirdlərdə ictimai əmlaka, maddi nemətlərə qayğıkeş və qənaətcil münasibət tərbiyəsi, böyüklərə hörmət, ekoloji tərbiyə işlərinin aparılması, doğma təbiətə məhəbbət və ətraf mühitlə davranmaq qaydaları, təbiətin qorunması və təbiət guşələrinin yaradılması kimi məsələlər tərbiyə işinin sisteminə daxildir.

Şagirdin fiziki-mənəvi sağlamlığı. Fizioloji və psixoloji tədqiqatlardan aydın olur ki, fiziki hərəkətlər şagirdlərin iş qabiliyyətini artırır, sağlamlığını möhkəmləndirir, fiziki inkişafına müsbət təsir göstərir Nəticədə şagirdlər həmin hərəkətlərlə ardıcıl məşğul olmağa, onları düzgün və dəqiq yerinə yetirməyə çalışırlar. Bu həm də ürək fəaliyyətinin yaxşılaşmasına, maddələr mübadiləsinin tədricən sürətlənməsinə, əmək prosesi ilə əlaqədar keyfiyyətlərin yüksəldilməsinə, habelə müvafiq hisslərin inkişafına müsbət təsir göstərir. Şagirdlərin əmək qabiliyyətini artıran şərtlərdən biri əmək elementlərinə malik fiziki hərəkətlərin tənəffüslə uyğunlaşdırılmasıdır. Hərəkətlərin tənəffüslə əlaqələndirilməsi şagirdləri əməyə hazırlamağa zəmin yaradır.

Ailələrin sosial səviyyəsi və rifahı. Vətəndaşların həyat səviyyəsinin və keyfiyyətinin yüksəldilməsi hər bir dövlətin sosial siyasətinin əsas məqsədlərindəndir. Bu, əhalinin məşğulluğunun, tibbi xidmətlərin yüksək səviyyəsinin, pensiyaçıların, çoxuşaqlı ailələrin, əlillərin hüquqlarının müdafiəsinin təmini yolu ilə həyata keçirilir. Ailələrin sosial rifahı və səviyyəsi nə qədər yüksək olarsa bu keyfiyyətli şagird yetişdirməyə yaxşı təsir edir.

Problemin aktuallığı. Dərs prosesində keyfiyyət bir neçə məqamdan asılıdır. Onlardan birincisi müəllimdir. Prosesin keyfiyyətli olması, dərs zamanı şagirdin hər tərəfli inkişafı, bilik və bacarıqlara yiyələnməsi, tərbiyə alması, inkişaf etməsidir.

Problemin elmi yeniliyi. Hazırda bu islahatların ən mühüm mərhələsinə qədəm qoyulmuşdur. Təhsilin məzmunu və təlimin təşkilinə verilən tələblərdə ciddi yeniləşmə və müasirləşdirmə prosesləri gedir. Bununla əlaqədar olaraq təhsilin və təlimin məzmununun müasir tələblərə uyğun olaraq müəyyən edilməsi, yeniləşdirilməsi və idarə olunması günü-gündən aktuallaşır.

Problemin praktik əhəmiyyəti. Fəlsəfi nöqteyi-nəzərdən təhsilin keyfiyyəti - onun məzmunu, şagirdin tərbiyəsi və şəxsiyyət kimi formalaşması ilə, idarəetmə yanaşmasında isə təhsilin keyfiyyət nailiyyətlərinin üst-üstə düşməsi, gözləntilərin təmin olunması, nəticələrin standartlara uyğunluğu ilə ölçülür.

Ədəbiyyat:

1. "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunu. Bakı, 2009.
2. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənnindən yeni təlim proqramı (kurikulum). Bakı, 2012.
3. A. Süleymanova. Təhsilin əsasları. Bakı, 2014.
4. Г.В. Макотрова. Исследовательский потенциал личности школьника // Управление образованием, 2014, № 5
5. Овсянко Д. В. «Управление качеством». «Высшая школа менеджмента», 2011.

E-mail: firuza_23@mail.ru
Rəyçilər*: ped.ü.fəls.dok.,dos.* **A. Hacıyev,**
ped.ü.fəls.dok.,dos. **Ə. Gərayev**
Redaksiyaya daxil olub: 02.12.2018

MƏKTƏB VƏ PEDAQOJİ FİKİR TARİXİ

UOT 373.3/5.

Emilya Rafiq qızı Hüseynova
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti

MUSTAFA KAMAL ATATÜRKÜN HƏYATI VƏ FƏALİYYƏTİ BÖYÜK MƏKTƏB YAŞLI ŞAGİRDLƏRDƏ FƏAL VƏTƏNDAŞLIQ MÖVQEYİ FORMALAŞDIRMAĞIN MƏNBƏYİ KİMİ

Эмиля Рафик гызы Гусейнова
доктор философии по педагогике, доцент
Азербайджанский Государственный Педагогический Университет

ЖИЗНЬ И ДЕЯТЕЛЬНОСТЬ МУСТАФЫ КЕМАЛЬ АТАТЮРКА КАК ИСТОЧНИК ФОРМИРОВАНИЯ АКТИВНОЙ ГРАЖДАНСКОЙ ПОЗИЦИИ У СТАРШЕКЛАССНИКОВ

Emilya Rafig Huseynova
PhD in pedagogy, assistant professor
Azerbaijan State Pedagogical University

LIFE AND ACTIVITY OF MUSTAFA KEMAL ATATURK AS A SOURCE OF FORMATION OF ACTIVE CIVIL POSITION AT SENIOR PUPILS

Xülasə: Mustafa Kamal Atatürkün istər həyatı, istərsə də fəaliyyəti, müstəqil və suveren Türkiyə Respublikası uğrunda mübarizəsi onun tarixi xidmətidir, öyünüləsi və fəxr ediləcək, ibrət götürüləcək fəal vətəndaşlı mövqeyi nümunəsidir. Həmin nümunələrə müraciət etməklə yuxarı sinif şagirdləri arasında tərbiyə işləri aparıla bilər.

Məqalədə Mustafa Kamal Atatürkün həyati və fəaliyyəti böyük məktəb yaşlı şagirdlərdə fəal vətəndaşlıq mövqeyini formalaşdırmağın mənbəyi kimi nəzərdən keçirilir.

***Açar sözlər**: Mustafa Kamal Atatürk, yuxarı sinif şagirdləri, vətəndaşlıq, vətəndaşlıq mövqeyi, fəal vətəndaş, fəal vətəndaşlıq mövqeyi*

Резюме. Жизнь и деятельность Мустафы Кемаль Ататюрка, его борьба за независимую и суверенную Турецкую Республику, являясь его исторической заслугой и гордостью, стал образцом активной гражданской позиции. Используя эти образцы для подражания, можно провести воспитательные работы среди старшеклассников.

В статье жизнь и деятельность Мустафы Кемаль Ататюрка рассматриваются как источник формирования активной гражданской позиции у старшеклассников.

***Ключевые слова**: Мустафа Кемаль Ататюрк, старшеклассники, гражданство, гражданская позиция, активный гражданин, активная гражданская позиция*

Summary. The life and work of Mustafa Kemal Ataturk, his struggle for an independent and sovereign Republic of Turkey, being his historical merit and pride, became an example of an active citizenship. Using these role models, you can conduct educational work among high school students.

In the article, the life and work of Mustafa Kemal Ataturk are considered as a source of formation of an active citizenship among high school students.

***Keywords:** Mustafa Kemal Ataturk, high school students, citizenship, active citizen, active citizenship*

Mustafa Kamal Atatürkün istər həyatı, istərsə də fəaliyyəti, müstəqil və suveren Türkiyə Respublikası uğrunda mübarizəsi onun tarixi xidmətidir, öyünüləsi və fəxr ediləcək, ibrət götürüləcək fəal vətəndaşlı mövqeyi nümunəsidir. Həmin nümunələrə müraciət etməklə yuxarı sinif şagirdləri arasında tərbiyə işləri aparıla bilər.

Tədqiqat zamanı Utkan Qocanın "Atatürk" kitabının materiallarından faydalanmaq mümkündür.

Bundan başqa, yazıçı, professor A.N. Abbasov Mustafa Kamal Atatürkün həyat və fəaliyyətinə aid "Samsundan başlanan tol" romanını, Atatürk haqqında hekayələr (I və II kitablar), "Böyük türk" kitablarını, "Atatürk" pyesini yazmışdır. Həmin əsərlərə müraciət etməklə də bir böyük şəxsiyyət, türk dünyasının öndəri, görkəmli dövlət xadimi, qüdrətli sərkərdə və ictimai xadim kimi Mustafa Kamalın obrazını göz önündə canlandırmaq və ondan nümunə götürmək olar.

Ümummilli liderimiz Heydər Əliyev Atatürk şəxsiyyətini yüksək dəyərləndirərək demişdir: "Mən hesab edirəm ki, Mustafa Kamal Atatürkün bəşəriyyət üçün böyük irsi, mirası vardır. Onlar çoxdur. Amma bunlardan ən qiymətlisi, ən əzizi onun qurub-yaratdığı və bu günə qədər yaşayan Türkiyə Cümhuriyyətidir".

Həmin sözlərdə dərin həqiqət vardır.

Utkan Qocanın elmi-kütləvi səpgidə yazdığı "Atatürk" əsərində "Atatürkə görə Atatürk" bölməsi var. Həmin bölmə Mustafa Kamal Atatürk şəxsiyyətini diqqət mərkəzinə gətirməyə çox kömək edir. O öz böyüklüyünü özü, öz sözləri, öz mövqeyi, özünün sadəliyi, millətinə, dövlətinə, xalqına sadiqliyi nümunəsi ilə açır. Fikir verək: "İki Mustafa Kamal var: biri mən, ət və sümükdən ibarət müvəqqəti Mustafa Kamal... ikinci Mustafa Kamal... onu "mən" sözü ilə ifadə edə bilmərəm. O, mən deyil, bizdir. O, məmləkətin hər guşəsində yeni fikir, yeni həyat və böyük ideallar uğrunda mübarizə aparan ziyalı və savaşçı bir topluluqdur. Mən onların arzusunu təmsil edirəm. Mənim etdiyim təşəbbüslər, onların həsrətini çəkdikləri şeyləri həyata keçirmək üçündür. O Mustafa Kamal sizsiniz, hamınızsınız. Müvəqqəti olmayan, yaşaması və müvəffəqiyyətləri zəruri olan Mustafa Kamal odur" (1, s. 183).

Məlum olduğu kimi, Osmanlı dövləti I Dünya müharibəsinə Almaniyanın müttəfiqi kimi qoşulmuşdu. O zamanlar Mustafa Kamal Osmanlı ordusunun zabiti idi və öz dövlətinin bu müharibədə iştirakını lazım bilmirdi. Osmanlı dövlətinin və ordunun rəhbərliyində belə bir qənaət formalaşmamışdı ki, Almaniya bu müharibəni udacaq və geniş ərazilərə sahib olacaq. Bu qənimətlərə Türkiyəyə də yiyələnəcək. Fəqət Mustafa Kamal əksini düşünür və Almaniyanın qələbəsinə inanmırdı. Almaniya məğlub olduğu təqdirdə ən böyük zərbə Osmanlı dövlətinə dəyəcəkdi. Mustafa Kamal məhz belə fikirləşirdi və hadisələrin gedişi onun doğru olduğunu təsdiqlədi.

Türkiyə böyük təhlükə qarşısında qaldı. Əraziləri İngiltərə, Fransa, İtaliya, Yunanıstan və b. bu kimi dövlətlər arasında bölüşdürülməkdə idi. Hətta Antanta dövlətləri Osmanlı sultanı VI Vəhdəddini təslim aktını imzalamağa məcbur etmişdilər. Belə ağır anlarda Mustafa Kamal tarixin səhnəsinə çıxdı. Bu xüsusda o deyirdi: "Osmanlı məmləkətləri tamamilə parçalanmışdı. Ortada bir ovuc türkün yaşadığı bir ata yurdu qalmışdı. Son məsələ bunun da bölüşdürülməsini həyata keçirməkdən ibarət idi".

Yaranmış müdhiş vəziyyətdən çıxmaq üçün Mustafa Kamal "Ya istiqlal, ya ölüm" şüarını irəli sürərək Ankarada Böyük Millət məclisini və milli hökuməti yaratdı və bütün dünyaya bəyan etdi ki, milli hökumət milli-azadlıq hərəkatına başlayır. 1922-ci ildə bütün düşmənlər ölkədən qovuldu, milli azadlıq hərəkatı qələbə çaldı. Həmin il avqustun 30-da yunan ordusu məğlubiyyətə uğradı və İzmir şəhəri geriyə, türklərə qaytarıldı. Qurtuluş Döyüşü 24 iyul 1923-cü ildə imzalanan Lozan Müqaviləsi ilə nəticələndi. Həmin andlaşma əsasında Sevr müqaviləsi qüvvədən düşmüş, Türkiyə Respublikası Lozanna müqaviləsi təməlləri üzərinə bərqərar oldu.

1923-cü il oktyabrın 29-da Türkiyə respublika elan olundu, Mustafa Kamal Türkiyə Respublikasının ilk prezidenti seçildi.

Mustafa Kamal Atatürk 1881-ci ilin qış aylarında anadan olmuşdur, lakin 1919-cu ildə Samsundan milli azadlıq hərəkatına başladığını bütün dünyaya bildirdiyi günü - 19 may tarixini özünə doğum günü yazdırmışdı.

Xalq, ayrı-ayrı insanlar bütün bu qələbələrin qazanılmasında Mustafa Kamalın rolunun daha çox olduğunu görür və qiymətləndirirdi. Fəqət təvazökar insan səmimiyyətlə deyirdi: "Bütün bu müvəffəqiyyətlər yalnız mənim əsərim deyildir və ola bilməz. Bütün müvəffə-qiyyətlər bütün millətin qərarı və birgə inamla çalışmasının nəticəsidir: qəhrəman millətimizin və məşhur ordumuzun qazandığı müvəffəqiyyət və zəfərlərdir" (8, s. 75-76).

Göründüyü kimi, o, bu zəfəri yalnız öz adına yazmırdı ("Milli əməllər, milli iradə yalnız bir şəxsin düşüncələrindən deyil, bütün millət fərdlərinin arzularının, əməllərinin birləşməsindən ibarətdir"), xalqın, millətin böyük köməyini diqqətə çatdırır və bildirirdi ki, o, təkbaşına bu böyüklükdə işin öhdəsindən gələ bilməzdi. Bir daha qeyd edirdi: "Əgər mən millətimə hər hansı xidmət etmişəmsə, əgər mən hər hansı bir işdə təşəbbüsçü olmuşamsa, bu xidmət və təşəbbüsümdə ilhamverici mənbə, sayğılar və sevgilərlə bağlı olduğum, bundan sonra da sayğı və sevgi ilə xoşbəxtlik və rifahına varlığımı, həyatımı verəcəyim əziz millətimə, sizlərə arxalanmaqdır" (8, s. 161).

Bu fikirlər Mustafa Kamalın böyüklüyündən, dahiliyindən irəli gəlirdi. "Əgər məndə təşəbbüskarlıq özünü çox göstərmişdirsə, bu yalnız mənim xidmətim deyil, millətin bərabər təsir göstərən qüvvəsindən irəli gələn təşəbbüskarlıqdır. Sizlər olmasaydınız, sizlərin vicdani meyilləriniz mənim üçün dayaq nöqtəsi təşkil etməsəydi, məndəki təşəbbüskarlığın heç biri olmazdı" (8, s. 159).

Atatürk öz xalqını və millətini sonsuz məhəbbətlə sevir, ona xidmət etməkdən hədsiz zövq alır, vətəninin, xalqının yolunda canından keçməyə də hazır olurdu. Mustafa Kamal döyüş meydanlarında olarkən, özünün mübarizəsi və hakimiyyəti dövründə çox saylı sui-qəsdlərə tuş gəlmişdi. Hətta sonuncu Osmanlı sultanı Vəhdəddin onun edam olunmasına dair sərəncam vermiş, general hərbi rütbəsini də ləğv etmişdi. Amma Mustafa Kamalın iradəsini qırmaq, onu sındırmaq, mübarizə və döyüş əzmini qırmaq qeyri-mümkün idi ("Milli hegemonluq uğrunda canımı vermək mənim üçün vicdan və namus borcu olsun").

Mustafa Kamal azadlığa yüksək dəyər verirdi. Bu barədə özü deyərdi: "Azadlıq və istiqlaliyyət mənim xarakterimdədir. Mən millətimin və böyük əcdadımın ən qiymətli mirası olan istiqlaliyyət eşqi ilə yaradılmış bir adamam. Uşaqlığımdan bu günə qədər ailəvi, şəxsi və rəsmi həyatımın hər səhifəsini yaxından tanıyanlar bu eşqi görüblər" (9, s. 24).

Mustafa Kamal milli və şəxsi şərəf və ləyaqəti yüksək qiymətləndirirdi ("Mənim gözümə heç şey görünmür: mən yalnız ləyaqət aşiqiyəm").

O, bütöv xarakterə malik idi. Əqidəsindən, tutduğu yoldan heç zaman dönməzdi, bütün təhlükələrə sinə gərərək yalnız irəliyə gedər ("Milli müdafiəmizi düşmənlərin bayraqları babalarımızın ocaqlarından çəkilənə qədər davam etdirəcəyik"), türk millətinə böyük dəyər verərdi: "Türk əsarəti qəbul etməyən bir millətdir. Türk milləti əsir olmamışdır (8, s. 230).

Atatürk respublika üsuli-idarəsini digər idarəetmə sistemlərindən çox yüksəkdə tutur, onun demokratik idarəetmə üsulu olduğunu vurğulayırdı: "Respublika əxlaqi ləyaqətə əsaslanan bir idarədir. Respublika ləyaqətdir. Sultanlıq qorxu və təhlükəyə əsaslanan bir idarədir. Respublika idarəsi ləyaqətli və namuslu insanlar yetişdirir" (8, s. 231).

Atatürk ölkə vətəndaşlarını vətənpərvərliyə səsləyir, türk millətinə xidmət etməyi məsləhət bilirdi. Bu xüsusda deyərdi: "Millətə əfəndilik etmək yoxdur, xidmət etmək vardır. Bu millətə xidmət edən onun əfəndisi olur" (1, s. 115).

Mustafa Kamal Atatürk o, haqq işi uğrunda mübarizə aparmış, demokratik respublika qurmuş, milli hökumət qurmuş, ölkədə dünyəvi təhsilin tətbiqinə nail olmuş, qadınların ictimai həyatda iştirakına şərait yaratmış, Türkiyə Respublikasının sənayesini, iqtisadiyyatını, mədəniyyətini və incəsənətini, səhiyyəsini, inkişaf etdirmiş, xalqını müstəqilliyə qovuşdurmuşdu. Ölkə vətəndaşlarına, xüsusən gənclərə müraciətlə bu nailiyyətlərin keşiyində ayıq-sayıq durmağı məsləhət görürdü. Diqqət yetirək: "Mənim aciz vücudum bir gün, əlbəttə, torpaq olacaqdır, fəqət Türkiyə Respublikası sonsuzluğadək yaşayacaqdır" (9, s. 80).

Türkiyə Respublikasında həyata keçirilən Soyad qanununa əsasən, Mustafa Kamala 24 noyabr 1934-cü ildə Böyük Millət Məclisi tərəfindən "Atatürk" soyadı verilmişdir. Atatürk – türklərin atası mənasını verir. Həm də Mustafa

Kamaldan savayı bu adın başqası tərəfindən daşınması qadağan edilmişdir.

Hazırda Türkiyə Respublikası dünya ölkələri sırasında öncül yerlərdən birini tutur və sonsuzluğadək yaşayır.

Göründüyü kimi, Mustafa Kamal Atatürkün həyat və fəaliyyəti tərbiyəedici mənbədir. Onun həyat və fəaliyyəti ilə yuxarı sinif şagirdlərinin tanış edilməsi onlarda fəal vətəndaşlıq mövqeyinin formalaşdırılmasına böyük kömək göstərmiş olardı. Təlim prosesinin (xüsusən ədəbiyyat və Azərbaycan tarixi dərslərinin), sinifdənxaric tədbirlərin imkanlarından geniş faydalanmaq mümkündür. X-XI sinif şagirdləri ilə "Bir millət – iki dövlət", "Böyük türk – Atatürk", "Atatürk və milli hegemonluq", "Görkəmli siyasi və hərbi xadim Mustafa Kamal Atatürk", "Atatürkün ölməz sözləri", "Atatürk gənclik və türk gəncliyi", "Türk millətinə inam, ümid və hörmət", "Türk əsarəti qəbul etməyən bir millətdir" mövzularında söhbətlər, disput və müzakirələr həyata keçirilə bilər.

Yazıçı A. Abbasovun "Samsundan başlanan yol" romanının müzakirəsinin təşkil olunması mümkündür.

Sinifdənxaric tədbirlər təşkil olunarkən Atatürklə bağlı materiallar, onun ölməz fikirləri məktəblilərin diqqətinə iki şəkildə, iki formada çatdırıla bilər:

1. Tədbir bilavasitə Mustafa kamal Atatürkə həsr olunur. Məsələn, "Böyük türk – Atatürk".

2. Hər hansı formada sinifdən xaric tədbir planlaşdırılır. Məsələn, "Heç kim unudulmur, heç nə yaddan çıxmır". Sinifdənxaric işin bu formasında müxtəlif məsələlər əhatə olunur. Rəsmi hissə ilə yanaşı bədii hissə də olur, özfəaliyyət də çıxış edir. Rəsmi hissədə bu və ya digər məsələ ilə bağlı Mustafa Kamal Atatürkün fikirləri səslənə bilər. Yaxud, bədii hissədə şagirdlərin ifasında yazıçı Akif Abbasovun "Atatürk" pyesindən bir hissəsinin səhnədə canlandırılması mümkündür. Və yaxud, professor, bəstəkar Oqtay Rəcəbovun Babəkin sözlərinə yazdığı "Heydər-Atatürk" və ya "Atatürk" mahnıları səslənə bilər.

Problemin aktuallığı. Mustafa Kamal Atatürkün həyati və fəaliyyəti fəal vətəndaşlıq mövqeyini formalaşdırmağın mənbəyidir. Böyük məktəb yaşlı şagirdlərdə Atatürk nümunəsində tərbiyə olunması bu baxımdan aktualdır.

Problemin yeniliyi. Mustafa Kamal Atatürkün həyati və fəaliyyəti böyük məktəb yaşlı şagirdlərdə fəal vətəndaşlıq mövqeyini formalaşdırmağın mənbəyi kimi nəzərdən keçirilir.

Problemin praktik əhəmiyyəti. Məqalə doktorant, dissertant və gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

Ədəbiyyat:

1. Utkan Qocaterk. Atatürk. Bakı: Elm, 1991, 212 s.
2. Abbasov A.N. Samsundan başlanan yol (roman). Bakı: Mütərcim, 2011.
3. Abbasov A.N. Atatürk haqqında hekayələr (I kitab). Bakı: AzAtaM, 2007.
4. Abbasov A.N. Atatürk haqqında hekayələr (II kitab). Bakı: AzAtaM, 2007.
5. Abbasov A.N. Böyük türk. Bakı: Mütərcim, 2007.
6. Abbasov A.N. Atatürk (pyes). Bakı: Mütərcim, 2007.
7. Atatürk (piyes). Ankara: Özel Der Yayınları, 2015.
8. Bazi Hatıralar ve "Ben Nə Yaptım?", Yusif Ziya Özer, T.T.K, Bülleten, cilt III, sayı 10, 1956.
9. Atatürk'ün S.D. II: Atatürk'ün Söylev ve Demeçileri II. Toplayan: Nikmet Unan, Türk İnkılap Tarihi Enstitüsü Yayınları: I, İkinci Basım, 1959.
10. Atatürk'ün S.D. II: Atatürk'ün Söylev ve Demeçileri III. Toplayan: Nikmet Arsan, Türk İnkılap Tarihi Enstitüsü Yayınları: I, İkinci Basım, 1961.

E-mail: emilya.huseynova95@gmail.com
Rəyçilər: *ped.ü.elm.dok., prof.* **A.N. Abbasov,**
ped.ü.fəls.dok. **L.A. Məmmədli**
Redaksiyaya daxil olub: 29.11.2018

UOT 373.3/5.

İradə Böyükağa qızı Əmirəliyeva
pedaqogika üzrə fəlsəfə doktoru,
Azərbaycan Respublikasının Təhsil İnstitutu

ABBAS SƏHHƏTİN MAARİFÇİLİK İDEYALARI

Ирада Боюкага гызы Амиралиева,
доктор философии по педагогике
Институт Образования Азербайджанской Республики

ПРОСВЕТИТЕЛЬСКИЕ ИДЕИ АББАС САХХАТА

İrada Boyukagha Amiraliyeva
doctor of philosophy in pedagogy
İnstitute of Education of the Republic of Azerbaijan

ABBAS SAHHAT'S ENLIGHTENMENT IDEAS

Xülasə: Məqalədə ilk növbədə məktəb və pedaqoji fikir tarixinə dair aparılmış tədqiqatlar yada salınır. Daha sonra Abbas Səhhətin pedaqoji fəaliyyətindən və maarifçilik ideyalarından danışılır. Şairin müəllimin şəxsi və peşə keyfiyyətlərinə, müəllim şəxsiyyətinə, təlimin təşkilində müəllimin roluna, vətənpərvərliyə dair fikirlərinə müraciət olunur.

Məqalə doktorantlar, dissertantlar, gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

***Açar sözlər**: Abbas Səhhət, ideya, maarifçilik, maarifçilik ideyaları, müəllim şəxsiyyəti, vətənpərvərlik, təlim*

Резюме: В статье, в первую очередь, упоминаются исследования, проводимые в области истории школьной и педагогической мысли. Далее повествуется о педагогической деятельности и просветительских идеях Аббаса Саххата. В статье раскрываются взгляды поэта относительно личных и профессиональных качеств, личности учителя, роли учителя в организации обучения и воспитании патриотизма.

Статья будет полезна для докторантов, диссертантов и молодых исследователей.

***Ключевые слова:** Аббас Саххат, идея, просветительное, просветительские идеи, личность учителя, патриотизм, обучение*

Summary: The article, first of all, refers to research conducted in the field of the history of school and pedagogical thought. Further, it tells about the pedagogical activity and educational ideas of Abbas Sahhat. The article reveals the views of the poet regarding personal and professional qualities, the personality of the teacher, the role of the teacher in the organization of training and education of patriotism.The article will be useful for doctoral students, candidates for a degree and young researchers.

***Keywords:** Abbas Sihhat, idea, enlightenment, enlightenment ideas, teacher's personality, patriotism, training*

Respublikamızda təhsilin, məktəbin tarixi, həmçinin pedaqoji fikir tarixi sahəsində bir sıra tədqiqatlar aparılmışdır. Təhsilin və məktəbin tarixi üzrə akademik M.M. Mehdizadənin, Ə.Y. Seyidovun, H.M. Əhmədovun, F.B. Sadıqovun, F.A. Rüstəmovun və b.; pedaqoji fikir tarixi ilə bağlı Ə.Y. Seyidovun, M.Ə. Muradxanovun, Ə.Ə. Ağayevin, D. Mustafayevanın, A. Tağıyevin, İ. Mollayevin, İ.N. İsayevin, Z.M. Mehdizadənin, B.M. Nəsirovun, B.F. Apoyev, K. Camalov R.C. Əliyevin və b. tədqiqatları diqqəti cəlb edir.

Ə.Y. Seyidov "A.A. Bakıxanovun pedaqoji görüşləri", M.Ə. Muradxanov "Nizami

Gəncəvinin pedaqoji görüşləri", D. Mustafayeva "Abdulla Şaiqin pedaqoji fəaliyyəti və ədəbi yaradıcılığında uşaqların tərbiyəsi haqqında fikirlər", A. Tağıyev "Azərbaycanın mütəfəkkir pedaqoqlarının nəsihətlərində tərbiyə məsələləri" , Ə.Ə. Ağayev "Fərhad Ağazadənin pedaqoji fəaliyyəti və görüşləri", İ. Mollayev "Məhəmməd Tağı (Sidqi) Səfərovun pedaqoji fəaliyyəti və görüşləri" , İ.N. İsayev "Abbas Səhhətin təlim-tərbiyə haqqında fikirləri" və c. namizədlik dissertasiyalar üzərində işləmiş və müdafiə etmişlər.

Sonralar Ə.B. Cəlilov – Süleyman Sani Axundovun, M.N. Rəhimov – Səməd Vurğunun, S.A. Əzimova – Firudin bəy Köçərlinin, Z.M. Mehdizadə - Aleksey Osipoviç Çernyayevskinin, T. Kərimli – Mir Möhsün Nəvvabın, Z.M. Mehrəliyeva – Cəlil Məmmədquluzadənin, B.M. Nəsirov – M. Mahmudbəyovun, S.Q. Orucova - Üzeyir Hacıbəyovun, S.Q. Ociyev – Seyidrza Əlizadənin, T.B. Eminli – Əli Nəzminin, K. Camalov – Hüseyn Cavidin, Ə. Tağıyev – Mirzə Ələkbər Sabirin, M.Ə. Əkbərova – Şah İsmayıl Xətayinin, R.C. Əliyev – Mehdi Mehdizadənin, S. Kərimova – Bəxtiyar Vahabzadənin, Ə. Məmmədov – N.K. Krupskayanın, S.Ə. Məmmədov – Cəfər Cabbarlının, Ə. Yaqubi – Doktor Tağı Eraninin, T.M. Hüseynova – Süleyman Rəhimovun, S.Ş. Hüseynov - Mir Cəlal Paşayevin maarifçilik və pedaqoji fəaliyyəti, pedaqoji fikirləri, pedaqoji ideyaların; diqqət mərkəzinə gətirmişlər.

Nəsirəddin Tusinin əsərləri pedaqoji yönümdə bir sıra tədqiqatların mövzusuna çevrilmişdir. Nazilə Abdullayeva "Nəsirəddin Tusinin yaradıcılığında təhsil və təlim məsələləri", Vaqif Hüseynov "Nəsirəddin Tusinin elmi-pedaqoji irsinin Azərbaycanda pedaqoji fikrin inkişafına təsiri" və Elşən Talıbov "Nəsirəddin Tusi irsindən ümumtəhsil məktəblərində istifadə yolları", E. Murquzov "Nəsirəddin Tusinin pedaqoji-psixoloji görüşləri", Həbibə Məhərrəmova "Nəsirəddin Tusinin pedaqoji irsindən istifadənin X-XI sinif şagirdlərinin əxlaq tərbiyəsinə təsiri" mövzularında dissertasiyalarına görə pedaqoji elmlər namizədi elmi dərəcələrinə layiq görülmüşlər.

Son zamanlar Mehparə Əhmədova "Məmməd Araz irsində pedaqoji ideyalar", Günel Məmmədova "Sultan Məcid Qənizadənin yaradıcılığında təhsil-tərbiyə məsələləri", Sevinc Hacıyeva "Qafur Rəşad Mirzəzadənin pedaqoji fəaliyyəti və maarifçilik görüşləri", Könül Abdurrəhimova "Mustafa Kamal Atatürkün maarifçilik ideyaları və pedaqoji kolleclərdə onlardan istifadə üzrə işin sistemi", Əsməd Şərifova "Mərdan Muradxanovun pedaqoji irsi və Azərbaycanda pedaqogika elminin inkişafına onun təsiri", Kəmalə Quliyeva "Heydər Əliyev irsində mənəvi tərbiyə məsələləri", Gülarə Qocayeva "Mehdi Hüseyn yaradıcılığında tərbiyə məsələləri", Nazilə Yusifova "Azərbaycan dilinin tədrisi metodikasının formalaşmasında və inkişafında professor Ağaməmməd Abdullayevin rolu", Sahib Hüseynov "Mir Cəlal Paşayevin elmi-pedaqoji fəaliyyəti", Məlahət Mürşüdlü "Abdulla Şaiq Talıbzadənin pedaqoji fəaliyyəti və onun (nümunə məktəbi)nin təlimin yeni məzmunda qurulmasında rolu", Ramiz Əliyev "Akademik Mehdi Mehdizadənin pedaqoji fəaliyyəti və pedaqoji görüşləri", Mətanət Əkbərova "Şah İsmayıl Xətainin pedaqoji ideyaları", Sevil Həsənova "Hüseyn Cavidin həyat və yaradıcılığının tədrisinin şagirdlərin mənəvi tərbiyəsinə təsiri", Tahir Kərimli "Mir Möhsün Nəvvab Qarabağınən pedaqoji görüşləri", Bayram Apoyev "Nizami Gəncəvinin pedaqoji ideyalar sistemi", Yeganə Əskərova "Azərbaycanda elmi psixologiyanın inkişafında Ə.Ə. Əlizadə yaradıcılığının rolu", Ləman Verdiyeva "Abasqulu ağa Bakıxanovun yaradıcılığında sosial-psixoloji məsələlərin təhlili", Məhəbbət Həsənova "Cəfər Cabbarlının əsərlərinin sosial-psixoloji təhlili və onların şagird şəxsiyyətinin formalaşmasında rolu", Kamilə Kazımova "S.Ə. Şirvaninin ədəbi irsində etnik-psixoloji xüsusiyyətlərin əks etdirilməsi problemi" və b. problemlər üzrə tədqiqatlar aparmış, yazdıqları dissertasiyaları müdafiə etmişlər.

Qeyd etməliyik ki, Mustafa Kamal Atatürkün maarifçilik ideyaları prof. A.N. Abbasovun da tədqiqatları üçün obyekt olmuşdur.

Biz özümüz də son zamanlar "Pedaqoji fikir tarixindən" adlı dərs vəsaiti hazırlayaraq nəşrinə nail olmuşuq. Yazdığımız həmin vəsaitdə "Kitabi-Dədə Qorqud"da tərbiyə məsələlərinə münasibət bildirmiş; Nizami Gəncəvinin, Nəsirəddin Tusinin, Şah İsmayıl Xətayinin, Abdulla Şaiqin, Məhəmmədhüseyn Şəhriyarın, Məhəmməd Tağı Sidqinin, akademiklər Mehdi

Mehdizadənin, Zahid Qaralov, Hüseyn Əhmədov, Yəhya Kərimov və Əjdər Ağayevin, eyni zamanda Yan Amos Komenskinin, İohann Henrix Pestalotsinin, K.D. Uşinskinin pedaqoji görüşlərini bir sistem halına gətirmişik.

Bu məqalədə görkəmli Azərbaycan şairi, mahir tərcüməçi Abbas Səhhətin maarifçilik ideyalarına diqqəti cəlb etmək fikrindəyirik. Doğrudur prof. İ.N. İsayev vaxtilə Abbas Səhhətin həyatını və yaradıcılığını tədqiq edərək dissertasiya yazmış, daha sonralar – 2001-ci ildə "Abbas Səhhət və xalq maarifi" monoqrafiyasını nəşr etdirmişdir.

Problemə biz də öz münasibətimizi bildirmək istərdik. Qeyd etməyi özümüzə borc bilirik deyək ki, 1874-cü ildə Şamaxı şəhərində ruhani ailəsində dünyaya göz açan 1918-ci ildə 44 yaşında Gəncədə dünyasını dəyişən Abbas Səhhət (Mirzə Abbasqulu Mehdizadə) özünün mənalı ömrünü Vətənin, Azərbaycan xalqının tərəqqisinə, maariflənməsinə həsr etmiş, ümumxalq məhəbbəti qazanmışdır.

O, Türk əlifbası", " "Ədəbiyyat məcmusu". "İkinci il", "Gülzar" və s. dərsliklərin ərsəyə gəlməsində yaxından iştirak etmiş, "Yeni məktəb" və "Türk ədəbiyyatına ilk qədəm" kitablarını qələmə almışdır.

Abbas Səhhət ana dilində yeni təhsil ocaqlarının təşkili, dünya təhsil sisteminə əsaslanan dərsliklərin hazırlanması, təlim-təhsil işlərinin səmərəliliyinin artırılması, mədəniyyət ocaqları şəbəkəsinin genişləndirilməsi, Azərbaycan dilinin saflığı və s. sahəsində müstəsna əhəmiyyətə malik xidmətlər göstərmişdir.

Abbas Səhhət insanın həyatında məktəbin, təlimin və müəllimin roluna yüksək qiymət verirdi. Diqqət yetirək:

Millətin beş sənə bundan əqdəm,
Yüz nəfərdən biri tutmazdı qələm...
..Leyk bir bax ki, bu gün Şirvanda,
Gör neçə əhli qələm var onda?
Hər biri şərh edər öz öfkarını,
Nəşr edər aləm ara asarın,
...Elə kamilləri var bir payə,
Yaraşır qibtə edə həmsayə (4, s. 119).

Abbas Səhhət təlimin rolunu dəyərləndirməklə yanaşı qeyd etməyi unutmur ki, təlimi optimallaşdıran, onun təhsilləndirici, inkişafetdirici və tərbiyələndirici imkanlarını artıran və nəzərə alan müəllimdir. Şagird şəxsiyyətinin təşəkkül tapıb formalaşmasında müəllimə borcluyuq. Abbas Səhhət üzünü müəllimlərə tutaraq deyirdi: "Təlimləriniz ilə cahanın çevrəsini sizlər dəyişdirə bilərsiniz, ey müəllim əfəndilər".

Bəzi müəllimlərin köhnəlik əsiri olması Abbas Səhhəti narahat edirdi. Onları köhnəliyin əsiri olmamağa, cəmiyyətdə fəal mövqe tutmağa səsləyirdi. Diqqət yetirək:

...Yox, gərək biz gecə-gündüz çalışaq
Dürlü-dürlü zəhmətə alışaq.
Qoymayaq rəncü-üqubətlərdən
Qurtaraq bəlkə bu zillətlərdən.

Abbas Səhhətin qənaətincə, müəllim öz fənnini mükəmməl bilməli, hazırlığı hərtərəfli olmalı, saf mənəviyyata yiyələnməli, təlimə gəlir mənbəyi kimi baxmamalıdır.

Abbas Səhhətə görə, müəllimlə yanaşı şagird də pedaqoji prosesin bərabərhüquqlu üzvü kimi götürülməlidir. Dərdə təkcə müəllim yox, eyni zamanda şagirdlər də fəal olmalıdırlar.

Abbas Səhhət şəxsiyyətin müsbət mənəvi keyfiyyətlərə yiyələnməsini, öz əxlaqını saflaşdırmasını, nəfsini tox saxlamasını vacib hesab edirdi. Bütün bunların əksinə olaraq insafı, sədaqəti unudanları, doğruçuluqdan, düzlükdən yan qaçanları, tənbəlləri tənqid edirdi. Fikir verək:

Yoxdur insaf və sədaqət bizdə,
Nə düz, doğru, rəftar bizdə
Qaldı tənbəllik, sorsan o da var.
Babadan qalma bir adət bizdə.

Abbas Səhhət vətənpərvər şair idi. Doğma vətənini sonsuz məhəbbətlə sevirdi. Şairlərinin bir qismini vətənpərvərliyə həsr etmişdi. İnsanları, xüsusən gəncləri vətənpərvər olmağa səsləyirdi:

Vətəni sevməyən insan olmaz,
Olsa, ol şəxsdə vicdan olmaz.

Göründüyü kimi, təsəvvürünə belə gətirə bilmirdi ki, kimsə öz vətənini sevməsin.

İ.N. İsayev yazır: "Abbas Səhhətə görə, vətənpərvərlik gənc nəslin Vətəninin tərəqqisinə. Səadətinə, onun əməkçi insanlarına, dilinə, mədəniyyətinə şüurlu sədaqət və məhəbbət, əgər lazım gələrsə, canını belə vətən uğrunda əsirgə-

məmək ruhunda tərbiyə etməkdən ibarətdir. Lakin o, əsərlərində sadəcə tərənnüm yolu ilə getməmiş, bu müqəddəs hissin mahiyyətini araşdırmaq, gənc nəslə çatdırmaq imkanlarını görmüşdür" (1, s. 105).

Abbas Səhhətin vətənə həsr etdiyi şeirləri həqiqətən insanların, o cümlədən təhsilalanların vətənpərvərlik hisslərini qüvvətləndirir, onlarda doğma yurdu sevmək, onun maddi və mənəvi sərvətlərinə görə iftixar hissi keçirmək, Vətənin müdafiəsinə hər an, hər zaman hazır olmaq, lazım gələrsə bu torpaq yolunda canını qurban vermək əzmində olmaq hissləri meydana gətirir

Vətən hər bir şəxsdə xoş əhval, xoş ovqat yaradır:

Könlümün sevgili məhbubu mənim,
Vətənimdir, vətənimdir, vətənim.
Vətəni məncə unutmaq nə demək?!
Anadır hər kişiyə öz vətəni.
Bəsləyib sinəsi üstündə onu (3, s. 35).

Abbas Səhhət fikrincə, əgər "Vətən insanları öz sinəsi üstündə, öz qoynunda bəsləyib, Vətən bütün şəxslər üçün anadır"sa, demək, Vətən uğrunda mübarizə etməli, milli şərəf və ləyaqətə, vətənpərvərliyə malik olmalıyıq.

Problemin aktuallığı. Abbas Səhhətin maarifçilik ideyaları pedaqoji fikir tarixində önəmli yer tutur. Odur ki, bu ideyaların araşdırılması vacibdir.

Problemin yeniliyi. Abbas Səhhətin maarifçilik ideyaları diqqət mərkəzinə gətirilir.

Problemin praktik əhəmiyyəti. Məqalə doktorantlar, dissertantlar, gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

Ədəbiyyat:

1. İ.N. İsayev. Abbas Səhhət və xalq maarifi. Bakı: Nurlan, 2001.
2. İ.B. Əmirəliyeva. Pedaqoji fikir tarixindən. Bakı: Mütərcim, 2018.
3. Abbas Səhhət. Əsərləri 2 cilddə. 1-ci c. Bakı: Azərnəşr, 1976.
4. Abbas Səhhət. Əsərləri 2 cilddə. 2-ci c. Bakı: Azərnəşr, 1976.

E-mail: amiraliyeva_i@mail.ru
Rəyçilər: *ped.ü.elm.dok., prof.* **A.N. Abbasov,**
ped.ü.fəls.dok. **L.A. Məmmədli**
Redaksiyaya daxil olub: 17.12.2018

UOT 373.3/5.

Сабина Рафик гызы Гаджиева
доктор философии по педагогике,
преподаватель
Азербайджанского Государственного Педагогического Университета

ПЕДАГОГИЧЕСКАЯ КОНЦЕПЦИЯ ФРАНЦУЗСКОГО ФИЛОСОФА, ПИСАТЕЛЯ И МЫСЛИТЕЛЯ ЖАН-ЖАКА РУССО

Səbinə Rafiq qızı Hacıyeva
pedaqogika üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi

FRANSIZ FİLOSOFU, YAZIÇISI VƏ MÜTƏFƏKKİRİ JAN–JAK RUSSONUN PEDAQOJİ KONSEPSİYASI

Sabina Rafig Hajiyeva
doctor of philosophy in pedagogy,
teacher at Azerbaijan State Pedagogical University

THE PEDAGOGICAL CONCEPT OF THE FRENCH PHILOSOPHER, WRITER AND THINKER JEAN-JACQUES ROUSSEAU

Резюме: В историю педагогики Жан-Жак Руссо вошел как прогрессивный представитель французской буржуазно-демократической педагогики середины XIX века. Великий мыслитель создал педагогические и философские труды, пронизанные духом гуманизма, демократизма и уважения к личности. Теория естественного и свободного воспитания явилась фундаментом его педагогической концепции и эта концепция стала подлинным переворотом в педагогических воззрениях того времени.

Многие последующие ученые, мыслители, писатели познакомились с педагогическими идеями Руссо и стали последователями его передовых социально-педагогических убеждений.

Ключевые слова: *Жан-Жак Руссо, академия, философия, роман, теория свободного воспитания*

Xülasə: Jan-Jak Russo, XIX əsrin ortalarında Fransız burjua-demokratik pedaqogikasının mütərəqqi bir nümayəndəsi olaraq, pedaqoji tarixinə girdi. Böyük mütəfəkkir, şəxsiyyətə, demokratiyaya və fərdlərə hörmətlə yanaşan pedaqoji və fəlsəfi əsərlər yaradıb.

Təbii və azad tərbiyə nəzəriyyəsi onun pedaqoji konsepsiyasının təməlidir və bu konsepsiya həmin dövrün pedaqoji baxışlarında əsl inqilab oldu.

Bir çox sonra alimlər, mütəfəkkir və yazıçılar Russonun pedaqoji ideyaları ilə tanış olmuş və onun ardıcılları olmuşlar.

Açar sözlər: *Jan-Jak Russo, akademiya, fəlsəfə, roman, azad tərbiyə nəzəriyyəsi*

Summary: Jean-Jacques Rousseau entered the history of pedagogy as a progressive representative of the French bourgeois-democratic pedagogy of the wid – XIX century. The great thinker created pedagogical and philosophical works, imbued with the spirit of humanism, democracy and respect for the individual.

The theary of natural and free education was the feature of his pedagogical concept, and this concept became a true revolution in the pedagogical views of that time.

Many subsequent scholars thinkers, and writers became acquainted with Rousseaus pedagogical ideas and became followers of his advanced convictions.

Key words: *Jean-Jacques Rousseau, academy, philosophy, novel, free education theory*

Во второй половине XVIII века широко распространилась капиталистическая мануфактура. Все население страны делилось на три сословия: первым сословием считалось духовенство; вторым – дворянство; третье сословие не имело привилегий, большую часть его составляло крестьянство, ремесленники и рабочие. Буржуазия, входя в состав третьего сословия, присоединяется к народному движению и возглавляет его выступления против короля, духовенства и дворянства. В этот период оживляется борьба писателей и ученых, против феодальных порядков.

В своих сочинениях они громили феодальное мировоззрение, критиковали религию как оплот феодализма, отстаивали договорную теорию происхождения государства (Руссо, Дидро и др.). Они ждали наступления новой эры, царства разума.

Но после того, как буржуазия захватила власть в свои руки, она, стремясь обеспечить свое господство, перешла в наступление против трудящихся, против рабочего класса.

Французские просветители верили в могучую силу воспитания. Они были убеждены, что воспитав нового человека, они тем самым пересоздадут весь мир. Путем просвещения будут уничтожены ложь, невежество прошлого и предрассудки.

Выдающееся место среди французских просветителей занимали Жан-Жак Руссо и философы-материалисты.

Жан-Жак Руссо – французский философ, писатель – просветитель с мировым именем родился в Женеве в 1712 году, в семье ремесленника-часовщика. Франкошвейцарец по происхождению, впоследствии за идеализацию республиканских порядков своей родины известен как «Женевский гражданин», «защитник вольностей и прав».

Мать, Сюзанна Бернар, умерла при родах. Отец Исаак Руссо остро переживал потерю жены. Из-за вооружённого нападения на согражданина, его отец Исаак был вынужден бежать в соседний кантон и там вступил во второй брак. Руссо оставленный в Женеве под опекой дяди по линии матери, провел два года в протестантском пансионе Ламберсье, затем отдан в учение к нотариусу, а потом к гравёру. Уже с семи лет зачитывался вместе с отцом до утренней зари «Астреей» и жизнеописаниями Плутарха. Не получив систематического образования, он тем не менее усиленно изучал произведения выдающихся философов прошлого и современного мира.

Руссо много лет скитался по Франции и Швейцарии, перепробовал ряд профессий. Уже сложившимся человеком, тридцати лет, Руссо приехал в Париж, где познакомился с новой буржуазной интеллигенцией того времени, с ее лучшими представителями–публицистами и философами.

В 1749 году Дижонская академия объявила конкурс для сочинения на тему «Способствовал ли прогресс наук и искусств улучшению или ухудшению нравов?». По совету Дидро Руссо взялся написать работу на эту тему. В этом произведении он выступил против социального неравенства, против аристократов и бездельников, против культуры и науки феодального общества. За эту работу Руссо получил премию Дижонской академии.

В 1755 году появляется вторая работа Руссо – «Рассуждение о происхождении и основаниях неравенства между людьми». Затем последовал «Общественный договор» (1762). Он доказывал, что неравенство росло вместе с цивилизацией. В «Общественном договоре», развивая договорную теорию Локка, он противопоставил цивилизованному (т. е. феодальному) обществу как идеал некое общество в якобы «естественном состоянии», когда люди были равны и свободны, а затем отказались от своих прав ради сохранения своей трудовой собственности. Руссо бичевал тиранию, гнет эксплуататоров и доказывал, что власть, не отвечающая интересам народа, незаконна, она нарушает первоначальный общественный договор, по которому люди добровольно передали некоторые свои права ими же выбранным властям, обязанным служить народу. Это был облеченный в форму литературного произведения призыв к свержению короля и феодальных устоев.

Наступило время, утверждал Руссо, когда знание, в котором искал спасения человек, стало обманом: науки рождаются из

потребности защититься; искусства – из честолюбивого желания выделиться; философия – из стремления господствовать. Руссо не ставил развитие гражданственности и нравственности в зависимость от прогресса наук и искусства, центром его внимания стал естественный, природный человек, который родится совершенным, но которого уродуют общественные условия. Однако при этом он не отрицал роли воспитания, более того, его теория естественного воспитания явилась основой его педагогической концепции.

В 1762 году вышел в свет роман – трактат Руссо «Эмиль, или О воспитании». Он создал автору мировую известность. В нем Руссо показал путь воспитания свободного человека нового, т.е. буржуазного общества. В предисловии к «Эмилю» Руссо отмечал, что пишет эту книгу на основании своих собственных идей и считает, что именно этот труд дает ему право на признательность людей, так как человечество может быть спасено только посредством воспитания.

В своей педагогической концепции Руссо отвергал современную ему образовательно–воспитательную традицию. По его мнению, старая система воспитания, санкционируемая церковью, должна быть отброшена. Вместо этого, он считал ввести демократическую систему, которая должна способствовать выявлению у ребенка дарований, заложенных природой.

Воспитание, считал Руссо, дается человеку природой, людьми и окружающими его вещами. Все эти три фактора должны, по его мнению, действовать согласованно.

О природе как факторе воспитания Руссо рассуждал следующим образом: ребенок рождается чувственно восприимчивым и получает впечатления через органы чувств от окружающих его предметов. По мере роста он становится более восприимчивым, знания об окружающем расширяются, углубляются, изменяются под влиянием взрослых. Такой подход к воспитанию был для того времени принципиально новым, так как вся система школьного воспитания практически игнорировала как возрастные, так и индивидуальные особенности ребенка.

Воспитание человека начинается вместе с его рождением и продолжается всю жизнь, и главная задача воспитания – создать человека. Это новое воспитание, по его мнению, должно отличаться от старого, которое ставило себе целью подготовку из ребенка доброго христианина и добропорядочного гражданина.

Обращаясь к родителям и воспитателям, он призывал их развивать в ребенке естественность, прививать чувство свободы и независимости, стремление к труду. Руссо постоянно акцентировал внимание на значении труда в воспитании. Труд внушает ребенку чувство долга, ответственности за то, что он делает. Труд – это неизбежная обязанность человека.

В процессе трудового обучения, ребенок должен посещать различные мастерские, наблюдать за работой ремесленников и выполнять по мере возможности поручаемую ему работу. Трудовое воспитание у него связано с нравственным, умственным и физическим совершенствованием. Задача нравственного воспитания, по мнению Руссо, состоит в том, чтобы предохранить ребенка от влияния испорченного общества. Нравственное воспитание должно осуществляться после умственного, поэтому основная предпосылка нравственного – развитие разума.

Руссо в принципе не отвергал религию, но полагал, что ребенку необходима та религия, которая, должна опираться на человеколюбие, на любовь к природе, на «влечения сердца», на сохранение достоинства человека.

Эмиль живет жизнью ремесленника, он проникается уважением к человеку труда и самому труду. Он ест хлеб, который сам заработал. Труд – общественная обязанность свободного человека, это и воспитательное средство.

Руссо делил жизнь своего воспитанника на четыре периода. Первый период – от рождения до 2 лет – это время, когда в центре внимания должно стоять физическое воспитание детей. Второй период – от 2 до 12 лет, по его выражению, период «сна разума», когда ребенок еще не может рассуждать и мыслить. Третий период – от 12 до 15 лет,

в эти годы развертывается умственное воспитание. Четвертый период – «период бурь и страстей» – с 15 лет до совершеннолетия, когда осуществляется преимущественно нравственное воспитание.

Первый период самый ответственный, так как ребенок чувствует свои естественные потребности, но выразить их не в состоянии. Мать ответственна за этот период в жизни своего ребенка. Для физического развития ребенка на этом этапе весьма важны закаливание и постоянные физические упражнения.

Жизнь ребенка с 2 до 12 лет должна быть периодом воспитания чувств, поскольку деятельность ума без опоры на данные чувственного опыта лишена всякого содержания.

Идею самостоятельного получения знаний ребенком Руссо считал ведущей и на следующем этапе – умственного воспитания, которое, по его мнению, должно осуществляться без программ, расписаний и учебников. К полезным наукам Руссо относил географию, химию, физику, биологию, развивающие у ребенка интерес и любовь к природе.

Руссо полагал, что ребенка нужно учить жить по–человечески, и делать это следует тогда, когда подросток вступает в пору возмужалости, с 15 лет. Этот период Руссо назвал периодом «бурь и страстей», когда происходят частые вспышки эмоций и душевное возбуждение. Именно в это время необходимо заботиться о нравственном воспитании уже не ребенка, а юноши.

Особое внимание в нравственном воспитании Руссо отводил изучению истории, которая как бы позволяет видеть сцену человеческой жизни, не участвуя в ней.

Руссо считал, что лет до 17–18 юноше не следует говорить о религии,. Он был убежден, что Эмиль, сам придет постепенно к познанию божественного начала. *Настоящая религия, говорил* он, – *это религия сердца.* Он считал, что, размышляя о мудром устройстве вселенной, ребенок приходит к мысли о ее творце.

Особенности каждого из выделенных возрастных периодов Руссо раскрывает в первых четырех частях произведения «Эмиль или О воспитании» на примере развития воспитания главного героя романа Эмиля. Последняя пятая часть произведения посвящена воспитанию невесты Эмиля – Софии.

Подобно тому, что есть возраст, наиболее благоприятный для обучения, есть возраст, наиболее благоприятный для выполнения общественных обязанностей – это возраст после двадцати лет. Но следует заметить, что гражданские обязанности Руссо возлагал только на мужчину.

Жизненное назначение женщины он ограничивал ролью жены и матери, считая, что ей нет необходимости углубляться в науки. Женщина должна уметь шить, вязать, готовить, петь и танцевать.

В девушке следует воспитывать покорность и повиновение мужу, ее следует обучать с детских лет, так как девочкой, считал Руссо, она должна исповедовать религию матери, выйдя замуж, – религию мужа.

Такое отношение Руссо к воспитанию женщины, во-первых, отражало традиции того времени и, во–вторых, соответствовало его мысли о том, что участие женщины в общественной жизни противоречит ее естественному назначению – быть женой и матерью.

Свой идеал свободной и цельной личности Руссо противопоставил рассудочной культуре современного ему XVIII в. Реализацию этого идеала он и видел в естественном воспитании. Эта его концепция была подлинным переворотом в педагогических воззрениях того времени, не оставив в стороне и социально-политические вопросы, за что его книга «Эмиль, или О воспитании» был признан вредным для общества. Книга напугала реакционно настроенных деятелей всей Европы. Книга за выраженное в ней свободомыслие, хотя Руссо не был атеистом, была сожжена на одной из площадей Парижа, а ее автор был вынужден бежать за границу. Лишь незадолго до смерти, больной и разбитый физически и морально, он смог вернуться на родину. В 1778 году Руссо умер.

Произведения Руссо глубоко волновали умы передового предреволюционного буржуазного общества, их влияние простиралось далеко за пределы Франции.

Необходимо отметить, что ни одно другое произведение, посвященное вопросам воспитания детей, ни до, ни после «Эмиля, или О воспитании», не оказало столь сильного влияния на развитие педагогической мысли. Последователей Руссо привлекала его вера в могущество детской природы, следование воспитания за спонтанным развитием ребенка, предоставление ему широкой свободы.

Положение Руссо о том, что свобода – одно из естественных прав человека, а роль педагога заключается в развитии активности, инициативы ребенка, в косвенном и тактичном руководстве без принуждения, взяли за основу представители концепции свободного воспитания, получившей широкое распространение в конце XIX – начале XX века.

Сторонники этого направления ставили в центр образовательного процесса ребенка его интересы, способности, возможности, стремление к творчеству, а главную задачу педагога видели в помощи естественному развитию ребенка. Их деятельность была направлена против формализма и зубрежки в обучении.

Многие идеи свободного воспитания явственно проявились в теоретических воззрениях и практической деятельности ряда педагогов уже на рубеже XVIII и XIX вв. Так, И.Г. Песталоцци (1746-1827) считал необходимым строить отношения между воспитателем и ребенком на гуманной основе и требовал ува-жения к свободе и независимости личности ребенка; Ф.Фребель (1782-1852) считал целью воспитания развитие природных особенностей ребенка, его само-раскрытие; Э.Кей (1849-1926) ратовала за создание условий для самовыражения и свободного развития индивида. Эти и другие прогрессивные педагоги XIX – начала XX в. в значительной степени опирались на идеи Ж.Ж. Руссо.

Научная новизна проблемы. Научная новизна и теоретическое значение исследования заключается в том, что в эпоху Нового времени были разработаны основные идеи, характерные для европейского сознания, сформировавшие общую теоретическую основу историко–философских учений вплоть до наших дней.

Практическое значение проблемы. Воспитание человека, по мнению Руссо, начинается вместе с его рождением и продолжается всю жизнь. В процессе воспитания надо развивать в ребенке естественность, прививать чувство свободы и независимости.

Ак**туальность проблемы.** Актуальность данной работы заключается в том, что в ней исследуется одна из важнейших проблем современной педагогической науки – правильное и своевременное воспитание подрастающего поколения. Большинство современных инновационных программ обучения и воспитания используют данный опыт прошлых лет.

Литература:

1. Асмус В.Ф. Жан–Жак Руссо. М.: Знание, 1962.
2. Верцман И.Е. Жан–Жак Руссо. Изд. Второе, перераб. и дополн. М.: Худож. лит., 1976.
3. Дворцов А.Т. Жан–Жак Руссо.М.: Наука, 1980.
4. Константинов Н.А., Медынский Е.Н., Шабаева М.Ф., «История педагогики», М.: Просвещение, 1974.
5. Пискунов А.И. Хрестоматия по истории зарубежной педагогики. М.: Просвещение, 2001.
6. Рассел Бертман. История западной философии. 2004.
7. Роланд Г. Жан–Жак Руссо. Его жизнь и сочинения. М.: 1923.
8. Черневич М.Н., Штейн А Л., Яхонтова М.А. История французской литературы. М.: Просвещение, 1965.

E-mail: hajievasabina@gmail.com
Рецензенты*:* *доц.***Гусейнова Э.Р.**
*доц.***Джафаров Г.А.**
Redaksiyaya daxil olub: 10.12.2018.

TƏRBİYƏ MƏSƏLƏLƏRİ

UOT 37.

Talıb Surxay oğlu Paşayev
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı elmi işçisi

Eyvaz Vədud oğlu Məmmədov
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Cəlilabad filialının direktor müavini

ŞAGİRDLƏRİN VƏ TƏLƏBƏLƏRİN VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİ ŞƏRTLƏNDİRƏN AMİLLƏR

Талыб Сурхай оглу Пашаев
доктор философии по педагогике, доцент, ведущий научный сотрудник Института Образования Азербайджанской Республики

Эйваз Вадид оглу Мамедов
заместитель директора
Джалилабадского филиала Азербайджанского Государственного Педагогического Университета

ФАКТОРЫ, ОБУСЛАВЛИВАЮЩИЕ ПАТРИОТИЧЕСКОЕ ВОСПИТАНИЕ УЧЕНИКОВ И СТУДЕНТОВ

Talib Surkhay Pashaev
doctor of philosophy in pedagogy, associate professor,
leading scientific worker
at the Institute of Education of the Republic of Azerbaijan

Aivaz Vadid Mamedov
deputy director of
the Jalilabad branch of the Azerbaijani State Pedagogical University

FACTORS AFFILIATING OF PUPILS' AND STUDENTS' PATRIOTIC UPBRINGING

Xülasə: Azərbaycan Dövlət müstəqilliyi şəraitində ölkənin sosial-siyasi-iqtisadi inkişafını göstərən dövlətin qəbul etdiyi bir çox qərar, sərəncamlar, ayrı-ayrı müəlliflərin əsərləri, məqalələri gənclərin vətənpərvərlik tərbiyəsi üçün dəyərli vasitədir. Və səciyyəvi xarakter daşıyır. Məqalədə ölkənin iqtisadi-siyasi-mədəni yüksəlişinə dair bəzi məsələlər öz əksini tapmışdır. Eyni zamanda ölkəmizin ərazisinin erməni millətçilərin işğalı və bu işğalla barışmayan vətən övladlarının qəhrəmanlığı və s. Bütün bunlar vətənpərvərlik tərbiyəsini səciyyələndirən amillərdir.

Açar sözlər: *Sosial-iqtisadiyyat, vətənpərvərlik, tərbiyə, gənclər*

Резюме: В условиях государственной независимости, принятые государством резолюции, указы, постановления и статьи отдельных авторов, отражающие социально-политическое и экономическое развитие страны являются ценным средством патриотического воспитания молодежи. В статье изложены некоторые вопросы, связанные с экономическим, политическим и культурным развитием страны. В то же время в статье повествуется о героизме сынов Родины борьбе с армянскими националистами, которые не смирились с этой оккупацией родной территории. Все это факторы характеризуют патриотическое воспитание.

Ключевые слова: *социально-экономический, патриотизм, воспитание, молодежь*

Summary: In the conditions of state independence, resolutions adopted by the state, decrees, resolutions and articles of individual authors, reflecting the socio-political and economic development of the country, are a valuable means of patriotic education of young people. The article outlines some issues related to the economic, political and cultural development of the country. At the same time, the article tells about the heroism of the sons of the Motherland against the Armenian nationalists, who did not accept this occupation of their native territory. All this factors characterize patriotic education.

Keywords: *socio-economic, patriotism, education, youth*

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra keçən dövr ərzində çox böyük quruculuq işləri görülmüşdür və görülür. Belə ki, Azərbaycan dövlət Konstitusiyası, Dövlət atributları, dövlət idarəçiliyi üçün nazirliklər, yeni-yeni idarə və təşkilatlar və digər orqanlar yaradılmışdır. Xarici siyasət diqqət mərkəzində olmuş, dövlətlərarası əlaqələr genişləndirilmiş, ölkə daxilində iqtisadi vəziyyət yaxşılaşmış, idman sahəsi təhsil işi, səhiyyə işi, onların tikintisi və s. surətləndirilmişdir. Ölkədə neft-qaz sənaye sahələri inkişaf etdirilmiş, neft-qaz müqavilələri bağlanmışdır. Bu sahələrlə yanaşı, aqrar təsərrüfat sahələri genişləndirilmişdir. Kənd təsərrüfatı sahəsində çalışan sahibkara yanacaq, texniki avadanlıqlar güzəştlə (subsidiya) verilmişdir. Cənab prezident İlham Əliyevin: ”neft sənayesi insan kapitalına çevrilməlidir” fikri əsasında ölkədə qeyri-neft sahələri inkişaf etdirilmişdir. Artıq bir çox şəhər və regionlarda aqrar sənaye məhəllələri (sahələri) yaradılmışdır. Regionlar inkişaf etmişdir və s. Ölkənin kosmosa peykləri buraxılmışdır, Asan xidmət sahəsi yaradılmışdır. Bütün bunlarla yanaşı, bir çox digər görülmüş işləri demək olar. Hər sahədə görülən bu müsbət işlər ictimai fəallıq nəticəsində meydana gəlmişdir. Əslində, vətənpərvərlik tərbiyəsinin kökündə əxlaq və ictimai fəallıq durur.

Göstərilənlər vətənin rifahı üçündür. Hər bir vətən övladı ölkəmizin inkişafına sevinməli, qürur hissi keçirməlidir. Ölkəmizin sosial-iqtisadi inkişafına dair görülmüş işlərin hər bir vətən övladlarının zəhməti, əməyi, ictimai fəallığı nəticəsində yaranaraq vətənpərvərlik tərbiyəsi sayəsində həyata keçirilmişdir.

Təhsil, səhiyyə, sənaye, aqrar sahələrlə yanaşı bizdə idmana da yüksək diqqət yetirilir. Məktəbli idmançılar, öz növbələrində, bir sıra idman növləri ilə məşğul olurlar. Bu məqsədlə ümumi təhsil məktəblərində aparılan idman yarışında 200 000-dən artıq məktəbli iştirak edibdir. Basketbol üzrə 1442, voleybol üzrə 1303 atletika üzrə 2262, şahmat üzrə 675 nəfər II-IX sinif şagirdi iştirak edibdir. İdman yarışları ayrı-ayrı ali məktəb tələbələri arasında da həyata keçirilir. İdman qurğuları, Olimpiya mərkəzləri tikilərək istifadəyə verilmişdir. İdmançılar böyük fəxrlə yarışlarda Azərbaycanın üçrəngli bayrağını qaldırırlar.

Azərbaycan gəncləri hamılıqla əsgəri borcunu vermək üçün vaxtında çağırışa qoşulmuşlar, vəzifə borclarını yerinə yetirirlər. Eyni zamanda, idarə-müəssisələrdə, aqrar sahələrdə çalışan gənclər də ölkənin çiçəklənməsinə öz töhfələrini verirlər.

Yuxarıda göstərilənlər vətənpərvərlik tərbiyəsi üçün əsas mənbə hesab oluna bilər. Bu da müəllimin vətənpərvərlik hissi şərtləndirən amildir. Müstəqil Azərbaycan dövlətinin bərpa olub yarandığı gündən mənfur qonşumuz olan erməni millətçiləri qədim Azərbaycan torpağı olan Dağlıq Qarabağ ərazisində müharibə törətdilər.

1990-1994-cü illərdə Ermənistanın silahlı birləşmələri Azərbaycan torpaqlarına hücum edərək 14 rayon və 834 kənd daxil olmaqla, 17 300 kv.km (20%) ərazini zəbt etdilər. 700 000 nəfər azərbaycanlı Dağlıq Qarabağ və ətraf ərazidəki daimi yaşayış yerlərini tərk etməyə məcbur oldu. Bir milyondan çox azərbaycanlı qaçqın və köçkün oldu.

Belə bir vəziyyət Azərbaycan xalqının acı tarixini yaratdı. Azərbaycan dövləti ulu öndər Heydər Əliyev, gənc lider İlham Əliyev, ölkə vətəndaşları, o cümlədən hərbçilər, gənclər, şair-yazıçılar, diplomatlar torpaqlarımızın qaytarılması üçün çox böyük səylər göstərdilər. Yeni-yeni qəhrəmanlar yarandı.

Bayatılar, səfərbəredici vətənpərvər şeirlər və s. yazıldı. Şairlərdən Zəlimxan Yaqub “Barışmaram” şeirində “düşmənlə barışmaram” deməklə, hətta özümüzün ağlamağımızla da barışmadığını deyərək göstərmişdir:

Düşmən zor göstərdi, zor elədi,
Ocağımı kül elədi, qor elədi,

Ağlamaqdan gözlərimi kor elədi,
Gözlərimdən axan yaşla barışmaram.

Şair demək istəyir ki, düşmənə qarşı vuruşmaq, mübarizə aparmaq lazımdır və əsasdır. Ağlamaq, göz yaşları tökmək olmaz, vətən övladlarının hərəkətə keçməsinə nail olmaq lazımdır. Azərbaycanın bu acı tarixi gənclərimizi daha çox fəallaşdırdı. Qəhrəmanlar doğuldu.

Azərbaycan dövlətində tanıtma ənənəsi yaranmışdır. Asan xidmət sahəsi, şagirdlərin mədəni tur aksiyası və kosmosa peyklərin buraxılması buna misaldır. 2014-cü ildən cənab prezident İlham Əliyevin tapşırığı ilə "Ölkəmizi tanıyaq" adı altında ümumtəhsil məktəb şagirdlərindən ibarət tur aksiyası həyata keçirilir. Artıq 2018-ci ilin noyabr ayında məktəblilərin "Ölkəmizi tanıyaq" adlanan mədəni tur aksiyasının 10-cu səfəri baş tutmuşdur. Hər bir rayon məktəblilərindən 40-45 nəfər, dövlət tərəfindən təşkil edilmiş yüksək səviyyəli avtobuslarla Bakı, Sumqayıt şəhərlərindən, Abşeron, Cəlilabad, Masallı, Lənkəran, Astara, Şabran, Quba, Xaçmaz, Siyəzən və digər rayonlardan Gəncəyə, Lənkərana, Astaraya, Masallıya, Lerikə, Cəlilabada və s. rayonlara yola salınır və digər rayon məktəbliləri getmədikləri rayonlara gedirlər.

Bu qəbildən olan mədəni tur aksiyası şagirdlər adını eşidib, üzünü görmədikləri rayonlarla, ekskursiyaya gedərək onun tarixi-mədəni obyektləri, yeni-yeni tikintini, bağ-xiyabanları, tarixi yerləri, dövlət adamlarının, vətən şəhidlərinin şərəfinə ucaldılmış abidələri və s. görür, tanış olur, orada olan səliqə-sahmanı görürlər. Bu mədəni ekskursiya uşaqların elmi dünyagörüşünü artırır, ölkəsində olan belə cənnət guşələri ilə fəxr edir, qürur hissi keçirirlər.

Görkəmli dövlət təmsilçisi, dahi şəxsiyyət Heydər Əliyevin əzəmətli abidəsi, onun adını daşıyan mədəniyyət mərkəzi, göz oxşayan xiyabanı, Dövlət Bayraq meydanını və həmçinin vətən yolunda şəhid olmuş şəxslərin, Milli qəhrəmanların əzəmətli abidələri gənc və yeniyetmə uşaqlarda dərin hisslər – böyük vətənpərvərlik hissləri yaradır və tərbiyə vasitəsinə çevrilir.

Yeri gəlmişkən göstərək ki, 40-45 il bundan əvvəl nağıla bənzər fikirlər deyilmişdir. Eşidirdik ki, Şuşa, Naxçıvan, Bakı, Lənkəran, Şəki və s. şəhərlər gözəl və səliqəlidir. Qiyabi olsa da, bəzi biliyə malik olurduq. Hazırda respublikada bütün regionlar səliqəlidir, göz oxşayır. Çox-çox illər bundan əvvəl elə şagirdlər də olmuşdur ki, Azərbaycanın paytaxtı haradır sualına ona yaxın və gedib gördüyü böyük kəndin adını demişdir. Bəzi şagirdlər isə vətən anlayışını yerlə demişdir. Müşahidənin nəticəsi onu göstərmişdir ki, uşaq böyüdükcə, bir çox şəhər və rayonları gördükdən sonra onda vətən anlayışı yaranmışdır. Budur mədəni tur aksiyasının yaxın həlli məsələləri.

Ancaq məktəblilərin mədəni tur aksiyasının çox böyük əhəmiyyəti vardır. Ən birincisi, uşağın dünyagörüşünü artırır, vətən və vətən haqqında dar çərçivədən çıxır, millət kimi püxtələşir, vətən anlayışını dərindən başa düşür və s. Dövlətin, xalqın, məktəbin hədəfi rəqabətə davamlı, dayanıqlı, qabiliyyətli, savadlı, intellektual gənclər yetişdirməkdir. Məhz bu baxımdan gənclərlə aparılan müsbət işlər böyük rol oynayır. Ölkənin sosial-iqtisadi yüksəlişinin isə böyük əhəmiyyəti vardır. Artıq bu sahə üzrə respublikamızda, şükürlər olsun ki, çox yaxşı irəliləyişlər vardır.

Problemin aktuallığı: Azərbaycan dövlət müstəqilliyinin bərpası sosial-iqtisadi vəziyyətin inkişafına təsiri və bunun nəticəsində gənclərin ictimai fəallığı ilə vətənpərvərlik tərbiyəsinin inkişafı məsələləri öz təsirini göstərir.

Problemin elmi yeniliyi: Məktəbli gənclərin "Ölkəmizi tanıyaq" tur aksiyasının vətənpərvərlik tərbiyəsinin bir mənbəyi kimi başa düşülür və gənclərin rəqabətə davamlı, dayanaqlı, qabiliyyətli, savadlı, intellektual gənclərin yetişməsinə səbəb olur.

Problemin praktik əhəmiyyəti: Şagirdlərin vətənpərvərlik tərbiyəsini şərtləndirən amillər-iqtisadi inkişaf, təhsil, idman, qəhrəmanlıq, sosial yeniliklər, tur aksiyaları, müstəqillik və s. ibarətdir.

Ədəbiyyat:

1. Əliyev H.Ə. Müstəqil Azərbaycanın gələcəyi gənclərdir. Bakı: Gənclik, 1996.
2. Əliyev İ.H. Məqsədimiz inkişafdır. Bakı, 2018. 73-cü cild.
3. Əliyev İ.H. Müstəqil dövlətin tarazlaşdırılmış siyasəti. "Respublika" qəzeti. 2009, 30 mart

4. Abbasov A.N. Pedaqogika. Bakı, 2013.
5. Əmirəliyeva İ.B. Pedaqoji fikir tarixindən. Bakı, 2018.
6. Paşayev T.S., Məmmədov E.V. Regionşünaslıq materialları əsasında gənc nəslin vətənpərvərlik tərbiyəsi. Bakı, 2017.

E-mail: Talıb48@mail.ru
Rəyçilər: *ped. ü. fəls. dok.* İ. **Əmirəliyeva**
filol.ü. fəls.dok. **Y. Dadaşlı**
Redaksiyaya daxil olub: 12.12.2018.

UOT 373.3/5.

Mirhəsən Seyidəli oğlu Eminov
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Naxçıvan Dövlət Universiteti

DƏRNƏK MƏŞĞƏLƏLƏRİNDƏ VƏ MARAQ KURSLARINDA ŞƏXSİYYƏTYÖNLÜ TƏHSİLİN TƏRBİYƏLƏNDİRİCİ İMKANLARINDAN İSTİFADƏ ETMƏKLƏ VƏTƏNDAŞ YETİRMƏYİN FORMALARI

Миргасан Саидали оглу Эминов
доктор философии по педагогике, доцент
Нахичеванского Государственного Университета

ФОРМЫ ВОСПИТАНИЯ ГРАЖДАН С ИСПОЛЬЗОВАНИЕМ ВОСПИТАТЕЛЬНЫХ ВОЗМОЖНОСТЕЙ ЛИЧНОСТНО-ОРИЕНТИРОВОЧНОГО ОБРАЗОВАНИЯ В КРУЖКАХ И НА ЛЮБИТЕЛЬСКИХ КУРСАХ

Mirqasan Sayidali Eminov
PhD in pedagogy, associate professor at
Nakhchevan State University

FORMS OF CITIZENS' UPBRINGING BY USING EDUCATIONAL OPPORTUNITIES OF PERSON-ORIENTED EDUCATION IN CURIOSITY COURSES

Xülasə. Ümumtəhsil məktəblərində təlim-tərbiyə fəaliyyətinin planlaşdırılması zamanı şagirdlərin də bu işdə iştirakına xüsusi diqqət yetirilir. Öz bacarıq və qabiliyyətlərinin inkişaf etdirmək üçün məktəblilər könüllü şəkildə dərnəklərə yazılır, məktəbdənkənar yaradıcılıq mərkəzlərinin üzvləri olurlar. Məktəbdənkənar təlim-tərbiyə müəssisələrində şagirdlərin bilik, bacarıq və vərdişlərinin inkişaf etdirilməsi üçün hər cür şərait yaradılmışdır.

***Açar sözlər**: maraq kursları, texniki yaradıcılıq mərkəzləri, fənn dərnəkləri, şəxsiyyətyönlü təhsil, əməkdaşlıq, əxlaq normaları, milli-mənəvi dəyərlər*

Резюме: В общеобразовательных школах при планировании учебно-воспитательной деятельности, особое внимание уделяется участию учеников на курсах, к которым проявляются большой интерес. Для развития и улучшения своих особенностей, ученики обычно привлекаются в кружки и внешкольные творческие центры, в которые они сами пожелают. Внешкольных учебно-воспитательных учреждениях нашей страны, созданы все необходимые условия для развития знаний, умений, навыков учащихся, подростков и молодежи в области науки, техники, культуры, искусства и литературы. Таких учебных заведений в нашей республике достаточно. В таких учреждениях, используя учебные возможности личностно-ориентированного обучения, создаются условия для формирования патриотических личностей. Учебно-воспитательные работы, проводимые в этих учреждениях, служат одной общей цели – воспитанию настоящих граждан Азербайджанской Республики.

***Ключевые слова:** курсы по интересам, центры технического творчества, тематические кружки, личностно-ориентированное образование, сотрудничество, моральные нормы, национально-нравственные ценности*

Summary: While planning training and education activities in general schools, particular attention is paid to the participation in the curiosity courses and circle trainings relevant to students' inclination and interest. Generally, students are involved in subject circles or out-of-school creative centers appropriate to their inclination and interests at the school they are studying to improve their learning abilities after school hours.

Necessary conditions have been created to develop the teenagers' and the youth's knowledge, skills and abilities, competence for science, technics, culture, arts, literature and other fields of eduction in out-of-school training and education institutions in our country. Facilities are offered to form the students as patriotic personalities by using the educational opportunities of person-oriented education in these institutions.Training and education activities carried out in these institutions serve to educate pupils for the same general purpose – to bring up as native citizens of the Republic of Azerbaijan.

Key words: *interest courses, technical creativity centers, subject circles, person-oriented education, cooperation, moral standards, national and spiritual values*

Azərbaycan Respublikası ümumtəhsil məktəbinin nümunəvi əsasnaməsinin I. Ümumi müddəalar bölməsinin 2-ci bəndində qeyd olunur ki, ümumtəhsil məktəbinin əsas vəzifəsi fərdin təbii imkanlarını inkişaf etdirmək, ona elmin əsaslarını öyrətmək, fiziki, əqli, intellektual imkanlarını, meyl, maraq və idrak qabiliyyətlərini nəzərə alaraq onun şəxsiyyətini formalaşdırmaq, həyatda və cəmiyyətdə səmərəli fəaliyyətə hazırlanmasına, müstəqil, yaradıcı düşünən, ümumi mədəniyyətə malik milli mənəviyyatlı şəxsiyyətin yetişdirilməsinə xidmət etmək, şüurlu olaraq peşə seçməyə hazırlamaq, Azərbaycanın inkişafı naminə fədakarcasına çalışan vətəndaş tərbiyə etməkdən ibarətdir. Ümumtəhsil məktəbində təlim-tərbiyə işləri planlaşdırılarkən şagirdlərin meyil və marağına uyğun dərnək və məşğələlərin, elmi cəmiyyətlərin, klub və studiyaların təşkilinə, onların milli-mənəvi, əxlaqi dəyərlər zəminində formalaşmasına yönəlmiş tədbirlərin həyata keçirilməsinə, habelə psixoloji cəhətdən gərgin ailə mühitində böyüyən uşaqlarla iş prosesində mütərəqqi pedaqoji yanaşmaları əks etdirən formaların tətbiqinə xüsusi diqqət yetirilir (3). Fikrimizcə, qeyd olunan vəzifənin həyata keçirilməsi üçün, ilkin olaraq, məktəblilərin fiziki, əqli, intellektual imkanları ilə yanaşı, onların meyl və maraqlarını öyrənmək lazımdır. Adətən, şagirdlər məktəbdə keçirilən dərs saatlarından sonra təlim nailiyyətlərini inkişaf etdirmək üçün oxuduğu məktəbdə meyl və maraqlarına uyğun fənn dərnəklərinə və ya texniki yaradıcılıq mərkəzlərinə cəlb olunurlar. Ona görə də biz: "Maraq nədir və şagirdlərdə bu hiss necə yaranır?"- məsələsini araşdırmaq istədik. Maraq sözünün ənənəvi elmi anlayışı xalq anlamına yaxındır. Bir işə maraq göstərmək, bir məsələnin həllində maraqlı olmaq və s. Məsələn, Vikipediya saytında "Maraq nədir?" sualı belə cavablandırılır: maraq–*fərdin* xüsusi cəhd göstərmədən öz istəyi ilə, *zövq* alaraq bir işə yönəlməsidir. Maraqlar insanın idrak tələbatlarının emosional təzahürləridir. Onların təmin olunması biliklərdəki çatışmazlıqları aradan qaldırmağa, onları anlamağa, onlarla tanış olmağa kömək edir... Maraqlar bir çox səbəbdən asılı olaraq fərddən-fərdə dəyişir. Şəxsin içində olduğu dairə, cinsiyyət, yaş, *zəka,* fiziki imkanlar, başqa bir çox qabiliyyətlər, sosial mühit, *ailə* mühiti və mədəni faktorlar və s. bu səbəblərə daxildir (4). Psixoloqların fikrincə, maraqlar subyektiv olaraq – insanın özü üçün – idrak prosesinin kəsb etdiyi müsbət, emosional tonda, onun haqqında daha çox bilmək, onu başa düşmək arzusunda təzahür edir. Başqa sözlə desək, maraq şəxsiyyətin, gerçək həyatının müəyyən bir sahəsinə, müəyyən bir fəaliyyətə, bu və ya digər biliyi əldə etməyə az və ya çox yönəlməsində ifadə olunan fərdi psixi xüsusiyyətdir. Şəxsiyyətin istiqaməti onun maraqlarında ifadə olunur (4).

Görkəmli amerikalı alim K. İzard marağın anadangəlmə *emosiya* olmasını qeyd etməklə yanaşı, onun inkişafında sosiallaşmanın rolundan, insan şəxsiyyətinin formalaşmasında marağın kəsb etdiyi əhəmiyyətdən danışır və qeyd edir ki, maraq hər bir şeyə istiqamətlənə bilər. Psixoloqların fikrincə, insanın maraq dairəsi müntəzəm olaraq dəyişir. Ən çox dəyişkənlik yeniyetməlik illərində olur. Yeniyetməlik dövründə gəncin vücudu və yaşı ilə birlikdə qərarları da dəyişir. Yeniyetməlik yetkinliyin astanası olduğu üçün idrak yönlü də inkişaf edir. Məktəblərin birində aparılan bir araşdırma zamanı ibtidai siniflərin 95%-nin məktəbə oynamaq üçün gəldiyi halda, yuxarı sinif şagirdlərinin 93%-i yaxşı bir universitetə daxil olmaq məqsədilə məktəbə gəldiyi müəyyən edilmişdir (1).

Professor Ə.S. Bayramov və professor Ə.Ə. Əlizadənin fikrincə, maraq növlərini üç başlıq altında analiz etmək olar:

1. Şəxsi maraqlar: Gəncin seçim və vərdişlərini əhatə edir. *Saçın, üzün, bədənin* xarici görünüşü, geyim, danışma, əylənmə ilə bağlıdır. Yeniyetməliyin ilk dövrlərində geyimə olan ma-

raq sonsuzdur. Tez-tez *paltar almaq* istəyirlər. Fərqli görünmək, başqalarının diqqətini cəlb etmək istəyirlər. Bu baxımdan valideynlə qarşıdurmalar ən çox geyimlə bağlı olur.

2. Sərbəst vaxt marağı: Yeniyetmənin boş vaxtlarında görmək istədiyi işlərlə bağlı olur. Kitab oxuma, musiqi dinləmə, idmanla məşğul olma və s. Ancaq bu maraqlar zamana görə dəyişə bilər. Orta məktəbdə *idmana,* musiqiyə olan maraq universitet illərində kitaba yönəlir. Yeniyetməliyin ilk illərində gənclərdə şeir yazma, mahnı oxuma, xatirə dəftəri tutmağa maraq yaranır. Bu maraqlar cinsə görə fərqlənə bilər.

3. Sənət maraqları: Gənclər yeniyetməliyin ilk dövrlərində məsləkmövzusunda qərarsız olurlar. Fikirlərini tez-tez dəyişirlər. Ancaq əl qabiliyyətləri, bacarıqları istiqamətində fikirləri dəqiqləşə bilir. Yeniyetməliyin sonrakı mərhələlərində seçəcəkləri peşə ilə bağlı fikirlərin əsası qoyula, bir sistem halına gələ bilir. Bu məsələdə daha çox xəyala dalır, macəraçı olurlar (1). Gətirilən nümunələrdən göründüyü kimi, məktəblilərin marağı istər dərs prosesində və istərsə də sinifdənxaric və məktəbdənkənar tədbirlərin keçirilməsində müstəsna əhəmiyyətə malikdir. Maraqlar məktəblilərin yaşına, cinsinə, bilik səviyyəsinə, şagirdin ailə vəziyyətinə görə dəyişə bilər. Lakin şəxsiyyət olaraq hər bir məktəblinin hər hansı bir peşəyə və ya elm sahəsinə marağı sosiallaşma prosesində yaranır ki, həmin marağın inkişaf etdirilməsində məktəbin, məktəbdənkənar müəssisələrin rolu böyükdür. Düşünürük ki, sinifdənxaric və məktəbdənkənar təlim-tərbiyə prosesi şəxsiyyətyönlü təhsil tərbiyələndirici tələblərinə uyğun təşkil edilərsə, şagirdlərin vətənpərvər şəxsiyyət kimi formalaşmasına və layiqli vətəndaş kimi yetişməsinə nail olmaq olar. Görkəmli amerikalı psixoloq Gardnerin araşdırmalarına görə, hər bir insanın yeddi zəkası – intellekti vardır və insanların hamısında bu zəka qabiliyyəti mövcuddur. "Çoxlu intellekt nəzəriyyəsi" ("Multiple Intelligence Theory") adlı kitabında Harvard və Boston universitetlərində psixologiya professoru olan Gardner tək intellekt tipinə qarşı çıxaraq insanların daha bacarıqlı olduğunu və fərqli sahələrdə intellektə əsaslanan böyük bacarıqlar nümayiş etdirdiyini ifadə edərək "Multiple Intelligence" nəzəriyyəsini ortaya atmışdır. Gardnerin nəzəriyyəsi, ilk növbədə, yeddi intellekt növü müəyyənləşdirmişdir: şifahi dil intellekti, məntiqi riyazi intellekt, musiqi ritmik intellekti, bədən kinestetik intellekti, vizual məkan intellekti, insanlararası sosial intellekt və daxili intellekt. Sonra o, səkkizinci növ intellekti əlavə etmişdir: təbiət intellekti. Gardner daha çox intellekt növünün ola biləcəyini söyləyir (6). Deməli, Gardnerin "Çoxlu intellekt nəzəriyyəsi"nə əsaslanaraq deyə bilərik ki, hər bir məktəblinin meyl və marağına təsir edən çoxlu intellekt imkanları var, lakin onlardan biri daha güclüdür.

Qloballaşan dünyada gələcəkdə layiqli bir ixtisas və ya peşə sahibi olmaq üçün hansı sinifdənxaric dərnəkdə və ya məktəbdənkənar maraq kursunda iştirak etmək lazımdır? Bu sual yuxarı sinif şagirdlərini çox düşündürür. Düşünürük ki, orta ümumtəhsil məktəblərinin müəllimləri, eləcə də məktəbdənkənar müəssisələrdə işləyən dərnək rəhbərləri Gardnerin "Çoxlu intellekt nəzəriyyəsi"ndən və şəxsiyyətyönümlü təhsilin tərbiyələndirici imkanlarından bəhrələnərək öyrənənlərin bu rəqəmsal dünyada seçim etməsində, bir şəxsiyyət kimi formalaşmasında və vətəndaş kimi yetişməsində müdrik bir bələdçi rolunu oynaya bilərlər. Çünki seçim çoxdur və ətraf mühitin təsirindən məktəblilər fikirlərini tez-tez dəyişirlər. Məsələn, Texniki yaradıcılıq mərkəzlərində, əsasən, "İbtidai texniki mod-elçilik", "Radioelektronika", "Elektrotexnika", "Bacarıqlı əllər", "İnformatika", "Texniki estetika", "Əyləncəli fizika", "Texniki ekologiya", "Gənc konstruktorlar", "Avto", "Raket", "Təyyarə" modelçiliyi, "Robot texnikası", "Kimya – texnologiya" və s. adlarda dərnəklər fəaliyyət göstərir.

Məktəblilərin müxtəlif sahələrə marağını artırmaq üçün müxtəlif layihələr həyata keçirilir. Onlardan biri də Qadın və Uşaq Akademiyası İctimai Birliyi (QUA) məktəblilərdə ədəbiyyata, mütaliəyə maraq yaratmaq üçün AzEdu.az Azərbaycan Təhsil Portalı ilə birlikdə "Məktəblinin kitabı" layihəsidir (6). Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Yüksək Texnologiyalar Parkında "Mars Academy"nin məktəblilər arasında böyük maraq doğuran "Robitiks" kurslarına start verilib.

Oktyabrın 6-da Yüksək Texnologiyalar Parkında "Robitiks" mühəndislik, proqramlaşdırma və rəqəmsal incəsənət kurslarına başlanması ilə əlaqədar tədbir keçirilib. Tədbirdə 100-

dən çox məktəbli iştirak edərək rəqəmsal incəsənət nümunələri ilə tanış olub (8). Naxçıvan Muxtar Respublikasında uşaq və gənclərin yaradıcılıq potensialının üzə çıxarılması, onların qabiliyyət və bacarıqlarının düzgün formalaşdırılması və istiqamətləndirilməsi diqqət mərkəzində saxlanılan ən vacib məsələlərdən birinə çevrilmişdir. Regionda fəaliyyət göstərən məktəbdənkənar müəssisələr hərtərəfli qayğı ilə əhatə olunmuşdur. Belə müəssisələr üçün yeni binalar inşa olunur, onların maddi-texniki bazaları gücləndirilir. Məqsəd isə aydındır: təkcə bilikli yox, həm də hər hansı sənətə yiyələnmiş vətənpərvər insanların yetişdirilməsinə nail olmaq.

Naxçıvan Şəhər Heydər Əliyev Adına Uşaq - Gənclər Yaradıcılıq Mərkəzində şagird şəxsiyyətinin hərtərəfli inkişafını təmin edə bilən altı şöbə fəaliyyət göstərir ki, bu şöbələrin tərkibində 58 (əlli səkkiz) adda dərnək vardır (10). Naxçıvan Şəhər Texniki Yaradıcılıq Mərkəzində 13 adda 102 qrup fəaliyyət göstərir. Hər qrupda 10 uşaq olmaqla, 1020 şagird mərkəzin üzvüdür. Dərnəklərə 32 müəllim rəhbərlik edir (1). Müşahidə zamanı məlum oldu ki, müəllimlər pedaqoji prosesdə tədris etdikləri mövzunun məzmununu həyatla əlaqələndirir, şagirdlərin yaşını, arzu və maraqlarını nəzərə alırlar, yəni məşğələlərini şəxsiyyətyönümlü təhsil prinsipinə uyğun olaraq tədris edirlər.

1992-ci ildən fəaliyyətə başlayan Naxçıvan Qızlar Liseyinin fəaliyyətinin əsas istiqaməti yüksək savadlı, vətənpərvər, əsl azərbaycanlı xanımın keyfiyyətlərini özündə əks etdirən, milli dəyərlərimizə sadiq, intellektual səviyyəli gənc nəsil yetişdirməkdir. Liseydə şagirdlərin hərtərəfli inkişaf etmiş vətənpərvər şəxsiyyət kimi formalaşması üçün onların asudə vaxtlarının səmərəli təşkili, mütaliə vərdişlərinin inkişafı, idman oyunlarının, o cümlədən, şahmat yarışlarının keçirilməsi diqqətdə saxlanılır. Digər ümumtəhsil məktəblərindən fərqli olaraq, liseydə dərsdənkənar məşğələlər hesabına "Mənəviyyat" məşğələsi də tədris olunur. Məşğələnin tədrisi Azərbaycan xanımının əxlaqi keyfiyyətlərini əks etdirən yüksək etikaya malik gənclər tərbiyə etmək məqsədini daşıyır. Şagirdlərə milli dəyərlərimiz, xalqımızın keçmişindən süzüb gələn adət-ənənələrimiz aşılanır. Bu isə əsl vətəndaş yetişdirmək yolunda uğur əldə edilməsinə şərait yaradır.

Milli adət-ənənələrimizi qoruyub yaşatmaq və inkişaf etdirmək məqsədi ilə liseydə tikiş-toxuculuq, xalçaçılıq, kulinariya dərnəkləri də fəaliyyət göstərir. Dərnəklərdə məşğələlərin keçirilməsi üçün 4 ədəd tikiş maşını ilə təchiz olunmuş əmək kabinəsi, 2 hanaya malik xalçaçılıq, hər cür mətbəx ləvazimatları ilə təchiz olunmuş kulinariya və musiqi alətləri ilə təchiz olunmuş musiqi otaqları vardır. Dərnək üzvlərinin işləri mütəmadi olaraq sərgilərə çıxarılaraq nümayiş etdirilir. Orta ümumtəhsil məktəblərində keçirilən "Müəllim günü", "Müstəqilliyimiz əbədidir", "Bayraq günü", "20 Yanvar hüzn günü", "Xocalı soyqırımı", "Beynəlxalq ana dili günü", "Respublika günü" və s. tədbirlərdə şagirdlərin iştirakı onların bilikli, dünyagörüşlü, vətənpərvər şəxsiyyət və layiqli vətəndaş kimi yetişdirilməsi üçün vacib şərtlərdən hesab olunur.

Problemin aktuallığı ondan ibarətdir ki, Azərbaycanda müvəffəqiyyətlə həyata keçirilən təhsil islahatlarına dair direktiv sənədlərdə şagird şəxsiyyətinin formalaşdırılması bütün pedaqoji kollektiv qarşısında mühüm vəzifələr qoyur. Bu vəzifələrin müsbət həlli üçün şəxsiyyətyönümlü təhsilin tərbiyələndirici imkanlarından istifadə olunmalıdır.

Problemin elmi yeniliyi ondan ibarətdir ki, şagirdlərin vətənpərvər şəxsiyyət kimi formalaşmasında və layiqli vətəndaş kimi yetişməsində sinifdənxaric dərnək məşğələlərinin və məktəbdənkənar müəssisələrdə təşkil olunan maraq kurslarının rolu böyükdür.

Məqalənin praktik əhəmiyyəti ondan ibarətdir ki, sinifdənxaric və məktəbdənkənar tədbirlərdə əldə edilən bilik, bacarıq və vərdişlər şagirdlərin özünə inamını artırır, onların ölkəmiz üçün dəyərli vətəndaş kimi yetişməsinə müsbət təsir göstərir.

Ədəbiyyat:

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. "Psixologiya". Bakı, 2006.
2. English Teaching Forum Volume 50, Number 1, 2012.
3. imishli.edu.gov.az/az/pdf/7795/18827
4. https://az.wikipedia.org/wiki/Maraq
5. http://nedir.az/maraq-nedir-maraq-haqqında

6. https://www.egitimpedia.com › ÖĞRENME
7. https://www.facebook.com/azedu.az
8. https://www.facebook.com/aegeebaku/.../maraq...nədir-maraq.../1073901505996234/
9. modern.az/az/news/130952
10. meneviservetimiz.az/.../532-heydər-əliyev-adina-uşaq-gənclər-yara...
11. www.serqqapisi.az/.../174-tekhniki-yarad-dz-l-zh-maerk

E-mail: mirhesenemin@yahoo.com
Rəyçi: *ped. ü. fəls. dok.., dos.* **T.S. Paşayev**
Redaksiyaya daxil olub: 14.12.2018.

UOT 373.3/5.

Zemfira İlyas qızı Səlimova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
yaş və pedaqoji psixologiya kafedrasının baş müəllimi

GƏNC NƏSİLDƏ ƏXLAQİ HİSSLƏRİN İNKİŞAF ETDİRİLMƏSİ

Земфира Ильяс гызы Салимова
старший преподаватель
Азербайджанский Государственный Педагогический Университет

РАЗВИТИЕ МОРАЛЬНЫХ ЧУВСТВ У МОЛОДОГО ПОКОЛЕНИЯ

Zemfira Ilyas Salimova
Senior lecturer of the Department of age and pedagogical psychology
Azerbaijan State Pedagogical University

DEVELOPING MORAL FEELINGS IN THE YOUNGER GENERATION

Xülasə: Məqalədə əxlaq obyekti olan ayrı-ayrı adamlar, insan qrupları və onların arasındakı qarşılıqlı münasibətlər, ictimai həyat hadisələri, eləcə də əxlaq məfhumunu özündə birləşdirən şəxsiyyət haqqında məlumat verilir.

Eyni zamanda, məqalədə başqa bu hadisələrə münasibətin mövcud cəmiyyətin birgəyaşayış qaydalarına uyğun gəlməsi insanda xeyirxahlıq, dostluq, rəğbət, yoldaşlıq, kollektivçilik, məsuliyyət hissi kimi müsbət əxlaqi hisslər yaranması haqqında geniş məlumat verilir.

Açar sözlər: *əxlaq, hisslər, hörmət, şəxsiyyət, millilik, psixoloji xüsusiyyətlər*

Резюме: В статье приводятся сведения об отдельных лицах, являющихся объектах нравственности, человеческих группах и их взаимоотношениях, событиях общественной жизни.

В то же время в статье широко освещается отношение этих событий к общепринятому уровню жизни общества. Повествуется о таких позитивных моральных чувствах, как доброта, дружба, сочувствие, дружеские отношения, коллективизм, чувство ответственности.

Ключевые слова: *нравственность, чувства, уважение, идентичность, национальность, психологические особенности*

Summary: The article gives information about individuals, objects of morality, human relationships and their relationships, social life events, as well as identity identification.

At the same time, in the article, the attitude of these events to the conventional living standards of the society is widely informed about the positive moral feelings such as kindness, friendship, sympathy, companionship, collectivism, sense of responsibility.

Key words: *morality, feelings, respect, identity, nationality, psychological characteristics*

Gənc nəslin saf, təmiz, əxlaqlı olması xalqın inkişafı, yaşaması deməkdir. Gənc nəsil bizim gələcəyimizdir. Onun şəxsiyyətinə, fəaliyyətinə, bir şəxsiyyət kimi yetişməsinə laqeyd olmaq, barmaqarası baxmaq böyük qəbahətdir. Əxlaq - tərbiyə - bu, saatlarla mühazirə oxumaq deyildir. Onu hər bir şəxs öz üzərində rol oynamaqla göstərməlidir. Bu rol, əsasən, valideyn və müəllimlərin üzərinə düşür. Onlar dildə bir söz deyib, əməldə isə başqa bir iş etdikdə böyüməkdə olan gənc nəsil çıxılmaz bir vəziyyətdə qalır.

K.D. Uşinski "İnsan tərbiyə obyekti kimi" və yaxud "İnsan tərbiyə predmetidir" əsərində bu mövzuya geniş yer vermişdir. K.D. Uşinski bu əsərində insanın əxlaqi tərbiyəsinin pedaqoji yollarını aydınlaşdırmağa və pedaqogikanı psixologiya ilə əsaslandırmağa səy göstərmişdir. O, bu əsərinə "Pedaqoji antropologiya" adı vermiş-

dir. K.D. Uşinski hər bir insanı yaxından tanımaq üçün, ilk növbədə, onun ailəsini və ətrafını tanımağı əsaslandırmağa səy göstərmişdir. Eyni zamanda, o belə bir ideyanı irəli sürür ki, insanı hərtərəfli tərbiyə etmək lazımdır. Bunun üçün məşğul olduğum mövzunu, yəni insanı, malik olduğu xüsusiyyətlərini dərindən öyrənmək lazımdır (1, 20).

Əxlaq, əxlaqi tərbiyə - şəxsiyyətin yaşadığı, inkişaf etdiyi cəmiyyətdə mövcud əxlaqi prinsiplərə yiyələnmək, bir sözlə, insanın insana, cəmiyyətə münasibətini ifadə edir. Cəmiyyətin mənafeyinə uyğun gəlib vətənpərvərlik, kollektivçilik, xeyirxahlıq, rəğbət, yoldaşlıq, dostluq, humanizm, məsuliyyət, həya, hörmət, vicdan və s. müsbət hisslər, əksinə, cəmiyyətin mənafeyinə xələl gətirən, zərər verən fərdiyyəçilik, paxıllıq, eqoizm, xudbinlik, bədxahlıq, pozğunluq, narkomaniya, başqasının fəlakətinə sevinən mənfi əxlaqi hisslərdir.

Hər bir insan vətənpərvərlik, qayğıkeşlik, kollektivçilik, kimə isə yardım etmək, başqasının dərdinə şərik olmaq hissi ilə sıx birlikdədir. Vətən və xalq qarşısında vəzifə və məsuliyyət hissi, ələlxüsus, şərəf, şəxsi ləyaqət, həya və hörmət hissləri insana xas olan əsas xüsusiyyətlərdir. Bütün bunları gənc nəslə aşılamaq və lazımi qida və ya vitamin kimi onlara yedirmək lazımdır (2,198).

Böyük məktəb yaşı dövründə artıq inkişaf edən dünyabaxışı hisslərin istiqamət və məzmununu müəyyənləşdirir. İlk gənclik dövründə dostluq – yoldaşlıq hissi əhəmiyyətli yer tutur. Valideynlər tərəfindən onlara, dostlarına qarşı mənfi sözlərin deyilməsi, qətiyyətli qadağalar qoyulması gənclərə pis təsir edir. Əksinə, onlar həmin şəxslərə daha da bağlanırlar.

Valideyn və ya müəllim qarşısındakına tərbiyə verməkdə və ya onları düz yola çəkmək istədikdə, onlara sərt qadağalar yox, elə məsləhətlər verməlidir ki, nəticəni həmin şəxs özü çıxara bilsin. Məsələn, nəqliyyatda cəld yerini uşağa, qocaya verən də var, üzünü pəncərəyə çevirib görməməzliyə vuran da var, qulaqcıqla oturub saymamazlığa vuran da var, durmayıb vicdan əzabı çəkənlər də var. Bundan başqa, qışqıra – qışqıra gülüb – danışıb, özünü cəmiyyət içərisində tək hesab edənlər də var. Belə gəncləri utandırmaq daha yaxşı nəticə verə bilərdi, nəinki nalayiq, səviyyəsiz sözlərlə qışqırıb onlarla mübahisə etmək (3,145).

Əxlaq sözünün altında böyük fikirlər, əqidələr durur. İnsan dünyaya gələn günündən, yəni ibtidai icma quruluşundan başlamış müasir dövrə qədər hər bir şəxsiyyətə vacib olan psixoloji termindir. Bildiyimiz kimi, psixologiya iqlimə, regiona görə dəyişir. Əxlaq kəlməsini də hər bir xalq özünəməxsus tərzdə başa düşür. Bizim xalqımızın dilində əxlaq kəlməsi bir neçə bölmədən ibarətdir. Böyüyə hörmət, kiçiyə qayğı, qadın ləyaqəti, vətənə məhəbbət, qonağa hörmət, Şəhidlərə hörmət, milli dəyərlərin qorunması, düşməni gələcək nəsillərə tanıtmaq və s.

Hər bir insan öz yaşına hörmət etməyi bacarmalıdır. İstər zövqündə, istər danışıq tərzində və istərsə də özünü cəmiyyət içərisində aparmasında. Bəzən insanlar bir cəmiyyətə, əsasən içki aləminə düşəndə özlərini unudurlar. Hər bir şəxs əvvəlcə özünə, sonra isə ətrafdakılara hörmət etməlidir. Danışdığı hər bir sözün qiymətini misqalla bilməlidir. Özünü elə aparmalıdır ki, özündən sonra onun haqqında danışanda gülüş hədəfinə çevrilməsin (4, 502).

Əxlaq normaları tarixi və sinfidir. Əxlaqi hisslər həyati və fəal olur. Vətən və xalqımızın yüksəlişi naminə qarşıya qoyulmuş məqsədə çatmaq uğrunda gərgin mübarizədə onu yenilməz edir. Vətən və xalq qarşısında vəzifə və məsuliyyət hissi, həmçinin şərəf, ləyaqət, həya və hörmət insan həyatına gözəllik bəxş edir, mənəvi aləmini qiymətləndirir.

Əxlaqi hiss olan vicdan şəxsiyyətin öz münasibət və rəftarını, əqli və hissi cəhətlərin vəhdəti zəminində obyektiv, düzgün qiymətləndirilməsidir. Münasibət və rəftarların düzgün olduğunu dərk etmək vicdan rahatlığı doğurur. Bu hər bir şəxsiyyətə böyük sevinc gətirir, zövq verir, öz qüvvələrinə inam bəxş edir. Münasibət və rəftarın yanlış olduğunu dərk etmək vicdan əzabı doğurur, adam peşmançılıq halı keçirir. Vicdan sədası səhvi düzəldib doğru yola qayıtmağı tələb edir. Məsələn, narkoman, alkoqolik, oyun düşkünü, kompüter-internet düşkünlüklərini göstərə bilərik ki, onlar özlərində inam, vicdan hiss etsələr, özləri düzgün yola qayıda bilərlər (5, 78).

Son zamanlar internetdə "mavi balina" deyilən bir oyun yaranıb ki, bu da bir neçə yeniyetmənin intiharına səbəb olub. Ümumiyyətlə,

internetlərdə insan əxlaqına zidd olan elə bir görüntülər və yazılar verilir ki, bu da nəinki əxlaqımıza, insaniyyətə layiq deyildir. Bəzən televiziyalarımızda verilən verilişlər, reklamlar bizim mentalitetimizə, əxlaqa layıq olmayan verilişlərdir. Vicdan - əxlaq şəxsiyyətin yüksək şüurluluğu ilə bağlıdır.

Əxlaqı hər bir insan ana südü ilə əmməlidir. Əxlaqsız ananın südü də yaramazdır. Əgər "ana" (ana demək olarsa) öz övladını soyuqda, küləyin altında küçəyə atıb arxaya da baxmadan gedirsə, biz hansı əxlaqdan danışa bilərik? Soruşanda "dolana bilmirəm" deyir. Məgər müharibə vaxtı analar üçün çətin olmayıb? Sual olunur: onlar öz övladlarını necə saxlayıblar?

Müharibə vaxtı doğulan uşaqlardan azmı alim, yazıçı, şair, xalqımıza dəyər verən layiqli övladlar böyüyüb? Bu anaların bir əqidəsi olub: "övlad məhəbbəti". O biri dırnaqarası "anaların" isə əqidəsi eyş-işrət olub. Təkcə analar deyil, vicdanını, əxlaqını itirmiş övladlar da var (6, 33).

Öz valideynlərini lazımsız əşya kimi qocalar evinə atan bu övladlar bəzən elə böyük məhəbbətlə ana-ata məhəbbətindən danışarlar, həya hissi keçirmədən, vicdan əzabı çəkmədən, hətta yalandan ağlayırlar da. Görəsən onlar azacıq da olsa vicdan əzabı keçirirlərmi?

Lesqapt uşağın əxlaqi xüsusiyyətlərini aşağıdakı plana əsasən öyrənmişdir:

1. Uşaq sinifdə özünü necə aparır?
2. Onun müşahidəçilik dərəcəsi.
3. Uşaq müstəqil düşünmə vərdişinə malikdirmi?
4. Özünü təklikdə necə hiss edir?
5. Onun üçün hansı əxlaqi keyfiyyətlər daha xarakterikdir?
6. Uşağın fəal-iradi hərəkət səviyyəsi necədir?

Qədim hind vedlərində deyilir ki, doğulmaq, yaşlanmaq əzab və ölmək də əzabdır. Lakin bu əzablardan çıxış yolu var. Bu düzgünlük, doğruçuluq, əməksevərlik, ləyaqət, vətənpərvərlikdir, insanlar bu yolla getməklə öz həyatlarını daha da maraqlı edirlər. Çalışmalıyıq ki, nə özümüz, nə yaxınlarımız, nə də ətrafımızdakılar cəmiyyət üçün qara ləkəyə çevrilməsinlər.

Problemin elmi yeniliyi. Məqalədə uşağın əxlaqi tərbiyəsinin möhkəmlənməsi və inkişafında təlim-tərbiyə və sağlam cəmiyyətin böyük rol oynadığı, ümumiyyətlə bu işdə məktəbin üzərinə böyük vəzifələr düşdüyü açıqlanır.

Problemin praktik əhəmiyyəti və aktuallığı. Məqalədə hər bir uşağın dünyaya gəldiyi gündən əhatəsində olan insanların onun düzgün əxlaq normaları və əxlaqi davranış qaydalarına yiyələnməsi probleminə diqqət yetirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Ədəbiyyat:

1. Məmmədov Z.İ. Estetik tərbiyə və şəxsiyyətin hərtərəfli inkişafı. Bakı: Azərb. SSR "Bilik Cəmiyyəti" 1975.
2. Ümumi psixologiya. Red.: A.V. Petrovski; / Tərcümə: Ə.Ə. Əlizadə, M.Ə. Həmzəyev, İ.Ə. Seyidov/ Bakı: Maarif, 1982.
3. Vəliyev M.V. İnkişaf və yaş psixologiyası. / universitetlərin psixologiya ixtisası üzrə təhsil alan tələbələri üçün dərs vəsaiti Bakı: Elm, 2013.
4. Столяренко Л.Д. Психология и педагогика: Учебное пособие для бакалавров / М: Юрайт, 2012.
5. Собчик Л.Н. Психология индивидуальности. Теория и практика психодиагностики. СПб: Издательство «Речь», 2005.
6. Шеламова, Г.М. Деловая культура и психология общения: Учебник для начального проф. образования / М: ИЦ Академия, 2013.

E-mail: zema.salimova@mail.ru
Rəyçilər: *psix.ü.fəls.dok., dos.* **S.N. Heydərova**
ped.ü.fəls.dok., dos. **Z.İ. Əliyeva**
Redaksiyaya daxil olub: 17. 12.2018.

UOT 373.3/5.

Ayfər Bəylər qızı Şakirli
Azərbaycan Dövlət Pedaqoji Universiteti

DƏRSDƏNKƏNAR VƏ MƏKTƏBDƏNKƏNAR TƏDBİRLƏR ZAMANI ŞAGİRDLƏRİN EKOLOJİ TƏRBİYƏ MƏSƏLƏLƏRİ

Айфер Байлар гызы Шакирли
Азербайджанский Государственный Педагогический Университет

ВОПРОСЫ ЭКОЛОГИЧЕСКОГО ВОСПИТАНИЯ УЧАЩИХСЯ ВО ВРЕМЯ ВНЕУРОЧНЫХ И ВНЕШКОЛЬНЫХ МЕРОПРИЯТИЙ

Ayfar Baylar Shakirli
Azerbaijan State Pedagogical University

THEORETICAL ISSUES OF ECOLOGICAL UPBRINGING OF STUDENTS İN EXTRACURRICULAR ACTIVITES

Xülasə: Məqalədə mövzunun aktuallığı əsaslandırılıb. Dərsdənkənar və məktəbdənkənar tədbirlərin mahiyyətinə və məzmununa aydınlıq gətirilib. Dərsdənkənar və məktəbdənkənar dərslərin təsnifatı verilib. Məqalədə dərsdənkənar və məktəbdənkənar tədbirlərdə şagirdlərdə ekoloji tərbiyənin formalaşdırılması nümunələri də verilib.

Açar sözlər: *dərsdənkənar, diyarşünaslıq, ekskursiya, viktorina, ekosistem, şagirdlər*

Резюме: В статье была обоснована актуальность темы. Внесена ясность в содержание и выявлена суть внеурочных и внешкольных мероприятий. Дана классификация внешкольных и внеурочных занятий. В статье показаны образцы формирования у школьников экологического воспитания во время внеурочных и внешкольных мероприятий.

Ключевые слова: *внеурочный, краеведческий, экскурсия, викторина, экосистема, ученики*

Summary: The relevance of the topic is justified in the article. The essence and content of extracurricular activites were clarified. Classification of extracurricular activites has been provided. The article also provides examples of ecological education for pupils in extracurricular activites.

Key words: *extracurricular, regional studies, exursion, quiz, ecosystem, pupil.*

Ətraf mühitə qayğı bu gün cəmiyyətin həyat fəaliyyəti sahələrinin hər birinin başlıca funksiyasına çevrilmişdir. Bir tərəfdən, urbanizasiya prosesində təbii mühit dəyişilir: hər şeydən öncə, şəhərin ərazisi hüdudlarında təbiət tədricən dəyişir. Şəhər böyüdükcə ətraf rayonların təbiətinə təsir göstərir. Şəhər arealının genişlənməsi, kəndlərin urbanizasiyası və s. müvafiq ərazilərdə təbii mühitin bu və ya digər dərəcədə dəyişməsi ilə nəticələnir. "Əgər biz doğrudan da planetar miqyasda düşünməyi bacarmasaq, bəşəriyyət doğrudan da məhv olmaq təhlükəsi qarşısında duracaq. Ancaq ağıl çoxluğundan yox, onun əzəmətli və hər şeyə qadir gücündən istifadə edə bilmədiyimizə görə məhv olacaq" (1, s.17).

"İnsanı təbiət yaratmış və öz sərvətlərini səxavətlə onun istifadəsinə vermişdir" (2, s. 7). Bu sərvətlərdən lazımi şəkildə və ehtiyatla istifadə etmək hər birimiz üçün önəmlidir. Dünyada və ölkəmizdə baş verən qlobal iqlim dəyişikliyi, içməli su ehtiyatlarının tükənməsi, meşə sahələrinin azalması hər birimiz üçün böyük təhlükə mənbəyidir. "Təbiət hamımızın müştərək "evimiz", ümumi "süfrəmizdir". Bu ev hər birimiz üçün doğma, bu süfrə bərəkətli, min bir nemətlidir"(3.30). Bu "evin" qorunub, mühafizə olunmasında hər birimiz məsuliyyət daşıyırıq.

Belə olduqda şagirdlərdə ekoloji tərbiyənin formalaşdırılması xüsusilə böyük əhəmiyyət kəsb edir. Məktəblilərə vətənimizin gözəl təbiətini qorumaq və təbii sərvətlərindən qənaətlə istifadə naminə xidmət göstərmək, təbiəti korlayanlara qarşı barışmaz mövqe tutmağı aşılamalıyıq.

Təbii ki, bu işdə əsas nümunə müəllim şəxsiyyətinin özüdür. Ümumiyyətlə, tərbiyədə, o cümlədən ekoloji tərbiyədə şəxsiyyət digər şəxsiyyətdən nümunə götürərək formalaşır. "Tərbiyəçi şəxsiyyətinin cavan ruha olan təsiri elə bir tərbiyə qüvvəsidir ki, onu nə dərs kitabları ilə, nə əxlaqi nəsihətlərlə, nə də cəza və mükafat sistemi ilə əvəz etmək olar"(4, 39).

Müəllimlər tərəfindən şagirdlərin fərdi xüsusiyyətlərinin təzahürü və inkişafı üçün çətinlik dərəcəsinə və müxtəlif məzmununa görə seçilən müstəqil yaradıcı işlərin aparılmasına şərait yaradan ekoloji işlər tarix dərsləri üçün də xarakterikdir. "Ekoloji mədəniyyət cəmiyyətin ancaq təbii mühitlə deyil, həm də sosial-tarixi mühitlə qarşılıqlı əlaqəsinin üsullarını xarakterizə etməyə qabildir"(5, 29). Tarix dərslərində dərsdənkənar işlər şagirdlərin idrak maraqlarının inkişafına istiqamətlənməlidir.

"Dərsdənkənar tədbirlər zamanı ekoloji tərbiyənin vəzifəsi şagirdlərdə doğma diyarımızın təbiətini daha dərindən öyrənmək, sevmək, qorumaq, onun təbii sərvətlərindən daha qənaətlə, daha səmərəli istifadə etmək, təbiətin korlanmasına qarşı dözülməzlik kimi keyfiyyətlər yaratmaqdır" (6, 99).

Ekoloji xarakterli dərsdənkənar işlərə diyarşünaslıq istiqaməti verilməsi mühüm şərtdir. Ekoloji vəziyyətin doğma diyarın nümunəsi əsasında öyrənilməsi təbiət və cəmiyyət qarşılıqlı əlaqələrinin elmi əsaslarının başa düşülməsi ilə məhdudlaşdır, əksinə, bu həm də ona görə əhəmiyyətlidir ki, bu zaman şagirdlərin əxlaqi və estetik tərbiyəsi, onun mənəvi zənginliyi, milli şüur və qürur hissinin, bir sözlə, şəxsiyyətin inkişafı və formalaşmasına geniş imkanlar yaradır. Ekoloji məzmunlu dərsdənkənar işlərin diyarşünaslıq istiqaməti məktəbin həyatla əlaqəsinə, şagirdlərin yaradıcılıq təşəbbüslərinin artmasına, tədqiqatçılıq xarakterli işlərə qoşulmasına, müəyyən ixtisas, peşə yönəlikliyinə həvəsləndirməyə, əməyə hazırlanmasına, təbiətlə birbaşa əlaqələri üçün şərait yaranmasına kömək edir.

Tarix dərslərində istifadə olunan dərsdənkənar iş formalarından aşağıdakıları qeyd edə bilərik:

1) Müvafiq soyqırımı və matəm günlərinin qeyd olunması (20 yanvar-Şəhidlər gününün, 26 fevral Xocalı faciəsi, 31 mart - azərbaycanlıların soyqırımı gününü və s.) yolu ilə;

2) Viktorina və gecələrin təşkili yolu ilə;

3) Kino, televiziya və radio verilişlərindən istifadə yolu ilə;

4) Bayram tədbirlərinin keçirilməsi (Novruz, Qurban, Ramazan) yolu ilə və s.

Tarix dərslərində məktəbdənkənar tədbirlərin istiqamətlərinə aid olanlara aşağıdakıları misal çəkə bilərik:

Respublikamızda **Gənc turistlər** və **diyarşünaslıq mərkəzi** fəaliyyət göstərir. Bu mərkəzin fəaliyyətinin əsas məqsədi tariximizi gənc nəslə öyrətmək, vətənimizin tarixi abidələrini qorumaq, vətənə məhəbbət hissini aşılamaqdır. Gənc turistlər və diyarşünaslıq mərkəzləri respublikamızın tarixini, mədəniyyət abidələrini şagird və tələbələrə tanıtmaq, onlara sevdirmək məqsədilə ekskursiya, yürüş və gəzintilər təşkil edir, şagirdlərə milli dəyərlərimizin qorunması, torpağa sevgi, vətənə məhəbbət hissinin aşılanması istiqamətində mütəmadi iş aparır.

"Bir sıra məktəblərdə təbiət muzeyi və ya guşəsi yaradılır. Təbiətin mühafizəsi üzrə təlim və tərbiyə işində bu istiqamət böyük əhəmiyyət kəsb edir. Muzeydə məktəbin ayrı-ayrı şagirdlərinin və valideynlərinin köməkliyi ilə əldə edilmiş müxtəlif eksponatlar, heyvanların müqəvvaları, sxem və diaqramlar saxlanır və ildən-ilə zənginləşdirilir. Guşədə isə müxtəlif bitki və heyvan saxlanır. Onlar üzərində müşahidə aparılır, qulluq edilir və s." (7, 38).

Məktəbdə ekoloji problemlər üzrə kütləvi iş formaları içərisində disput və söhbətlər, məruzə və mühazirələr, viktorinalar, konfranslar və s. istifadə səmərəlidir. Ekoloji konfranslar, ilk növbədə, şagirdlərin ekoloji biliklərinin dərinləşdirilməsi və zənginləşdirilməsinə xidmət edən tədbir formasıdır. Burada məktəblilərin ümumi ekoloji problemlər, doğma diyarın təbiəti haqqında məlumatlanması və informasiya selinə qoşulması üçün imkanlar yaranır.

Ümumtəhsil məktəbi şagirdlərinin ekoloji təhsil və tərbiyəsi üzrə dərsdənkənar və məktəbdənkənar tədbirlər prosesində praktik fəaliyyətin

istiqamətlərini aşağıdakı kimi müəyyənləşdirmək olar:

1) Doğma diyarın təbiətinin öyrənilməsi və qiymətləndirilməsi; hava, su, torpaq, ekosistemin vəziyyətinin təsviri siyahısı və qiymətləndirilməsi; təbiətin və mühafizə olunan təbii obyektlərin siyahıya alınması, zəruri sənədlərin (xəritə, sxem, cədvəl, siyahı) tərtib edilməsi;

2) Ekoloji biliklərin təbliği; plakat, şüar və vərəqlərin hazırlanması söhbət və mühazirələrin keçirilməsi; ekoloji məzmunlu ekskursiyaların keçirilməsi təbiətin mühafizəsi sərgilərin tətbiqi; doğma diyarın təbiəti üzrə mühafizə salnaməsinin yaradılması; ətraf aləm günü və ya ümumdünya sağlamlıq günlərinin keçirilməsi və s.

Bütün bu qeyd edilənlər təlimdə məktəblilərin ekoloji tərbiyəsinin inkişaf etdirilməsinə kömək etməklə yanaşı, həm də doğma diyarı kəşf etmələrinə şərait yaradır.

İstər sinifdənxaric tərbiyə işləri, istərsə də məktəbdənkənar tərbiyə işləri şagird şəxsiyyətinin formalaşmasına və məktəbdə təlim və tərbiyə keyfiyyətinin yüksəldilməsinə xidmət edir, məktəblilərin təlim prosesində qazandıqları bilik, bacarıq və vərdişləri daha da zənginləşdirir və həyata tətbiq etmələrini, məktəblilərin fəallığını, təşəbbüskarlığını maraq, meyl və qabiliyyətlərini inkişaf etdirməyə, məktəblilərin asudə vaxtlarının ağıllı təşkilinə şərait yaratmaqla onları xoşagəlməz təsadüfi hadisələrdən və küçənin mənfi təsirindən qorumağa, şəxsiyyətlərarası əlaqələrini tənzimləməyə, dostluq, yoldaşlıq kimi əxlaqi keyfiyyətlər yaratmağa xidmət edir.

Təbiət indiyə qədər mövcud olanların, indi yaşayanların, gələcəkdə yaşayacaq insanların mülkiyyətidir. Təbiətin mühafizəsi sahəsində adamların mənəvi məsuliyyəti bütövlükdə həyatın qorunmasına aid olan mənəvi məsuliyyətdir.

Problemin aktuallığı. Məqalədə mövzunun aktuallığı əsaslandırılıb. Dərsdənkənar və məktəbdənkənar tədbirlərin mahiyyətinə və məzmununa aydınlıq gətirilib. Dərsdənkənar və məktəbdənkənar dərslərin təsnifatı verilib. Məqalədə dərsdənkənar və məktəbdənkənar tədbirlərdə şagirdlərdə ekoloji tərbiyənin formalaşdırılması nümunələri də verilib

Problemin elmi yeniliyi. Ümumtəhsil məktəblərində dərsdənkənar və məktəbdənkənar tədbirlərdə şagirdlərin ekoloji tərbiyəsinin nəzəri məsələlərinin sistemi şərhidir.

Problemin praktik əhəmiyyəti. Məqalədə əldə olunan didaktik nəticələrdən ümumtəhsil məktəblərinin tarix müəllimləri istifadə edə biləcəklər.

Ədəbiyyat:

1. Our common future. Oxford, 1987.
2. Əliyev H.Ə. "Həyəcan təbili". Bakı: Elm, 2007.
3. Məsimov H.M. "Ekoloji tərbiyənin aktual məsələləri". Bakı, 1991.
4. Uşinski K.D. Seçilmiş əsərləri. 3-cü cild. Bakı, 1953.
5. Allahyarova T. Ekoloji mədəniyyət və ictimai tərəqqi. Bakı: Elm, 1999.
6. Abdullayev H.X. Məsimov H.M. "Uşaqların ekoloji tərbiyəsi". Bakı, Maarif, 1993.
7. Mayılov İ, Abdulkərimov T. "Orta məktəbdə təbiəti mühafizə məsələlərinin öyrənilməsi". Bakı: Maarif, 1985.

E-mail: ayfershakirli17@gmail.com
Rəyçilər: *tarix ü.fəls.dok., dos.* **R.Ə. Əliyev**
ped.ü. fəls.dok.. prof. **M.M. Əmirov**
Redaksiyaya daxil olub: 02. 01. 2019.

METODİKA: FƏNLƏRİN TƏDRİSİNİN ÜMUMİ MƏSƏLƏLƏRİ

UOT 37.01.

Qurban İsa oğlu Əliyev
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Dosenti

Çinarə Elxan qızı Hüseynova
Azərbaycan Dövlət Pedaqoji Universiteti

İNKİŞAFETDİRİCİ TƏLİM VƏ ONUN FUNKSİYALARI

Гурбан Иса оглу Алиев,
доцент
Азербайджанского Государственого Педагогического Университета

Чинара Эльхан гызы Гусейнова
Азербайджанский Государственный Педагогический Университет

РАЗВИВАЮЩЕЕ ОБУЧЕНИЕ И ЕГО ФУНКЦИИ

Gurban Isa Aliyev
assistant professor at
Azerbaijan State Pedagogical University

Chinara Elkhan Huseynova
Azerbaijan State Pedagogical University

DEVELOPING TRAINING AND ITS FUNCTIONS

Xülasə: Bu məqalədə inkişafetdirici təlim haqqında məlumat verilmişdir. Həmçinin, inkişafetdirici təlimin əsasları qeyd olunmuş, onun əsasən ibtidai siniflərdə tətbiqinin səmərəliliyindən danışılmışdır.
Açar sözlər: *təlim, inkişafetdirici təlim, tərbiyə, ibtidai sinifdə təlim*

Резюме: Эта статья содержит информацию о развитии обучения. Также были упомянуты основы разработки тренинга, и в основном говорилось об эффективности его применения в начальных классах.
Ключевые слова: *обучение, развивающее обучение, воспитание, обучение в начальных классах*

Summary: This article provides information on developing training. Also, the basics of developing training were mentioned, and it was mainly talked about the effectiveness of application in primary classes.
Key words: *training, developing training, upbringing, elementary class training*

İnkişaf çoxcəhətli anlamdır və şagirdin psixi həyatının bütün sahələrini əhatə edir. Təlim-tərbiyə prosesində məktəblilərin psixi inkişafının başlıca istiqamətlərini təhlil edəndə, ilk növbədə, biliklərin, onların tətbiqi mexanizmlərinin və şəxsiyyətin ümumi xassələrinin inkişafı şəraitini ayırd edirlər.

Şəxsiyyətin inkişafı təlim prosesinin nüvəsini təşkil edir. Sözün geniş mənasında, inkişafetdirici təlim şəxsiyyətin formalaşmasını nəzərdə tutur və onu təlimin başlıca problemi kimi mənalandırır. Təlim məqsədləri anlamı öz mahiyyətinə görə həmişə dövrün pedaqoji təfəkküründün meyarlarını əks etdirir.

Vaxtilə təlim məqsədləri sırf təhsil məqsədi kimi dərk olunurdu və mənalandırılırdı. Məktəbin tərbiyəedici funksiyası artdıqca təlim məqsədlərində təhsil meyarı ilə birlikdə tərbiyə meyarı da əmələ gəldi. İnkişafetdirici təlim prinsipi axarında isə inkişafetdirici təlim məqsədi formalaşdı. "Təlim müəllimin rəhbərliyi ilə şagirdlərin müəyyən bilik, bacarıq və vərdişlər sisteminə yiyələnməsi və bu zaman onların inkişaf etdirilməsi və tərbiyə olunması prosesidir".

İbtidai təhsil mərhələsində təlimin – təhsil, inkişaf və tərbiyə meyarlarının vəhdətdə açıqlanması yeni pedaqoji təfəkkürün uğurlarını əks etdirir və psixologiyanın uğurlarına söykənir. Əvvəlki dövrlərdən fərqli olaraq, müasir dövrdə təlim məqsədləri artıq yeni pedaqoji təfəkkürün iki əsas prinsipi: *inkişafetdirici* və *tərbiyəedici* təlim prinsipləri əsasında mənalandırılır.

Təhsil məqsədi ilə inkişafetdirici və tərbiyəedici təlim məqsədləri arasında ikitərəfli asılılıq vardır. Bir tərəfdən təhsilin inkişafetdirici və tərbiyəetdirici məqsədləri təhsil məqsədi vasitəsilə həyata keçirilir. Müəllim şagirdləri sadəcə olaraq öyrətmir, onları öyrədə-öyrədə inkişaf etdirir və tərbiyə edir. Digər tərəfdən, şagirdlər inkişaf etdikcə və tərbiyə olunduqca onların təhsil məqsədlərinə münasibətləri dəyişir.

İbtidai təhsildə inkişafetdirici və tərbiyəedici təlim məqsədləri bir-birindən ayrılmazdır. Təlim məqsədləri dedikdə təhsilin məzmun tərəfi – öyrəniləcək bilik, bacarıq və vərdişlər nəzərdə tutulur. İnkişafetdirici təlim məqsədi bilavasitə əqli inkişaf ölçüləri ilə araşdırılır. Təlimin tərbiyəedici məqsədi isə şagirdin bir şəxsiyyət kimi formalaşmasını nəzərdə tutur. Psixoloji tədqiqatlar göstərir ki, məktəb şagirdləri inkişaf etdirmədən təhsil məqsədlərini həyata keçirə bilməz. Şagirdin psixi inkişafı təlimin həm nəticəsi, həm də başlıca şərtidir. Təlim və inkişaf problemini bu müstəvidə araşdıranda, o, mahiyyətcə təlim və əqli inkişaf problemi kimi meydana çıxır.

İnkişafetdirici təlim aşağıdakı əsaslarla müəyyən olunur:

1. Şagirdlərin tədris fəaliyyətinin fəallaşdırılmasının psixoloji əsasları:

- təlimin səmərəliliyi meyarları;
- şagirdlərin idrak fəallığının təşkili üsulları;
- şagirdin tədris fəaliyyətinin əsas funksiyaları;
- əyani-texniki vasitələrdən istifadə.

2. Tədris fəaliyyətinin xarakteristikası:

- tədris fəaliyyətinin strukturu;
- tədris fəaliyyətinin operativ tərkibi.

3. Təlim prosesində tədris fəaliyyəti priyomlarının formalaşdırılması:

- yaddaş priyomlarına alışdırma;
- müşahidə priyomlarının formalaşdırılması;
- obrazyaratma priyomları;
- tədris fəaliyyətinin formalaşdırılmasında priyomların funksiyaları.

4. Təlim prosesində şagirdlərə diferensiasiyalı yanaşma:

- inkişafetdirici təlim tədris prosesi ilə əlaqədar aşağıdakı komponentlərlə müəyyən olunur:
- informatikadan seçilmiş tədris materialının nəzəri-elmi cəhətdən əsaslandırılması;
-təlim metodlarının düzgün seçilməsi və müasir tələblər əsasında təkmilləşdirilməsi;
- dərsliklərdə və tədris proqramlarında (fənn kurikulumunda) təkcə biliklərin keyfiyyəti deyil, şagirdlərin əqli, fəaliyyəti xassələri nəzərə alınmalıdır.

İnkişafetdirici təlimin səmərəliliyi:

- təlimin gözlənilən nəticələri ilə,
- şagirdlərin əyani inkişafında nəzərə çarpan irəliləyişlərlə ölçülür.

Müəllim-şagird münasibətlərinin humanistləşdirilməsi şagirdin bir şəxsiyyət kimi inkişaf etdirilməsinin başlıca şərtidir. Müəllim "müəllim-şagird" münasibətlərinin, sadəcə olaraq, iştirakçısı deyil, peşə səriştəsinə, həyat təcrübəsinə görə onların təşkilatçısıdır. O, sinifdə hər bir şagirdin özünü aktuallaşdırmasına imkan verən qarşılıqlı etimad, canlı ünsiyyət mühiti yaratmalıdır.

İnkişafetdirici təlim konsepsiyası ibtidai siniflərdə geniş tətbiq olunub və olunur. Bu kontekstdə tədris fəaliyyətinin strukturu ilə tanış olaq:

* Tədris fəaliyyəti tədris tapşırıqlarının həllindən başlayır. Şagirdlər bu situasiyada bütün xüsusi və konkret variantları nəzərə almaqla tədris tapşırıqlarının ümumi həll üsullarının məzmunu ilə tanış olurlar. Müvafiq bilik, bacarıq və vərdişlərə yiyələnirlər.

* Tədris tapşırıqlarını həll etmək üçün zəruri tədris əməliyyatlarına yiyələnirlər.

* İcra etdikləri tədris əməliyyatlarını və onların nəticələrini öz fəaliyyətinin məqsədi ilə tutuşdurur, öz səhvlərini müəyyən edir və aradan qaldırırlar.

* Öz fəaliyyətlərinin ümumi (son) nəticəsini qiymətləndirirlər.

Beləliklə, müəllim təhsilin keyfiyyətini yüksəltmək üçün təkcə şagirdlərin idrak fəaliyyətini, ilk növbədə, diqqət, qavrayış və s. kimi psixi prosesləri aktivləşdirməklə kifayətlənmir, nəzəri təfəkkürü, eləcə də müqayisə, ümumiləşdirmə, mücərrədləşdirmə, təsnifat, tədris əməliyyatları, intellektual hisslər, bərpaedici təxəyyül, yaradıcı təxəyyül, anlama, nitq, materialı öz sözləri ilə nəql etmə, ağlın keyfiyyətləri, tənqidi təfəkkür, ağlın çevikliyi kimi idrak proseslərini müəyyən sistemlə inkişaf etdirir. Psixoloji tədqiqatlar göstərir ki, məktəb şagirdləri inkişaf etdirmədən təhsil məqsədlərini həyata keçirə bilməz. Beləliklə, ibtidai təhsil mərhələsində inkişafetdirici təlimin təşkili, ilk növbədə, təlim prosesində inkişafetdirici təlim prinsiplərinin həllindən asılıdır.

Problemin aktuallığı. Əsasən, ibtidai siniflərdə tədris prosesində inkişafetdirici təlimin tətbiq olunması xüsusilə əhəmiyyətlidir.

Problemin elmi yeniliyi. Müasir dövrdə tədrisdə inkişafetdirici təlimin tətbiqi ənənəvi tədris metodlarından daha çox effektivdir.

Problemin praktik əhəmiyyəti. Bu məqalənin, xüsusilə, şagirdlərdə inkişafetdirici təlimin formalaşdırılmasında orta məktəb müəllimləri üçün faydalı olacağı düşünülür.

Ədəbiyyat:

1. Mahmudzadə R. və b. İnformatika 4, dərslik, Bakı, 2011.
2. Zamanova S.A. Orta məktəblərdə riyaziyyatın tədrisi prosesində kompüter fərdiləşmək vasitəsi kimi. Avtoref, N. Tusi adına ADPU, Bakı, 1994.
3. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları, Bakı, 2008.

E-mail: chinare.huseynova13@mail.ru
Rəyçi: *fizik.riyaz.ü.elm.dok., dos.* **R. Hümbətəliyev**
Redaksiyaya daxil olub: 12.12.2018.

UOT 37.

İranə Oqtay qızı Məmmədova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi

İBTİDAİ SİNİFLƏRDƏ İNNOVATİV PROSESLƏRİN İNKİŞAFININ ƏSAS İSTİQAMƏTLƏRİ

Ирана Октай гызы Мамедова
преподаватель Азербайджанского Государственного Педагогического Университета

ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ РАЗВИТИЯ ИННОВАЦИОННЫХ ПРОЦЕССОВ В НАЧАЛЬНЫХ КЛАССАХ

Irana Oqtay Mamedova
the teacher at Azerbaijan State Pedagogical University

BASIC AREAS OF DEVELOPMENT OF INNOVATIVE PROCESSES IN THE PRIMARY GRADES

Xülasə: İbtidai siniflərdə təlim prosesinin səmərəliliyinin yüksəlməsində pedaqoji texnologiyalarının mühüm rolu vurğulanmışdır. Pedaqoji texnologiya təlim prosesinə yeni baxış kimi geniş tədqiq edilmiş, "pedaqoji texnologiya" termini çox geniş istifadə araşdırılmışdır. Təlim prosesində yeni təlim texnologiyalarının tətbiqi nəticəsində onun keyfiyyətini yüksəltmək, öyrənilən sistemin, daha sonra isə hər hansı bir müəllimin metod və üsullar sisteminin, nəhayət, tərbiyə metodikası və ayrı-ayrı metodları texnoloji baxımdan işlənib hazırlanmış, didaktikada artıq adı çəkilən istiqaməti bildirilmişdir.

***Açar sözlər**: ibtidai sinif, pedaqoji proses, pedaqoji innovasiya, pedaqoji texnologiya, interaktiv metodlar, İKT*

Резюме: Важную роль в повышении эффективности учебного процесса в начальных классах сыграли педагогические технологии. Педагогическая технология была широко исследована, как новый взгляд на процесс обучения, и было изучено более широкое использование термина «педагогическая технология». В результате применения новых технологий обучения в учебном процессе, была выявлена, что технология была разработана в дидактике, и чтобы улучшить ее качество, нужно изучить саму систему, а затем разработать методологию и методы для учителя начальных классов.

***Ключевые слова:** начальное образование, педагогический процесс, педагогическая инновация, педагогическая технология, интерактивные методы, ИКТ*

Summary: An important role was played by the pedagogical technologies in raising the efficiency of the learning process in primary grades. The pedagogical technology has been widely studied as a new look at the learning process, and the broader use of the term 'pedagogical technology' has been explored. As a result of applying new training technologies in the training process, it has been reported that the technology has been developed in the didactics to improve its quality, and then develop a technologically developed system of methods and methods of any teacher, and finally, methods and methods.

***Keywords:** header education, pedagogical process, pedagogical innovation, pedagogical technology, interactive methods, ICT*

İbtidai siniflərdə təlim prosesinin səmərəliliyinin yüksəlməsində pedaqoji texnologiyalar mühüm əhəmiyyət kəsb edir. Pedaqoji texnologiya təlim prosesinə yeni baxışdır. Təlim prosesində yeni təlim texnologiyalarının tətbiqi nəticəsində onun keyfiyyətini yüksəltmək mümkündür. Belə olan halda təlim prosesi maksimum idarə olunan prosesə çevrilir. Təlim texnologiyaları həm də tədris prosesinin iştirakçılarının fəaliyyətini aktivləşdirilir. “Təlim texnologiya-

sı" anlayışı keçən əsrin 50-ci illərindən elmi dövriyyəyə daxil edildi. Təlim prosesinə geniş sistem kimi daxildi. Buraya məqsəd, məzmun, prinsip, metod, təşkili forma, nəticəyə nəzarət daxil edildi. Əsas ideya öyrədici texnologiyanı ekranda canlandırmaq oldu.

Yunancadan "techne" və "loqos" söz birləşmələrindən ibarət olan texnologiya terminini "bacarıq", "qabiliyyət", "bilik", "təcrübə", "vərdiş" kimi mənaları verir. "Loqos" şəkilçisi "öyrənmə" kimi tərcümə olunur. Deməli, texnologiya termini bilik və bacarıqlara yiyələnmə mənasında işlədilir.

Q.N. Aleksandrov pedaqoji texnologiyanı aşağıdakı əsaslara görə fərqləndirir:

- məqsədə əsasən təyin edilmə;
- psixoloji mexanizmə əsasən mənimsəmə;
- xarakterik xüsusiyyətlərə görə elementlərarası əlaqələr;
- təhsilin təşkilatı formalarına görə;
- şagirdlərin idrak fəaliyyətinin idarə edilməsi xüsusiyyətlərinə görə;
- üstünlük təşkil edən metoda görə;
- tədrisin mövcud ənənəvi sisteminin müasirləşdirilməsinin mümkün istiqamətinə görə;
-intellektual proseslərin strukturlarının üstün təşəkkülü əsasına görə;
- xüsusi nəzərə alınmış kompüter texnologiyasına görə.

Hal-hazırda aşağıdakı texnologiyalar geniş vüsət almışdır:

- inkişafda olan tədris texnologiyası;
- əqli fəaliyyətin mərhələli təşəkkülünün nəzəri texnologiyası;
- genişləndirilmiş didaktik vahidlərdən istifadə olunmaqla tədris texnologiyası;
- humanist şəxsiyyət texnologiyası;
- uyğunlaşmış məktəb texnologiyası;
- informasiya texnologiyası və s (1).

Tədrisin müasir istiqamətlərinə bir neçə ümumi əsaslar mövqeyindən baxmaq olar. İ.A. Zimnyanın təsnifatına (7) görə aşağıdakı tədris formaları var:

1. Tədris edənin və tədris olunanın qarşılıqlı əlaqəsinin vasitəsizliyi əsasına görə - kontaktlı (təmaslı) və distansion təhsil. Birinci formaya işlənilmiş bütün ənənəvi istiqamətlər aiddir, ikinciyə - müasir dövrdə yaradılmış texniki vasitələrin köməyi ilə "məsafədən" təhsil aiddir.

2. Düşüncəlilik prinsipi əsasına görə - təcrübəyə yiyələnmə xarakteri ilə əlaqəli təhsil. "Tədris prosesində dərketmə obyekti nədir?" sualına cavab vermək vacibdir. Əgər qaydalar, üsullar dərk edilirsə, bu ənənəvidir. Əgər özünüdərketmədirsə, müəyyən qaydalara tabe olan fəaliyyət əqli fəaliyyətin təşəkkül nəzəriyyəsidir. Əgər bu fəaliyyət proqramının, alqoritminin dərk edilməsidirsə, onda bu, proqramlaşdırılmış alqoritmləşdirmə nəzəriyyəsidir. Əgər həlli üçün üsulların, yolların, qaydaların istifadəsi vacib olan problemin, məsələnin dərk edilməsidirsə - bu, problemli təhsildir.

3. Təhsil prosesinin idarə edilməsi əsasına görə:

a) idarə etməyə əsaslanan təhsil (ənənəvi təhsil);

b) idarə etməyə mənimsəmənin əsas mexanizmi kimi baxılan təhsil, yəni alqoritmləşdirilmiş təhsilə proqramlaşdırılmış əqli fəaliyyətin mərhələli təşəkkülü nəzəriyyəsi.

4. Təhsilin və mədəniyyətin qarşılıqlı əlaqələri (fəaliyyətləri) əsasına görə:

a) təhsildə əsası mədəniyyət tərzi proyeksiyası və layihə fəaliyyətinin təşəkkülü olan təhsil (layihə təhsili nəzəriyyəsi);

b) intizamlı fənn prinsipinə əsaslanan təhsil (ənənəvi təhsil).

5. Təhsilin gələcək fəaliyyətlə əlaqələri əsasına görə - işarə-kontekstli və ya kontekstli təhsil.

6. Təhsilin təşkili üsulu əsasına görə - fəal forma, metod və ənənələri əhatə edən təhsil.

Yeni və qeyri-ənənəvi təhsil metodikaları, üsulları məlumdur və bunlar kifayət qədərdir: əməkdaşlıqda təhsil, dinamik cütlük metodikası, Sokratın tədris metodu, layihələr metodu, kiçik qruplarda tədris və s. Bütün bunlar böyük innovasiya sahəsi yaradır.

Tədqiqatımız üçün o texnologiyalar xüsusi maraq yaradır ki, onlar ibtidai məktəbdə tətbiq edilir. Novator ideyalarının ən çoxu məhz ibtidai məktəbdə yaranır və inkişaf edir. Onlardan bəzilərinə baxaq.

Ş.A. Amonaşvili praktikada (təcrübədə) altıyaşlı uşaqlarla aparılan işin məzmunu, prinsipləri və şərtlərini elmi tərəfdən əsaslandırmış və yoxlamışdır. Onun texnologiyasını humanist-şəxsiyyət kimi müəyyən etmək olar (2).


Onun texnologiyası aşağıdakı istiqamətlərdən ibarətdir:

- uşaqda şəxsi keyfiyyətlər aşkarlamaqla, onda nəcib insan təşəkkülü, inkişafı və tərbiyəsinə şərait yaradır;
- uşağın qəlbinin və ruhunun nəcibləşdirilməsi (yaxşılaşdırılması).
- uşağın idrak gücünün inkişafı və təşəkkülü;
- geniş və dərin bilik və bacarıq üçün şəraitin təminatı;
- özünütərbiyə tərbiyə idealı.

Əməkdaşlıq pedaqogikası ideyasını Ş.A. Amonaşvili belə ifadə edir: "Uşağı elə öz tərbiyəndə, təhsilində, tədrisində, təşəkkülündə öz könüllü və maraqlı silahdaşı, əməkdaşı, həmfikri etmək onu pedaqoji prosesin bərabərhüquqlu iştirakçısı, bu proses və nəticə zamanında qayğıkeş və məsuliyyətli etməkdir" (51, s. 48).

Həm xarici, həm də Azərbaycan tədqiqatçılarının problemlə bağlı fikirlərini aşağıdakı cədvəldə ümumiləşdirə bilərik:

Cədvəl 1.



Təhsil sahəsində innovasiya prosesləri təhsilin, öyrənmənin predmetinə çevrilir, gələcək pedaqoji reallığı proqnozlaşdırmaq və layihələşdirmək üçün böyük əhəmiyyət kəsb edir, pedaqoji texnologiyaların təkmilləşdirilməsi, yeni üsul, vasitə və metodların cəmi başa düşülür.

İnnovasiya haqqında verilən açıqlamalar innovasiyanın aspektlərini yenilik, tətbiqi xarakter və həcm baxımında əks etdirir. Belə ki, yenilik baxımından innovasiya xaricdən gətirilmiş, milliləşdirilmiş elə ideyalar, proseslər və vasitədir ki, onlar bütövlükdə pedaqoji sistemin keyfiyyətcə təkmilləşdirilməsini təmin edir. İnnovasiya tətbiq olunarkən təhsil sisteminin daxili imkanları nəzərə alınmalıdır.

Hazırki texnologiyanın konseptual vəziyyəti aşağıdakı mövqelərdən ibarətdir:

- şəxsi yanaşma, əməkdaşlıq pedaqoqikası;
- uğur – uşaqların təhsildə inkişafında;
- səhvlərin xəbərdarlığı, onlarla işləmək deyil;
- tədris materialının məzmununun ardıcıllığı, sistemliliyi (müntəzəmliyi);
- qiymətləndirmə, hər kəs üçün biliklərin əldə edilməsi;
- bilən şagirddən bilməyən şagirdə;

- tədricən tam müstəqilliyə.

Təhsilin müasir təcrübəsinə əhəmiyyətli təsir göstərən daha mühüm istiqamət və ibtidai məktəbdə çox geniş yayılmış inkişafda olan tədrisdir.

İnkişaf etdirici təhsilin metodiki üstünlüklərini L.S. Vıqotski aşağıdakı kimi şərh etmişdir (4):

- psixi inkişafın hərəkətverici qüvvəsi haqqında anlayış;
- ən yaxın inkişaf və yaş yeniliklərinin (yenitörəmələrinin) əhatə kateqoriyası;
- inkişafın gedişatındakı qeyri-bərabərliyi və böhran mərhələləri haqqında fikir;
- interiorizasiya mexanizmi anlayışı;
- inkişafın sosial vəziyyəti haqqında anlayış;
- təhsilin fəaliyyət xarakteri haqqında təsəvvür;
- psixikanın inkişafında işarə iddiası konsepsiyası;
- idrakın sistemli-məna quruluşu və inkişafı haqqında fikir.

V.V. Davıdov və D.B. Elkoninin inkişaf edən təhsil konsepsiyası şəxsiyyətin əsası kimi yaradıcılığın inkişafına yönəldilib və bu sistemin aprobasiyası, inkişafı hal-hazırda da davam edir.

V.V. Davıdova (6) görə empirik və nəzəri ümumiləşdirmələrinin fərqi:

Fərqin meyarları	**Ümumiləşdirmə**	**Nəzəri ümumiləşdirmə**
Təfəkkürün ümumi xarakteristikası	Formal - məntiq (düşüncəli)	Dialektik (şüurlu, düşüncəli)
Təfəkkür prosesinin ümumi istiqamətliliyi.	Xüsusidən ümumiyə (konkretdən, xüsusidən mücərrədə doğru) – induksiya	Ümumidən xüsusiyə (təfəkkürün nəzəri konkretdən xüsusiyə, empirik konkretə doğru) - deduksiya
Aparıcı mütəfəkkir prosesi	Müqayisə, tutuşdurma	Nəzəri təhlil
Ünsiyyət əsasında olan ilk obyektlərin sayı	Çox obyekt	Bir obyekt
Xarakterik xüsusiyyətlər	Zahiri, həssas mənimsənilənlər (başa düşülənlər).	Daxili, gizli
Əlamətlər əsasında baş verən ümumiləşdirmələr	Ümumilər, formal-oxşarlar	Əhəmiyyətlilər, genetik məna
Konkretləşmə prosesinin məğzi	Misallar, illüstrasiya seçimi	Ümumidən xüsusinin (nəticə) çıxarılması

Hazırda ibtidai məktəbdə şəxsiyyətyönlü təhsil modeli geniş vüsət alıb.

Bu layihənin yaradılması üçün ilkin şərtlər L. S. Vıqotskinin nəzəriyyəsinin əsas məqamları, D.B. Elkoninin (8), V.V. Davıdovun (5), A.V. Zaporojesin inkişafda olan təlimin elmi ideyaları, A.M. Pışkalonun, İ.V. Vinoqradovanın perspektivli ibtidai məktəb konsepsiyası olmuşdur (3).

Əsas konseptual fikirlər (müddəalar): layihələr, XXI əsrin ibtidai məktəbi.

1. Məktəblinin tam harmonik inkişafı, ümumi bacarıqlarının, hər kəsin fərdi bacarıqlarına xas erudisiyanın formalaşması;

2. Elementar mədəni fəaliyyətin inkişafı, tədris məsələsinin qəbuletmə biliklərinə yiyələnmək, kontrol (nəzarət), özünənəzarət, qiymət və özünəqiymət aparmaqla tədris əməliyyatlarını müəyyən etmək.

3. İdrak mədəniyyətinin və idrak maraqlarının səviyyəsini müəyyən edən özünütəhsilə hazırlığın formalaşması.

Kiçik məktəblinin inkişafını müəlliflər belə başa düşürlər:

- inkişaf – bu öz biliyini qeyri-standart vəziyyətlərdə istifadə etməyin təşəkkül tapmış bacarığıdır;
- inkişaf – bilik əldə etmək, tədris məsələlərinin quruluşunun ümumi bacarığını, məktəblinin hipotezi qurmada, dəlilləri həyata keçirmək axtarışında inisiativi, istənilən məsələni ya-

radıcı surətdə yerinə yetirmək istəyini müəyyən etməyin təşəkkül tapmış bacarığıdır;

- öz biliksizliyini dərk etmə, buraxılmış səhvlərin, öz fəaliyyətinin nəticələrini etalonla müqayisə etməyin səbəbini tapmaq, tədris məsələlərinin proseslərinin və nəticələrinin qiymətləndirilməsində müstəqillik bacarığı;

- bu psixi proseslərin yüksək (yaş imkanlarına müvafiq) səviyyəsidir: təxəyyül, təfəkkür, əlaqəli nitq və s.

Kiçik məktəblinin belə inkişaf səviyyəsini əldə etmək üçün müəlliflər real təlim nəticəsi kimi aşağıdakı ideyaları reallaşdırmağı təklif edirlər:

- Təlimi kiçik məktəblinin psixoloji xüsusiyyətlərini və imkanlarını nəzərə alaraq qurmaq;

- Hər fənnin öyrənilmə metodikasını uşağın mənəvi və emosional mədəniyyətini təkmilləşdirməklə onun ümumi inkişafına, tədris fəaliyyətini formalaşmasına oriyentasiya olunub.

- Təlim fərdi irəliləmə tempini nəzərə almağa, yaranmış çətinlikləri təshih etməyə, onun bacarıqlarının dəstəklənməsini təmin etmək imkan verən qiymətləndirmə əsasında qurulur, şagird istənilən məsələni özü həll etməyi öyrənməlidir, lakin müxtəlif dövrlərdə. Aparıcı metodları birgə müzakirə etmək, fikirləşmək, axtarış, kəşf etmədir.

Müasir ibtidai məktəbin xüsusiyyətləri ətraf mühit və cəmiyyət haqqında biliklərin inteqrasiyasıdır. Psixoloqların qeyd etdikləri kimi, uşaqlarda erkən predmetlərarası sərhədlərin olmasından dağılmış aləm formalaşır, buna görə də iki-üç predmet birləşməsi və ya mövzuların birləşdirilməsi əsasında qurulmuş inteqrasiya edilmiş kurslar yaranır.

Problemin elmi yeniliyi. Pedaqoji təmayüllü ali və orta ixtisas təhsili ocaqlarında istifadə olunan innovasiyaları ümumiləşdirmək, təsnifatını aparmaq, qruplaşdırmaq, istifadə metodikasını göstərmək, innovasiyaları müqayisəli təhlil etmək tədqiqatımızın yeniliyidir.

Problemin praktik əhəmiyyəti. Ümumiləşdirilmiş tədqiqat materiallarından pedaqoji təmayüllü ali və orta ixtisas təhsili ocaqlarının tələbələri, magistrantları, həmçinin müəllimləri də seminar və mühazirə materiallarının, məşğələlərinin hazırlanmasında istifadə edə bilərlər.

Problemin aktuallığı. Gələcək ibtidai sinif müəllimlərinin innovativ pedaqoji fəaliyyətə hazırlanmasına dair innovasiyaların tətbiqinin, onların nəzəri anlayışlarının və praktiki tətbiq etmək bacarıqlarının formalaşdırılması böyük əhəmiyyət kəsb edir.

Ədəbiyyat:

1. Александров Г.Н., Дзарасов А.А., Науменко А.И. Основы теории педагогических систем и педагогических технологий: Учебное пособие; Северо-Осетинский государственный университет Владикавказ: СОГУ, 2001.
2. Амонашвили Ш.А. Размышления о гуманной педагогике. М., 1996.
3. Виноградова Н.Ф. Начальная школа XXIв. Издательство Вентана-Граф.
4. Выготский Л.С. Педагогическая психология. // Под ред. Давыдова В.В.
5. Давыдов В.В. Развивающее обучение. М., 1989.
6. Давыдов В. В. Теория развивающего обучения. М., 1996.
7. Зимняя И.А. Педагогическая технология. Ростов-на-Дону, 1993.
8. Эльконин Д.Б. Психология обучения младшего школьника. М., 1974.

E-mail: Elchin_mamedazade@hotmail.com
Rəyçilər: *ped.ü.elm.dok., prof.* **F.A. Rüstəmov**
*dos.***Y.T. Rzayeva**
Redaksiyaya daxil olub: 13.12.2018.

AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ METODİKASI

UOT 37.01.

Maya Rəhim qızı Qasımova
pedaqogika üzrə fəlsəfə doktoru, baş müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti

İBTİDAİ MƏKTƏBDƏ FONETİKANIN TƏDRİSİ PROSESİNDƏ NİTQ İNKİŞAFI ÜZRƏ APARILAN İŞLƏR

Мая Рагим гызы Касумова
доктор философии по педагогике, старший преподаватель
Азербайджанский Государственный Педагогический Университет

РАБОТЫ ПО РАЗВИТИЮ РЕЧИ В НАЧАЛЬНОЙ ШКОЛЕ В ПРОЦЕССЕ ПРЕПОДАВАНИЯ ФОНЕТИКИ

Maya Rahim Gasimova
doctor of philosophy in pedagogy, assistant professor
Azerbaijan State Pedagogical University

WORKS ON THE DEVELOPMENT OF SPEECH İN THE TEACHİNG PROCESS OF PHONETİCS AT PRİMARY SCHOOL

Xülasə: Məqalədə fonetik biliklərin öyrədilməsi prosesində ibtidai sinif şagirdlərinin nitqinin inkişaf etdirilməsi yollarından danışılmışdır. Şagirdlərin orfoepik normalara yiyələnməsində fonetik bilik və bacarıqların (səslərin düzgün tələffüzü, vurğunun düzgün qoyulması, ahəng qanununun gözlənilməsi və s.) əhəmiyyətli rolu vurğulanmışdır. Bu məqsədlə bir sıra çalışma növləri və didaktik oyunlardan istifadənin faydalı olduğu qeyd edilmişdir.

Açar sözlər: *fonetik biliklər, nitq inkişafı, səs və hərflər, heca, vurğu, ahəng qanunu, orfoepiya, orfoqrafiya, ədəbi tələffüz.*

Резюме: В статье рассматриваются пути развития речи учеников начальных классов в процессе обучения фонетическим знаниям. Подчеркнута особая роль этих знаний и умений (правильное произношение звуков, правильное использование ударения, соблюдение закона гармонии и т.д.) при усвоении учениками орфоэпических норм. Отмечена польза использования разных видов упражнений и дидактических игр для достижения этой цели.

Ключевые слова*: фонетические знания, развитие речи, звуки и буквы, слог, ударение, закон гармонии, орфоэпия, орфография, литературное произношение.*

Summary: It was spoken in the article the ways of developing the speech of primary school pupils in the process of teaching phonetic knowledges.It was noted the important role of phonetic knowledge and skills (correct pronunciation of sounds, correct putting stress, the law of vowel harmony and so on.) in possessing orthoepic norms of pupils. For this purpose it was noted the advantages of using several types of exercises and didactic games.

Key words: *phonetic knowledge, speech development, sound and letters, syllable, stress, the law of vowel harmony, orthoepy, orthography, literary pronunciation.*

Müasir dövrdə ana dili təliminin başlıca məqsədi qrammatik qaydaların öyrədilməsindən daha çox, şagirdlərdə zəruri nitq bacarıqları və kommunikativ mədəniyyət formalaşdırmaqdan ibarətdir. Buna görə də ibtidai sinif müəllimi Azərbaycan dilinin bütün bölmələrinin tədrisi

zamanı şagirdlərin nitq inkişafı üzrə sistematik və planlı şəkildə iş aparmalı, təlim prosesində onların maraqlarını nəzərə almaqla təlim materiallarının məzmununda, forma və metodlarda rəngarəngliyi təmin etməlidir. Dilin bütün bölmələri kimi, fonetikanın da öyrənilməsi vahid məqsədə - Azərbaycan dilinin mənimsənilməsinə şərait yaratmalıdır.

İbtidai siniflərdən başlayaraq şagirdlərə müəyyən həcmdə fonetik biliklər verilir. Hələ əlifbaya hazırlıq dövründən uşaqlar praktik şəkildə "səs", "hərf", "sait", "samit", "heca" və s. kimi fonetik terminlərlə tanış olurlar. Bunsuz onlar əlifba təlimi dövründə böyük əhəmiyyətə malik olan – sözlərin səs-hərf tərkibinin təhlilini yerinə yetirə bilməz, gələcəkdə düzgün yazı və tələffüz vərdişlərinə yiyələnə bilməzlər. Çünki dilimizin orfoepik və orfoqrafik normalarının əsasında fonetikanın əsas məsələsi olan səs-hərf münasibətləri dayanır: orfoepiya təlimi zamanı "belə deyilir, lakin belə yazılır", orfoqrafiyada isə bunun əksi olan formuldan istifadə olunur və hər iki prinsipin kökündə düzgün səs tələffüzü və səs təhlili ilə bağlı bacarıqlar durur.

İbtidai siniflərdə fonetik məlumatların verilməsinə "Səslər və hərflər" bəhsindən başlanılır. II sinifdə şagirdlər səs və hərfləri fərqləndirməyi, sait və samitlərə təsnif etməyi, III sinifdə qalın və incə, dodaqlanan və dodaqlanmayan saitlərin, kar və cingiltili samitlərin mövcudluğunu öyrənirlər.

Danışıq səsləri kortəbii şəkildə deyil, müəyyən ardıcıllıq və sistemlə, spesifik vasitə və metodlarla öyrədilir. Dil ünsiyyətin ən mühüm vasitəsi olmaq funksiyasını danışıq səsləri vasitəsilə yerinə yetirir. Dil tələffüz olunan, oxunan və eşidilən nitq kimi müxtəlif formalarda təzahür etsə də, yenə, əsasən, səslərlə reallaşır (1, s. 15-26). Ayrılıqda danışıq səsləri müstəqil mənaya malik olmasa da, onların birləşərək əmələ gətirdiyi səs kompleksləri müəyyən məna ifadə edir. Əks təqdirdə, sözlərin və qrammatik kateqoriyaların müxtəlif mənaları yarana bilməzdi. Əslində fonetikanı dilçiliyin bir müstəqil şöbəsi kimi əsaslandıran da onun insanın ifadə etdiyi ictimai xarakterli, söz əmələ gətirən, qrammatik forma yaradan səslərdən bəhs etməsidir.

Məlumdur ki, Azərbaycan dili üzrə fənn kurikulumunda məzmun şagirdlərdə formalaşdırılması vacib bilinən standartlar - bacarıqlar şəklində verilmişdir. Yəni ibtidai sinif müəllimi hər bəhsin tədrisi sonunda şagirdlərdə hansı dil bacarıqlarını görməli olacağını əvvəlcədən bilir, işini ona görə planlaşdırır, atacağı addımların ardıcıllığını müəyyənləşdirir, hazırladığı tapşırıqları, verəcəyi sualları – bir sözlə, istifadə edəcəyi metod və vasitələri bu istiqamətdə seçir.

Fənn kurikulumunda ibtidai təhsil pilləsi (I-IV siniflər) üzrə ümumi təlim nəticələrində göstərilir ki, ibtidai təhsilin sonunda şagird: "sərbəst, düzgün, sürətlə, şüurlu, ifadəli oxuyur və savadlı yazır;...lüğətlərdən, məlumat kitablarından, kataloqlardan istifadə edir". Qeyd olunanlar ibtidai sinif şagirdlərinin nitqinin inkişafı üçün fonetik bacarıqların formalaşdırılması zəruriliyini bir daha sübut edir. Belə ki, səs və hərfləri tanımadan sərbəst, düzgün, sürətlə, şüurlu oxumaq, savadlı yazmaq; əlifba sırasını bilmədən lüğətlərdən, məlumat kitablarından, kataloqlardan asanlıqla istifadə etmək və s. mümkün deyil. Azərbaycan dili üzrə fənn kurikulumunda sinifdən-sinfə keçdikcə bacarıqların formalaşdırılmasında varislik və perspektivlik gözlənilmişdir. II-III siniflərdə təkrarlanan alt standartlar (məsələn: 4.1.3. Rast gəldiyi yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün lüğətdən istifadə edir) üzrə inkişaf isə sinifdən-sinfə keçdikcə şagirdlərə təqdim olunan orfoqramların daha da mürəkkəbləşdirilməsi (yəni daha mürəkkəb səs-hərf tərkibinə malik olan sözlərin təqdim edilməsi) yolu ilə həyata keçirilir.

İbtidai təhsilin sonunda şagird yaş həddinə uyğun fonetik biliklərə yiyələndiyini, fonetik qaydaları mənimsədiyini şifahi nitqində, oxu və yazısında nümayiş etdirməlidir. Şagirdlərin əldə etdikləri fonetik biliklərin onların şifahi və yazılı nitqə yiyələnməsindəki rolunu təhlil edərək aşağıdakı nəticələrə gəlirik:

a) məhz fonetik biliklərə istinad edərək savad təlimi dövründə I sinif şagirdləri oxu və yazıya yiyələnirlər;

b) fonetik biliklər sözlərin düzgün tələffüzünün əsasını təşkil edir: sözdə səslərin düzgün tələffüzü, vurğunun düzgün qoyulması, ahəng qanunun, orfoepik normaların gözlənilməsi və s.;

c) fonetik biliklər morfoloji və leksik biliklərlə birlikdə şagirdlərdə bir sıra orfoqrafik vərdişlərin yaranması üçün baza rolunu oynayır

(məsələn: söz köklərində qoşa kar və qoşa cingiltili samitlərin düzgün yazılması);

d) fonetik biliklər cümləyə şüurlu şəkildə intonasiya vermək, cümlənin strukturunda məntiqi vurğunu, fasiləni gözləmək baxımından vacibdir;

e) sözün səs tərkibini bilmək onun mənasını dərk etmək və nitq praktikasında məqamına görə yerli-yerində istifadə etmək baxımından zəruridir. Çünki, sözün səs tərkibinin təhrifi və ya vurğunun düzgün qoyulmaması sözün tamamilə başqa məna ifadə etməsinə səbəb ola bilər (*şəhid - şahid, mətn - mətin, əsir - əsr, əsil - əsl, yazdır`-yaz`dır və s.).*

Mənasına görə *şəhər-səhər, daxıl-taxıl, atlaz-atlas, tərs-dərs, qəlb-qəlp* və s. kimi paronimlərin fərqləndirilməsi şagirdlər tərəfindən kar və cingiltili samit cütlüklərinin tanınması ilə sıx bağlıdır.

ə) məlumdur ki, nitq mədəniyyəti danışıq və yazı zamanı digər normalarla (üslub normaları, leksik və qrammatik normalar, nitqin etik normaları və s.) yanaşı, orfoepik və orfoqrafik qaydaları gözləməkdir. Yəni nitq mədəniyyətinə yiyələnmək üçün dilin leksik və qrammatik qayda-qanunları ilə birgə, fonetik (orfoepik və orfoqrafik) qayda-qanunlarını bilmək və nitq prosesində onlara əməl etmək zəruridir. Deməli, düzgün tələffüz uğrunda mübarizə ümumi nitq mədəniyyəti uğrunda mübarizədir. Bu baxımdan "Səslər və hərflər" mövzusu şagirdlərin şifahi və yazılı nitq mədəniyyətinin təkmilləşməsinə (səslərin dəqiq artukulyasiyası və yazıda müvafiq hərflə işarələnməsi, sözlərin səs və hərf (heca) ötürmədən, əlavə etmədən, əvəzləmədən düzgün tələffüzü və yazılışı, diksiyanın inkişafı və s.) istiqamətlənməlidir.

Fonetikanın tədrisi prosesində sait və samitlərlə bağlı müəyyən biliklər əldə etdikdən sonra ibtidai sinif müəllimi şagirdlərin nitqini inkişaf etdirmək məqsədilə aşağıdakı çalışma növlərindən istifadə edə bilər:

a) Söz əvvəlində samiti dəyişməklə yeni sözlərin tərtibi. Məsələn: *tərs-dərs, don-ton, dələ-tələ, dava-tava, kənd-qənd, qələm-kələm, zaman-saman, səhər-zəhər,saxta-şaxta* və s.;

b) Söz sonunda samiti dəyişməklə yeni sözlərin tərtibi. Məsələn: *az-as, od-ot, yad-yat, at-ad, ac-aş-aç, qəlb-qəlp, atlaz-atlas, boz-boş, bağ-bax, tərz-tərs, qab-qap* və s.

c) Söz ortasında samiti dəyişməklə yeni sözlərin tərtibi: *dələ-dərə-dəvə-dəyə-dənə, bələ-bəbə, para-paya, oraq-oyaq, qarış-qayış, qarmaq-qaymaq, atlı-adlı* və s. Samitlər üzrə aparılan iş zamanı kar-cingiltili cütlüyünün əvəzlənməsi ilə bağlı tapşırıqlar daha səmərəli olub səsin aydın tələffüz olunmasının vacibliyini önə çəkir, oxşar səslərin fərqləndirilməsi bacarığını inkişaf etdirir.

ç) Söz ortasında saitlərin əvəzlənməsi ilə müşayiət olunan tapşırıqlar. Saitlərin miqdarı az olduğundan və onlar söz daxilində bir-birini müvafiq şəkildə əvəz edə bildiyindən belə iş priyomu uşaqları cəlb edir və fəallaşdırır. Məsələn: *gəl-göl-gül-gil, şar-şor-şər-şir, bağ-boğ-bığ-buğ, döz-duz-düz-diz, kül-kal-kəl-kol, şahid-şəhid, söz-süz-saz-siz-sez* və s.

d) Verilmiş sözlərə səs əlavə edərək yeni sözlər düzəltməklə bağlı tapşırıqlar da səsdən istifadəyə məsuliyyətli münasibət tərbiyə edir. Məsələn:

ar	al	un	ək	az	ox
ara	bal	yun	çək	yaz	tox
dara	bala	oyun	içək	ayaz	toxu
daraq	balaq	boyun	çiçək	dayaz	toxum

e) Verilmiş sözdəki hər bir hərflə başlayan yeni sözlər tapmaq. Məsələn:

gimnastika - ***g****ilas,* ***i****tburnu,* ***m****oruq,* ***n****ovud,* ***a****lbalı,* ***s****arıkök,* ***t****ilov,* ***i****ydə,* ***k****lub,* ***a****nbar* və s.

İbtidai məktəbdə səslə bağlı təşkil olunan bu cür semantik tapşırıqlar səsin fonematik mahiyyətini dərindən dərk etməyə, sözdə yaranan məna dəyişikliyinin izahı isə uşaqların lüğət ehtiyatını zənginləşdirməyə kömək edə bilər.

Nitq inkişafı üzrə aparılan işlərin istiqamətlərindən biri də orfoepik normaları gözləməklə bağlıdır. İbtidai məktəbdə saitlər, samitlər və qrammatik formalarla bağlı aşağıdakı orfoepik qaydalar öyrədilməlidir:

- Saitlərin tələffüzünə dair qaydalar:

a) bəzi sözlərdə saitlərin uzun tələffüzü. Müəllim şagirdlərə başa salmalıdır ki, bəzi sözlərdə saitlərin uzun deyil, adi kəmiyyətdə tələffüz olunması sözdə məna təhriflərinə səbəb ola bilər. Məsələn: *sə:rin* (mülayim hava) - *sərin* (paltarı sərmək), *də:rin* (*dayaz* sözünün antonimi) – *dərin* (*dərmək* felinin əmr şəkli) və s.;

b) *ətir, qədir, isim, cisim, burun, ömür, ağıl, oğul, fəsil, şəkil, zehin* və s. kimi sözlərə

saitlə başlanan şəkilçi artırılarkən ikinci hecada qısa tələffüz olunan *ı, i, u, ü* saitlərinin tələffüz və yazıda düşməsi.

- Qoşasaitli sözlərin tələffüzünə dair qaydalar:

a) müxtəlifcinsli qoşasaitli sözlərin əksəriyyətinin tələffüzü zamanı saitlərin arasına *y* samitinin artırılması (*dairə - /da-yirə/, məişət - /məyi-şət/*);

b) eynicinsli qoşasaitli sözlərin tələffüzündə saitlərdən birinin uzanaraq tələffüz olunması (*camaat - /cama:t/, mətbəə - /mətbə:/* və s.).

- Samitlərin tələffüzünə dair qaydalar:

a) ikihecalı sözlərin sonunda *q,b,d,c,g,z* samitlərinin karlaşaraq tələffüz olunması (III sinifdə "Sözün sonunda bəzi samitlərin tələffüzü" başlığı altında verilir);

- Qoşasamitli sözlərin tələffüzünə dair qaydalar:

a) sözlərdə eynicinsli qoşa samitlərin tələffüzü (*xətt- /xət/, səviyyə- /səviyə/*);

b) iki kar samitin yanaşı gəldiyi hallarda tələffüz (*xəstə- /xəsdə/, məftil -/məfdil/*);

c) cingiltili və kar samitin qoşalaşdıqda tələffüzü (*avtobus/aftobus/, nöqtə /nöktə/*);

ç) üç samitin yanaşı gəldiyi hallar (*sədrlik -/sədirrik/, sərbəstlik -/sərbəslik/*);

e) söz sonunda kar samitlərdən sonra *t* səsinin ayrılıqda və samitlə başlanan şəkilçi əlavəsindən sonra dəyişməsi (*artist-/artislik/, dostluq-/dosluq/, neftçi-/nefçi/*);

ə) söz ortasında *nb* hərfbirləşməsinin *mb* ilə əvəzlənməsi (*şənbə-/şəmbə/*) və s.;

- Bəzi qrammatik formaların tələffüzünə dair qaydalar:

a) -la^2, *-laş*^{2}, *-dan*^{2}, *-lar*^{2} şəkişçilərinin orfoepiyasının orfoqrafiyasından fərqlənməsi *(başla - /başda/, cavanlaş-/cavannaş/, ondan - /onnan/, narlar -/ narrar/);*

b) y samiti ilə başlayan şəkilçidən əvvəl söz köklərində açıq saitin müvafiq qapalı saitlə əvəzlənməsi (*meşəyə - /meşiyə/, yaşayır – /yaşıyır/*);

c) indiki zamanın inkarında səs və heca düşümünün baş verməsi (*gəlməyir - /gəlmir/*);

ç) *-mış*^{4} şəkilçisinin nəqli keçmişin II şəxsində səs düşümü (eliziya) hadisəsinə məruz qalması (*yazmışsan - /yazmısan/*);

e) qəti gələcək zamanda I şəxsin təkində səs və heca düşümünə rast gəlinməsi (*oxuyacağam - /oxuyacam/*).

Şagirdlər orfoepik qaydaları elmi-praktik şəkildə şüurlu təlim yolu ilə öyrənməklə ədəbi tələffüzün sosial-ictimai mahiyyətini dərk edir və orfoepik normalara uyğun danışmağa cəhd edirlər.

Heca bəhsinin tədrisi zamanı nitq inkişafı ilə bağlı müəyyən işlərin görülməsi üçün də imkanlar yaranır. Məsələn, II sinifdə şagirdlərə heca ilə əlaqədar aşağıdakı çalışmalardan verməklə, paralel olaraq nitqlərini də inkişaf etdirmək olar:

1) Müəllimin söylədiyi hecaya, müxtəlif hecalar qoşmaqla sözlər düzəltmək (***qa**-nad, **qa**-paq, **qa**-zan, **qa**-yış, **qa**-tar, **qa**-raçı, **qa**-şıq, **qa**-bıq, **qa**-tıq, **qa**-lıq, **qa**-yıq, **qa**-mış* və s.);

2) Lüğətdən tərkibində müəyyən sayda (iki, üç, dörd) heca olan on meyvə (tərəvəz, geyim, mebel və s.) adlarını seçib yazmaq;

3) Verilmiş sözü hecalara ayırmaq və ayrılmış hər bir hecadan ayrıca söz düzəltmək (***sə-mə-ni**: **sə**bət, **mə**lək, **Ni**gar; **ba-ra-ma**: **ba**lıq, **ra**dio, **ma**şın*);

4) Sözdə hecaların yerini dəyişməklə yeni söz düzəltmək (*kisə-səki, palto-topal, nəmə-məna, Aygün-Günay, Aynur-Nuray, parça-çapar, zirvə-vəzir* və s.);

5) "Mağazadan" (didaktik oyun) yalnız adında ***ma*** hecası olan əşyaları almaq (***ma**şın, **ma**ral, da**ma**, qra**ma**fon, **ma**la, xa**ma**, **ma**karon* və s.);

6) Verilmiş əşya şəkillərini adındakı hecaların sayına görə qruplaşdırmaq və yalnız üçhecalı (birhecalı, ikihecalı) sözləri cümlədə işlətmək;

7) Hecalarının sayı yazılışına və deyilişinə görə fərqlənən sözlər tapıb cümlədə işlətmək (məsələn: *rəhmli, müalicə, camaat, təəssüf, müəllim və s.*);

8) Şagirdlərə cüt şəkillər paylanır (məsələn: **l**imon və **a**lma), həmin şəkildəki əşya adlarının baş hərflərindən heca qurmaq (***la***) və həmin heca ilə başlayan (və ya bitən) sözlər yazmaq tapşırılır (***la**lə, **la**vaş, **la**borant, **la**zer, **la**ma, **la**yihə; ba**la**, ça**la**, ta**la**, qa**la**, xa**la***).

Tələffüz zamanı sözdə vurğunun düzgün qoyulmaması ədəbi tələffüz normalarının pozulmasına səbəb olur. İbtidai sinif müəllimi şagird-

lərə tələffüz prosesində vurğunu düz qoymağı öyrətmək məqsədilə bir sıra tapşırıqlar tərtib edə bilər:

Çalışma. Verilmiş sözləri ucadan oxuyub vurğunun hansı heca üzərinə düşdüyünü müəyyənləşdirin. Həmin sözləri cədvəlin müvafiq xanalarına yerləşdirin (vurğusu 1-ci hecaya düşən sözlər, vurğusu 2-ci hecaya düşən sözlər,...).

Vurğunun fonematik vəzifə daşıma funksiyasından istifadə etməklə ibtidai sinif müəllimi şagirdlərin lüğət ehtiyatını zənginləşdirə, cümlə qurmaq bacarıqlarını məşq etdirə, təfəkkürünü inkişaf etdirə bilər. Məsələn, aşağıdakı çalışmaya diqqət yetirək:

Çalışma. Verilmiş sözlərdə vurğunun yerini dəyişməklə sözün mənasında baş verən dəyişikliyi izah et. Vurğunu sözdə əvvəl birinci, sonra ikinci hecaya salaraq hər iki variantda cümlədə işlət.

Əkin, vurma, yığın, biçin, səpin, bağlama, yayma, gəlmə, azdır, yazdır, güldür, mindir.

Ahəng qanununun tədrisi zamanı nitq inkişafı məqsədilə ibtidai sinif müəllimi aşağıdakı növ çalışmalardan istifadə edə bilər:

1) Lüğətdən müxtəlif qalın (və yaxud müxtəlif incə) saitlərin bir-birini izlədiyi sözlərin seçilib yazılması (*Emin, vətənimiz, Fəridə, bacılar, Hüsniyyə, dayı*);

2) Lüğətdən eyni incə və ya eyni qalın saitin bir-birini izlədiyi sözlərin seçilib yazılması (*İlkin, üzümçülük, şirinlik, tərəvəz* və s.), (*Ramazan, qaramal, tumurcuq* və s.);

3) Mətndən ahəng qanununa tabe olmayan sözlərin seçilib cümlədə işlədilməsi;

4) Verilmiş sözlərdən eyni incə saitli sözləri seçib I sütuna, eyni qalın saitli sözləri II sütuna, müxtəlif incə saitli sözləri III sütuna, müxtəlif qalın saitli sözləri IV sütuna yazmaq

5) Verilmiş söz köklərinə şəkilçilər əlavə edib nümunəyə uyğun olaraq cədvəli doldurmaq.

Sirr, nəğmə, səbəb, əzm, tələb, xəstə, təmiz, məsləhət, ev, hökm

Söz	Ahəng qanununa tabe olan söz	Ahəng qanununa tabe olmayan söz
qayğı	qayğılı	qayğıkeş
xəstə	xəstəlik	xəstəxana

"Əlifba" mövzusunun tədrisi zamanı nitq inkişafı məqsədilə ibtidai sinif müəllimi aşağıdakı növ çalışmadan istifadə edə bilər: Şagirdlərə lüğətdən müəyyən sayda əşya adı seçib, adlarının baş hərfinə görə (ikinci hərfinə görə, son hərfinə görə) əlifba sırası ilə düzmələrini tapşıra bilər. Bu tipli çalışmalar şagirdlərin nitq və təfəkkürünün inkişafında əhəmiyyətli rol oynayır.

Problemin elmi yeniliyi: Məqalədə fonetik biliklərin öyrədilməsi zamanı ibtidai sinif şagirdlərinin nitqinin inkişaf etdirilməsi məqsədilə görüləcək işlərin məzmunu araşdırılmış, tətbiqi səmərəli ola biləcək metod və vasitələr təklif edilmişdir.

Problemin nəzəri və praktik əhəmiyyəti: Məqalə sinif müəllimlərinə fonetik məfhumların öyrədilməsi zamanı şagirdlərin nitqini inkişaf etdirmək məqsədilə görüləcək işlərin məzmununu, forma və metodlarını daha da təkmilləşdirmək baxımından praktik istiqamət verə bilər.

Ədəbiyyat:

1. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili. Bakı: Maarif, 1984.
2. Kərimov Y.Ş. Ana dilinin tədrisi metodikası. Bakı: Nasir, 2003.
3. Львов М.Р. Речь младших школьников и пути ее развития. М.: Просвещение, 1975.

E-mail: maya0866@gmail.com
Rəyçi: *ped.ü.fəls.dok., dos.***P.Ş. Paşayeva**
Redaksiyaya daxil olub: 04.01.2019

UOT 37.01.

Samirə Mürvət qızı Həsənova
fəlsəfə doktoru proqramı üzrə doktorant
Azərbaycan Respublikası Təhsil İnstitutu

ORFOQRAFİK-ORFOEPİK BAXIMDAN ÇƏTİN SÖZLƏR ÜZƏRİNDƏ İŞİN ŞAGİRDLƏRİN YAZI BACARIQLARININ İNKİŞAFINDA ROLU

Самира Мурват гызы Гасанова
докторант по подготовке доктора философии
Институт Образования Азербайджанской Республики

РОЛЬ РАБОТ НАД ТРУДНЫМИ СЛОВАМИ В РАЗВИТИИ ПИСЬМЕННЫХ УМЕНИЙ УЧЕНИКОВ С ОРФОГРАФИЧЕСКИ-ОРФОЭПИЧЕСКОЙ ТОЧКИ ЗРЕНИЯ

Samira Murvat Hasanova
doctorial student in the proqramme of a Ph.D
Institute of Education of the Republic of Azerbaijan

THE ROLE OF WORKING ON DIFFICULT WORDS FROM THE ORTHOGRAPHIC-ORPHOEPIC POINT OF VIEW IN THE DEVELOPMENT OF PUPILS' WRITING SKILLS

Xülasə: Məqalədə ibtidai sinif şagirdlərinə çətin sözlərin öyrədilməsi, onların yazı bacarıqlarının inkişaf etdirilməsi, bu proseslərin təşkili zamanı orfoqrafiya və orfoepiyanın rolunun müəyyənləşdirilməsi kimi məsələlər ön plana çəkilmişdir. Müəllif kiçikyaşlı məktəblilərin lüğət ehtiyatının artırılması yollarını araşdırmışdır. Həmçinin, işin səmərəli təşkili məqsədilə diqqət yetirilməli məqamları sistemləşdirərək təqdim etmişdir.
Açar sözlər: *çətin sözlər, orfoqrafiya, orfoepiya, leksika, tapşırıq, şagird, lüğət*

Резюме: В статье выдвинуты такие вопросы как обучение школьников трудным словам, развитие их письменных способностей, определение роли орфографии и орфоэпии в организации этих процессов. Автор проанализировал пути обогащение словарного запаса школьников младших классов. Также систематизированы и представлены моменты выполнение эффективной организации работы.
Ключевые слова: *трудные слова, орфография, орфоэпия, лексика, задание, ученик, словарь*

Summary: Problems of traning of difficult words, students of primary schools, development of their writing abilities, determination of the role orthography and orthoepy in the organization of these processes have been forehead in the article. The author analized the ways of enrichment of vocabulary of pupils of primary schools. The moments of the effective organization of the work performation have been systematized and presented here too.
Key words: *difficult words, orthography, orthoepy, lexicon, exercise, pupil, vocabulary*

Söz düşüncələrin ifadəsi, davranışların təsviri və təcrübələrin hafizədə toplanmasıdır. "İnsanın bilgisinin, mədəniyyətinin və düşünmə qabiliyyətinin hüdudu bildiyi kəlmələrin miqdarı ilə sərhədlənir" (4). "Fərdin istifadə etdiyi sözlərin cəmi" (6) və ya "öyrənənin təhsil aldığı müddətdə qazandığı təcrübə sayəsində formalaşmış söz bazası" (5), lüğət ehtiyatının zənginliyi insana ətraf aləmi, obyektləri, hadisələri, prosesləri daha geniş baxış bucağından görməyə zəmin yaradır. Sözlər müxtəlif məna və məzmun daşımaqla düşüncə zəncirinin halqalarını formalaşdırır. Uşağın lüğət fondundakı kəlmələrin kəmiyyəti və keyfiyyəti onun qazanacağı nailiyyətlə birbaşa əlaqəlidir. Sözlərin dərinliyi (hər bir sözün müxtəlif mənalarını bilmək; mək-

təb təcrübəsinin araşdırılması bu istiqamətə digərləri ilə müqayisədə daha çox laqeydlik göstərildiyini üzə çıxarmışdır), genişliyi (müxtəlif mövzular üzrə çox söz bilmək), ağırlığı (konkret bir mövzu üzrə çox söz bilmək) istiqamətlərində iş aparılması məktəblinin mövcud bazasını daha da zənginləşdirməyə hesablanmışdır.

Şəxsiyyət üçün zəruri hesab edilən lüğət fondu məktəbəqədər dövrdə yaranır, ümumtəhsilin ilk səviyyəsindən başlayaraq Azərbaycan dili dərslərində sistemli fəaliyyət nəticəsində formalaşır, yuxarı siniflərdə isə təkmilləşir. Bu proses yeni sözlərin mənimsədilməsi fonunda təşkil olunur. Kiçikyaşlı məktəblilərə çətin sözləri öyrədərkən orfoqrafik-orfoepik istiqamət üzrə işlərin düzgün təşkilinə xüsusi diqqət yetirilməlidir. Çünki uşaq hansısa kəlmənin mənasını bilməsə də, onu əvvəlcə eşidərək hafizəsində saxlayır və dinlədiyi kimi yazıda ifadə etməyə çalışır. Təbii ki, şagird orfoqrafik və orfoepik qaydalara lazımi qədər (Azərbaycan dili fənn kurikulumu çərçivəsində) bələd deyilsə, yeni sözün yazılışını və tələffüzünü eyniləşdirir.

Hər bir ədəbi dilin inkişafında dəqiq müəyyənləşdirilmiş orfoqrafiya və orfoepiya qaydalarının xüsusi əhəmiyyəti vardır. Dövrünün məşhur alimi, praktik ingilis dilinin qrammatiki C. Qrinvud (James Greenwood, 1753-1828) orfoqrafiyanı "düzgün yazmaq sənəti", amerikalı naşir, pedaqoq Y. Kaminqs (Jakob Abbot Cummings, 1773-1820) "hecaları və sözləri hərflər vasitəsilə ifadə etmək sənəti", ingilis mənşəli amerikalı tədqiqatçı A. Ray (Albert Robinson Ray, 1870-1946) isə "hərflərin təbiətini, gücünü və yazı qaydalarını öyrədən elm" adlandırırdı (1). Müasir dilimizin orfoqrafiyası danışıq dili əsasında qurulduğundan bir sıra orfoqrafiya qaydaları eynilə orfoepiya üçün də keçərlidir (3, s. 7). Məhz bu səbəbdən kiçikyaşlı məktəblilərə çətin sözlər mənimsədilərkən orfoqrafiya və orfoepiyaya eyni dərəcədə diqqət göstərilməlidir. Həmin istiqamətlərdə aparılan işlərin paralel şəkildə tənzimlənməsi daha məqsədəuyğundur. Müəllim ibtidai sinif şagirdlərinə çətin sözləri orfoqrafik-orfoepik baxımdan mənimsətməklə onlarda savadlı nitq vərdişləri, o cümlədən, mükəmməl yazı bacarıqları formalaşdıra bilir. Qısa vaxt ərzində kiçikyaşlı məktəblilərə sözün yazılışını, deyilişini necə öyrətmək olar sualını konkret formada cavablandırmaq mümkünsüzdür, çünki proses xaraktercə mürəkkəb və uzunmüddətlidir, müəllimdən səbir, təmkin, pedaqoji texnologiyaların ən mükəmməl manipulyasiyasını tələb edir. Deməli, belə situasiyada optimal nəticəni qısa zaman kəsiyində almaq pedaqoqun imkanı xaricindədir. Əlbəttə, iş düzgün qurulduqda, yazı bacarıqlarının qazanılmasında müəyyən irəliləyişlər əldə etmək mümkündür, lakin davamlı və uğurlu nəticəyə nail olmaq üçün uzun müddət lazımdır. Prosesin təşkilinin üç mərhələdə həyata keçirilməsi işin səmərəliliyinin yüksəlməsinə töhfə verə bilər:

Uşaqlara tanış olmayan kəlmələri mənimsətməyin ilk mərhələsi leksik işin aparılmasından ibarətdir. Sözlərin mənasını açıqlamaq üçün müxtəlif üsullar mövcuddur. Prosesin gedişatında müəllimin rəngarəng metod və texnikalardan yararlanması daha faydalıdır. Ən çox tətbiq edilən və səmərəli hesab olunan metodlar barədə qısa məlumat verək.

Sözə aid əşya, hadisə və ya şəklin nümayişi – uşaqlar həmin obyektə baxır, onunla bağlı söz deyir, mənasını müəyyənləşdirir və fərqləndirici xüsusiyyətlərini sadalayırlar.

Leksik iş prosesində tapmacalardan yararlanmaq da faydalı və maraqlıdır: şagirdlər tapmacanı dinləyir, açmasını təxmin edir, cavabın düzgünlüyünü sübuta yetirirlər.

Mənimsədilən söz mətn daxilində elmi və bədii təsviri, əlamətləri, xarakterik xüsusiyyətləri verilməklə də təqdim oluna bilər. Mətnin analizi müəllimə yalnız leksik iş aparmaqda deyil, həmçinin ətraf aləmlə əlaqəli zəruri məlumatları şagirdlərə ötürməkdə, onların elmi-idraki, bədii-yaradıcı təfəkkürünü zənginləşdirməkdə yardım göstərir.

Uşaqlara çətin sözü mənimsətməyin ikinci mərhələsi orfoqrafik, orfoepik çalışmaların verilməsindən, etimoloji təhlilin aparılmasından ibarətdir. Şagirdlərə təklif edilir ki, seçilən kəlmənin və ya ifadənin (məsələn, ayaqqabı – ayaq-qabı) tərkibindəki səsləri diqqətlə dinləsinlər, hərfləri müəyyənləşdirsinlər. Növbəti periodda müəllim sözdəki hərflərdən ikisini (sözün quruluşca növündən asılı olaraq bəzən üçünü) buraxmaqla lövhədə yazır. Kiçikyaşlı məktəblilər həmin orfoqramları tamamlamağa çalışırlar. Onunla eyniköklü sözləri müəyyənləşdirməklə tapşırığın çətinlik dərəcəsini artırmaq mümkündür. Beləliklə, uşaqlara yeni kəlmələri mənim-

sətmək və şagirdlərin lüğət ehtiyatını genişləndirmək olar. Öyrənənlərə lüğətçə hazırlamağı, naməlum hesab etdikləri sözləri orada qeyd etməyi, orfoqrafik-orfoepik baxımdan çətinlik törədən səs və ya hərflərin altından xətt çəkməyi tapşırmaq da işin keyfiyyətini yüksəltməyə hesablanmışdır. Prosesin davamı kimi etimoloji təhlil (analiz) aparıla bilər. Həmin kəlmələr müxtəlif üsullarla təkrarlanmalıdır ki, hafizədə tam möhkəmlənsin.

Sadalananlarla yanaşı, çətin sözlərin orfoqrafik-orfoepik baxımdan mənimsədilməsində imla xüsusi əhəmiyyətə malikdir. Müəllimin kiçikyaşlı məktəblilərin marağını cəlb edən rəngarəng, çoxçeşidli imla növlərindən (şəkilli, görmə, kommentarili (izahlı), xəbərdarlıqlı, izahatlı, müəyyənləşdirici, seçmə, yaradıcı, yaddaşa əsaslanan, tapmacalı, boşluqlu imla və s.) yararlanması tövsiyə olunur.

İbtidai sinif şagirdlərinə yeni sözü mənimsətməyin üçüncü və yekun mərhələsi pedaqoqdan daha böyük məsuliyyət və diqqət tələb edir. Çünki kiçikyaşlı məktəblilər bu periodda həmin kəlmələrdən müstəqil şəkildə istifadə etmək, faydalanmaq bacarığı qazanırlar.

Verilən mövzu əsasında qısa mətn qurmaq mövcud vəziyyət üçün ən optimal tapşırıq növlərindəndir. Tematikanın müəyyənləşdirilməsi mənimsədiləcək sözlə birbaşa əlaqədar olmalıdır. Məsələn: bayraq, cümhuriyyət, təqsirkar və s. Mövzuların adı siniflər üzrə qruplaşdırılmış çətin sözlər siyahısından, kiçikyaşlı məktəblilərin mütəmadi şəkildə yenilədiyi, əlavələr etdiyi şəxsi lüğətçələrindən də götürülə bilər. Burada həssas bir məqama mütləq ayrıca diqqət yetirilməlidir: ibtidai sinif şagirdlərinin spesifik xüsusiyyətləri, həmçinin çətin söz anlayışının nisbiliyi lüğətlərin tərkibində müəyyən fərqlər yaratdığından pedaqoq prosesin səmərəli şəkildə həyata keçirilməsi məqsədilə siyahılarda üstünlük təşkil edən kəlmələri, ifadələri seçməlidir.

Kiçikyaşlı məktəblilərə müəyyən əşya və ya hadisə ilə əlaqədar suallar ünvanlamaq, göstərişlər vermək də çətin sözlərin mənimsədilməsinə köməklik göstərən tapşırıq növlərindəndir. Belə tipli çalışmalar hazırlanarkən uşaqların maraqları, meyilləri nəzərə alınmalıdır. Yalnız bu zaman tapşırıq materiallarının (suallar və göstərişlər) keyfiyyətindən və səmərəliliyindən danışmaq mümkündür. Məsələn: "Rəssam olsaydın, ömür boyu qu quşu görməyən insana onu necə təsvir edərdin?". "Çinar ağacını nə üçün sevirsən?", "Açması "kəlbətin" olan tapmacanı necə düzəldə bilərsən?", "Azərbaycanın təbiətinə dair krossvord hazırla." "Rəndə nədir?", "Penal sözü ilə əlaqədar nə düşünürsən?", "Bayrağımız haqqında danış." və s.

Çətin sözlərin orfoqrafik-orfoepik baxımdan öyrədilməsi bir dərslə məhdudlaşmayan, təlimin hər mərhələsində davam edən prosesdir. Yeni və ya tanış olmayan kəlmələrin uşaqların aktiv lüğət fondunda möhkəmlənməsi, təkrarən istifadə edilməsi uzun müddəti əhatələyir. Bu səbəbdən çətin sözlərin mənimsədilməsi prosesi müəyyən məntiqi çərçivədə tənzimlənməlidir. Şagirdlərə öyrədilmək üçün seçilən kəlmələr və onların sayları öncədən dəqiqləşdirilməlidir. Əks təqdirdə aparılan iş öz əhəmiyyətini itirə bilər. Dünya təcrübəsinə görə 45 dəqiqəlik dərs ərzində məktəblilərə orta hesabla 5-10 çətin söz mənimsətmək mümkündür, daha doğrusu, reallığa uyğundur. Bəzən (pedaqoji-psixoloji şərait imkan verdikdə: sinfin nailiyyət və inkişaf səviyyəsi, maraq dairəsi və s.) yuxarıda göstərilən sayı aşmaq (maksimum 20-30 söz) istisna deyil. Lakin nəzərə almaq lazımdır ki, öyrədilən kəlmələr şagirdlərin yalnız aktiv lüğət fonduna daxil olarsa, tam mənimsədilmiş hesab edilir. Ümumiyyətlə, müəllim çətin sözlərin öyrədilməsi alqoritminin pozulmamasına ciddi səy göstərməli, onu nəzarətdə saxlamalıdır. Pedaqoq, yeri gəldikcə, şagirdlərə lüğətçələrindəki kəlmələri söz birləşmələrində, cümlədə, mətn daxilində işlətməyi tapşırmalı, mənanın, yazılış və tələffüzün düzgünlüyünün qorunmasına diqqət yetirməlidir. Çətin sözlərin nitqdə möhkəmlənməsi üçün dərslikdəki, əlavə vəsaitlərdəki dil materiallarından, mətnlərdən, sinonimlərdən, antonimlərdən, frazeoloji vahidlərdən, zərb-məsəllərdən, atalar sözlərindən, tapmacalardan faydalanmaq mümkündür.

Orfoqrafiya və orfoepiya üzrə aparılan işlərin sinifdənxaric məşğələlərdə də davam etdirilməsi tövsiyə olunur. Seçilən çətin söz, həmçinin onunla əlaqəli tematik qrup (ağaclar, tərəvəzlər, heyvanlar, quşlar, təbiət hadisələri) şagirdlərin diqqətini çəkən çalışmalar vasitəsilə hafizədə möhkəmləndirilə bilər. Sözün leksik qrupu üzrə iş də faydalıdır. Belə məşğələlərin təşkili zamanı müəllimin rəhbərliyi altında ki-

çikyaşlı məktəblilərin şəxsi linqvistik lüğətçələrinin hazırlanması keyfiyyətli nəticənin əldə olunmasına zəmin yaradır.

Bütün bunlarla yanaşı, şagirdlərə orfoqrafiya və orfoepiya lüğətlərindən istifadə etmək vərdişlərini aşılamaq lazımdır. "Orfoqrafiya-orfoepiya" lüğəti onların stolüstü kitabına çevrilməlidir (2).

Orfoqrafiya və orfoepiya üzrə aparılan işlərin təşkili zamanı aşağıda sadalanan məqamlara diqqət yönəldilməsi zəruridir:

1) Kiçikyaşlı məktəblilərə lüğətdən istifadə alqoritmini öyrətmək;

2) Lüğət vasitəsilə ibtidai sinif şagirdlərinin söz bazasını zənginləşdirmək;

3) Şagirdlərə sözün mənasını izah etmək, məzmununu müəyyənləşdirmək bacarığı qazandırmaq;

4) Məktəblilərlə birlikdə sözün məna çalarlarını ortaya çıxarmaq və antonim, omonim, eyniköklülük münasibətlərini araşdırmaq;

5) Şagirdləri sözü təklikdə, birləşmələrin tərkibində və cümlə daxilində işlətməyə həvəsləndirmək;

6) Öyrənənlərə sözdən müstəqil şəkildə istifadə etmək bacarığı formalaşdırmaq.

Deməli, haqqında danışılan prosesi çoxmərhələli, vahid mexanizm kimi nəzərdən keçirdikdə aydın görmək olar ki, çətin sözlər üzərində orfoqrafik-orfoepik işin aparılması şagirdlərin yalnız söz bazasını dəqiqləşdirmək, aktivləşdirmək, genişləndirmək xarakteri daşımır, həm də yazı bacarıqlarının inkişafında, doğma dilimizin gözəlliklərini anlamaqda əvəzedilməz rol oynayır.

Problemin aktuallığı. Orfoqrafik-orfoepik baxımdan çətin sözlər üzərində işin ibtidai sinif şagirdlərinin yazı bacarıqlarının inkişafındakı rolunun müəyyənləşdirilməsi, kiçikyaşlıların lüğət ehtiyatının yeni kəlmələr hesabına genişləndirilməsi və artırılması yolları ilə bağlı ölkəmizdə tutarlı araşdırmalar minimal sayda olduğundan tədqiqat işi hazırda aktuallıq daşıyır.

Problemin elmi yeniliyi. Məqalədə ibtidai sinif şagirdlərinin yazı bacarıqlarının formalaşması xüsusiyyətləri və çətin sözlərin öyrədilməsində orfoqrafik-orfoepik işin əhəmiyyəti barədə geniş məlumat verilir, prosesin səmərəli təşkilinə zəmin yaradan amillər sistemləşdirilərək diqqətə çatdırılır.

Problemin praktik əhəmiyyəti. İbtidai siniflərin Azərbaycan dili dərslərində mövzu ilə bağlı aparılan müşahidələr, təşkil edilən eksperimentlər, məktəb təcrübəsinin təhlili, həmçinin elmi ədəbiyyatın araşdırılması bu istiqamətdə müəyyən boşluqların olduğunu üzə çıxarır. Tədqiqat işi mövcud çatışmazlıqların aradan qaldırılmasına hesablandığından böyük praktik əhəmiyyətə malikdir.

Ədəbiyyat:

1. Abbasov İ.Ə. Yazı qaydalarımızın kitabi-müqəddəsi – orfoqrafiya lüğəti. "Kaspi" qəz., 2017, 29 noyabr

2. Paşayev A. Azərbaycan dili və ədəbiyyatı tədrisinin bəzi problemləri: Metodik vəsait. Bakı: Hədəf nəşrləri, 2012.

3. Şirəliyev M.Ş., Məmmədov M.B. Azərbaycan dilinin orfoepiya sözlüyü (lüğəti). Bakı: Elm. 1983.

4. Hacıeminoğlu N. Türkçenin karanlık günleri. İstanbul: Türk Edebiyatı Vakfı Yayınları, 2011.

5. Özbay M., Melanlıoğlu D. Türkçe eğitiminde kelime hazinesinin önemi // Yüzüncü Yıl Üniversitesi Eğitim Fakültesi Dergisi, 2008, № 1

6. Vardar B. Açıklamalı Dilbilim Terimleri Sözlüğü. İstanbul: Multilingual Yabancı dil Yayınları, 2007.

E-mail: samiraqasanova@gmail.com
Rəyçi: *ped.ü.fəls.dok., dos.* **A.X. Hacıyev**
Redaksiyaya daxil olub: 23.11..2018.

UOT 37.018: 035

Səmra Yaşar qızı Bayramova
fəlsəfə doktoru proqramı üzrə doktorant,
Bakı Dövlət Universiteti

ANA DİLİ DƏRSLİKLƏRİNDƏ AİLƏ TƏRBİYƏSİ MƏSƏLƏLƏRİ (XIX ƏSRİN II YARISI – XX ƏSRİN ƏVVƏLLƏRİ)

Самра Яшар гызы Байрамова
докторант по программе доктора философии,
Бакинский Государственный Университет

СЕМЕЙНОЕ ВОСПИТАНИЕ В УЧЕБНИКАХ РОДНОГО ЯЗЫКА (ВТОРАЯ ПОЛОВИНА XIX ВЕКА - НАЧАЛО XX ВЕКА)

Samra Yashar Bayramova
doctorial student in the proqramme of a Ph.D
Baku State University

FAMILY UPBRINGING IN NATIVE LANGUAGE TEXTBOOKS (THE SECOND HALF OF THE XIX CENTURY – THE BEGINNING OF THE XX CENTURY)

Xülasə. XIX əsrin II yarısı və XX əsrin əvvəllərində Azərbaycan mədəni-pedaqoji mühitində bir sıra ana dili dərslikləri meydana gəlmişdir. Həmin dərsliklərdə ailə tərbiyəsi probleminə də xüsusi əhəmiyyət verilirdi. Bunula bağlı dərsliklərdə rəngarəng materiallar yer alır. Biz bu məqaləmizdə göstərilən problemin şərhini verməyə çalışmışıq. Təhlil zamanı həmin materialların o zamankı tərbiyə sistemi üçün əhəmiyyətinə xüsusi diqqət yetirmişik. Bundan əlavə təhlilə cəlb edilən əsərlərin və fikirlərin müasirliyinə də diqqət yetirməyə səy göstərmişik. XIX əsrin ikinci yarısında - XX əsrin əvvəllərində. Azərbaycan cəmiyyətində xalqın rolunun aktuallaşdırılması kontekstində ailənin humanist təhsil ənənəsi ailə təhsili ilə bağlı elmi konsepsiyaların müəyyən bir əsasını formalaşdırmağa başladı. Ana dili dərsliklərində uşaqların öyrədilməsi üçün zəruri bədii materialların seçilməsi sistemli yanaşma şəklində aparılırdı. Ailənin təhsil idealı yeni pedaqoji məqsədlərə uyğun olaraq humanist pedaqoqlar tərəfindən tərtib edilmişdir. Bu ideala cavab verən şəxs çalışqan, səxavətli, təvazökar, insan və vətəndaşın vəzifəsini yerinə yetirməyə hazır olmalı idi.

***Açar sözlər**: ana dili, dərslik, ailə tərbiyəsi, XIX-XX əsrlər, maarifçilik*

Резюме. Во второй половине XIX века и в начале XX века в культурно-педагогической среде Азербайджана был сформирован ряд учебников по родному языку. В этих учебниках придавали особое значение семейному воспитанию. В связи с этим учебники содержат красочные материалы. В статье прокомментирована проблема, упомянутая в этой статье. В ходе анализа мы уделили особое внимание важности этих материалов для тогдашней системы образования. Мы также постарались обратить внимание на современность работ и идей, связанных с анализом проблемы. Во второй половине XIX века - начале XX века, в контексте актуализации роли народа в азербайджанском обществе традиция гуманистического воспитания семьи начала формировать определенный фундамент научных концепций, связанных с семейным воспитанием. Подбор необходимых художественных материалов для обучения детей по учебникам родного языка осуществлялся в форме системного подхода. Образовательный идеал семьи был составлен гуманистами-педагогами в соответствии с новыми педагогическими целями. Человек, который отвечал этому идеалу, должен был быть трудолюбивым, щедрым, скромным, готовым выполнить задачи человека и гражданина.

***Ключевые слова:** родной язык, учебник, семейное воспитание, XIX-XX века, просвещение*

Summary. In the second half of the XIX century and at the beginning of the XX century, a number of native language textbooks were formed in the cultural and pedagogical environment of Azerbaijan. In these textbooks, special importance was attached to family education. In connection with this, these tutorials contain colorful materials. During the analysis, we paid special attention to the importance of these materials for the education system of that time. We also tried to draw attention to the current work and ideas related to the analysis of the problem. In the second half of the nineteenth century - the beginning of the twentieth century, in the context of actualizing the role of the people in Azerbaijani society, the tradition of humanistic education of the family began to form a certain foundation of scientific concepts related to family education. The selection of the necessary art materials for teaching children according to the textbooks of their native language was carried out in the form of a systematic approach. The educational ideal of the family was compiled by humanist educators in accordance with the new pedagogical goals. The person who responded to this ideal had to be hardworking, generous, modest, ready to fulfill the task of a man and a citizen.

Key words: *native language, textbook, family education, XIX-XX centuries, education.*

XIX əsrin II yarısı və XX əsrin əvvəllərində Azərbaycan ictimai-pedaqoji mühitində qabaqcıl ziyalıları, müəllim və tərbiyəçiləri düşündürən mühüm məsələlərdən biri də ailə tərbiyəsi idi. Bu millət öncülləri yaxşı başa düşürdülər ki, ailə cəmiyyətin kiçik bir hüceyrəsidir. Həmin hüceyrələr birləşib bütövlükdə cəmiyyəti, xalqı əmələ gətirir. Deməli, nəticə etibarı ilə cəmiyyətin sağlamlığı, xalqın rifahı, tərəqqisi bu hüceyrələrdən asılıdır. Əgər ailə sağlam olarsa, onu təşkil edən fərdlər hərtərəfli mənada yaxşı tərbiyə olunarsa, kamil insanlar olarsa, cəmiyyət də sağlam və xoşbəxt olar. Onun yüksəlişi də mümkün olar. Əks təqdirdə cəmiyyət tənəzzülə uğrayar, naqis xarakterə və tərbiyəyə malik ictimai fərdlər yığınına çevrilər.

Görkəmli pedaqoq A.S. Makarenko tərbiyənin məqsədindən danışarkən ailə tərbiyəsinə xüsusi önəm verirdi. Qeyd edirdi ki, bəzi ailələrdə deyilən problemə etinasızlıqla yanaşırlar. Uşaqlar və valideynlər sadəcə olaraq bir yerdə yaşayırlar. Valideynlər belə hesab edirlər ki, hər şey öz-özünə qaydaya düşəcək. Belə hallarda tərbiyənin nəticəsi də təsadüfi olur. Sonra valideynlər təəccüblənirlər ki, onların uşaqları nə üçün korlanmışdır. Halbuki nəyə nail olmaq istədiyini bilmədən heç bir işi yaxşı görə bilməzsən. A.S. Makarenko xatırladırdı ki: "Siz həmişə valideyn olduğunuzu yadda saxlamalı və bilməlisiniz ki, oğlunuzu, yaxud qızınızı yalnız öz sevinciniz üçün tərbiyə etmirsiniz. Sizin ailənizdə və sizin rəhbərliyiniz altında gələcək vətəndaş, gələcək xadim və gələcək mübariz böyüyür. Siz pis adam tərbiyə etsəniz, bunun bəlasını yalnız özünüz deyil, bir çox adamlar və bütün ölkə çəkəcəkdir" [12, s. 281].

Pedaqoqlar onu da izah edirlər ki, ailə tərbiyəsində qarşıya qoyulan məqsəd və tələblər aydın, işıqlı olmalı, sağlam düşüncəyə əsaslanmalıdır. Əks təqdirdə tərbiyə başqa, yəni xoşagəlməz nəticələrə gətirib çıxara bilər. K.D. Uşinski təsadüfi demirdi: "Əlbəttə, hər bir valideyn öz övladı üçün yaxşı şeylər arzu edir; lakin bu arzu edilən yaxşı şeylər o qədər növbənöv, bəzən isə elə bir növdə olur ki, bu tələbi təmin etmək üçün tərbiyə, uşaqların əxlaqı və gələcək taleyi ilə möhtəkirlik edən vicdansız fırıldaqçılara çevrilir" [14, c. 44].

Məqalənin məqsədi müvafiq araşdırmalar əsasında, lazımi sənədlər və elmi ədəbiyyatı cəlb etməklə ana dili dərsliklərində ailə tərbiyəsi (XIX əsrin II yarısı-XX əsrin əvvəlləri) məsələsini araşdırmaqdır.

Milli intibah dövründə ana dili dərsliyi hazırlayan pedaqoqolarımız da deyilən vacib məsələni diqqət mərkəzində saxlayır, öz dərsliklərində ailə tərbiyəsi ilə bağlı rəngarəng materiallar verirdilər. Ümumi məzmun baxımından həmin materialları iki qrupa ayırmaq mümkündür: 1. Pedaqoji məzmunlu elmi-kütləvi məqalələr; 2. Bədii mətnlər (şeir və hekayələr). Əlbəttə, bu materialların hər birinin öz vəzifələri var idi. Elmi-kütləvi məqalələrdə şagirdlər ailə, onun üzvləri, ailədaxili münasibətlər, onların qurulması yolları, ailədəki tərbiyə sistemi və ab-havası və s. barədə birbaşa izahatlar, şərhlər yolu ilə tanış olurdular. Bədii mətnlərdə isə müəyyən hadisə verilir, bu hadisə fonunda tərbiyəvi fikri şagird özü hasil edirdi. Bu hadisələr bir qayda olaraq kiçik həcmli, yığcam və həyati əhvalatlardan ibarət olurdu. Bədii mətnlərin digər bir qismi tərənnüm xarakteri daşıyır, ailədaxili münasibətlər, ailə üzvləri (ata, ana, övlad) tərən-

nüm edilirdi. Ailə tərbiyəsinin əsas motivləri şagirdlərə bu cür estetik təlqin və tərənnüm yolu ilə çatdırılırdı.

"Vətən dili" dərsliyində şeir və hekayələrdən əlavə "Bizim külfət" adlı pedaqoji məzmunlu mətn də verilmişdir [4, c. 118]. Həmin mətni müəlliflər bilərəkdən şagirdin dilindən verirlər. Şagird səmimi bir dillə öz ailə üzvləri, onlar arasındakı mehriban münasibət, ailədəki gözəl abhava, böyüklü-kiçikli hər kəsin öz yerini bilməsi, öz davranışına nəzarət etməsi, vəzifəsini layiqincə icra etməsi barədə danışır. O, elə bir saf, səmimi ailə haqqında söhbət açır ki, bu ailədə böyüyən övladın da təbii olaraq ədəbli, tərbiyəli bir insan olacağına inanırsan. Əslində müəlliflər bu cür mətnlər vasitəsi ilə şagirdlərə nəcib ailə hissləri aşılayırlar.

M. Mahmudbəyov da "İkinci il" dərsliyində eyni yolla hərəkət edir. Burada da "Bizim külfət" adlı tərbiyəvi məzmunlu məqalə yer alır [10, s.17-18]. Məqalədə şagird öz ailələri və buradakı səmimiyyət, ailədaxili münasibətlərin gözəlliyi barədə danışır. Daha sonra isə dərslikdə ailə tərbiyəsi ilə əlaqədar "Mehriban qardaş", "Ana və oğul", "Baba və nəvəsi" kimi maraqlı hekayələr verilir [10, s.19-21].

"Yeni məktəb" (M.Mahmudbəyov, A.Səhhət: 1909) dərsliyində isə "Məktəb və ailə" adlı ayrıca fəsil (I fəsil) vardır. Fəsildə bir neçə şeir və nəsr əsəri verilmişdir. Lakin nümunələrin hamısı ailə tərbiyəsinin bu və ya digər problemi ilə əlaqədardır. Həm də bütün mətnlər arasında elmi-metodiki baxımdan bir məntiqi rabitə vardır. Yəni bir bədii nümunədə deyilən fikir digərini zənginləşdirir və tamamlayır. Adı çəkilən fəsildə dərslik müəlliflərinin aşılamaq istədiyi mühüm pedaqoji mətləb həm də ondan ibarətdir ki, balalarımızın tərbiyəsində, kamil bir şəxsiyyət, layiqli vətəndaş kimi yetişməsində ailə və məktəb əlbir fəaliyyət göstərməlidir. Müsbət, işıqlı tərbiyənin təməli ailədə qoyulmalı, məktəb isə onu daha da inkişaf etdirib təkmilləşdirməlidir.

Ailə tərbiyəsində müəlliflər çox zaman uşaqlara çılpaq öyüd-nəsihət verməkdən çəkinir, nümunəvi tərbiyəçi obrazları yaradaraq öz mətləblərini şagirdlərə həmin obrazların sözlərinin və əməllərinin timsalında çatdırmaq istəyirlər. Əlbəttə, belə bir üsuldan istifadə səbəbsiz deyil. Çünki mütərəqqi pedaqoji fikir sahibləri sübut etmişlər ki, çılpaq didaktika, quru nəsihət balacaları yorur, onların ağlına və şüuruna o qədər də təsir etmir, abstrakt və faktsız görünür. Ancaq həyati əhvalatlardan, şeir və hekayələrdən yararlanmaq, tərbiyəvi fikri bunlarda tərif və ya əhvalatlar yolu ilə uşaqlara çatdırmaq həm estetik, həm də əyanilik baxımından daha effektli təsir bağışlayır.

Elə buna görə də pedaqoqlar, yazıçı və şairlər müəyyən tərbiyəvi fikrin təlqinində bədii mətnlərə daha çox üz tuturlar. Ailə tərbiyəsi mövzusunda yazılan kiçik həcmli şeir və hekayələrdə də biz ayrı-ayrı tərbiyəçi obrazları görürük: tərbiyəçi ata, tərbiyəçi ana, tərbiyəçi baba və ya nənə, tərbiyəçi bacı və ya qardaş və s. Bəzən də müsbət və ya mənfi xarakterli övlad obrazı yaradılır və onun timsalında ailə tərbiyəsinin müsbət, yaxud mənfi tərəfləri açılıb göstərilir.

Təbii ki, ailədə valideynin öz övladının tərbiyəsinin qayğısına qalması nə qədər vacib şərtdirsə, bu tərbiyədə onların şəxsi nümunəsi də bir o qədər vacib şərtdir. Valideynin danışığı, əməli, rəftarı, istər öz aralarındakı, istər başqalarına, istərsə də övladlarına qarşı münasibətlərin xarakteri dünyaya göz açıb tədricən böyüyən uşaq üçün əsl nümunə məktəbidir. Ona görə də tərbiyə nəzəriyyəçiləri həmişə ata-anaların bu işə xüsusi diqqət yetirmələrini, övladlarına müsbət mənada nümunə olmağı məsləhət görmüşlər.

Təəssüf ki, islam şərqində, o cümlədən Azərbaycanda son əsrlərdə bu məsələyə o qədər də həssaslıqla yanaşılmırdı. Ata-anaların rəftar, davranış, əməl və sözlərində kiçiklərin tərbiyəsinə mənfi təsir göstərən elementlər kifayət qədər çox idi. Şərq tərbiyə sistemində bu naqis cəhəti tənqid edən "Əkinçi" qəzeti yazırdı: "Əgər pədərləri və anaları tərəfindən kömək olmasa, yalqız məktəb çocuğu tərbiyə və mədəniyyət sahibi etməyə məqdur deyil. Əcəba, nə əfkar sahibi ola bilir bir övlad ki, gündüz axşama qədər məktəbdə oxuyub öz xanəsinə gedəndə ata və anasından fəna sözlər eşidib onların bəd əməllərinə yoldaş ola? Haşa, belə oxumaqdan bir nəf olmaz. Fəqət çox pədərlər və analar öz övladlarını tərbiyət etmədiyindən başqa onların əfkarlarına dəxi zərər gətirməyə səbəb olurlar" [5, s. 201].

Ailə başçısı kimi atanın övladların tərbiyəsində müstəsna rolu vardır. Bunu nəzərə alan ana dili dərsliklərinin müəllifləri öz kitablarına tərbiyəçi ata obrazının canlandırıldığı maraqlı

əsərlər daxil edirdilər. Bu cür nümunəvi obrazlar vasitəsi ilə onlar oxuculara övladları necə tərbiyə etmək yolunu öyrətmək məqsədi izləyirdilər. "Vətən dili"ndəki "Bağban və oğulları" [3, s. 66] hekayəsində ağıllı, uzaqgörən, övladlarının gələcək taleyini düşünən, onların həm birliyinin, həm də əməksevərliyinin qayğısına qalan bir ata surəti ilə qarşılaşırıq. Onun verdiyi məsləhət oğullarına fayda verir. Onlar bu məsləhət sayəsində həyatda düzgün yol tutmağı bacarırlar. Dərslikdəki "Uşaq və gözlük" [3, s.58] hekayəsində də müasir düşüncəli, ayıq, zirək bir tərbiyəçi ata ilə üzləşirik. Kiçik övladı görür ki, atası kitab oxuyanda eynək taxır.

Uşaq kitab oxumağın hikmətini eynəkdə görür. Atasından xahiş edir ki, ona da eynək alsın ki, o da kitab oxuya bilsin. Övladının məqsədini bilən maarifçi ata oxumağın hikmətinin eynəkdə yox, kitabda olduğunu başa salır və ona kitab alır. Buunla da, kiçik oğlunun zəkasına ilkin maarif impulsu verir, onu təhsilə şövqləndirir. Onu da deyək ki, "Vətən dili"ndəki adını çəkdiyimiz bu hekayələrin hər ikisinə o zaman işıq üzü görən başqa dərslik və oxu kitablarımızda da sıx-sıx rast gəlirik.

Hacı Səid Əfəndi Ünsizadənin uşaqların mütaliəsi üçün yazıb nəşr etdirdiyi "Təlimül-ətfal, təhzibül əxlaq" (1882) adlı pedaqoji-didaktik risalədə valideyn-övlad münasibətlərinə, ailə tərbiyəsinə aid ayrıca bölmə vardır. Həmin bölmədə bir neçə tərbiyəvi-didaktik məqalə verilir. Məsələn: "Ana", "Ata", "Övladın ata və anasına itaəti", "Ata və anasının sözünə qulaq asmayan uşaqlardan neçələri neçə-neçə bəlalara giriftar olmaqları barəsində bəzi əhvalat" [2, 317-320].

Tərbiyəvi məzmunlu bu məqalələrdə əvvəlcə Ünsizadə ananın və atanın böyüklüyündən, şərəfindən, övladı yolunda çəkdiyi cəfalardan, övladın öz valideynləri qarşısında borcundan söz açır, uşaqları onları hörmət və itaət göstərməyə çağırır. Bunun əslində hər bir övladın mənəvi-əxlaqi borcu olduğunu söyləyir. Sonra isə ata və ana ilə bağlı hikmətli sözlər, həmçinin müxtəlif məzmunlu hekayətlər verir. Atadan danışarkən müəllif deyir: "Atalarımız bizi və anamızı rahat eləməkdən ötrü gecəni gündüzə qatıb çalışırlar.Yeməyimizi, içməyimizi, paltarımızı və evimizi tədarük edib, hər qeydimizə qalan atalarımızdır. Qan-tərə bata-bata və tələş eləməyi bizdən ötrüdür.

Bizə dəxi zəmdir ki, atalarımıza şükr edib, xidmət və itaətində qüsurluq etməyək. Atalarımız qocalan vaxtda əlimizdən gələn miqdarı onların haqqında riayət və kömək etmək bizə qayətdə lazımdır. Övladların ana və atalarına şəfqət və mərhəmət edib, müti və münqad (itaət etmək – S.B.) fərzindədir və hərgah Allah eləməmiş kimi, onlar ilə bəd müamilə elənib qəlbləri bizdən sınsa, dünya və axirətdə böyüklər düçar olmağımıza səbəb olar" [2, s. 318].

S. Ünsizadənin ataların dilindən uşaqlara verdiyi öyüd-nəsihətlər də həyati məzmun daşıyır. Müəllif onu da əlavə edir ki, düzgün təlim-tərbiyə insanlardan ötrü düzgün yol göstərən bələdçi və nəsihətçi kimidir.

Gözəl əxlaq, izzət və hörmət, şərafət sahibi olmağa gətirib çıxarar. Həm də gözəl ailə tərbiyəsi görmüş övladlar yalnız başqalarını sevmirlər, öz ata-analarına da ehtiram bəsləyir, itaət göstərirlər. Valideynə hörmət və itaət isə övlad üçün vacib bir borcdur. Hər kəs öz ata-anasının qulluğunda durmalı, onun sözündən çıxmamalıdır. Onlara hörmət insanı həm valideynlərinin, həm cəmiyyətin, həm də Allahın nəzərində uca edər. Bu məsələ ilə bağlı N. Nərimanov da "Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəhvi" dərsliyində S. Ünsizadənin fikirlərini davam etdirərək yazırdı: "Atamıza, anamıza hörmət etmək bizə vacibdir. Çünki vaxtında onlar çox zəhmət çəkiblər və çox göz yaşı tökülblər. Atanın, ananın üzlərinə ağ olan şəxslər nə bu dünyada xoşbəxt olarlar, nə o dünyada. Zira ki, bu dünyada xəlqin, o dünyada Allahın nəzərindən düşərlər [2, s. 510].

Ağıllı ata hər bir işdə, ən sadə görünən vəziyyətlərdə belə övladının düzgün tərbiyəsini diqqət mərkəzində saxlayıb ona doğru yol göstərməyi bacarmalıdır. Bəzən elə kiçik bir həyati əhvalat ola bilər ki, bu zaman atanın etdiyi rəftar, dediyi söz uşağa son dərəcə ciddi təsir göstərib bütün həyatı boyu onun yoluna işıq sala biləcək bir nüansa çevrilə bilər. "İkinci il" dərsliyində dediyimiz məsələ ilə əlaqədar ibrətamiz və tipik bir əhvalat verilmişdir. Burada "Nal" [10, s. 37] hekayəsində belə bir kiçik hadisə danışılır: Bir ata ilə oğlu piyada şəhərə gedirlər. Ata yola düşmüş bir nal görür. Oğluna deyir ki, əyilib nalı götürsün, bizə lazım olar.

Oğul bu köhnə nalın heç nəyə yaramadığını söyləyir və nalı götürmür. Ata əyilib nalı gö-

türür. Şəhərdə onu satıb puluna albalı alır. Geri qayıdanda oğlu susayır və bunu atasına bildirir. Ata yol boyu albalıları yerə atır. Oğlu əyilib onları götürüb yeyir, susuzluğu keçir. Sonda ata deyir: Sən bir dəfə əyilib nalı götürməyə əziyyət çəkirdin, amma indi yüz dəfə yerə əyilirsən. Bu əhvalat oğlana ciddi tərbiyəvi təsir göstərir. O, atasının nə demək istədiyini anlayır. Hekayədə ata ağıllı, uzaqgörən, nümunəvi bir tərbiyəçi kimi çıxış edir.

Əlimirzə Nərimanov Sənaninin "Nəsihətül-ətfal" (1907) adlı oxu kitabına salınmış "Quş yuvası", L.N.Tolstoydan tərcümə edilmiş "Hekayə" [13, 23, 31] sərlövhəli kiçik nəsr nümunələrində də tədbirli, öz oğlanlarına yol göstərən tərbiyəçi ata surəti ilə tanış oluruq. "Quş yuvası"nda ata həm kiçik yaşlı oğlunu, həm də onun tay-tuşlarını başa salır ki, quşlar bizim dostumuzdur, onların bizə və təbiətə böyük faydası var. Ona görə də onların yuvasını dağıtmaq olmaz. L.N. Tolstoydan tərcümə edilmiş hekayədə isə ölüm ayağında olan ata oğluna başa salır ki, o, var-dövləti özü qazanmalı, bunun üçün çalışmalı, tər tökməlidir. Onun nəsihətini qəbul edən oğlu atası öldükdən sonra onun dediklərinə əməl edir, yaxşı güzəran sahibi olur. Nəsihəti qəbul etməyən digər oğlu isə səfil olub miskin bir həyat yaşayır. Müəllif oxucunu başa salmaq istəyir ki, ataların sözünə əməl etmək lazımdır.

"Ana dili" dərsliyindəki "Çayçı Qasım" [9, s. 34], "Əkinçi və oğlu" [8, s.28] və s. əsərlərdə də ailə tərbiyəsində gözəl bir nümunəyə çevrilən ata təsvir edilmişdir. "Çayçı Qasım"da çayçılıq edib ailəsini dolandıran Qasım çətinliklə də olsa, uşaqlarını oxudur, onlara oxumağın faydasını başa salıb məktəbə təşviq edir. Nəhayət, onun övladları təhsil alıb tərbiyəli insanlar, xoş güzəran sahibi olurlar. "Əkinçi və oğlu"nda isə ata öz oğlunu əməyə, zəhmətə alışdırır. Sonra onu imtahan edir. Bəlli olur ki, ata həm çalışqan, zəhmətsevər, həm də ağıllı bir övlad böyütmüşdür.

"Yeni məktəb" dərsliyindəki "Məktəbə davam ediniz" [11, s. 14-15] sərlövhəli pedaqoji məzmunlu publisistik yazıda da maarifpərvər, müasir düşüncəli bir ata-tərbiyəçi surəti diqqəti cəlb edir. Bu ata oğlunun taleyini, xoşbəxtliyini düşünməklə yanaşı, ailə tərbiyəsində də müasir dünyagörüşə yiyələnmiş bir ailə başçısıdır. Əslində dərslik müəllifləri bu obrazların vasitəsilə "Müasir valideyn öz övladını necə tərbiyə etməlidir?" – sualına da cavab vermək istəyirlər. Haqqında danışdığımız mətn bütünlüklə atanın oğluna müraciəti şəklindədir. Ata ona, əslində isə böyüməkdə olan nəslə məktəbin, təhsilin, maarifin əhəmiyyətini başa salır. İndi yüzlərlə şagirdin məktəbə getdiyini, əsl xoşbəxtliyin elmdə, təhsildə olduğunu söyləyir. Oğlunu məktəbə həvəsləndirir, səy və çalışqanlığa çağırır. İki səhifəlik mətndən sonra mövzu ilə bağlı 12-yə qədər sual qoyulmuşdur. Sualların məzmunu da ailə təbiyəsinə, maarif və məktəbin əhəmiyyəti probleminə yönəldilmişdir.

F.Ağazadənin "Ədəbiyyat məcmuəsi"ndə yer alan "Ata məhəbbəti", "Valideyn məhəbbəti", "Ata və oğul" [1, s. 196-198] və s. hekayələrdə də ailə tərbiyəsinin maraqlı elementləri öz əksini tapmışdır. Həm də bu elementlər ata-oğul münasibətləri çərçivəsində verilmişdir. Hekayələrdən çıxan nəticələr bundan ibarətdir ki, ağıllı atanın böyütdüyü tərbiyəli övladlar öz valideynlərinə səmimiyyətlə, məhəbbətlə, ruhani bağlılıq və iltifatla yanaşırlar. Həyatın sonuncu gedişatında aldığı müsbət tərbiyənin bəhrəsini ortalığa qoyub ata-analarına qarşı fədakarlıq göstərirlər.

Əhməd Kamalın "Füyuzati-qiraət" (1909) dərsliyində də "Ata və ana" adlı ayrıca pedaqoji məzmunlu mətn verilir. Burada ata və ananın ailədəki vəzifələri, uşaqların tərbiyəsindəki rolu, öz övladlarına necə münasibət göstərməli olduqları və s. barədə dəyərli izahatlar verilir.

Yaxşı atalar yaxşı övlad tərbiyə etdiyi kimi, pis atalar da pis nəsil böyüdür, öz uşaqlarına pis mənada nümunə olurlar. O zamankı bir sıra ana dili dərsliklərində, oxu kitablarında, o cümlədən M.Qəmərlinski və həmkarlarının "Ana dili" (II kitab) dərsliyində verilmiş "Baba və nəvəsi" [7, s. 27] hekayəsində biz bunun şahidi oluruq. L.Tolstoyun oxu kitablarından götürülmüş bu hekayədə ibrətamiz və həyati bir əhvalat verilir. Deməli, əgər ata-analar öz övladlarına pis nümunə olur, onların tərbiyəsini qaranlıq istiqamətə yönəldirlərsə, nəticədə öz əməllərinin toruna düşmüş olacaqlar. Həyatda olduğu kimi ailə tərbiyəsində də gözəlliyin nəticəsi gözəlliklə, çirkinliyin nəticəsi çirkinliklə yekunlaşır. Başqa sözlə, "Nə tökərsən aşına, o da çıxar qaşığına" məsəli ailə tərbiyəsi üçün də bir həyati düsturdur.

S.Ə.Şirvaninin dərsliklərində də biz nəsihətçi bir ata obrazı görürük. O, övladını və onun timsalında öz vətəninin böyüməkdə olan bütün uşaqlarını hərtərəfli mənada tərbiyəli, ağıllı, elmli, ədəbli görmək istəyir. Tərbiyəçi bir ata kimi kiçikləri həyatın müxtəlif məsələləri ilə tanış edir.

Ailə tərbiyəsində kişinin rolu nə qədər böyükdürsə, qadının rolu da bir o qədər əhəmiyyətlidir. Yəni ləyaqətli, əxlaqlı hərtərəfli mənada kamil övlad böyütmək onların hər ikisindən asılıdır. Bunu nəzərə alan F.Köçərli təsadüfi olaraq demirdi: "Övladın tərbiyəsi və təlimi ancaq o vədə qaydaya düşüb təbii ola bilər ki, onların vücuduna səbəb olan ata və ana həddi-kamala yetişib, ağıl və fərasətdə, elm və bilikdə, ixtiyar və hüquqda biri-birinə müvafiq olalar, biri-birinə həqiqi mərifət və məhəbbət ilə bağlanmış olalar və hər ikisi təlim və tərbiyənin yolunu kamalınca anlayalar... Ancaq belə əqlən, əxlaqən və cismən yek - digərinə müvafiq və müsavi olan ər və arvadın əqdləri mübarək və müqəddəsdir və bunlardan törəyən övlad hüsntərbiyə almağa müvəffəq ola bilər" [6, s. 225].

S.Ünsizadə "Təlimül-ətfal, təhzibül əxlaq" əsərində ananın balaların tərbiyəsində rolundan, çəkdiyi əziyyətlərdən, ana-övlad münasibətlərindən ayrıca danışır və yazır: "...Uşaqlar heç bir kəsdən görmədiyi ülfət və rəftarı analarından görürlər. Bu surətdə bizlər uşaq olan vaxtda dəxi analarımız bizim zəhmətlərimizi çəkib bizi tərbiyə edə-edə bu boya yetiriblər. Buna görə bizlərə qayətdə lazımdır ki, heç bir vaxtda analarımızın rizasından çıxmayıb, həmişə əməllərinə itaət etmək ilə xeyir-dualarını alıb dünya və axirətdə üzü ağ olaq" [15, s. 317].

Ailə tərbiyəsində valideynin övladı sövq etməli olduğu vacib məsələlərdən biri onlarda əməyə rəğbət yaratmaq, çalışqanlığın mahiyyətini, səmərəsini onlara başa salmaq, bir sözlə, uşaqları əməksevər böyütməkdir. "İkinci il" dərsliyində verilən "ləzzətli şorba" [10, s.37] hekayəsində təsvir olunan ana məhz belə bir amala xidmət edir. Öz oğluna cəfakeşliyin, əməksevərliyin nə olduğunu anlatmağa çalışır.

Nəticə. Göstərilən dövrdə ana dili dərsliklərində ailə tərbiyəsi dil və ədəbiyyat materialları əsasında təbliğ edilir və tələqin olunurdu. Burada həmin dövrdə tanınmış ziyalıların, mütəfəkkirlərin əsərlərindən müəyyən parçalar götürülərək onların əsasında müvafiq təlim işini həyata keçirirdilər. Şagirdlər vətənə, ailəyə, anaya sevgi ruhunda tərbiyə olunurdu.

Problemin aktuallığı. Ailə tərbiyəsi müasir şəraitdə şəxsiyyətin formalaşmasında təməl və ən mühüm mərhələ kimi həm cəmiyyətin, həm də pedaqoji elmin diqqətinin artmasını tələb edir. Bu baxımından ana dili dərsliklərində təqdim olunan materiallar xüsusi əhəmiyyətə malikdir.

Problemin yeniliyi. Milli tərbiyə təcrübəsi, bir tərəfdən, elmlə zənginləşdirilməlidir, digər tərəfdən, pedaqoji elmin özü və təhsil praktikası bizim dövrün əhəmiyyətli təhsil problemlərini həll etmək üçün bədii təfəkkürdəki pedaqoji təcrübəsini yaradıcı şəkildə yenidən istifadə etməlidir.

Problemin praktik əhəmiyyəti. XIX əsrin ikinci yarısında - XX əsrin əvvəllərində Azərbaycan pedaqoqlarının əsərlərinin təhlili göstərir ki, ailənin uşağın böyütməsində əhəmiyyəti böyükdür və Azərbaycan ailəsində ailə təhsilinin ənənələri humanist təbiətə malikdirlər. Bir sıra pedaqoqların humanist konsepsiyalarında ailə tərbiyəsinin məqsədləri, vasitələri və istiqamətləri, ailənin tərbiyə idealı əsaslandırılır.

Ədəbiyyat:

1. Abbaszadə Mirzə Abbas. Birinci il. Bakı: "Kaspi" mətbəəsi, 1913
2. Azərbaycan uşaq ədəbiyyatı müntəxabatı (XIX-XX əsrlər). (tərtib edəni: Məmmədov X., Həsənov A.). 2 cilddə, I c. Bakı: Nasir, 2001.
3. Çernyayevski A.O. Vətən dili. I hissə. Tiflis: Ünsizadə mətbəəsi, 1881.
4. Çernyayevski A.O., Vəlibəyov S.A. Vətən dili. II hissə. Tiflis: "Kəşkül" mətbəəsi, 1888.
5. "Əkinçi" qəzeti (1875-1877). Tam mətni / Ərəb əlifbasından kirill əlifbasına çevirən və nəşrə hazırlayan T. Həsənzadə. Bakı: Azərnəşr, 1979.
6. Köçərli F. Seçilmiş əsərləri. Bakı: Azərb. SSR EA nəşri, 1963.
7. Qəmərlinski M. və b.-ı. Ana dili. II kitab. Tiflis, 1907.
8. Qəmərlinski M. və b.-ı. Ana dili. II kitab. İkinci nəşr. Tiflis, 1907.
9. Qəmərlinski M. və b.-ı. Ana dili. I kitab. Tiflis: 1908.
10. Mahmudbəyov M. və başqaları. İkinci il. Tiflis: Qeyrət mətbəəsi, 1908.
11. Mahmudbəyov M., Mehdizadə A.S. Yeni məktəb. I çap. Bakı: "Kaspi" mətbəəsi, 1909.

12. Makarenko A.S. Seçilmiş pedaqoji əsərləri. 2 cilddə. I c. Bakı: Maarif, 1983.
13. Nərimanov Əlimirzə Tiflisi. Nəsihətül-ətfal. Tiflis: Qeyrət mətbəəsi, 1907.
14. Uşinski K.D. Seçilmiş pedaqoji əsərləri. Bakı: Azərnəşr, 1953.
15. Ünsizadə S. Təlimül-ətfal, təhzibül-əxlaq. Tiflis, 1882.

E-mail: samraavaz@mail.ru
Rəyçilər: *ped.ü. fəls.dok., dos.* **S.B. Allahverdiyeva,**
ped.ü. fəls.dok., dos. **Q.H. Tağıyeva**
Redaksiyaya daxil olub: 17.12.2018

RİYAZİYYATIN TƏDRİSİ METODİKASI

UOT 37.01.

Sərxan Aslan oğlu Feyziyev
pedaqogika üzrə elmlər doktoru

Rasim Yusif oğlu Şükürov
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti

İNKİŞAFETDİRİCİ TƏLİM ŞƏRAİTİNDƏ FƏNDAXİLİ VARİSLİK VƏ FƏNDAXİLİ REKURSİV ƏLAQƏLƏR TƏFƏKKÜR PROSESİNİN KEYFİYYƏT GÖSTƏRİCİSİ KİMİ

Сархан Аслан оглу Фейзиев
доктор педагогических наук

Расим Юсиф оглу Шукюров
доктор философии по педагогике, доцент,
Азербайджанский Государственный Педагогический Университет

ВНУТРИПРЕДМЕТНАЯ ПРЕЕМСТВЕННОСТЬ И ВНУТРИПРЕДМЕТНЫЕ РЕКУРСИВНЫЕ СВЯЗИ КАК ПОКАЗАТЕЛИ КАЧЕСТВА МЫСЛИТЕЛЬНОГО ПРОЦЕССА В УСЛОВИЯХ РАЗВИВАЮЩЕГО ОБУЧЕНИЯ

Sarkhan Aslan Feyziev
doctor of sciences in pedagogy

Rasim Yusif Shukurov
doctor philosophy in pedagogy, associate professor
Azerbaijan State Pedagogical University

INTERDISCIPLINARY CONTINUITY AND INTERDISCIPLINARY RECURSIVE RELATIONS AS THE QUALITATIVE CHARACTERISTICS OF THE FLEXIBILITY OF THE THINKING PROCESS

Xülasə: Məqalədə fəndaxili varislik və fəndaxili rekursiv əlaqələr metodiki araşdırmaya cəlb edilir və bu əlaqələrin təfəkkür prosesinin çeviklik keyfiyyəti olması əsaslandırılır.
***Açar sözlər**: fəndaxili əlaqələr, varislik, rekursiv əlaqələr, təfəkkür prosesi, təlim*

Резюме: В данной работе рассматриваются проблемы внутрипредметной связи преемственности и внутрипредметные рекурсивные связи. Обосновывается, что эти связи являются качественной характеристикой гибкости мыслительного процесса.
***Ключевые слова:** внутрипредметные связи, преемственность, рекурсивные связи, мыслительный процесс, обучение*

Summary: This paper deals with the problems of intra-subject continuity and intra-subject recursive relations. It is substantiated that these connections are a qualitative characteristic of the flexibility of the thinking process.
***Key words:** intradisciplinary communication, continuity, recursive communication, thought process, learning*

İnkişafetdirici təlim şəraitində müasir interaktiv təlimin konsepsiyası ön plana keçmişdir. Bu da təbiidir. Çünki inkişafetdirici təlimə verilən tələblər interaktiv təlim sistemi üçün mühüm amillərdən biridir. Təbiidir ki, interaktiv təlim tədris prosesinə yeni prinsiplər gətirmişdir. Bu prinsiplər isə əslində, öz ifadəsini produktiv təlim metodlarında tapır.

Lakin müəllim bu prinsiplərə şablon və ehkam kimi yanaşdıqda yeni təlim metodları lazımi effekt vermir. Aşkardır ki, tədris şəraiti çoxcəhətli ola bilər və ehkam yanaşma heç bir fayda verməz və əksinə, keyfiyyətə öz mənfi təsirini göstərər. Məhz buna görə də praktik müəllimlər, həmçinin tədqiqatçı-alimlər yeniliklərin tətbiqinə olduqca yaradıcı yanaşmalıdırlar.

Sirr deyil ki, son dövrün bəzi tədqiqatları tədris təcrübəsində vəziyyətin deyilənlərin əksinə mövcud olduğunu etiraf edirlər. Mövcud təlim şəraitində öyrənənlərin inkişafı problemi çox mürəkkəb problem kimi hələ də öz həllini tam tapmamışdır. Bu problemin həlli başlıca olaraq müəllimin öz işini məhz hansı nəticəni əldə edəcəyinə istiqamətləndirməsindən asılıdır.

Məlum həqiqətdir ki, pedaqoji proses çoxcəhətli və çoxobrazlıdır. Pedaqoji prosesin ən başlıca obyekti öyrənəndir. Bununla əlaqədar olaraq, müəllim fəaliyyətinin əsas meyarı son nəticəni ortaya qoymaqdır. Yəni tədris fənni üzrə öyrənənə müəyyən biliklər toplusu verməklə, yaradıcı fəaliyyətə hazır olan şəxsiyyət formalaşdırmaqdır.

Birinci halda öyrənənlər informasiya alır, onu qəbul edir, başa düşür, yadda saxlayır, nəhayət, hasil edir. Bu halda, qısaca olaraq, reproduktiv fəaliyyətdən söhbət gedə bilər. Əlbəttə, bu halda da təlim işinə müəyyən qabiliyyət lazımdır, lakin belə təlim öyrənənlərin ümumi psixi inkişafına təsir etmir, yəni onların xüsusi qabiliyyətlərinin inkişafına gətirmir. Bu, məhz V.V. Davıdova görə, inkişafetdirici təlimi qurarkən, riyaziyyat tədrisi metodikası zəruri olaraq, psixoloji tədqiqatlara istinad etməlidir.

V.V. Davıdov göstərir ki, insanın psixoloji baxımdan inkişafı, hər şeydən əvvəl, onun fəaliyyətinin, şüurunun, düşüncəsinin, emosiyalarının, ümumiyyətlə, onun inkişafı üçün zəruri olan psixoloji proseslərin inkişafıdır.

Deyilənlərdən asanlıqla görünür ki, uşağın inkişafı daha çox elə fəaliyyətdən asılıdır ki, bu fəaliyyət nəticəsində o, nəyi isə icra edir. Bu fəaliyyət həm reproduktiv, həm də produktiv (yaradıcı) ola bilər.

Təlim fəaliyyəti yalnız öyrənəni elmlərin əsaslarına yiyələnməyə və şəxsi keyfiyyətlərinin inkişafına, daha yüksək səviyyədə formalaşmasına istiqamətləndirir. Məhz bu halda öyrənənin yaradıcı potensialı üzə çıxır.

Tədqiqatçılar hesab edirlər ki, bütün şagirdlərin potensial imkanları sanki eyni səviyyədə olur, lakin elə vasitə tapmaq lazımdır ki, o, bütün yaradıcı fəaliyyətin mexanizmlərini hərəkətə gətirsin.

Bu vasitə altında bütün tədris prosesinin səmərəli təşkili başa düşülür. Buna həm də kursun məntiqi məzmunda qurulması, problem situasiyaların yaradılması, qismən axtarış (evristik) və ya təlimin tədqiqat metodu daxildir. Ümumiyyətlə, hansı metodun seçilməsindən asılı olmayaraq, son nəticədə başlıca müvəffəqiyyət təfəkkür prosesinin axınına gətirməlidir. Təlim materialının mənimsənilməsinə istiqamətlənmiş şagirdin yaradıcı fəaliyyəti yeni-yeni keyfiyyətlərin üzə çıxması, inkişafı, əsasən təfəkkürün üç təşkiledicisindən asılıdır:

1. Elementar təfəkkür əməliyyatlarının yüksək səviyyədə formalaşdırılmasından;

2. Çoxlu hipotezlərin, həll variantlarının, qeyri-standart ideyaların irəli sürülməsində təzahür edən yüksək aktivlik səviyyəsindən;

3. Hadisələrdə (proseslərdə) başlanğıcın seçilməsində təzahür edən, məqsədyönlülük mütəşəkkilliyinin yüksək səviyyəsindən və təfəkkürün xüsusi üsullarının dərk edilməsindən.

Təfəkkürün şərh etdiyimiz keyfiyyətlərinin formalaşdırılması təlim materialına yiyələndikdə olan çətinliklərin dəf edilməsinə imkan verir və şagirdin yaradıcı şəxsiyyət kimi inkişafına gətirir. Bu, onunla izah edilir ki, şagird fəaliyyət üsulunun seçilməsinin nəzəri əsas-landırılması əsasında oxşar fəaliyyət üsulunu müstəqil olaraq tapa bilir və ya qoyulmuş problemin həlli zamanı yeni üsullar tətbiq edir. Hətta, çox halda şagird bunu tanış olmayan situasiyada edə bilir.

Bütün bu şərh olunanlardan belə nəticə çıxarmaq olar ki, təfəkkürün inkişafı üçün başlıca vasitə tədris prosesinin produktiv təlim metodlarının variasiya edilməsi, tədris prosesinin təşkilində şablonçuluqdan yaxa qurtarmaqdır.

İnkişafetdirici təlimin əsas tələblərindən biri də öyrənənlərdə dünyagörüşünün formalaşdırılmasıdır. Dünyagörüşü və onun müəllimin metodiki hazırlığının tərkib hissəsi olması problemi ədəbiyyatlarda kifayət qədər öz şərhini tapır. Xüsusilə, dünyagörüşü və onun ayrı-ayrı aspektləri (fəlsəfi görüş, etik görüşlər və s.) fəlsəfi ədəbiyyatda müxtəlif aspektlər geniş şərh olunur və bu da təbiidir. Çünki dünyagörüşü problemi fəlsəfə elminin birbaşa tədqiqat obyektidir. Dünyagörüşü problemi o dərəcədə çoxməzmunlu, çoxobrazlı və universal mahiyyətə malikdir ki, bu problem bütün elm sahələrində bu və ya digər formada istifadə olunur. Bir təbiət elmi kimi riyaziyyat elmi və onun tədrisi metodikasında zəruri aparat kimi fənnin tarixi, metodologiyası metod və priyomları ilə sıx bağlıdır. Ümumiyyətlə, harada idrak prosesi varsa, orada dünyagörüşü problemi var. Təsadüfi deyil ki, çoxlu tədqiqatçılar ümumi və elmi dünyagörüşünü riyaziyyat müəlliminin metodiki hazırlığının başlıca təşkiledicisi kimi səciyyələndirirlər. Dünyagörüşü məfhumunun elmi, elmi-metodiki və elmi-məntiqi ədəbiyyatda müxtəlif traktovkaları var. Onun ən sadə traktovkası aşağıda şərh edilir.

Dünyagörüşü dünya (kainat) haqqında və insanın orada yeri haqqında ümumiləşmiş görüşlər sistemidir.

Bir qədər geniş – dünyagörüşü cəmiyyətin, sosial qrupun, şəxsiyyətin idealları və dəyərləri sistemində öz ifadəsini tapan təbiət, cəmiyyət, insan haqqında tam (bütöv) təsəvvürlərdir.

Dünyagörüşü, insanın həm təbiəti, həm cəmiyyəti, həm də insanın özü-özünü dərk etməsini əks etdirir.

Dünyagörüşünün əsas spesifik əlaməti ondan ibarətdir ki, o, ümumiləşmiş fəlsəfi biliklər, baxışlar, inamlar, ideallar və prinsiplər formasında əks olunur.

Qeyd edək ki, dünyagörüşünün prinsipləri sisteminə təbiət, cəmiyyət, insan və idrak haqqında görüşlərin daxil olmasına uyğun olaraq, dünyagörüşünün strukturunda bir qayda olaraq, təbii-elmi, sosial, qneseoloji kimi aspektləri ayırırlar. Riyaziyyat müəlliminin metodiki hazırlığı prosesində elmi-humanist dünyagörüşünün formalaşdırılması bir neçə əsas istiqamətlər vasitəsilə həyata keçirilir:

1. Riyaziyyatın tədrisi metodikasının tarixi və inkişafının əsas mərhələləri.

2. Riyaziyyatın tədrisi metodikası fənninin refleksiyası və riyaziyyatın tədrisi metodikası üzrə xüsusi elmi biliklər.

3. İdrak nəzəriyyəsi kontekstində riyaziyyatın tədrisi metodikası problemi.

4. Riyaziyyatın tədrisi metodikası və metodologiyası.

5. Riyaziyyatın tədrisi metodikasının mədəniyyət (didaktikanın, psixologiyanın, pedaqogikanın), təhsil konsepsiyalarının, tədqiqat metodunun mövcudluğunun spesifik xüsusiyyətləri.

Yuxarıdakı şərhlərdən çox asanlıqla məntiqi nəticə çıxarmaq olur ki, riyaziyyat müəlliminin metodiki hazırlığının dünyagörüş komponenti idrak nəzəriyyəsi ilə (idrak fəallığı prinsipi ilə) sıx surətdə bağlıdır və inkişafetdirici təlim şəraitində dünyagörüşü problemi yaradıcı təlimin digər əlamətləri ilə birlikdə və bu əlamətlərin tərkib hissəsi kimi öz həllini tapır. Çünki riyazi bilikləri dərk etmənin üçüncü səviyyəsində idrakı fəallıq ön plana keçir. Məhz dünyagörüşünün formalaşdırılması şəxsiyyətin (şəxsi keyfiyyətlərin aşılanması), ilk növbədə, dünyagörüşü şəklində təzahür edir ki, bu da idrakla sıx surətdə bağlıdır. Bu fikri əsaslandırmaq üçün fəlsəfi və metodiki ədəbiyyatlarda öz əksini tapan "idrak" məfhumunun bir izahını verək.

İdrak insanın təbii-sosial və mənəvi reallıqların elmi biliklər şəklində dərk edilməsinə yönəlmiş fəaliyyətidir.

İdrakın bu şəkildə izahı idrak prosesində təfəkkürün fəal işi barədə dolğun təsəvvür yaradır.

Təfəkkürün fəal işi fikrini bir qədər açıqlayaq.

İnkişafetdirici təlim şəraitində riyazi biliklərin mərhələ-mərhələ dərk edilməsi prosesi təfəkkürün psixoloji proses kimi işə qoşulması aşağıdakı mexanizm üzrə cərəyan edir:

1. Problem situasiyanın meydana gəlməsi (məsələnin həlli üçün təklif edilməsi) təfəkkürün başlanğıc fazasıdır.

2. Problemin konkret qoyuluşu təfəkkür aktıdır.

3. Problem situasiyanın aradan qaldırılması (məsələnin həllinin başa çatması – cavabın alınması) təfəkkürün son fazasıdır.

Buradan belə bir təbii sual meydana gəlir ki, təfəkkürün başlanğıc fazası ilə son fazası arasında hansı proses gedır?

Təfəkkürün başlanğıc fazası ilə son fazası arasında təfəkkür əməliyyatları (əqli fəaliyyətin məntiqi priyomları) adlanan əməllər lazımi ardıcıllıqla icra edilir və bu əməllərin icra olunması gedişi təfəkkür prosesinin gedişi hesab olunur. Bu prosesdə təfəkkür tədricən yüksək mərhələyə doğru cərəyan edir, başqa sözlə, bu proses empirik təfəkkürün tədricən nəzəri-məntiqi təfəkkürə keçməsi ilə cərəyan edir.

Əlbəttə, bu prosesin nə dərəcədə dəqiq gedişi və qoyulan məqsədin nə dərəcədə uğurlu olması əvvəlcədən təlim metodlarının seçilməsindən də asılıdır.

Ənənəvi təlim metodlarında (konkretdən mücərrədə, xüsusidən ümumiyə, sadədən mürəkkəbə, məlumdan məchula və s.), bir qayda olaraq, riyazi biliklərin mənimsənilməsi prosesi emprik təfəkkürdən başlayır. Emprik və nəzəri-məntiqi təfəkkürün əsas əlamətlərini açıqlamaq üçün təfəkkür anlayışının psixoloji-metodiki xüsusiyyətlərini bir qədər geniş şərh edək.

Riyaziyyatın tədrisi qarşısında təlimin ümumi məqsədlərindən başqa, həm də spesifik məqsədlər durur. Bu isə riyaziyyat elminin xüsusiyyətləri ilə bağlıdır. Həmin xüsusiyyətlərin biri və ən əsası riyazi təfəkkürün inkişaf etdirilməsi və formalaşdırılmasıdır. Bu, öyrənənlərin riyazi qabiliyyətlərinin daha səmərəli inkişafına kömək edir, onları yaradıcı fəaliyyətə hazırlayır, riyaziyyatın çoxsaylı tətbiqləri ilə tanış edir.

Riyazi biliklərin dayanıqlı mənimsənilməsi təfəkkürü məqsədyönlü inkişaf etdirmədən mümkün deyil. Sanki bütün metodiki tədqiqatlarda bu fikir öz əksini tapır. Söhbət inkişafetdirici təlimdən getdikdə, bu fikir daha çox aktuallaşır.

Psixologiyada təfəkkür fərdin idrak fəaliyyəti prosesi kimi təyin olunur. Təfəkkürün özünəməxsus iki mühüm xüsusiyyəti var: 1) Gerçək aləmin birbaşa deyil, dolayısı ilə əksi; 2) Gerçək aləmin əşya və hadisələrinin ümumiləşmə şəklində əksi. Bu, ümumiləşmənin xüsusiyyəti adlanır. Təfəkkür xüsusi növ praktiki və nəzəri fəaliyyətdir. Onun əsas mahiyyəti əşya və hadisələrin başlıca xassələrinin qavranılmasıdır və həmçinin, elə xassələrin ki, bu xassələr bilavasitə qavranıla bilmir.

Təfəkkür idrak prosesində əhəmiyyətli rol oynayır, idrakın sərhədlərini genişləndirir və duyğu, qavrayışların bilavasitə təcrübəsindən kənara çıxmağa imkan vermir. Elə hadisələrin daxil olacağını (baş verəcəyini) qabaqcadan görməyə imkan verir ki, bu hadisələr hazırkı anda mövcud deyillər. Təfəkkür elə informasiyaları işləyir (hasil edir) ki, onlar yalnız duyğu və qavrayışlarda mövcuddurlar. Təfəkkürün işinin nəticələri isə praktiki təşkil olunur.

Təfəkkürün başqa psixoloji proseslərdən fərqi ondadır ki, o, problem situasiyanın olması ilə daimi bağlıdır, həmçinin məsələnin olması ilə bağlıdır. O cümlədən, verilmiş riyazi məsələnin şərtlərinin fəal dəyişməsi ilə sıx bağlı olur.

Qavrayışdan fərqli olaraq, təfəkkür fikrən hissi aşaraq, verilənin sərhəddini aşır, idrakın sərhədlərini genişləndirir. Təfəkkürdə sensor informasiya əsasında müəyyən nəzəri və praktiki nəticələr çıxarılır: əşya və hadisələrin xassələri və bu xassələr arasında əlaqələr təfəkkürdə ümumiləşmiş formada, mahiyyətlərin qanunları şəklində əks olunur.

Təfəkkür ayrıca psixi proses kimi praktikada mövcud deyil. O, yaddaşda, nitqdə, diqqətdə, qavrayışda – bütün idraki proseslərdə görünməz olaraq mövcud olur. Bu proseslərin ali forması təfəkkürlə hökmən bağlıdır və onun bu idrak proseslərində iştirak dərəcəsi onların inkişafının səviyyəsini müəyyən edir.

Təfəkkürün düz və tərs gedişinə uyğun təlim metodlarının seçilməsi.

Təlim metodlarının seçilməsi tədris prosesinin təşkilinin müxtəlif şərtləri ilə müəyyən edilir. Bunlardan bəzilərin qeyd edək:

1. Şagirdlərin yaş həddi. Bu, orta məktəb riyaziyyat proqramında əksini tapır.

2. Təlim materialının məzmunu. Bu, təlim materialının məntiqi-riyazi analizindən alınır.

3. Tədris prosesinin mərhələlərinə uyğun şagirdlər tərəfindən biliklərin mənimsənilməsi mərhələləri. Hal-hazırda həm də müxtəlif şagirdlərin biliklərinin mənimsənilməsini də nəzərə almağa cəhd edilir.

4. Təlimin inkişafetdirici və tərbiyələndirici məqsədləri. Bu halda riyaziyyatla əlaqəsi olan humanitar fənlər də nəzərə alınır. Bu, şagirdlərin təlim fəaliyyətinin müxtəlif formalarına, məzmununa uyğun qeyri-standart məsələlərin həllini də nəzərdə tutur.

İnkişafetdirici təlim şəraitində təfəkkürün fəal işi, yəni düzünə və tərsinə gedişi seçilmiş təlim metodundan asılıdır.

Məlumdur ki, ənənəvi təlim metodları (sadədən mürəkkəbə, asandan çətinə, məlumdan məchula, xüsusidən ümumiyə, konkretdən mücərrədə və s.) təfəkkürün düz gedişinə uyğun iş görür. Bu da təbiidir və təlim materiallarının öyrədilməsi və anlayışların daxil edilməsi bütün tədris tarixində artıq çoxdan sınaqdan çıxmışdır. Həm də nəzərə almaq lazımdır ki, bu metod uydurulmamış və kimsə tərəfindən təklif edilməmiş, məcburi seçmə olub, elə təfəkkürün spesifik xüsusiyyətidir və psixologiya elminin nailiyyətidir. Tədqiqatçılar təfəkkürün düz gedişinə uyğun metodları təkmilləşdirir, yeni üsul və priyomlar daxil edirlər.

Təfəkkürün belə istiqamətdə gedişi onun elmi idrak forması adlanır. Ənənəvi təlim metodu, aşkardır ki, öz başlanğıcını empirik metodlardan (müşahidə, müsahibə, təsvir, ölçmə, təcrübə, eksperiment və s.) aldığı üçün riyaziyyat tədrisi üçün xarakterik deyil. Lakin riyaziyyat elminin inkişaf tarixində empirik metodlar riyazi-biliklərin yaranması və elmi yeniliklərin meydana gəlməsində əvəzedilməz rol oynamışlar.

Qeyd etdiyimiz kimi, idrak-dünyanın dərk edilməsi prosesi, insanın təbii, sosial və mənəvi reallığı biliklər şəklində adekvat hasil etməsinə yönələn fəaliyyətidir.

Məlumdur ki, təlimin keyfiyyəti son nəticədə öyrənənlər tərəfindən təlim materialının praktik dərk edilməsi dərəcəsi ilə qiymətləndirilir. Təlim prosesi özü isə elmi-metodiki ədəbiyyatda aşağıdakı kimi şərh edilir (5):

Tədris prosesi – xüsusi yaradılmış elə şəraitdir ki, bu şəraitdə təlim alanlar öz dünyagörüşünü formalaşdırır və bu halda mənəvi istiqamətlərini müəyyən edirlər. Tədris prosesində təlimin məqsədi o zaman əldə edilmiş hesab olunur ki, təlim alanlar bilikləri mənimsəyir, bu bilikləri özününkü edir.

Əgər təhsilə başlayana qədər bu və ya digər biliklər ictimai dəyərlər kimi mövcuddursa, tədris prosesində konkret informasiya böyük əhəmiyyət kəsb edir. Bu da təlim alanlar üçün onların inamlar arsenalını tamamlayır. Empirik metodlara (təfəkkürün düz gedişinə) istinad edən praktikanın əvəzedilməz rolu inkar edilmişdir. Onu demək kifayətdir ki, empirik təfəkkürün yolu da praktikadan başlayır. Haqlı olaraq qeyd edirlər ki, praktika qeyri-idrakın (dərk olunmamış dünyanın) dünyasına qapı açır. Tədris praktikası elmi tədqiqatlar praktikasını xatırladır. Lakin tədris praktikası elmi idrakın imitasiya modelidir. Fərq ondadır ki, bu, xüsusi təşkil olunmuş prosesdir. Bu prosesdə öyrənən müəllimin rəhbərliyi altında biliksizlikdən biliyə doğru gedir.

Artıq qeyd etmişik ki, müasir məktəbin tədris idrakında üstünlüyü empirik səviyyə təşkil edir. Məhz müşahidə və elmi faktların toplanması əsasında empirik bazis yaranır. Nəticədə praktik sistem inkişaf edir. Empirik səviyyədə tədris olunan obyekt əsasən özünün xarici təzahürləri və əlaqələri ilə əks olunur. Bu zaman əsasən idrakın hissi tərəfləri qavranılır. Empirik səviyyədə bilik elmi fakt şəklində çıxış edir. Bu elmi fakt öyrənilən obyektin təzahürlərinin, xassələrinin xarakteristikaları haqqında fikir söyləməyə imkan verən isbat edilmiş qanunauyğunluqlar kimi çıxış edir. İdrakın empirik forması bacarıq və vərdişlərə çevrilir, daha sonra ümumiləşməyə keçir və şəxsiyyətin dünyagörüşü bazasını təşkil edir.

Empirik təfəkkürün biliklərin mənimsənilməsi prosesindəki funksiyaları artıq heç bir tədqiqatçı və pedaqoji işçi tərəfindən etinasız qarşılana bilməz. Çünki empirik təfəkkür empirik təlim metodları əsasında formalaşır. Empirik təfəkkürün gedişinin ümumiyyətlə, təfəkkür prosesinin spesifik xüsusiyyətlərinə uyğun cərəyan etməsini nəzərə aldıqda, empirik biliklərin tədricən ümumiləşmə və mücərrədləşmə səviyyəsinə keçmə baş verir. Nəticədə, inkişafetdirici təlim şəraitində mücərrəd təfəkkür də formalaşır.

Elmi biliklərin əvvəlcə empirik formada (empirik biliklər formasında) verilməsi məhz təfəkkürün düz gedişi olub, xüsusidən ümumiyə, konkretdən mücərrədə və s mərhələləri şəklində cərəyan edir.

Fəndaxili anlayış əlaqələri baxımından bu, fəndaxili varislik əlaqəsinin analoqudur. Bir sıra tədqiqatçılar (məsələn, [4]), haqlı olaraq, hamı kimi tədris prosesində biliklərin empirik biliklərdən başlayaraq verilməsini dəyərləndirir. Lakin bu metodu biliklərin verilməsində (təlim materialının şərhi, anlayışların daxil edilməsi) yeganə, alternativsiz metod kimi fetişləşdirilməsi fikri ilə heç cür razılaşmaq olmaz. İstər bu,

istərsə də bir sıra digər tədqiqatçılarda, hətta V.V. Davıdov konsepsiyasına etinasızlıq meyilləri açıq şəkildə özünü göstərir. Həmin tədqiqatçılar klassiklər tərəfindən elm tarixində çoxdan irəli sürülmüş və artıq dahi filosof alimlərə və digər elm sahələrində görkəmli elm xadimləri tərəfindən qəbul edilmiş belə bir elmi müddəaya məhəl qoymurlar: "Canlı müşahidədən mücərrəd təfəkkürə, oradan isə praktikaya keçmək lazımdır". Məhz bu elmi müddəa gerçək aləmin dərk edilməsinin dialektik yolu kimi qəbul edilir. Bu müddəadan çox aydın şəkildə belə bir nəticə çıxarmaq olur ki, idrakın əsas fəlsəfi metodu, xüsusilə inkişafetdirici təlim şəraitində, təfəkkür prosesinin mücərrəddən konkretə (ümumidən xüsusiyə) gedişidir.

Müasir məktəbdə təlimin əsas üsulu tərs sxem üzrə gedir, yəni xüsusidən ümumiyə doğru prosesdir. Test sistemi isə bu sxemi daha da möhkəmləndirir. Təhsil sistemində yeni kompüter texnologiyaları böyük populyarlıq və coşqun inkişaf ərəfəsindədir. Belə ki, əvvəllər insan idrakı üçün çətin dəf edilən intellektual fəaliyyət kompüter texnologiyası vasitəsilə asan və qısa vaxt ərzində icra edilir.

Qərb ölkələrindən fərqli olaraq, keçmiş ittifaq təhsili dar çərçivədə biliklərin əldə edilməsi ilə kifayətlənməyib, həmişə biliklərin dərinliyi ilə fərqlənmiş və dünyanın düzgün dərk edilməsinə istiqamətlənmişdir. Başqa sözlə, elmi dünyagörüşün formalaşmasını öz plana çəkmişdir. Məhz buna görə də, profil biliklərinə keçmək əsrində fundamental biliklərin mühafizə olunması üsullarını tapmaq zəruridir. Fundamental təhsil dedikdə, təlim prosesinin dərin, əsaslı, sistemli biliklərin əldə edilməsinə istiqamətləndirilməsi nəzərdə tutulur. Məhz belə təhsil ətraf aləmin cürbəcür prosesləri arasında əlaqələri dərk etməyə imkan verir. Biz hesab edirik ki, riyaziyyatın (həmçinin fizikanın) tədrisini ümumidən xüsusiyə prinsipi əsasında qurmaq lazımdır. Bu halda mücərrəd təfəkkürün biliklərin mənimsənilməsi prosesindəki rolu öz plana keçər.

Bu məqsədlərin tədris təcrübəsində reallaşması üçün başlıca vasitə təlim metodlarının məqsədyönlü seçilməsidir.

Fikrimizcə, ilk növbədə ümumi ideyanı (problemi) formalaşdırmaq lazımdır. Çünki, bu halda ümumi ideya konkret, xüsusi məsələlərin həlli üçün yol açır. Ümumi ideyanın məzmunundan çıxan konkret məsələlərin həlli ümumi ideyanın prinsipinə tabe olur. Bu halda öyrənənlərdə mahiyyətin daha dəqiq formalaşması baş verir. Bunun üçün ilk baxışda bir-biri ilə əlaqəsi görünməyən bir neçə misal nümayiş etdirilir ki, onların da hamısı ümumi prinsipə tabedir.

Beləliklə, şərh olunan mülahizələrin hamısının mərkəzində nəzəriyyənin əvəzolunmaz rolu durur ki, bu da təlim metodlarının, təlim materiallarının öyrədilməsi və yeni anlayışların daxil edilməsi prosesində səmərəli yeniliklərin dəqiq düşünülməsidir.

Kifayət qədər misallar göstərmək olar ki, anlayışların daxil edilməsi təfəkkürün mücərrəddən konkretə (ümumidən xüsusiyə) gedişinin səmərəliliyini ön plana çəkməsin. Bu, xüsusilə orta məktəb çərçivəsində fəndaxili rekursiv əlaqə vasitəsilə reallaşdırılır.

V.V. Davıdov göstərir ki, təfəkkür prosesinin mücərrəddən konkretə istiqamətinin şagirdlərin təlim fəaliyyətinin həyata keçirilməsi prosesinə tətbiqi tamamilə müsbət haldır. Hər hansı tədris fənnini (əsasən riyaziyyatı) öyrənməyə başlayarkən məktəblilər müəllimin köməyilə təlim materialının məzmununu təhlil edir, oradakı ümumi münasibətləri ayırd edirlər. Bununla bağlı aşkar edirlər ki, onlar çoxlu xüsusi münasibətlərdə öz təzahürünü tapırlar.

Qeyd edək ki, ilkin ümumi anlayışları ayırmazdan əvvəl və ümumiləşdirməyə gəlməzdən əvvəl öyrənən xüsusi münasibətlərlə tanış olmalıdır. Başlanğıcda idrakın yolu müəyyən dərəcədə xüsusidən ümumiyə, konkretdən mücərrədə sıçrayır və tərsinə. Daha sonra öyrənən müstəqil və ya müəllimin köməyilə ümumiləşdirməyə gəlir, bundan sonra isə ümumiləşmənin dayanıqlı olmasını yoxlamaq zərurəti yaranır. Bu halda artıq bilik möhkəmlənir.

V.V. Davıdova görə təlimin xüsusiyyəti elədir ki, şagird əvvəlcə nəzəri bilikləri mənimsəyir, yəni təlim materialını ümumiləşmə səviyyəsində mənimsəyir, sonra isə xüsusiyə keçir.

Beləliklə, şərh olunan mülahizələr belə nəticə çıxarmağa imkan verir ki, təlim prosesində empirik təfəkkürdən mücərrədə gediş və tərsinə, öyrədiləcək təlim materialının və anlayışın xüsusiyyətindən asılıdır və hər iki yanaşmadan yerində səmərəli istifadə edilməlidir. Həm də təfəkkür prosesinin düz gedişindən tərs gedişinə

keçid, xüsusilə inkişafetdirici təlim şəraitində, öyrənənin mühüm zehni fəaliyyətidir. Çünki təfəkkürün düz gedişindən tərs gedişinə keçmək təfəkkürün mühüm keyfiyyəti olub, təfəkkürün "çevikliyi" adlanır. Bu, fəndaxili varislik əlaqəsindən rekursiv əlaqəyə və tərsinə keçidin xüsusi analoqundan başqa elə də çətin priyom deyil.

Problemin aktuallığı. Təfəkkür prosesinin keyfiyyət göstəricisini müəyyən etmək daim pedaqoji-psixoloji tədqiqatlarda diqqət mərkəzində olan məsələlərdəndir. İnkişafetdirici təlim şəraitində fəndaxili varislik və fəndaxili rekursiv əlaqələrin təfəkkür prosesinin keyfiyyət göstəricisi kimi tədqiq edilməsi mövzunun aktuallığını təşkil edir.

Problemin elmi yeniliyi. Məqalədə fəndaxili varislik və fəndaxili rekursiv əlaqələr elmi-metodiki araşdırmaya cəlb edilir və bu əlaqələrin təfəkkür prosesinin çeviklik keyfiyyəti olması əsaslandırılır.

Problemin praktik əhəmiyyəti. Məqalədə irəli sürülən təkliflər və nəticələr təlim prosesi ilə bağlı tədqiqat aparan gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

Ədəbiyyat:

1. Выготский Л.С. Педагогическая психология. М., 1991.
2. Давыдов В.В. Проблемы развивающего обучения. М., 1998.
3. Далингер В.А. Методика реализации внутрипредметных связей при обучении математике. М., 1991.
4. Истомина Н.Б. Методика обучения математике в начальных классах. М., 2002.
5. Наумчик С.В. Диалектика конкретного и абстрактного в учебном процессе// Международная научно-практическая конференция. Баку, 2014.
6. Feyziyev S.A. Fəndaxili əlaqə probleminin bəzi nəzəri praktik aspektləri // AMİ-nin xəbərləri, 2014, №1

E-mail: rasimshukurlu@mail.ru
Rəyçi: *ped.ü.fəls.dok.* **Ə.A. Gərayev**
Redaksiyaya daxil olub: 14.12.2018.

UOT 37.01.

Rövşən Zülfüqar oğlu Hümbətəliyev
riyaziyyat üzrə elmlər doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiri

Gülarə Naib qızı Babayeva
Azərbaycan Dövlət Pedaqoji Universiteti

ALQORİTMİK FƏALİYYƏT VƏ ONUN FORMALAŞDIRILMASININ ƏSAS MƏRHƏLƏLƏRİ

Ровшан Зульфугар оглы Гумбаталиев
доктор наук по математическе, доцент зав. кафедрой
Азербайджанского Государственного Педагогического Университета

Гюлара Наиб гызы Бабаева
Азербайджанский Государственный Педагогический Университет

АЛГОРИТМИЧЕСКАЯ ДЕЯТЕЛЬНОСТЬ И ОСНОВНЫЕ ЭТАПЫ ЕГО ФОРМИРОВАНИЯ

Rovshan Zulfugar Humbataliyev
doctor of sciences in mathematical sciences, associate professor
head of the department
of Azerbaijan State Pedagogical University

Gulara Naib Babayeva
Azerbaijan State Pedagogical University

ALGORITHMIC ACTIVITY AND MAIN STEPS FOR FORMATION OF ALGORITHMIC ACTIVITY

Xülasə: Bu məqalədə alqoritmik fəaliyyətin formalaşdırılması ilə bağlı ətraflı məlumat verilmişdir. Alqoritmik fəaliyyətin formalaşdırılmasının müxtəlif mərhələləri sadalanmışdır. Həmçinin, alqoritmik fəaliyyətin tədris fəaliyyəti ilə qarşılıqlı əlaqəsi göstərilir və şagirdlərdə alqoritmik fəaliyyətlə bağlı vərdişlərin formalaşdırılmasının zəruriliyi vurğulanır.

Açar sözlər: *alqoritm, alqoritmik fəaliyyət, alqoritmin tətbiqi, alqoritmlərin mənimsənilməsi*

Резюме: В данной статье представлена подробная информация о разработке алгоритмической активности. Перечислены различные этапы алгоритмического формирования. Также показано, что алгоритмические активности взаимодействуют с учебной деятельностью, подчеркнута необходимость формирования алгоритмических навыков.

Ключевые слова: *алгоритм, алгоритмическая деятельность, применение алгоритма, усвоение алгоритма*

Summary: This article provides detailed information on the formulation of algorithmic activity. Various stages of algorithmic forming are listed. Also, algorithmic interaction has been shown to interact with the teaching activity, and the students emphasize the need for algorithmic behavioral habits.

Key words: *algorithm, algorithmic activity, application of algorithm, digestion of algorithms*

Bu məqalədə biz alqoritmik fəaliyyətlə bağlı əsas anlayışlara baxacağıq. Alqoritmik fəaliyyət anlayışının müxtəlif tərifləri mövcuddur:


Alqoritmik fəaliyyət - alqoritmin təlimatlarının addım-addım icrasını nəzərdə tutan tədris fəaliyyətidir.

Alqoritmik fəaliyyət - alqoritmlərin yaradılması, başa düşülməsi və dəyişdirilməsini hədəf alan məqsədli bir fəaliyyətdir.

Alqoritmik fəaliyyət - alqoritmik təsvir üzrə yerinə yetirilən hərəkətlərin məcmusudur.

Beləliklə, biz, alqoritmik fəaliyyət dedikdə, alqoritmik təsvir üzrə yerinə yetirilən hərəkətlərin məcmusunu başa düşəcəyik.

Tədris və alqoritmik fəaliyyətin əlaqəsi



Alqoritmik fəaliyyət təlimini 2 növə ayırmaq olar:

- Hazır alqoritmlərlə tanış olma;
- Şagirdlərdə lazımlı alqoritmləri sərbəst olaraq tərtib və tətbiq etmək qabiliyyətinin formalaşması üçün problemli vəziyyətin yaradılması. Əgər bu iki üsul birləşərsə, alqoritmlərin formalaşdırılması fəaliyyətləri daha müvəffəqiyyətlə gedir.

L.S. Yunevoyun sözlərinə görə, ümumi mənada, pedaqoji nöqteyi-nəzərdən şagirdlərin uyğun olan alqoritmləri (əlbəttə ki, məsələ onun üçün gücü çatan olduqda) özü və ya müəllimin köməyi ilə qurması onları hazır formada almasından daha qiymətlidir.

Müəllif alqoritmik fəaliyyətin formalaşdırılmasının aşağıdakı mərhələlərini təklif edir:

1-ci mərhələ: alqoritmin tətbiqi (tətbiq üçün lazım olan biliklərin aktuallaşdırılması və alqoritmin əsaslandırılması, şagirdlərin müəllimlərin rəhbərliyi altında alqoritmləri kəşf etməsi, alqoritmin mətni, blok-sxemi, cədvəli);

2-ci mərhələ: alqoritmlərin mənimsənilməsi (alqoritmə daxil olan əməliyyatların işlənilməsi və ardıcıllığının mənimsənilməsi);

3-cü mərhələ: alqoritmin istifadəsi (tanış olan və tanış olmayan alqoritmlərin işlənməsi vəziyyətləri).

L.A. Atluxanova alqoritmik fəaliyyətin formalaşdırılmasını 4 mərhələyə ayırır:

1-ci mərhələ: alqoritmin "açılışlar" motivasiyası. Bu mərhələnin əsas məqsədi şagirdlərdə baxılan alqoritmin tərtibi, praktiki məsələlərin həllində onların tətbiqinin vacibliyinin göstə-

rilməsi üçün lazımi və yetərli biliklərin aktuallaşdırılmasıdır.

2-ci mərhələ: alqoritmin tətbiqi. Bu mərhələnin əsas məqsədi şagirdlərdə vacib alqoritmlərin və onların formullarının "açılışına" nail olmaqdır.

3-cü mərhələ: alqoritmlərin mənimsənilməsi. Bu mərhələnin başlıca məqsədi alqoritmin tərkibinə daxil olan əməliyyatların işlənilməsi və ardıcıllıqlarının mənimsənilməsindən ibarətdir.

N.L. Stefanovanın "Riyaziyyatın tədris metodikası və texnologiyası" dərs vəsaitində alqoritmik məsələlərin həllində qaydaların tərtibi, tətbiqi və tədrisinə dair işin növbəti əsas mərhələləri ayrılır:

1-ci mərhələ: qaydaların müəllim tərəfindən məntiqi riyazi analizinin aparılması;

2-ci mərhələ: vacib olduqda alqoritmik proqnozların hazırlanması;

3-cü mərhələ: alqoritmin tətbiqinin zəruriliyinin əsaslandırılması üçün vacib olan biliklərin aktuallaşdırılmasının işlənib-hazırlanması və həyata keçirilməsi;

4-cü mərhələ: tədris mərhələsi üzrə alqoritmik proqnozların hazırlanması;

5-ci mərhələ: möhkəmləndirilmə mərhələsi (tipik məsələlərin həllində tərtib olunmuş alqoritmin tətbiqi);

Beləliklə, biz bu məqalədə alqoritmik fəaliyyətlərlə bağlı əsas anlayışlarla tanış olduq.

Problemin aktuallığı. Tədris prosesində şagirdlərdə alqoritmik fəaliyyətin formalaşdırılması və inkişaf etdirilməsi olduqca əhəmiyyətlidir.

Problemin elmi yeniliyi: Praktikada alqoritmik üsullardan istifadə etmək vərdişlərinin şagirdlərə mənimsədilməsi dövrün tələbidir.

Problemin praktik əhəmiyyəti: Bu məqalənin, xüsusilə, şagirdlərdə alqoritmik fəaliyyətin formalaşdırılmasında orta məktəb müəllimləri üçün faydalı olacağı düşünülür.

Ədəbiyyat:

1. Атлуханова Л.А., Нурмагомедов Д.М. Проблема формирования алгоритмической культуры у младших школьников средствами УМК «Школа России» // Известия дагестанского государственного университета, 2013, №4 http://elibrary.ru/download/27855203.pdf

2. Юнева Л.С. О формировании алгоритмической культуры у учащихся// Статья в сборнике трудов конференции, 2015.

3. Давыдов В.В. Большая рос. Энцикл. М., 1999.

4. Орлов В.В., Стефанова Н.Л., Подходова Н.С., и др. Методика и технология обучения в математике. Лабораторный практикум: учеб. пособие для студентов матем. факультетов пед. Университетов / под науч. ред. В.В. Орлова. М.: Дрофа, 2007.

5. Чада Б. Развивать алгоритмическую культуру учащихся // Математика в школе, 1983, № 2

E-mail: babayevagul93@gmail.com

Rəyçi*: dos*. **R. Cəlilova**

Redaksiyaya daxil olub: 11.12.2018.

UOT 37.01.

Tinatin Məmməd qızı Əliyeva
pedaqogika üzrə fəlsəfə doktoru

Pərvanə Bəhlul qızı Mustafayeva
Azərbaycan Dövlət Pedaqoji Universiteti

MÜSTƏVİ ÜZƏRİNDƏ HƏNDƏSİ KƏMİYYƏTLƏRİN ÖYRƏNİLMƏSİ HAQQINDA

Тинатин Мамед гызы Алиева
доктор философии по педагогике

Парвана Бахлул гызы Мустафаева
Азербайджанский Государственный Педагогический Университет

ОБ ИЗУЧЕНИИ ГЕОМЕТРИЧЕСКИХ ВЕЛИЧИН НА ПЛОСКОСТИ

Tinatin Mammad Aliyeva
PhD in pedagogy

Parvana Bahlul Mustafayeva
Azerbaijan State Pedagogical Universiteti

ABOUT STUDYING GEOMETRIC QUANTITIES ON THE PLANE

Xülasə: Kəmiyyət anlayışı, xüsusilə həndəsi kəmiyyətlər məktəb riyaziyyat kursunda öyrənilən mühüm məsələlərdən biridir. Bu məqalədə müstəvi üzərində həndəsi kəmiyyətlərdən bucaq, uzunluq, sahə anlayışları ilə əlaqədar olmaqla, həm də riyaziyyat tədrisində əhəmiyyəti olan bəzi mövzuların tədrisi metodikası işlənmişdir.

Açar sözlər: *müstəvi, aksiom, bucaq, uzunluq, parça, sahə, ölçmə*

Резюме: Понятие геометрической величины является одним из важных вопросов, изучаемых в школьном курсе математики. В этой статье рассматриваются геометрические величины на плоскости, то есть понятия угол, длина, площадь и разработана методика преподавания некоторых тем важных в преподавании математики.

Ключевые слова: *плоскость, аксиома, угол, длина, отрезок, площадь, измерение*

Summary: Quantitative understanding, especially geometric quantities, is one of the important issues learned in the school math course. This article deals with geometrical quantities on the plane with regard to angles, lengths, flatness notions and the teaching methodology of some subjects that are important in mathematics teaching

Key words: *plane, axiom, angle, length, track, area, measure*

Uzunluq, sahə və bucaq müstəvi üzərində öyrənilən həndəsi kəmiyyətlərdir. Qeyd edək ki, bu kəmiyyətlər fəzada da var və müstəvi üzərindəki əsaslarla ölçülür. Bu məqalədə müstəvi üzərində həndəsi kəmiyyətlərin öyrənilməsi üzərində dayanacağıq. Kəmiyyətlərin öyrənilməsi iki mərhələdə aparılır:

1. Propedevtik adlanan öyrənmədə kəmiyyətlərin tədrisi prosesi asandan çətinə, sadədən mürəkkəbə doğru aparılır, şagirdlər ölçülü xətkeş, transportir, paletka vasitəsilə real olaraq ölçmələri yerinə yetirməyi öyrənirlər. Bu mərhələdə şagirdlər uzunluq, bucaq, sahə anlayışlarının varlığı, onların ölçülməsinin praktik icrası-

nı anlayır və onların ölçü vahidləri ilə yaxından tanış olurlar.

2. Sistematik - sistemli öyrənmə dedikdə, həndəsi kəmiyyətlərin ümumiləşmiş aksiomlar şəklində elmi-nəzəri əsaslarla öyrənilməsi nəzərdə tutulur.

İbtidai məktəbdə öyrənmə prosesi propedevtik, sonrakı siniflərdə sistematik aparılır. Kəmiyyətlərin əsaslı öyrənilməsində müəllim aksiomlar arasındakı oxşarlıq əlaqəsini özü dərk etməli və bu analogiyanı uzunluq, sahə, bucaq və sonralar da həcm üçün ümumiləşdirilərək verilməsini bacarmalıdır. Yəni: 1) fiqur (parça, bucaq, sahə) varsa, onun müsbət ölçüsü vardır; 2) ölçü vahidi seçməklə baxılan fiqurun ölçüsünü müəyyən etmək olar; 3) bərabər fiqurların ölçüləri də bərabərdir; 4) fiqurun ölçüsü bölündüyü hissələrin ölçüləri cəminə bərabərdir.

Uzunluq anlayışı. Parçanın ölçüsü dedikdə, onun uzunluğu nəzərdə tutulur. Parça anlayışı ilə şagirdlər aşağı siniflərdən tanışdır. Lakin parçanın tərifi 7-ci sinif həndəsə dərsliyində (M.C. Mərdanov və. b) düz xəttin iki nöqtəsindən və bu nöqtələr arasında yerləşən bütün nöqtələrdən ibarət fiqura parça, həmin iki nöqtəyə parçanın uc nöqtələri, bu nöqtələr arasında yerləşən nöqtələrə isə parçanın daxili nöqtələri deyildiyi verilir. Parçanın uc nöqtələrinin böyük hərflərlə, onun uzunluğunun isə bir kiçik hərflə işarə edilməsi simvolik olaraq şərtlənir. Şagirdlər ibtidai siniflərdən bilirlər ki, uzunluğu ölçmək üçün mm, sm, dm, m, km kimi ölçü vahidlərindən istifadə olunur. Parçaların uzunluqları ədədlə ifadə olunduğu üçün ədədlər arasındakı müqayisəyə görə AB və CD parçalarını müqayisə etdikdə, AB=CD, AB>CD, AB<CD hallarından biri doğru olar. Bu münasibətlər üçün aşağıdakı xassələrin də şagirdlərə mənimsədilməsi əsas şərtlərdəndir:

-Parçaların bərabərliyinin simmetriklik xassəsi: AB=CD isə, CD=AB olar.


-Parçaların bərabərliyinin tranzitivlik xassəsi: AB=CD, CD=MN isə, AB=MN olar.

-Əgər AB$\neq$CD olarsa, onda ya AB$>$CD, ya da AB$<$CD olar; AB$>$CD olarsa, CD<AB olar; AB>CD, CD>MN olarsa, onda AB>MN olar.

Parçalar və onların uzunluqları ilə bağlı xassələrlə yanaşı şagirdlərə parçalar üzərində aşağıdakı əməllər də mənimsədilməlidir.

1. Verilən parçaya bərabər parçanın ayrılması (qurulması). Verilən *a* parçasına bərabər parçanı qurmaq üçün ixtiyari *l* düz xətti götürüb üzərində ixtiyari A nöqtəsi qeyd olunur. Pərgarla a parçasının uzunluğu ölçülür, A nöqtəsindən sağda və ya solda pərgarla a uzunluqlu parça ayrılır. Pərgarla qeyd olunmuş parçanın digər ucu B nöqtəsi qeyd olunur və AB=a parçası qurulmuş olur.


2. a və b parçalarının cəminin ayrılması (qurulması). Tutaq ki, a və b parçaları verilmişdir. Başlanğıcı O olan şüa üzərində OX=a parçasını ayırmaq, sonra başlanğıcı X olan şüadan O və Y nöqtələri X nöqtəsindən müxtəlif tərəflərdə olmaqla XY=b parçasını ayıraq. OY parçası a və b parçalarının cəmi adlanır və OY=a+b kimi yazılır.



Buradan da parçaların toplanması üçün daha bir xassənin doğruluğu alınır:

Parçanın uzunluğu, onun daxili nöqtəsi ilə bölündüyü parçaların uzunluqları cəminə bərabərdir.

3. a və *b* parçalarının fərqinin tapılması. Tutaq ki, $a > b$. Başlanğıcı O olan şüa üzərində OX=*a* və OY=*b* parçalarını ayıraq. XY parçası *a* və *b* parçalarının fərqi adlanır və belə işarə olunur: *XY=a-b*



4. m parçasının müəyyən müsbət x ədədinə hasilinin təyin edilməsi . m parçasını uzunluq vahidi qəbul edib şüanın başlanğıcından uzunluğu x-ə bərabər parça quraq. Bu parçaya m parçasının x ədədinə hasili deyəcəyik

Qeyd edək ki, parçaların toplanması, çıxılması, ədədə vurulması həndəsi olaraq aparılmaqla yanaşı, həm də onların uzunluqları, yəni ədədi göstəriciləri ilə aparılır. Bu zaman bu ədədlər toplanır, çıxılır və ədədə vurulur. Nəticədə bu parçaların cəmi, fərqi və hasili tapılır.

Bucaq anlayışı. Müstəvi üzərində öyrənilən digər bir kəmiyyət bucaqdır. Bucağın sistemli şəkildə tədrisi orta məktəbdə 6-7-ci sinif-

dən başlanır. Belə ki, ibtidai siniflərdən şagirdlərin bucaq haqqında anlayışları vardır. Hətta onlar transportir vasitəsilə bucaqları ölçməyi, tələb olunan ölçüdə bucağı transportirlə qurmağı bacarırlar. Bu bilik və bacarıqlar 5-6-cı siniflərdə daha da möhkəmləndirilir. 7-ci sinif həndəsə dərsliyində (M.C. Mərdanov və.b) bucağın tərifi belə verilmişdir: Bir nöqtədən çıxan iki şüanın əmələ gətirdiyi fiqura bucaq deyilir. Həmin nöqtəyə bucağın təpəsi, şüalara isə bucağın tərəfləri deyilir. Simvolik olaraq bucağı qövslə kəsir və ölçüsü kiçik hərflərlə və ya yunan hərfləri α, β, γ və ya bəzən a, b, c kimi də işarə olunur. Bucağın təpəsindən çıxan və onun daxili oblastından keçən şüaya bucağın daxili şüası deyilir. Bucağın daxili şüası onu iki bucağa bölür. Bucağa, onun ölçülməsinə aid xassələrə baxaq.

1. Bucağın toplanması xassəsini qeyd edək: Bucağın dərəcə ölçüsü bu bucağın daxili şüası ilə bölündüyü bucaqların dərəcə ölçüləri cəminə bərabərdir.

2. Bucaqların müqayisəsi və vahidləri: Dərəcə ölçüləri bərabər olan bucaqlara bərabər bucaqlar deyilir. İki bucaqdan dərəcə ölçüsü böyük olan bucaq böyük bucaq hesab olunur. Bucağın daxili şüası onu iki bərabər bucağa bölürsə, bu şüaya həmin bucağın tənböləni deyilir. Parçaların ölçülməsi kimi bucaqları da ölçmək üçün onları bucaqların ölçü vahidi ilə müqayisə etmək lazımdır.

3. Bucağın ölçülməsi xassəsi: Hər bir bucağın sıfırdan böyük müəyyən dərəcə ölçüsü var. Açıq bucaq 180°-yə bərabərdir. Bucaqları ölçmək üçün istifadə olunan vahidlərdən biri dərəcədir. Dərəcə açıq bucağın 1/180 hissəsinə bərabər olan bucağın ölçüsü kimi qəbul edilir və “ ◦ “ ilə işarə edilir. Bucağı ölçmək üçün dərəcədən kiçik vahidlər də var . Dərəcənin 1/60 hissəsi dəqiqə (“ ' ” kimi işarə olunur), dəqiqənin 1/60 hissəsi saniyə (“ " ” kimi işarə olunur) adlanır.

Bucaq anlayışı verildikdən sonra qonşu və qarşılıqlı bucaqlar, çevrə, çoxbucaqlı , paraleloqram, üçbucaq anlayışları ilə bağlı olan bucaq anlayışları və onlar arasındakı münasibətlər tədris olunur.

Sahə anlayışı. Sahə anlayışını vermək üçün şagirdlərə sadə fiqur anlayışı izah olunur. Həndəsi fiquru ortaq daxili nöqtəsi olmayan sonlu sayda üçbucağa ayırmaq olarsa, ona sadə fiqur deyilir. Sadə fiqurun sahəsi anlayışı da parçanın uzunluğu anlayışı kimi tərifsiz qəbul edilir. Şagirdlər düzbucaqlının və kvadratın sahəsi ilə ibtidai siniflərdən tanışdırlar. 7-ci sinifdə sahə aksiomları verildikdən sonra uzunluq vahidi əsasında tərəfləri a və b olan düzbucaqlının tərəfləri bərabər hissələrə ayrılır. Şagirdlərin əyani olaraq qavramaları üçün a və b-yə qiymətlər verməklə fiqur kvadratlara bölünür və düzbucaqlının sahəsi, daxili oblastı konkret misallar üzərində şagirdlərə öyrədilir. Parçanın uzunluğunu ölçmək üçün uzunluq vahidinin ixtiyari seçilməsi mümkündür. Bu, sahə vahidi üçün də doğrudur. Lakin vahidi seçdikdə uzunluq və sahə vahidləri arasında uyğunluq olmalıdır. Uzunluğu santimetrlə (sm) ölçürüksə, sahəni kvadrat santimetrlə (sm^2), uzunluğu metrlə (m) ölçürüksə, sahəni kvadrat metrlə (m^2) ölçməliyik. 1 m^2 tərəfi 1 m olan kvadratın sahəsinə bərabərdir. Burada paletka anlayışından istifadə edilməsi məsləhətdir. Təcrübi yolla şagird istənilən müstəvi fiqurunun sahəsini təqribi tapmağı öyrənir.

Problemin aktuallığı. Kəmiyyət mövzusu, xüsusilə, həndəsi kəmiyyətlər məktəb riyaziyyat kursunda mühüm əhəmiyyətə malikdir və 1-11-ci sinifləri əhatə edir.

Problemin elmi yeniliyi. Həndəsi kəmiyyət mövzusu şagirdlərin fəza təsəvvürü ilə bağlı olduğu üçün bu mövzunun tədrisinə xüsusi diqqət yetirmək lazımdır.

Problemin tətbiqi əhəmiyyəti. Məqalədə mövzunun tədrisi ilə metodik göstərişlər müəllimlər üçün faydalı olacaq.

Ədəbiyyat:

1. Mərdanov M.C. və b. Həndəsə: Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün dərslik Bakı: Çaşıoğlu, 2008.
2. Mərdanov M.C. və b. Həndəsə: Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün dərslik Bakı: Çaşıoğlu, 2010.
3. İsmayılova S., Hüseynova A. Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün dərslik. Bakı: Şərq-Qərb, 2013.
4. İsmayılova S. Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün dərslik. Bakı: Şərq-Qərb, 2014.

E-mail: pervane.mustafayeva.94@mail.ru
Rəyçi: *ped.ü.elm.dok., prof.* **A.S. Adıgözəlov**
Redaksiyaya daxil olub: 02.01.2019

UOT 371.214.2 (51)

Məftun Nizami qızı Heydərova
Sumqayıt Dövlət Universitetinin dosenti

IV SİNİF RİYAZİYYAT DƏRSLİYİNDƏ TƏLİMİN MƏZMUNU VƏ ŞAGİRDLƏRİN RİYAZİ HAZIRLIĞINA VERİLƏN TƏLƏBLƏR

Мафтун Низами гызы Гейдарова
доцент Сумгаитского Государственного Университета

ТРЕБОВАНИЯ, ПРЕДЪЯВЛЯЕМЫЕ В УЧЕБНИКЕ МАТЕМАТИКИ IV КЛАССА К МАТЕМАТИЧЕСКОЙ ПОДГОТОВКЕ УЧАЩИХСЯ И СОДЕРЖАНИЮ ОБУЧЕНИЯ

Meftun Nizami Haydarova
assistant professor of the Sumgait State University

REQUIREMENTS TO BE TAKEN IN THE TEXTBOOK OF MATHEMATICS CLASS IV FOR THE MATHEMATICAL TRAINING OF PUPILS AND THE TRAINING CONTENT

Xülasə: IV sinfin sonunda şagirdlərin qazandıqları bilik, bacarıq və vərdişlər I-IV siniflərin riyaziyyat təlimi prosesində müəllim və şagirdlərin tədris fəaliyyəti nəticəsinin göstəricisi rolunu oynayır. Buraxılış sinifləri şagirdlərinin riyazi hazırlığına verilən tələblər təhsil proqramının əsas anlayışlarını əks etdirən mühüm nəzəri bilik, praktik bacarıq və vərdişlər verən mövzulara aid olmaqla siniflər arasında varisliyi təmin etməlidir.

Açar sözlər: *I-IV sinif riyaziyyat dərslikləri, riyaziyyatın təlimi prosesi, təhsil proqramı, məzmun xətləri, beynəlxalq təcrübə, varislik prinsipi*

Резюме: Знания, умения и навыки, приобретённые учениками I-IV классов играют показательную роль в процессе обучения математики. Требования, предъявляемые к математической подготовке учеников выпускных классов должны обеспечивать принцип наследственности между классами, а также отражать теоретические знания и практические навыки и умения, которые включены в образовательную программу.

Ключевые слова: *учебники математики I-IV классов, процесс обучения математики, образовательная программа, содержательные линии, международный опыт, принцип наследственности*

Summary: The knowledge and skills acquired by students in grades I-IV play an illustrative role in the process of learning mathematics. The requirements for the mathematical preparation of graduate students should ensure the principle of heredity between classes, as well as reflect the theoretical knowledge and practical skills that are included in the educational program.

Keywords: *Mathematics textbooks I-IV classes, math learning process, educational program, content lines, international experience, heredity principle*

İbtidai riyazi təhsilin bünövrəsi uşaqların bağça təhsilindən başlanılır. Sadə riyazi təsəvvürlərin formalaşdırılması öz məzmununa görə I-IV siniflərin riyaziyyat kursunun əsas məsələlərini əhatə edir. Bu cəhətdən IV sinifin sonunda şagirdlərin qazandıqları bilik, bacarıq və vərdişlər I-IV siniflərin riyaziyyat təlimi prosesində müəllim və şagirdlərin tədris fəaliyyəti nəticəsinin göstəricisi rolunu oynayır. Qeyd etmək lazımdır ki, I-IV siniflərin riyaziyyat dərsliklərində təlimin məzmunu, qoyulmuş məsələlərin ardıcıllığı və sistemi öz metodiki həllini hələ tam şəkildə tapmamışdır və bu sahədə tədqiqatlar, təkmilləşdirmə işləri davam edir. Yeni təhsil

proqramı məzmun etibarı ilə aşağıdakı məsələləri əhatə edir:

1. Fənlərin məzmunu (məzmun xətləri)

2. Təlim strategiyaları (təlim prosesi və onun təşkili formaları, təlimin planlaşdırılması, təlimin təşkili formaları və metodları)

3. Təlimdə şagird nailiyyətlərinin qiymətləndirilməsi (təşkili və prinsipləri, qiymətləndirmə növləri, qiymətləndirmə standartları) [2].

Göründüyü kimi, yeni təhsil proqramının məzmunu metodik sistem əmələ gətirməklə (təlimin məqsədi, məzmunu, metodları, təşkili formaları və vasitələri) ayrı-ayrı bölmələr şəklində (üç bölmədə) ifadə olunmuşdur.

Yeni təlim sisteminə aid sənəddə (kurikulum) IV sinif şagirdlərinin riyaziyyatdan hazırlıq səviyyəsi standartları aşağıdakı kimi təsvir olunmuşdur:

Şagird:

- ədəd anlayışını, ədədin strukturunu, ədədlər arasındakı münasibətləri başa düşdüyünü nümayiş etdirir, sadə kəsrləri tanıyır və şərhlər verir;

- hesab əməllərinin mənasını, xassələrini və onlar arasındakı əlaqəni başa düşdüyünü nümayiş etdirir və onlardan istifadə edir;

- ədədlər üzərində hesab əməllərini mükəmməl surətdə yerinə yetirir və təxminetmə bacarıqlarını nümayiş etdirir;

- riyazi ifadələrdən istifadə edir və şərhlər verir;

- istiqamət və məsafə anlayışları ilə bağlı sadə məsələləri sxematik təsvir əsasında həll edir və şərhlər verir;

- ədədi ifadələri müqayisə edir və sadə tənlikləri həll edir;

- sadə funksional asılılıqları riyazi şəkildə ifadə edir və şərhlər verir;

- sadə həndəsi fiqurların bəzi xassələrini bilir və onlardan çalışmalar həllində istifadə edir;

- eyni adlı kəmiyyətlərin müqayisəsini aparır və nəticəsini şərh edir;

- ölçü vahidlərindən və alətlərindən istifadə edərək kəmiyyətləri ölçür və nəticəsini qiymətləndirir;

- məlumatların təhlili üçün müvafiq metod seçir və tətbiq edir;

- toplanmış məlumatlara əsasən proqnozlar verir, sadə ehtimal anlayışını başa düşür və tətbiq edir [1;4].

Bu tələbləri I-IV siniflərin riyaziyyat kursu proqramı ilə müqayisə etdikdə, aydın olur ki, həmin tələblər əsasən çox sadə olub, bir sıra mühüm riyazi anlayışları, informasiyaları əhatə etmir. Bunları qeyd edək.

1. İbtidai siniflərdə iki hesablama növü: şifahi və yazılı hesablamalar tətbiq olunur və şifahi hesablama aparıcı rol oynayır və bu terminin adı çəkilmir, yalnız 3-cü bənddə "təxminetmə" sözü işlədilir. Qeyd edək ki, "təxminetmə" konkret riyazi termin deyil və aidiyyatı üzrə işlədilmir.

2. IV sinif şagirdi ədədin "mərtəbə" və "sinif" anlayışlarını bilir, çoxrəqəmli ədədi asanlıqla oxumağı bacarır.

3. IV sinif şagirdi adi kəsrləri tanıyır və "hissə" anlayışı ilə əlaqədar mürəkkəb məsələləri həll etməyi bacarır.

Qeyd edək ki, kitab (kurikulum) müəllifləri "mürəkkəb məsələ" və "çətin məsələ" terminlərini başa düşmədikləri üçün "mürəkkəb məsələ" əvəzinə "sadə məsələ" ifadəsini işlədirlər. Artıq birinci sinifdə şagirdlər ikiəməlli (mürəkkəb) məsələləri həll etməyi bacarırlar.

4. IV sinifdə hərəkətə aid (istiqamətli) məsələlərin (mürəkkəb) müxtəlif tiplərini həll etməyi bacarırlar və hər bir məsələnin əyani-illüstrativ sxemini (modelini) qurmağı bacarırlar.

5. Şagirdlər "tənlik" anlayışı ilə I sinifdə tanış edilir. IV sinif şagirdləri mürəkkəb məsələləri tənlik qurmaqla həll etməyi bacarırlar. Tətbiq olunan tənliklər də iki və daha çox əməl və mötərizə işarəsi də iştirak edir. Belə tənliklərə sadə tənlik demək olmaz. Sadə tənliklər $x+a=b$, $ax=b$, $x:a=b$ və s. kimi olur.

6. Elmi ədəbiyyatda ehtimal anlayışı var. Bunun "sadə ehtimal" anlayışına, "mürəkkəb ehtimal" anlayışına bölmək olmaz. Ehtimala aid məsələlər həllində sadə və mürəkkəb düsturlardan istifadə olunur.

7. Şagirdlərin praktik vərdişlərinə aid, xüsusən sadə həndəsi fiqurların qurulması, pərgar və xətkeşlə sadə qurmaları icra etmə bacarıqları haqqında proqramda heç nə deyilmir.

8. Şagirdlərin məsələ həlletmə bacarıqlarına aid heç bir qeyd yoxdur. Halbuki, V sinfə keçən şagirdlər zəruri olan bilik və bacarıqlara ma-

lik olmalıdırlar. Məsələn, "hissə" anlayışı ilə əlaqədar (bunlar III sinifdə öyrədilir) üç növ məsələyə aid biliklər V sinifdə faizə aid üç növ məsələ ilə varislik təşkil edir. Yəni fərq yalnız terminlərdədir, mahiyyət eyni ilə qalır.

Qeyd etmək lazımdır ki, buraxılış sinifləri şagirdlərinin riyazi hazırlığına verilən tələblər kurs proqramının əsas anlayışlarını əks etdirən mühüm nəzəri bilik, praktik bacarıq və vərdişlər verən mövzulara aid olmaqla siniflər arasında (məsələn, IV-V, IX-X) varisliyi təmin etməlidir.

İndi ibtidai məktəbin buraxılış sinfi – IV sinfin şagirdlərinin riyazi hazırlığı səviyyəsinə verilən tələbləri beynəlxalq təcrübələr səviyyəsində nəzərdən keçirək. Əsas ideya ondan ibarətdir ki, IV sinif şagirdinin ilin sonunda nümayiş etdirdiyi nəzəri biliklər və praktik bacarıq və vərdişlər sonrakı siniflərdə həm baza rolunu oynaya bilər, həm də varislik təmin olunar: yeni riyazi biliklər "dayaq" bilikləri üzərində qurulmaqla, şagirdin riyazi təhsili öz inkişafını tapır. Hər bir şagirdin malik olduğu bilik və bacarıqlar müəllimin və onun tədris fəaliyyətinin nəticəsidir. Bunu nəzərə alaraq, IV sinfin riyaziyyat kursu üzrə əsas anlayış və ideyalar istiqamətində bilik və bacarıqları təsnif edək.

I. Məntiqi – riyazi aspekt üzrə şagird:

- riyazi ifadələri (cəm, fərq, hasil, qismət),
- natural ədədləri,
- "qədər çoxdur", "qədər azdır", "dəfə çoxdur", "dəfə azdır" münasibətlərini,
- düzbucaqlının perimetri və sahəsini,
- həndəsi fiqurları (parça, şüa, düz xətt, dairə, çevrə, çoxbucaqlılar) fərqləndirməyi və müqayisə etməyi bacarmalıdır.

II. Şagird kəmiyyət anlayışının mahiyyətini, xassələrini dərk etməli və kəmiyyətlər arasındakı asılılıqları (funksional) və əlaqələri müəyyən etməyi bacarmalıdır.

Məsələ həlli prosesində kəmiyyətlər arasındakı asılılıqları riyazi ifadə, tənlik şəklində (model) ifadə etməyi bacarmalıdır.

III. Şagird: tədris və praktik məzmunlu məsələləri təhlil etməyi, qısa şəkildə yazmağı, məsələ məzmununu əyaniləşdirməyi, məsələni: a) əməllər üzrə, b) ifadə tərtib etməklə, tənlik qurmaqla həll etməyi, verilənlərə görə məsələ və onun tərs məsələsini tərtib etməyi, ehtimala aid sadə situasiyalara aid məsələləri həll etməyi, həllə izahat verməyi bacarmalıdır.

IV. Şagird: hesab əməllərinin mənasını, komponentlərlə nəticə arasında əlaqəni və funksional asılılıqları izah etməyi, çoxrəqəmli ədədləri siniflər üzrə cəld oxumağı və yazmağı, şifahi və yazılı hesablamaların oxşar və fərqli cəhətlərini göstərməyi, əməllər sırası qaydalarını izah və tətbiq etməyi, hesab əməlləri xassələrinin tətbiqi imkanlarını (xüsusən, şifahi hesablamalarda) göstərməyi bacarmalıdır.

V. Həndəsi kəmiyyətlərdən bucağın ölçülməsi üçün ölçü vahidi kimi "düzbucağın" daxil edilməsi və onun əsasında bucaqların təsnifi, dördbucaqlıların təsnifi, üçbucağın tərəflərinə görə və bucaqlarına görə təsnifi, miqyas anlayışı və coğrafiyada miqyasın tətbiqi, yazılışı və onun şərhi, plançəkmə elementləri ilə tanışlıq.

Ədəd anlayışının inkişafı bilavasitə həm də həndəsi kəmiyyətlərlə bağlıdır. Bu cəhətdən şagirdlərin fəza təsəvvürlərinin inkişafı həm müstəvi üzərində və həm də fəzada reallaşdırılmalıdır.

VI. Şagirdlərdə qrafik – ölçmə bacarıqlarının formalaşdırılması IV sinifdə öz əksini tapmalıdır. Bu bacarıq və vərdişlər təkcə riyaziyyat təliminə deyil, həm də digər fənlərdə, məsələn, "Rəsm", "Təsviri incəsənətdə", "Ətraf aləm"də və b. öz tətbiqini tapır. Həndəsi fiqurların kağız üzərində düzgün çəkilməsi və onların modellərinin hazırlanması, sadə həndəsi qurmaların icra edilməsi V-VI siniflərdə həndəsə materialını mənimsəməkdə dayaq rolunu oynayır. Belə ki, IV sinifdə xətkeş, pərgar və transportirdən istifadə vərdişlərinin qazanılması şagirdlərin həndəsədən nəzəri biliklərinin zənginləşməsinə kömək edir.

Simmetriya elementlərinin ibtidai siniflərə gətirilməsi ətraf aləmdə mövcud simmetrik əşyaları (obyektləri) tapmağa və onların həm də (ilk növbədə) həndəsə ilə əlaqələndirilməsi riyaziyyat təliminin həyatla əlaqələndirilməsini təmin edir.

Beləliklə, IV sinfi bitirən şagird:

1. Bilməlidir:

- çoxrəqəmli ədədin mərtəbə sinifləri üzrə oxumağı və yazmağı,
- tədris olunmuş kəmiyyətlərin ölçü vahidlərini, onları xırdalamağı və çevirməyi,
- miqyas haqqında anlayış, plançəkmə elementlərini,

- bucaqları, üçbucaqları (bucaq və tərəfinə görə) təsnif etməyi.

2. Fərqləndirməyi:

- müstəvi fiqurları və onları elementlərinə görə,

- fəza fiqurlarından kub, paralelepipedin elementlərinin adlarını, kürə, silindir və konusun elementlərinin adlarını bacarmalıdır.

3. Müqayisə etməyi:

- çoxrəqəmli ədədləri,

- bucaqları,

- münasibətləri (>, =, <) onların xassələrinə görə bacarmalıdır.

Verilən təhlildən göründüyü kimi, I-IV siniflərdə şagirdlərin riyaziyyatdan bilik, bacarıq və vərdişlərini təmin edən bir sıra məsələlər proqramda ya öz əksini tapmamış və ya qismən tapmışdır.

Problemin aktuallığı. IV sinfi bitirən şagirdin riyaziyyatdan malik olduğu bilik, bacarıq və vərdişlər yuxarı siniflərdə həmişə tətbiq olunduğundan ibtidai siniflərin riyaziyyat kursunun əsasını təşkil edən məzmun xətləri spiralvari şəkildə reallaşdırılmalıdır.

Problemin yeniliyi. I-IV siniflərin riyaziyyat dərsliklərində təlimin məzmunu, qoyulmuş məsələlərin ardıcıllığı və sistemi öz metodiki həllini hələ tam şəkildə tapmamışdır və bu sahədə tədqiqatlar, təkmilləşdirmə işləri davam edir.

Problemin praktik əhəmiyyəti. Riyaziyyatın ibtidai kursu – inteqrativ kurs olmaqla, həndəsə materialı həm öyrənmə obyekti və həm də öyrənmə prosesində tətbiq olunan vasitə cəhətdən olduqca mühüm əhəmiyyət kəsb edir.

Ədəbiyyat:

1. Adıgözəlov A.S., Həsənova X.S. Riyaziyyatın ibtidai kursunun tədrisi metodikası. Bakı, 2011.

2. Azərbaycan Respublikasının ümumi orta təhsilin dövlət standartları. Azərbaycan təhsil siyasəti (1998-2004), I kitab. Bakı: "Çaşıoğlu", 2005.

3. Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum). Bakı, 2006.

4. Həmidov S.S. I-IV siniflərdə riyaziyyatın tədrisi metodikası. Bakı, 2012.

E-mail: meftun.heyderova.82@mail.ru

Rəyçilər: *dos.***X.S. Həsənova**
*dos.***F.F. Əliyev**
Redaksiyaya daxil olub: 05.12.2018.

UOT 37.01.

Mübariz Xasay oğlu Əsədov

Səbinə Arzu qızı Hümbətli
Azərbaycan Dövlət Pedaqoji Universiteti

İBTİDAİ SİNİFLƏRDƏ RİYAZİ MƏSƏLƏ HƏLLİNİN ÖYRƏDİLMƏSİ

Мубариз Хасай оглу Асадов

Сабина Арзу гызы Гумбатли
Азербайджанский Государственный Педагогический Университет

ОБУЧЕНИЕ РЕШЕНИЯ МАТЕМАТИЧЕСКИХ ЗАДАЧ В НАЧАЛЬНЫХ КЛАССАХ

Mubariz Khasay Asadov

Sabina Arzu Humbatli
Azerbaijan State Pedagogical University

TEACHING SOLUTIONS OF MATHEMATICAL TASKS IN PRIMARY GRADES

Xülasə: İbtidai siniflərin riyaziyyat kursunda məsələ həlli əsas təlim vasitələrindən biri hesab olunur. Məsələlərin müxtəlif əsaslar üzrə təsnif edilməsi və təlim prosesində onlardan səmərəli istifadə həmişə aktualdır. Bu məqalədə məsələ həlli zamanı mövcud problemlər araşdırılmışdır.

Açar sözlər: *məsələ həlli, kəmiyyət, riyazi biliklər, alqoritmik məsələlər, məntiqi məsələlər*

Резюме: Решение математических задач в начальных классах считается одним из средств обучения. Всегда актуально классифицировать задачи по различным основаниям и эффективно использование их в процессе обучения. В этой статье были изучены проблемы при решении математических задач.

Ключевые слова: *решение задач, величина, математические знания, алгоритмические задачи, логические задачи*

Summary: Solving mathematical tasks in primary classes considered one of the main tutorials. It is always relevant to classify tasks of various bases and their effective use in the process of teaching. In this article problems at the solving of mathematical tasks have been investigated.

Keywords: *problem solving , magnitude, mathematical knowledge, algorithmic tasks, logic tasks*

Təhsildə aparılan islahatlar və təlimdə tətbiq olunan müasir texnologiyalar şagirdlərə hazır və əzbər şəkildə biliklərin verilməsinin əleyhinədir. Təcrübə göstərir ki, əldə olunan riyazi biliklər praktik məsələlərin həllinə tətbiq ediləndə şagirdlərdə həmin fənnə qarşı inam artır. Nəzəri biliklərin praktikaya tətbiqi şagirdlərdə yaradıcı fəaliyyətin inkişafına imkan yaradır. Məsələ həll etmək bacarığı şagirdlərin riyazi bilik və anlayışlarının mənimsənilmə göstəricisi kimi də qəbul edilə bilər. Məsələ və onun həll edilməsi hər bir insanın gündəlik fəaliyyətində qarşılaşdığı mühüm anlayışlardan biridir. İnsanların məişətdə rast gəldiyi bəzi məsələlər sırf riyazi məsələ olub riyazi hesablamalar vasitəsilə həll edilir. İbtidai sinif şagirdlərinin riyazi və məntiqi təfəkkürlərinin formalaşması, öyrəndikləri nəzəri və praktik biliklərin real həyatla əlaqələndirilməsi, əsasən, məsələ həlli vasitəsilə həyata keçirilir.

Müəllim çalışmalıdır ki, sinifdə təklif olunan məsələlərin məzmunu real həyatdan götürülsün və məsələnin məzmunundakı kəmiyyətlərin ədədi qiymətləri reallığı əks etdirsin. Aşağıdakı məsələləri nəzərdən keçirək:

1. Sahəsi 20 sm^2 olan düzbucaqlını iki hissəyə ayırsaq, alınan hissələrin sahəsi nə qədər olar?

2. Sahəsi 20 sm^2 olan düzbucaqlını iki bərabər hissəyə ayırsaq, alınan hissələrin sahəsi nə qədər olar?

Həndəsə məzmun xəttinə aid olan bu məsələlərin həlli prosesində şagirdlər məlum biliklərdən istifadə etməklə, analiz yolu ilə yeni biliklər əldə etməsinə imkan yaranır. Məlumdur ki, sahə anlayışı ibtidai siniflərin riyaziyyat kursunda öyrənilən əsas kəmiyyətlərdən biridir. Kəmiyyətə aid olan əsas xassələrdən biri onun ədədi qiymətinin müsbət ədədlə ifadə olunması və additivlik xassəsinin ödənilməsidir.

İbtidai siniflərdə yalnız mənfi olmayan tam ədədlərdən istifadə olunduğu üçün məsələ 1-in sonlu sayda müxtəlif həlləri mövcuddur. Məsələnin həlli zamanı motivasiyanı gücləndirmək üçün şagirdlərə aşağıdakı suallarla müraciət etmək olar:

- düzbucaqlını iki hissəyə ayırdıqda hansı formalı fiqurlar alınar?
- düzbucaqlını iki hissəyə böldükdə bir üçbucaq alına bilərmi?
- düzbucaqlını iki bərabər hissəyə ayırdıqda hansı həndəsi fiqurlar alına bilər?
- düzbucaqlını üç, dörd hissəyə ayırdıqda hansı həndəsi fiqurlar alına bilər?

Məsələ 1 yuxarı sinif şagirdləri üçün həlli təklif olunarsa (ədəd anlayışının genişləndirilməsi baxımından), onda bu məsələnin sonsuz sayda həllinin olması nəticəsinə gəlmək olar. Lakin məsələ 2-nin ibtidai və ya yuxarı sinif şagirdləri üçün həll edilməsindən asılı olmayaraq, onun yeganə həllinin olması nəticəsinə gəlmək olar. Deməli, bəzi məsələlərin həllində alınan nəticələr fərqli ola bilər və bunun əsas səbəbi şagirdlərin bilik səviyyələrinin siniflər üzrə fərqli olmasıdır.

Məsələ 2-nin məzmunu məsələ 1-in məzmunundan yalnız "bərabər" sözünə görə fərqlənir. "Bərabər" sözünə görə bu məsələlərin həlləri tamamilə fərqlənirlər. Eyni zamanda, məsələ 2-nin həlli yeganədir və xüsusi halda məsələ 1-in həllindən alınır. İbtidai siniflərin riyaziyyat kursunda həll olunan bəzi məsələlərin həllində "qohum", "alt" məsələ anlayışlarından geniş istifadə olunur. Belə məsələlərdə, adətən, verilmiş mürəkkəb məsələnin bir neçə sadə məsələyə ayrılması və ya ona uyğun məsələ ilə əvəz edilməsi nəzərdə tutulur. Bu prosesin əsas mahiyyəti məsələdə verilən situasiyanı asanlaşdırmaqla şagirdin başa düşdüyü şəkildə əyaniləşdirmə təsvir olunur. Məsələdə verilən situasiyanın reallaşdırılması elə modelləşdirmənin (əyaniliyin) bir növüdür. Məsələnin məzmununun dərk edilməsi, məsələdə verilən situasiyanın əyaniləşdirilməsi zamanı şagirdlər müəyyən çətinliklərlə rastlaşırlar.

Şagirdlərin məsələ həllində rast gəldikləri çətinliklər müxtəlif şəkildə xarakterizə oluna bilər:

- məsələnin növünün təsnif edilməsində və kəmiyyətlər arasındakı asılılıqların aşkar olunmasında yaranan problemlər.
- məsələnin məzmununun oxunmasında şagirdin riyazi nitqi ilə əlaqədar yaranan problemlər.

Bu halda məsələnin məzmununda verilənlərin səhv tələffüz olunması və ya nəticənin riyazi ifadələrlə təsvirində yanlışlığa yol verilməsi başa düşülür:

- verilən məsələnin sadə məsələlərə (alt məsələlərə) ayrılmasında şagirdlər çətinlik çəkirlər. Təlim prosesinin bu mərhələsində şagirdlərin reproduktiv hazırlıqlarının zəif olması və həmin mərhələdə fəndaxili inteqrasiyanın təşkilində qüsurların mövcudluğu nəzərdə tutulur;
- şagird məsələnin məzmunundakı kəmiyyətlər arasındakı asılılıqları düzgün riyazi dilə çevirə bilmir. Buna əsas səbəb kimi şagirdin sözlərlə ifadəsini riyazi ifadə şəklində yazmasında hesab əməllərinin mənasının düzgün dərk etməməsi hesab oluna bilər.

Məsələ ibtidai siniflərdə əsas kəmiyyətlərin daxil edilməsi və ölçülməsində vasitə kimi verilməklə yanaşı, şagirdlərin məntiqi və riyazi təfəkkürünü formalaşdıran və inkişaf etdirən praktik fəaliyyət növü kimi də daxil edilə bilər.

Məsələ həlli təlimini, eyni zamanda, riyazi biliklərin praktikada, həyatda tətbiq edilməsi və hər hansı bir situasiyanı riyaziləşdirməyə onun modelini qurmağı istiqamətləndirən vasitə kimi həyata keçirilir.

Məlumdur ki, məsələlər didaktik məqsədlərinə görə idraki, məşqetdirici və inkişafetdirici kimi təsnif olunması məsələdə iştirak edən kəmiyyətlərin asılılığından irəli gəlir.

İdraki məsələlərin həlli prosesində şagirdlər yeni biliklər, məşqetdirici məsələlərin həlli nəticəsində isə şagirdlər bacarıq və vərdişlər əldə edirlər. İnkişafetdirici məsələlərin həlli nəticəsində şagirdlərin ümumi dünyagörüşü və yaradıcı təfəkkürü inkişaf edir. Standart olmayan riyazi məsələlər şagirdlərin riyazi intuisiyasını inkişaf etdirir (1). İbtidai siniflərin riyaziyyat kursunda həll olunan məsələlərin standart və qeyri-standart məsələlər adlandırılması nisbidir. İnkişafetdirici məsələlərin həlli prosesində idraki və məşqetdirici məsələlərin həllinə istinad olunur. Çoxluq baxımından təsnif etsək, idraki və məşqetdirici məsələlər inkişafetdirici məsələlərin alt çoxluğu kimi daxil edilə bilər. Məsələn, 2-ci sinifdə həll olunan hər hansı məsələ qeyri-standart məsələ kimi qəbul edildiyi halda, həmin məsələ 3-cü sinifdə standart məsələ kimi qəbul edilə bilər. Kurikulum əsasında yazılan riyaziyyat dərsliklərində qeyri-standart məsələlərin həllinə müəyyən yer ayrılmışdır. İbtidai siniflərin riyaziyyat dərsliklərində və müəllim üçün nəzərdə tutulan metodik vəsaitlərdə ümumi şəkildə məsələlərin təsnifinə yer ayrılmamışdır. Lakin dərsliklərdə verilən məsələləri metodik baxımdan təhlil etdikdə müxtəlif növ məsələlərə rast gəlmək olar.

Məsələ həllində şagirdlərin rast gəldiyi çətinliyi aradan qaldırmaq üçün müəllim müxtəlif praktik metod və vasitələrdən istifadə edilə bilər. Məsələn, məsələnin məzmununun şəkillər, illüstrasiya, cədvəl və sxemlər vasitəsilə əyaniləşdirilməsi; sualsız məsələlərin təqdim edilməsi və s. Sualsız məsələnin tərtib edilməsi və bu tip məsələlərin suallarının şagirdlər tərəfindən müəyyən etməsinə imkan yaratmaq lazımdır. Bu şəkildə yanaşma əlverişli və səmərəlidir. Çünki şagird məsələnin sualını qoymaq üçün onun məzmununu, kəmiyyətlər arasındakı asılılıqları, verilənləri ayırd etməlidir. Deməli, sualsız məsələnin verilməsi və sualı tapmaq, şagirdləri düşünməyə və öyrənməyə təhrik edən vasitədir. Bu üsul həm də şagirdə məsələ tərtib etməyin yollarını öyrədir. Şagird məsələ tərtib etməklə məsələnin riyazi strukturunu, yəni nəzəri materialları şüurlu şəkildə dərk edir.

Problemin aktuallığı. Riyaziyyat təlimində məsələ həlli məzmun xətlərinin məzmununun açılmasında əsas vasitə hesab olunduğundan, onun tədqiqi həmişə aktualdır.

Problemin elmi yeniliyi. İbtidai siniflərin riyaziyyat kursunda məsələlərin müxtəlif əsaslar üzrə təsnif edilməsi zamanı şagirdlərin rast gəldiyi çətinliklər araşdırılmışdır. Mövcud problemlərin yaranma səbəbləri və onların aradan qaldırılması istiqamətləri müəyyən edilmişdir..

Problemin praktik əhəmiyyəti. Praktik yolla müəyyən edilmiş bilik və bacarıqlar əsasında təklif olunan metodik yanaşma ibtidai siniflərdə məsələlərin həlli prosesində istifadə oluna bilər.

Ədəbiyyat:

1. Həmidov S.S., Hacıyev N.M. Məktəbin ibtidai siniflərində məsələ həlli təliminin nəzəri və metodiki problemləri. Bakı, 2008.

2. Qəhrəmanova N.M. Riyaziyyat-4. Dərslik. Bakı, 2011.

3. Qəhrəmanova N.M. Riyaziyyat-4. Müəllim üçün metodik vəsait. Bakı, 2011.

4. М.А. Бантова и др. Методика преподавания математики в начальных классах. М., Просвещение, 2008.

E-mail: mubariz.esedov.66@ mail.ru

Rəyçilər: *ped. ü.elm.dok., prof.* **A.S. Adıgözəlov,**
ped. ü.fəls.dok., dos. **S.C. Tağıyeva**
Redaksiyaya daxil olub: 04.12.2018.

UOT 37.01.

Firidə Firudin qızı Mustafayeva
pedaqogika üzrə fəlsəfə doktoru,
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialının kafedra müdiri

İNKİŞAFETDİRİCİ ÇALIŞMALAR VƏ ONLARIN İBTİDAİ SİNİFLƏRİN RİYAZİYYAT DƏRSLƏRİNDƏ ROLU VƏ ƏHƏMİYYƏTİ

Фирида Фирудин гызы Мустафаева
доктор философии по педагогике, заведующая кафедрой Шемахинского филиала Азербайджанского Государственного Педагогического Университета

РАЗВИВАЮЩИЕ ЗАДАНИЯ И ИХ РОЛЬ И ЗНАЧЕНИЕ НА УРОКАХ МАТЕМАТИКИ В НАЧАЛЬНЫХ КЛАССАХ

Firida Firudin Mustafayeva
PhD in pedagogy,
head of the department of the Shemakhi branch of
Azerbaijan State Pedagogical University

DEVELOPING TASKS AND THEIR ROLE AND VALUE AT THE LESSONS OF MATHEMATICS IN THE PRIMARY GRADES

Xülasə: Təlimin səmərəliliyinin yüksəldilməsində inkişafetdirici çalışmalar böyük potensial imkanı yaratdığına görə belə çalışmaların didaktik funksiyalarının dərindən öyrənilməsi vacibdir. İnkişafetdirici çalışmalar bir sistem kimi müəyyən prinsiplərə cavab verməlidir. İbtidai məktəblərdə riyaziyyat təliminin təkmilləşdirilməsi müasir məktəbin ən vacib məsələlərindən biridir. Məqalədə inkşafetdirici çalışmaların ibtidai siniflərin riyaziyyat dərslərində rolu və əhəmiyyəti geniş şəkildə tədqiq edilmişdir.

Açar sözlər: *didaktik materiallar, kurikulum, təfəkkür, sxem, çertyoj, şəkil*

Резюме: В связи с тем, что развивающие задания создают большие потенциальные возможности в повышении эффективности обучения, важным является глубокое усвоение их дидактических функций. Развивающие задания как система должны соответствовать определенным принципам. Усовершенствование преподавания математики в начальных школах является одной из задач современной школы. В статье широко исследована роль и значение развивающих заданий на уроках математики начальных классов.

Ключевые слова: *дидактические материалы, курикулум, мышление, схема, чертёж, рисунок*

Summary: It is important to do mental developing exercises in order to create efficiency of teaching . Creating exercises must reily the difinit princips as a system. İt is one of the most important problem in modern schools in order to train teaching maths in primary schools. In the article it is investigated exercises.

Key words: *didactik matetials, curriculum, mentality, scheme, sketch, picture*

Cəmiyyətin məktəb qarşısında qoyduğu əsas vəzifə – hərtərəfli inkişaf etmiş şəxsiyyətlər hazırlamaqdan ibarətdir.

İbtidai məktəblərdə riyaziyyat təliminin təkmilləşdirilməsi müasir məktəbin ən vacib problemlərindən biridir. İbtidai siniflərdə riyaziyyat təliminin məzmun və metodlarının təkmilləşdirilməsi ilə yanaşı şagirdlərdə yüksək maraq, təşəbbüskarlıq və fəallıq təmin olunmalıdır. Təcrübə göstərir ki, ibtidai siniflərdə riyaziyyat dərslərinin daha maraqlı olması və şagirdlərin fəallaşdırılması üçün səmərəli yollardan biri də inkişafetdirici çalışmalardan istifadə edilməsindən ibarətdir. İnkişafetdirici çalışmalardan istifadə zamanı şagirdlərin marağı, təşəbbüskarlığı, təfəkkür müstəqilliyi, fəallığı yüksə-

lir, özünənəzarət və riyazi əsaslandırma qabiliyyətləri formalaşır.

Riyaziyyatdan inkişafetdirici çalışmalar dedikdə aşağıdakılar nəzərdə tutulur: şagird bu çalışmaları həll edərkən müşahidə, müqayisə aparmalı, müstəqil nəticə çıxartmalı, həllin mümkün üsullarını tapmağı, öz fikrini əsaslandırmağı, müəyyən qanunauyğunluğu aşkar etməyi bacarmalıdır.

Təlimin səmərəliliyinin yüksəldilməsində inkişafetdirici çalışmalar böyük potensial imkanlar yaratdığına görə belə çalışmaların didaktik funksiyalarının dərindən öyrənilməsi vacibdir.

Riyaziyyat təlimində tətbiq edilən inkişafetdirici çalışmaları didaktik funksiyalarına görə aşağıdakı kimi qruplara ayırmaq olar:

1. Yeni biliyin verilməsinə xidmət edən çalışmalar.
2. Biliklərin tətbiqinə xidmət edən çalışmalar.
3. Şagirdlərin riyazi dünyagörüşünü möhkəmləndirməyə xidmət edən çalışmalar.

Yuxarıdakı təsnifat şərtidir, çünki eyni zamanda bir məsələ bir neçə didaktik funksiyaya malik ola bilər.

İnkişafetdirici təlim ideyaları məktəblilərin yaradıcı fəallığını artırmaq üçün dərsin hər mərhələsində müstəqil işlərin geniş tətbiqini tələb edir. Bununla belə, şagirdlərin ən yüksək fəallığı yeni materialın müstəqil mənimsənilməsi zamanı əvvəl qazanılmış bilikləri yeni tədris vəzifələrinin həllinə tətbiqetmə yollarını axtararkən daha qabarıq şəkildə meydana çıxır.

Uşağa şəxsiyyət kimi müraciət etməli, onun ən yaxşı keyfiyyətlərini inkişaf etdirməliyik. Ona görə də təlim inkişafetdirici olmalı, uşağın əqli, zehni fəallığını biliklərlə zənginləşdirməli, idraki maraqlarını formalaşdırmalıdır. Bu dərslər əyani, obrazlı olmalıdır. Əyani təlim uşaqlarda görmə yaddaşını möhkəmləndirməyə və qətiyyətli olmağa kömək edir. K.D. Uşinski: "uşaq rənglərlə, formalarla, surətlərlə fikirləşir, buna görə də əyaniliyin köməyi ilə hər şey asan və daha möhkəm mənimsənilir," - deyə əyaniliyin zəruriliyini əsaslandırırdı.

III-IV siniflərdə şagirdlərin müşahidəçilik qabiliyyətinin və təfəkkürünün inkişafına aid tapşırıqlara daha geniş yer verilmiş, bunun üçün müşahidə, müqayisə, təhlil, tərkib ümumiləşdirmə, təsnif və məntiqi düşüncə tələb edən çalışmalar sistemi verilmişdir.

Riyaziyyat dərslərində seçilmiş məsələlərin həlli şagirdlərin yaradıcı, intellektual qabiliyyətlərini və məntiqi düşünmə bacarıqlarının inkişafına kömək edir. Məntiqi düşünmə bacarıqlarının inkişaf etdirilməsi kiçik yaşlı şagirdlərin riyazi dünyagörüşünü daha da genişləndirir və gündəlik həyatda ətraf mühitin qanuna-uyğunluqlarını daha inamla dəyərləndirməyə kömək edir. Bu məsələlər şagirdlərdə intellektual səviyyəni artırmağa kömək edir, onların araşdırma və düşünmə qabiliyyətinin daha da inkişaf etməsinə səbəb olur.

İbtidai siniflərdə şagirdlərin riyaziyyata marağını artırmaq və onların riyazi hazırlığını təmin etmək üçün elə şərait yaratmaq lazımdır ki, şagirdlər qarşıya çıxan çətinlikləri müstəqil surətdə aradan qaldırmaqla irəli sürülmüş məsələni həll etsinlər. Bu da, öz növbəsində, məktəblilərin təfəkkürünün, öz fikrini qısa, dəqiq, aydın və düzgün ifadə etmək bacarığının inkişafı, onlarda müstəqillik və təşəbbüskarlıq, əməyə məhəbbət, məsuliyyət hissi, qarşıya çıxan çətinliklərin dəf edilməsi üçün iradi keyfiyyətlərin tərbiyə olunması, başqa sözlə, şagirdlərin ümumi inkişaf səviyyəsi üçün geniş imkanlar açır.

Əyləncəlilik öz mahiyyətinə görə marağın ifadə etdiyi bütün pedaqoji funksiyaları ifadə edir. Buna görə də Y.I. Perelman qeyd edir ki, riyaziyyat təlimində əyləncəlilik vasitəsi ilə ən ciddi materialları elə mənimsətmək olar ki, şagird təfəkkürünün dinamikliyinə geniş şərait yaranar. Onun fikrincə, əyləncəli çalışmaların estetikliyi yüngül yumordan, gözlənilməzlikdən, orijinallıqdan və sadəlikdən ibarətdir. Bu zaman şagirdlərin təlim fəaliyyətlərinin növünün dəyişdirilməsinə xüsusi diqqət verilməlidir. Dərsin hər bir mərhələsində təlim prosesi elə təşkil olunmalıdır ki, şagird öz fəaliyyətini dərin dərk etsin, məqsədin təkcə əyləncəlikdən ibarət olmadığını başa düşsünlər. Bu işdə şagirdlərin düşünmək, nəticə çıxarmaq qabiliyyətlərinin inkişafı və ümumiyyətlə, onlarda təfəkkürün dinamikliyi xüsusi rol oynayır. Ona görə də əyləncəli çalışmaların didaktik funksiyalarına diqqət verilməlidir.

Əyləncəli məsələləri iki qrupa bölmək olar:

- əyləncəli məzmuna malik məsələlər – həllinin çox sadə və qeyri-adiliyi ilə seçilən məsələlər;

- maraqlı məzmuna malik olmaqla, məntiqi mühakimə tələb edən məsələlər.

Bir əyləncəli məsələ nümunəsinə baxaq.

Məsələ 1. Fərhad məktəbə 18 konfet apardı. O, konfetlərin üçünü yolda yedi. Məktəbdə hər dəfə konfet yeyərkən Məltəmi və ya Sevinci qonaq etdi, üç dəfə isə o, hər iki qızı qonaq etdi. Bütün konfetlər yeyildisə, Fərhad neçə konfet yedi?

Həlli. Fərhad 3-nü yolda yedi, üç dəfə isə o, hər iki qızı qonaq etdi – 9 konfet yeyildi, bundan 3-nü Fərhad yedi. Qaldı 18–3–9=6 konfet. Bu 6 konfetdən isə hər dəfə konfet yeyərkən Məltəmi və ya Sevinci qonaq etdi, yəni 3-nü Fərhad yedi. Deməli, Fərhad 3+3+3=9 konfet yeyib.

Cavab: 9

III-IV siniflərdə ikinci növ məsələlərin həlli prosesində şagirdlər riyazi isbatın elementləri ilə tanış olur, təklifi əsaslandırma bacarıqlarına yiyələnirlər.

III-IV siniflərdə həll olunan maraqlı məsələ həlli nümunələrinə baxaq.

Məsələ 2. Köhnə saat hər saatda 20 saniyə geri qalır. Saat 12-də düzəldilmiş saat, bir sutkadan sonra hansı vaxtı göstərəcək?

Həlli. Əgər hər saatda 20 saniyə geri qalırsa, onda bir sutkada 24·20=480 san və ya 8 dəqiqə (480:60=8) geri qalar. Onda saat 12-də düzəldilmiş saat, bir sutkadan sonra saat 11.52-ni göstərəcək.

Cavab: 11:52

Məsələ 3. Bizim futbol komandası 31 oyun oynadı. Bu oyunlardan yeddisi heç-heçə başa çatdı. Komandamız 64 xal qazandı (3 xal – qələbəyə görə, 1 xal – heç-heçəyə görə, 0 xal – məğlubiyyətə görə). Komandamız neçə oyunu uduzub?

Həlli. Komanda 7 oyunu heç-heçə oynadığı üçün 7 xal qazanıb. Deməli, qazanılan ümumi xalın 57 xalı (64–7=57) qələbəyə görə qazanılıb. Onda komanda 19 oyunda (57:3=19) qələbə qazanıb. Deməli, komanda 5 oyunda (31–7–19=5) uduzub.

Məsələ 4. Elə ən kiçik ədəd tapın ki, bu ədədi 2-yə, 3-ə, 4-ə, 5-ə, 6-ya böldükdə, qalıqda uyğun olaraq 1,2,3,4,5 alınsın.

Həlli. Axtarılan ədədi 2-dən 6-ya qədər olan ədədlərə böldükdə alınan qalıqlar böləndən bir vahid kiçik olur. Onda həmin ədədi bir vahid artırsaq, o 2-dən 6-ya qədər olan bütün ədədlərə bölünər. 2-dən 6-ya qədər ədədlərə bölünən ən kiçik ədəd isə 2·3·4·5=60 olduğundan, axtarılan ədəd 59 (60–1=59) olar.

Cavab: 59

Lakin qeyd etməliyik ki, inkişafetdirici çalışmalar I-IV siniflər üçün müəyyən təsnifata malik olmalı və bir sistem kimi müəyyən prinsiplərə cavab verməlidir. Bu çalışmalardan şagirdlərin asudə vaxtlarında da istifadə olunması yenə də təhsil və tərbiyə məqsədlərinə xidmət etməlidir. Məktəblinin əqli inkişafı ilə biliyinin səviyyəsi arasında müəyyən asılılıq mövcuddur. Lakin əqli inkişafı şagirdin mənimsədiyi biliklərin həcmi ilə müəyyən etmək düzgün deyil. Çünki əqli inkişaf etdirmək üçün bir sıra təfəkkür əməliyyatlarına sahib olmaq lazımdır. İnkişafetdirici çalışmalar həm çətinlik dərəcəsinə görə, həm də xüsusiyyətlərinə görə müxtəlif olur.

İnkişafetdirici riyazi çalışmalar inkişafetdirici təlimin də başlıca vasitəsi rolunu oynayır. Əyləncəli çalışmaların məzmunu həyatla əlaqədar olduqda, onların təlim əhəmiyyəti də yüksək olur.

Problemin elmi yeniliyi. İnkişafetdirici çalışmalardan istifadə edilməsi işində tətbiq olunan vasitələr, formalar və yollar irəli sürülən müddəalar təlim nəzəriyyəsinin müəyyən qədər zənginləşdirəcəkdir.

Problemin praktik əhəmiyyəti. Riyaziyyat təlimində ibtidai sinif şagirdlərinin təfəkkürünün inkişaf etdirilməsində inkişafetdirici çalışmalardan istifadə edilməsinə dair irəli sürülən ideyalardan çoxsaylı ibtidai sinif müəllimləri faydalana bilərlər.

Problemin aktuallığı. Riyaziyyat təlimində inkişafetdirici çalışmaların günün tələbləri səviyyəsində qaldırılması ilə izah oluna bilər.

Ədəbiyyat:

1. Kazımov Z., Tağıyeva S. Riyaziyyat təlimində inkişafetdirici çalışmalardan istifadə yolları (I-IV siniflər), Bakı: 2017.
2. Kurikulum jurnalları . 2008-2017-ci illər
3. Mustafazadə S.V. 3-4 sinifdə riyaziyyat kursunda inkişafetdirici məsələlərin rolu və əhəmiyyəti, Bakı, 2017.
4. Богомолова О.Б. Логические задачи, М., 2013.
5. www.kurikulum.az

E-mail: firide_mustafayeva.57@mail.ru
Rəyçi: *dos.* **T.B. Əsədov**
Redaksiyaya daxil olub: 19.11.2018.

UOT 37.01.

Zaman Zahid oğlu Məmmədov
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi, əməkdar müəllim

İBTİDAİ SİNİFLƏRDƏ ŞİFAHİ HESABLAMA ÜSULLARI VƏ ONLARIN TƏLİM PROSESİNDƏ TƏTBİQİ

Заман Захид оглы Мамедов
преподаватель Азербайджанского Государственного Педагогического Университета
заслуженный учитель

СПОСОБЫ УСТНОГО ВЫЧИСЛЕНИЯ В НАЧАЛЬНЫХ КЛАССАХ И МЕТОДЫ ИХ ПРИМЕНЕНИЯ

Zaman Zahid Mammadov
lecturer at Azerbaijan State Pedagogical University,
honored teacher

METHODS OF APPLICATION AND THEIR APPLICATION IN THE PROCESS OF TRAINING IN PRIMARY GRADES

Xülasə: Məqalədə təlim prosesində və dərsdənkənar məşğələlərdə şifahi hesablama metodikasından, şifahi hesablama üsullarından, şifahi hesablama ilə yazılı hesablama arasındakı fərqlərdən, şifahi hesablamaya aid çalışmanın verilməsi formalarından, dərsdə şifahi hesablama məşğələlərinin növlərindən, şifahi hesablama məşğələlərinin təşkili və aparılması qaydalarından bəhs olunur.

Açar sözlər: *şifahi hesablama, yazılı hesablama, ümumi üsul, xüsusi üsul, misal, sadə və mürəkkəb misal, çalışma, məsələ, metodika, riyazi əməllər, qaydalar, ardıcıl vurma və bölmə, bölünmə əlamətləri*

Резюме: В статье рассказывается о методике устного вычисления в процессе обучения и во внеурочных занятиях, о приемах устного вычисления, о разнице между устным и письменным вычислением, о формах поручения домашнего задания по устному вычислению, о видах устных упражнений, выполняемых на уроках, о правилах организации и проведения занятий по устному вычислению.

Ключевые слова: *устное вычисление, письменное вычисление, общий прием, особый прием, простой и сложный пример, упражнение, задача, методика, математические действия, правила, последовательное умножение и деление, приметы делимости*

Summary: The article deals with the methodology of oral calculation, methods of oral calculation, differences between oral and written calculation, forms of assigning exercises related to oral calculation, types of oral calculation trainings at classes, ways of arranging and conducting oral calculation trainings during lessons and extracurriculars.

Key words: *oral calculation, written calculation, general methodology, special metodology, pattern, simple and complex patterns, exercise, sum, methodology, matematical operations, rules, sequential multiplication and division, signs of being divied.*

Digər fənlərlə yanaşı, şəxsiyyətin formalaşmasında riyaziyyat fənninin rolu və əhəmiyyəti əvəzedilməzdir. "Riyaziyyat ümumtəhsil məktəblərində tədris olunan ən mühüm və vacib fənlərdən biridir. Qabaqcıl dünya ölkələrinin təhsil sistemlərində riyaziyyatın öyrənilməsinə xüsusi diqqət yetirilir. Bu, şəxsiyyətin formalaşmasında riyaziyyatın müstəsna rolu ilə izah olunur" (1).

İbtidai məktəbdə riyazi biliklər şagirdlərə şifahi və yazılı hesablama üsulları vasitəsilə öyrədilir. Yazılı hesablama öyrədildikdən sonra da şifahi hesablamaların tətbiqi azalmır, əksinə, yazılı hesablamaların aralıq mərhələlərində şifahi

hesablamalardan istifadə olunur. Deməli, şifahi hesablama yazılı hesablama prosesini asanlaşdırır və sürətləndirir. Bundan əlavə, riyaziyyat təliminin qarşıya qoyduğu məqsədlər şifahi hesablama prosesində həyata keçirilir. Bu məqsədlərə daxildir:

1. Şagirdlər şifahi hesablamaların müxtəlif üsullarını öyrənirlər;

2. Öyrəndikləri nəzəri biliklərin praktikada tətbiqi vərdişlərini qazanırlar;

3. Şifahi hesablama prosesi şagirdlərdə məsuliyyət, təşəbbüskarlıq, hesablamanın səmərəli üsulunu seçmək, diqqətli və dəqiq olmaq kimi keyfiyyətləri tərbiyə edir (2).

Şifahi və yazılı hesablama vərdişlərinin formalaşdırılması riyaziyyat fənn kurikulumunda mühüm tərkib hissə kimi qeyd olunur. Məsələn:

II sinif. "*Şagird:*

1.3. 100 dairəsində ədədlər üzərində şifahi və yazılı toplama və çıxmaya, vurma və bölməyə aid sadə hesablamaları yerinə yetirir, təxminetmə bacarığını nümayiş etdirir.

1.3.1.100 dairəsində ədədləri şifahi toplayır və çıxır.

1.3.2.100 dairəsində ədədləri yazılı toplayır və çıxır».

III sinif. "*Şagird:*

1.3. Ədədlər üzərində hesab əməllərini şifahi və yazılı yerinə yetirir və təxminetmə bacarığını nümayiş etdirir.

1.3.1. 1000 dairəsində şifahi toplama və çıxmanı yerinə yetirir.

1.3.2. 1000 dairəsində şifahi toplama və çıxmanı yerinə yetirir və nəticənin doğruluğunu yoxlayır".

IV sinif. "*Şagird:*

1.3. Ədədlər üzərində hesab əməllərini mükəmməl yerinə yetirir və təxminetmə bacarığını nümayiş etdirir.

1.3.1.Çoxrəqəmli ədədlər üzərində şifahi və yazılı hesablamalar aparır və nəticəni qiymətləndirir" (1).

Şifahi hesablama ilə yazılı hesablamalar arasında fərq aşağıdakılardan ibarətdir:

1. Şifahi hesablama ədədlərin yüksək mərtəbə rəqəmlərindən başlayaraq aparılır, yazılı hesablama isə ədədin aşağı mərtəbə rəqəmindən başlayaraq icra olunur (bölmə əməlinə aid hesablama istisna olunmaqla).

Məsələn: 28 ilə 37-ni toplamaq üçün:

a) bu ədədlərin hər birini mərtəbə toplananlarının cəminə, onluq və təklik mərtəbələrinə ayırmaq lazımdır (28=20+8; 37=30+7);

b) toplamanın yerdəyişmə və qruplaşdırma qanunlarından istifadə edərək onluqları onluqlarla (20+30=50); təklikləri təkliklərlə toplamaq lazımdır (8+7=15);

c) və nəhayət, alınan bu iki cəmi toplamaq lazımdır (50+15=65). Beləliklə, yazılış bu şəkildə olur:

28+37=(20+8)+(30+7)=(20+30)+(8+7)=50 +15=65

Yazılı hesablama:

$$\begin{array}{r} 6875 \\ +\ 4368 \\ \hline 11243 \end{array}$$

2. Şifahi hesablamalar sətir üzrə, yazılı hesablamalar isə sütun üzrə yazılır.

3. Şifahi hesablamalarda aralıq nəticələr yadda saxlanılır və sonra alınan nəticəyə əlavə edilir, yazılı hesablamalarda isə dərhal yazılır.

4. Eyni bir əmələ aid icra edilən şifahi hesablama üsulları misalın xüsusiyyətindən və əməldə tətbiq olunan xassədən asılı olaraq müxtəlif ola bilər.

Məsələn:

24•15=24•(10+5)=24•10+24•5=240+120 =360

(ədədin cəmə vurulma qaydası)

24•15=(20+4)•15=(20•15)+(4•15)=300+60=360

(cəmin ədədə vurulma qaydası)

24 • 15=24 • 5 • 3= 24 • 5=120 • 3=360 (ardıcıl vurma üsulu)

5. Şifahi hesablamalar, əsasən, ikirəqəmli ədədlər və hesablanması 100 dairəsinə gətirilən yuvarlaq ədədlər üzərində icra olunur. Məsələn:

15000+13000=15 min + 13 min = 28 min = 28000

150 • 3=15 onl • 3=45 onl = 450 və s.

Şifahi hesablama üsulları iki yerə bölünür:

1. Şifahi hesablamanın ümumi üsulları;

2. Şifahi hesablamanın xüsusi üsulları.

Birinci üsul

Ümumi üsullar ədədlərin onluq tərkibinə və hesab əməllərinin qanunu və xassələrinə əsaslanmaqla bütün ədədlərə tətbiq olunur.

1. Toplama əməlinə aid misal.

38 ilə 47-ni toplamaq üçün:

a) bu ədədlərin hər birini mərtəbə toplananlarının cəminə, onluq və təklik mərtəbələrinə ayırmaq lazımdır (38=30+8; 47=40+7); b) toplamanın yerdəyişmə və qruplaşdırma qanunlarından istifadə edərək onluqları onluqlarla (30+40=70); təklikləri təkliklərlə (8+7=15); c) və nəhayət, alınan bu iki cəmi toplamaq lazımdır (70+15=85).

2. Vurma əməlinə aid misal.

1) Vurma əməlinin toplamaya görə paylama qanunu 28 •3, 28-i 3-ə vurmaq üçün:

a) 28-i onluqlarla təkliklərə ayırmaq;

b) vurma əməlinin toplamaya gorə paylama qanunundan istifadə edərək 20-ni 3-ə və 8-i 3-ə vurmaq və alınan cəmlərin ikisini bir-biri ilə toplamaq lazımdır:

28 •3= (20+8) •3=20 •3+8 •3=60+24=84

2) Vurmanın yerdəyişmə və qruplaşdırma xassəsini tətbiq etməklə misal:

4 •8 •25 •125= (4 •25) • (8 •125)=100 •1000 =100000

3) Vurmanın çıxmaya görə paylama xassəsinə aid misal: 78 •9=78 •(10-1)=780-78=702

4) Hasilin vurulma xassəsi:

30 •64=(3 •10) •64=3 •64=192 •10=1920 və s.

Unutmamalıyıq ki, şagirdlər ümumi üsulları çətin mənimsəyirlər. Ona görə də dörd tədris ili müddətində çoxlu məşq etdirmək lazımdır.

İkinci üsul

Xüsusi üsullar ədədlərin onluq tərkibinə, hesab əməllərinin qanunu və xassələrinə əsaslanmaqla bütün ədədlərə deyil, ədədin öz quruluşundan asılı olaraq, yalnız hesablama üçün münasib olan ədədlərə tətbiq oluna bilər.

Şifahi hesablamanın xüsusi üsulları ədədin bir neçə vahid və ya bir neçə dəfə artırılmasına, ədədin yuvarlaqlaşdırılmasına, ardıcıl vurmaya, ardıcıl bölməyə və s. əsaslanır.

1. Yuvarlaqlaşdırma üsulu

Bir ədəddə yuvarlaq ədədlərə yaxın ədədlər verilmiş olarsa, əməli etmədən əvvəl bu ədədi yuvarlaqlaşdırmaq lazımdır.

1) Toplananlardan birinin yuvarlaqlaşdırılması:

a) 98+76=(100+76)-2=174

b) yaxud toplananların hər ikisinin yuvarlaqlaşdırılması; Məsələn, tutaq ki, 297 ilə 496-nı toplamaq lazımdır. Birinci və ikinci toplananı yuvarlaqlaşdırıb 300 və 500 alırıq. Bu ədədləri toplayaq: 300+500=800. Bu ədəd, yəni 800 ədədi 7(3+4) qədər artırılmış cəmdir. Əsl cəmi almaq üçün 800-ü 7 qədər azaldıb 800-7=793 alırıq.

2) Azalanın və ya çıxılanın yuvarlaqlaşdırılması:

a) 799-326=800-326-1=473

b) 537-298=537-300+2=239

Birinci misalda azalan ədəd yu-varlaqlaşdırılmışdır. Onu bir təklik artırmaqla fərqi də bir təklik artırmış oluruq. Düzgün qalığı almaq üçün ondan bir təklik çıxmalıyıq. İkinci misalda çıxılana 2 əlavə edilməklə yuvarlaqlaşdırılmışdır; çıxılan 2 təklik artdıqda qalıq 2 təklik azalmışdır. Düzgün qalığı almaq üçün alınan ədədə 2 əlavə edilməlidir. Başqa misal:

897-350=(900-3)-350=(900-350)-3=547

683-497=(683-500)+3=186

Çıxılanı yuvarlaqlaşdırmaq daha əlverişlidir. Çünki bu halda istənilən ədəddən yuvarlaq ədədi çıxmaq daha asan olur.

3) Vurma əməlinə aid yuvarlaqlaşdırma:

a) 30 • 27=30 • 30-30 • 3=900-90=810

b) 9-a və 99-a vurma. Verilmiş ədədi 9-a vurmaq üçün həmin ədədi 10-a vurub, alınan hasildən özünü çıxmaq kifayətdir.

43 • 9=43 • (10-1)=430-43=387, çünki vuruqlardan birini bir vahid artırdıqda, hasil o biri vuruq qədər artır. Eyni qayda ilə ədədləri 99-a, 999-a və s. vurmaq olar:

15 • 99=15 • (100-1)=1500-15=1485

24 • 999=24 • (1000-1)=24000-24=23976

4) Bölmə əməlinə aid yuvarlaqlaşdırma.

796:4=800:4-4:4=200-1=199 və s.

İndi ibtidai siniflərin riyaziyyat təlimində şifahi hesablamanın xüsusi üsullarının ən çox tətbiq olunan formalarını nəzərdən keçirək.

Ardıcıl vurma üsulu

Qayda: «Bir ədədi hasilə vurmaq üçün bu ədədi əvvəlcə birinci vuruğa, sonra alınan hasili ikinci vuruğa, daha sonra üçüncü vuruğa vurmaq kifayətdir».

Tutaq ki, 45-i 16-ya vurmaq lazımdır. 16 ədədinə 4 • 4 hasili kimi baxaq. Onda yuxarıda qeyd etdiyimiz qaydaya uyğun olaraq belə yaza bilərik:

45 •16=45 •4 •4=180 •4=720

45 ədədini 4-ə vurub, alınan 180 hasilini bir də 4-ə vurmaq, 45-i birdən 16-ya vurmaqdan daha asandır.

Ümumi üsuldan istifadə edərək 64-ü 8-ə vurmaq asan deyildir, lakin 64-ü ardıcıl olaraq üç dəfə ikiqat artırmaq yolu ilə 8-ə vurmaq çətin deyildir:

64 • 8=64 • 2 • 2 • 2=128 • 2=256 • 2=512.

2.Ardıcıl bölmə üsulu

Ardıcıl bölmə üsulu bölmə əməlinin asan və tez yerinə yetirilməsinə kömək edir.

Qayda: "Bir ədədi bir neçə ədədin hasilinə bölmək üçün bu ədədi birinci vuruğa bölmək, alınan qisməti ikinci vuruğa bölmək, bu qisməti də üçüncü vuruğa bölmək və bu ardıcıllığı davam etmək mümkündür".

1)Tutaq ki, 360-ı 8-ə bölmək lazımdır. Bölənə 2 • 2 • 2 vuruqlarının hasili kimi baxılır. Onda, qeyd etdiyimiz qaydaya əsasən, 360-ı 8-ə bölmək üçün 360-ı 2-yə bölürük, alınan qisməti (180) 2-yə bölürük (90) və alınan 90 qiymətini bir də 2-yə bölürük.

360:2:2:2=180:2=90:2=45

2) 2100:15 – bu misalın həllində ümumi üsuldan istifadə etsək, şifahi hesablamaq çətin olacaqdır: bu halda bölünən 2100 ədədini hər biri ayrılıqda 15-ə bölünən 1500 və 600 kimi iki toplanana ayırmaq lazım gələcəkdir. Lakin 15-ə 3 ilə 5-in hasili kimi baxıb ardıcıl bölmə əməlindən istifadə etdikdə, bölmə əməli asanlaşır: (2100:3):5=700:5=140. (Əgər 700-ü 5-ə bölməndə çətinlik yaranarsa, belə izahat vermək olar:

700:5=(500+200):5=500:5+200:5=100+40 =140 (bu əməliyyatı uşaq beynində edir).

Şagirdlər şifahi hesablamanın müxtəlif üsulları ilə tanış olduqdan sonra müəllim ayrı-ayrı hallarda ən səmərəli olan üsuldan istifadə etmələrini tələb etməli və üsul seçməkdə onlara sərbəstlik verilməlidir. Tutaq ki, şagirdlərə şifahi hesablamaq üçün 25 • 9 misalı verilmişdir. Bu halda şagirdlər müxtəlif üsullardan istifadə edə bilər:

1) 25 • 9=20 • 9+5 • 9=180+45=215 (ümumi üsul)

2) 25 • 9=25 • (10-1)=25 •10-25 •1=250-25 =225 (yuvarlaqlaşdırma üsulu)

3) 25 •9=(25 •3) •3=75 •3=225 (ardıcıl vurma üsulu)

4) 25 •9=25 •(4+5)=25 •4+25 •5=100+125 =225 (paylama qanununa əsaslanan üsul)

Bu üsulların hamısı düzgündür, lakin əlverişli üsul yuvarlaqlaşdırma üsuludur.

Yuxarıda şifahi hesablama məşğələlərinin bir sıra növləri göstərildi. Lakin bunların hər birinin riyaziyyat dərsində müəyyən yeri olmalıdır. Hər dərsdə, yeri oldu-olmadı, bunlardan istifadə etmək düzgün deyil. Bu çalışmaları yerində işlətdikdə şifahi hesablama işini canlandırır, şagirdlərin sevincinə səbəb olur, onların riyaziyyata marağını artırır.

Problemin aktuallığı və elmi yeniliyi. Məqalədə ibtidai siniflərin riyaziyyat fənn kurikulumunda məzmun xətləri üzrə şifahi və yazılı hesablamaların tədrisi xüsusiyyətlərini müəyyənləşdirilmiş, ədədlər və əməllər məzmun xəttinə uyğun çalışmaların həllinin öyrədilməsi yolları, nəticənin əvvəlcədən təxminetmə bacarıqlarının inkişaf etdirilməsi xüsusiyyətləri aşkara çıxarılmış və elmi cəhətdən araşdırılmışdır.

Problemin praktik əhəmiyyəti. I-IV siniflərdə şifahi hesablama, təxminetmə və tez hesablama bacarıqlarının öyrədilməsinin nəzəri və praktik xüsusiyyətlərinin əsaslandırılmasının və öyrədilməsinin praktik tətbiqlərini göstərməkdən ibarətdir.

Ədəbiyyat:

1. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. Bakı: Təhsil, 2008.
2.Həmidov S.S. Məktəbin ibtidai siniflərində riyaziyyatın tədrisi metodikası. Bakı: ADPU, 2012.
3.Məmmədov Z.Z. Riyaziyyatdan ibtidai sinif müəllimlərinə kömək. Bakı: ADPU, 2013.

E-mail: mammedov.z@mail.ru
Rəyçi: *dos.* **F. Əliyev**
Redaksiyaya daxil olub: 17.12.2018.

UOT 37.01.

Cabir Habil oğlu Tarıverdiyev
Azərbaycan Dövlət Pedaqoji Universiteti Cəlilabad filialının baş müəllimi

İBTİDAİ SİNİFLƏRİN RİYAZİYYAT DƏRSLƏRİNDƏ İNTERAKTİV TƏLİM METODLARINDAN İSTİFADƏNİN XÜSUSİYYƏTLƏRİ

Джабир Габил оглы Таривердев
старший преподаватель Джалилабадского филиала АДПУ

ОСОБЕННОСТИ ИСПОЛЬЗОВАНИЯ ИНТЕРАКТИВНЫХ МЕТОДОВ ОБУЧЕНИЯ НА УРОКАХ МАТЕМАТИКИ В НАЧАЛЬНЫХ КЛАССАХ

Jabir Habil Tariverdiyev
senior lecturer
of Jalilabad branch of Azerbaijan State Pedagogical University

THE FEATURES OF USING INTERACTIVE TEACHING METHODS IN MATHS CLASSES OF ELEMENTARY GRADES

Xülasə: Müasir dövrdə təhsilin əsas məqsədlərindən biri ibtidai məktəbdə riyaziyyatın təlimi prosesinə innovativ texnologiyaların, xüsusən interaktiv metodların tətbiqinə daha artıq dərəcədə diqqət yetirən, hərtərəfli inkişaf etmiş, səriştəli mütəxəssislər formalaşdırmaqdır. İnteraktiv təlim – müəllimlə şagird və ya şagirdlə şagird arasında qarşılıqlı təsiri yerinə yetirən dialoji təlimdir.

Mozaika metodu şagirdlərə az vaxtda daha çox sayda informasiya almağa imkan verən mürəkkəb problemin həlli üsuludur. Riyazi "Yelkən" – məsələ həlli üzrə komanda yarışıdır.

Açar sözlər: *İnteraktiv təlim, təhsil, dialoji təlim, mozaika metodu, riyazi "Yelkən" oyunu*

Резюме: Одним из основных задач современного образования в начальной школе в процессе математического обучения заключается в создании высококвамефицированных специалистов, которые больше внимания уделяют инновационным технологиям в частности, интерактивным методам. Интерактивное обучение – это диалог между учителем и учеником или учеником и учеником и межличностное взаимодействие.

Мозаика – это метод, которое является решением сложной проблемы, которая позволяет ученикам получать больше информации за меньшее время. Математический метод «Парус» - это командное олимпиада по решению примеров.

Ключевые слова: *Интерактивное обучение, обучение и тренинг по диалогическому обучению, метод мозаики, математическая игра «Парус»*

Summury: One of the main goals of today`s education is to develop comprehensive, advanced and competent professionals focusing on the introduction of innovative technologies, in particular, interactive methods in the elementary school maths learning process, interactive training is a dialogue between the pupil or the pupil and the pupil who interacts with the teacher.

The Mosaic method is a solution to a complex problem that allows students to get more information in less time. Mathematical "Sailing" – is a team race on issue solution.

Key words: *Interactive training, education, dietary training, mosaic method, mathematical "Sail" game*

İbtidai məktəb – gələcək profil təhsilə öz töhfəsini verən bütün sonrakı təhsilin əsasıdır. Bu mühüm problemin həllində ibtidai məktəbin kiçik məktəblilərə töhfəsi onlarda formalaşdırılmalı olan bilik və bacarıqların fundamentallığını gücləndirməkdən ibarətdir.

Riyaziyyat müasir təhsil sistemində mərkəzi yerlərdən birini tutur ki, bu da onun nadir bilik sahəsi olduğunu göstərir. Belə ki, riyaziyyat bizi əhatə edən aləmin öyrənilməsi üçün zəruri olan təfəkkür formalarının formalaşmasına imkan verir. Ona görə hazırda təhsilin əsas məqsədlərindən biri ibtidai məktəbdə riyaziyyatın təlimi prosesinə innovativ texnologiyaların, xüsusilə interaktiv metodların tətbiqinə daha artıq dərəcədə diqqət yetirən, hərtərəfli inkişaf etmiş, səriştəli mütəxəssislər formalaşdırmaqdır. Bu onunla əlaqədardır ki, interaktiv təlim metodlarından istifadə olunması bütövlükdə təhsilin keyfiyyətinin yüksəlməsinə kömək edir.

İnteraktiv təlim – müəllimlə şagird və ya şagirdlə şagird arasında qarşılıqlı təsiri yerinə yetirən dialoji təlimdir. O, idrak fəaliyyətinin xüsusi təşkili formasıdır. Onun konkret və proqnozlaşan məqsədləri vardır. Belə məqsədlərdən biri şagirdin öz uğurunu, özünün intellektual müstəqilliyini hiss etməsidir ki, təlim prosesinin özünü məhsuldar edir. Hazırda interaktiv təlim dünyanın 115-dən artıq ölkəsində (ABŞ, Avropa ölkələri, Yaponiya, Çin, MDB ölkələri) geniş tətbiq olunmaqla qısa müddətdə böyük uğur əldə etmişdir. İnteraktiv təlim metodlarını bir sıra alimlər öyrənmişlər(V.S. Bibler, A.K. Kusainov, E.B. Ponomarenko, M.B. Klarin, D. Conson, D. Dyui və b.). Respublikamızın təhsil proqramının aparıcı psixoloji-pedaqoji ideyalarından biri təlimin kompotentli olması ideyasıdır. Təhsilin son nəticələri üçün əldə edilən biliklərdən müxtəlif həyati situasiyalarda istifadə etmək, zəruri bilikləri müstəqil əldə etmək , informasiyalarla savadlı işləmək bacarığı, yaranan problemləri görmək və onların düzgün həllini tapmaq bacarığı, diskussiya aparmaq, öz mövqeyində sakit və inamla dayanmaq bacarığı və i. – bütün bunlar şagirdlərin səriştələri sırasına aid edilə bilər. Ona görə də fənlərə aid müəyyən bilik, bacarıq və vərdişlər toplusuna yiyələnmək deyil, həm də onları müstəqil əldə etmək və tətbiq etmək ön plana çəkilir. Bununla əlaqədar olaraq təlim metodlarının istifadəsi problemi yaranır. Ənənəvi təlimin istinad etdiyi illüstrasiyaizah metodu qoyulan məsələlər üçün kifayət deyildir. Tədris prosesini keyfiyyətli, həm də maraqlı etmək üçün müəllim fənnin tədrisində müntəzəm olaraq yeni yanaşmalar axtarmalı, riyaziyyat təliminin elə metodlarını tapmalıdır ki, şagirdlərin fikri fəaliyyətini, onların təşəbbüsünü, komandada işləmək bacarığını aktivləşdirsin. Bütün bunlar işdə təlimin interaktiv metodlarının tətbiqini tələb edir.

"Mozaika"(dəyişən şəbəkə) metodunu nəzərdən keçirək. Bu metod şagirdlərə az vaxtda daha çox sayda informasiya almağa imkan verən, müəyyən biliklərin olmasını tələb edən mürəkkəb problemin həlli üsuludur. Bu metodu dərslərdə aşağıdakı qaydalarda tətbiq etmək lazımdır:

1. Problemin sinifdə həll ediləcək hansı məsələlərə ayrıldığını müəyyən etmək. Müəyyən tədris materialını nümunə üzrə öyrənmək və ya tədris biliklərinin vərdişlərini möhkəmləndirmək.

2. Hər bir ekspert qrupları üçün zəruri informasiyaları hazırlamaq(öyrənilən paraqrafın bölmələrini, məsələlər toplusunu və s.). Şagirdlərin onlardan asanlıqla istifadə edə bilməsi yaxşı olar(konkret səhifəni göstərmək, dərslik və ya digər mənbə üzrə tapşırıqlar toplamaq, surətini çıxarmaq və s.).

3. Qruplar üzrə şagirdlərə paylamaq üçün adları olan və ya rəqəmlərlə göstərilən müxtəlif rəngli kiçik cədvəllər hazırlamaq. Hər bir şagird iki qrupa: "əsas" və "ekspertlər" qrupuna daxil olacaqdır. Əsas qrupları 1-dən 5-ə qədər rəqəmlərlə işarə etmək olar. Hər bir qrup 5 nəfərdən ibarət olmaqla, müəyyən mövzular üzrə ekspert olacaqlar. Hər bir mövzunun(mövzuların bölmələri, məsələlərin və ya tənliklərin tipləri) ekspertlərini qırmızı, göy, sarı, yaşıl, ağ rənglərlə işarə edirik. Beləliklə, hər bir əsas qrupda müxtəlif rəngli(müxtəlif mövzular üzrə) ekspertlər iştirak edir. Əsas qrupun üzvləri kimi tapşırıqlarla tanış olduqdan, onları müzakirə edərək öz aralarında payladıqdan sonra ekspertlər qruplar üzrə bölünərək hər birində bir mövzu (bir rəngdə) üzrə ekspertlər toplanır və bu mövzunu müzakirə edir, öz məsələlərini həll edirlər və s. Ekspertlər qrupu ekspertlərdən hər birinin özünün əsas qrupuna nəyi öyrədəcəyini müəyyən edir. Bundan sonra ekspertlər özlərinin əsas qruplarına qayıdır və öz yoldaşlarını öyrədərək, görülən işlər haqqında qruplara hesabat verirlər. Bu qayda ilə uşaqlar arasında informasiya mübadiləsi gedir, müəllim isə ekspert qruplarının məsləhətçisi, köməkçisi, qarşılıqlı təlim prosesinin müşahidəçisi kimi özünü göstərir. Ümumi həlldə müxtəlif ekspertlərin töhfəsini qiymətləndirə bilən əsas qrup dərsi yekunlaşdırır. Sonda

müəllim materialın mənimsəmə səviyyəsini yoxlayır və məşğələni yekunlaşdırır.

İnteraktiv "Yelkən" çox səmərəli, maraqlı və məhsuldar təlim metodudur. Bu təhsil oyunu həm dərsin, həm də sinifdənxaric tədbirlərin (məsələn, olimpiadaların) aparılması üçün əlverişlidir. Bu metod bütün şagirdləri təhsil fəaliyyətinə cəlb edir, məsələ həllinin kollektiv axtarışına, ideyaların, informasiyaların, riyazi biliklərin mübadiləsinə imkan verir. Belə ki, riyazi "Yelkən" – qruplar arasında yarış olduğundan bu formada aparılan dərs təkcə uşaqlarda qələbəyə inam hissi və qalibiyyət əzmi deyil, həm də riyaziyyat sahəsində ruhlandırır.

Riyazi "yelkən" oyununun qaydaları üzərində ətraflı dayanaq. Riyazi "yelkən" – məsələ həlli üzrə komanda yarışıdır. Ən çox bal toplayan komanda qalib gəlir. Məsələlər ilkin və məqbul mərhələlərində həll edilir. Komandaların bütün üzvlərinə ardıcıl nömrələr (məsələn, 1-dən 6-ya qədər) verilir. Komandalar siqnal üzrə ilkin mərhələdə məsələləri həll etməyə başlayır və həlli (və ya cavabı) hakimə verirlər. Əgər cavab doğrudursa, onda 1 nömrəli oyunçu məqbul mərhələsinə keçir və orada məsələ alır. İlkin mərhələdə qalan komanda üzvləri yeni məsələ alırlar, əgər yenə də doğru cavab alınarsa onda 2 nömrəli oyunçu məqbul mərhələsinə keçir və 1 nömrəli oyunçu ilə birləşirlər və s.

Sonra ilkin və məqbul mərhələsində qalan komanda üzvləri bir birindən asılı olmayaraq yeni məsələlər həll edirlər. Komandada bütün oyunçular sanki növbədə dayanmışlar. Əgər ilkin mövqedə məsələ düzgün həll olunmuşdursa, oyunçular növbə ilə məqbul mərhələsinə keçirlər, əgər məqbul mərhələsində məsələ düzgün həll olunmursa, onda oyunçular yenidən növbə ilə ilkin mövqeyə qayıdırlar. Komanda həm ilkin, həm də məqbul mərhələsində istənilən anda məsələni həll etməkdən imtina edə bilər. Bu halda məsələ həll edilməmiş sayılır. İki mərhələdən hər hansı birində qalan komandanın hissəsi növbəti məsələnin həllini danışdıqdan və ya onun həllindən imtina etdikdən sonra o, yeni məsələ alır. İlkin mərhələdə hər bir düzgün həll olunmuş məsələ üçün 1 bal, birinci düzgün həll üçün məqbulda 3 bal, ikinci düzgün həll edilən məsələ üçün 4 bal yazılır və s. Əgər növbəti məsələ düzgün həll olunmayıbsa, onda növbəti məsələnin qiyməti həll olunmayan məsələdən aşağıdakı kimi asılıdır: əgər düzgün həll olunmayan məsələnin qiyməti 6 bal və daha çox olarsa, onda növbəti məsələ 5 bal dəyərindədir. Əgər düzgün həll olunmayan məsələnin qiyməti 5 bal olarsa, onda növbəti məsələ 4 bal dəyərindədir, əgər növbəti düzgün həll olunmayan məsələnin dəyəri 3 və ya 4 bal olarsa, onda növbəti məsələ 3 bal dəyərindədir. Əgər: a) oyun vaxtı bitərsə, b) məqbul mərhələsində məsələ qurtararsa, c) ilkin mərhələdə məsələ qurtararsa , ç) məqbul mərhələsində heç bir oyunçu qalmazsa komanda üçün oyun qurtarar. Bütün komandalar üçün oyun qurtardıqda oyun bitir. Çox bal toplayan komanda qalib gəlir. "Yelkən" oyunu məqsədlərindən, məsələlərin sayından və çətinliyindən, komandaların sayından asılı olaraq 20 dəqiqədən 2 saata qədər davam edə bilər.

İnteraktiv təlim metodları sinifdə həyatın müəyyən qədər dəyişdirilməsini, həm şagirdlərdən, həm də müəllimdən dərsə hazırlıq üçün çox vaxt tələb edir. Bu metodlardan tədricən istifadə etməyə başlamaq lazımdır. Həm müəllimin, həm də şagirdlərin ona uyğunlaşması və onlardan istifadəsi üçün müəyyən təcrübə toplanılması zəruridir. Az hazırlıqlı "oyunların" tez-tez aparılmasındansa, tədris ilində bir neçə interaktiv məşğələnin aparılması daha yaxşı olar. İnteraktiv metodlardan istifadə sinifdə elə atmosferin yaradılması vasitəsidir ki, əməkdaşlıq, qarşılıqlı anlaşma, xeyirxahlıq kimi hüquq və vətəndaş cəmiyyəti haqlarının başa düşülməsinə kömək edir. Beləliklə, şagirdlərin aldığı biliklər, eyni zamanda, onların müstəqil əldə edilməsi alətidir. Bu zaman müəllim əlverişli şərait yaratmalıdır ki, şagirdin özü bilikləri tapsın, əldə edərək konstruksiya etsin və bununla da təlim prosesini quracaq dünyanı dərk etsinlər.

Problemin aktuallığı. Müasir dövrün tələblərinə cavab verən riyazi təhsil interaktiv təlim metodlarını tətbiq etmədən uğurla nəticələnə bilməz. Bu baxımdan mövzu aktualdır.

Problemin elmi yeniliyi. Hər bir müəllimin tədrisin keyfiyyətini yüksəltmək məqsədi ilə məqalədə təklif olunan formada komanda oyunlarından istifadə etməsi məqsədəuyğundur.

Problemin praktik əhəmiyyəti. Hazırda təhsilin əsas məqsədlərindən biri ibtidai məktəbdə riyaziyyatın təlimi prosesinə innovativ texnologiyaların, xüsusilə interaktiv metodların tətbiqinə daha artıq dərəcədə diqqət yetirən, hərtərəfli inkişaf etmiş, səriştəli mütəxəssislər formalaşdırmaqdır.

Ədəbiyyat:

1. Adıgözəlov A.S. İbtidai siniflərdə riyaziyyat təliminin xüsusi metodikası. Bakı: Mütərcim, 2001.
2. Həmidov S.S., Məcidova A.Ə. Məktəbin ibtidai siniflərində riyaziyyatın tədrisi metodikası. Bakı: ADPU, 2018.
3. Veysova Z. Fəal(interaktiv) təlim. Bakı,2007.
4. Истомина Н.Б. Активизация учащихся на уроках математики в начальных классах: пособие для учителя. М., 2012.
5. Якиманская И.С. Основы личностно ориентированного образования. М.: БИНОМ, 2013.

E-mail: cabir.tariverdiyev@mail.ru
Rəyçi: *ped.ü.elm.dok.,prof.* **A.S. Adıgözəlov**
Redaksiyaya daxil olub: 03.01.2019.

UOT 371.214.2 (51)

Növrəstə Sidqəli qızı Bayramova
Sumqayıt Dövlət Universitetinin assistenti

İBTİDAİ SİNİFLƏRİN RİYAZİYYAT DƏRSLİKLƏRİNDƏ PROBLEMLƏR VƏ ONLARIN METODİK TƏDQİQATLARDA QOYULUŞU

Новраста Сидгали гызы Байрамова
ассистент Сумгаитского Государственного Унивирситета

ПРОБЛЕМЫ, ВОЗНИКАЮЩИЕ В УЧЕБНИКАХ ПО МАТЕМАТИКЕ В НАЧАЛЬНЫХ КЛАССАХ И ИХ ПОСТАНОВКА В МЕТОДИЧЕСКИХ ИССЛЕДОВАНИЯХ

Novrasta Sidkali Bayramova
assistant of Sumgait State University

PROBLEMS ARISING IN TEXTBOOKS OF MATHEMATICS OF PRIMARY CLASSES AND STATEMENT OF THESE PROBLEMS IN THE METHODOLOGICAL TOOLS

Xülasə: Verilən məsələlərin əksəriyyəti I-IV sinif səviyyəsində olan məsələlərdir və məntiqi təfəkkürün inkişafına xidmət etmir. Məlumdur ki, məsələlər siniflər üzrə həm növlərinə, həm də həlli üsullarına, aid olduğu kəmiyyətlərə görə təsnif olunur. "Məsələ" problemi dərslikdə öz optimal həllini tapmamışdır. Belə ki, təqdim olunan məsələlərin əksəriyyəti konkret didaktik funksiyalara malik olmayıb, sadəcə əməlin icrasını tələb edir.

Açar sözlər: *dərslik , ibtidai siniflər, şagird, məsələ, məntiqi təfəkkür*

Резюме: Большинство задач, представленных в учебниках I-IV классов служат развитию логического мышления. Известно, что задачи классифицируются по типам, по методам их решения, а также по относящихся к ним величинам. Проблема «задача», не нашла своё оптимальное решение в учебнике. Так, большинство представленных задач не выражаются конкретными функциями, а только требуют выполнения какой-либо операции.

Ключевые слова: *учебник, начальные классы, ученик, задача, логическое мышление*

Summary: Most of the tasks asked in textbooks I-IV classes serve the development of logical thinking. It is known that tasks are classified by type, by the methods of their solutions, and by the values related to them. Thus, most of the tasks presented are not expressed by specific functions, but only require the execution of an operation.

Keywords: *textbook, elementary classes, pupil, task, logical thinking*

"Riyaziyyat – 1" dərsliyində (N. Qəhrəmanova, C. Əsgərova, L. Qurbanova) dövlət səviyyəsində qəbul olunmuş riyazi terminologiya tələblərinə əməl olunmur. Məsələ həlli təliminin mərhələləri öyrədilmədən "məsələnin planı, həlli haqqında danışılır (s. 50), səh. 76-da "Sadə konstruksiya məsələləri" ifadəsi verilir və bu nəyi ifadə edir, hansı məsələlər oraya aiddir – məlum olmur. Əslində praktik işdən söhbət gedir və həmin iş isə I sinif şagirdləri üçün müyəssər deyil. I sinifdə 1-dən 20-yə qədər ədədlər və onlar üzərində toplama və çıxma əməlləri öyrədilir. Burada "təxminetmə" anlayışına ehtiyac olmadığı halda, dərslikdə müvafiq suallar qoyulur (s. 89). "Sayını təxmin edin" cümləsi (s. 90) nəyi ifadə edir və ona ehtiyac varmı?

Şagirdlərin şifahi hesablama bacarıqları hesab əməlləri xassələrinə və ədədlərin xassələrinə əsaslanır. Bu bilikləri I sinifdə hələ mənimsəməmişlər.

I sinifdə məsələ həlli bacarıqlarını formalaşdırmaq üçün aşağıdakı mərhələlər üzrə iş aparılmalıdır:

1. "Məsələ" anlayışı ilə tanışlıq.

2. Məsələnin tərkib hissələrinin ayırd edilməsi.

3. Məsələnin tələbinə cavab vermək üçün tətbiq olunacaq əməlin müəyyən edilməsi.

4. Məsələnin həlli və onun yazılması.

I sinifdə toplama və çıxma əməlləri öyrədildiyi üçün, müvafiq olaraq sadə məsələlər və onların növləri öyrədilməlidir.

Ümumiyyətlə, I sinifdə məsələ həlli bir sistem olmaqla, konkret struktura və didaktik məqsədə malik olmalıdır.

"Riyaziyyat – 2" dərsliyində də terminoloji nöqsanlar, yersiz termin və ifadələrdən istifadə edilməsi, çalışmaların seçilməsində didaktik tələblərin pozulması halları özünü göstərir.

II sinifdə şagirdlər 100 dairəsində ədədlər və onlar üzərində 4 əməl, onların xassələri ilə tanış olurlar. Lakin əməllərin xassələri müəyyən bir məqsəd və ardıcıllıqla verilmədikdə, şagirddə müvafiq biliklər formalaşmır.

Məsələ həlli təlimi I sinifdə öyrənilənlərin davamı olmalıdır və şagird toplama və çıxmaya aid sadə məsələlər siyahısına vurma və bölməyə aid sadə məsələləri də daxil etməlidir. Çünki mürəkkəb məsələ həllinə keçid sadə məsələlərdən başlayır və bu keçidin iki növü konkret məsələlər üzərində göstərilməlidir.

Məhz II sinifdə şagirdlər toplama və çıxmaya aid yazılı hesablama ilə tanış edilir. Bunlar həm də şifahi hesablama vərdişlərini formalaşdırmağa kömək edir.

"Riyaziyyat – 2" dərsliyində məsələlər və düşündürücü məsələlərin sayı olduqca azdır. Məsələlər məzmunu etibarilə həyatilik kəsb etməli və inkişafetdirici funksiyaya malik olmalıdır.

"Riyaziyyat – 3" dərsliyinin riyazi dili və qrammatik dili bir sıra nöqsanlarla bağlıdır. Məsələn, s. 6-da belə bir cümlə verilib: "6-ya, 7-yə, 8-ə, 9-a, 10-a vurma və bölmə əməlləri üzərində məsələ və misallar həll edin".

3-cü sinifdə vurma və bölmə cədvəlləri tamamlanır və sonra vurma və bölmənin xüsusi halları öyrədilməlidir. Dərslikdə bu məsələlər öz həllini tapmamışdır. Yuxarıda qeyd etdiyimiz cümlə dərs ilinin əvvəlində reallaşdırıla bilməz. "Əməl üzərində məsələ və misal necə həll etmək olar?"

Dərslikdə proqram materialının orqanik düzülüşünə diqqət yetirilməmişdir.

Dərslikdə "məsələ həlli" necə əks olunmuşdur?

"Məsələ" problemi dərslikdə öz optimal həllini tapmamışdır. Belə ki, təqdim olunan məsələlərin əksəriyyəti konkret didaktik funksiyalara malik olmayıb, sadəcə əməlin icrasını tələb edir.

Verilən məsələlərin əksəriyyəti I-II sinif səviyyəsində olan məsələlərdir və məntiqi təfəkkürün inkişafına xidmət etmir. Məsələlərin ifadə dili də dəqiq deyil. Məsələn, (s.105, № 4) "1 kq yağ 5 manat, 1 kq ət isə 7 manatdır" – cümləsində kütlə manata çevrilir. Məsələlərin növləri (düzünə, dolayı, tərs məsələ) ayırd edilmir və müvafiq tapşırıqlar verilmir.

Dərslikdə kəmiyyətlər üzərində əməllər "qaydası" təhrif olunmuşdur. Çünki hər bir əməl – müvafiq tərifə və ya qaydaya əsaslanır.

"Riyaziyyat – 4" dərsliyində (mündəricatda) 1-ci, 2-ci və 6-cı bölmələrin sonunda "məsələ həlli" başlığı verilib. Sual olunur: qalan bölmələrdə məsələ həlli lazım deyil?

Həlli üsullarına görə məsələlərin təsnifinə aid nümunələr yoxdur və məsələ başlıqlarında qüsurlar vardır. Məsələn, səh. 26-da: "Cəmə görə məchulların mühakimə yolu ilə tapılması" elmi cəhətdən səhvdir.

Dərslikdə verilən məsələlərin əksəriyyəti I-II siniflərin səviyyəsindədir. məntiqi mühakimə tələb edən məsələlərin sayı olduqca azdır.

Məsələlərin həlli üsullarına görə, aid olduğu kəmiyyətlərə görə təsnifi aşkar edilməlidir.

Məlumdur ki, ibtidai siniflərdə məsələ həlletmə bacarığı bilavasitə şagirdlərin həm də psixoloji durumları ilə bağlıdır. Bu cəhətdən görkəmli tədqiqatçı-psixoloq Y.Piaje riyaziyyat təliminə iki mərhələni xüsusi qeyd edir:

1) I-III siniflərdəki təlim mərhələsi – operativlik mərhələsinə qədərki dövr (6-8 yaş dövrü);

2) operativlik dövrü (IV-VI siniflər, 9-11 yaş dövrü).

Məsələ həllində şagirdin çətinlik çəkməsini onun eqosentrizmi ilə izah edir, yəni bu maneəni aradan qaldırmaqda çətinlik çəkir və mücərrəd təfəkkür bacarığına malik deyil. Piajenin bu ideyasını M. Donaldson tənqid edir və qeyd

edir ki, məsələlər şagirdi onun yaşadığı və ya olduğu situasiyaya gətirməlidir. Bu da şagirdə həyat təcrübəsi qazanmağa kömək edir.

Məktəbdə məsələ həlli təliminə dair riyazi, psixoloji və metodik tədqiqatları D. Poyanın kitablarında («Как решать задачу», «Математические открытия», «Математика и правдоподобные рассуждения») öz əksini tapmışdır.

Y.M. Kolyaqin «Математические задачи как средство обучения и развития ученика средней школы» kitabında məsələ həlli ilə əlaqədar iki cəhəti qeyd edir:

1) məsələ həlli prosesində riyaziyyat tədrisi metodikası əsaslarının işlənməsi,

2) inkişafetdirici təlimdə məsələlərdən bir vasitə kimi istifadənin metodiki sisteminin qurulması [3].

İbtidai siniflərdə məsələ həlli təliminə dair V.V. Statkeviç («Основы методики обучения решению задач в начальных классах», Минск, 1980), A.M. Pışkalo və N.Q. Utkina («Основы обучения математике в I-III классах», M., 1978), M.İ. Moro, N.A. Bantova («Методика обучения математике в начальных классах», M. 1981) və b. məsələ həlli təliminin müxtəlif aspektlərini işıqlandırmışlar.

S.R. Hüseynova öz tədqiqatında ("Riyaziyyatdan ümumiləşdirici və inkişafetdirici məsələlər vasitəsilə nəzəri biliyin verilməsi və möhkəmləndirilməsi metodikası" (VII-IX siniflər), nam. məsələnin inkişafetdirici amillərini əsaslandırmış və praktik əhəmiyyətli təkliflər irəli sürmüşdür [2].

M. Abdulkərimov orta məktəbin riyaziyyat kursunda ekstremum və tətbiq məsələləri həllinin təlimi texnologiyasına aid tədqiqatda məsələ həlli vasitəsilə şagirdlərin riyazi yaradıcılığının inkişaf etdirilməsi, təlimin həyatla əlaqələndirilməsi kimi problemlərin həlli yolunu göstərmişdir [1].

İndi ibtidai məktəbin buraxılış sinfi – IV sinfin şagirdlərinin riyazi hazırlığı səviyyəsinə verilən tələbləri beynəlxalq təcrübələr səviyyəsində nəzərdən keçirək. Əsas ideya ondan ibarətdir ki, IV sinif şagirdinin ilin sonunda nümayiş etdirdiyi nəzəri biliklər və praktik bacarıq və vərdişlər sonrakı siniflərdə həm baza rolunu oynaya bilər, həm də varislik təmin olunar: yeni riyazi biliklər "dayaq" bilikləri üzərində qurulmaqla, şagirdin riyazi təhsili öz inkişafını tapır. Hər bir şagirdin malik olduğu bilik və bacarıqlar müəllimin və onun tədris fəaliyyətinin nəticəsidir.

Problemin aktuallığı. Ümumiyyətlə, məktəbdə məsələ həllinin öyrədilməsi elə bir problemdir ki, onun müvəffəqiyyətlə həlli müəllimdən yaradıcı iş fəaliyyəti tələb etməklə, həmişə aktualdır.

Problemin yeniliyi. Riyazi məsələ və onun həllinin məktəbdə öyrədilməsi orta riyazi təhsilin ən mühüm mərhələsini təşkil etdiyindən, I-IV siniflərdə məsələ həlli təlimi konkret sistemə malik olmalıdır.

Problemin praktik əhəmiyyəti. Məlumdur ki, məsələlər siniflər üzrə həm növlərinə, həm də həlli üsullarına, aid olduğu kəmiyyətlərə görə təsnif olunur.

Ədəbiyyat:

1. Abdulkərimov M. Orta məktəbin riyaziyyat kursunda ekstremum və tətbiq məsələləri həllinin təlimi texnologiyası: Ped.ü.fəls. dok. ...dis.Bakı, 2011.

2. Hüseynova S.R."Riyaziyyatdan ümumiləşdirici və inkişafetdirici məsələlər vasitəsilə nəzəri biliyin verilməsi və möhkəmləndirilməsi metodikası (VII-IX siniflər): Ped.ü.fəls. dok. ...dis. Bakı, 2003.

3. Колягин Я.М. Математические задачи как средство обучения и развития ученика средней школы. M., 1983.

4. Qəhrəmanova N., Əskərova C. Riyaziyyat: Ümumtəhsil məktəblərinin 2-ci sinfi üçün dərslik, Bakı: Radius, 2012.

5. Qəhrəmanova N., Əskərova C. Riyaziyyat: Ümumtəhsil məktəblərinin 4-cü sinfi üçün dərslik, Bakı: Bizim kitab, 2015.

6. Qəhrəmanova N., Əskərova C., Qurbanova L. Riyaziyyat: Ümumtəhsil məktəblərinin 1-ci sinfi üçün dərslik, Bakı: Radius, 2017.

7. Qəhrəmanova N., Əskərova C., Qurbanova L. Riyaziyyat: Ümumtəhsil məktəblərinin 3-cü sinfi üçün dərslik, Bakı: Radius, 2014.

E-mail: abdullayev_ayxan@list.r

Rəyçilər: *dos.***X.S. Həsənova**
*dos.***F.F. Əliyev**
Redaksiyaya daxil olub: 25.12.2018

UOT 37.01.

Qumru Köçəri qızı İsmayılova
Bakı şəhəri Suraxanı rayonu 275 №-li məktəbin
riyaziyyat müəllimi

RİYAZİYYAT DƏRSLƏRİNİN TƏŞKİLİ FORMALARI

Гумру Кочери гызы Исмаилова
учитель математики школы № 275
Сураханского района гор.Баку

ФОРМЫ ОРГАНИЗАЦИИ УРОКОВ МАТЕМАТИКИ

İsmailova Gumru Kocheri
mathematics teacher secondary school number 275
Surakhani district, Baku

FORMS OF MATH CLASSES

Xülasə: Fəal təlim idrak fəaliyyətinin təşkili və idarə olunması üsullarının məcmusudur. Səciyyəvi cəhətləri müəllim tərəfindən problem situasiyanın yaradılması, təlim prosesində şagirdlərin fəal tədqiqatçı mövqeyinin həvəsləndirilməsi, şagirdlər üçün zəruri olan biliklərin müstəqil kəşfi, əldə edilməsi və mənimsənilməsidir.

Açar sözlər: *təlim metodları, üsullar, demokratik mühit, bələdçi, kollektiv, qrup, fərdi, cütlər.*

Резюме: Активное обучение представляет собой такую организацию и ведение учебного процесса, которая направлена на всемерную активизацию учебно-познавательной деятельности обучающихся посредством широкого, желательно комплексного, использования как педагогических, так и организационно-управленческих средств.

Ключевые слова*: методы обучения, приемы, демократическая среда, руководство, коллектив, групповое, индивидуально, парами.*

Summary: Active teaching - represents the organization and organization of the educational process, which is oriented towards the active activation of the conceptual, vocational, educational, didactic, and organizational-oriented tools.

Key words: *learning methods, methods, democratic environment, guide, collective, group, individual, couples.*

Ənənəvi təlim metodları ilə keçirilən dərslərdən fərqli olaraq yeni təlim texnologiyaları ilə keçiriləcək dərslər tamamilə yeni formada təşkil edilir. Dərslər biliklərə yiyələnməyə, həmçinin demokratik cəmiyyətin vətəndaşları üçün zəruri sosial və intellektual vərdiş və bacarıqların inkişafına kömək edən yeni demokratik üsullarla aparılır.

Riyaziyyat ümumtəhsil məktəblərində tədris olunan ən mühüm və vacib fənlərdən biridir. Qabaqcıl dünya ölkələrinin təhsil sistemlərində riyaziyyatın öyrənilməsinə xüsusi diqqət yetirilir. Bu, şəxsiyyətin formalaşmasında riyaziyyatın müstəsna rolu ilə izah olunur.

Riyaziyyat fənninin məzmun standartları sinifdən-sinfə dəyişsə də məzmun xətləri müəyyən mənada bütün siniflərdə dəyişməz qalır. Lakin kurikulumun hazırlanması prosesində məzmun xətlərinin hər birindəki məzmunun sadədən mürəkkəbə doğru dəyişməsi, dərinləşməsi və genişləndirilməsi nəzərdə tutulmalıdır. Buna görə də məzmun xətləri yalnız kurikulumun quruluşunu tərtib etməyə və bu haqda mülahizə yürütməyə xidmət edir. Qeyd etmək lazımdır ki,

fənnin məzmununa daxil olan hər hansı bir anlayış və ya bacarıqlar yalnız bir məzmun xətti çərçivəsində məhdudlaşmaya bilər. Məzmun xətləri müəyyənləşdirilərkən nəzərdə tutulur ki, riyaziyyat təlimində siniflər üzrə onların hər birinə eyni dərəcədə əhəmiyyət veriləcəkdir.

Məşğələlərin təşkilinin əsas prinsipini müəllimin şagirdlərlə, şagirdlərin isə bir-biriləri ilə kommunikasiyaları təşkil edir. Müasir təlim üsullarının əsasında məhz bu prinsip dayanır. Yeni üsullar dərsdə şagirdlərin fəal iştirakını, qarşılıqlı əlaqəsini nəzərdə tutur ki, bu da onların tam şəkildə dərketmə prosesinə cəlb edilməsinə səbəb olur. Uşaqlar müəllimin təcrübəsini passiv qəbul etmir, onunla birlikdə ətraf aləmin fəal tədqiqatçısına çevrilirlər. Müəllimin də rolu dəyişir. O öz şərtlərini diktə etmir, fikrini qəti olaraq qəbul etdirməyə çalışmır, əksinə, məsləhət verən, yardımçı olan və istiqamət tərəf-müqabilinə, yoldaşa çevrilir. Ona görə də interaktiv dərslərdə müəllimin "mən", "siz" kimi adət etdiyimiz ifadələr əvəzinə "biz" ifadəsindən faydalanmağı daha məqsədəuyğun olardı.

Müəllim biz deyərkən şagirdlər onunla birlikdə olduqlarını hiss edir, özlərini yad saymırlar: şagirdlər və müəllim təlim prosesinin bərabərhüquqlu iştirakçısına çevrilmiş olurlar. İlk baxışdan elə görünə bilər ki, müəllim sinifdə fəal rol oynamır. Əslində isə müəllim şagirdi ruhlandıran, ona özünü tapmaqda kömək edən yaradıcıya çevrilir. Müasir dərsin ən vacib göstəricilərindən biri dərsin məqsədinin qoyuluşudur. Təlim məqsədi dərsdə reallaşdırılacaq standartın və ya standartlar qrupunun tələblərini ödəməlidir. Yeni fənn kurikulumunun tələblərinə görə 45 dəqiqəlik dərs həmin gün reallaşdırılacaq standartın reallaşdırılması üzərində qurulmalıdır. Məzmun standartları ümumi hazırlanmışdır.

Müəllim həmin standartı mövzusuna görə təlim məqsədinə çevirməyi bacarmalıdır. Məsələn, riyaziyyat fənnindən 3.1.3. Üçbucağın və kvadratın perimetrini, düzbucaqlının və kvadratın sahəsini hesablayır standartı bir neçə mövzuda reallaşacaqdır. Bu standartın məzmununu açsaq ora aşağıdakılar daxildir: üçbucağın perimetri, kvadratın perimetri, düzbucaqlının sahəsi, kvadratın sahəsi. Göstərilənlər hərəsi bir mövzudur. Müəllim hər bir mövzuda 3.1.3. standartını reallaşdırılacaq, lakin məqsədlərini mövzuya görə müəyyənləşdirəcəkdir. Məsələn, əgər mövzu kvadratın sahəsinin hesablanmasıdırsa, məqsədlər aşağıdakı kimi olacaqdır:

- Kvadratın sahəsini hissə-hissə hesablayır.
- Sahələri düsturla ifadə edir
- Sahəyə aid müxtəlif en və uzunluq ölçülərini müəyyən edir

İnteraktiv təlim üsulları həmçinin sinif otağının həmişəki tərtibatından, məşğələlərin təşkilinin adət etdiyimiz qaydasından imtina olunmasını tələb edir. Hər bir təlim forması dərsin məqsədindən asılı olaraq seçilir və şagirdlərin fəaliyyətləri bu forma üzərində qurulur. ***Kollektivdə*** işləmək, kollektiv fəaliyyətə alışmaq bacarığının bünövrəsi qoyulur, şagirdlərdə ünsiyyətyaratma bacarığının təşəkkülü və inkişafı təmin edilir. ***Qruplarla iş*** - Şagirdlər müəyyən problemi həll etmək üçün qrupda birləşirlər. Bu prosesdə onların müzakirə etmək, fikir mübadiləsi aparmaq, mühakimə yürütmək və birgə fəaliyyət bacarıqları inkişaf edir. ***Cütlərlə iş*** – Şagirdlər təlim tapşırıqlarını birgə yerinə yetirirlər. Bu dərs forması şagirdlərə daha yaxından əməkdaşlıq etməyə və ünsiyyət qurmağa, məsuliyyəti bölüşməyə optimal imkan yaradır. ***Fərdi iş*** - Şagirdin fəaliyyətini izləmək, potensial imkanlarını müəyyənləşdirmək və inkişaf etdirmək məqsədi daşıyır. Bu təlim forması şagirdin sərbəst düşünməsi üçün real imkanlar yaradır.

Standartlara əsaslanan nəticəyönlü təhsil proqramı (kurikulumu) təlimin düzgün təşkilini və sinifdəki bütün şagirdlərin standartları mənimsəməsini nəzərdə tutur. Riyaziyyat dərslərində daha çox fərdi iş formasından istifadə etmək məqsədəuyğundur. Çünki hesablamalar fərdi aparılarsa daha effektli olur.

İstifadə olunan bütün üsullar aşağıda verilmiş komponentlərdən ibarət olan təlim prosesinin qanunauyğunluqlarından irəli gəlir.

a) təlimin məqsədi,
b) məzmunu,
c) şagirdlərin dərketmə imkanları,
d) müəllim öyrətmə fəaliyyəti və şagirdlərin öyrənmə işi, təlimin təşkili forması və s.
e) təlimin nəticəsi

Bütün bu komponentlər qarşılıqlı surətdə əlaqəlidir və təlim prosesində vəhdətdə çıxış edirlər. Onlar sabit və təkrarlanandırlar. Buradan belə bir vacib tələb ortaya çıxır-hər hansı təlim üsulları, vasitələri və formalarının müəyyən-

ləşdirilməsi və tətbiqi zamanı bu komponentlərin qarşılıqlı əlaqəsini nəzərə almaq zəruridir. Müəllim bu əlaqələrin bütün dərs prosesi boyu mövcud olduğunu yaddan çıxarmamalıdır. Bunu nəzərə almadan istənilən nəticəni əldə etmək qeyri-mümkündür.

Problemin aktuallığı. Fəal/interaktiv təlim texnologiyaları nəticə çıxarmaq, müzakirə etmək, əməkdaşlıq etmək, fikirləri bölüşdürmək bacarıqlarına və təfəkkürün inkişafına yönəlmişdir. Fəal təlim zamanı şagird passiv bir obyekt olmağı dayandırır, təlimin fəal iştirakçısı olur. Dərs dialoq şəklində keçirilir. Fəal dialoq zamanı bütün şagirdlərin fikri verilmiş tədqiqat işinin həllinə yönəlir.

Problemin elmi yeniliyi. Şagirdlərin dərs prosesində müxtəlif formada öyrənmələri, tədqiqat aparmaları daha effektiv nəticələr verir. Tədris prosesini aktiv şəkildə həyata keçirmək, şagirdlərin fəallığına nail olmaq, onların düşünmə qabiliyyətini inkişaf etdirmək, yaradıcılığa həvəsləndirmək üçün təlim prosesində müxtəlif forma və üsullardan istifadə edilməlidir.

Problemin praktik əhəmiyyəti. Fəal təlim metodunun tədris prosesinə daxil edilməsi şagirdlərin passivliyinin aradan qaldırılmasına, lazım olan təfəkkür xüsusiyyətlərinin və yaradıcılığın formalaşdırılması və təlim keyfiyyətinin yüksəldilməsinə şərait yaradır.

Ədəbiyyat:

1. Ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənn proqramı (kurikulum)
2. A.N. Abbasov. Pedaqogika. Bakı: Mütərcim, 2013.
3. Z. Veysova Fənn müəllimləri üçün ixtisasartırma təhsilinin 2-ci modulu üzrə "Ümumi orta təhsil səviyyəsinin yeni fənn kurikulumlarının tətbiqi üzrə" təlim kursunun iştirakçıları üçün təlim materialı. Bakı: "İnkişaf" Elmi Mərkəzi, 2012.

E-mail: ismailova@mail.ru
Rəyçilər: *ped.ü.fəls.dok., dos.* **A.M. Bəkirova,**
ped.ü.fəls.dok., dos. **Ə.A. Gərayev**
Redaksiyaya daxil olub: 17.12.2018

UOT 37.01.

Azadə İslam qızı Şirəliyeva
Azərbaycan Dövlət Pedaqoji Universiteti

RİYAZİYYAT TƏLİMİNDƏ MÜQAYİSƏ METODUNUN ÖYRƏNİLMƏSİ VƏ TƏTBİQİNƏ DAİR

Азада Ислам гызы Ширалиева
Азербайджанский Государственный Педагогический Университет

ОБ ИЗУЧЕНИИ И ПРИМЕНЕНИИ МЕТОДА СРАВНЕНИЯ ПРИ ПРЕПОДАВАНИИ МАТЕМАТИКИ

Azade Islam Shiraliyeva
Azerbaijan State Pedagogical University

LEARNING AND APPLYING WARRANTY METHODS IN RADIATION TRAINING

Xülasə: Məqalə ümumtəhsil məktəblərinin riyaziyyat dərslərində müqayisənin təlim metodu kimi tətbiqinə və istifadə olunmasına həsr olunub. Müqayisə metodunun məntiqi priyom olaraq həm elmi tədqiqatlarda, həm də təlimdə əhəmiyyəti göstərilmişdir. Bu metodların tətbiqi şagirdlərdə yeni bilik və ideyaların yaranmasına təkan verəcəkdir.

Açar sözlər: *metod, təlim, ənənvi təlim, tədris, təfəkkür, obyekt, növ, xassə, priyom, təcrübə*

Резюме: В статье основное внимание уделяется применению и использованию сравнений в качестве метода обучения в общеобразовательных школах. Методология является логическим предпосылкой как в науке, так и в обучении. Применение этих методов будет способствовать развитию новых знаний и идей у учащихся.

Ключевое слово: *метод, обучение, традиционная подготовка, обучение, мышление, объект, тип, эссе, приём, опыт*

Summary: The article focuses on the application and use of comparisons as a learning method in general math schools. The methodology is logical prerequisites both in science and in training. The application of these methods will encourage the development of new knowledge and ideas in pupils.

Key words: *method, training, traditional training, teaching, thinking, object, type, essay, priyom, experience*

Müəllimin, şagirdlərin praktik və idrak fəaliyyətini təşkil edən sistem ardıcıl surətdə tədrisin məzmununu mənimsəməyə təlim metodu yardımçı olur. Bəzən ən maraqlı mövzu üzrə pedaqoji cəhətdən düzgün qurulmuş dərsin nəticəsi bu məqsədlə seçilmiş metodun nəticəsindən asılı olur. Metodun yunancadan tərcüməsidə şərh, izah qaydası nəyə isə yol, ”idrak yolu” deməkdir. Metodların daxili cəhətinin xarakteristikasından söz açarkən, bütün hallarda, söhbət hazır biliklərin mənimsənilməsindən, onların çox və ya az yaradıcı mənimsənilməsindən, onların çox və ya az yaradıcı axtarış prosesində müstəqil əldə edilməsindən gedir. Pedaqoji ədəbiyyatlarda təlim metodu anlayışına müxtəlif cəhətdən yanaşılır və rəngarəng təriflər verilir. Metodların bu cəhətlərinin fərqləndirilməsi M.A. Danilovun xidmətidir, lakin o, məntiqin metodlarını da təlim metodları hesab etmişdir. B.P.Yesipov təlim metoduna daha düzgün tərif vermişdir. Ona görə təlim metodu adı altında müəllim və şagirdlərin elə iş qaydası nəzərdə tutulur ki, onun köməyi ilə məktəblilərin bilik, bacarıq və vərdişləri mənimsəmələrinə, idrak qabiliyyətlə-

rinin inkişafına, dünyagörüşünün formalaşmasına nail olunur. İ.P. Podlasıy yazır: ”Nə qədər ki, təlim birgə fəaliyyətdir, müəllimə aid ediləndə tədris metodundan danışmaq yerinə düşür. Şagirdə münasibətdə isə öyrənmə metodları demək lazımdır. Əgər söhbət müəllim və şagirdlərin birgə işindən gedirsə, burada, şübhəsiz, təlim metodları meydana çıxır”. N.M.Verzilin və V.M. Korsunskaya təlim metodunun tərifindən bəhs edərək göstərirlər ki, metod təlim prosesində müəllimin və şagirdlərin fəaliyyətinin vəhdətinin məntiqi cəhətdən qəbul olunmasından irəli gəlməli, başqa sözlə, fəaliyyətin xarasteristikasını təşkil etməlidir. Tədris metodu müəllim tərəfindən biliklərin verilməsi, eyni zamanda, onların şagirdlər tərəfindən mənimsənilməsi qaydasıdır. Göründüyü kimi, tədris prosesində müxtəlif metodlara müraciət etmək lazımdır. Ona görə də onlardan, yəni təlim metodlarından vəhdətdə istifadə olunmalıdır. Hazırda şagirdlərin təlimin yeni məzmununu müvəfəqiyyətlə mənimsəmələri üçün onlardan yüksək idrak fəallığı tələb edən yeni metodların səmərəli ənənənvi metodlarla bacarıqla birləşdirilməsi məqsədəuyğundur. Təlim metodu, geniş mənada, tərbiyənin ümumi məqsədi və vəzifələrindən, ictimai-ixtiyari mərhələdən, təlim məqsədi, məzmunu və didaktik prinsiplərindən asılı olaraq dəyişir.

Orta əsrlərdə təlim prosesi sxolastik xarakter daşıdığından söz metodundan, quru əzbərçilik, eşitdiklərinin yenidən hasil olması metodundan istifadə edilirdi. Bəşəriyyət inkişaf etdikcə təlimin məqsədlərində dəyişiklik baş vermiş və bu öz təsirini metodlarada göstərmişdir.

Riyaziyyatın təlimi prosesində təlim metodu, biliklərin müəllim tərəfindən şifahi şərhi, müşahidə, söhbət, müstəqil işlərin yerinə yetirilməsi və s. yollarla şagirdlərə yeni biliklər vermək, onları təkmilləşdirmək və ya yoxlamaq üçün nəzərdə tutulur. Müəllimlə şagirdlərin birgə fəaliyyəti arasındakı müxtəliflik baxımından təlim metodlarını iki qrupa bölmək olar: tədris metodları və öyrənmə metodları. Məlumdur ki, təlim prosesi mahiyyət etibarilə xarici aləmin dərk olunmasından, ümumiyyətlə, idrak proresindən əsaslı surətdə fərqlənmir və idrakın ümumi qanunauyğunluqlarına tabedir. Buna görə də təlimin üsul və priyomları xarici aləmin düzgün əks olunmasına xidmət etməli, həyatın dialektikasına uyğun gəlməlidir. Marksist-leninci idrak nəzəriyyəsinin bu müddəası müqayisə priyomuna yanaşmağın metodoloji əsasını təşkil edir. Müqayisə priyomu xarici aləmin dialektikasına ziddirsə, onun qanunauyğunluqlarını əks etdirmirsə, faydalı ola bilməz. Əksinə, müqayisə priyomu obyektiv varlığı və təfəkkürün qanunauyğunluqlarını özündə əks etdirir və məntiqi surətdə onlardan nəşət edirsə, onun müəyyən şərtlərlə tətbiqi hökmən faydalı olmalı, real aləmi dərk etmək vasitəsinə çevrilməlidir. Qarşıya belə bir sual çıxır: görəsən müqayisə priyomu xarici aləmin və təfəkkürün qanunauyğunluqlarına müvafiq gəlirmi, həmin qanunauyğunluqları dərk etməyə, onların mahiyyətini açmağa tam imkan verirmi? Fikrimizcə, həmin priyom təbiət və cəmiyyət hadisələrindəki qanunauyğunluqlara, insan, təfəkkür qanunauyğunluqlarına tamamilə müvafiqdir, qanunauyğunluqların yetişməkdə olan gənc nəslə çatdırılmasında böyük əhəmiyyətə malikdir. Lakin əsas məsələ həmin priyomdan necə istifadə etməkdir. Bu isə, heç şübhəsiz, müəllimin həyat təcrübəsinin zənginliyindən, məharətindən, elmi yetkinliyindən, həmin priyomdan necə istifadə etməsindən asılıdır. Ədəbiyyatlarda müqayisəyə aid müəyyən tərif lər vardır. Bununla yanaşı, ədəbiyyatlarda müqayisəyə verilən tərif onun, əsasən, didaktik cəhətlərini deyil, məntiqi cəhətlərini əhatə edir. Müqayisə priyomuna verilən ən geniş tərif belədir: müqayisə cisim və hadisələr arasında oxşar və fərqli əlamətlərin müəyyənləşdirilməsi prosesidir. Bu tərifdən də aydın olur ki, bu metod obyektlərin oxşar və fərqli əlamətlərinin aşkarlanmasına yönəlir, bu prosesləri nə eyniləşdirmək, nə də ayırmaq olmaz. Bu proseslər ayrılmaz, ardıcıl proseslərdir.

Ayrı-ayrı fənlərin tədrisində müqayisə metodunun müxtəlif növlərindən, onun müxtəlif variantlarından istifadə olunur. Buna görə də müqayisə metodunun növlərini və variantlarını aydınlaşdırmaq lazımdır. Müqayisənin üç növü var:

1. Obyektlər arasındakı oxşar cəhətlərin aşkar edilməsi;
2. Obyektlər arasındakı fərqli cəhətlərin aşkar edilməsi;
3. Obyektlər arasında oxşar və fərqli cəhətlərin aşkar edilməsi.

Nümunə: Üçhədlini ikihədlinin kvadratı şəkilində ifadə edin;

64+16*b+b^2.

İzahat: Şagirdlər kənar hədlərə (64=8^2 və b^2) baxıb qüvvətlərin əsasları (8 və b) ilə ikinci həddi (16b=2*8b) müqayisə edirlər. Aydın olur ki, $8^2 + 2 * 8b + b^2$, yəni $64 + 16x + b^2$ elə $a^2 + 2ab + b^2$ şəkilindədir. Yəni $64 + 16b + b^2 = (8 + b)^2$.

Problemin elmi yeniliyi. Riyaziyyat təlimində müqayisə metodu şagirdlərdə əvvəldən mənimsənilən materialların müqayisəsi bu materiallarda şagirdlərə məlum olmayan yeni cəhətləri aşkara çıxarmağa kömək edir.

Problemin aktuallığı. Məktəbdə istifadə olunan müqayisə metodu şagirdlərin məntiqi təfəkkürü və yaradıcı fəaliyyətinin inkişafına kömək edir .

Problemin praktik əhəmiyyəti. Təlimdə istifadə olunan müqayisə metodu şagirdlərdə yeni bilik və ideyaların yaranmasına təkan verir.

Ədəbiyyat:

1. Adıgözəlov A.S. Məktəbdə riyaziyyat təliminin nəzəri əsasları. Bakı, 2018.
2. Adıgözəlov A.S. "Orta məktəbdə riyaziyyatın tədrisi metodikası. Bakı, 2009.
3. Kərimov Y.Ş. Təlim metodları. Bakı, 2009.
4. Kazımov.N.M. Müqayisə priyomundan istifadə edilməsi. Bakı: Azərtədrisnəşr, 1964.

E-mail: azavus1302@gmail.com
Rəyçi: *ped.ü.elm.dok., prof.* **A.S. Adıgözəlov**
Redaksiyaya daxil olub: 12.12.2018

UOT 37.

Dəstəgül Məzahir qızı Zeynalova
Azərbaycan Dövlət Pedaqoji Universiteti

RİYAZİYYAT DƏRSLƏRİNDƏ PROBLEMLİ TƏLİM METODUNUN TƏTBİQİ İMKANLARI

Дастагюль Мазахир гызы Зейналова
Азербайджанский Государственный Педагогический Университет

ВОЗМОЖНОСТИ ИСПОЛЬЗОВАНИЯ ПРОБЛЕМНОГО МЕТОДА ОБУЧЕНИЯ НА УРОКАХ МАТЕМАТИКИ

Dastagul Mazahir Zeynalova
Azerbaijan State Pedagogical University

LEARNING MATHEMATICAL METHODS IN MATHEMATICS

Xülasə: Riyaziyyatın öyrənilməsinə maraq oyadılması və inkişafı yeni riyazi məlumatların öyrənilməsindən əvvəl, problem situasiya yaradan məsələ həllinə kömək edir. Şagirdlərin fəallığını və müstəqilliyini daha da artırmaq üçün tətbiq olunan metodlar içərisində problemli təlimin elementləri xüsusi rol oynayır. Problem situasiyada şagird qoyulmuş məsələni başa düşə , onu həll etməyə çalışır, lakin bunun üçün onu biliyinin kifayət etmədiyini də hiss edir. Belə situasiyalar isə şagirdlərdə həvəs yaradır, onları yeni bilik, bacarıq və vərdişlər əldə etməyə, şüurlu, fəal yaradıcılıq işinə sövq edir .

***Açar söz**: Tədris metodları, fəaliyyət, təlim metodları, problemin qoyuluşu, problem situasiya, bilik, bacarıq, vərdiş*

Резюме: Мотивация и развитие математической работы помогает создать задачу, которая создает проблемы перед изучением новых математических данных. Элементы проблемного обучения играют особую роль в методах, используемых для повышения эффективности и самостоятельности учащихся. Ученик в состоянии проблемы понимает и пытается решить проблему, но также чувствует, что знания недостаточно. Такие ситуации вызывают энтузиазм у учащихся, побуждают их приобретать новые знания, навыки и умения и участвовать в сознательной, творческой работе.

***Ключевые слова**: Методы обучения, деятельность, методы обучения, постановка проблемы, проблемные ситуации, знания, умения, навыки*

Summary: The development of anxiety and math work helps solve problems that create problems before learning new mathematical data. The elements of problematic learning play a special role in the methods used to increase students' effectiveness and independence. The student in problem status understands and tries to solve the problem, but also feels that knowing is not enough. Such situations create enthusiasm for students, encouraging them to acquire new knowledge, skills and habits, and to participate in conscious, creative work.

***Key words:** Teaching methods, activities, training methods, problem solving, problem situations, knowledge, skills, habits*

Təsnifatdakı hər bir metodlar qrupu əsas didaktik məqsədlərin yerinə yetirilməsinə xidmət edir. Təlim metodu-pedaqoji nəzəriyyədə və praktikada ən mürəkkəb və bir sıra məsələlər üzrə vahid qaydada şərhinə hələlik nail olunmamış problemlərdən biridir. Metod- fəaliyyət zamanı necə hərəkət etmək lazım gəldiyini bildirən üsul olub, məqsədə necə nail olmağın yolunu göstərir. Müəllimlə şagirdlərin fəaliyyəti ara-

sındakı müxtəliflik baxımından təlim metodlarını iki qrupa bölmək olar:

1) Tədris metodları (müəllimin fəaliyyəti).

2) Öyrənmə metodları(Şagirdlərin fəaliyyəti)

Təsnifatdakı hər bir metodlar qrupu əsas didaktik məqsədlərin yerinə yetirilməsinə xidmət edir. Təlim metodu - pedaqoji nəzəriyyədə və praktikada ən mürəkkəb və bir sıra məsələlər üzrə vahid qaydada şərhinə hələlik nail olunmamış problemlərdən biridir. Metod - fəaliyyət zamanı necə hərəkət etmək lazım gəldiyini bildirən üsul olub, məqsədə necə nail olmağın yolunu göstərir.

Müəllimlə şagirdlərin fəaliyyəti arasındakı müxtəliflik baxımından təlim metodlarını iki qrupa bölmək olar :

Tədris metodları (müəllimin fəaliyyəti)

Öyrənmə metodları (Şagirdlərin fəaliyyəti)

Riyaziyyatın tədris metodları dedikdə şagirdlərə riyazi bilik, bacarıq və vərdişlər sisteminin verilməsi üsulları başa düşülür . Təlim metodlarının seçilməsində bəzi meyarlar əsas götürülür. Müəllim dərsin məqsəd və vəzifələrindən, keçilən fənn və mövzudan, şagirdlərin dərketmə imkanı və hazırlıq səviyyəsindən çıxış edərək konkret sinif və dərs üçün optimal (münasib) təlim metodlarını seçib tətbiq etməlidir. Müəllimin pedaqoji ustalığının mühüm göstəricilərindən biri də budur.

Şagirdlərin fəallığını və müstəqilliyini daha da artırmaq üçün tətbiq olunan metodlar içərisində problemli təlimin elementləri xüsusi rol oynayır .

Problemli şərh metodu - çətin problemlərin açılmasında istifadə olunur. Müəllimin izahı idrakın nümunəsi sayılır .

Problemli axtarış metodları - problemin həlli üzərində şagirdlərin fərziyyələrinin irəli sürülməsi və araşdırılma nəticəsində məlumatın ümumiləşdirilməsidir .

Problemli təlim zamanı yeni biliklər hazır şəkildə verilmir, müəllim onların“ əldə edilməsini”, kəşfini təşkil edir. O, şagirdləri maraqlandıran elə məsələlər seçir və sualları elə şəkildə qoyur ki, bu suallar ətrafında gərgin düşünmək lazım gəlsin. Şagirdlər isə qarşılarına qoyulmuş problem həll etmək üçün bilik və bacarıqlarına əsaslanaraq elmdəki məlum qanunauyğunluqları tədqiq edərək“ kəşflər” edirlər .

Problemli təlim dedikdə, adətən tədris məqsədilə yaradılmış problem situasiyaların ardıcıl həll edilməsindən ibarət təlim başa düşülür.

Misal:

“x^2-x-7=0 tənliyini həll edin” məsələni problemdirmi ? Məsələnin kimə təklif edilif edildiyi bilinmədikdə o qeyri-müəyyəndir. Əgər bu məsələ kvadrat tənliklər bölməsini öyrənənə qədər şagirdlərə təklif olunarsa, onda bu şübhəsiz onlar üçün problemdir . Belə ki, bu məsələnin həlli üçün onların bilikləri kifayət deyil, onun həlli problem situasiya yaradacaqdır. Əgər bu məsələ kvadrat tənliklərin həlli alqoritminə yiyələnmiş şagirdlərə təklif olunarsa, onda təbiidir ki, məsələ onlar üçün problem deyildir. Deməli problem xarakterli məsələlərin həlli prosesini aşağıdakı kimi təsvir etmək olar:



Problem xarakterli məsələlərin həlli prosesi aşağıdakı mərhələlərdən ibarət ola bilər:

Məsələdə hansı nöqtədən başlamaq lazımdır?

Müxtəlif fərziyyələrin irəli sürülməsi;

Məsələ həllinin xüsusi hallar üçün yoxlanması;

Məsələ həllinin ümumi şəkildə ifadə edilməsi.

Problemli təlimdə əsas işlərdən biri də problemin həllidir. Bunun üçün şagird keçmiş biliklərdən istifadə edir, axtarışlar aparır, isbat edir, mühakimə aparır, müxtəlif hipotezlər qurur, səhvlərə yol verir, səhvini tapır, problemin həlli üçün təzədən yeni üsullar axtarır, nəhayət,

onu həll edir. Belə axtarışlar prosesi şagirdin təfəkkürünü inkişaf etdirir, onda yeni bilik və bacarıqlar, müstəqil işləmə vərdişləri yaradır.

Təklif olunmuş məsələnin həlli üçün zəruri biliklə şagirdlərdə mövcud olan biliklər arasındakı uyğunsuzluqdan əmələ gələn çətinliyin az və ya çox dərəcədə dərk edilməsi psixoloji baxımdan problem situasiya adlanır. Problem situasiya yaradan məsələ və ya sadəcə problem deyilir. Riyaziyyat təlimi prosesini riyazi tədqiqatlar prosesinə yaxınlaşdıran üç əsas problem göstərmə olar:

Riyaziyyatdan kənarda (bilik, texnika və istehsalatın müxtəlif sahələrində) yaranan situasiya və məsələlərin riyazi dilə çevrilməsi, riyazi təsviri, riyaziləşmə problemi;

Birinci tip problemin həlli nəticələrinin tədqiqi müxtəlif sinif modellərin tədqiqi problemidir;

İkinci tip problemin həlli nəticəsində alınan yeni nəzəri biliklərin onların əldə edildiyi şəraitdən əsaslı şəkildə fərqlənən yeni şəraitdə tətbiqidir.

Beləliklə, bu əsas tip problem müxtəlif funksiyalar yerinə yetirir: birinci tip problemin həlli yeni biliklər verir; ikinci tip problemin həlli həmin bilikləri sistemə gətirir; üçüncü tip problemin həlli bu biliklər sisteminin tətbiqi üçün yeni imkanlar açır.

Şagirdlərin fəallığı və müstəqilliyinin artması, əsasən onlarda idraki tələblərin olması ilə əlaqədardır. Bizi əhatə edən həqiqət və dünyaya baxışlar sistemi haqda olan bu kimi tələblər hələ insanda uşaq yaşlarında meydana gəlir. Ona görə də uşaq hələ kiçik yaşlarından hər şeyi bilmək istəyir. Bunun əsasında uşaqlarda bizi əhatə edən dünyaya fəal münasibət tərbiyə olunur. Bunlar isə elmə aid motivlərin yaranmasına səbəb olur.

Qabaqcıl müəllimlər şagirdlərin təfəkküründün fəallığını və müstəqilliyini artırmaq məqsədi ilə ənənəvi təlim metodları təkmilləşdirir və yeni-yeni yollar axtarırlar.

Problemli təlimin ənənəvi təlim metodlarından aşkar üstünlüklərinə baxmayaraq, məktəbdəki təlimin heç bir mərhələsi bütövlükdə problemli təlim kimi qurula bilməz. Ona görə də problemli təlimin reallaşdırılması üçün məktəb riyaziyyat kursunun ayrı-ayrı bölmələri, mövzuları və bəndlərindən fraqmentlərin seçilməsi problemi yaranır.

Şagirdlərin bu və ya digər tədris problemlərini həll etməsi hazır məlumatı oxuyub, öyrənməsindən qat-qat əhəmiyyətlidir. Çünki bu prosesdə şagirdlər fəal olaraq düşünürlər. Bu isə yalnız müstəqil əldə edilmiş möhkəm və dərin biliyə deyil, həmçinin istənilən situasiyadan baş çıxarmaq və rastlaşan problemi müstəqil həll etmək vərdişlərinə yiyələnirlər. Qeyd etməliyik ki, ümumiyyətlə müəllimlər problemli təlim üsulunu öz iş təcrübələrində hələ tam tətbiqinin müvəffəqiyyəti mövzunun məzmunundan da asılıdır. Bunun üçün mövzuda problemin olub-olmamasına, onu ifadə etməyin mümkünlüyünə, bu mövzunun problemli təlim üsulu ilə tədrisinin başqa üsulla tədrisindən üstünlüyünə əhəmiyyət vermək lazımdır.

Problemin aktuallığı: Təcrübə göstərir ki, elm və texnika inkişaf etdikcə yeni təlim metodları, yeni situasiyalı məsələlər, yeni öyrətmə xarakterli üsullar da meydana gəlmişdir . Bu təlim metodları nə qədər səmərəli, nə qədər didaktik məqsədlərə nail ola bilən olsa da bəzən bu metodların tətbiqində müəllim müəyyən çətinliklərlə qarşılaşır. Bu, təlim metodlarının tətbiqi ilə problemli məsələ həllinə dair çalışmaların təliminin araşdırılması aktuallıq kəsb edir. Riyaziyyat fənnini digər fənlərdən fərqləndirici xüsusiyyətlərdən biri də, fənnin məzmunundan irəli gələn bəzi məsələlərin həlli, özü elə şagirdləri tədqiqatçılığa sövq edir. Bu məsələlərdən biri də müəyyən inteqralın, inteqral hesabına dair çalışmaların araşdırılmasıdır. Şagirdlərin çətinlikləri aradan qaldırmaq üçün mövzunun metodik işlənməsi zərurətini yaratmış və bu məqsədlə dissertasiya işinin yazılmasını məqsədəuyğun hesab edirik.

Problemin elmi yeniliyi. İlk dəfə olaraq məktəb riyaziyyat kursunda tədqiqat metodunda; Problemli məsələ daxil olan tənlik və onun həllinin analitik-sintetik öyrənilməsinin metodikası sistemi verilmişdir .Mövzunun nəzəri və praktik materialının şagirdlərin tədqiqatçılıq qabiliyyətlərinə və ümumiləşdirmə bacarıqlarının inkişaf etdirilməsindəki əsas xüsusiyyətlər göstərilmişdir. Bəzi ümumiləşdirmələr əsasında problemli məsələ daxil olan tənliklərin praktik tətbiqlərinin öyrənilməsi metodu şərh edilmişdir.

Nəticə: Məqalədə orta məktəblərdə problemli təlim mövzusunun tədrisinin xüsusiyyətləri və onla əlaqəli anlayışların elmi əsaslarının şərhinə və müxtəlif situasiyalarda tətbiqinə kifayət qədər yer ayrılmasıyla təlimin elmi səviyyəsi və səmərəsinin daha çox artırılması məsələsi aktual olaraq verilmişdir.

Mövzuda öz ifadəsini tapan problemli metodun tətbiqinə dair çalışmalar sisteminin öyrənilməsinə aid metodik mülahizələr orta məktəblərin riyaziyyat kömək göstərəcək, dərs vəsaitləri və tədris proqramlarının təkmilləşdirilməsi nə imkan verəcəkdir. Beləliklə, məktəb riyaziyyat kursunda problemli təlim metodu mövzusunun öyrənilməsinə dair nəzəri və praktik fəaliyyəti üzvi şəkildə əlaqələndirməklə şagirdlərin inkişafına nail olmaq mümkündür.

Problemin tətbiqi əhəmiyyəti*:* Müəllimlərə, təhsilverənlərə şagirdlərin yaradıcı təfəkküründün inkişafının imkan və yollarına dair metodik tövsiyələr

Ədəbiyyat:

1. Adıgözəlov A.S. - Məktəbdə Riyaziyyat Təliminin Nəzəri Əsasları, Bakı, 2009.
2. Adıgözəlov A.S., Əliyeva T. - Orta məktəbdə riyaziyyatın tədrisi metodikası Bakı, 2011.
3. Tahirov B.Ö., Namazov F.M., Əfəndi S.N., Qasımov E.A., Abdullayeva Q.Z. - Riyaziyyatın tədrisi üsulları, Bakı, 2009.
4. Nəzərov A. - Müasir təlim texnologiyaları(Mühazirə xülasələri), Bakı, 2012.

E-mail: zeynallı@mail.ru
Rəyçi: *ped.ü.elm.dok.,prof.***A.S. Adıgözəlov**
Redaksiyaya daxil olub: 07.12.2018

UOT 37.01.

Sevil Firuz qızı Muradova
Azərbaycan Dövlət Pedaqoji Universiteti

MƏKTƏB RİYAZİYYAT KURSUNDA İBTİDAİ FUNKSİYA ANLAYIŞININ DAXİL EDİLMƏSİ

Севиль Фируз кызы Мурадова
Азербайджанский Государственный Педагогический Университет

ВВЕДЕНИЕ ЭЛЕМЕНТАРНОЙ ФУНКЦИОНАЛЬНОЙ КОНЦЕПЦИИ В ШКОЛЬНЫЙ КУРС МАТЕМАТИКИ

Sevil Firuz Muradova
Azerbaijan State Pedagogical University

INTRODUCING ELEMENTARY FUNCTIONAL CONCEPT IN SCHOOL MATHEMATICS COURSE

Xülasə: Aydındır ki, inteqral, ibtidai funksiya kimi mövzular riyaziyyatın əsas bölmələrindəndir. Bu inteqrallar funksiyalar üzərində tətbiq olunmaqla yanaşı, bir çox problemlərin həll olunmasında əlverişli üsuldur. Bu üsul vasitəsilə törəməsinə görə funksiyasının tapılması, fiqurların sahəsinin, fırlanma cisimlərinin həcmlərinin tapılması asanlıqla yerinə yetirilir. Ona görə də bu məqalə böyük praktik əhəmiyyətə malikdir. Çünki bu məqalədə ibtidai funksiyanın tərifi ona aid çalışmalar, ibtidai funksiyanın xassələri ilə bağlı teoremlər şərh olunur.

Açar sözlər: *funksiya, inteqral, törəmə, diferensial, aralıq, nöqtə, bərabərlik, ibtidai funksiya*

Резюме: Очевидно, что такие предметы, как интегральные, элементарные функции, являются одним из основных разделов математики. Эти интегралы применяются не только к функциям, но и являются полезным способом решения многих проблем. С помощью этого метода легко найти функции производной, область и вращение объектов. Поэтому данная статья имеет большое практическое значение, поскольку в этой статье определение элементарной функции интерпретируется теоремами о свойствах элементарной функции.

Ключевые слова*: функция, интеграл, производная, дифференциал, интервал, точка, уравнение, первичная функция*

Summary: Obviously, subjects such as integral, elementary functions are one of the main sections of mathematics. These integrals are not only applied on features, but are also a useful way of solving many problems. Through this method, the functions of the derivative, the scope and the rotation of the objects are easily found. Therefore, this article is of great practical significance because in this article the definition of the elementary function is interpreted by the theorems about the properties of the elementary function.

Key words*: function, integral, derivative, differential, interval, dot, equation, primary function*

Məlumdur ki, diferensial hesabında funksiya verildikdə onun törəməsini tapmaq tələb olunur. Lakin bir çox məsələlərdə törəməsinə və ya diferensialına görə funksiyanın özünü tapmaq tələb edilir. Mövzunun öyrədilməsində məqsəd şagirdləri diferensiallaşmanın tərsi olan ibtidai funksiya və müəyyən inteqral əməliyyatları ilə tanış etmək olmalıdır. Bu anlayışlar, onların mahiyyətini, müasir təbiətşünaslıqda yerini göstərməklə, az sayda hesablamalarla möhkəmləndirməklə, dəqiq verilməlidir. Məlumdur ki, müəyyən inteqralın mahiyyəti inteqral cəmində limitə keçməkdən ibarətdir. Məktəbdə də əsas tərif belə verilməlidir. Çünki bu tərif inteqral anlayışının mahiyyətini ifadə edir, riyazi anlayışların təcrübənin tələbi nəticəsində necə ya-

randığını göstərir, terminologiyanı (integratio) izah edir, inteqralın tətbiqi üzrə məzmunlu məsələlərin əksəriyyətinin həlli belə təriflə əlaqədardır.

Tərif. Tutaq ki, f(x) və F(x) funksiyaları hər hansı bir $[a, b]$ parçasında təyin edilmişdir. Onda $[a, b]$ parçasının bütün nöqtələrində

$$F'(x) = f(x)$$

və ya

$$dF(x)=f(x)dx$$

bərabərliyi ödənilərsə, bu zaman F(x) funksiyasına $[a, b]$ parçasında f(x) funksiyasının ibtidai funksiyası deyilir.

Əgər $[a, b]$ parçasında F(x) funksiyası f(x) funksiyasının ibtidai funksiyası olarsa, onda istənilən C sabiti üçün $(F(x)+C)' = F'(x) = f(x)$ olduğundan F(x)+C funksiyası da həmin parçada f(x) funksiyasının ibtidai funksiyası hesab edilir.

Məlumdur ki, F(x) funksiyası $[a, b]$parçasında f(x) funksiyasının ibtidai funksiyası olduğu zaman C sabitinə ixtiyari qiymətlər verilməsilə F(x)+C ifadəsindən alarıq ki, f(x)-in bütün ibtidai funksiyaları sonsuz saydadır. Və bu ibtidai funksiyalar bir-birindən yalnız sabit toplananla fərqlənirlər.

Teorem: Fərz edək ki, f(x) funksiyasının ixtiyari iki F(x) və Φ(x) ibtidai funksiyaları verilmişdir və onlar bir-birindən sabit ədədlə fərqlənirlər. $F'(x)$ =f(x) və $\Phi'(x)$ =f(x) olduqda, Φ(x)=F(x)+C doğrudur.

Beləliklə, teoremdən görürük ki, əgər F(x) funksiyası f(x)-in hər hansı ibtidai funksiyası olarsa, onun bütün ibtidai funksiyaları $\{F(x)+C\}$ çoxluğuna daxil olur.

Tərif. f(x) funksiyasının $[a, b]$ parçasındakı bütün ibtidai funksiyalar çoxluğuna - $\{F(x)+C\}$ çoxluğuna f(x)-in $[a, b]$ parçasında qeyri-müəyyən inteqralı deyilir. $\int f(x)dx$ kimi işarə olunur.

Tərifi nəzərə alsaq, $\int f(x)dx = \{F(x)+C\}$, yaxud $\int f(x)dx = F(x)+C$ yaza bilərik. Qeyd edilən f(x) funksiyasına inteqralaltı funksiya, f(x)dx-ə inteqralaltı ifadə, x-ə inteqral dəyişəni deyilir.

Problemin aktuallığı. Məktəb təcrübəsi göstərir ki, fırlanma cismi səthinin müəyyən inteqral vasitəsilə hesablanması həlli şagirdlərdə müxtəlif çətinliklərlə qarşılaşır. Bu inteqral hesabına dair çalışmaların təliminin araşdırılması aktuallıq kəsb edir.

Riyaziyyat fənnini digər fənlərdən fərqləndirici xüsusiyyətlərdən biri də fənnin məzmunundan irəli gələn bəzi məsələlərin həlli, özü elə şagirdləri tədqiqatçılığa sövq edir. Bu məsələlərdən biri də müəyyən inteqralın, inteqral hesabına dair çalışmaların araşdırılmasıdır. Şagirdlərin çətinlikləri aradan qaldırmaq üçün mövzunun metodik işlənməsi zərurətini yaratmışdır.

Məqalədə orta məktəblərdə ibtidai funksiya mövzusunun tədrisinin xüsusiyyətləri və onunla əlaqəli anlayışların elmi əsaslarının şərhinə və müxtəlif situasiyalarda tətbiqinə kifayət qədər yer ayrılmasıyla təlimin elmi səviyyəsi və səmərəsinin daha çox artırılması məsələsi aktual olaraq verilmişdir. Mövzuda öz ifadəsini tapan ibtidai funksiyaların tət-biqinə dair çalışmalar sisteminin öyrənilməsinə aid metodik mülahizələr orta məktəblərin riyaziyyat kömək göstərəcək, dərs vəsaitləri və tədris proqramlarının təkmilləşdirilməsinə imkan verəcəkdir. Beləliklə, məktəb riyaziyyat kursunda ibtidai funksiya mövzusunun öyrənilməsinə dair nəzəri və praktik fəaliyyəti üzvi şəkildə əlaqələndirməklə şagirdlərin inkişafına nail olmaq mümkündür.

Problemin elmi yeniliyi. İlk dəfə olaraq məktəb riyaziyyat kursunda tədqiqat metodunda:

1. Müəyyən inteqral olan tənlik və onun həllinin analitik-sintetik öyrənilməsinin metodikası sistemi verilmişdir.
2. Mövzunun nəzəri və praktik materialının şagirdlərin tədqiqatçılıq qabiliyyətlərinə və ümumiləşdirmə bacarıqlarının inkişaf etdirilməsindəki əsas xüsusiyyətlər göstərilmişdir.
3. Bəzi ümumiləşdirmələr əsasında müəyyən inteqralı olan tənliklərin praktik tətbiqlərinin öyrənilməsi metodu şərh edilmişdir.

Problemin tətbiqi əhəmiyyəti: Məqalədə müəllimlərə, təhsilverənlərə şagirdlərin yaradıcı təfəkküründün inkişafının imkan və yollarına dair metodik tövsiyələr verilir.

Ədəbiyyat:

1. Tahirov B.Ö., Namazov F.M., Əfəndi S.N., Qasımov E.A., Abdullayeva Q.Z. Riyaziyyatın tədrisi üsulları. Bakı, 2007.
2. Məsimova S.N. Ali riyaziyyatın əsasları. Bakı, 2009.
3. Məmmədov R . Ali riyaziyyat kursu. I, II və III hissələr. Bakı, 1974.
4. Mərdanov M.C. və b. Cəbr və analizin başlanğıcı: 11-ci sinif üçün. Bakı: Çaşıoğlu, 2007.

Email: smuradova8@mail.ru
Rəyçi: *ped.ü.elm.dok., prof* **. A.S. Adıgözəlov**
Redaksiyaya daxil olub: 11.12.2018

UOT 37.

Əzimə İlqar qızı Məlikova
Azərbaycan Dövlət Pedaqoji Universiteti

FIRLANMA CİSİMLƏRİNİN TƏSVİRİ VƏ MÜSTƏVİ KƏSİYİNİN QURULMASI HAQQINDA

Азима Ильгар гызы Маликова
Азербайджанский Государственный Педагогический Университет

ОПИСАНИЕ О ВРАЩЕНИИ ТЕЛ И О СТРОЕНИИ УСЕЧЕННОЙ ПЛОСКОСТИ

Azima Ilqar gızı Malikova
Azerbaijan State Pedagogical University

ABOUT THE DESCRIPTION OF THE OPERATING INSTITUTIONS AND THE CREATION OF UPGRADE GOODS

Xülasə: Fırlanma cisimlərinin təsviri və müstəvi kəsiklərinin qurulması anlayışı məktəb həndəsə kursunda öyrənilən mühüm məsələlərdən biridir. Məqalədə müstəvi üzərində fırlanma cisimlərinin təsviri və müstəvi kəsiklərinin qurulması nəzərdə tutulmuş onların metodikası haqqında məlumat verilmişdir.

Açar sözlər: *həcm, yan səth, tam səth, hündürlük, ox kəsiyi*


Резюме: Описание вращения тел и понятие строения усеченных плоскостей одна из важнейших задач, изучаемые в школьном курсе геометрии. В статье рассмотрено описание вращения тел на плоскости и строение усеченной плоскости, дана информация об их методике преподавания.

Ключевые слова: *объем, боковая поверхность, полная поверхность, высота, ось сечения*


Summary: The concept of rotation objects and the construction of plane cuts are one of the important issues learned at school geometry course. The article provides a description of the rotation of the object on the plane and their methodology, which is intended for the construction of plane blocks.

Key words: *Volume, side surface, full surface, altitude, axis*

Fırlanma cisimlərinin təsviri məktəb həndəsə kursunun 11-ci sinfindən başlayaraq tədris olunur. Şagirdlər fırlanma cisimləri ilə aşağı siniflərdən tanışdır. Lakin onlar 11-ci sinifdə bu mövzunu sistemli şəkildə öyrənir.




Fərz edək ki, α və β paralel müstəviləri, onlar üzərində mərkəzləri $O_1 \in \alpha$ və $O_2 \in \beta$ nöqtələrində olan eyni radiuslu iki dairə verilmişdir. O_1 nöqtəsini O_2 nöqtəsinə çevirən paralel köçürmədə bu dairələrin biri digərinə çevrilir.



Bu dairələrin uyğun nöqtələrini birləşdirən bütün parçalardan ibarət cismə dairəvi silindr deyilir.


Verilmiş dairələrə silindrin oturacaqları, çevrələrin uyğun nöqtələrini birləşdirən parçalara silindrin doğuranları deyilir. Paralel köçürmənin xassələrindən alınır ki, silindrin doğuranları bir-birinə paralel və bərabərdir. Əgər silindrin doğuranı oturacaq müstəvisinə perpendikulyardırsa, ona düz dairəvi silindr deyilir.



Düzbucaqlının bir tərəfi ətrafında fırlanmasından alınan cismə düz dairəvi silindr deyilir. Oturacaq müstəviləri arasındakı məsafəyə silindrin hündürlüyü, oturacağın radiusuna silindrin radiusu deyilir. Şəkildə $O O_1$ -hündürlük və həm də oxdur, $B B_1$-doğurandır, OB=OA=R oturacağın radiusudur.


Silindrin oxundan keçən müstəvilə kəsişməsinə onun ox kəsiyi deyilir. Ox kəsiyi kvadrat olan silindrə bərabərtərəfli silindr deyilir. Silindrin ox kəsiyi tərəfləri: H və 2R=d olan düzbucaqlıdır.

Silindrin səthinin açılışı iki dairədən və bir düzbucaqlıdan ibarətdir.



Bu düzbucaqlının tərəfləri silindrin hündürlüyü və oturacağının çevrəsi uzunluğuna bərabərdir.

$$S_{ot} = \pi R^2, S_{yan} = 2\pi RH \text{ və}$$
$$S_{tam} = 2S_{ot+} S_{yan}$$
$$S_{tam} = 2\pi R(R + H)$$




Silindrin oxuna perpendikulyar müstəvilə kəsiyi oturacağına bərabər dairədir. Oxuna perpendikulyar olmayan müstəvilə kəsiyi ellips, ya da onun hissəsi olan müstəvi fiqurdur. Stəkandakı suyun köməyi ilə bunu əyani görmək olar. Silindrin oxuna paralel müstəvilə kəsiyi isə düzbucaqlıdır. Bu düzbucaqlının bir tərəfi hündürlük (doğuran), digər tərəfi isə vətərdir. Oturacağın mərkəzilə vətər arasındakı məsafə oxla kəsik arasındakı məsafəyə bərabərdir.

α müstəvisi üzərində dairə və müstəvinin xaricində M nöqtəsi götürək. M nöqtəsi ilə dairənin bütün nöqtələrini birləşdirən parçalardan ibarət fiqura dairəvi konus deyilir. M nöqtəsi konusun təpə nöqtəsi, dairəyə konusun oturacağı, M nöqtəsindən oturacaq müstəvisinə çəkilmiş perpendikulyara konusun hündürlüyü deyilir.

Təpə nöqtəsi oturacağının mərkəzinə proyeksiyalanan dairəvi konusa düz dairəvi konus deyilir (şəkil b). Biz, əsasən, düz dairəvi konusu öyrənəcəyik. Ona görə bundan sonra konus dedikdə düz dairəvi konus nəzərdə tutacağıq. Düz dairəvi konusa fırlanma fiquru kimi aşağıdakı **tərifi** vermək olar:

Düzbucaqlı üçbucağın bir kateti ətrafında fırlanmasından alınan cismə konus deyilir. Düzbucaqlı üçbucağın fırlanmayan katetini saxlayan düz xəttə onun oxu, həmin katetə isə konusun hündürlüyü, fırlanan katetinə konusun radiusu, hipotenuzuna isə kosinusun doğuranı deyilir. Fırlanma zamanı hipotenuzun yaratdığı fırlanma səthinə konusun yan səthi deyilir. Konusun tam səthi onun oturacağından və yan səthindən ibarətdir. Şəkildə MO-hündürlük(H), OA-oturacağın radiusu(R), MA-doğurandır. Aydındır ki, $l^2 = H^2 + R^2$. Konusun doğuranı ilə oturacağı arasındakı bucaq φ olarsa,




$\sin\varphi = \frac{H}{l}$ olar.

Konusun oxundan keçən müstəvilə kəsiyinə ox kəsiyi deyilir. Konusun ox kəsiyi yan tərəfləri doğuran, oturacağı isə oturacağın diamet-

ri olan bərabəryanlı üçbucaqdır. Ox kəsiyi düzgün üçbucaq olan (l=2R) konusa bərabərtərəfli konus deyilir. Konusun təpəsindən keçən və onun oturacağını kəsən müstəvilə kəsişməsi bərabəryanlı üçbucaqdır. Bu üçbucağın yan tərəfləri konusun doğuranı, oturacağı isə vətərdir.

Konusun oxuna perpendikulyar müstəvi kəsiyi dairədir. Konusun səthinin açılışı dairədən (oturacağı) və dairə sektorundan (yan səthinin açılışı) ibarətdir.


$$S_{yan} = \pi Rl \text{ və } S_{tam} = \pi R(R + l)$$



Konusun oturacağı ilə oturacaq müstəvisinə paralel müstəvi kəsiyi arasında qalan hissəsinə kəsik konus deyilir. Mərkəzi O və O_1 olan dairələrə kəsik konusun oturacaqları, OA=R və $O_1A_1 = r -$ ə Oturacaqların radiusları deyilir. Konusun yan səthinin paralel kəsiyilə otu-racağı arasında qalan hissəsinə kəsik konusun yan səthi deyilir. Konusun oxu kəsik konusun oxudur. Konusun hündürlüyünün və doğuranının paralel kəsik ilə oturacaq arasında qalan hissələri kəsik konusun hündürlüyü və doğuranı adlanır. Kəsik konusun oturacaqları homotetik dairələrdir. Kəsik konusun ox kəsiyi, yəni oxundan keçən müstəvilə kəsişməsi, bərabəryanlı trapesiyadır. Bu trapesiyanın oturacaqları (AB və A_1B_1) kəsik konusun oturacaqlarının diametri, yan tərəfləri (AA_1 və BB_1) kəsik konusun doğuranlarıdır. Onun hündürlüyü isə kəsik konusun hündürlüyüdür. Kəsik konusa bərabəryanlı trapesiyanın simmetriya oxu ətrafında fırlanmasından alınan cisim kimi də tərif vermək olar.

Çoxüzlülərin müstəvi kəsiklərinin qurulmasından fərqli olaraq, fırlanma səthinin müstəvi kəsiyi ayrı-ayrı nöqtələr üzrə qurulur. Yəni, səthin bir sıra doğuranlarını çəkib həmin doğuranları kəsən müstəvi ilə kəsişmə nöqtələri qurulur. Bu nöqtələrin sayı qurulan fiqurun dəqiq olmasını müəyyən edir. Belə nöqtələr nə qədər çox götürülərsə ,qurulan fiqur bir o qədər dəqiq olar.

Silindr və konusun müstəvi kəsiklərində ikitərtibli əyrilərlə əhatə olunmuş fiqurlar alınır. Odur ki, kəsiyin qurulmasında həmin əyrilərin xassələrinin nəzərə alınması kəsiyin formasını müəyyən etməyə imkan verir. Bu məsələnin həlli prosesini sürətləndirir. Məlumdur ki, fırlanma fiqurlarından kürənin istənilən müstəvi ilə kəsiyi dairə, silindrin kəsiyi isə, əsasən, ellipsdir. Konusun müstəvi kəsiyi müxtəlif fiqurlar verdiyindən onların qurulması daha çox maraq doğurur. Aşağıdakı məsələni nəzərdən keçirək.



Məsələ: Konusun hündürlüyü üzərində verilmiş A nöqtəsindən və onun oturacaq müstəvisi üzərindəki MN düz xəttindən keçən müstəvi kəsiyini qurun.

Həlli: Konusun oturacaq müstəvisində hündürlüyünün oturacağından MN düz xəttini kəsən istənilən düz xətt çəkək (məsələn: B_1C_1 düz xətti). B_1 və C_1 nöqtələrini S ilə birləşdirək. [B_1C1]$\cap$ (MN)=X nöqtəsi kəsən müstəviyə aid olduğundan, [XA] şüası da kəsən müstəviyə aid olar. Onda,

(XA) $\cap$ [SB_1] = B; [XB) $\cap$ [SC_1] = nöqtələrini qururuq ki, bunlar kəsiyə aid olan nöqtələrdir. Həmin prosesi davam etdirməklə kəsiyin dəqiq qurulması üçün kifayət qədər nöqtələr tapıb konusun müstəvi kəsiyini qurmaq olar. Kə-

sikdə A nöqtəsinin vəziyyətindən asılı olaraq, konus kəsikləri ellips, parabola və hiperbola alına bilər.

Problemin aktuallığı. Fırlanma cisimlərin təsviri və müstəvi kəsiklərinin qurulması şagirdlərdə maraq doğuran məsələlərdən biridir. Bu zaman şagirdlərin fəza təsəvvürü və məntiqi təfəkkürü inkişaf edir.

Problemin elmi yeniliyi. Şagirdlərin fəza təsəvvürləri və inkişaf səviyyələri müxtəlif olduğundan bəziləri fırlanma cisimlərini təsvirini tam anlaya bilmir. Buna görə də materialın düzgün mənimsənilməsinə və başa düşülməsinə xüsusi diqqət yetirmək lazımdır.

Problemin tətbiqi əhəmiyyəti. Məqalədən müəllimlər, magistrantlar və tələbələr istifadə edə bilərlər.

Ədəbiyyat:

1. Adıgözəlov A.S., Acalova N.A., Xudaverdiyeva G. ... N . . Həndəsədən qurma məsələlərinin həlli metodları: Metodik göstəriş. Bakı: N. Tusi adına ADPU, 1993.

2. Əsgərov K.S., Adıgözəlov A.S., Məmmədov A .....A . Həndəsədən məsələ həlli praktikumu: Dərs vəsaiti. Bakı: V.İ. Lenin adına APİ, 1986.

3. Sadıqov S., Adıgözəlov A.S. Stereometriya kursunda çoxüzlülərin müstəvi kəsiklərinin qurulması: Dərs vəsaiti. Bakı: V.İ. Lenin adına APİ, 1988.

4. Poqorelov A.V. Həndəsə: orta məktəbin 7-11-ci sinifləri üçün dərslik. Bakı: Maarif, 1991.

E-mail: azima-aliyeva@mail.ru
Rəyçi: *ped.ü.elm.dok., prof.* **A.S. Adıgözəlov**
Redaksiyaya daxil olb: 14.12.2018

UOT 37.

Jalə Camaləddin qızı Abdullayeva
Azərbaycan Dövlət Pedaqoji Universiteti

METODİK ƏDƏBİYYATDA MƏSƏLƏ HƏLLİ ANLAYIŞINA YANAŞMALAR

Жаля Джамаладдин гызы Абдуллаева
Азербайджанский Государственный Педагогический Университет

ПОДХОДЫ К ПОНЯТИЮ РЕШЕНИЯ ЗАДАЧ В МЕТОДИЧЕСКОЙ ЛИТЕРАТУРЕ

Jala Camaladdin Abdullayeva
Azerbaijan State Pedagogical University

APPLICATIONS TO SOLUTION OF PROBLEMS IN METHODICAL LITERATURE

Xülasə: Məqalə müxtəlif metodik ədəbiyyatlarda verilmiş məsələ həlli anlayışına həsr olunub. Göstərilmişdir ki, şagirdlərin riyazi məsələləri düzgün həll edə bilməsi üçün əsas şərt məsələ həlli mərhələlərini dəqiq, düzgün və ardıcıl şəkildə bilərək onu tətbiq etməyi bacarmaqdır.

Açar sözlər: *məsələ, həll, sxematik, məzmun, təhlil, şərt, kəmiyyət, verilənlər*

Резюме: Статья посвящена концепции решения проблем, приведенных в различной методической литературе. Показано, что основным критерием решения математических задач учениками является умение точно, правильно и последовательно решать этапы выполнения задач.

Ключевые слова: *проблема, решение, анализ, схема, содержание, состояние, количество, данные*

Summary: The article focuses on the concept of problem solving given in various methodological literature. It is shown that the basic condition for pupils to solve mathematical problems is to be able to accurately, correct and consistently know the stages of problem solving.

Key Words: *issue, solution, schematic, content, analysis, condition, quantity, data*

Tədqiqat işlərində və metodik ədəbiyyatlarda "məsələ", çalışma, tapşırıq, riyazi məsələ və s. kimi anlayışlardan geniş istifadə olunur. Bu anlayışlara yanaşmalardan asılı olmayaraq, qarşıya qoyulan məqsədə nail olmaq üçün ümumi fəaliyyət prosesi icra olunmalıdır. D. Poya qeyd edir ki, məsələni həll etmək üçün məsələ həll etmək lazımdır, necə ki, balıqçı balıq tutmağı öyrənmək istəyirsə, əvvəlcə suda olmalıdır. Orta məktəb kursunda həll olunan məsələlər, ilkin olaraq, sözlərlə ifadə olunan məsələlərdir. Kəmiyyətlər arasında asılılıqlar sözlərlə ifadə olunursa, belə məsələlər, adətən, hesab və ya mətnli məsələlər adlanır. Hesab əməllərinin yerinə yetirilməsi, diaqramlara əsasən məlumatların toplanması, cədvəl və qrafikə əsasən kəmiyyətlər arasındakı asılılıqların müəyyən edilməsi bu və ya digər şəkildə məsələdir. L.M. Fridman məsələ həlli prosesinin 8 mərhələdən ibarət olduğunu qeyd edir və onlar aşağıdakılardan ibarətdir:

1. Məsələnin analiz edilməsi;
2. Məsələnin sxematik yazılışı;
3. Məsələnin həlli üsulunun axtarılması;
4. Məsələ həllinin yerinə yetirilməsi;
5. Məsələ həllinin yoxlanılması;
6. Məsələnin tədqiq edilməsi;
7. Məsələnin cavabının əyaniləşdirilməsi (formalaşdırılması);
8. Məsələ həllinin analizi.

L.M. Fridman birinci mərhələdə məsələnin analiz edilməsini qeyd edir. Analiz geniş anlayış olub və məsələ həllində bütün mərhələlərin təhlil olunması kimi başa düşülür. İlkin olaraq məsələnin məzmununun təhlil edilməsi dedikdə, məsələnin analitik və ya sintetik üsullarla təhlili

nəzərdə tutulur. Ona görə də bəzi metodik ədəbiyyatlarda məsələnin analizi və məsələnin təhlili anlayışları eyniləşdirilir. Buna görə də "analiz" sözünü "təhlil" mənasında həmişə işlətmək doğru hal hesab edilə bilməz.

Bu qeyd olunan mərhələlər mürəkkəb və çoxşaxəli məsələlərin həlli prosesində nəzərdə tutulur. Orta məktəb kursunda həll olunan məsələlər struktur və məzmun baxımından müxtəlifdir. Ibtidai siniflərin riyaziyyat kursunda (III və V-VI siniflərdə) verilən məsələlər növünə görə bir-birinə qismən yaxındırlar. İbtidai siniflərdə məsələnin mərhələləri aşağıdakı kimi təsnif olunur:

1. Məsələnin məzmunu ilə tanışlıq;
2. Məsələ həllinin axtarılması;
3. Məsələnin təhlil edilməsi;;
4. Məsələnin həll edilməsi;
5. Məsələnin həllinin yoxlanılması.

Məsələnin həlli prosesi üçün baxdığımız bu iki mühüm mərhələnin ümumi şəkildə ortaq elementləri var. Hər iki yanaşmada məsələnin təhlili və alınan həllin yoxlanılması nəzərdə tutulub.. VII-IX siniflərdə həll olunan qurmaya və isbata aid məsələlər standart olmayan mətnli məsələlərin həllidir.

L.M. Fridmanın təklif etdiyi məsələ həlli prosesinin mərhələlərinin nəzərə alınması vacibdir. Hesab məsələləri strukturuna görə 3 hissədən ibarətdir:

- verilənlər və ya məlumlar;
- məsələnin şərti və ya şərtləri;
- məsələnin sualı və ya axtarılan kəmiyyətlər.

Məsələnin məzmunu ilə tanışlıq və ya məsələnin aid edilməsi ilkin mərhələ olub, bu prosesdə şagirdlər məsələ məzmunu ilə tanış olurlar. Məsələdə verilən kəmiyyətlərin ədədi qiymətləri, kəmiyyətlər arasında sözlərlə ifadə olunan asılılıqlar və məlum olmayan kəmiyyətin müəyyən edilməsi məsələnin analizi adlanır. Məsələnin həlli prosesində şagirdlər yeni biliklər əldə etməklə yanaşı, onların bilik və bacarıq vərdişləri formalaşır. Bu, təklif olunan məsələnin məzmun və strukturundan asılıdır. Burada didaktikanın əsas prinsipləri nəzərə alınmalıdır. Sadədən mürəkkəbə, asandan çətinə, məlumdan məlum olmayana istiqamətlənən doğru fəaliyyət təlimin inkişafına şərait yaradır.

Orta məktəbin VI sinifləri üçün riyaziyyat dərsliyində verilən bir məsələni nəzərdən keçirək:

Məsələ 1. A və B şəhərləri arasındakı məsafə 153 km-dir. A şəhərindən B şəhərinə sürəti 80 km/saat olan minik maşını yola düşdü. 3/5 saatdan sonra B şəhərindən A şəhərinə sürəti minik maşınının sürətinin ¾ hissəsinə bərabər olan avtobus yola düşdü. Avtobus hərəkətə başlayandan neçə saat sonra minik maşını ilə rastlaşar?

Məsələdə iki şəhər arasındakı məsafə və A şəhərindən çıxan minik avtomobilinin sürəti dəqiq verilmişdir. İkinci avtomobilin sürətinin birinci avtomobilin sürəti ilə asılılığı sözlərlə ifadə olunmuşdur. Avtomobillər hərəkətə başlayandan neçə saat sonra görüşdüklərini tapmaq tələb olunur. Burada məsələnin tələbi sual şəklində qoyulmuşdur. Təklif olunan hər bir sual axtarılanın cavabı kimi nəzərdə tutulur. Bu baxımdan məsələnin sualına onun tələbi kimi baxmaq olar.

Ümumiyyətlə, məsələnin qoyuluşu bir neçə məlumdan (verilənlərdən) və tələblərdən ibarət ola bilər. Şagird məsələnin təhlili zamanı verilənlərin, şərtlərin (məzmununu) və axtarılanların sayını konkret müəyyən etməlidir. Məsələnin təhlili prosesi asılılıqlarla ifadə olunan şərtlərin və axtarılanların müəyyən edilməsində onların ardıcıllığı düzgün təyin edilməlidir. Bəzi məsələlər olur ki, onun təhlili zamanı məsələdə axtarılan kəmiyyətin tapılması üçün məsələnin şərtində verilənlərin bəziləri istifadə olunmur.

Problemin aktuallığı. Orta məktəb şagirdləri çox vaxt riyazi məsələləri həll edərkən müxtəlif çətinliklərlə qarşılaşır. Bunun səbəbi isə riyazi məsələlərin həll mərhələlərinin şagirdlər tərəfindən dəqiq öyrənilməməsidir. Bu məqsədlə məqalədə riyaziyyat təlimi prosesində istifadə olunan riyazi məsələlərin düzgün həll olunma prosesi tədqiq olunmuşdur.

Problemin elmi yeniliyi. Məqalədə göstərilən həll üsulları, priyomlar və mərhələlər riyazi məsələlərin daha aydın şəkildə dərk olunmasına xidmət edir

Problemin tətbiqi əhəmiyyəti. Məqalədən şagirdlərin riyazi məsələlərin həlli zamanı istifadə etməsi praktik əhəmiyyət kəsb edir.

Ədəbiyyat:

1. Adıgözəlov A.S. Məktəbdə riyaziyyat təliminin nəzəri əsasları. Bakı, 2018.
2. Tahirov B.Ö., Namazov F.M., Əfəndi S.N., Qasımov E.A., Abdullayeva Q.Z. Riyaziyyatın tədrisi üsulları. Bakı, 2007.
3. Yaqubov M.H., İsmayılov T.X., Ağakişiyev İ.Ə. Riyaziyyatdan məsələ və misallar: Dərs vəsaiti. Bakı, 2009.
4. Qəhrəmanova N., Kərimov M., Hüseynov İ. "Riyaziyyat: Ümumtəhsil orta məktəblərinin 5-9 sinifləri üçün Riyaziyyat fənni üzrə dərsliklər. Bakı,, 2016.

E-mail: jalecamalqizi@gmail.com
Rəyçi : *ped.ü.elm.dok.,prof.* **A.S. Adıgözəlov**
Redaksiyaya daxil olub: 06.12.2018.

UOT 37.01.

Könül Zərqəm qızı Əsədova
Azərbaycan Dövlət Pedaqoji Universiteti

MƏKTƏB RİYAZİYYAT KURSUNDA TƏNLİKLƏRİN TƏDRİSİ

Кёнул Заргам гызы Асадова
Азербайджанский Государственный Педагогический Университет

ПРЕПОДАВАНИЕ УРАВНЕНИЙ НА ШКОЛЬНОМ КУРСЕ МАТЕМАТИКИ

Konul Zarqam Asadova
Azerbaijan State Pedagogical University

TEACHING EQUATIONS IN SCHOOL MATHEMATICS COURSE

Xülasə: Məqalə ümumtəhsil məktəblərində tənliklərin təliminə həsr olunub. Məqalənin əsas mahiyyəti şagirdlərə tənliklər və onların xassələri haqqında bilik və bacarıqları verməkdir.

Açar sözlər: *xətti, ədədi, kvadrat, kəsr, tam, rasional, irrasional tənliklər*

Резюме: В статье основное внимание уделяется преподаванию уравнения в общеобразовательных школах. Основная суть статьи дать учащимся звания и навыки об уравнениях и их свойствах.

Ключевые слова: *линейные, числовые, квадратные, дробные, полные, рациональные, иррациональные уравнения*

Summary: The article focuses on the teaching of equalities in general education schools. The main essence of the article is to given students the knowledge and skills about equalities and their properties.

Key words: *linear, numerical, square, fraction, full, rational, irrational equations*

Tənliklər mövzusunun elementləri orta məktəbdə tədris olunmağa başlayır. Biz tənlikdən danışarkən, ilk öncə, riyazi ifadələr haqqında məlumat verməliyik. Məs: k+2 ifadəsi riyazi ifadədir.

Qiymətinin tapılması tələb olunan hərfin daxil olduğu bərabərliyə tənlik deyilir. Tənlik dedikdə, sağ və sol tərəfi funksiya olan bərabərlik başa düşülür. Yəni dəyişənlərin elə qiymətlərini tapmaq lazımdır ki, $f(x)$ və $g(x)$ funksiyalarının uyğun qiymətləri bərabər olsun. Birməchullu tənliyin ümumi şəkli $f(x)=g(x)$ kimi yazılır. Burada $f(x)$-ə $f(x)=g(x)$-ə tənliyin sol, $g(x)$-ə $f(x)=g(x)$-ə tənliyin sağ tərəfi deyilir.

Tənlikdəki hərfə məchul, bəzən də dəyişən deyilir. Dəyişəni x olan birməchullu tənlik ümumi şəkildə $f(x)=g(x)$ kimi yazılır, burada $f(x)$ və $g(x)$ x-dən asılı hər hansı cəbri ifadələrdir.

Məchulun tənliyi doğru ədədi bərabərliyə çevirən qiymətlərinə həmin tənliyin kökləri və ya həlləri deyilir. Yəni $f(a)=g(a)$ olarsa, $x=a$ ədədi tənliyin kökü adlanır. Tənliyin kökləri çoxluğuna onun həlləri çoxluğu da deyilir. Tənliyi həll etmək onun köklərinin olub-olmadığını müəyyən etmək lazımdır. Əgər varsa, həmin kökləri tapmaq, yoxdursa, olmadığını isbat etmək lazımdır. Elə tənliklər də ola bilər ki, onların ya sonsuz sayda kökü olar, ya da heç bir kökü olmaz.

Həll prosesində alınan, lakin verilmiş tənliyi ödəməyən ədədə kənar kök deyilir. Başqa cür desək, tənliyin təyin oblastına daxil olmayan ədəd kənar kök adlanır.

Dəyişənin, tənliyə daxil olan ifadələri mənalı edən bütün qiymətlər çoxluğu məchulun mümkün qiymətləri oblastı adlanır. Dəyişənin mümkün qiymətlər oblastı həm çoxluq, həm də tənliyin təyin oblastı adlanır. $f(x)$ və $g(x)$ ifadələrinin təyin oblastlarının kəsişməsinə $f(x)=g(x)$ tənliyinin təyin oblastı və ya məchulun mümkün qiymətlər çoxluğu deyilir. Bəzən bunu ***MMQÇ*** kimi işarə edirlər. $MMQÇ=D(f)\cap D(g)$.

Tənliklərin aşağıdakı növləri var: Xətti tənliklər, ədədi və hərfi əmsallı tənliklər, rasional tənliklər, tam tənliklər, kəsr tənliklər, eynigüclü tənliklər, kvadrat tənliklər, modul işarəsi daxilində məçhulu olan tənliklər, irrasional tənliklər. Bu tənliklər haqqında qısa məlumat verək.

a) Xətti tənliklər. $ax = b$ şəklində tənliyə birməchullu xətti tənlik deyilir. Məsələn, *-3x=12, 1,5x=3, 5y=0, 5x=25 0,2x=4 3x=-15.*

Burada a və *b* hər hansı ədədlər, *x* isə dəyişəndir *a* və *b* ədədlərindən asılı olaraq birməchullu xətti tənliyin həllərinin sayı müxtəlif olur. *a* və *b* ədədləri üçün aşağıdakı hallər ola bilər.

I hal. $a \neq 0$, *b* istənilən ədəddir. Bu zaman tənliyin yeganə $x = \frac{b}{a}$ kökü var.

II hal. $a=0$, $b \neq 0$. Bu halda tənliyin kökü yoxdur.

III hal. $a=0$, $b=0$. Burada istənilən ədəd tənliyin köküdür.

a,b,c hər hansı ədədlər, *x* və *y* məchul olduqda $ax+by=c$ şəklində tənliyə ikiməchullu xətti tənlik deyilir. *-3,5x+7y=13, 0,1x+8y=0,05* və s. ikiməchullu xətti tənliklərdir.

Həlləri eyni olan ikiməchullu tənliklərə eynigüclü tənliklər deyilir. Qeyd edək ki, birməchullu xətti tənliklər üçün doğru olan aşağıdakı xassələr ikiməchullu xətti tənliklər üçün də doğrudur.

1. Toplananın işarəsini dəyişərək ikiməchullu xətti tənliyin bir tərəfindən o biri tərəfinə keçirsək, onunla eynigüclü tənlik alınar.

2. İkiməchullu xətti tənliyin hər iki tərəfini sıfırdan fərqli eyni bir ədədə vursaq və ya bölsək, onunla eynigüclü tənlik alınar.

a) Ədədi və hərfi əmsallı tənliklər. Məchuldan (və ya məchullardan) başqa heç bir hərf daxil olmayan tənliyə ədədi əmsallı tənlik deyilir. Məsələn: $4x+5=25$; $7y^2-15=13$; $3x^{2x}-5\times3x^2+6=0$;

Məchuldan başqa bir və ya bir neçə hərf daxil olan tənliklərə hərfi əmsallı tənliklər deyilir. Məsələn: $ax^2+bx+c=0$ $ax^3+2bx^2+cx+d=0$; $\frac{a}{x} - \frac{4b}{y} = 15$;

b) Rasional tənliklər. Tənliyin sol və sağ tərəfi məchula nəzərən rasional ifadə olarsa, ona rasional tənlik deyilir. Məsələn: $7a+1=3a$, $y^2+16=8y$; $\frac{3}{x-4} + \frac{15}{x-4} = 4$; $(x-4)(x+5)=0$; $x^3-75x^2-1400x=0$; $\frac{a}{x} - \frac{b}{y} = 2$. Qeyd edək ki, istənilən rasional tənliyi $P(x) = 0$ və ya $\frac{P(x)}{Q(x)} = 0$ şəklinə gətirmək olar, burada $P(x)$ və $Q(x)$ çoxhədlilərdir.

Rasional tənliklərin həllində əsas iki üsuldan istifadə olunur:

1. Vuruqlarına ayırma üsulu.
2. Yeni dəyişən daxil etmə üsulu.

c) Tam tənliklər. Tənlikdə məchula bölmə əməli olmazsa, ona tam tənlik deyilir. Məsələn: $\frac{x}{3} + \frac{x-2}{5} = 2$; $\frac{x}{5} + \frac{y}{6} = 1$; $x^2+15=8x$;

d) Kəsr tənliklər. Tənlikdə məchula bölmə əməli olarsa, ona kəsr tənlik deyilir. Məsələn: $x - \frac{1}{x} = 2$; $\frac{a}{x} + \frac{b}{y} = 1$.

e) Eynigüclü tənliklər. Əgər $f_1(x)$tənliyinin hər bir həlli $g_2(x)$ tənliyinin həlli olarsa, onda tənliyinə eynigüclü tənliklər deyilir. Dəyişənin eynigüclülüyü haqqında bir çox teoremlərdən belə bir nəticəyə gələ bilərik. Tənliyin hər iki tərəfini sıfırdan fərqli istənilən ədədə vurmaq olar, bu halda tənlik onunla eynigüclü olan tənliyə çevrilər.

i) Kvadrat tənliklər. a *b c* verilmiş ədədlər, həm də $a \neq 0$, *x* isə məchul olduqda $ax^2+bx+c=0$ şəklində tənliyə kvadrat tənlik deyilir.

Məsələn: $2x^2-x+5=0$, $5x^2-5=20$.

Kvadrat tənlikdə a birinci əmsal, b ikinci əmsal, c sərbəst hədd adlanır. b və c əmsallarından, heç olmasa, biri sıfıra bərabər olarsa, ona natamam kvadrat tənlik deyilir. Kvadrat tənliyin kökləri $x = \frac{-b \pm \sqrt{D}}{2a}$ düsturu ilə tapılır; burada $D=b^2-4ac$. D-yə kvadrat tənliyin diskrminantı deyilir. $D \geq 0$ olduqda, kvadrat tənliyin iki müxtəlif kökü olur:

$x_1 = \frac{-b-\sqrt{D}}{2a}$, $x_2 = \frac{-b+\sqrt{D}}{2a}$

D=0 olduqda, kvadrat tənliyin bir-birinə bərabər iki həqiqi kökü olur:

$x_1 = x_2 = -\frac{b}{2a}$

$D < 0$ olduqda, kvadrat tənliyin iki qoşma kompleks kökləri olur.

ə) Modul işarəsi daxilində məchulu olan tənliklər. Modul işarəsi daxilində məchulu olan

tənliklərin həllinin ümumi üsulu ədədin modulunun tərifinin köməyi ilə verilmiş tənliyi onunla eynigüclü olan tənliklə və ya tənliklər sistemi ilə, yaxud da tənliklər küllisi ilə əvəz etməkdən ibarətdir. Belə tənliklərin ən sadəsi $|f(x)| = b$ tənliyidir; burada *f(x)* verilmiş funksiya, *b* işə verilmiş ədəddir. Belə tənliyin həllində aşağıdakı hallar mümkündür:

1) $b < 0$. Bu halda, modulun xassəsinə görə, tənliyin həlli yoxdur. 2) *b=0.* Bu halda tənlik *f(x)=0* tənliyi ilə eynigüclüdür. 3) $b > 0$. Bu halda $|f(x)| = b$ tənliyi $\left[\begin{array}{l} f(x) = -b \\ f(x) = b \end{array}\right.$ tənliklər küllisi ilə eynigüclüdür.

j) İrrasional tənliklər. Tənlikdə məchul kök işarəsi altında olarsa, ona irrasional tənliklər deyilir. Məsələn: $\sqrt{x} = 3$, $\sqrt{x} - 3 = 5$, $\sqrt{x+2}$=*x-1*.

İrrasional tənliklərin əsas həll üsulları aşağıdakılardır:

1. Hər iki tərəfi eyni dərəcədən qüvvətə yüksəltmək üsulu;
2. Yeni dəyişən daxil etmək üsulu. Bəzi hallarda irrasional tənlikləri həll etmək üçün süni üsullar da tətbiq edilir.

Tənliyi kvadrata və ya kuba yüksəldəndə əvvəlki tənliyə ekvivalent tənlik alınır. Tənliklərin ekvivalentliyi haqqında belə bir teoremə nəzər salaq.

Teorem. *f(x)×g(x)=0* tənliyi *g(x)=0* olsa, *f(x)*-ın, *f(x)=0* olsa, *g(x)*-ın mənası var. Çox vaxt tənliyi hər iki tərəfinə - həm dəyişən daxil olan, həm də daxil olmayan ifadə əlavə olunur, hər iki tərəfi eyni ifadəyə vurulur, hər iki tərəfi müəyyən dərəcədən qüvvətə yüksəlir, hər iki tərəfindən kök alınır.

Biz tənliyi həll edərkən onun xassələrindən istifadə etməklə, qeyd etdiyimiz mərhələlər gözlənilməlidir:

1. Tənliyi kəsrdən azad etmək;
2. Məchul daxil olan mötərizələri açmaq;
3. Oxşar hədləri islah etmək;
4. Alınmış tənliyin növündən asılı olaraq müvafiq həll qaydasını tətbiq etmək.

Tənliyi həll edərkən onun mümkün qiymətlər çoxluğu nəzərə alınmalıdır. Tənliyə daxil olan məchulun bütün qiymətlərdə onun hər iki tərəfinin mənası olarsa, məchulun bu qiymətinə tənliyin mümkün qiymətlər çoxluğu deyilir. Məsələn: $\frac{2}{y-3} = 1$ tənliyində *x=3* olduqda $\frac{2}{y-3}$-nin mənası yoxdur.

Problemin elmi yeniliyi: Riyaziyyat təliminda tənliklər həm təlim, həm də tərbiyə işində müstəsna əhəmiyyətə malikdir.

Problemin aktuallığı: Məktəbdə istifadə olunan tənliklər şagirdlərin məntiqi təfəkkürünü və yaradıcı fəaliyyətinin inkişafına kömək edir.

Problemin praktik əhəmiyyəti: Təlimdə istifadə olunan tənliklər müxtəlif anlayışların praktik öyrənilməsinə şərait yaradır.

Ədəbiyyat:

1. A.S. Adıgözəlov. Orta məktəbdə riyaziyyatın tədrisi metodikası . Bakı, 2009.
2. A.S. Adıgözəlov, N. Hacıyev, X. Həsənova, M. Rzayev. Elementar cəbr. Bakı, 2012.
3. X. Həsənova, C. Cəfərov, K. Bədəlova. Orta məktəb riyaziyyat kursunda bərabərsizliklər və onların tədrisi metodikası. Bakı, 2011.
4. B. Tahirov, F. Namazov, S. Əfəndi, E. Qasımov, Q. Abdullayeva. Riyaziyyatın tədrisi üsulları. Bakı, 2007.
5. Mərdanov M., Yaqubov M., Mirzəyev S. və b. Cəbr və analizin başlanğıcı: Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün dərslik. Bakı: Çaşıoğlu, 2014.

E-mail: konul.asadova.95@mail.ru
Rəyçi: *fizika-riyaz.ü.elm.dok., prof.* **İ.C. Mərdanov**
Redaksiyaya daxil olub: 06.12.201

UOT 37.01.

Mirvari Məhəbbət qızı Rüstəmova
Azərbaycan Dövlət Pedaqoji Universiteti

MƏKTƏB RİYAZİYYAT KURSUNDA VEKTORLARIN HASİLİNƏ DAİR BİLİKLƏRİN MƏNİMSƏNİLMƏSİ YOLLARI

Мирвари Махаббат гызы Рустамова
Азербайджанский Государственный Педагогический Университет

ПУТИ УСВОЕНИЯ ЗНАНИЙ О ВЕКТОРНЫХ ПОНЯТИЯХ НА ШКОЛЬНОМ КУРСЕ МАТЕМАТИКИ

Mirvari Mahabbat Rustamova
Azerbaijan State Pedagogical University

WAYS TO MASTER THE KNOWLEDGE ON THE PRODUCTION OF VECTORS IN SCHOOL MATHEMATICS

Xülasə: Məqalədə məktəb riyaziyyat kursunun əsas bölmələrindən biri olan vektor anlayışı haqqında məlumat verilir. Müasir dövrün tələblərinə uyğun olaraq, fəndaxili və fənlərarası əlaqələrdən istifadə edərək vektorların skalyar hasilinə dair biliklər praktik çalışmalar üzərində şərh edilir.

Açar sözlər: *planimetriya, stereometriya, vektor, vektorial hasil, skalyar hasil, təklif və teorem, müstəvi, paraleloqram, istiqamət, komplanar, kolleniar*

Резюме: В статье представлена информация о векторном понятии, которое является одним из основных разделов на школьном курсе математики. Знание векторного понятия, используя внутренние и межпредметные отношения, комментируется на практических занятиях в соответствии с современным требованиям.

Ключевые слова: *планиметрия, стереометрия, вектор, векторное произведение, скалярное произведение, предложение и теорема, плоскость, параллелограмма, направление, компланар, коллинеар*

Summary: The article provides information on the vector concept, which is one of the main sections in school mathematics. The knowledge of the vector scalar production, using internal and interdisciplinary relationships, is interpreted in practical exercises in accordance with modern requirements.

Key words: *planimetry, stereometry, vector, vector product, scalar product, proposition and theorem, flatness, parallelogram, direction, complanar, collinear*

Son dövrlərə qədər məktəb riyaziyyat kursu iki hissədən ibarət olub, riyaziyyat və həndəsə bölmələrini təşkil edirdi. Həndəsə kursu da, öz növbəsində, iki yerə bölünürdü: planimetriya və stereometriya. Həndəsə kursunun hər iki bölməsində vektorlar haqqında şagirdlərdə mükəmməl təsəvvür formalaşdırılırdı. Təhsil sahəsində aparılan islahatlar, fənn kurikulumlarının fənlərə tətbiqi sayəsində riyaziyyat və həndəsə kursları birləşdirilərək "Riyaziyyat" adı altında ümumiləşdirilib. Bilirik ki, məktəb riyaziyyat kursu 5 (beş) məzmun xətti üzrə müəyyənləşdirilib. Məzmun xətlərinin fundamental bölmələrindən biri də "Həndəsə" məzmun xəttidir. "Həndəsə" məzmun xətti üzrə şagirdlərdə ibtidai siniflərdən başlayaraq həndəsi fiqurlar haqqında təsəvvürlər formalaşdırılır.


Təlim strategiyasının əsas istiqamətlərindən biri də öyrənilən materialın digər fənlərlə əlaqəli tədrisi əsas məsələlərdən biri kimi qarşıda duran vəzifədir. Məktəb riyaziyyat kursunda vektor anlayışının tədrisi prosesində üfüqi və şa-

quli əlaqələrdən geniş istifadə edilir. Vektorların öyrədilməsində fizika fənninə inteqrasiya bunu deməyə imkan verir. Digər tərəfdən, vektor anlayışının riyazi məsələlərin həllinə tətbiqi genişləndirilmişdir. Ənənəvi təlim prosesində bu məsələ triqonometrik funksiyaların öyrənilməsində nəzərə çarpırdı. Hal-hazırda məktəb riyaziyyat kursunda fəndaxili inteqrasiyadan istifadə edərək, VII sinifdən XI sinfə kimi praktik məsələlərin həllində vektorların tətbiqinə xüsusi üstünlük verilir. Bununla belə, vektorlara dair elə məsələlər vardır ki, vektorlar üzrə bilikləri nisbətən tamamlamaq üçün onların öyrənilməsinə ehtiyac var. Əlbəttə, biz riyaziyyatı nəzəri və praktik cəhətdən dərindən öyrənən məktəbləri və fakültativ kursları nəzərdə tuturuq. İki vektorun vektorial hasili, üç vektorun qarışıq hasili, xassələri və onların həndəsə məsələlərinin ümumi şəkildə həllinə tətbiqləri və s. belə materiallardandır.

Belə vektorlara dair bir çox çalışmalar, anlayışlar, qanunauyğunluqlar və s. mövzunu dərindən öyrənməyə imkan verir, təklif və teoremlərin isbatlarını müasir tələblərə uyğun əyaniləşdirir və konkretləşdirir. Həmin məsələləri müvafiq siniflərdə vektorlar haqqındakı materialdan sonra tədris etmək olar.

Materialların öyrənilməsi ardıcıllığını təklif edirik.


İki vektorun vektorial hasili. Hal-hazırda VII sinfin fizika kursundan məlumdur ki, tərpənməz 0 nöqtəsi ətrafında fırlanan cismə $\vec{F}$ qüvvəsi tətbiq olunursa, onun fırlanma təsirini $\vec{M}$ vektorial kəmiyyəti xarakterizə edir. Bu kəmiyyətə fizikada $\vec{F}$ qüvvəsinin 0 nöqtəsinə nəzərən qüvvə momenti deyilir.



Şəkil 1

Fırlanma oxundan qüvvənin təsiri xəttinə qədər olan məsafəni $|\overrightarrow{OA}|$ ilə işarə etsək, $|\vec{M}| = |\overrightarrow{OA}| \cdot |\vec{F}|$ yazmaq olar (şəkil 1). Başqa sözlə, momentin modulu ədədi qiymətcə $\overrightarrow{OA}$ və $\vec{F}$ vektorları üzərində qurulmuş paraleloqramın sahəsinə bərabərdir. Digər tərəfdən, $\vec{M}$ moment vektoru 0 nöqtəsi ilə $\vec{F}$ vektorundan keçən P müstəvisinə perpendikulyardır və elə yönəlir ki, bu halda $\vec{F}$ qüvvəsinin təsiri ilə cisim saat əqrəbi hərəkətinin əksinə fırlanır. Onda deyirlər ki, $\vec{M}$ qüvvə momenti vektoru $\overrightarrow{OA}$ vektorunun $\vec{F}$ vektoruna vektorial hasilidir və belə işarə olunur: $|\vec{M}| = |\overrightarrow{OA}| \cdot |\vec{F}|$.

Tərif. İxtiyari iki $\vec{a}$ və $\vec{b}$ vektorunun ***vektorial hasili*** $(\vec{a} \cdot \vec{b})$ aşağıdakı iki şərti ödəyən $\vec{c}$ vektoruna deyilir (şəkil 2).



Şəkil 2

1) $\vec{c}$ vektorunun uzunluğu $\vec{a}$ və $\vec{b}$ vektorları üzərində qurulmuş paraleloqramın sahəsinə bərabərdir: $\vec{c} = |\vec{a}||\vec{b}|sin\varphi, \varphi = (\vec{a}, \vec{b})$.

2) $\vec{c}$ vektoru $\vec{a}$ və $\vec{b}$ vektorlarının təyin etdiyi müstəviyə perpendikulyar olmaqla elə yönəlsin ki, $\vec{c}$ vektorunun uc nöqtəsindən baxmaqla, $\vec{a}$ vektorunu $\vec{b}$ vektoru üzərinə gətirmək üçün ən kiçik bucaq qədər fırlanma saat əqrəbi hərəkətinin əksinə alınsın.

$\vec{a}$ və $\vec{b}$ vektorları kollineardısa, onda tərifə görə $\vec{a} \times \vec{b} = 0$ olur.

Vektorial hasilin aşağıdakı xassələri vardır:

a) Vektorial hasil kommutativlik (yerdəyişmə) xassəsinə tabe deyildir:

$\vec{a} \times \vec{b} = -(\vec{b} \times \vec{a})$ ..... **(1)**

Doğrudan da, $(\vec{a} \times \vec{b})$ və $(\vec{b} \times \vec{a})$ vektorlarının modulları bərabərdir, həmçinin hər iki vektor $\vec{a}$ və $\vec{b}$ vektorlarının təyin etdiyi müstəviyə perpendikulyardır. Deməli, $(\vec{a} \times \vec{b})$ ilə $(\vec{b} \times \vec{a})$ vektorları kollineardır. Lakin onların istiqaməti bir-birinin əksinədir. Ona görə $-(\vec{b} \times \vec{a})$ vektoru ilə $(\vec{a} \times \vec{b})$ vektoru eyni istiqamətlidir. Bu isə göstərir ki, *(1)* bərabərliyi doğrudur.


b) Ədədi vuruğu vektorial hasil işarəsi xaricinə çıxarmaq olar.

Doğrudan da, paraleloqramın bir tərəfinin istiqamətini dəyişmədən γ dəfə uzatsaq, alınan yeni paraleloqramın sahəsi əvvəlkindən γ dəfə fərqlənəcəkdir.

c) Vektorial hasil distributivlik (paylama) xassəsinə malikdir: $(\vec{a} \times \vec{b}) \times \vec{c} = \vec{a} \times \vec{c} + \vec{b} \times \vec{c}$. Bu xassəni isbat etmək üçün aşağıdakı anlayışı verək.

Üç vektorun qarışıq hasili.

Tərif. İxtiyari üç $\vec{a}, \vec{b}$ və $\vec{c}$ vektorlarının birinci ikisinin $(\vec{a} \times \vec{b})$ vektorial hasilinin üçüncü $\vec{c}$ vektoruna skalyar hasilinə yəni $(\vec{a} \times \vec{b}) \times \vec{c}$ ifadəsinə həmin vektorların qarışıq hasili deyilir (şəkil 3).



Şəkil 3

Teorem. Komplanar olmayan ixtiyari $\vec{a}, \vec{b}$ və $\vec{c}$ vektorları qarışıq hasilinin modulu, həmin vektorlar üzərində qurulmuş paralelepipedin həcminə bərabərdir.

İsbatı. $\vec{a}, \vec{b}$ və $\vec{c}$ vektorları üzərində paralelepiped quraq. Onun oturacağı paraleloqram olduğundan $|\vec{d}| = |\vec{a} \times \vec{b}| = |\vec{a}| \times |\vec{b}| sin\varphi$ qurulan paralelepipedin oturacağının sahəsidir. Digər tərəfdən, ΔABC-dən $\vec{H} = |\vec{c}| cos\theta$. Onda paralelepipedin həcmi:

$V = |\vec{d}| \cdot \vec{H} = |\vec{d}| \cdot c cos\theta = |\vec{d} \cdot \vec{c}| = |(\vec{a} \times \vec{b}) \times \vec{c}|$

olur.

Qarışıq hasilin bir sıra xassələri vardır:

a) İxtiyari üç vektorun qarışıq hasilinin 0-a bərabər olması üçün bu vektorların komplanar olması həm zəruri, həm də kafidir.

İsbatı. Şərt zəruridir. Tutaq ki, $(\vec{a} \times \vec{b}) \times \vec{c} = 0$.

Yəni:

$|(\vec{a} \times \vec{b}) \times \vec{c}| = |\vec{a}| \times |\vec{b}| \times |\vec{c}| sin\varphi \cdot cos\theta = 0$

. Bu bərabərlik, vektorlardan, heç olmasa, biri 0-a bərabər olduqda $\vec{a}, \vec{b}$ vektorları kolleniar və $\vec{c} \perp (\vec{a} \times \vec{b})$ olduqda mümkündür. Deməli, $\vec{a}, \vec{b}$ və $\vec{c}$ vektorları komplanardır.

Şərtin kafiliyi isə oxşar qayda ilə isbat olunur. Qarışıq hasil üçün aşağıdakı xassələrin də doğruluğunu göstərmək olar:

b) $(\vec{a} \times \vec{b}) \times \vec{c} = (\vec{b} \times \vec{c}) \times \vec{a} = \vec{c} \times (\vec{a} \times \vec{b}) = -\vec{b} \times (\vec{a} \times \vec{c}) = -\vec{c} \times (\vec{b} \times \vec{a}) = -\vec{a} \times (\vec{c} \times \vec{b})$

.

c) $(\vec{a} \times \vec{b}) \times (\gamma_1 \vec{c_1} + \gamma_2 \vec{c_2}) = \gamma_1 \times (\vec{a} \times \vec{b}) \times \vec{c_1} + \gamma_2 \times (\vec{a} \times \vec{b}) \times \vec{c_2}$

.

İndi də iki vektorun vektorial hasili üçün distributivlik xassəsinin doğruluğunu göstərək.

$\vec{d}$ istənilən vektor olduqda:

(

$(\vec{a} \times \vec{b}) \times \vec{c}) \times \vec{d} = (\vec{a} \times \vec{b}) \times (\vec{c} \times \vec{d}) = (\vec{a} \times \vec{c}) \times \vec{d} + (\vec{b} \times \vec{c}) \times \vec{d} =$

$\vec{d}$

$= \left((\vec{a} \times \vec{c}) + (\vec{b} \times \vec{c})\right) \times$

alınır, yəni $(\vec{a} \times \vec{b}) \times \vec{c} = \vec{a} \times \vec{c} + \vec{b} \times \vec{c}$.

Nəhayət, vektorial və qarışıq hasilin koordinatlarla ifadəsini verək. Vektorial hasilin tərifinə görə *i*, *j* və *k* orta vektorları düzbucaqlı bazis təşkil edərsə, $\vec{i} \times \vec{i} = 0, \vec{j} \times \vec{j} = 0, \vec{k} \times \vec{k} = 0$, $\vec{i} \times \vec{j} = \vec{k}, \vec{j} \times \vec{k} = \vec{i}, \vec{k} \times \vec{i} = \vec{j}$ olduğunu alarıq. Onda $\vec{a}$ və $\vec{b}$ vektorlarının $\vec{i}, \vec{j}$ və $\vec{k}$ bazisi üzrə

ayrılışı $\vec{a} = x_1\vec{i} + y_1\vec{j} + z_1\vec{k} = (x_1 + y_1 + z_1)$, $\vec{b} = x_2\vec{i} + y_2\vec{j} + z_2\vec{k} = (x_2 + y_2 + z_2)$, olduğundan, $(\vec{a} \times \vec{b})$ vektorial hasilin koordinatlarla ifadəsi aşağıdakı şəkildə olar:

Həmçinin, üç vektorun qarışıq hasilinin koordinatlarla ifadəsi belədir:

$$(\vec{a} \times \vec{b}) \times \vec{c} = x_3(y_1z_2 - z_1y_2) \cdot$$
$$+ y_3(z_1x_2 - x_1z_2) + z_3(x_1y_2 - y_1x_2)$$


Yeri gəlmişkən, qeyd edək ki, $\cos(\alpha \pm \beta)$ triqonometrik funksiyası üçün toplama düsturunun çıxarılışı şagirdlər tərəfindən çətin dərk edilir. Lakin ixtiyari iki vektorun skalyar hasilinin koordinatlarla ifadəsindən istifadə etməklə bu məsələni daha asan isbat etmək olar. Bunun üçün *XOY* müstəvisi üzərində ortaq *O* başlanğıclı $\overrightarrow{a_0}$ və $\overrightarrow{b_0}$ kimi orta vektorları qeyd etmək kifayətdir. $\overrightarrow{a_0}$ vektorunun Ox oxunun müsbət istiqamətilə əmələ gətirdiyi bucağı α, $\overrightarrow{b_0}$ vektorunun bucağını isə β ilə işarə etsək (şəkil 4), aşağıdakı ifadəni yazarıq: $\overrightarrow{a_0} = (sin\alpha, cos\alpha)$, $\overrightarrow{b_0} = (sin\beta, cos\beta)$.

Digər tərəfdən, $\varphi = (\overrightarrow{a_0}, \overrightarrow{b_0})$ olarsa, onda $\overrightarrow{a_0}$ və $\overrightarrow{b_0}$ vektorlarının skalyar hasilinin tərifini və koordinatlarla ifadəsini nəzərə alsaq,

$cos\alpha \cdot cos\beta + sin\alpha \cdot sin\beta = \overrightarrow{a_0} \cdot \overrightarrow{b_0} = |\overrightarrow{a_0}| \cdot |\overrightarrow{b_0}| cos\varphi = \cos(\alpha - \beta)$

olur.

Başqa triqonometrik funksiyaların arqumentləri cəmi ilə fərqini göstərən düsturlar isə triqonometrik funksiyaların tək və cütlüyü, həmçinin çevirmə düsturlarının köməyi ilə tapılır.



Şəkil 4

Deməli, məktəb riyaziyyat kursunda düzgün metodikanın seçilməsi həm mövzunun öyrənilməsində, həm də praktik çalışmaların həllində şagirdlərə yaxından kömək edir. Fənn müəllimləri mövzunu tədris edərkən hansı metoddan istifadə edəcəyini əvvəlcədən müəyyənləşdirməlidir. Kortəbii şəkildə müəyyən edilmiş metod təlimin keyfiyyətini aşağı salır.

Problemin elmi yeniliyi ondan ibarətdir ki, müasir dövrün tələblərinə uyğun olaraq, fəndaxili, fənlərarası və təlim metodlarından istifadə edilərək mövzu şərh edilmişdir.

Problemin aktuallığı. "Həndəsə" məzmun xəttinə uyğun alt məzmun xətlərindən birini də vektor və onun tədrisi metodikası təşkil edir. Bu nöqteyi-nəzərdən məqalə şagirdlərin ümumi inkişaf səviyyəsinin yüksəldilməsi üçün aktualdır.

Problemin praktik əhəmiyyəti. Hər bir nəzəri materialın tədrisi prosesində praktik çalışmalardan istifadə edilməlidir. Çünki praktik çalışmaların həllində nəzəri material müstəqil şəkildə qavranılır.

Ədəbiyyat:

1. Əsgərov K.S., Adıgözəlov A.S., Məmmədov A.A. Həndəsədən məsələ həlli praktikumu: Dərs vəsaiti. Bakı: V.İ. Lenin adına APİ, 1986.

2. Əsgərov K.S., Axundov S.S. Elementar həndəsə. Bakı: APİ, 1974.

3. Klopskiy V.M. və b. Həndəsə: orta məktəbin 9-11 sinifləri üçün dərslik / Z.A. Skopetsin redaktəsi ilə. Bakı: Maarif, 1991.

4. Mərdanov M.C. və b. Həndəsə: orta məktəbin 7-11 sinifləri üçün dərslik / prof. S. Mirzəyevin redaktorluğu ilə. Bakı: Çaşıoğlu, 2008.

5. Poqorelov A.V. Həndəsə: Orta məktəbin 7-11 sinifləri üçün dərslik. Bakı: Maarif, 1991.

6. Литвиненко В.Н. "Сборник задач по стереометрии с методами решений". Пособие для учащихся. М.: Просвещение, 1998.

E-mail: mirvariska@gmail.com
Rəyçi: *ped.ü.elm.dok., prof.* **A.S. Adıgözəlov**
Redaksiyaya daxil olub: 05.12.2018

UOT 37.01.

Bəsti Qayvalı qızı Məmmədova
Azərbaycan Dövlət Pedaqoji Universiteti

XƏTTİ BƏRABƏRSİZLİKLƏR SİSTEMİNİN HƏLLİ METODİKASI

Басти Гайвалы гызы Мамедова
Азербайджанский Государственный Педагогический Университет

МЕТОД РЕШЕНИЯ СИСТЕМЫ ЛИНЕЙНЫХ НЕРАВЕНСТВ

Basti Qayvali Mammadova
Azerbaijan State Pedagogical University

METHOD FOR SOLVING A SYSTEM OF LINEAR INEQUALITIES

Xülasə: Məqalə məktəb riyaziyyat kursunda xətti bərabərsizliklər sisteminin həlli metodikasına həsr olunub. Məqalədə xətti bərabərsizliklər sisteminin həllinin yolları araşdırılıb.
***Açar sözlər**: bərabərsizlik, sistem, xətti, tənlik, kəsişmə, parametr, dəyişən, işarə*

Резюме: Статья посвящена методологии решения линейных неравенств на школьном математическом курсе. В статье рассматриваются способы решения системы линейных неравенств.
***Ключевые слова:** неравенство, система, линейность, уравнение, пересечение, параметр, переменная, указание*

Summary: The article is devoted to the methodology for solving linear inequalities in a school math course. The article discusses how to solve a system of linear inequalities.
***Key words:** Inequality, system, linearity, equation, intersection, parameter, variable, indication*

Bərabərsizliklər sistemi məktəb riyaziyyat kursunda əsas hissəni təşkil edir. Bölmənin öyrənilməsinə müasir təlim praktikasında xüsusi yer ayrılıb. Aparılan təcrübələrdən məlum olur ki, bərabərsizliyin həllində şagirdlər müxtəlif çətinliklərlə qarşılaşırlar. Ümumiyyətlə, bərabərsizliklər sisteminin həlli tənliklər sisteminə nisbətdə çətin qavranılır. Bildiyimiz kimi, bərabərsizlik anlayışı araşdırılması mühüm olan anlayışlardan biridir. Bərabərsizliyin tərifini şagirdlərin anlaya biləcəyi dildə vermək qəlizdir. Bərabərsizliyin qavranılması, çətin olmasına baxmayaraq, həlli çox maraqlıdır. Xətti bərabərsizliklər sistemini izah edərkən, ilk öncə, şagirdlər bərabərsizlik haqqında məlumatlandırılır. Onları ibtidai sinifdən “>” və “<” işarələri ilə tanışdırlar. Daha sonra ciddi və qeyri-ciddi bərabərsizlik haqqında məlumatlandırılıblar. Şagirdlər bərabərsizliklərin həllində tənliklərdən istifadə etdiklərini əyani şəkildə görürlər. Bərabərsizliklər sistemini həll edərkən çevirmələrdən və xassələrdən istifadə edirik. Müəllim bu xassələri qeyd edib izahını verir.

Xətti bərabərsizliklər sistemindən danışılarkən, ilk öncə, birdəyişənli bərabərsizliklər haqqında məlumat verilməlidir. Tənliklərdə olduğu kimi, bərabərsizliklərdə də onları həll etmək, həllər çoxluğunu tapmaq və ya həlli olmadığını göstərmək lazımdır. Bərabərsizlikləri həll edərkən onların xassələrini xüsusi vurğulamaq lazımdır. Xətti bərabərsizliklərin tərifini verək:

ax+b>0 və ya ax+b<0 (a≠0) şəklində olan bərabərsizliyə xətti bərabərsizlik deyilir. Burada a, b parametr, x isə dəyişəndir. Burada a>0 olarsa, onda ax+b>0 bərabərsizliyinin həlli $x>-\frac{b}{a}$, a<0 olarsa, $x<-\frac{b}{a}$ olar.

$\begin{cases} a_1 x + b_1 y > 0 \\ a_2 x + b_2 y < 0 \end{cases}$ şəklində verilən bərabərsizliklərə birdəyişənli xətti bərabərsizliklər sistemi deyilir.

Burada a_1, a_2, b_1, b_2 parametr, x isə dəyişəndir. Bu bərabərsizliklər sistemini həll etmək üçün sistemdəki bərabərsizliklərin hər biri ayrı-ayrılıqda həll edilib, həlləri tapılır. Tapılmış həllərin kəsişməsi isə verilən bərabərsizliklər sisteminin həlli olur. Bunları misallar üzərində göstərək.

Misal. Aşağıdakı bərabərsizliklər sistemini həll edin.

$$\begin{cases} 4(x-3) > 6+x \\ 3(x-y) < x+9 \end{cases}$$

Bu bərabərsizliklər sistemini həll edərkən sistemə daxil olan bərabərsizliyi ayrı-ayrılıqda həll edirik. 1-ci bərabərsizliyin həllər çoxluğunu tapaq:

$4(x-3)>6+x$

$4x-12>6+x$

$4x-x>6+12$

$3x>18$

$x>6$, yəni həllər çoxluğu $(6;+\infty)$

İndi isə 2-ci bərabərsizliyin həllər çoxluğunu tapaq:

$3x-7<x+9$

$2x<9+7$

$2x<18$

$x<9$, yəni həllər çoxluğu $(-\infty;9)$

$$\begin{cases} \{x/4(x-3)>6+x\}\ (6;+\infty) \\ \{x/3x-7<x+9\}\ (-\infty;9) \end{cases}$$

$$\Rightarrow \begin{cases} x/ \begin{matrix} 4(x-3)>6+x \\ 3x-7<x+9 \end{matrix} \end{cases} \Rightarrow$$

$\Rightarrow (6;+\infty)\cap(-\infty;9)=(6;9)$

Problemin elmi yeniliyi. Məqalədə xətti bərabərsizliklər sisteminin nəzəri məsələləri tərəfimizdən çalışmalar sistemi vasitəsilə yoxlanılmış və məktəb şagirdləri üçün izah olunmuşdur.

Problemin aktuallığı. Məktəbdə istifadə olunan xətti bərabərsizliklər sistemi şagirdlərin riyazi təfəkkürünü və fəaliyyətini inkişaf etdirir.

Problemin praktik əhəmiyyəti. Təlimdə istifadə olunan xətti bərabərsizliklər sistemi digər bərabərsizliklər sisteminin öyrənilməsinə şərait yaradır.

Ədəbiyyat:

1. Adıgözəlov A.S., Hacıyev N., Həsənova X., Rzayev M. Elementar cəbr. Bakı, 2007.

2. Həsənova X., Cəfərov C., Bədəlova K. Orta məktəb riyaziyyat kursunda bərabərsizliklər və onların tədrisi metodikası. Bakı, 2011.

3. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün riyaziyyat fənni üzrə təhsil proqramı (kurikulum). I-XI siniflər. Bakı, 2013.

Email: bepi.memmedova@gmail.com

Rəyçi: *dos:* **A.Ə. Sadıxov**

Redaksiyaya daxil olub:15.12.2018

XARİCİ DİLLƏRİN TƏDRİSİ METODİKASI

UOT 37.01.

Rəbiyə Əli qızı Qəniyeva
fəlsəfə doktoru proqramı üzrə doktorant
Gəncə Dövlət Universiteti

İDRAK MARAĞI İNGİLİS DİLİNİN ÖYRƏNİLMƏSİNİN VACİB ŞƏRTİ KİMİ

Рабия Али гызы Ганиева
докторант по программе доктора философии
Гянджинский Государственный Университет

ПОЗНАВАТЕЛЬНЫЙ ИНТЕРЕС – ВАЖНОЕ УСЛОВИЕ ИЗУЧЕНИЯ АНГЛИЙСКОГО ЯЗЫКА

Rabiya Ali Qaniyeva
doctorial student in the proqramme of a Ph.D
Ganja State Univercity

COGNITIVE INTEREST IS AN IMPORTANT CONDITION FOR LEARNING ENGLISH

Xülasə. Yuxarı sinif şagirdinin təşəkkülü onun təlim fəaliyyətində idrak fəallığı ilə bağlıdır. Məktəblinin idrak fəallığı ikili xarakterə malikdir: birincisi, onun inkişaf səviyyəsindən təlimin səmərəliliyi asılıdır; ikincisi, idrak fəallığı nə qədər yüksək olarsa, təhsildə onun uğurları bir elə çox olar. Yuxarı sinif şagirdlərinin idrak fəallığı ona təlim fəaliyyətinin passiv obyektindən təlimin subyektinə çevrilməsinə imkan verir.
Açar sözlər: *idrak, idrak fəallığı, şagirdlərin idrak fəallığı, idrak fəallığının formalaşdırılması*

Резюме. Становление старшеклассников связано с их познавательной активностью в учебной деятельности. Познавательная активность школьника носит двоякий характер: во-первых, от уровня ее развития зависит успешность обучения, во-вторых, чем выше уровень познавательной активности, тем выше его удачи в образовании. Активная учебная деятельность старшеклассников дает ему возможность из пассивного объекта учебной деятельности стать субъектом обучения.
Ключевые слова: *познание, познавательная активность, познавательная активность учащихся, формирование познавательной активности*

Summary. Formation of high school students is associated with its cognitive activity in learning activities. The cognitive activity of the student is twofold: firstly, the success of the training depends on the level of its development, and secondly, the higher the level of cognitive activity, the higher his success in education. The active learning activity of high school students gives him the opportunity to become the subject of learning from the passive object of learning activity.
Keywords: *cognition, cognitive activity, students' cognitive activity formation of cognitive activity*

İdrak fəallığı şagirdlərin təliminin, təhsilinin, inkişafının və fəallaşdırılmasının mühüm vasitələrindəndir. İdrak fəallığı biliklərə əsaslanır, həmin biliklərdən fəal və müstəqil şəkildə faydalana bilməyi nəzərdə tutur. Fəqət biliklər öz-özlüyündə idrak fəallığına gətirib çıxarmır. İdraka, anlamaya cəhd məktəblilərin, o cümlədən yuxarı sinif şagirdlərinin təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici tələbatlarını meydana gətirir. Bu müddəa idrak fəallığı fenomenini X-XI sinif şagirdlərinin təliminin başlıca akseoloji motivi kimi diqqət mərkəzinə gəlir.

Aktiv idrak fəallığı böyük məktəb yaşlı şagirdlərin bilik, bacarıq və vərdişlərə yiyələnmələri ilə məhdudlaşdır, həm də dərketmə (idrak) prosesinə və nəticələrinə emosional-qiymətləndirici münasibəti formalaşdırır.

Tədqiqatlardan görünür ki, idrak fəallığı hər biri müvafiq funksiyaları yerinə yetirən modelin qarşılıqlı əlaqədə olan mürəkkəb tamlıq təşkil edən strukturunu özündə birləşdirir. Bu komponentlərə daxildir:

-motivasiya komponenti – tədris-idrak fəaliyyətə təhrik edir;

-məzmun komponenti - fəaliyyətin həyata keçirilməsi üçün baza yaradır;

-şəxsiyyətyönlü komponent – onun tamamlandığını göstərir;

-qiymətləndirici komponent – nəzarət funksiyasını, təshih və qiymətləndirməni yerinə yetirir.

Modelin həyata keçirilməsi aşağıdakı şərtlər daxilində reallaşır:

1. Müxtəlif diaqnostik metodlardan istifadə etməklə yuxarı sinif şagirdlərinin şəxsiyyətinin sistemli və daimi şəkildə pedaqoji-psixoloji öyrənilməsi. Bu, təkcə şagirdin keyfiyyətlərinin, qabiliyyətlərinin, çətinliklərinin aşkara çıxarılmasını deyil, eyni zamanda onların inkişaf etdirilməsini və təkmilləşdirilməsini nəzərdə tutur.

2. Müəllimin "Şəxsiyyət şəxsiyyətin vasitəsilə formalaşır" prinsipinə əsaslanmaqla, subyekt-subyekt münasibətlərinə uyğun olaraq, yuxarı sinif şagirdinin əqli baqajının inkişafına istiqamətlənmiş mövqeyinə nail olunması. Müəllim özünün çoxillik təcrübəsinə əsaslanmaqla məktəblinin mənəvi və b. keyfiyyətlərinin formalaşdırılması və inkişaf etdirilməsi qayğısına qalır.

3. Böyük məktəb yaşı (ilk gənclik yaşı) dövrünün psixoloji, əqli inkişafının xüsusiyyətlərinin nəzərə alınması. Şəxsiyyətin inkişafının hər bir dövrü fərqlidir. "Orta" həddi götürərək problemə yanaşmaq tədricən güclü şagirdlərin yoxa çıxmasına, zəif məktəblilərin inkişafının daha çox ləngiməsinə səbəb olur. Tədris-idrak prosesinin texnologiyası yuxarı sinif şagirdlərinin şəxsiyyətlərarası münasibətlərinin xarakterinə, sosial əhatə olunmalarına, biliklərinin və qabiliyyətlərinin səviyyəsinə, ingilis dilinə yiyələnmə, nitq bacarıq və vərdişlərinin formalaşdırılması dərəcəsinə diqqətin yetirilməsini tələb edir, şəxsiyyətin əqli imkanlarını yüksək səviyyəyə qaldırır.

4. Təlimin müxtəlif çətinlik dərəcəsində olan fəal metodlarının geniş şəkildə tətbiqi.

5. İngilis dilinin tədrisi, öyrənilməsi zamanı X-XI sinif şagirdlərinin psixofizioloji (yaddaşın, diqqətin, qavrayışın, təfəkkürün, ali sinir fəaliyyəti tiplərinin), fərdi, milli-etnik xüsusiyyətlərinin nəzərə alınması. İngilis dilinin tədrisi zamanı məktəblinin idrak fəallığının inkişafında mühüm nəticəyə nail olmaq bu parametrin əsas qanunauyğunluqlarını bilməyə və onlardan faydalanmağa, hər hansı bir idrak tapşırığını yerinə yetirməyə imkan verir.

6. İngilis dilinin öyrənilməsində dil vasitələrinin təqdim olunmasındakı varislik və ardıcıllıq. Bu, ingilis dilinin nitq vasitələrinə - leksikasına, fonetikasına və qrammatikasına yiyələnməyə şərait yaradır.

Bu zaman aşağıdakı prinsiplərə əməl olunmalıdır:

1) Sadədən mürəkkəbə. Xüsusən dil öyrənmənin birinci mərhələsində mürəkkəbliyin, yaxud yeniliyin yalnız bir elementinin bir dəfə daxil edilməsi məsləhət bilinir; 2. tezlik, təlim zamanı dildə son dərəcə tezliyi çox olan hadisələrə üstünlük verilir; 3) aktuallıq və prioritetlik - bu və ya digər şagird üçün çətinlik törədən nitq fəaliyyəti növünə diqqət yönəldilir.

7. İngilis dilinin köməyi ilə yuxarı sinif şagirdində yüksək mənəvi-ruhi əhvalın tərbiyə olunması (tədris materialı, rollu və işgüzar oyunlar, situativ tapşırıqlar, gerçəkliyin hadisə və təzahürlərinə münasibət və s.)

İngilis dilinin öyrənilməsi zamanı təlim fəaliyyətində yuxarı sinif şagirdlərinin inkişafına imkan verən idrak fəallığının aşağıdakı didaktik yolları və şərtləri müəyyənləşdirildi:

1. Yuxarı sinif şagirdlərinin motivasiya və idrak səviyyələrinin yüksəldilməsi üçün təlimin fəal metodlarından və qeyri-standart formalarından istifadə;

2. Məktəblilərin müstəqil işlərinə sistemli nəzarət, məşğələlərin sistemli və ardıcıl həyata keçirilməsi məqsədi ilə təlim əməyinin elmi təşkili vərdişlərinin aşılanması;

3. X-XI sinif şagirdlərinin idrak vərdişlərinin inkişaf etdirilməsinə geniş şəkildə cəlb edilməsi nəinki müstəqil əmək vərdişlərini formalaşdırır, eyni zamanda motivasiya istiqamətini

yüksəldir və təshih edir, elmi fəaliyyətə tələbat meydana gətirir.

Pedaqoji prosesin, inkişaf edən şəxsiyyətin və onun idrak fəallığının meyarları kimi şüurlu yaradıcı özünüinkişaf özünü göstərir. Buna nail olmaq üçün şagird özünütərbiyə ilə məşğul olur, özünüdərkinin qayğısına qalır, idrak fəallığına onda tələbat baş qaldırır, o, idrak fəaliyyətinə cəhd edir.

Təqdim olunan modelin müddəalarının həyata keçirilməsi mexanizmi pedaqoji prosesin təşkili texnologiyasından ibarətdir.

Təlim prosesinin idarə edilməsinin səmərəli didaktik şərtlərinin müəyyənləşdirilməsi ingilis dili dərslərində yuxarı sinif şagirdlərində idrak fəallığının formalaşmasına və inkişaf etdirilməsinə zəmin yaradır: idrak prosesinin savadlı pedaqoji idarəolunması (humanist şəxsiyyətyönlü təlim), müstəqil idrak fəaliyyətinin həyata keçirilməsinə məktəblilərin motivasiyası, təlim fəaliyyətinin məzmununun daimi mürəkkəbləşdirilməsi və yeniləşməsi, biliklərin reproduktiv mənimsənilməsi üzərində fəal idrak fəaliyyətinin üstünlüyü və s.

Dərketmənin (idrakın) fəallığı – subyektin ətrafdakı hadisə və əşyalara dəyişdirici münasibətinin təzahürü kimi meydana çıxır. Həmin münasibət olmadan şagirdin fəaliyyəti, fəallığı fəal olmazdı.

Aktiv təlim fəaliyyəti – yuxarı sinif şagirdinin yaradıcı və tamdəyərli həyatından ötrü böyük əhəmiyyət daşıyır. Məktəblinin hərtərəfli fəallığı onu təlim prosesinin subyektinə çevirir. X-XI siniflərdə təhsil alan şagirdlərin təlim prosesində idrak fəallığının inkişafı, təlim və tərbiyənin səmərəli forma və metodlarının müəyyənləşdirilməsi və tətbiqi, məktəblilərin yaradıcı fəallığının formalaşdırılmasına imkan və şəraitin yaradılması idrak fəallığını reallaşdırır.

İdrak fəallığı təfəkkürün tələbatını təmin edir, fəaliyyətin motivlərini, məqsədini, vəzifələrini və istiqamətini müəyyənləşdirir. Fəallığın xassəsi onun subyektə, başqa sözlə, fəaliyyətin müxtəlif formaları üçün fəallığın kəmiyyət və keyfiyyətini müəyyən edən insana mənsubluğundadır. Təlimdə fəallıq təşəbbüskarlığın, müstəqilliyin tərbiyə olunmasına, bilik, bacarıq və vərdişlərin genişləndirilməsinə və möhkəmləndirilməsinə, müşahidəçiliyə, təfəkkürün, yaddaşın, yaradıcı təxəyyülün inkişafına və cilalanmasına imkan verir.

İdrak fəallığı üçün təlimdə axtarıcılıq istiqaməti və idrak marağının məmnun olunmasına cəhd səciyyəvidir. O, eyni zamanda müəyyən vaxt ərzində qarşıda dayanan məqsədə nail olmağa səydə öz ifadəsini tapır. İdrak fəallığının daxili tərəfi (subyektin tələbatları, motivləri, maraqları, əqidəsi, inamı, əqli, fiziki, mənəvi-iradi səyləri və s.) müəyyən vaxt ərzində təlim-idrak fəaliyyətinin səmərəliliyində ifadə edilir.

Bu problemin zahiri (xarici) tərəfini fəaliyyətin məqsədi, obyekti və nəticə təşkil edir. İdrak fəallığının səviyyələrini keyfiyyət səciyyələrinə, əqli fəaliyyətlərin formalaşma səviyyələrinə, həmçinin onun meydana gəlməsi səviyyəsinə əsasən müəyyənləşdirmək mümkündür.

Pedaqoji ustalığa malik ingilis dili müəllimi yuxarı sinif şagirdlərində idrak fəallığını daha asanlıqla formalaşdıra bilir. Çünki o, həm nəzəri, həm də metodik hazırlığa yiyələnib, müəllim-şagird münasibətlərini də düzgün qurur. Usta müəllim yaxşı bilir ki, müstəqil iş yuxarı sinif şagirdlərində idrak fəallığını formalaşdırmaq üçün, onların fəaliyyətini idarə etməyi bacarmaq üçün yaxşı vasitədir və müstəqil işin imkanlarından faydalanır.

Şagirdlərin müstəqil işlərinin məqsədyönlü və səmərəli təşkili, planlaşdırılması və idarə olunması nəinki ingilis dilinə yiyələnməsi təmin edir, eyni zamanda yaradıcı vərdişləri, təşəbbüskarlığı, idrak fəallığını artırır.

Təhsilin şəxsiyyətyönlü istiqaməti yuxarı sinif şagirdlərinin fərdiyyətinin, müstəqil sosial və idrak fəallığın subyekti kimi onun yaradıcı qabiliyyətlərinin, vətəndaşlıq keyfiyyətlərinin aşkara çıxarılması və formalaşdırılması üçün zəruri şəraitin yaradılması ilə bağlıdır.

İngilis dili dərslərində yuxarı sinif şagirdlərində idrak marağı yaratmaq üçün aşağıdakılar lazım bilinir:

1. Şagirdlərin idrak fəallığının səviyyəsini bilmək.

2. Şagirdlərdə idrak marağının yaradılması.

K.Q. Helvetsi "maraq" dedikdə, bunu insanların fəaliyyətinin əsası, onun xasiyyətinin və təsəvvürlərinin əsası kimi nəzərdən keçirirdi. Helvetsinin qənaətincə, "Maraq bizim bütün dü-

şüncələrimizin və bizim bütün hərəkətlərimizin başlanğıcıdır" (1, s. 342).

İ. Kant (2) maraq problemini praktik ağılla əlaqədə götürürdü. Kantın fikrinə görə, insan öz hərəkətlərində şüurlu varlıqdır, hər şeydən əvvəl mənəvi maraqları rəhbər tutur, hissiyyatdan azad olan borc maraqlarına əsaslanır.

İdrak maraqlarının formalaşdırılması problemi ümumtəhsil məktəbinin mühüm vəzifələrindən biridir. Dayanıqlı, sabit idrak marağı təlimdə emosional və rasional cəhətlərin uzlaşdırılması zamanı təşəkkül tapır.

K.D. Uşinskiyə görə, idrak marağının əsasında dayanan əhəmiyyətli element – iradi səydir (3, s. 144).

3. Şəxsiyyətyönlü mövqe baxımından şagirdlərdə idrak fəallığının inkişaf etdirilməsi probleminin mahiyyətini aydın təsəvvür etmək;

4. Subyekt-subyekt yanaşmaya əsaslanmaq;

5. Birgə təlim fəaliyyətində məktəblilərin idrak fəallığının inkişafı prosesinin modelini müəyyənləşdirmək və tətbiq etmək;

6. Müəllim və şagirdlərin qarşılıqlı fəaliyyəti baxımından məktəblilərin idrak fəallığının inkişafının didaktik şərtlərini müəyyən etmək və əsaslandırmaq.

Problemin aktuallığı. İdrak fəallığının formalaşdırılmasında idrak marağının yaradılması özünün aktuallığı ilə diqqət mərkəzinə gəlir.

Problemin yeniliyi. İdrak marağı ingilis dilinin öyrənilməsinin vacib şərti kimi nəzərdən keçirilir.

Problemin praktik əhəmiyyəti. Məqalə doktorant və dissertantlara, gənc tədqiqatçılara, magistrantlara tədqiqatları zamanı lazım olacaqdır.

Ədəbiyyat:

1. Гельвеций, К. А. Об уме. М.: Мир книги, 2007.

2. Новгородцев, П. И. Кант и Гегель в их учениях о праве и государстве: Два типических построения в области философии права. М.: Унив. тип., 1901.

3. Ушинский, К. Д. Избранные педагогические сочинения. М., 1949.

E-mail: rabiye.n@mail.ru

Rəyçilər: *ped.ü.elm dok., prof.* **A.N. Abbasov**, *ped.ü.fəls.dok.,*dos. **R.A. Salahov**

Redaksiyaya daxil olub: 03.12.2018

UOT 37.01.

Ülviyyə Murad qızı Mehdiyeva
fəlsəfə doktoru proqramı üzrə doktorant
Azərbaycan Respublikası Təhsil İnstitutu

İBTİDAİ SİNİFLƏRDƏ İNGİLİS DİLİ TƏLİMİNİN PRAKTİK MƏSƏLƏLƏRİ

Ульвия Мурад гызы Мехтиева
докторант по программе доктора философии,
Институт Образования Азербайджанской Республики

ПРАКТИЧЕСКИЕ ВОПРОСЫ ПРЕПОДАВАНИЯ АНГЛИЙСКОГО ЯЗЫКА В НАЧАЛЬНЫХ КЛАССАХ

Ulviyya Murad Mehdiyeva
doctorial student in the proqramme of a Ph.D
Institute of Education of the Republic of Azerbaijan

PRACTICAL ASPECTS OF TEACHING ENGLISH IN PRIMARY CLASSES

Xülasə: Məqalədə ibtidai siniflərdə ingilis dili təliminin praktik məsələlərindən bəhs edilir. Müəllif qeyd edir ki, xarici dil üzrə təlim prosesinin səmərəliliyi, müəllim və şagird fəaliyyəti və nəhayət, təlim məqsədlərinə nail olunması təlimin təşkili formalarından, vasitələrindən, tətbiq olunan metod və texnologiyalardan asılıdır.

Açar sözlər: *ibtidai təhsil, kommunikativ məqsəd, təlim metodları, bacarıqlar*

Резюме: В статье рассматриваются вопросы организации обучения иностранному языку на начальном уровне. Отмечается, что эффективность процесса обучения иностранному языку, деятельность учителей и учеников и наконец, достижение целей обучения зависят от форм обучения, используемых методов и технологий.

Ключевые слова*: начальное образование, коммуникативная цель, методы обучения, умения*

Summary: The article deals with the organization and teaching of foreign language teaching at elementary level. It is noted that the effectiveness of the foreign language teaching process, the activities of teachers and pupils, and achieving the goal of training depend on its forms and methods and technologies used in the learning process.

Key words*: primary education, communicative purpose, teaching methods, skills*

Müasir dövrdə insanların müxtəlif sahələrdə ünsiyyət yaratmaq tələbatı getdikcə artır. Hal-hazırda xarici dildə də danışmaq, yazmaq kimi səmərəli bacarıqlara nail olmadan ünsiyyət qurmaq qeyri-mümkündür.

Şagirdlərdə müasir informasiya texnologiyaları vasitəsi ilə ünsiyyət qurmaq, həyati tələbatlarla bağlı müxtəlif bacarıqları mənimsəmək zərurəti yaranır. Bütün bunlar xarici dilin təlimində standart dərs formalarından qeyri-standart dərs formalarına keçidi labüd edir və bunlardan səmərəli istifadə yollarını axtarmağa zəmin yaradır.

İbtidai pillədə şagirddə dilə qarşı maraq oyadılmalı, motivasiya gücləndirilməli, onlara dilin tədrisi prosesi, xarici dilin özü və onun mədəniyyəti sevdirilməlidir.

Xarici dil üzrə təlim prosesinin səmərəliliyi, müəllim və şagirdlərin fəaliyyəti və nəhayət, təlim məqsədlərinə nail olunması təlimin təşkili formalarından, tətbiq olunan metod və texnologiyalardan, vasitələrindən asılıdır.

Müasir dövrün tələblərinə uyğun olaraq təlim formalarının, metodlarının, üsullarının seçimi zamanı aşağıdakı meyarların nəzərə alınması zəruridir:

- şagirdin özünü sərbəst hiss etməsi üçün əlverişli mühitin yaradılması, onun maraqlarının stimullaşdırılması;
- şagirdlərin şəxsiyyətinə, onların emosiyalarına, hisslərinə hörmətlə yanaşılması və yaradıcı qabiliyyətlərinin inkişaf etdirilməsi;
- şagirdlərin fəallığının təmin edilməsi, onun təlim prosesinin əsas siması hesab edilməsi;
- təlim prosesində müəllimin istiqamətverici kimi çıxış etməsi;
- fiziki, intellektual və emosional imkanları səviyyəsində ibtidai sinif şagirdlərinə ingilis dili üzrə müstəqil işləməyin öyrədilməsi, daha doğrusu, təlim prosesində differensiasiya və fərdiləşdirmənin təmin edilməsi;
- sinifdə müxtəlif iş formalarının tətbiq edilməsi: fərdi, cütlərlə, qruplarla, kollektiv, fəallığı stimullaşdıran müstəqil işlər, yaradıcılığı inkişaf etdirən işlər.

Hər hansı bir iş formasının seçilməsi keçilən mövzudan, dərsin məqsədindən asılıdır. Müəllimin hər bir dərs üçün bir neçə iş forması seçmək imkanı var. Əgər seçilən iş forması fərdi şəkildədirsə, müəllim hər bir şagird üçün ayrı sual və ya tapşırıq hazırlamalı, görüləcək işi cütlər və ya müxtəlif qruplarda təşkil etməyi nəzərdə tutursa, o, aşağıdakıları diqqətdə saxlamalıdır:

- Şagirdlərdə kollektivdə işləmək bacarıqlarını inkişaf etdirməlidir;
- onların bir-biri ilə ünsiyyət yaratması və fikir mübadiləsi aparması üçün real şərait yaratmalıdır;
- şagirdlərə problemləri birlikdə həll etmək yollarını göstərməlidir;
- başqalarının səviyyəsini qiymətləndirmək vərdişlərini aşılamalıdır.
- digərlərinin fikirlərinə hörmətlə yanaşmaq bacarıqlarını formalaşdırmalıdır.

İnteraktiv təlim prosesində oyunların əhəmiyyəti böyükdür. Oyunlar ibtidai təhsil pilləsində xarici dilin tədrisinin məzmununu dəyişir:

- şagirdlərə xarici dili autentik yolla təqdim edir;
- şagirdlərdə tənqidi təfəkkürü inkişaf etdirir;
- motivasiyanı gücləndirir, dildən istifadə etməyə maraq yaradır;
- şagirdlərdə müstəqilliyi və özünəinamı artırır;
- yorucu dərsin maraqlı və əyləncəli dərslə əvəz olunmasını təmin edir;
- mənimsəmə prosesini asanlaşdırır, yaddaşı möhkəmləndirir.

Müasir müəllimin yeni metodlardan istifadə edib ibtidai səviyyəli şagirdlər üçün ən yaxşı öyrənmə mühitini yarada bilmək üçün sinfin idarə olunması bacarıqlarına yiyələnməsi, şagirdlərin fəal olmaları üçün video, audio və sosial mediadan istifadə etməyi öyrənməsi, uşaqların təliminə təkan vermək məqsədilə mahnı və oyunlardan istifadə olunması üsullarını müəyyən etməsi vacib şərtlərdəndir.

İbtidai təhsil pilləsində xarici dili tədris edəcək müəllimin aşağıdakıları bacarması zəruridir:

- xarici dilin interaktiv metodlarla öyrədilməsi;
- şagirdlərin reseptiv, produktiv və digər bacarıqlarının inkişaf etdirilməsi;
- müəyyən qrammatik dil materiallarının uyğun gələn funksional dil materiallarının tərkibində təqdim edilməsi;
- dərsin müasir standartlara uyğun, səmərəli şəkildə təşkil edilməsi;
- dərslərin xarici dildə aparılması (ehtiyac olduqda ana dilindən istifadə edilməsi);
- dərsdə yardımçı və texnoloji vasitələrdən istifadə edilməsi;
- şagirdlərin diqqətlə dinlənilməsi, yalnız ehtiyac olduqda müdaxilə edərək səhvlərin düzəldilməsi və ya əlavələrin edilməsi;
- şagirdlərdə ünsiyyət qurmaq və müşahidə etmək qabiliyyətlərinin formalaşdırılması;
- şagirdlərin dil vahidlərindən sərbəst şəkildə müxtəlif situasiyalarda istifadə etmələrinə nail olunması.
- şagirdlərə seçmək, öyrənmək və istifadə etmək kimi bacarıqların aşılanmasına nail olunması.

Aşağı siniflərdə dildən ünsiyyət vasitəsi kimi istifadə etmənin təməli qoyulur. İbtidai təhsil pilləsində dinləyib-anlama, şifahi nitq, il-

kin yazı və düzgün oxu qabiliyyətlərinin yaradılması və inkişaf etdirilməsi tələb olunur.

Problemin aktuallığı. Fəal təlim idrak fəaliyyətinin təşkili və idarə olunması üsullarının məcmusudur. Ona xas olan xüsusiyyətlər müəllim tərəfindən problem situasiyanın yaradılması, şagirdlərdə motivasiyanın gücləndirilməsi, zəruri biliklərin müstəqil əldə edilməsidir. Fəal təlim zamanı şagird təlimin fəal iştirakçısına çevrilir. Təlim prosesinin kommunikativyönümlü təşkili önə çəkilir.

Problemin elmi yeniliyi. İbtidai siniflərdə ingilis dilinin kommunikativyönümlü təliminin səmərəli həllinə imkan verən əsas amillər müəyyənləşdirilmişdir.

Problemin praktik əhəmiyyəti. Məqalə ingilis dili dərslərinin daha səmərəli təşkilinə köməklik göstərəcəkdir.

Ədəbiyyat:

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün xarici dil fənni üzrə təhsil proqramı(kurikulumu). (I-XI siniflər). Bakı, 2013.

2. Бим И.Л., Садомова Л.В. Некоторые актуальные проблемы организации обучения иностранному языку // Инострные языки в школе, 1998, № 5

3. Пассов Е.И. Основы коммуникативной методики обучения иноязычному общению. М.: Русский язык, 1989.

E-mail: mehdiyevaulviyya@gmail.com
Rəyçilər: *ped.ü.elm.dok., prof.* **D.Ə. İsmayılova,**
ped.ü.fəls.dok., dos. **G. Camalova**
Redaksiyaya daxil olub: 10.12.2018

KİMYANIN TƏDRİSİ METODİKASI

UOT 37.01.

Əyyub Teymur oğlu Əzizov
kimya üzrə fəlsəfə doktoru, professor
Bakı Dövlət Universiteti

Kamil Nəsir oğlu Haqverdiyev
kimya üzrə fəlsəfə doktoru, dosent
Bakı Dövlət Universiteti

Aygül Yaşar qızı Məmmədli
Bakı Dövlət Universitetinin magistrantı

KARBON TURŞULARININ AKMEO-PEDAQOJİ ÜSULLARLA TƏDRİSİ

Эйюб Теймур оглу Азизов
доктор философии по химии, профессор
магистрант Бакинского Государственного Университета

Камиль Насир оглу Ахвердиев
доктор философии по химии, доцент
Бакинского Государственного Университета

Айгюль Яшар гызы Маммадли
master student of Бакинский Государственный Университет

ПРЕПОДАВАНИЕ УГЛЕРОДНЫХ КИСЛОТ АКМЕО-ПЕДАГОГИЧЕСКИМ СПОСОБОМ

Kamil Nasir Hagverdiyev
doctor of philosophy in chemistry, associate professor
Baku State University

Eyyub Teymur Azizov
doctor of philosophy in chemistry, professor
Baku State University

Aygul Yashar Mammadli
master of Baku State University

AKMEOLOGY-PEDAGOGY TEACHING OF CARBON ACIDS

Xülasə: Müəllimlik fəaliyyətinin akmeoloji tədqiqatları öyrənilmişdir. Göstərilən üsul ilə şagirdləri öyrətdikdə onların mənimsəmə qabiliyyətləri, kimya elminə maraqları artır və motivləşmə inkişaf etdirilir.

Açar sözlər: *akmeologiya, akmeoloji metodologiya, şəxsiyyətin inkişaf etdirilməsi, təlim və tərbiyənin artırılması*

Резюме: В статье представлено изучение акмеологического исследования деятельности учителя. Отмечается, что обучение учащихся указанным методом повышает их познавательную способность, интерес к химической науке и развивает мотивацию.

Ключевые слова: *акмеология, акмеологическая методология, повышение образования и воспитания*

Summary: Akmeologic studies of teaching activity have been studied when teaching pupils with the above mentioned method, their ability to master, the interests of chemistry is increasing and motivation is developed.

Key words: *akmeology, akmeological methodology, personality development, education and upbringing*

Azərbaycan təhsilinin qarşısında duran əsas vəzifələrdən biri təhsilin yeni innovativ üsullarla və texnologiyalarla tədris edilməsi kimi məsələlər durur**.** Bu məsələlər içərisində son zamanlar, dövri ədəbiyyatdan məlum olduğu kimi, akmeoloji tədqiqatlara böyük üstünlük verilir. *Akmeo* - peşəkarlığın zirvəsinə doğru gedən yolları, üsulları, metodologiyaları və mexanizmləri öyrənən elmə deyilir. *Akmeo* - zirvə, logika - elm deməkdir. Məlum olduğu üzrə, halhazırda müəllim peşəkarlığını onun hazırlaşmasına, elmi biliklərə yiyələnməsinə və yiyələndiyi bilikləri şagirdlərə, öyrənənlərə öyrətmək bacarığının olması ilə yanaşı, hərtərəfli rəqabətə dözümlü olması ilə fərqlənməlidir. *Akmeologiya* müəllim peşəkarlığının hərtərəfli inkişaf etdirilməsi üçün akmeo-pedaqoji üsulların, metodların, metodologiyaların və mexanizmlərin tətbiqini tələb edir. Beləliklə, müəllimin hazırlığı onun peşəkarcasına yetişdirilməsi, pedaqoji prinsiplərə əməl edilməsi ilə *akmeoloji* fəaliyyət tətbiq edilməsindən asılıdır.

Beləliklə, akmeo-müəllimin öz üzərində daha ciddi çalışması insan fəaliyyətinin ən səmərəli sahələrinin biri olan elmi fəaliyyətdə səmərə qazanmaq üçün səmərəli üsullar, səmərəli metodlar, metodologiyalar, sözün əsl mənasında, yeni innovativ texnologiyalardan bacarıqla istifadə etdiyi işin peşəkarcasına yerinə yetirməsidir. Akmelogiya elminin 20-ci əsrin 70-ci illərindən daha sürətli inkişaf etməsinə baxmayaraq, onun tarixi çox qədimdir. Hələ bizim eranın 1-ci əsrində Yunanıstanda Appolodor akmeologiyanı yazılı ədəbiyyata gətirdikdə qeyd etmişdir ki, akmeologiya elmi ondan da qabaq elmi biliklərdə öz yerini tapmışdır.

1970-ci ildən başlayaraq Rusiyanın bir sıra şəhərlərində - Sankt Peterburq, Moskva və s. şəhərlərdə akmeoloji tədqiqatlar nəticəsində 300-dən artıq dissertasiya müdafiə edilmiş, "Akmeologiya jurnalı"çapdan çıxmış və "Akmeoloji tədqiqatlar" jurnalı hal-hazırda cap edilir. Akmeologiyanin daha geniş inkişaf etdikdə A.A. Derkaçın çapdan çıxan "Akmeologiya" kitabı 650 səhifədən ibarətdir və bu elmin inkişaf etdirilməsində əsas rol oynadı. Akmeologiya bütün elmlərə, bütün peşələrə aid edilir.

1. Pedaqoji Akmeologiya;
2. Fiziki, kimyəvi, bioloji, geoloji, coğrafi, tarixi, riyazi və s. Akmeologiyalar;
3. Hərbi Akmeologiya;
4. Tibbi Akmeologiya;
5. Fəlsəfi Akmeologiya;
6. Humanitar elmlərin metodoloji akmeologiyası və s.

Ümumiyyətlə, akmeologiya elmi hər hansı bir elmin peşəkar öyrənilməsini diktə edir. Akmeoloji müəllim dedikdə, peşəkarlığın zirvəsinə yüksələn metodoloji akmeologiyanın pedaqoji və psixoloji akmeologiyanı daha dərindən bilən və tətbiq edən müəllim nəzərdə tutulur. Bu deyilənləri nəzərə alaraq aşağıda biz karbon turşularının akmeoloji-pedaqoji tədrisini veririk.

Karbon turşularının homoloji sırası

Karbon turşuları tərkibində karbohidrogen radikalı ilə birləşmiş bir və ya bir neçə karboksil (-COOH) qrupu olan birləşmələrə karbon turşuları deyilir. Karboksil qrupuna birləşmiş radikalın təbiətindən asılı olaraq, karbon turşuları doymuş (məs: HCOOH qarışqa, CH_3COOH sirkə, $C_{17}H_{35}COOH$ stearin turşusu və s.) doymamış (CH_2=CHCOOH akril, $C_{17}H_{33}COOH$ olein turşusu, $C_{17}H_{33}COOH$ linol turşusu) aromatik turşulardan (C_6H_5COOH benzoy turşusu) turşulara bölünür. Karbon turşularının əsaslığı turşunun tərkibində olan karboksil qruplarının sayı ilə müəyyən olunur. Karbon turşuları əsaslığına görə 1 əsaslı, 2 əsaslı, çox əsaslı olurlar. Doymuş bir əsaslı karbon turşularının homoloji sıranın bəzi nümayəndələrinin adları:

Karbon turşusu Trivial adları:

HCOOH - qarışqa turşusu
CH_3COOH - asetat turşusu
CH_3CH_2COOH - propion t-su
$C_2H_5CH_2COOH$ - yag t-su
$H_3C(CH_2)_2CH_2COOH$ - valerian t-su
$H_3C(CH_2)_4COOH$ - kapron t-su
$H_3C(CH_2)_5COOH$ - enant t-su
$H_3C(CH_2)_{14}COOH$ - palmitin t-su
$H_3C(CH_2)_{16}COOH$-stearin t-su

İkiəsaslı karbon turşularının tərkibində iki (-COOH) qrupu olan turşulardır. Bu turşular doymuş, doymamış və aromatik turşulara bölünür.

Doymuş ikiəsaslı turşular CnH_2n (COOH)n ümumi formuluna malikdir. Aşağıdakı misalları göstərmək olar:

HOOC-COOH turşəng turşusu

HOOC-CH_2-COOH malon turşusu

HOOC-$(CH_2)_4$-COOH adipin turşusu

Doymamış 1 əsaslı karbon turşularının ümumi formulu CnH2n-1COOH formuluna malikdir.

H_2C=CH-COOH akril turşusu

H_2C =CCH_3-COOH metakril turşusu

$C_{17}H_{33}$COOH olein turşusu

$C_{17}H_{31}$COOH linol turşusu

$C_{17}H_{29}$COOH linolen turşusu

Doymamış ikiəsaslı turşular $CnH_{2n-2}(COOH)_2$ ümumi formuluna malikdir.

HOOC-CH_2=CH-COOH malein turşusu

İkiəsaslı aromatic turşular $C_6H_4(COOH)_2$ ümumi formuluna malikdirlər

HOOC-C_6H_5-COOH tereftal turşusu

Karbon turşularının fiziki və kimyəvi xassələri:

Doymuş 1 əsaslı karbon turşuları homolojı sıranın **ilk** 9 nümayəndəsi **(C1-C8) adi** şəraitdə kəskinliyli mayedir**.** C9-dan başlayaraq sonrakılar bərk və iysiz maddələrdir. HCOOH, CH_3COOH, C_2H_5COOH karbon turşuları suda istənilən nisbətdə həll olur. Nisbi molekul kütləsi artdıqca suda həll olması azalır. Bərk halda olan ali turşular suda həll olmurlar və qaynama temperaturları da artır. Turşu molekulları arasında hidrogen rabitəsi yarandığından onlar adi şəraitdə əsasən dimer halında olur. Karbon turşularındakı H rabitəsi spirtlərdən güclü olduğundan, onlarda qaynama temperaturları uyğun spirtlərdən daha yüksəkdir

Karbon turşularının kimyəvi xassələri

Doymuş 1 əsaslı karbon turşuları zəif turşulardır, onların arasında qarışqa turşusu nisbətən qüvvətli turşudur. Qeyri-üzvi turşular kimi üzvi turşular da metalların aktivlik sırasında hidrogenə qədər olan metallarla, əsası və amfoter oksidlərlə, əsaslar və karbonat turşusunun duzları, eləcə də daha zəif uçucu turşuların duzları ilə qarşılıqlı təsirdə olur:

1. $CH_3COOH + Ca \rightarrow (CH_3COO)_2Ca\downarrow + H_2\uparrow$
2. $CH_3COOH + MgO \rightarrow (CH_3COO)_2Mg + H_2O$
3. $CH_3COOH + ZnO \rightarrow (CH_3COO)_2Zn + H_2O$
4. $CH_3COOHCH_3COOH + NaOH \rightarrow CH_3\,COONa + H_2O$
5. $CH_3COOH + NH_3 \rightarrow CH_3COONH_4$

CH_3COOH - sirkə turşusu əvəzinə HCOOH və digər kicik molekullu karbon turşularını da götürmək olar. Karbon turşuları su uducu maddələrin iştirakı ilə anhidrid əmələ gətirir.

Karbon turşularının xarakterik xüsusiyyətlərindən biri onların spirtlərlə qarşılıqlı təsirdə olub mürəkkəb efir əmələ gətirməsidir.

$HCOOH + HOCH_3 \rightarrow HCOOCH_3 + H_2O$

$HCOOH + HOC_2H_5 \rightarrow HCOOC_2H_5 + H_2O$

$CH_3COOH + HOCH_3 \rightarrow CH_3\text{-}COOCH_3 + H_2O$

$CH_3COOH + HOC_2H_5 \rightarrow CH_3\text{-}COOC_2H_5 + H_2O$

reaksiyalar H_2SO_4 iştirakında gedir.

Karbon turşuları hallogenləşmə reaksiyalarına daxil olurlar.

$R\text{-}CH_2\text{-}COOH + Cl_2 \rightarrow R\text{-}CHCl\text{-}COOH + HCl$

Doymuş birəsaslı karbon turşularının hidrogenləşməsi nəticəsində doymuş biratomlu spirtlər alınır.

$R\text{-}COOH + H_2 \rightarrow R\text{-}CH_2\text{-}OH + H_2O$

Quruluşuna gorə qarışqa turşusu və onun duzlarında həm aldehid, həm də karboksil qrupu var. Qarışqa turşusu turşu xassəsi göstərməklə yanaşı aldehid xassəsi də göstərir. Aldehidlər kimi o və onun duzları "gümüş-güzgü" reaksiyasına daxil olur və $Cu(OH)_2$ ilə oksidləşir.

$HCOOH + Ag_2 \xrightarrow{NH_3,t} O + CO_2\uparrow + 2Ag\downarrow$

$HCOOH + 2Cu(OH)_2 \rightarrow CO_2\uparrow + 3H_2O + Cu_2O\downarrow$

$HCOONa + Ag_2O \rightarrow NaHCO3 + 2Ag\downarrow$

$HCOONa + 2Cu(OH)_2 \rightarrow NaHCO_3 + Cu_2O\downarrow + H_2O$

$HCOOK + Ag_2O \rightarrow KHCO_3 + Ag\downarrow$

$HCOOK + Cu(OH)_2 \rightarrow KHCO_3 + Cu_2O\downarrow + H_2O$

Doymuş bir əsaslı karbon turşuları üçün quruluş, optiki və siniflərarası izomerlik xarakterikdir. Doymuş bir əsaslı karbon turşuları mürəkkəb efirlərlə siniflər arası izomerlik əmələ gətirir, çünki hər ikisi eyni ümumi formula malikdirlər.

Alınma üsulları:

1. Üzvi karbon turşularının duzlarına daha qüvvətli turşularla təsir etməklə: (sulfat, nitrat, xlorid, bromid, yodid və s.)

$R\text{-}COONa + H_2SO_4 = Na_2SO_4 + 2R\text{-}COOH$

2. Alkanların hava oksigeni ilə katalitik oksidləşməsi:

$2CH_4 + 3O_2 \rightarrow 2HCOOH + 2H_2O$

$2C_{36}H_{74}+5O_2 \rightarrow 4C_{17}H_{35}COOH+2H_2O$

$2C_4H_{10}+5O_2 \rightarrow 4CH_3COOH+2H_2O$

3. Etil spirtinin bakteriya iştirakı ilə hava oksigeni ilə oksidləşməsi:

$CH_3\text{-}CH_2\text{-}OH+O_2 \rightarrow CH_3COOH+H_2O$

4. Yağların hidrolizindən (bu üsul karbon turşularının sənayedə alınma üsullarıdır) laboratoriyada karbon turşularını həm 1-ci, həm də aşağıdakı üsullarla alırlar:

5. Oksosintez reaksiyaları ilə

$R\text{-}CH_2\text{-}OH+CO \rightarrow R\text{-}COOH$

$CH_3OH+CO \rightarrow CH_3COOH$

$R\text{-}COH+Ag_2O \rightarrow R\text{-}COOH +2Ag$

$R\text{-}COH+[O] \rightarrow R\text{-}COOH$

$RCOH+2Cu(OH)_2 \rightarrow R\text{-}COOH +Cu_2O+2H_2O$

Doymamış 1 əsaslı karbon turşularının alınması

1. Üzvi doymuş turşuların monohallohenli törəmələrinə nüvəlilərin spirtdə məhlulu ilə təsir etməklə

$CH_2Cl\text{-}CH_2\text{-}COOH+NaOH \rightarrow H_2C \rightarrow CH\text{-}COOH+NaCl+H_2O$

2. Oksiturşuların dehidratlaşması

$HO\text{-}CH_2\text{-}CH_2\text{-}COOH \rightarrow H_2C \rightarrow CH\text{-}COOH+H_2O$

3. Hallogen atomları qonşu karbon atomlarında olan dihallogenli doymuş birəsaslı turşuların Zn ilə qarşılıqlı təsiri

$CH_2Br\text{-}CHBr\text{-}COOH+Zn \rightarrow CH_2 \rightarrow CH\text{-}COOH+ZnBr$

$2HCOONa \rightarrow NaOOC\text{-}COONa+H_2SO_4 \rightarrow HOOC\text{-}COOH$ oksalat turşusu

$C_2H_2+4[O] \rightarrow HOOC\text{-}COOH$

Tətbiqi: Qarışqa turşusu sənayedə güclü reduksiyaedici, mürəkkəb efirlərin həlledicilər və ətirli maddələr kimi, gənələrə qarşı mübarizədə, yeyinti sənayesində parçaların boyanmasında istifadə olunur. Sirkə turşusu boyaların, dərman preparatlarının, mürəkkəb efirlərin, sirkə anhidridinin, monoxlor sirkə turşusunun, asetat lifinin, yanmayan kinoplypnkaların ultrabənovşəyi şualar keçirən, üzvi şüşənin istehsalı üçün sərf edilir. Ali karbon turşularının Na və K duzlari sabunun əsas tərkib hissəsidir. Doymuş bir əsaslı ali karbon turşularının ən mühümləri ($C_{17}H_{35}COOH$) stearin, ($C_{15}H_{31}COOH$) palimitindir. Bu turşuların Na duzları bərk, K duzları maye sabundur. Bu turşuların qliserinlə mürəkkəb efirləri qliseridlərdir. Bitki və heyvan yağlarının əsas tərkib hissəsidir. alimitin və stearin turşularının qarışığı stearın şamlarının hazırlanmasında istifadə olunur.

Problemin elmi aktuallığı. Təhsilin, təlimin inkişaf etdirilməsi, yeni üsullardan istifadə edilməsi innovasiya akmeo tədqiqatların tətbiq edilməsi ilə şagirdlərin, tələbələrin, öyrənənlərin mənimsəmə qabiliyyətlərinin inkişaf etdirilməsi akmeoloji tədqiqatların pedaqoji prosesə tətbiqidir.

Problemin elmi yeniliyi. Akmeoloji biliklərin tədrisi prosesində yeni nəzəriyyə kimi istifadə edilərək həm orta, həm də ali məktəblərdə pedaqoji prosesin daha fəal şəkildə təşkil edilməsi öyrənənlərin məntiqi idrakına inkişaf etdirilərək kimya elminə qarşı marağın və motivləşdirmənin artırılmasıdır.

Problemin praktiki əhəmiyyəti. Tədqiqat işinin praktiki əhəmiyyəti ondan ibarətdir ki, məqalədə irəli sürülən ideyalardan ali və orta məktəb müəllimləri, tələbə və magistrlər, şagirdlər pedaqoji prosesdə səmərəli istifadə edə bilərlər.

Ədəbiyyat:

1. Акмеология/под.ред. А.А.Деркача. М.: РАГС, 2002.

2. Деркач А.А., Кузьмина Н.В. Акмеология: пути достижения вершин профессионализма М.: РАУ 1993.

3. Деркач А.А., Зазыкин В. Г., Маркова А. К. Психология развития профессионала. М.: РАГС, 2000.

4. Зазыкин В. Г, Чернышев А. П. Акмеологические проблемы профессионализма. М.: НИИВО, 1993.

5. Кузьмина Н.В., Деркач А.ААкмеология сегодня и завтра // Акмеология 1994, №1

E-mail: nuranmammedli@gmail.com

Rəyçi: *ped.ü. elm. dok.* **A.H. Əliyev**

Redaksiyaya daxil olub: 12.12.2018

UOT 37.01.

Qaliya Şamil qızı Aziyeva
Bakı şəhəri Suraxanı rayonu 275- №li məktəbin kimya müəllimi

KİMYA FƏNNİNİN TƏDRİSİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ İLƏ BAĞLI MƏSƏLƏLƏR

Галия Шамильевна Азиева
учитель химии школы № 275 Сураханского района гор Баку

ВОПРОСЫ, СВЯЗАННЫЕ С ПРЕПОДАВАНИЕМ И ОЦЕНИВАНИЕМ ПЕДМЕТА ХИМИИ

Galiya Shamilevna Aziyeva
teacher of chemistry of
Complete secondary school number 275
Surakhani district, Baku

ISSUES RELATED TO THE TEACHING AND EVALUATION OF CHEMISTRY

Xülasə: Məqalədə son illərdə ölkəmizin təhsil sistemində aparılan islahatlardan, yenilikçi tədbirlərdən bəhs edilir. Bilavasitə görülən tədbirlərin təhsilin keyfiyyətinin yüksəldilməsinə, kimya fənninin timsalında ümumtəhsil müəssisələrində tətbiq edilən qiymətləndirilmə sistemi ilə bağlı məsələlərə münasibət bildirilir. Şagirdlərin bilik səviyyəsinin düzgün qiymətləndirilməsi günümüzün aktual məsələsidir və müzakirəyə açıq mövzudur.

Açar sözlər: *təhsilin keyfiyyəti, rasional üsullar, qiymətləndirmə mexanizmləri, işləmə qabiliyyəti, kimya aparaturası*

Резюме: В статье рассматриваются реформы, проводимые в образовательной системе нашей страны за последние годы. Были приняты инновационные меры для повышения качества образования, а также вопросы, связанные с системой оценивания, используемой в области химии. Правильная оценка уровня знаний учащихся является актуальной проблемой сегодня и открыта для обсуждения.

Ключевые слова*: качество образования, рациональные методы, механизмы оценки, работоспособность, химический аппарат*

Summary: The article deals with the reforms carried out in the education system of our country in recent years. Innovative measures have been taken to improve the quality of education, as well as issues related to the assessment system used in the subject of chemistry. The proper assessment of pupils' knowledge level is an urgent issue today and is open to discussion.

Key words*: quality of education, rational methods, valuation mechanisms, working ability, chemical apparatus*

Hər bir elmin mahiyyətini, onun başlıca xüsusiyyətini, onun əsas və fərqləndirici əlamətlərini həmin elmin predmeti və öyrənmə, araşdırma metodları müəyyənləşdirir. Buradan aydın olur ki, elmlər biri-birindən məhz özünəməxsus olan predmetləri və metodları ilə fərqlənirlər. Kimyanın tədrisi metodikası kimya elminin bu və ya digər anlayışlarını, qanun və qanunauyğunluqlarını və s. şagirdlərə öyrədir. Elmi kimya da obyektiv aləmin gerçəkliklərini öyrənir, tədqiq edir və s.

Təlim qarşısında qoyulmuş ümumi məqsədə uyğun olaraq kimya fənninin tədrisi metodikasının qarşısında duran məqsədlər aşağıdakılar daxildir:

1) Kimya təliminin ümumtəhsil məqsədi;

2) Kimya təliminin tərbiyəedici məqsədi;

3) Kimya təliminin praktiki məqsədi.

Kimya fənninin təlim edilməsinin praktiki məqsədi:

1) Qazanılmış bilikləri həyati fəaliyyətdə fəaliyyət prosesinə tətbiq etmək və ya elmi fəaliyyəti davametdirmə prosesində tətbiqetmə məqsədi;

2) Kimyəvi vasitələrlə, kimya aparaturası ilə işləmə qabiliyyətlərini inkişaf etdirmək, formalaşdırmaq məqsədi.

Məqalədə kimya fənninin tədrisinin əhəmiyyəti ilə yanaşı, şagirdlərin bilik və bacarıqlarının fənn üzrə qiymətləndirilməsi məsələsinə də toxunmaq istədim. Belə ki, təlim və tədris prosesinin təkmilləşdirilməsini şagirdlərin nailiyyətləri barədə obyektiv məlumatların əldə edilməsi üçün müasir qiymətləndirmə mexanizmlərinin yaradılması mühüm vəzifə kimi irəli sürülür. Təhsilin keyfiyyətinin müəyyənləşdirilməsi də keyfiyyəti üzrə çıxaran ən etibarlı mənbədir.

Ümumtəhsil məktəblərində diaqnostik, formativ və summativ qiymətləndirmə növlərindən istifadə olunur.

Diaqnostik qiymətləndirmə şagirdlərin hansı bilik və bacarıqlara malik olduğunu müəyyənləşdirərək, onların tədris edilmiş materialın hansı hissəsini bildiklərini nümayiş etdirir. Bu qiymətləndirmə təlimin düzgün qurulmasında müəllimə köməklik göstərir.

Formativ qiymətləndirmə təlimin müəyyən mərhələsində şagirdin irəliləyişləri barədə məlumatın əldə edilməsinə kömək edir. Bu qiymətləndirmənin nəticələri təlim prosesinin daha səmərəli təşkili üçün müəllim və şagirdin sonrakı fəaliyyətlərində öz əksini tapmalıdır. Müəllim təlim prosesinə müsbət və mənfi təsir göstərən amilləri təhlil edərək öz fəaliyyətini tənzimləyir. Şagird isə bu nəticələr əsasında nailiyyətini, müəllimin verdiyi tövsiyələri və s. araşdıraraq öz sonrakı fəaliyyətini planlaşdırır.

Formativ qiymətləndirmənin nəticələri sinif jurnalında qeyd olunmur. Bu nəticələr şagirdin məktəbli kitabçasında (meyarlar şəklində) və müəllimin qeyd kitabçasında öz əksini tapır. Şagird qovluğunda (portfolio) toplanır. Portfolio dərs ili ərzində məktəbdə saxlanılır və ilin sonunda şagirdə təhvil verilir.

Aşağıdakı cədvəldə kimya fənni üzrə formativ qiymətləndirmənin üsul və vasitələri göstərilib.

Üsullar	**Vasitələr**
Müşahidə	Müşahidə vərəqləri
Şifahi sual-cavab	Şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi
Tapşırıqvermə	Çalışmalar
Valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq	Söhbət, sorğu vərəqi (şagirdin evdə və ya məktəbdəki fəaliyyəti ilə bağlı suallar yazılmış vərəq)
Layihə	Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən olunmuş meyar cədvəli
Rubrik	Nailiyyət səviyyələri üzrə qiymətləndirmə şkalası
Şifahi və yazılı təqdimat	Meyar cədvəli
Test	Test tapşırıqları
Özünüqiymətləndirmə	Özünüqiymətləndirmə vərəqləri

Summativ qiymətləndirmə kiçik summativ, böyük summativ, yekun qiymətləndirmədən ibarətdir.

Qiymətləndirmə standartlarına əsasən hazırlanmış vasitələrlə şagirdin nailiyyət səviyyəsini ölçmək üçün kiçik və böyük summativ qiymətləndirmə aparılır.

Kiçik summativ qiymətləndirmə (KSQ) müəllim tərəfindən bəhs və ya bölmələrin sonunda aparılır. Böyük summativ qiymətləndirmə (BSQ) isə rəhbərliyin nəzarəti ilə fənn müəllimi tərəfindən aparılır. (Məktəbdə yaradılan komissiyanın nəzarəti ilə). Summativ qiymətlən-

dirmənin nəticələri sinif jurnalında keçirildiyi tarixdə qeyd olunur.

Kiçik summativ qiymətləndirmə altı həftədən gec olmayaraq bəhs və ya bölmələrin sonunda keçirilir və onun nəticələri yarımillik qiymətləndirmə kimi nəzərə alınır.

Kiçik summativ qiymətləndirmə vasitələri (test, tapşırıq və s.) fənn müəllimi, böyük summativ qiymətləndirmə vasitələri (test və tapşırıqlar) məktəb rəhbərliyinin təşkil etdiyi xüsusi komissiya tərəfindən hazırlanır.

Summativ qiymətləndirmə vasitələri səviyyələr üzrə hazırlanmış qiymətləndirmə standartlarına görə hazırlanır. Məsələn, VII sinif üçün hazırlanmış summativ qiymətləndirmə vasitəsi:

Məzmun standartı	**Qiymətləndirmə standartı**
2.1. Kimyəvi hadisələrin başvermə səbəblərini, qanunauyğunluqlarını mənimsədiyini nümayiş etdirir.	K.VII.2.1.QS.4 Kimyəvi hadisələrin başvermə səbəblərinin, qanunauyğunluqlarının mənimsənilməsinə aid qiymətləndirmə sxemi.
2.1.1. Kimyəvi reaksiyaların əlamətlərini, əsas tiplərini, başvermə səbəblərini izah edir.	2.1.1. Q4. Kimyəvi reaksiyaların başvermə səbəblərini izah edir və əlamətlərini sayır, müxtəlif əlamətlərə görə reaksiyaların əsas tiplərini göstərir.
	2.1.1. Q4. Kimyəvi reaksiyaların başvermə səbəblərini izah edir və əlamətlərini sayır.
	2.1.1. Q2. Kimyəvi reaksiyaları müxtəlif əlamətlərinə görə tiplərə ayırır.
	2.1.1. Q1. Kimyəvi reaksiyaların başvermə əlamətlərini sayır.

2.1. və 2.1.1. Məzmun standartlarıdır, 2.1.1.Q.1., 2.1.1 Q2, 2.1.1.Q4 standartları isə bu məzmun standartlarını şagirdlərin necə mənimsəməsini qiymətləndirmək üçün qiymətləndirmə standartlarıdır.

Qiymətləndirmə standartları 4 səviyyədə müəyyən olunur:

1-ci səviyyə - aşağı; 2-ci səviyyə - orta; 3-cü səviyyə - yüksək; 4-cü səviyyə - ən yüksək

Qiymətləndirmə vasitələri hazırlanarkən aşağıdakılar nəzərə alınır, suallar çətinlik səviyyəsinə görə aşağıdakı kimi hazırlanır:

- 1-ci səviyyə üzrə suallar – 20%
- 2-ci səviyyə üzrə suallar – 30%
- 3-cü səviyyə üzrə suallar – 30%
- 4-cü səviyyə üzrə suallar – 20%

30 sual hazırlanarkən, bu sualların 20%-i birinci səviyyəli suallar, 30%-i II səviyyəli, 30%-i III səviyyəli, 20%-i isə 4-cü səviyyəli suallar olmalıdır.

Qiymətləndirmə zamanı aşağıdakıların nəzərə alınması vacibdir:

1. Stimullaşdırma; 2. Dəstəkləyici mühit; 3. Müəllim-şagird münasibəti; 4. Əməkdaşlıq; 5. Şagirdlərin maraq səviyyəsi; 6. İdrak 7. İnam; 8. Ünsiyyət.

Problemin aktuallığı. Hazırkı dövrdə ümumtəhsil müəssisələrində təhsilin keyfiyyəti ilə yanaşı, onun qiymətləndirilməsi prosesi də aktual məsələdir. Şagirdlərin nailiyyətlərinin, bilik və bacarıqlarının qiymətləndirilməsi üsul və metodları aktual problem kimi önə çəkilir.

Problemin elmi yeniliyi. Araşdırılan problem müasir dövrdə maraq doğuran sahələrdən biridir ki, bu problemin sistemli şəkildə araşdırılması ilkdir.

Problemin praktiki əhəmiyyəti: Məqalədə araşdırılan problem gənc və yeni başlayan təhsilverənlər üçün öz pedaqoji fəaliyyətlərində əhəmiyyətli ola bilər.

Ədəbiyyat:

1.Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlətin Strategiyası // Kurikulum, 2013, № 5
2. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009.
3. Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 13 yanvar tarixli 5 nömrəli qərarı ilə təsdiq edilmişdir.
4. http://anl.az/el/m/mr_tkaibk.pdf

E-mail: xuraman.salimova@mail.ru
Rəyçilər*: ped.ü.fəls.dok., dos.* **A. Bəkirova,**
ped.ü.fəls.dok., dos. **M. İbadova**
Redaksiyaya daxil olub: 03.01.2019.

FİZİKANIN TƏDRİSİ METODİKASI

UOT 37.01.

Gülbəniz Babaverdi qızı Valehova
Bakı şəhəri Suraxanı rayonu, 238 nömrəli məktəbin fizika müəllimi

FİZİKA DƏRSLƏRİNDƏ SƏRİŞTƏLİLİYİN FORMALAŞDIRILMASI TƏCRÜBƏSİNDƏN

Гюльбениз Бабаверди гызы Валехова
учитель физики школы № 238 Сураханского района гор. Баку

ИЗ ОПЫТА ФОРМИРОВАНИЯ КОМПЕТЕНТНОСТИ НА УРОКАХ ФИЗИКИ

Gulbeniz Babaverdi Valehova
physics teacher school № 238 of Surakhani district, Baku

FROM THE EXPERIENCE OF FORMATION OF COMPETENCE IN PHYSICS LESSONS

Xülasə: Məqalədə fizika dərslərində səriştəyönümlü yanaşmanı həyata keçirilməsinə imkan verən faktlar müəyyən edilmişdir. Eyni zamanda fizika dərslərində fənnyönümlü yanaşma ilə səriştəyönümlü yanaşmanın müqayisəli təhlili aparılmış, bu tipli dərslər üçün tələblər işlənilmiş və dərs nümunələri verilmişdir

Açar sözlər: *Səriştəyönümlü yanaşma, açar səriştəlilik, standart, təlim məqsədi, səriştəyönümlü dərs, praktik fəaliyyət.*

Резюме: В статье раскрыты факты для организации и проведения компетентно-ориентированного урока по физике. Дан сравнительный анализ предметно-ориентированного и современного компетентно-ориентированного урока по физике. Одновременно разработаны требования компетентно-ориентированного урока и представлены образцы для учителей физики.

Ключевые слова: *компетентно-ориентированный подход, ключевые компетенции, содержательная линия, стандарт, цель обучения, практическая деятельность, компетентно-ориентированный урок*

Summary: The article reveals the facts for the organization and conduct of a competently-oriented lesson in physics. A comparative analysis of the subject-oriented and modern competent-oriented lesson in physics is given. At the same time, the requirements of a competent-oriented lesson were developed and samples for teachers of physics were presented.

Key words: *competence-oriented approach, core competencies, content line, standard, purpose of training, practical activities, competence-oriented lesson*

Fizika bir tədris fənni kimi ümum təhsil məktəblərində şagirdlərə təbiətdə baş verən dəyişikliklərin elmi əsasları haqqında biliklər verməkdir. Lakin qazanılan bu biliklər bu günki, tez-tez dəyişən həyat şəraiti üçün heç də kifayətləndirici deyildir. Gələcək həyatda fəaliyyət göstərəcək insanların rastlaşdığı standart yaxud qeyri-standart həyati situasiyalar olan baş açmaq və yaradıcılıqla həll etmələri üçün onları səriştəli şəxsiyyət kimi yetişdirmək ümumtəhsil məktəblərində tədris olunan fənlərin qarşısında duran başlıca məqsədlər olan biridir. Elmi-texniki informasiyaların artdığı bir zamanda bu yükün əsas ağırlığı fizika fənninin payına düşür. Deyilənləri nəzərə alaraq belə nəticəyə gəlmək olar ki, fizikanın təlim prosesində müxtəlif səriştəliklərin əsasını inkişaf etdirmək dərsin məqsəd və vəzifələrinin dəyişdirilməsini zəruri hesab

edir. Buda dərsin strukturunun, təlimin təşkilinin forma və üsullarının eyni zamanda müəllimin peşə hazırlığının təkmilləşdirilməsinə qarşı yanaşmanın dəyişdirilməsi aktuallaşır. Səriştəli yanaşmaya keçməyin aktuallaşdırılması isə müəyyən sayda faktorlardan asılıdır.

1. Cəmiyyətin planlı iqtisadiyyatdan, bazar iqtisadiyyatına keçməsi;
2. İnformasiyanın kəskin şəkildə artması;
3. Təhsil paradiqmasının dəyişməsi nəticəsində təlimin məqsədlərinin, məzmununun, metod və yanaşmaların dəyişdirilməsi;
4. Fizika elminin praktik tətbiqlərinin insan həyatının müxtəlif sahələrində özünə geniş yer alması;
5. Müəllim və şagirdlərin yeni təlim texnologiyalarına adaptasiyasının ləngiməsi;
6. Təlim prosesində səriştəliklərin inkişaf etdirilməsi və formalaşdırılması üçün fənlərin inteqrasiyasının nəzərə alınması;
7. Elm və texnikanın inkişafına uyğun dərsliklərin lazımi şəkildə dəyişdirilməsi;
8. Praktik yanaşmaya fənn kabinetlərinin nəzərə alınması;
9. Təlim prosesində regional xüsusiyyətlərin nəzərə alınması;
10. Məzmun standartlarının tələbini ödəyən eksperimental xarakterli nümayiş təcrübələrinin aparılmasına imkan verən cihaz və avadanlıqların kifayətləndirici olmaması;
11. Müxtəlif səriştəliklərin əsaslarının inkişaf etdirilməsinə imkan verən standart və qeyri standart tapşırıqlara dair metodik vəsaitlərin olmaması.

Deyilənlərin həlli şəxsiyyətyönlü yanaşmada təhsilalanları müxtəlif həyatı situasiyaları həll etməyə imkan verən səriştəli insanlar kimi formalaşdırmağa şərait yaradır. Eyni zamanda faktların aradan qaldırılması təhsilin məqsədinə adaptasiya olunmaqla həll olunması arzu ediləndir.

Təhsilin məqsədinə uyğun yeni təhsil və qiymətləndirmə standartları yaradılmış təlim texnologiyaları, vasitələri, təlimin təşkili formaları, ümumi təlim strategiyaları nəzəri şəkildə dəyişdirilmiş, praktik yönümdə geniş həllini hələ ki tapmamışdır. Fizika fənninin tədrisində məqsədəuyğun dərsin strukturunu, təlim strategiyasının və onlara verilən tələblərin müəyyənləşdirilməsi fənnin spesifik xüsusiyyətindən asılıdır. Çün ki, əvvəldə qeyd etdiyimiz kimi fizika tədris fənləri içərisində çətinliyi daha çox tətbiq spektrı daha geniş alan bir elmdir. Elmin əsaslarını dərk etməklə müxtəlif səriştəliklərə yiyələnmək üçün təlim prosesində şagirdlərin müstəqil fəaliyyətinə daha geniş zaman ayrılmalı və təhsilalanları passiv dinləyicidən prosesin fəal iştirakçısına çevrilməsi labüddür. Belə yanaşmanın nəticəsində şagirdlərində maraqlarına uyğun müxtəlif səriştəliklərin əsaslarının inkişaf etdirilməsinə və formalaşdırılmasına nail olmaq mümkündür. Məktəb təcrübəsində bu aydınlıqla müşahidə olunur.

Səriştəli yanaşmada standartın tələbinə uyğun müəyyən edilmiş məqsədin əsas mərhələsinin həyata keçirilməsi və nəzərdə tutulan səriştəliliyin inkişaf etdirilərək formalaşdırılması təlim strategiyasının üzərinə düşür. Təlim strategiyasının düzgün qurulması fənn müəlliminin fəaliyyətinin müvəffəqiyyətidir. Bu prosesdə şagirdlərin qazanılacağı səriştəliklər diqqətdə saxlanılmalıdır.

Didaktik məqsədə görə dərsin qarşısında duran vəzifələr müəyyən edilir. Vəzifə isə məqsədə çatmaq üçün olan fəaliyyətdir. Fəaliyyətlərin nəticəsində səriştəlilik inkişaf etdirilməklə formalaşdırılır. İxtiyarı biz məzmun xətti üzrə (fiziki hadisələr, qanunlar və qanunauyğunluqlar; Maddə və sahə, qarşılıqlı təsir, əlaqəli sistemlər; Eksperimental fizika və müasir həyat) nəzərdə tutulan standartın elementlərini reallaşdırmağa imkan verən mövzunun məqsədini müəyyənləşdirmək üçün aşağıdakı ardıcıllığa əməl etmək müsbət nəticə verir.

- Fənnin məqsədindən kənara çıxmayan standartın tələbinə görə nəzərdə tutulan mövzunun məqsədinin təyin edilməsi:
- Ümumi təlim məqsədinə uyğun fəaliyyət nəticəsində formalaşdırılacaq səriştəlik elementlərinə görə təlim vəzifələrinin proqnozlaşdırılması.

Məktəb təcrübəsi göstərir ki, fənnyönlü ənənəvi yanaşma ilə səriştəyönlü müasir yanaşma arasında nəzərə çarpacaq səviyyəsində fərq mövcuddur.

Ənənəvi yanaşmada fizika fənninin tədrisi prosesində müəyyən bilik, bacarıq və vərdişlərin aşılanmasının tələb olunmasına baxmayaraq sinifdəki şagirdlərin çox az sayının fənn göstəriciləri qənaətləndirici olmaması;

Qazanılmış bilik, bacarıqları yekun qiymətləndirmədə yoxladıqda yenə də kifayət qədər xətalar müşahidə olunması;

Bu xətalar indidə mövcuddur səbəb çox hallarda tədrisin ənənəvi üsulla davam etdirilməsidir.

Göstərilənlərin mövcudluğu aşağıdakı səbəblərdən asılıdır.

- Dərsin məqsədinin diaqnostik araşdırma aparmadan müəyyən olunmasından;
- Gündəlik planlaşdırmada inteqrasiyanın nəzərə alınmamasından;
- Təlim strategiyasının müəyyənləşdirilməsində fəal təlim üsullarından istifadəyə yer verilməsindən;
- Qiymətləndirmənin fənnyönümlü xarakterdə aparılmasından;
- Akademik biliklərin yoxlanılmasında həyati əhəmiyyətli açıq tipli tapşırıqlara lazımi səviyyədə müraciət olunmamasından;

Təlim prosesində təhsilverənlərin təhsilalanların isə passiv fəaliyyətdə olmasından;

Məktəb təcrübəsinə münasibət bildirmək üçün keçmiş tarixə müraciət etsək görərik ki, fizikanın tədrisində (ənənəvi yanaşmada) mövzuya görə məqsədlər hadisələrə, anlayışlara, kəmiyyətlərə, qanunlara, qanunauyğunluqlara daha formal olaraq elmi-dünyagörüşün formalaşdırmasına, məsələ həllinə və yaxud dərsin tipindən asılı olarq yeni biliklərin verilməsinə, möhkəmləndirilməsinə görə müəyyən edilirdi. Müəyyən zaman keçməsinə baxmayaraq məktəb təcrübəsində yuxarıda deyilənlərə tez-tez rast gəlmək mümkündür.

Şagirdlərin müəyyən edilmiş məqsədlərə görə anlayışları, hadisələri, keyfiyyətləri, qaydaları lüğət materiallarını mənimsəmələri son anda medal, tərifnamə, məktəbi bitirmələrinə dair sənəd almalarına baxmayaraq onlarda həyati səriştəliklər lazımi səviyyədə formalaşa bilmirdi. Şagirdlərin rastlaşdığı standart və qeyri-standart həyati situasiyaları düzgün həll etmələri üçün açar səriştəliklərin formalaşmasına imkan yaradan fəaliyyətlərə dərs prosesində xüsusi diqqətin yetirilməsi aktuallaşdırılmalıdır.

Yəni təlim zamanı praktik fəaliyyətin gücləndirilməsinə diqqətin artırılması, yaradıcı təfəkkür inkişaf etdirilməsi üçün fəaliyyətlər planlaşdırılmalıdır. Lakin onda qeyd edək ki, səriştəli yanaşma biliyin əhəmiyyətini inkar etmir. Bilik səriştəliliyin formalaşdırılmasında bir vasitədir. Səriştəli yanaşmanın inkişaf etdirilməsi biliklərin istifadə olunmasına diqqət vurğulayır.

Ümumiləşdirmə apararaq belə nəticəyə gəlirik ki, səriştəyönlü dərs elə dərsdir ki, bu prosesdə praktik fəaliyyətlər hesabına şagirdlərin inkişafına şərait yaradılmış olsun. Belə dərslər şagirdlərin şəxsi keyfiyyətlərinin və səriştəliklərini yüksəltməklə onların müxtəlif həyati situasiyaları düzgün həll etməyə imkan verir.

Deyilənlərə istinad etməklə... dərs nümunəsi baxaq:

Sinif 7.

Standart 2.2.2; 3.2.1.

Mövzu: Mayelərin təzyiqi.

Məqsəd: Praktik fəaliyyət hesabına təhsil alanların idraki, kommunikativ səriştəliklərinin inkişafı.

Vəzifələr:

- Mayeni qabın dibinə və divarlarına təzyiqinin nəzəri şəkildə əsaslandırmaqla intellektual səviyyənin artırılması.
- Praktik fəaliyyət zamanı idraki, kommunikativ səriştəliklərin inkişaf etdirilməsi;
- Təhsilalanların qarşılıqlı xeyirxah münasibətə, ünsiyyət qurmağa istiqamətləndirilməsi.

İstifadə olunan metodlar: Problemli təlim, qismən axtarıcılıq, tədqiqatçılıq, şagirdlərin müstəqil işləri.

Dərsin təşkili formaları: Bütöv siniflə, qruplarla, cütlərlə iş.

Təchizat: Mayelərin təzyiqinin müəyyən etmək üçün cihazlar, su ilə dolu plastik qablar, İKT vasitələri.

Dərsin quruluşu:

Motivasiya: 1. Neft quyularından nefti çıxarmaq üçün quyulara xüsusi qurğularla hava vurulmasının səbəbi nədir? Bu proses hansı hadisəyə əsaslanır?

Nə üçün üzgüçü suyun daha dərin təbəqələrinə doğru üzərkən qulaqlarında ağrı hiss edir?

Bizim fərziyyələrimiz: 1. Neft quyularından nefti çıxartmaq üçün quyulara xüsusi qurğularla hava vurmaqla məqsəd neft qatı təzyiq göstərməkdir. Paskal qanununa görə maye və qazlara edilən təzyiq dəyişmədən onun bütün nöqtələrinə bərabər ötürülür. Ona görə də neft xüsusi borularla yerin səthinə çıxarılır.

2. Üzgüçü suyun dərin qatlarına doğru hərəkət etdikdə qulaqlarına doğru hərəkət etdikdə

qulaqlarında ağrıların yaranması onun bədəninin səthinə və qulaq düşən pərdəsinə düşən suyun təzyiqindən asılıdır. Yəni p=pgh. Tədqiqatın aparılması: Tədqiqatın aparılması planı: Təcrübi olaraq göstərməli ki, həqiqətən suyun altında təzyiq mövcuddurmu? 2. Sübut etməli ki, müxtəlif dərinliklərdə təzyiq müxtəlifdir. 3. Öyrənməli ki, suyun təzyiqi insan bədəninə necə təsir göstərir. 7 Müxtəlif dərinliklərdə insanın sağlamlıq durumunun müqayisə etməli; Nəticə çıxarmalı suyun altında olmaq ..... üçün asandırmı?

Təcrübə olaraq müəyyən edək ki, suyun altında təzyiq varmı. Bir tərəfi nazik rezin parça ilə bağlanmış şüşə boruya su tökək.

Suyun çəkisi hesabına rezin pərdə qabaracaqdır.

Tədqiqatın nəticəsində aydın olur ki, rezin pərdə suyun təzyiqi hesabına qabarır. Su borusunda suyun həcmi artdıqca təzyiqi də artacaqdır. Təcrübi olaraq sübut edək ki, müxtəlif dərinliklərdə təzyiq müxtəlifdir. Buna görə bir ədəd plastik butulka götürüb müxtəlif səviyyələrdə üç deşik aşaq. Butulkaya su tökdükdə hansı deşikdən su daha uzağa axarsa deməli həmin səviyyədə təzyiq daha böyükdür. Tədqiqat nəticəsində müəyyən olunur ki, mayenin təzyiqi onun hündürlüyündən asılıdır.

Alınan nəticəyə görə belə bir həyati əhəmiyyətli suala cavab verə bilərik. Sual: İnsanın bədəninə su dərinlikdən asılı olaraq necə təsir göstərir. Daha böyük dərinliklərdə insanın bədəninə suyun təzyiqi onun daxili təzyiqindən çox böyük olduğundan insan nəfəs ala bilmir, o da insanın ölümünə səbəb olur. İnsan suyun altında 1,5 metr dərinlikdə özünü yaxşı hiss edir. Suyun dərinliyi artdıqca insan ağrıları daha çox hiss edir.

Tədqiqatdan alınan məlumatlar mübadilə olunmaqla müzakirə olunur və alınan nəticələrin həyati əhəmiyyəti müəyyənləşdirilir.

Nəticə: Suyun altında daha dərinliyə baş vurmaq üzgüçü üçün asan deyildir. Onun hərəkəti suyun dərinliyindən və orqanizmini məşq etdirilməsindən asılıdır.

1. Dərsin tətbiq etmə mərhələsində müxtəlif məzmunlu məsələlər müstəqil həll etdirilir. Hündürlüyü 50 sm, uzunluğu 70 sm, eni 30 sm olan akvariumun dibinə və divarlarına düşən təzyiqi hesablayın. Suyu akvariumun yuxarı səthindən 10 sm aşağı olduğunu nəzərə alın.

2. Dənizdə 4 m dərinlikdə insan bədəninə dəniz suyunun göstərdiyi təzyiqlə yer səthində insan bədəninə hava təbəqəsinin göstərdiyi təzyiqi hesablayaraq müqayisə edin.

3. Xəzər dənizinin Lənkəran çökəkliyində (1025 m) suyun dənizin dibinə göstərdiyi təzyiqi hesablamalı.

4. Kür çayının Salyan rayonu ərazisində dərinliyi 7.2. m-dir. Suyu çayın dibinə göstərdiyi təzyiqi hesablamalı.

5. Sərbəst olaraq hesablayın ki, suyun olduğu qabın yan divarlarına göstərdiyi təzyiq eynidir. Aldığımız nəticə ümumiləşdirici fikir söyləyin.

Onu da qeyd edin ki, dərsin tətbiq etmə mərhələsində nəzərdə tutulan səriştəliyi inkişaf etdirmək üçün şagirdlərin maraq dairəsinə uyğun tapşırıqlardan istifadə oluna bilər.

Nəticədə müəllim səriştəliliyin inkişafı səviyyəsini müəyyən etmək üçün qiymətləndirmə meyarlarını hazırlayır, nəzarət ölçü vasitələrini seçir.

Refleksiya dərsin bütün mərhələlərində aparılır. Şagirdlər təlim fəaliyyətini təhlil edirlər, çətinlikləri və həll olunmayan problemləri üzə çıxarırlar. Belə dərslərin sonunda alınan nəticələrə bütün şagirdlər yiyələnmiş olurlar.

Fikrimizi ümumiləşdirməklə qeyd etmək istərdim ki, bu tipli dərslərin təşkili müəllimin məharətindən asılıdır. Aydındır ki, istənilən şagirdin səviyyəsi müəllimindən artıq ola bilməz. Yüksək nəticə almaq üçün müəllimdə yüksək səriştəliyə malik olmalıdır.

Problemin elmi yeniliyi: Fizikanın tədrisi prosesində səriştəliklərin formalaşdırılmasının məqsəd və vəzifələrinin faktları müəyyənləşdirilmişdir.

Problemin praktik əhəmiyyəti: Fizika fənninin tədrisi prosesində səriştəliklərin formalaşdırılma texnologiyalarına dair nümunələrin verilməsidir.

Problemin aktuallığı: Fizika fənninin tədrisi prosesində şagirdlərdə səriştəliklərin inkişaf etdirilməsi və formalaşdırılması qaydalarının müəyyən edilməsidir.

Ədəbiyyat:

1. Ümumi təhsilin fənn standartları (I-XI siniflər). Bakı: Mütərcim, 2012.
2. Гаврилова Е.В., Клеветова Т.В. Формирование ключевых компетенций учащихся при изучении физики в средней школе посредством решения физических задач. Волгоградский Государственный социально-педагогический университет.aterina5525@mail.ru
3. Пашкевич А.В. Компетентностно-ориентированный урок. Волгоград: Изд. Учитель, 2014.
4. Хуторский А.В. Ключевые компетенции и образовательные стандарты //интернет-журнал ЭЙДОС, 2002.
5. Тряпицина А.П. Компетентностный подход в педагогическом образовании. СПБ РГПУ им. А.И. Герцена, 2006.

E-mail: gvalehova@gmail.com
Rəyçi: *ped.ü.fəls.dok.* **Ə.Ə. Gərayev**
Redaksiyaya daxil olub: 17.12.2018

BİOLOGİYANIN TƏDRİSİ METODİKASI

UOT 37.

Qəzənfər Musa oğlu Əliyev
Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı elmi işçisi,
biologiya üzrə fəlsəfə doktoru

“BİRHÜCEYRƏLİ HEYVANLAR” MÖVZULARININ ÖYRƏNİLMƏSİ YOLLARI

Газанфар Муса оглу Алиев
ведущий научный сотрудник
Института Образования Азербайджанской Республики
доктор философии по биологии

ПУТИ ИЗУЧЕНИЯ ТЕМЫ «ОДНОКЛЕТОЧНЫЕ ЖИВОТНЫЕ»

Gazanfar Musa Aliyev
PhD in biology,
leading scientific worker
İnstitute of Education of the Republic of Azerbaijan

WAYS OF STUDYING THE SUBJECT OF "SINGLE-CELL ANIMALS"

Xülasə: Təqdim olunmuş məqalədə “Birhüceyrəli heyvanlar” mövzusuna geniş yer verilmişdir. Onların bioloji xüsusiyyətləri, çoxalması, xeyirli və ziyanlı cəhətləri, yayılmaları ətraflı şərh verilmişdir.
Açar sözlər*: təkhüceyrə, çoxhüceyrə, infuzorlar, sporlular, amöb,volvoks*

Резюме: В данной статье повествуется об изучении темы Одноклеточные животные. Автором широко истолкованы их биологические особенности, размножение, положительные и отрицательные черты, а также их распространение.
Ключевые слова: одноклеточные, многоклеточные, инфузории, амёбы, волфокс, споровой

Summary: From the topic of the article reads the topic of single - cellular animation. The author has a wide range of biological ecosystems, plagiarisms, positive and negative elements, as well as their distribution.
Key words: *single-cell, multi-cellular, infusion, amby, wolfphone, spore*

Bu mövzu birhüceyrəlilərin öyrənilməsinə, onların əhəmiyyətinə, insanın həyatında roluna həsr olunub. Təbiətşünaslıqdan və botanikadan öyrənilən biliklər dərinləşdirilir və konkretləşdirilir. Mövzunun əsas məqsədi birhüceyrəli heyvanlardan sarkomastiqoforlar, sporlular və infuzorlar tipinin ayrı-ayrı sinifləri və nümayəndələri, onların bədən quruluşu, qidalanması, tənəffüsü, ifrazatı, çoxalması və s. bioloji xüsusiyyətləri haqqında məlumat verməkdir. Şagirdlər adi və dizenteriya amöbü, yaşıl evqlena və volvoks, eləcə də infuzor-tərlik haqqında biliklərə yiyələnir, xeyirli və ziyanlı cəhətləri ayırd edirlər.

Adi amöb və dizenteriya amöbü. Adi amöbdən danışarkən müəllim onun sitoplazmadan və nüvədən təşkil olunmasını, sitoplazmanın isə homogen quruluşu, nisbətən şəffaf ektoplaza və dənəli quruluşlu endoplazmadan ibarət olmasını vurğulamalıdır(bəzi ədəbiyyatlarda ektoplazmanı membran da adlandırırlar). Adi amöb xarici mühit amillərinə özünün hərəkəti ilə cavab vermə qabiliyyətinə malikdir. Həzm prosesi faqosit xarakter daşıyır, bu zaman həzm və ifrazat vaku-

du əmələ gəlir, qeyri-cinsiyyətli yolla çoxalır, əlverişsiz mühitə düşdükdə isə sistalaşır.

Dizenteriya amöbündən danışarkən müəllim bildirməlidir ki, bu paraziti ilk dəfə F.A. Yes 1875-ci ildə dizenteriya xəstəliyinə tutulmuş insanda tapmışdı. Bütün dünyada, xüsusilə tropik ölkələrdə geniş yayılıb. İnsan adətən sista mərhələsi ilə yoluxur. Həzm kanalına düşən sistanın qılafı həzm fermentlərinin təsirindən əriyir və ondan 12-25 km böyüklüyündə 4 ədəd (sistası 4 nüvəli olur) kiçik amöb çıxır ki, onlar da kiçik ***vegetativ*** forma adlanır. İnsan bağırsağında dizenteriya amöbünün üç formasına rast gəlinir:

1. İri vegetativ patogen forma - bağırsağın divarındakı toxuma və eritrositlərlə qidalandığından toxuma forması da adlanır.

2. Kiçik vegetativ kommensal forma (sistalaşmadan əvvəlki forma) – bağırsaq boşluğundakı bakteriyalarla qidalanır.

3. Kiçik vegetativ formadan əmələ gələn sista.

Müəllim adi amöblə dizenteriya amöbünün aşağıdakı fərqini də bildirməlidir. Adi amöbün yalançı ayaqları daha uzun, sistasında bir nüvə olur, yaşadığı mühit sirin su hövzəsidir. Dizenteriya amöbündə isə qısa, yalançı ayaqları olur, sistasında 4 nüvəsi var, yaşadığı mühit insanın bağırsağıdır, parazit həyat keçirir və s.

Dərsin ümumiləşdirilməsindən əvvəl keçirilən mövzuya aid bir neçə müsahibə tərzli suallar qoyulur: Nə üçün amöb birhüceyrəli adlanır? Bir hüceyrəlilərin qidalanması necə olur? Amöb harada yaşayır və necə hərəkət edir? Nə üçün əlverişsiz şəraitə düşəndə amöb sistalaşır? İnsanın həyatında dizenteriya amöbünün əhəmiyyəti varmı?

Dərsin sonunda bir neçə cümlə ilə mövzu ümumiləşdirilməli, yekun vurulmalı və evə tapşırıq verilməlidir. Ev tapşırığını verərkən şagirdlərə mövzunun hazırlanmasında hansı metodik vasitələrdən istifadə etməyi başa salmaq lazımdır? Yaxşı olar ki, zooloji obyektin alboma köçürülməsi ev işi kimi tapşırılsın və bu zaman ayrı-ayrı hissələr müxtəlif rəngli karandaşla işlənilsin. Bu, şagirdlərin yaradıcı təfəkkürünün inkişaf etməsinə səbəb olur.

Qamçılılar sinfi. Yaşıl evqlena və valvoks. Şagirdlərə Yaşıl evqlenanın səciyyəvi xüsusiyyətləri, amöbdən fərqli cəhətləri izah olunmalıdır. Qidalanma formasına görə onlar həm bitkilər kimi özü üzvi maddə hazırlayıb istifadə etməklə avtotraf, həm də heyvanlar kimi, yəni hazır üzvi maddələrdən istifadə etməklə - heterotraf qidalanırlar. Belə qidalanma yaşıl evqlenanın düşdüyü yaşayış mühitindən asılı olaraq dəyişə bilir. Bununla da yaşıl evqlenanın bir növ heyvanlarla bitkilər arasında keçid forma təşkil edən canlılar olduğunu şagirdlərə xüsusi vurğulamaq lazımdır.

Volvoksun quruluşu, əmələ gəlməsi, ilk "çoxhüceyrəli" koloniya halında yaşayan qamçılılar haqqında ərtaflı məlumat verilməli, onların çoxalma formaları geniş şərh edilməlidir.

Koloniyada hüceyrələr bir-biri ilə sitoplazmatik atmalar vasitəsi ilə əlaqədar olur və zooid adlanır. Bu zooidlərin xromatoforu, vakuolu, işığa həssas gözcüyü və iki ədəd qamçısı olur. Koloniyada minlərlə zooid periferik hissədə bir qat üzrə yerləşir, şar formadadır, içərisində isə selik olur. Daha çox maraq doğuran volvoksun çoxalmasıdır: həm cinsiyyətli, həm də qeyr-cinsiyyətli yolla çıxarılırlar. Birinci halda generativ zooidlər bir neçə dəfə bölünərək koloniyanı əmələ gətirir. Ana koloniya məhv olur, yeni formalaşmış koloniyalar isə sərbəst yaşayır.

Cinsi çoxalmada isə vegetativ zooidlərin 30-40 ədədi qametlərin əmələ gəlməsində iştirak edir (hamısı iştirak etmir). Bunların 25-30 ədədi makroqametə(dişi qamet), 5-10 ədədi isə mikroqametə (erkək qamet) başlanğıc verir. Makroqametlər bölünür, hərəkətsiz qalır, mikroqametlər isə dəfələrlə bölünür, qamçısız aktiv-hərəkətli qametə çevrilir. Bu mikroqametlər koloniyanı tərk edərək başqa koloniyalara daxil olur. Makroqametlərlə birləşir və ziqotu əmələ gətirir. Ziqot isə bölünərək koloniyanı yaradır.

Müəllim dərsə yekun vurarkən öyrənilən mövzunu qısa ümumiləşdirməlidir. O, şagirdlər qarşısında mənimsəməyə köməklik edən bir neçə yardımçı suallar da qoya bilər. Sualların cavabını növbəti dərsdə soruşmaq məqsədəuyğundur.

Sporlar tipi. Koksidikimilər sinfi. Malyariya paraziti. Sporlular tipinin paratziti nümayəndələrindən biri malyariya paraziti, onun çoxalma formaları və insanda törətdiyi xəstəliklər dərsin əsas baş xəttini təşkil etməlidir. Hər şeydən əvvəl şagirdlərə çatdırılmalıdır ki, malyariya xəstəliyi isti ölkələrdə geniş yayılmışdır və onun törəmə səbəbləri XIX əsrin əvvəlindən

elmə məlum olmamışdır. Malyariya paraziti haqda ilk elmi məlumat 1871-ci ildə rus alimi M.M. Rudnev tərəfindən verilib. Bundan bir qədər sonra (1881-ci il) fransız alimi Zaveran xəstə qadının qanını tədqiq edərkən orada birhüceyrəli orqanizmlər aşkar etmiş və onları “Malyariya plazmodiumu” adlandırmışdır. Yaxşı olar ki, müəllim onu da şagirdlərə çatdırsın ki, Zaveran həmin orqanizmi heyvan orqanizmi kimi yox, birhüceyrəli bitki kimi qəbul etmiş, onlara ilk dəfə heyvan adını isə İ.İ. Meçnikov vermişdir. Meçnikov bu paraziti birhüceyrəli heyvanların sporlular sinfinə daxil olub. Malyariya parazitinin inkişafı aralıq və əsas sahib orqanizmlərdə gedir. İnsana isə anofeles cinsindən olan ağcaqanadlar yoluxdururlar. Ağcaqanadlar əsas, insan isə aralıq sahib hesab olunur. Xəstə ağcaqanad sağlam adamı sancdıqda parazitlər onun qanına daxil olur, intensiv surətdə çoxalır və nəticədə qanda çoxlu miqdarda cavan parazit hüceyrələr əmələ gəlir. Bir müddət qidalandıqdan sonra həmin hüceyrələr 1-2 nüvəli, yaxud daha çox nüvəli şizontlara çevrilirlər. Sonra nüvələrin ətrafında sitoplazma topalanır, ayrılır və me-rozitlərə çevrilirlər. Merozitlər eritrositlərə daxil olur və qeyri-cinsi yolla çoxalır, nəticədə eritositlər dağılır, plazmaya çoxlu cavan parazit hüceyrələri tökülür. Malyariya parazitinin belə inkişaf ***tsikli şizoqoniya*** adlanır.

Müəllim parazitin bədəninə, oradan tüpürcək vəzinə necə düşməsini də izah etsə, xəstəliyin inkişaf təşkili daha asan başa düşülər. Şagirdlərə çatdırılmalıdır ki, merozitlər makroqametosit və mikroqametositlərə çevrilirlər. Ağcaqanad parazitlə yoluxmuş adamın qanını sorarkən makro və mikroqametosidlər ağcaqanadın mədəsinə düşərək orada makro və mikroqametlərə çevrilirlər. Həmin qametlər birləşərək hərəkətli ovakineta adlanan ziqotanı əmələ gətirirlər. Ovokineta ağcaqanadın bağırsağının divarını deşib bədən boşluğuna düşür, şişlər formasında olurlar. Şişlərin içərisində bölünüb çoxalır, küllü miqdarda sporozitlər əvvəlcə bədən boşluğuna, sonra isə tüpürcək vəzinə düşürlər, insanı sancdıqda isə tüpürcəklə birlikdə sağlam insanın qanına düşür. Beləliklə, insan malyariya paraziti ilə yoluxur. Müəllim şagirdlərə malyariya parazitinə qarşı aparılan profilaktik tədbirlər haqqında da qısa məlumat versə daha yaxşı olar.

Dərsin sonunda ümumiləşdirici yekun vurulmalı, malyariya parazitinə və sporlular tipinə aid olan və şagird təxəyyülünü inkişaf etdirən bir neçə sual qoyulsa, dərsin qavranılması da bir o qədər asan olar.

İnfuzorlar tipi. Kirpikli infuzorlar sinfi – infuzor tərlik. Hər şeydən öncə, müəllim infuzorları özlərindən əvvəlki ibtidailərdən fərqləndirən üç mühüm əlaməti ilə xarakterizə etməlidir. Bunlara bədənlərinin sabit formaya və kirpiklərlə örtülü olmalarını, müxtəlif funksiya daşıyan nüvəyə (nüvə dimorfizmi) malik olmalarını və nəhayət, Konyuqativ çoxalma formalarının ilk dəfə bunlarda rast gəlməsini şagirdlərə çatdırmalıdır. İnfuzor-tərliyin birhüceyrəli olmasına baxmayaraq, onlarda ağızın (novşəkilli yarıq), udlağın (yarığın qurtaracağı) və ulduzşəkilli ifrazat qovuqcuğunun olmasını müəllim xüsusi vurğulamalıdır. Bildirməlidir ki, tərliyin ağzı onun novça hissəsinin içəri çökməsi - yayılması hesabına, udlağı isə sitoplazmanın bükülməsi nəticəsində əmələ gəlir. Bununla da müəllim heyvanlarda inkişafın sadədən mürəkkəbə, ibtidaidən aliyə doğru mürəkkəbləşməsini, başqa sözlə, təkamülün getməsini göstərmiş olur.

Müəllim infuzorların qidalanmasını, hərəkətini, tənəffüsünü və s. bioloji prosesləri izah etmək üçün tərlik kulturası hazırlamalı və onları şagirdlərə nümayiş etdirməlidir. Tərlik şirin və duzlu sularda, torpaqda, hətta heyvanların bədənində yaşayır. Onlar həm sərbəst, həm də parazit həyat keçirirlər. Tərlik kulturası hazırlamaq üçün nohurlardan bir qədər su götürüb, şüşə kolbaya töküb, üzərinə quru ot, yarpaq, bir neçə düyü, yaxud da buğda atılmalıdır. Onu otaq temperaturunda (19-21º C) 20-25 gün saxladıqdan sonra üzərində nazik pərdə əmələ gəldiyini görünür. Bu, bakteriya pərdəsidir ki, tərlik də onunla qidalanıb çoxalır. Pərdəni aralayıb, çirkli sudan bir damla götürüb əşya şüşəsi üzərinə töküb mikroskop altında şagirdlərə göstərmək lazımdır. Tərliklə zəngin olan belə qidalı mühitdən, tərliyi seçib rəngləyib, üzərinə balzam əlavə edib örtücü şüşə ilə örtməklə daimi preparatlar da hazırlamaq olar. Mövzunun yaxşı yadda qalması üçün şagirdlər mikroskopla tərliyə baxdığı vaxt müəllim tablo üzərində izahat verməlidir. Tədris vaxtının çatışmamasını nəzərə alaraq tərlik üzərində aparılacaq təcrübələri (məs: qıcıqlanmaya cavab reaksiyası) sinifdənkənar və

yaxud da biologiyaya aid dərnək məşğələlərində daha geniş surətdə aparmaq olar. Dərsin sonuna yaxın öyrənilən mövzuya aid bir neçə sual qoymaq olar. Məs; infuzor-tərliyin əvvəlki öyrənildiyi ibtidailərlə nə kimi oxşar və fərqli cəhətləri var? Konyuqasiya nədir? Tərlik harada və necə yaşayır?

Problemin aktuallığı. İndiki şəraitdə Yer kürəsində olan birhüceyrəli ibtidai heyvanların bioloji və bir sıra başqa xüsusiyyətlər onların xeyirli və zərərli cəhətlərinin müəyyən edilməsi ən vacib məsələlərdən biridir. Odur ki, orta ümumtəhsil məktəb şagirdlərinin zoologiya elmi sahəsində aparılan tədqiqat işləri ilə tanış olması məqsədəuyğundur.

Problemin elmi yeniliyi. Biologiyanın tədrisi metodikasının aktual problemlərindən biri olan Zoologiya fənninin fəal təlim metodları ilə öyrənilməsi məsələsi araşdırılır, səmərəli yolları, metodları müəyyən edilir.

Problemin praktik əhəmiyyəti. Məqalədə şagirdlərə zoologiya fənninin öyrənilməsinin səmərəli üsul və yollarına dair kömək edəcək metodik tövsiyələr verilmişdir.

Ədəbiyyat:

1. Axundov M.A., İsmayılov. A.S. Təkamül təlimi. Bakı, 1989.
2. Nəcəfov. C.Ə. Zoologiyanın tədrisi metodikası. Bakı, 2002.
3. Babayev M.Ş. Ümumi biologiya. Bakı, 2004.

E-mail: qazanfaraliyev@mail.ru
Rəyçilər: *ped.ü.fəls.dok.dos*.**T.S. Paşayev,**
ped.ü.fəls.dok.**İ.B. Əmirəliyeva**
Redaksiyaya daxil olub: 30.11.2018.

UOT 37.01.

Gülşən Nadir qızı Hacıyeva
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti

BİOLOGİYA MÜƏLLİMİ HAZIRLIĞINDA ALİ PEDAQOJİ MƏKTƏBLƏRDƏ BİOLOGİYANIN TƏDRİSİ METODİKASI FƏNNİNİN ROLU

Гюльшан Надир гызы Гаджиева
доктор философии по педагогике, доцент
Азербайджанского Государственного Педагогического Университета

РОЛЬ МЕТОДИКИ ПРЕПОДАВАНИЯ ПРЕДМЕТА БИОЛОГИИ ПРИ ПОДГОТОВКЕ УЧИТЕЛЕЙ БИОЛОГИИ В ВЫСШИХ ПЕДАГОГИЧЕСКИХ ШКОЛАХ

Gulshan Nadir Hajiyeva
doctor of philosophy in pedagogy
associate professor of
Azerbaijan State Pedagogical University

THE ROLE OF THE METHODOLOGY OF TEACHINQ BIOLOGY IN HIQHER PEDAQOQICAL SCHOOLS IN THE PREPARATION OF SECONDAR SCHOOL BIOLOQY TEACHER

Xülasə: Biologiyanın tədrisi metodikası haqda danışılarkən yalnız yeni məqsədlərin tərtib olunması ilə kifayətlənmək olmaz, şəxsiyyətin hərtərəfli inkişafı üçün psixoloji – metodiki yanaşma təhsil sistemində əsas mərhələlərdən biridir. Seçilmiş metodoloji istiqamətlərə biologiyanın tədrisinin nəzəriyyə və metodikasında xüsusi təhsil sahəsi kimi baxılır.

***Açar sözlər**: bilik, bacarıq, ixtisaslı kadr, proqram, dərslik, şagird tərbiyəsi, müəllim peşəsi, pedaqoji fəaliyyət, tərbiyə formaları*

Резюме: В методике обучения биологии нельзя ограничиваться только новыми целями. Важным уровнем для всестороннего развития личности в системе образования является психолого-методический подход. Разработанные методологические направления считаются основными в теории и методике обучения биологии.

***Ключевые слова**: знание, умение, профессиональный кадр, программа, учебник, воспитание ученика, профессия учителя, педагогическая деятельность, формы воспитания*

Summary: In the methodology of teaching biology, one cannot be limited only to new goals. An important level for the comprehensive development of the individual in the educational system is a psychological-methodical approach. The developed methodological directions are considered basic in the theory and methodology of teaching biology.

***Keywords**: knowledge, skill, professional staff, program, textbook, student upbringing, teacher's profession, pedagogical activity, upbringing forms*

Biologiyanın tədrisi metodikası haqda danışılarkən yalnız yeni məqsədlərin tərtib olunması ilə kifayətlənmək olmaz, şəxsiyyətin hərtərəfli inkişafı üçün psixoloji-metodik yanaşma təhsil sistemində əsas mərhələlərdən biridir. Seçilmiş metodoloji istiqamətlərə biologiyanın tədrisinin nəzəriyyə və metodikasında xüsusi təhsil sahəsi kimi baxılır.

Biologiyanın tədrisi metodikasında başlıca vəzifə:

- problem baxımından elmi-pedaqoji, metodik ədəbiyyatı təhlil etmək;

- biologiyanın tədrisinə aid proqram və dərslikləri problem baxımından təhlil etmək;

- ali məktəblərdə biologiyanın tədrisi metodikası fənninin öyrədilməsi nəzəriyyəsinin və praktikasının təşəkkülü və inkişafı istiqamətlərini araşdırmaq;

- dünyanın bir sıra qabaqcıl ölkələrində ali məktəblərdə biologiyanın tədrisi ilə əlaqədar tələbə işinin aparılmasına dair real təcrübəni öyrətmək, təhlil etmək, təkliflər vermək;

- problem baxımından nəzəri, pedaqoji, metodik ədəbiyyatı təhlil etmək;

- müasir pedaqoji texnologiyaların əsas daşıyıcısı olan aktiv və interaktiv təlim metodlarından istifadə sahəsində qabaqcıl iş təcrübəsini öyrənib, tətbiq etmək;

- sərbəst fəaliyyət göstərməyi bacaran və iş qabiliyyəti ilə seçilən yüksək ixtisaslı kadrların hazırlanmasının praktiki yollarını müəyyən etmək;

- ali pedaqoji məktəblərdə biologiyanın tədrisi metodikası fənninin öyrədilməsinin müasir və təkmilləşdirilmiş metodikasını işləyib hazırlamaq;

- biologiyanın tədrisi metodikası fənninin qarşıya çıxan problemlərinin həlli yollarını müəyyən etmək.

Eyni zamanda, biologiyanın tədrisi metodikasının vəzifələrinə bir elm kimi aşağıdakılar da aiddir:

1) biologiya fənninin ümumi təlim sistemində və şagirdlərin tərbiyəsində rolunun müəyyənləşdirilməsi;

2) proqram və dərsliklərin məktəb praktikasında yoxlanılması;

3) tədrisin şagirdin yaş xüsusiyyətinə uyğun aparılması;

4) canlı təbiət haqda biliklərə, onun ümumi metodlarının tədrisinə, bacarıqlara malik olmaq;

5) bu biliklər əsasında dünya xəritəsinin formalaşdırmaq;

6) insanın fiziki və mənəvi sağlamlığını qoruyan, gigiyenik tərbiyə və sağlam həyat tərzini formalaşdırmaq;

7) funksional quruluş və həyatın genetik əsasları ilə əlaqədar biliklər sisteminə malik olmaq. Eyni zamanda, canlı təbiətin, orqanizmlərin çoxalması, inkişafı, ekosistemlər, biomüxtəliflik haqda da biliklər sisteminə yiyələnmək;

8) canlı təbiətlə bağlı biliklər əsasında dünyanın elmi xəritəsinin formalaşdırılası;

9) təbiətlə harmonik münasibətlərin formalaşdırılması; ekoloji etikanın norma və qaydaların formalaşması, məktəblilərin ekoloji tərbiyəsi;

10) genetik savadın formalaşması; sağlam həyat tərzinin əsasları, insanın psixi, fiziki və mənəvi sağlamlığının qorunması;

11) şagird şəxsiyyətinin inkişaf etdirilməsi, bioloji biliklərin praktikada istifadə olunması, kənd təsərrüfatında, təbiətin qorunmasında, praktik fəaliyyətdə iştirak etmək;

12) real həyatın dərk olunmasında yaradıcı yanaşma və istiqamətləndirmə ilə yanaşı tədris qanunlarının tərkibini öyrənmək.

Biologiyanın tədrisi metodikası bir tədris fənni kimi orta məktəbdə biologiya müəllimi hazırlanması üçün birinci dərəcəli əhəmiyyət kəsb edir.

Bu prosesdə tələbələrin professional bilik və bacarıqları formalaşır. Onlar dərs demək bacarığına malik olurlar.

Təhsilin vəzifəsi müəllimlərin müasir tələblərə cavab verən çevik təfəkkürlü, dövlətin irəli sürdüyü təhsil siyasəti baxımından həm nəzəri, həm də praktik cəhətdən yüksək səviyyəli kadrlar kimi hazırlanmasını təmin etməkdən ibarətdir.

Müəllimlik peşəsi insan fəaliyyətinin çox mürəkkəb növünə aid olub, onun predmetini şagirdlərin təlimi, təhsili, tərbiyəsi, inkişafı və formalaşması təşkil edir. Müəllimin xüsusi peşə və ictimai funksiyaları onun şəxsiyyətinə, əxlaqi simasına yüksək tələblər verir. Müəllimə verilən tələblər pedaqoji fəaliyyətin müvəffəqiyyətini müəyyən edən peşə keyfiyyətlərinin mütləq sistemi kimi dərk edilir. Müəllimin pedaqoji ustalığı öyrənmək bacarığını şagirdlərə öyrətməkdə özünü göstərir.

Biologiya fənnini tədris etməyə hazırlaşan tələbənin nümunəvi müəllim olması üçün aşağıdakıları bacarmalıdır:

- pedaqoji biliklərin bəşər cəmiyyətinin inkişafı ilə bağlı olduğunu müəyyən edir;

- pedaqoji nəzəriyyənin insanın elmi fəaliyyətinin yekunu və nəticəsi olduğunu müəyyən edir;

- tərbiyənin mənşəyi, milli və ümumbəşəri mahiyyəti, xarakterik xüsusiyyətləri, qanunauy-

ğunluqları, prinsipləri, onların gənc nəslin həyata hazırlığı prosesindəki rolunu izah edir;

- təlim-tərbiyə prosesinin təşkili, həyata keçirilməsində səmərəli metod və vasitələr seçir;

- təhsilin mahiyyəti, prinsip və metodlarının elmi əhəmiyyətini və ondan istifadə prinsiplərini dərk edir;

- müəllimə verilən tələbləri və onun funksiyalarını şərh edir;

- pedaqoji ustalığın pedaqoji fəaliyyətin səmərəliliyinə təsirini müəyyən edir;

- təhsil-tərbiyə nəzəriyyəsi və təcrübəsini formalaşdıran milli və ümumbəşəri dəyərlərin təhlilinin nəticələrindən öz pedaqoji ustalığını artırmaq üçün istifadə edir;

- insanın inkişafı və bir şəxsiyyət kimi formalaşmasında üç amilin (irsiyyət, milli və təhsil-tərbiyə) qarşılıqlı təsirini araşdırmaqla şərh edir;

- əqli, əxlaqi, estetik, fiziki, ekoloji, iqtisadi, əmək və hüquq tərbiyəsinin insan həyatındakı rolunu izah edir, tərbiyənin şəxsiyyətin formalaşmasına təsiri imkanlarını üzə çıxarır, təşkilinin yol və vasitələri haqqında ətraflı biliklərə yiyələnməklə onlardan tərbiyə prosesində səmərəli istifadə etməyi bacarır;

- şagirdin fiziki və əqli inkişafının yaş dövrlərini, hər bir yaş dövrünün xüsusiyyətlərini müəyyən edir;

- pedaqoji prosesin qanunauyğunluqları, mərhələləri, texnoloji əsasları, optimallaşdırılması, pedaqoji aksiologiyanın əsasları və pedaqoji innovasiyalarla bağlı nəzəri fikirləri təhlil edir, təcrübə ilə əlaqələndirir;

- pedaqoji sistemləri idarəetmənin mahiyyəti, prinsipləri və funksiyalarını bilir, kollegiallıqla vahid rəhbərliyin əlaqələndirilməsini bacarır.

Demokratik cəmiyyətin sosial-iqtisadi inkişaf səviyyəsinə uyğun olaraq dövlətin irəli sürdüyü təhsil siyasəti, onun idarə olunması fundamental şəkildə dəyişməkdədir. Bu baxımdan gələcək müəllimlər təhsil sistemlərinin inkişaf modelləri, təlim prosesinin idraki və psixoloji əsasları, qanunauyğunluqları, prinsip və qaydaları, metodları, vasitələri və təşkili formaları, yeni texnologiyaları, öyrənmə motivasiyası, şagirdlərin diaqnostikası, qiymətləndirmənin istiqamətləri (məktəbdaxili, mili və beynəlxalq) və yeni formaları (diaqnostik, formativ və summativ), inteqrasiyanın istiqamətləri (üfüqi və şaquli) haqqında məlumatları mənimsəməklə, müəllimlik peşəsi üçün zəruri olan bilik və bacarıqlara yiyələnmiş olur. Nəticədə onlarda öyrədici, əlaqələndirici, istiqamətverici fəaliyyəti stimullaşdıran qabiliyyət formalaşır.

Problemin aktuallığı. Biologiyanın tədrisi metodikası fənni orta məktəbdə bu fənlərin öyrədilməsi üsul və yolları ilə tələbələri tanış edir. Burada əvvəlcə bu fənnin predmeti və nəzəri əsasları şərh olunur, sonra isə onun keçdiyi yola nəzər salınır. Təbiidir ki, müxtəlif dövrlərdə biologiyanın öyrənilməsi vəziyyətinə və bu haqda tarixi təcrübəyə dərindən bələd olmadan, onun tədrisi işində istənilən uğuru qazanmaq çətindir.

Problemin elmi yeniliyi. Tədqiqatda ilk dəfə olaraq biologiyanın tədrisi metodikası fənnində müəllim - tələbə münasibətlərinin, auditoriyadankənar tədbirlərin, mühazirə və laborator məşğələlərin səmərəli qurulması üzrə işin nəzəri və praktik məsələləri bir sistem şəklində işlənmiş, problem baxımından təlim prosesinin səmərəli yolları müəyyənləşdirilmişdir.

Problemin tətbiqi əhəmiyyəti. Öz əksini tapmış iş sistemi, başlıca ideyalar, tədqiqatın nəticələri biologiya müəllimi ixtisası üzrə kadr hazırlığı işində, pedaqoji ustalığın artırılmasında tələbələrə köməklik göstərəcəkdir.

Ədəbiyyat:

1. Kazımov N.M.Məktəbdə müqayisə üzrə işin nəzəriyyəsi və təcrübəsi. Bakı, 1972.

2. Mehdizadə M.M. Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yollan. Bakı, 1982.

3. Mahmudov M.C. Bolonya prosesi və Azərbaycan. Bakı, 2008.

E-mail: qyulshan.qadzhiyeva@mail.ru

Rəyçi: *biol.ü.fəls.dok*. **E.F. Səfərova**

Redaksiyaya daxil olub: 07. 12. 2018

TARİXİN TƏDRİSİ METODİKASI

UOT 37.

Şöhrət Məhəmməd qızı Namazova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Cəlilabad filialının baş müəllimi

AZƏRBAYCANDA MİLLİ İDEYANIN İNKİŞAFINDA İLKİN MƏRHƏLƏ (1828-1875-ci illər)

Шохрат Магомед гызы Намазова
старший преподаватель Джалилабадского филиала
Азербайджанского Государственного Педагогического Университета

НАЧАЛЬНЫЙ ЭТАП РАЗВИТИЯ НАЦИОНАЛЬНОЙ ИДЕИ В АЗЕРБАЙДЖАНЕ (1828-1875 годы)

Namazova Shohret Mahammad
senior teacher of the Jalilabad Branch of Azerbaijan State Pedagogical University

THE FIRST STAGES OF THE NATIONAL IDEAS IN AZERBAYJAN

Xülasə: Məqalədə 1828-1875-ci illər arasındakı dövrün tarixi şəraiti, parçalanma faciəsinin yaratdığı həmrəylik təşəbbüsləri, ədəbi məclislərin formalaşdığı fikir inkişafı öz əksini tapmışdır. Dövrün qabaqcıl ziyalılarının milli oyanışın ilk cücərtilərinin yaranmasında əhəmiyyətli rolu göstərilmişdir.
Açar sözlər: *milli ideya, ideologiya, azərbaycançılıq, milli şüurun inkişafı, vətən*

Резюме: В статье отражены исторические условия периода с 1828 по 1875 год, инициативы солидарности, созданные трагедией дезинтеграции и развития идей, созданных литературными советами. Ведущие интеллектуалы того времени сыграли важную роль в создании первых саженцев национального пробуждения.
Ключевые слова: *развитие национального сознания, азербайджанство, идеология, идея, родина*

Summary: The period between the years, 1828-1875 in the conditions created by the decomposition of solidarity with the solidarity initative reflected in the development of the idea of literary formation. An important role in the formation of a national revival of progressive intellectuals of the period was showen.
Key words: *the national idea, the first step in the development of the national idea, and the of solidarity, homeland*

Rusiya-İran müharibəsindən sonra Azərbaycanın şimal hissəsinin ərazisi Rusiya imperiyasının tərkibində qaldı. Bundan sonra, burada işğalla əlaqədar olaraq, azərbaycanlıların tədricən həmrəy olması prosesi başladı. Bu proses ziddiyyətlərlə, ağrılarla və məhrumiyyətlərlə dolu olan təzadlı bir proses idi. Uzun çəkən məşəqqətli bir tarixi dövrdən sonra yadelli əsarətində olmaq xalqı çox didərgin edirdi. Lakin bu dövr həm də xalqımızın milli mənliyinin cücərtilərinin yaranmağa başladığı bir dövr kimi də xarakterikdir. Artıq bu xalq öz mənin ayrıcalıq təşkil etdiyini görür və özünü tanımağa çalışırdı. Milli hisslərin oyanması isə milli şüurun yaranmasında mühüm arqumentdir. Tarixin bütün dövrlərində hər bir xalq özünə aid olan milli, mənəvi, əxlaqi, dini dəyərləri qoruyub saxlayaraq, gələcək nəsillərə ötürmüşdür. Etik-milli identikliyin qorunub saxlanması hər bir xalqın qarşıya qoyduğu ali ideal olmuşdur. Özünəməxsusluğun qorunmasında isə milli ideya müstəsna rola və əhəmiyyətə malikdir. Azərbaycan tarixi-

coğrafi məkanında isə ta qədim zamanlardan bu müqəddəs dəyərlər yaranmaqla bərabər nəsillərə də ötürülmüşdür. Xalqın istəyi, nəyə qadir olması, hansı inkişaf yolunu seçməsi, dövrün ziddiyyətlərinə necə hazır olması onun qarşıya qoyduğu milli ideyada əks olunur. Ali məram və məqsədlər xalqın taleyində milli ideya statusu alır.

Azərbaycan xalqının milli məfkurəsi və milli şüuru bir neçə mərhələdən keçərək formalaşmaqda olmuşdur. Bu mərhələlər formal və sxematik xarakter daşımır. Xalqın əsrlərlə çatmaq istədiyi məqsədlər zaman ötdükcə reallıq xarakteri alaraq milli ideyaya çevrilməkdə idi. Xalq öz tarixi coğrafiyasında yaşamaq və azad olmaqla bərabər, öz dövlətinin də əsil sahibi olmağı arzu edirdi. Demək olar ki, bu mərhələlər dünya humanitar elminin prinsipləri əsasında səciyyələnmişdir. Milli ideyanın təsnifatı elə bir konseptual nəticədir ki, özündə milli ideyanın təşəkkülü, formalaşması və inkişafı ilə bağlı olan bütün təmayülləri birləşdirir. Milli ideya millətin öz strateji inkişaf proqramıdır. Milli ideya cəmiyyətin inkişafının ümumi məqsədi və strateji əsasıdır. Milli ideologiya isə onu praktik cəhətdən gerçəkləşdirən prosesdir. Milli ideya böyük gücə malikdir, xalqımızın modernləşməsinə xidmət edir. Ümumiyyətlə, elmi-nəzəri, fəlsəfi və konseptual tədqiqatların nəticələri olaraq aydın olur ki, milli ideyanın dövlətçiliyimizin inkişafında əhəmiyyəti çox böyükdür. Onun vasitəsilə vətəndaş özünü dövlətin bir hissəsi hesab edir, milli varlığında dəyişikliklər üçün qüvvə görür, güclü dövlətin və hakimiyyətin varlığına ehtiyac duyur.

Milli ideya vasitəsilə milli dövlət anlayışı dərk olunan həqiqətə çevrilir. Bunun üçün isə çox böyük tarixi proses lazımdır. Bu tarixi prosesdə isə maarifçilik dərsləri, xalqın milli mənlik şüurunun artması, milli əxlaq, milli vicdan və milli-mənəvi dəyərlərin inkişafı çox əhəmiyyətlidir. Bu baxımdan milli ideya təsnifatının ilkin mərhələsi milli ideyanın inkişafı tarixində xüsusi yer tutur. Milli ideya təsnifatının ilk mərhələsi 1825-1875-ci illəri əhatə edir. Türkmənçay müqaviləsindən sonra başlayan bu mərhələ o zamankı cəmiyyətdə bir çox ictimai-siyasi proseslərin nəticəsi olan milli oyanışın ilk cücərtilərini reallaşdırdı. XIX əsrin əvvəllərində Azərbaycanın həm daxili, həm də beynəlxalq vəziyyəti çox mürəkkəb idi. Ölkə xırda feodal xanlıqlara parçalanmışdı. Daim ara müharibələri iqtisadi tənəzzülə, ziddiyyətlərin çoxalmasına və ölkənin viran edilməsinə gətirib çıxarırdı. Xalq bir-birinə zidd olan, iddia edən və xalqın mənafeyini düşünməyən xanlara ümidini itirirdi. Daha faciəli olan isə qonşu dövlətlərin yaranmış vəziyyətdən öz işğalçı məqsədləri üçün istifadə etməsi oldu. Rusiya və İran kimi böyük dövlətlərin hücum təhlükəsi qarşısında dağılmış, parçalanmış və köməksiz olan Azərbaycan öz tarixinin ən ağır günlərini yaşayırdı. Cənubi Qafqaz işğalçılar üçün əlavə gəlir mənbəyi kimi, siyasi və hərbi-strateji mövqe kimi çox əhəmiyyətli idi. Rusiya xüsusilə bu işğaldan daha çox şey umurdu. İngiltərənin şərqdəki nüfuzunu sarsıtmaq, Ost-Hind kampaniyasının inhisarına ağır zərbə endirmək üçün Cənubi Qafqazdakı mürəkkəb vəziyyətdən Rusiya hər vəchlə istifadə etməyə çalışırdı.

I Aleksandrın Rusiyada hakimiyyətə gəlişi ilə (1801-1825) regionda siyasi proseslər canlandı. 1801-ci il sentyabrın 12-də Kartli-Kaxetiya çarlığı çar manifesti ilə Rusiyaya birləşdirildi. Tiflis quberniyası yaradıldı. Azərbaycanın əzəli və tarixi torpaqları olan Qazax, Borçalı, Şəmsəddin sultanlıqları bu quberniyaya daxil edildi. Azərbaycan torpaqlarının Rusiya tərəfindən işğalı reallaşmağa başladı. Məhz bu hadisə ilə Rusiya Azərbaycanın işğalının başlanğıcını qoydu. Xalqımızın tarixində ən ağır zamanlar gəldi. Bu dövrdə xalq nə etməli idi? Ümidini yaşatmaq üçün hara və kimə üz tutmalı idi?

Hakimiyyət uğrunda bir-birinə düşmən kəsilən xanlardan, onları qoruya biləcək bir dövlətdən, ortaya çıxacaq bir şəxsiyyətdən belə ümidini kəsən Azərbaycan xalqı aciz qalmışdı. Artıq real olan o idi ki, xalqını və vahid dövlətçiliyini, birliyini düşünə bilməyən bu xanlar, feodal hakimlər də çıxış yolunu ya İran, ya da Rusiya himayəsinə sığınmaqda görürdülər. Həm də onlar xanlıqların istiqlaliyyətini qoruyacaqları şərtinə özlərini inandıraraq işğal faktına aktiv şərait yaradırdılar. Bütün bunların gözlənilən sonluğu isə tariximizin ən ağrılı və ürəkdağlayan səhifələrinin qanlı yazılarına səbəb oldu. Bir xalqın ən ağır və əlacsız dövrü başladı. Xalqı birləşdirəcək nə güclü siyasi şəxsiyyət yox idi, nə milli şüura malik xalq hərəkatı yox idi, nə də

gələcək haqqında məqsəd yox idi. Bu isə gələcək faciələrin əsil şərtləri idi.

1804-1813-cü illərin və 1826-1828-ci illərin Rusiya-İran müharibələri nəticəsində Rusiya cənubi Qafqazda real qələbələr əldə etdi. 1828-ci il 10 fevralda Təbriz yaxınlığındakı Türkmənçay kəndində bağlanan sülh müqaviləsi ilə Azərbaycan İran və Rusiya arasında bölündü. İran Şimali Azərbaycana olan iddialarından əl çəkdi, onun üzərində Rusiya hakimiyyətini tanıdı. Cənubi Azərbaycan isə İran himayəsində qaldı. Bu, tarixi haqsızlıq idi. Bu hadisə tarixi ərazilərimizin parçalanması demək idi. Bir xalqın ikiyə bölünmə faciəsi idi. Xalq ürək ağrısı ilə bu faciəni yaşadı və illər uzunu qəlbində yer elədi. Bu faciəni yaşamaq, ancaq qəbul edə bilməmək dərdi böyük idi. Bu dərd və bu milli faciə xalqın içinə bir milli titrəyiş, bir milli hüzn, milli oyanış toxumları səpdi. Öz torpağında yaşamaq və onun sahibi olmaq istəyi, öz dəyərlərini qorumaq və ona əməl etmək istəyi, öz gələcəyini özü təyin etmək istəyi bu xalqın qəlbində cücərməyə başlayırdı. Məhz bu dövrdən də milli ideya təsnifatının ilkin mərhələsi başlayır. Xalq birlikdə yaşadığı, birlikdə çəkdiyi işğal yükünü daşıdıqca, tədricən onların arasında həmrəy olma prosesi başlayırdı. Bu xalq artıq görürdü ki, onu həqarətlə çağırırlar, onun milli kimliyinə lağ edirlər, onu mədəniyyətsiz sayırlar və dini inanclarını da əzirlər.

Birinci mərhələnin özünütəsdiqi həmrəylik təşəbbüsünə borcludur. Bu təşəbbüslər isə birdən-birə yaranmadı, ilk növbədə, ədəbi məclislərdə reallaşdı. Xalq başına gələn müsibətləri, yadelli işğalçıları qəbul edə bilmirdi. Bir tərəfdən müstəmləkəçilik, bir tərəfdən feodal istismarı və zülmü xalqın səbrini kəsirdi. Xalq hərəkatlarında rəhbər rol oynayan bəylər öz mənafelərini daha üstün tuturdular. Kəndlilər isə bütün zülm və haqsızlığın ən obyektiv orientiri idilər. Bu üzdən kəskin nifrət hissi onları mübarizəyə təhrik edirdi. Bütün bu etirazları ifadə edən insanlar amansızlığa, müstəmləkəçiliyə, haqsızlığa qarşı azərbaycanlıların ilk siyasi şüur iştirakçıları idi. Hansı ki, hələ bu iştirakçılar milli düşüncə istiqamətinə yönəlməyən və kortəbii partlayışlar fövqündə görünməyəcək dərəcədə idi.

Müstəmləkəçilər isə işğaldan sonra - 1830-1838-ci illər arasında kütləvi soyğunçuluqları və özbaşınalıqları sistemli bir həddə çatdırmışdılar. Xalqın bu illərdəki etirazları zülmə qarşı silahlı çıxışlar şəklində baş verirdi. Həm də pərakəndə şəkildə və qeyri-mütəşəkkil formada olan bu üsyanlar xalqın etirazetmə, qarşıçıxma, azadlıq əldə-etmə imkanlarını reallaşdırma cəhdləri idi. Tarixi dövr və şərait bu hərəkatların məğlubiyyətini onsuz da şərtləndirmişdi. Xalqın üz tuta biləcəyi vahid mərkəz yox idi, silahlı gücləri zəif idi, ümumi amal uğrunda mübarizə istiqamətləri yox idi, işğal faktı ilə barışmaqdan başqa çarə yox idi. Əslində, bu üsyankarlıqda bir cəhd vardı. Bu cəhd Azərbaycan adlanan bu coğrafi məkanda yadelli işğala qarşı ümumi düşmənə qarşı mübarizə cəhdi idi. Lakin bu cəhdlər məqsəd və strategiyaya keçə bilmədi. Bu cəhdlərin ortaya qoyduğu reallıq göstərir ki, milli ideyası, milli həmrəyliyi olmayan xalq nə qalibiyyətdən, nə də mövcudluqdan danışa bilməz. Milli birlik və həmrəylik isə milli ideyasız mümkün ola bilməz Elə ona görə də çarizmə qarşı xalq çıxışları zamanın və cəmiyyətin inkişaf xüsusiyyətlərinə uyğun olaraq məğlubiyyətlə qurtardı. Şimali Azərbaycan rus işğalından sonra uzun bir dövrü əhatə edən müstəmləkə əsarətini daşımalı oldu. Zamanın axınına qoşulub cəmiyyətdə yerləşmək və xalqın taleyini düşünmək üçün savadlanmaq lazım idi. Onsuz da çar hökuməti öz siyasi və iqtisadi mövqeyini möhkəmləndirmək üçün məmurlar ordusu hazırlamalı idi. Çarizmin hazırladığı və bu məqsədə xidmət edən xalq təhsil sistemi bütün mənfi xüsusiyyətlərinə baxmayaraq Azərbaycan əhalisinin, yəni mütərəqqi yolla təhsil alması üçün zəmin hazırladı.

Dövr elə idi ki, islam dini böyük nüfuza və hakim təsirə malik idi. Elmdə sxolastika hökm sürürdü. Dövrün savadlı insanları, şairləri mədrəsə təhsili görmüşdülər. XIX əsr boyunca Azərbaycanda şifahi xalq yaradıcılığı, aşıq poeziyası və yazılı ədəbiyyatda dövrün çətinlikləri, insanların saf, təmiz duyğuları, haqsızlıqdan şikayətləri, həsrət və ayrılıq hissləri, ümidsizlikdən doğan bədbinlikləri əsas motivlər kimi aydın hiss olunurdu. Toylarda, xalq şənliklərində, məclislərdə dastanlar söyləyən aşıqlar məhəbbətin ülviliyini, igidlərin cəsarətini, xalqın arzularını, ilahi duyğuları elə həyəcanla və ürəklə təqdim edirdilər ki, xalqa bir daxili titrəyiş, çırpıntı yaranırdı. Bu xalq mənbələrində zəmanədən şikayətlər edilir və fəryadlar eşidilirdi. Çətin

gündə xalqa havadar olacaq igidlər təbliğ edilirdi. Xalq həqiqətin haqsızlığa qələbə çalacağına inanmaq istəyirdi. O zaman fəaliyyət edən müsəlman məktəblərinin çətinlikləri çox idi. Bu məktəblər əhalinin vəsaiti hesabına saxlanırdı. Yalnız rus dili müəllimlərinə ildə dövrlər xəzinəsindən 200 man. verilirdi. İxtisaslı müəllimlər, dərs vəsaitləri çatışmırdı. Lakin şagirdlərin bu məktəblərə axını güclü idi. Hətta çar məmurları da yerli əhali arasında təhsilə güclü meylin olduğunu etiraf edirdilər. Bu məktəblər ümumi ibtidai təhsil verirdi. Belə ilk müsəlman məktəbləri 1849-cu ildə Gəncədə, Şuşada, Şamaxıda və Bakıda yaranmışdı. Sonra belə məktəblər digər şəhərlərdə də açıldı. Bütün nöqsanlarına baxmayaraq Azərbaycanın xalq maarifi tarixində xalqın təhsilinin artmasında bu məktəblər müsbət rol oynadılar.

XIX əsrdə Rusiya tərkibində olan Şimali Azərbaycana mütərəqqi rus ədəbiyyatının böyük təsiri olmuşdur. Azərbaycanın xalqının da o dövrdəki ziyalılarının elmi, ədəbi, fəlsəfi maraq dairələri Rusiyada baş verən böyük dəyişikliklərlə əlaqədar xeyli dərəcədə yeniləşmiş və genişlənmişdi. Ədəbiyyatda, mədəniyyətdə dərin bir realizm özünü göstərirdi. Ziyalılar öz fəaliyyətlərini xalqın həyatı ilə bağlayırdılar. Rus realizminin nəzəriyyəsini Belinski, Çernışevski, Dobrolyubov kimi ədiblər yaratdı. Onlar üçün həyat xaricində ədəbiyyat yox idi. Onlar həyat dedikdə geniş xalq kütlələrinin həyatını nəzərdə tuturdular. Bu isə zamanı üçün çox mütərəqqi olan hadisə idi. Belə bir şəraitdə Azərbaycanın da zadəgan ziyalıları Avropa maarifi və Rusiya mədəniyyəti ilə tanış olurdular. Hər şeydən əvvəl, doğma yurdun tarixi keçmişini dərk etməyə onlarda bir daxili tələbat yaranırdı. Bu isə vətənpərvər ruhlu tarixçilərin və salnaməçilərin yaranmasını şərtləndirirdi. Hər bir milli ziyalı öz tarixi-coğrafi məkanını daha dərindən öyrənməyə və tanıtmağa, həm də bununla fəxr etməyə başlamışdı. Vətən tarixini yaratmağın əhəmiyyətini dərk etmək çox mühüm idi. Bu isə o dövrün reallıqları şəraitində çox çətin idi. Tarix bir xalqın yaşamış olduğu zamanların əhatəsi daxilində baş verənlərin ardıcıllıqla və faktlarla doğrulanmasıdır. Tarixini yazan xalq öz taleyini təsdiq edir. Tarixi yazmaqla ziyalılar öz xalqına ən böyük xidmət göstərirlər. Tarix bütün dövrlər üçün sübutlar toplusudur. XIX əsrin II yarısında yaşamış ilk Azərbaycan maarifçiləri inqilabi-siyasi ideyalardan uzaq idi. Buna baxmayaraq, yeni realist ədəbiyyatın yaranması üçün ilk cığırları məhz onlar açdı. Bunun da nəticəsi olaraq A. Bakıxanov, İ. Qutqaşınlı, M.Ş. Vazehin simasında Azərbaycanın ilk maarifçilərini görürük.

Hələ 1834-cü ildə A. Bakıxanov Qubada "Gülüstan" ədəbi məclisi təşkil etmişdi. Qubanın tanınmış şair və ziyalıları bu məclisə toplaşardı. Bu şeirlərin qüvvətli və zəifliyindən asılı olmayaraq, o dövrün ictimai və bədii fikrinin inkişafında rolu əvəzsizdir. Məclislərarası ünsiyyət formaları, xüsusi məktublaşmalar, nəzirə yaradıcılığı fikir inkişafının sərhədlərini daha da genişləndirirdi. A. Bakıxanov elm və mədəniyyət tariximizə görkəmli maarifçi-tarixşünas kimi daxil olmuşdur. O, vətən tarixi sahəsində çoxillik axtarışlar aparmışdır. 1841-ci ildə tamamladığı "Qafqazın şərq hissəsinin tarixi" ("Gülüstani-İrəm") əsərində ən qədim zamanlarda Cənub-Şərqi Qafqazda məskunlaşmış xalqların genezisi və birlikləri haqqında çox qiymətli məlumatlar verilir. Xalqların etnik mənşəyi, dini inamları, etiqadları, adət-ənənələri, təbii şəraitinin təsviri əsərdə aydın verilmişdir.

Zəngin hadisələrlə dolu bir ömür yaşamış M.Ş. Vazeh bədii yaradıcılığından başqa müəllimlik fəaliyyəti ilə də xalqın övladlarına xidmət etmişdir. O, 1844-cü ildə Tiflisdə "Divani-hikmət"adlı ədəbi məclis təşkil etmişdi. Burada Mirzə Şəfinin şagirdləri və yaxın dostları iştirak edirdilər. Məclisdə yaxşı şeir yazmaq uğrunda yarış gedirdi. Həmçinin qızğın ədəbi və fəlsəfi mübahisələr də baş verirdi. "Divani-hikmət"ə toplaşanlar əvvəlcə şeir oxuyurdular. Sonra isə böyük həvəslə şeir haqqında mübahisələr açılırdı. Mübahisəli müzakirələrin sonu ya fikir ayrılığı ilə, ya da fikir həmrəyliyi ilə bitərdi.

Milli ideyanın inkişafının ilkin mərhələsində başqa bir reallıq faktı da dramaturgiyanın yaranmasına söykənən teatr tamaşaları idi. Azərbaycan teatrının meydana gəlməsi XIX əsrin birinci yarısına aiddir. Xalq kukla teatrının tamaşaları geniş yayılmışdı. Buraya bir və ikipilləli pyeslər, həmçinin teatrlaşdırılmış "Maral oyunu", "Kilimarası" oyunları daxil idi. Belə tamaşalarda dövrün, məişətin eybəcərlikləri gülüş hədəfinə alınırdı. İlk teatr tamaşaları 1848-ci ildə Şuşada, 1850-ci ildə Lənkəranda və 1857-ci ildə Şamaxıda təşkil olunub. M.F. Axundovun

məşhur komediyalarının rus səhnəsində tamaşaya qoyulmasının Azərbaycan teatr sənəti üçün mühüm əhəmiyyəti oldu. O zaman həm də Azərbaycan şəhərlərində sirk tamaşaları da təşkil olunurdu. Bu tamaşalar xalq tərəfindən rəğbətlə qarşılanırdı və milli hisslərin və milli şüurun oyanmasında ilk addımlar olaraq əhəmiyyət daşıyırdı. XIX əsrin ikinci yarısında şifahi xalq aşıq poeziyasında başlanan inkişafda ictimai motivlər çox güclü idi. Dövrandan şikayət, məzlumların müdafiəsi, xalqın güzəranı, azad sevgi aşıq yaradıcılığında tərənnüm olunurdu. Xalq öz milli ruhunu qoşma, təcnis, gəraylı, dodaqdəyməz, müxəmməslərdə tapır və qidalanırdı. Aşıq Ələsgər, Molla Cuma kimi xalq aşıqlarının adları dillər əzbəri idi. Aşıq sənəti xalqın həyatında əsas yer tutan bir aləm idi. Xalq öz həyatını aşıq yaradıcılığı və muğam dünyasından ayrı bilmirdi.

Artıq XIX əsrin 70-ci illərində ayrı-ayrı məktəblər "Üsuli-cədid"ə (yeni üsulla) keçirdi. Yeni üsul şüurlu təlimə yiyələnməyə yönəldilmişdi. İlk dəfə olaraq, elmi biliklərin əsasları ana dilində öyrədilməyə başlandı. Hərf-heca üsulundan daha səmərəli səs üsuluna keçildi. Ana dili ilə bərabər bu məktəblərdə rus dili də tədris edilirdi. Əzbərləmə sistemi zəifləmişdi. Şagirdlərlə insani rəftar edilirdi. Məktəb binaları müasir tədris avadanlıqları ilə təchiz edilməyə başlanmışdı. Belə yeni tipli məktəblərdən biri 1869-cu ildə Azərbaycan şairi S.Ə. Şirvani tərəfindən Şamaxıda açılmışdı. Şuşada və Lənkəranda belə dünyəvi məktəblər açılmışdı. Hələ 1832-ci ildə A. Bakıxanovun arzu etdiyi və layihəsini hazırladığı dünyəvi məktəblərin yaranması Azərbaycanda ziyalı kadrların hazırlanmasında böyük rol oynadı.

Yeni məktəblərin ən qabaqcıl müəllimlərinin ətrafında ədəbi məclislər fəaliyyətə başlayırdı. Şuşada M. Nəvvabın başçılığı ilə "Məclisi-Fəramuşan" ("Tənhalar cəmiyyəti"), Ordubadda M.T. Sidqının başçılığı ilə "Əncüməni-Şüəra" ("Şairlər cəmiyyəti"), Şamaxıda S.Ə. Şirvaninin başçılığı ilə "Beytüs-səfa"("Səfa evi") kimi ədəbi məclislər dövrün sayılıb-seçilən şairlərini bir araya gətirirdi. Bu məclislərdən cəmiyyətə yayılan fikirlər xalqı müəyyən mənada maarifləndirir, məlumatlandırırdı. Məclislərarası əlaqələr isə fikir inkişafını, milli təəssübkeşliyi daha da genişləndirdi. Bakıda "Məcməüş-şüəra", Ordubadda "Əncüməni-Şüəra", Lənkəranda "Fövcülfüsəha" adında şeir məclisləri təşkil edilmişdi. Bu məclislər yeniliyə meyl edirdilər, mədəni mərkəzlərlə əlaqələr saxlayırdılar, məclis üzvləri dünya hadisələri ilə tanış olurdular, mədəni yenilikləri təbliğ edirdilər. Bundan başqa, böyük və dahi klassiklərin divanları məclislərdə oxunur və mühakimələr yürüdülürdü. Nəzirə yazmaq uğrunda məclis üzvləri arasında yarış gedirdi. Ədəbi məclislər dövrü zamanında yüzlərcə şair yetişdirdi. Bu şairlər xalqımızın milli düşüncə tərzinə uyğun olaraq milli koloriti əks etdirir və köhnə həyatı, fanatizmi, geriliyi tənqid etməklə öz etirazlarını ifadə edirdilər. Xalq onların fikirləri və düşüncələri ilə qidalanır, milli hissləri getdikcə zənginləşirdi. Bütün bunlar, demək olar ki, cəmiyyət daxilinə səpilmiş milli oyanışın ilk cücərtiləri kimi milli ideyanın yaranması istiqamətində birinci mərhələnin mühüm tərəfidir. Azərbaycan gerçəkliyində milli ideya təsnifatının birinci mərhələsi məhz bu həmrəylik, milli özünüdərk işartıları, milli oyanış cücərtiləri ilə şərtlənir. Azərbaycan xalqı bu mərhələdə əldə etdiyi fikir inkişafını sonrakı mərhələdə daha yüksəltdi və dövlətçiliyi millətin mövcudluğu şərtlərinədək qaldıra bildi.

Problemin elmi yeniliyi və praktik əhəmiyyəti: Azərbaycan Respublikası XX əsrdə iki dəfə müstəqilliyini elan etmişdir. Lakin XX əsrin əvvəllərində tarixi-siyasi şərait bu müstəqilliyi reallaşdıra bilməmişdi. XX əsrin sonlarında yenidən bu şans əldə edildi və çətinliklə qorunub saxlandı. Elmimizdə də yeni tədqiqatlar başladı. Milli ideya və ideologiyanın inkişaf yolları və mərhələlərinin də aydınlaşdırılması ən vacib məsələlərdən biridir. Bunun həyatımızda və xalqımızın inkişafında rolu böyükdür.

Problemin aktuallığı: Müstəqil Azərbaycan Respublikasının modern inkişafında milli ideyanın bir məqsəd kimi həyata keçirilməsi dövlətimizi gücləndirməyə bir istiqamətdir. Azərbaycan dövləti polietnik bir dövlət olaraq ölkə vətəndaşlarının birliyini gücləndirən və Vətənə sədaqətlilik təlqin edən azərbaycançılıq ideologiyasını həyata keçirir. Məhz azərbaycançılıq ideologiyası milli ideyamız olan və üçrəngli bayrağımızda əks olunan məqsədlərimizin həyata keçirilməsində əsas vasitədir. Bu ideologiya XX əsrin əvvəllərində maarifçi və milli demokratlarımız tərəfindən yaradılmış və dövlətimizin qəbul edərək inkişaf etdirdiyi düzgün ideologiyadır.

Ədəbiyyat:

1. Məhərrəmov A. Modernləşməyə xidmət edən milli ideya. Azərbaycan qəzeti, 7 dekabr 2011
2. Azərbaycan tarixi. IV cild. Bakı, 2007.
3. Qurbanov M. H. Əliyev və Azərbaycanın milli ideologiyası. MM deputatı. "Xalq qəzeti", 2011, 3 dekabr
4. K. Əliyev. Milli ideya: mərhələ təsnifatı və səciyyəsi. "Xalq qəzeti", 2011, 8 dekabr
5. H. Qurbanov. Milli ideya müstəqil Azərbaycanın inkişafını təmin edən əsas cəhətlərdəndir. "Azərbaycan" qəzeti. 2011, 19 iyun
6. Mehdiyev R. Müasir Azərbaycan milli ideyanın akademik təcəssümü kimi. "Azərbaycan" qəz., 2011, 26 may

E-mail: namazova1953@mail.ru
Rəyçilər: *tarix ü.fəls.dok.* K.A. Kərimova
tarix ü.fəls.dok. M.Ə. Abbasov
Redaksiyaya daxil olub: 12.12.2018

UOT 37.

Aygün İlqar qızı Cəfərova
Azərbaycan Dövlət Pedaqoji Universiteti

FƏAL TƏLİM METODLARINDAN İSTİFADƏ TARİXİN TƏLİMİ KEYFİYYƏTİNİ YÜKSƏLDƏN VASİTƏ KİMİ

Айгюн Ильгар гызы Джафарова
Азербайджанский Государственный Педагогический Университет

ИСПОЛЬЗОВАНИЕ АКТИВНЫХ МЕТОДОВ ОБУЧЕНИЯ КАК СРЕДСТВО ПОВЫШЕНИЯ КАЧЕСТВА ПРЕПОДАВАНИЯ ИСТОРИИ

Aygun Ilgar Jafarova
Azerbaijan State Pedagogical University

USE OF ACTIVE LEARNING METHODS TO IMPROVE THE QUALITY OF TEACHING IN HISTORY TEACHING

Xülasə: Məqalədə mövzunun aktuallığı əsaslandırılıb. Problemin işlənmə səviyyəsinə münasibət bildirilib. Tarixin tədrisində təlim keyfiyyətinin yüksəldil-məsində fəal təlim metodlarından istifadə.
Açar sözlər: *məktəb, fəal dərs mərhələləri, təlim metodları*

Резюме: В статье обоснована актуальность темы. Выражено отношение к уровню обработки проблем. Автором отмечается, что использование активных методов обучения являются важными для повышения качества при преподавании истории.
Ключевые слова: *школа, этапы активного урока, методы обучения*

Summary: The actuality of the topic has been substantiated in the article. The using level of the problem has been taken attitude. Use of active learning methods to improve the quality of teaching in history teaching.
Key words: *school, active lesson stages, teaching method*

Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində fəal (interaktiv) təlimin tətbiq edilməsi təhsil islahatının əsas məqsədlərindən biridir. Fəal (interaktiv) təlim metodunun tədris prosesinə daxil edilməsi şagirdlərin passivliyinin aradan qaldırılmasına , onlarda təfəkkürün inkişafına, yaradıcılığın formalaşması və təlim keyfiyyətinin yüksəldilməsinə şərait yaradır.

Dünya təcrübəsi göstərir ki, fəal (interaktiv) təlim metodu dərsin keyfiyyətini artırmaq məqsədi ilə güclü vasitə ola bilər. Bu metod şagirdlər üçün dərsi çox maraqlı və cəlbedici edir. Fəal (interaktiv) təlim həm məzmunun öyrənilməsinin, həm də tətbiqinin səmərəliliyini artırır və şagirdlərin dərketmə fəaliyyətini daha da fəallaşdırır. Son illərdə respublikamızda fəal dərslərin hazırlanması, planlaşdırılması və onların həyata keçirilməsi üçün vacib olan təcrübə toplanmış, müəllimlərdə əsas bilik, bacarıq və vərdişlər formalaşdırmışdır.

Fəal (interaktiv) təlimin tətbiq edilməsi məktəbdə şəraiti dəyişərək şagirdlərin özünə inamını artırır, şəxsiyyətlərarası münasibətləri yaxşılaşdırır, məktəbə və oxumağa olan münasibəti daha müsbət edir, biliklərə müstəqil yiyələnmək və yenilərini əldə etmək, onlardan həyat məqsədlərinə çatmaq üçün istifadə etmək vərdişlərini formalaşdırır, təlimin keyfiyyətini xeyli artırır. Bunun aşağıdakı səbəblərini göstərmək olar:

1. Şagirdlərdə idrak fəaliyyəti və təlim motivasiyası yaradılması.

2. Təfəkkürə əsaslanaraq biliklərin müstəqil, məhsuldar və yaradıcı şəkildə əldə edilməsi və mənimsənilməsi prosesi (1, s. 40)

Fəal (interaktiv) təlimi həyata keçirən çoxlu sayda müxtəlif metodlar vardır. Hər bir metodun da öz texnikaları mövcuddur. Təlimin keyfiyyətini artırmaq üçün metodlardan düzgün və səmərəli istifadə çox vacibdir. Müəllim metodun seçimini edərkən texnikanın əsas xüsusiyyətlərini diqqətlə öyrənməli və dərsin məqsədlərinə uyğun seçməlidir. İnteraktiv təlim metod və texnikaları mahiyyətinə görə bir neçə yerə qruplaşdırıla bilər" (2, s. 439). Bu qrupları aşağıdakı kimi təsnif etmək olar:

1. "Beyin həmləsi" metodları: hücum, BİBÖ, auksion, klaster, suallar, anlayışların çıxarılışı, söz assosiasiyaları, insert. 2. Müzakirə metodları: müzakirə, diskussiya, debatlar, müzakirə xəritələri, Sokrat üsulu, akvarium. 3. Rollu oyunlar metodları: rollu oyun, modelləşdirmə, səhnələşdirmə. 4. Prezentasiya metodları: təqdimatlar, esse. 5. Tədqiqatın aparılması metodları: problemin həlli, kublaşdırma, konkret hadisənin araşdırılması, Venn diaqramı, layihələrin hazırlanması, sorğu vərəqləri və müsahibələr, qərarlar ağacı, ideyalar xalısı, refleksiya. 6. Təşkilati metodlar: ziqzaq, karusel.

1. Beyin həmləsi (Əqli hücum) - Üsulun tətbiqində əsas məqsəd şagirdlərdə məntiqi təfəkkürü inkişaf etdirmək, özünə inam hissini stimullaşdırmaq, müstəqil düşüncəni inkişaf etdirməkdir. Əqli hücum şagirdlərin yeni mövzu üzrə biliklərini sürətlə üzə çıxarmağa, onlarda müzakirə olunan məsələyə maraq oyatmağa imkan verir. Şagirdlər vaxt itirmədən problemlə bağlı yığcam şəkildə müxtəlif ideyalar, təkliflər irəli sürürlər. Söylənilən bütün mülahizələr heç bir şərh verilmədən, tənqidi münasibət bildirilmədən lövhədə qeyd olunur. Sonra təhlil, müzakirə mərhələsi gəlir.

2. BİBÖ - Üsulun tətbiqində əsas məqsəd şagirdlərin əvvəlki biliyi, təcrübəsi ilə yeni biliklər arasında əlaqə yaratmağa imkan verir, mövzu, problem barədə düşünməsini təmin edir. Müəllim lövhədə 3 sütundan ibarət cədvəl qurur və aşağıdakı bölmələri qeyd edir: "Nəyi bilirik", "Nəyi bilmək istəyirik", "Nə öyrəndik və hələ nələri öyrənməliyik". Şagirdlərin qeydləri dinlənilir, məqsədəuyğun sayılan cavablar müvafiq sütunda qeyd edilir.

3. Klaster (Şaxələndirmə) - Üsulun tətbiqində əsas məqsəd şagirdlərin lüğət tərkibini zənginləşdirmək, biliklərini sistemləşdirmək, sərbəst düşünmək kimi xüsusiyyətlərə yiyələnməsini təmin etməkdir. Müəllim tərəfindən lövhədə və ya iş vərəqlərində dairə çəkilir və onun mərkəzində yazılmış anlayış ilə bağlı söz və ya ifadələr söyləmək şagirdlərə tapşırılır. Mərkəzdə yazılmış anlayışdan başlayaraq hər növbəti söz onunla əlaqəli sözlə xətlərlə birləşdirilir. Vaxt bitənə qədər mümkün qədər çox fikir yazmaq və onları əlaqələndirmək tövsiyə olunur. Vaxt bitəndən sonra alınan klaster müzakirə edilir və ümumiləşdirmə aparılır". (3, s. 43)

4. Venn diaqramı - Bu üsulun köməyi ilə şagird əşya və ya hadisələri müqayisə etmək, onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək, biliklərin aktuallaşması kimi xüsusiyyətlərə yiyələnmiş olur. Müqayisə olunacaq əşya və hadisələr müəyyənləşdirilir. Kəsişən dairələr çəkilir, I və III dairədə müqayisə olunacaq obyektlər qeyd olunur. Şagirdlər tə-limatlandırılır. Müqayisə olunan obyektlər təsvir edilir.

5. Karusel - Bu üsulun köməyi ilə şagirdin məntiqi, tənqidi, müstəqil düşünməli, fərd və qrup məsuliyyəti inkişaf etdirilir. Dərsdən əvvəl iri ağ kağızlarda mövzuya aid suallar yazılır. Müəllim qruplara müxtəlif sual yazılmış bir kağız verir. Qrup üzvləri sualı oxuyur və bir cavab yazır. Kağızlar saat əqrəbi istiqamətində müəllimin köməkliyi ilə qruplara ötürülür. "Karusel" kimi kağızlar bütün digər qruplardan keçərək, axırda öz qrupuna qayıdır. Müəllim bu kağızları yazı lövhəsinə yapışdırır və bütün sinif cavabları müzakirə edir.

6. Söz assosiasiyaları. Bu üsulun tətbiqində əsas məqsəd şagirdin mövzu haqqında bildiklərini aydınlaşdırmaq, yeni öyrəndiklərini aşkara çıxarmaq mümkündür. Bu üsuldan istifadə edilərkən öyrəniləcək mövzuya aid əsas söz lövhəyə yazılır. Şagirdlər həmin söz ilə bağlı ilk xatırladıqları fikirləri söyləyir və həmin fikirlər müəllim tərəfindən lövhəyə yazılır. Mövzu ilə bağlı olan sözlər deyilən fikirlərin arasından seçilir və əlaqələndirilir, onlardan anlayış və yaxud ideya çıxarılır. Bu anlayış əsasında yeni materialın öyrənilməsinə başlanır.

7. Layihələrin hazırlanması - Üsul şagirdin tədqiqat vərdişlərinin, biliklərə müstəqil yi-

yələnmə bacarıqlarının formalaşmasında mühüm rol oynayır, onlara müstəqil şəkildə öz fəaliyyət proqramlarını qurmağa, habelə öz vaxtını və işini qrafik üzrə planlaşdırmağa kömək edir. Layihələr hazırlayarkən müəllim mövzu və ya problemi müəyyən edir və sinfə bunlardan birini seçmək imkanı verir. Şagirdlər öz layihələrini təqdim etməzdən əvvəl uzun müddət onun üzərində işləyirlər. Müəllim və şagirdlər birlikdə layihə üzərində işin başlama və başa çatma müddətini, istifadə olunacaq əyani vasitələri, bunları əldə etmək yollarını, iş formalarını müəyyən edirlər. İş prosesində müəllim suallara cavab verə və ya yol göstərə bilər" (4, s. 91).

Problemin aktuallığı. Fəal təlim metodlarının öyrənilməsi nəticəsində müəyyən etdik ki, bu vaxta qədər bu mövzu tədqiqat obyekti kimi seçilmədiyi üçün bu sahədə bir boşluq var. Həmin boşluğun doldurulmasına çox böyük ehtiyac var.

Problemin elmi yeniliyi ondan ibarətdir ki, məqalədə irəli sürülən müddəa və yeniliklər tarixin tədrisi metodikası elmini yetərincə zənginləşdirir.

Problemin praktik əhəmiyyəti ondan ibarətdir ki, məqalənin məzmunundan ümumtəhsil məktəblərinin müəllimləri pedaqoji fəaliyyətlərində istifadə edə biləcəklər. Tarixin tədrisi prosesində fəal təlim metodlarından istifadə təlimin keyfiyyətini yüksəldərək şagird şəxsiyyətinin formalaşmasında mühüm rol oynayır.

Ədəbiyyat:

1. Veyisova Z. Fəal/interaktiv təlim müəllimlər üçün vəsait. Bakı, 2007.
2. Əmirov M. Tam orta məktəbdə tarixin fəal-interaktiv təlimi metodikası. Bakı, 2014.
3. Qəhrəmanov A. Milli kurikulum. Bakı, 2012.

E-mail: aygun.ceferova96@mail.ru
Rəyçilər: *ped. ü. fəls. dok.* **T. İsayeva,**
tarix ü. fəls. dok. **Q. Bəşirov**
Redaksiyaya daxil olub: 17.12.2018

UOT 37.01.

Həddiqə Alı qızı Mayılova
Azərbaycan Dövlət Pedaqoji Universiteti

TARİXİN TƏDRİSİ PROSESİNDƏ BLUM TAKSONOMİYASININ TƏTBİQİ - ŞAGİRDLƏRDƏ ZƏRURİ BACARIQLARIN FORMALAŞDIRILMASI VASİTƏSİ KİMİ

Хадига Алы гызы Майылова
Азербайджанский Государственный Педагогический Университет

ПРИМЕНЕНИЯ ТАКСОНОМИИ БЛУМА КАК СРЕДСТВО ФОРМИРОВАНИЯ НЕОБХОДИМЫХ НАВЫКОВ В ПРОЦЕССЕ ПРЕПОДАВАНИЯ ИСТОРИИ

Khadigha Ali Mayilova
Azerbaijan State Pedagogical University

THE ROLE AND SİGNIFICANCE OF THE APPLİCATİON OF BLUM TAXONOMY İN HİSTORY TEACHİNG SKİLLS OF STUDENTS

Xülasə: Şagirdlər təlim prosesində sadəcə öyrənmir, öyrənə-öyrənə inkişaf edirlər. Həmin prosesin son nəticəsində mədəniyyətə (hissi, ünsiyyət, kommunikativ, əxlaqi, iradi, milli-mənəvi, dünyəvi), dəyərlərə malik şəxsiyyət kimi formalaşır. Taksonomiyalar fənn üzrə məqsədlərin müxtəlif səviyyələr baxımından zəncirvari düzülüşünü təmin edir.

***Açar sözlər**: taksonomiya, bilik, bacarıq, vərdiş, tarix, metodika, təfəkkür*

Резюме: В данной статье указывается, что ученики в процессе обучения не только изучают, но и изучая развиваются. В итоге они формируются как личности, обладающие культурными, воспитательными, национально-духовными ценностями. Таксономия обеспечивает порядок цепей по предметам с точки зрения разных степеней.

***Ключевые слова:** таксономия, знание, умение, навыки, история, методика, мышление*

Summary: In this way, students do not only study in the learning process, but also make progress learning and learning. In conclusion of this process, culture is shaped by values (emotion, communication, communicative, moral, irrational, national-spiritual, mundane). Taxonomies make sure chain designs for miscellaneous subject levels.

***Key words:** Taxonomy, skills, habits, history, methodology, mentality*

Taksonomiya – yunan sözüdür (taxus – qayda ilə yerləşmə + romos – qanun deməkdir). Təlim məqsədlərinin taksonomiyası tədris prosesini elmi-metodik səviyyədə planlaşdırmaq və onun nəticəsini ölçmək imkanı verir. Bu sahədə aparılan araşdırmalardan belə bir qənaətə gəlinir ki, "Təlim məqsədlərinin taksonomiyası ayrı-ayrı fənlər və siniflər üzrə konkretləşdirilməli, dövlət standartları və yaş normativləri kontekstində açıqlanmalıdır. Bu mühüm məsələni metodistlərimiz, psixoloq və pedaqoqlarla birlikdə həll etməlidirlər"**.**

Kurikulumlarda fənlərin məzmunu bacarıqlar şəklində ifadə edilən təlim nəticələrindən (standartlardan) ibarətdir. Təhsil pillələri və hər bir sinif üzrə müəyyən olunmuş bu təlim nəticələrinin (standartların) əsasında üç tərkibli taksonomiya durur.

"Məzmun standartı-təhsilalanların bilik, bacarıq səviyyəsinə qoyulan dövlət tələbidir". Məzmun standartları iki tərkib hissədən ibarətdir: bilik və fəaliyyət. Onların psixoloji əsasını "Üç tərkibli" taksonomiyanın "ÖYRƏNMƏ" və "İNKİŞAF" səviyyələri təşkil edir. Məzmun standartları hazırlanarkən prof. Ə.Ə. Əlizadə

taksonomiyasının "Öyrənmə səviyyəsində" faktları, faktların seçilmə üsullarını, təsnifatı, qiymətləndirmə meyarlarını, və s. haqqında verilən biliklər əsasında mahiyyəti açıqlama, problemi həll etmək üçün informasiyanı konkret hadisələrə tətbiq etmək kimi sosial, perspektiv, intellektual bacarıqların mənimsənilməsi nəzərdə tutulmuşdur. Taksonomiyanın öyrənmə səviyyəsi məzmun standartlarının ilk tərkib hissəsini təşkil edir.

"İnkişaf səviyyəsi" isə məzmun standartlarının fəaliyyət tərkib hissəsinin əsasını təşkil edir. Tənqidi təfəkkürün, fikrin müstəqilliyinin, ağlın dərinliyi, genişliyi, çevikliyi, sürətliliyi və qənaətcilliyinin, divergent və konvergent təfəkkürün inkişafı sayəsində şagirdlərdə analiz, sintez, mücərrədləşdirmə, problemli situasiyalardan çıxış yolu tapmaq və s. bu kimi başarıqlar formalaşır". (1, s.18)

"Hisslər mədəniyyəti, ünsiyyət mədəniyyəti, kommunikativ mədəniyyət, əxlaqi mədəniyyət, iradi mədəniyyət, milli-mənəvi mədəniyyət, dünyəvi mədəniyyət "Üç tərkibli" taksonomiyanın "Mədəniyyət" səviyyəsini təşkil edir. Təlim fəaliyyətinin ayrılmaz tərkib hissəsi olan şagird nailiyyətlərinin qiymətləndirilməsi məhz "Mədəniyyət" səviyyəsini təşkil edən dəyərlərə istinad edir. Qiymətləndirmə Milli Kurikulumun tərkib hissəsidir. Bu o deməkdir ki, "Üç tərkibli taksonomiya" Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyasının da elmi-psxoloji əsasını təşkil edir" (2, s.14).

Blum taksonomiyasının mərhələləri bunlardır: bilmək, anlamaq, tətbiq etmək, təhlil etmək, sintez etmək və dəyərləndirmək. Şagird əgər nəyisə xatırlayırsa, tanıyırsa, göstərirsə, sadalayırsa, adlandırırsa bu bilmə mərhələsidir. Bilmə mərhələsi yadasalma və yaddasaxlama kimi bir kateqoriyadır. Bu mərhələdə şagird yaddaşında qoruyub saxladığı informasiyanı xatırlayır. Burada şagirddən bildiyini dəyişmək və ya bildiyindən istifadə etməklə yeni informasiya yaratmaq tələb olunmur. Məsələn, əgər dünənki dərsdə şagird, ilkin olaraq, Manna dövlətinin idarə olunmasını mənimsəmişdisə, sonrakı dərsdə ona veriləcək sual dünən aldığı biliyi əhatə edərək, "hansı dövlət idarəetmə sistemlərini bilirsiz?" olmalıdır. Ümumiyyətlə, idrak taksonomiyasının bilmə mərhələsi digər mərhələlər üçün baza rolunu oynayır. Digər mərhələlərin də reallaşması üçün bu mərhələnin rolu böyükdür. Lakin bütün dərs boyu yalnız bu mərhələdən istifadə problemlər yaradır, şagirdin düşünməsinə, aldığı biliklərin tətbiqinə və inkişafına əngəl törədir.

Əgər şagird izah edirsə, nümunə göstərirsə, öz sözləri ilə ifadə edirsə, fərqləndirirsə bu anlama mərhələsidir. İkinci mərhələdə şagird yadında saxladığı informasiyanı anlamalıdır. Müəllimin verəcəyi anlama səviyyəli suallar vasitəsilə şagird cavabın üzərində müxtəlif yanaşmalarla düşünür. Problemlərin həlli üçün əvvəl şagirdin təklif olunan ideyanı anlaması vacibdir. Misal üçün aşağıdakı suallardan istifadə etmək mümkündür:

– Albaniya və Atropatena dövlətlərinin idarəetmə sistemləri arasındakı oxşar cəhətləri müəyyənləşdir.

– İki hökmdar və iki imperator idarəetməsində olan dövlət adı de. Bu idarəetmələr arasında fərq nədir?

– "Mədəniyyət" terminini öz sözlərinlə izah et.

Şagird problem həll edirsə, müəyyən nəticələr əldə etmək üçün informasiyaları tətbiq etdirsə, istifadə edirsə, bu tətbiq mərhələsidir. Tətbiq mərhələsində, adından məlum olduğu kimi, şagirdin yadına saldığı və anladığı informasiyanı qarşısına çıxan hər hansı problemi həll etmək üçün istifadə etməsidir. Tətbiq mərhələsində şagird problemlə qarşılaşır, keçmiş biliklərdən istifadə edərək həll yolu seçir və həll edir. Məsələn, xəritə üzərində ölkələri tipoloji xüsusiyyətlərinə görə qruplaşdırır, relyef formalarını müxtəlif əlamətlərinə görə təsnif edir, miqyasa və cəhətlərə əsasən planını tərtib edir və s.

"Hissələrə ayırmaq, strukturu müəyyənləşdirmək təhlil (analiz) mərhələsidir. Təhlil mərhələsində şagird ünsiyyətin əsasını təşkil edən strukturu tapır, onların bir yerdə necə mövcud olduğunu göstərmək üçün nəyisə parçalayır, ayırır, motivləri müəyyənləşdirir. Taksonomiyanın bu mərhələsi anlamanın üzərində qurulur, lakin ondan üstündür. Təhlil zamanı şagird hər hansı hadisə və ya vəziyyətdə müxtəlif fikirləri bir araya gətirərək yekun fikir nümayiş etdirir. Məsələn, araşdırmalar nəticəsində səyyahların topladıqları bilikləri sistemləşdirmək, ölkələrin idarəetmə sistemini təhlil etmək, dövlətlərin

inkişafında idarəetmə tələblərini analiz etmək, dövlətlərin Roma və Yunanıstanla əlaqəliyini təhlil etmək və s." (3, s. 344)

Sintez mərhələsi unikal və orijinal məhsulun yaradılması kimi başa düşülür. Şagird yaradır, plan qurur, tərtib edirsə sinetezetmə mərhələsindədir. Bu mərhələnin əsas xüsusiyyəti şagirdin yaradıcı olmasıdır. Məsələn, su hövzələrini çirkləndirən əsas mənbələrin araşdırılması və onların mühafizəsi ilə bağlı təkliflərin hazırlanması, ekoloji problemlərin həlli yollarına aid layihələrin hazırlanıb təqdim edilməsi, xammal ehtiyatlarının çatacağı illərin proqnozlaşdırılması və s.

"Məsələ haqqında mühüm qərarlar çıxarmaq, mübahisələri və ya fikir müxtəlifliklərini həll etmək, münasibət bildirmək, qarşılaşdırmaq dəyərləndirmə və ya qiymətləndirmə mərhələsidir. Qiymətləndirmə sualları şagirdlərin fikirlərini, düşüncələrini əsaslandırmağı, mühakimə etməyi və bunların nəyə əsaslandığı ilə bağlı xüsusiyyətlər təqdim etməyi tələb edir. Hər hansı bir məsələnin şagird tərəfindən qiymətləndirilməsini istəyən müəllim bu məsələnin qiymətləndirmə meyarlarını düzgün müəyyən etməyi bacarmalı və şagirdin cavabını da bu meyarlarla qiymətləndirməlidir. Məsələn, ölkələrin idarəetməsinin inkişaf səviyyəsinə görə qruplaşdırılması, siyasi uğurlarını qiymətləndirilməsi və s." (4, s. 89).

"Taksonomiyalar iyerarxial olduğundan əvvəlcə sadə, sonra isə daha mürəkkəb məqsəd tərtib edilir. Məsələn, 2.1.3. Dövlətin yaranma şəraitini, idarəetmə mexanizmi haqqında mühakimə yürüdür; 3.1.1. Qonşu dövlətlərlə fərqli xüsusiyyətlərini təsvir edir, din və dil baxımından fərqləndirir, qonşu dövlətlərlə din və dil baxımından qruplaşdırır, 2.1.6. Hökmdar idarə-etməsi iyerxasiyanın sxemini tərtib edir və s. ola bilər" (5, s. 98).

Problemin aktuallığı. Ümumtəhsil məktəbləri üçün hazırlanmış tarix fənni üzrə yeni fənn proqramının (kurikulumun) məzmunu nəticələr, yəni standartlar şəklində ifadə olunmuşdur. Hər bir standart öz müqabilində bilik və fəaliyyətdən ibarətdir: şagird nəyi bilir və o bildiyini necə nümayiş etdirir. Standartların bilik və fəaliyyət hissələri özləri də qruplara ayrılır.

Problemin elmi yeniliyi. Mövzu ilə bağlı aparılan tədqiqat zamanı məlum olur ki, interaktiv metodlardan istifadə olunması təlimə cəlb olunanların təfəkkürünün müntəzəm inkişaf etdirilməsinə, bilik və bacarıqlarının müstəqil əldə olunmasına, dərsin maraqlı olmasına şərait yaradır, dərsə maraq artır, əldə edilmiş biliklərin daha uzun müddət yadda saxlanılması təmin edilir.

Problemin praktik əhəmiyyəti. Yuxarıda da qeyd etdiyimiz kimi, taksonomiyalar müəllimə dərs üçün hazırlayacağı təlim məqsədlərini müəyyənləşdirməsinə kömək edir və təlim məqsədlərinin əlaqəliliyini və əhatəliliyini təmin edir. Məqsədlərin səviyyələr üzrə (bilik, anlama, tətbiq, təhlil, sintez, dəyərləndirmə) əlaqəli şəkildə müəyyənləşməsi təlim prosesində taksonomiyaların müxtəlif mərhələlərini əhatə etmək imkanı verir və müəllimi yalnız məlumatları yadda saxlamağı öyrətmək kimi uğursuz tədris fəaliyyətindən qoruyur. Bu baxımdan taksonomiyalar, təkcə müəllimin fəaliyyətinə rəngarənglik qatmır, həm də şagirdin nail olacağı təlim məqsədlərinin əhatə dairəsi baxımından geniş və dəqiq olmasını təmin edir.

Ədəbiyyat:

1. Əzizova Z.M. Orta ümumtəhsil məktəblərinin IX-XI siniflərində şagirdlərə milli-mənəvi tərbiyənin aşılanmasının səmərəli yolları (ictimai-humanitar fənlərin materialları əsasında): Ped. elm.nam...dis. avtoref. Bakı, 1998.

2. Abbasov Ə., Əhmədov A. Ümumi təhsildə inteqrasiya: Müasir yanaşmalar // Kurikulum, 2013, № 2

3. Əmirov M.M Tam orta məktəblərdə tarixin fəal-interaktiv təlimi metodikası: Dərs vəsaiti. Bakı: ADPU-nun nəşri, 2011.

4. Paşayev T.S. Tarixin tədrisi: tarixilik və müasirlik: Monoqrafiya. Bakı, 2006.

5. Kurikulum jurnalı // 2010, № 4

E-mail: hesenova.1992@inboxs.ru
Rəyçilər: *ped.ü.fəls.dok.* **T. İsayeva,**
dos. **A. Piriyeva**
Redaksiyaya daxil olub: 10.12.2018

UOT 37.01.

Gülnar Nazim qızı İmanova
Azərbaycan Dövlət Pedaqoji Universiteti

AZƏRBAYCAN TARİXİ DƏRSLƏRİNDƏ ELM, TƏHSİL, MƏDƏNİYYƏTƏ AİD MÖVZULARIN TƏDRİSİ ŞAGİRDLƏRİN ESTETİK TƏRBİYƏSİ VASİTƏSİ KİMİ: PROBLEMİN İŞLƏNMƏ SƏVİYYƏSİ

Гульнар Назим гызы Иманова
Азербайджанский Государственный Педагогический Университет

ПРЕПОДАВАНИЕ НА УРОКАХ ИСТОРИИ АЗЕРБАЙДЖАНА ТЕМ О НАУКЕ, ОБРАЗОВАНИИ И КУЛЬТУРЕ КАК СРЕДСТВО ФОРМИРОВАНИЯ ЭСТЕТИЧЕСКОГО ВОСПИТАНИЯ УЧАЩИХСЯ: УРОВЕНЬ РАЗРАБОТКИ ПРОБЛЕМЫ

Gulnar Nazim Imanova
Azerbaijan State Pedagogical University

DEVELOPMENT OF A PROBLEM OF FORMATION OF AESTHETIC UPBRINGING IN PUPILS IN THE SUBJECTS OF SCIENCE, EDUCATION, CULTURE IN THE HISTORICAL LESSONS OF AZERBAIJAN

Xülasə. Estetika və estetik tərbiyə problemi tədqiqatçıların daim diqqət mərkəzində olmuşdur. Belə ki, onun bu və ya digər istiqamətlərinin nəzəriyyə və təcrübəsi və elmi ümumiləşdirilməsinə böyük maraq göstərilmişdir. Məhz buna görə də estetika və estetik tərbiyə problemi üzrə Azərbaycanda da geniş elmi və elmi-publisist ədəbiyyat yaradılmışdır.

Açar sözlər: *Etika, estetika, estetik zövq, estetik mədəniyyət, estetik baxışlar, estetik mühakimələr*

Резюме. Проблема эстетики и эстетического воспитания всегда находилась в центре внимания исследователей, поэтому она проявила большой интерес к теории и практике и научным обобщениям того или иного направления. Поэтому в Азербайджане была создана широкая научная и научно-публицистическая литература по эстетике и эстетическому воспитанию.

Ключевые слова: *этика, эстетика, эстетическое наслаждение, эстетическая культура, эстетические взгляды, эстетические суждения*

Summary. The problem of aesthetics and aesthetic education has always been in the center of attention of researchers. That is why it has shown great interest in theory and practice and scientific summarization of one or another of them. Therefore, broad scientific and scientific-publicist literature has been created in Azerbaijan on aesthetics and aesthetic education.

Key words: *Ethics, aesthetics, aesthetic pleasure, aesthetic culture, aesthetic views, aesthetic judgments*

"Estetika" qədim yunan "estanomay" sözündən olub, hərfi mənası "hisslərlə qavramaq" deməkdir. Müasir dövrdə estetika maddi aləmin, obyektiv gerçəkliyin insan tərəfindən bədii surətdə qavranılmasının ümumi qanunauyğunluqları haqqında elmdir. Estetika gözəllik haqqında elmdir. Estetik tərbiyə isə pedaqoji məfhumdur. Estetika fəlsəfi məfhumdur, fəlsəfənin tərkib hissəsindən biridir (1, s. 8).

Tarix proqramları və dərsliklərində şagirdlərin estetik tərbiyəsinə şərait yaradan çoxlu materiallar vardır. Tarix kursu bəşər cəmiyyətinin inkişafını vahid, qanunauyğun proses kimi işıqlandırmaqla yanaşı şagirdlərin estetik hisslərini,

estetik mühakimə yürütmək bacarığını formalaşdırır. Təcrübəli müəllim ayrı-ayrı dövrlərdə incəsənətin özünəməxsus inkişaf xüsusiyyətlərini şagirdlərə başa salır, mədəni inkişafdakı varislikdən söz açır. Bədii surətlərə estetik əxlaqi və idraki cəhətləri arasındakı üzvi əlaqə olduğunu konkret faktlarla aydınlaşdırır (2, s. 126).

Estetika, estetik tərbiyə maraq doğuran bir problem kimi həmişə tədqiqatçıların diqqətini cəlb etmişdi. Onlar da öz mövqelərində bu məsələ haqqında fikirlərini söyləmişlər. Azərbaycan SSR Maarif Nazirliyinin "Azərbaycan tarixi dərslərində şagirdlərin estetik tərbiyəsi" adlı metodik vəsait araşdırdığımız problem baxımından əhəmiyyətlidir. Bu metodik vəsaitdə şagirdlərdə estetik tərbiyənin formalaşdırılması yolları göstərilib. Əmirov Mübariz "Tam orta məktəbdə tarixin tədrisi fəal/interaktiv təlimi metodikası" kitabında tarix təlimində şagirdlərdə mənəvi tərbiyənin formalaşdırılması mövzusunun içərisində estetik tərbiyə məsələlərinə toxunulmuşdur [3, s. 573].

Boris Lukyanovun "Estetika aləmində" kitabında müəllif K. Marks və F. Engelsin fikirləri əsasında estetik metodika, əsas estetik kateqoriya və konsepsiyalar, sosial və estetik fenomen olaraq sənət kimi mövzulara yer ayırıb. Cəbrayılov İntiqam "Azərbaycan tarixinin tədrisi metodikası" kitabının "Azərbaycan tarixi tədrisinin tərbiyə imkanları, nəzəri pedaqoji- metodiki baxış" başlığı ilə verilmiş hissəsində vətənpərvərlik, mənəvi, ekoloji, iqtisadi, hüquqi tərbiyə imkanları ilə yanaşı estetik tərbiyə məsələsini də işıqlandırmışdır. M. Qasımov, C. Cəfərov "Azərbaycanda estetik fikir tarixindən" kitabında dahi Azərbaycan mütəfəkkirlərinin estetik tərbiyə, gözəllik haqqında fikirləri verilmişdir.

Əsərdə Nizami Gəncəvi, Xəqani Şirvani, Məshəti Gəncəvi, M.F. Axundov, H. Zərdabi və digər mütəfəkkirlərin estetik tərbiyə haqqında fikirləri öz əksini tapmışdır. Yuri Borevin "Estetika" əsəri araşdırdığımız mövzu baxımından əhəmiyyətlidir. Bu əsərdə estetikanın predmet və vəzifələri, estetikanın kimə və nə üçün lazım olduğu, onun bədii yaradıcılığa münasibəti, estetik biliklərin sistemliliyi kimi məsələlər işıqlandırılmışdır. Z.İ. Məmmədov "Estetik tərbiyə şəxsiyyətin hərtərəfli inkişafı" kitabında müəllif gözəlliyə estetik münasibət və estetik, bədii zövqün formalaşdırılması, gözəllik və şəxsiyyətin ahəngdar inkişafı məsələlərini araşdırmışdır. M. Mustafayev, Ə. Cəfərovun "Məktəbdə estetik tərbiyə" kitabında mühüm işə ibtidai sinifdən başlanmalı olduğu göstərilirdi. Ədəbiyyat estetik tərbiyə vasitəsi kimi, kitab mütaliəsi, dərnəklər, teatr və kino kimi sinifdənxaric məsələlər burada öz əksini tapmışdır. Əməyin qüdrətli tərbiyə vasitəsi olduğu bildirilir. Burada hər şeyin estetik tərbiyəyə tabe edildiyi göstərilir. M. Cəfər "Estetik tərbiyə, ailə və məktəb" əsərində estetika, bir elm kimi estetika elminə verilən tələblər, estetikanın başqa elmlərlə münasibəti, ailə və başqa uşaqları məktəbə, məktəb isə həyata hazırlayır.

Y.K. Babanskinin redaktorluğu ilə çap olunan dərs vəsaitində göstərilmişdir ki, estetik tərbiyə - gözəlliyin, incəsənətin, gerçəkliyin düzgün anılması və qiymətləndirilməsi qabiliyyətidir. Prof. B.T. Lixaçova görə, estetik tərbiyə həyatda və incəsənətdə gözəlliyi, faciəni, gülüşü, eybəcərliyi qəbul etməyə qabil yaradıcı fəal şəxsiyyətin formalaşmasına yönəlmiş proses, "gözəllik qanunları ilə" yaşamaq və yaratmaqdır. Y.R. Talıbov, Ə.A. Ağayev, İ.N. İsayev, A.İ. Eminovun "Pedaqogika" dərs vəsaitində estetik tərbiyəni belə xarakterizə edirlər: "Təbiət və cəmiyyət gözəlliklərini müxtəlif təzahür formalarında duymaq, qavramaq, sevmək, qiymətləndirmək, həyatı gözəllik qanunları əsasında qurmaq prosesi estetik tərbiyə adlanır". "Pedaqogikanın əsasları" dərs vəsaitində M.A. İsmixanov estetik tərbiyəni aşağıdakı kimi mənalandırır: "Estetik tərbiyə dedikdə, incəsənət və həyatdakı gözəlliklərin qavranmasına, estetik zövq və qabiliyyətlərin inkişafına yönələn təsirlərin məcmusu nəzərdə tutulur".

MEA-nın müxbir üzvləri Ziyəddin Göyüşovun "Əxlaqi sərvətlər", "Fəzilət və qəbahət", Aslan Aslanovun "İncəsənət və tərbiyə", M.M. Qasımovun "M.F. Axundov və XIX əsrin rus inqilabçı-demokratik estetikası", Fuad Qasımzadənin "Füzulinin estetik görüşləri", B.O. Qurbanovun "Estetika aləminə səyahət", V.C . Xəlilov, M.M. Qasımov, C.H. Cəfərovun "Azərbaycanda estetik fikir tarixindən", V.C. Xəlilovun "Müəllimlərin estetik mədəniyyətinin yüksəldilməsi istiqamətləri", R. Rəhimovanın "Məktəb və estetik tərbiyə" və s. əsərləri diqqəti cəlb edir. Pedaqoji elmlər doktoru, professor V. Xəlilovun "Ümumtəhsil məktəblərində estetik tərbi-

yənin inkişafı yolları" adlı monoqrafiyası tədqiq etdiyimiz problem baxımından maraq doğurur. Burada Azərbaycan mütəfəkkirlərinin estetik sərvətlər, estetik mədəniyyət haqqında fikirləri, estetik tərbiyənin mahiyyəti, vəzifələri, prinsipləri, vasitə və yolları geniş təhlil edilir. (4, s.48) Haqqında danışdığımız problemi R. Cəfərov "Ümumtəhsil məktəbi şagirdlərinin estetik tərbiyəsində Azərbaycanın memarlıq abidələrindən istifadənin imkanları və yolları" dissertasiyasında geniş şəkildə işıqlandırmışdır. Bu əsərdə şagirdlərin estetik tərbiyəsinin inkişafında Azərbaycan memarlıq abidələrinin mövqeyi və əhəmiyyəti, estetik tərbiyənin inkişafında milli memarlıq abidələrinin rolu, estetik tərbiyə baxımından memarlıq abidələrinin təsnifatı, şagirdlərin estetik tərbiyəsinin inkişafında milli memarlıq abidələrindən istifadə yolları verilmişdir. Ə.V. Salmanzadə, K.M. Məmmədzadə "Arazboyu abidələr" adlı əsərində Arazboyu abidələrdən – Naxçıvan, Aran memarlıq məktəbləri, misilsiz estetik təsir gücünə malik olan Mömünə xatın", "Yusif Küseyir oğlu" türbələrindən, "İmanzadə" məscidindən, "Gülüstan" türbəsindən, "Xüdafərin körpüləri"ndən məlumat verilir. T. Haqverdiyevin "Abidələr tarixin sirdaşıdır" adlı kitabında memarlıq abidələrinin tərbiyəvi roluna geniş yer verilməsi, abidələrin bədii-emosional təsir imkanlarına və gənclərin vətənpərvərlik, qəhrəmanlıq, habelə estetik tərbiyəsinin formalaşmasına dair söylədiyi fikirlər tədqiq olunan problem baxımından maraq doğurur (5, s. 9).

Mövzunun aktuallığı. Məqalədə mövzunun aktuallığı əsaslandırılıb. Problemin işlənmə səviyyəsinə münasibət bildirilib. Bu məsələ tarixin tədrisi metodikası sahəsində çox az tədqiq edilib. Bu sahədə boşluğun doldurulması tarixin tədrisinin keyfiyyətini yüksəldər.

Məqalənin nəzəri əhəmiyyəti ondan ibarətdir ki, əldə olunan nəticələrdən magistrantlar, tarixin tədrisi metodikası ilə məşğul olan mütəxəssislər istifadə edə biləcəklər. Məqalə tarixin tədrisi metodikası elmini daha da zənginləşdirir.

Nəticə olaraq deyə bilərik ki, müəlliflər bu və ya digər dərəcədə estetika, estetik tərbiyə, onların formalaşdırılması və s. haqqında oxuculara məlumat verməklə bərabər, onları həyata hazırlamağa çalışırlar. Bütün bu tədqiqatlar şagirdlərdə estetik tərbiyənin formalaşdırılmasında böyük əhəmiyyət kəsb edir.

Məqalənin praktik əhəmiyyəti. Məqalənin məzmunundan və əldə olunan nəticələrdən ümumtəhsil məktəblərinin müəllimləri istifadə edə bilərlər.

Ədəbiyyat:

1. Şahhüseynova S. "Etika. Bakı, 2009.
2. Cəbrayılov İ. "Azərbaycan tarixinin tədrisi metodikası. Bakı, 2006.
3. Əmirov M. Tam orta məktəbdə tarixin fəal/interaktiv təlimi metodikası. Bakı, 2011.
4. Çıraqova V. Tələbələrin yeniyetmələrin estetik tərbiyəsinə hazırlanmaları üzrə işin sistemi. Bakı, 2015.
5. Cəfərov R. "Ümumtəhsil məktəbi şagirdlərinin estetik tərbiyəsində Azərbaycan memarlıq abidələrindən istifadənin imkanları və yolları". Bakı, 2012.

E-mail:gimanova14@gmail.com
Rəyçilər: *dos.* **P. Səfərov**
dos. **A. Piriyeva**
Redaksiyaya daxil olub: 04.12.2018

MUSİQİNİN TƏDRİSİ METODİKASI

UOT 37.01.

Rəhimə Qurban qızı Cəlilova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti

Mərhəmət Vahid qızı Quliyeva
Azərbaycan Dövlət Pedaqoji Universitet

ALPLOGODA MUSİQİ İNFORMASİYASININ REDAKTƏ EDİLMƏSİ METODİKASI

Рахима Гурбан гызы Джалилова
доцент Азербайджанского Государственного Педагогического Университета

Мархамат Вахид гызы Гулиева
Азербайджанский Государственный Педагогический Университет

МЕТОДИКА РЕДАКТИРОВАНИЯ МУЗЫКАЛЬНОЙ ИНФОРМАЦИИ В ALPLOGO

Rahima Gurban Jalilova
associate professor of
Azerbaijan State Pedagogical University

Marhamat Vahid Guliyeva
Azerbaijan State Pedagogical University

METHODOLOGY FOR EDITING MUSIC INFORMATION IN ALPLOGO

Xülasə: Bu məqalə ALPLogo-da musiqi informasiyasının redaktəsi və musiqi redaktorundan bəhs edir. Musiqi redaktorunun iş prinsipi ətraflı şəkildə şərh olunur, melodiyaların yaddaşa yazılması qaydaları izah olunur. Proqrama musiqi əlavə edilməsi proqram nümunələri əsasında aydınlaşdırılır. Musiqi redaktorunun proqramlaşdırmadakı əhəmiyyəti açıqlanır.

Açar sözlər: *musiqi redaktoru, melodiya, not, bağa, kod*

Резюме: Эта статья посвящена редактированию музыкальной информации и музыкальному редактору в ALPLogo. Объяснены работа музыкального редактора и правила записи мелодий. Добавление музыки в программу показано на основе примеров программы. Автором представлено значение музыкального редактора в программировании.

Ключевые слова: *музыкальный редактор, мелодия, ноты, черепахи, код*


Summary: This article is about the editing of musical information and the music editor at ALPLogo. The work of the music editor is explained in detail, and the rules for recording melodies are explained. Adding music to the program is explained on the basis of the examples of the program. The importance of the music editor in programming is explained.

Key words: *music editor, melody, note, turtle, code*

Heç şübhəsiz ki, yaxşı bir musiqini dinləmək insana zövq verir və eyni zamanda, məcazi mənada desək, ruhu qidalandırır. Məhz bu səbəbdən musiqini "Ruhun qidası" adlandırırlar. Hətta bəzi insanlar ağır işdən sonra musiqi dinləməklə özlərinə istirahət verirlər.

Müasir dövrdə musiqi informasiyasını redaktə etmək üçün çoxsaylı tətbiqi proqramlar mövcuddur. Bu proqramlara misal olaraq Audacity, Ocenaudio, Free Audio Editor, Ashampoo Music Studio 2018, Acoustica Basic Edition və başqalarının adını çəkmək olar. Qeyd edim ki, bu sadalanan musiqi redaktorları günümüzün ən yaxşıları hesab olunur. Bu tətbiqi proqramlar bir-birindən öz funksional xüsusiyyətlərinə və imkanlarına görə fərqlənirlər.


Hal-hazırda respublikamızın ümumtəhsil məktəblərinin aşağı sinif şagirdlərinə tədris olunan ALPLogo proqramının da musiqi redaktə etmək imkanı vardır. Belə ki, Alplogo mühitində musiqi redaktoru mövcuddur.



Bu redaktorun ALPLogo mühitinə əlavə edilməsində məqsəd şagirdlərin əyləncəli şəkildə proqramlaşdırmanı öyrənmələrinə kömək və musiqi redaktə etmə qabiliyyətlərinin formalaşdırılmasıdır.

ALPLogo proqramlaşdırma dilinin kiçikyaşlı məktəb şagirdlərinə tədris olunduğunu nəzərə alsaq, bunun faydasını anlamaq bir o qədər çətin deyildir. Belə ki, psixoloji ədəbiyyatlardan bizə məlum olduğu kimi, diqqətin uzun müddət bir obyekt üzərinə cəmlənməsi kiçikyaşlı məktəb şagirdlərində böyüklərə nisbətən zəif olur. Uzun müddət dərs zamanı proqram yazarkən şagirdin dərsə marağı zəifləyir. ALPLogo mühitində musiqi redaktorunun mövcudluğu ona imkan verir ki, şagirdlər əyləncəli şəkildə musiqi dinləyərək, eyni zamanda, proqramlaşdırmanı da öyrənsinlər. Bu paralellik şagirdlərin proqram yazmağa olan maraqlarını artırır.

ALPLogo proqramlaşdırma mühiti özünün sadə musiqi redaktoruna malikdir. Bu redaktor üzərində işləmək üçün ALPLogo mühitini işə saldıqdan sonra alətlər zolağında yerləşdirilmiş musiqi redaktoru düyməsi üzərində siçanın sol düyməsini sıxmaq kifayətdir.



Musiqi redaktoru pəncərəsi ekranda yuxarıdakı kimi açılır. Burada yuxarıdan aşağıya doğru birinci bölmədə daxil etdiyimiz musiqinin notları əks olunur, ikinci bölmədə piano klaviaturası əks olunur. Qeyd edim ki, ALPLogo proqramlaşdırma mühitinin musiqi redaktorunun klaviaturası üç oktavalı piano klaviaturasıdır. Üçüncü bölmədə isə səsin yüksəkliyini tənzimləmək üçün *Səsin yüksəkliyi*, melodiyanı səsləndirmək üçün *Başla* düyməsi, melodiyanın səsləndirilməsini dayandırmaq üçün *Dur* düyməsi və melodiyanın sürətini tənzimləmək üçün *Melodiyanın sürəti* düymələri yerləşdirilmişdir.

Düymələrdən aşağıda yaddaşda mövcud olan melodiyaların siyahısı yerləşir. Bu siyahının sol tərəfində isə melodiyanı açmaq üçün *Melodiyanı aç*, melodiyaya ad vermək üçün olan *Melodiyanın adı*, melodiyanı yaddaşa yazmaq üçün *Yadda saxla*, siyahıda mövcud olan istənilən melodiyanı silmək üçün *Melodiyanı sil* düymələri yerləşdirilmişdir. Musiqi redaktorundan çıxmaq istədikdə isə bu pəncərənin yuxarı sağ küncündə yerləşdirilmiş çıxış düyməsinə vurmaq küfayətdir.

Yuxarıda açılmış musiqi redaktoru pəncərəsində bəstəkarı V. Barkauskas olan "Колыбельная моей черепашечки" ("Tısbağalarıma layla") musiqisinin notları daxil edilmişdir. Notlarını daxil etdiyimiz musiqini yaddaşa verən zaman yaddaşa uzantısı **alm** olan fayl yazılır. Məsələn, bu musiqini yaddaşa verərkən ona *Tısbağalarıma layla* adını verib, yadda saxla düyməsini sıxdıqdan sonra bu melodiya yaddaşda *Tısbağalarıma layla.alm* adlı fayl kimi yazıldı. Susma halında musiqini yaddaşa verən zaman proqram fayla *Melodiya1.alm* adını verir.

Bu mövzunun məktəblərdə tədrisi zamanı müəllim, ilk növbədə, şagirdlərə musiqi informasiyası ilə əlaqədar keçmişdə öyrəndiklərini yadlarına salmaları üçün suallar verməli və müzakirə aparmalıdır. Kompüterdə musiqi informasiyasının necə saxlanıldığı barədə fikir mübadiləsi aparılmalı, daha sonra musiqinin adi halda kompüterdən kənarda notlar şəklində kodlaşdırıldığı barədə danışılmalı, musiqinin notla kodlaşdırılması ilə ikilik kodlaşdırılması arasında oxşar və fərqli cəhətlərə diqqət yetirilməsi yaxşı olardı. Şagirdlərə ALPLogo mühitində də musiqi redaktoru olduğu və onun iş prinsipi izah olunur.

Mövzu barədə məlumat aldıqdan sonra kompüterdə musiqi redaktoru ilə işləmək şagirdlərə zövq verir. Onlar musiqi redaktorunda yazıb yaddaşda saxladıqları melodiyalardan istədikləri vaxt proqram yazarkən istifadə edə bilərlər. Bu, onların yazdığı proqramlara rəngarənglik qatır. Proqram yazarkən musiqi də əlavə etmişiksə, proqram icra olunan zaman bağa hərəkət edib komandaları icra etdiyi zaman fonda proqrama əlavə etdiyimiz musiqi səslənir.

Problemin aktuallığı. Ümumtəhsil məktəblərində aparılmış müşahidələrdən aydın olur ki, ALPLogo proqramlaşdırma dilinin tədrisi şagirdlərin ilkin proqramlaşdırma vərdişlərinə yiyələnməsində müstəsna rol oynayır. ALPLogoda musiqi redaktəsinin şagirdlərə öyrədilməsi onların yaradıcılıq qabiliyyətlərinin inkişafına müsbət təsir göstərir.

Problemin praktik əhəmiyyəti. Məqalənin mövzu üzrə tədqiqat aparan magistrantlar, dissertantlar və ən əsası orta məktəb informatika müəllimləri üçün faydalı olacağı düşünülür.

Problemin elmi yeniliyi. Respublikamızın ümumtəhsil məktəblərində informatika fənninin tədrisində şagirdlərin alqoritmik təfəkkür tərzinin və yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi zərurəti meydana çıxır. Bu səbəbdən də materialın əhəmiyyəti təhliletmə və inkişafetdiricilik baxımından zəruri sayılır.

Ədəbiyyat:

1. Mahmudzadə R., Sadıqov İ., İsayeva N. Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün dərslik", Bakı, 2013.
2. https://musabiqe.edu.az
3. Mahmudov. N, İsmayılova. B. LOGO dilində proqramlaşdırma. Bakı, 2012.
4. Шапошникова С. В. Изучение языка программирования LOGO в среде к Turtle. M., 2011.

E-mail: quliyeva.merhem@gamil.com
Rəyçi: riy.ü.elm.dok., dos. **R.Z. Hümbətəliyev**
Redaksiyaya daxil olub: 05.12.2018.

HƏYAT BİLGİSİNİN TƏDRİSİ METODİKASI

UOT 37.01.

Sevinc Tofiq qızı Vəliyeva
fəlsəfə doktoru proqramı üzrə dissertant
Naxçıvan Dövlət Universiteti

II SİNİFDƏ HƏYAT BİLGİSİ FƏNNİNİN TƏDRİSİNDƏ ŞAGİRDLƏRDƏ TƏBİƏTƏ HƏSSAS VƏ QAYĞIKEŞ MÜNASİBƏTİN FORMALAŞDIRILMASI

Севиндж Тофиг гызы Велиева
диссертант по программе доктора философии
Нахчыванский Государственный Университет

ФОРМИРОВАНИЕ БЕРЕЖЛИВОГО ОТНОШЕНИЯ К ПРИРОДЕ У УЧЕНИКОВ ВТОРОГО КЛАССА НА УРОКАХ ПОЗНАНИЯ МИРА

Sevinj Tofig Valiyeva
doctorial student in the proqramme of a Ph.D
Nakhchivan State University

FORMATION OF SENSITISE AND CAREFUL ATTITUDE TO NATURE ON PUPILS IN TEACHING II FORM LIFE SCIENCE SUBJECT

Xülasə: Məqalə II sinifdə həya bilgisinin tədrisi prosesində şagirdlərdə təbiətə həssas və qayğıkeş münasibət formalaşdırılmasına həsr olunmuşdur. II siniflə işləyən müəllimlərə şagirdlərin ekoloji tərbiyəsinin formalaşdırılması ilə bağlı bir sıra tövsiyələr və məsləhətlər verilir. Göstərilir ki, II sinfin həyat bilgisi dərsliyində ekoloji tərbiyə ilə bağlı verilən şəkillər, izahlar şagirdlərin yaş və qavrama səviyyələrinə uyğun deyildir. Ona görə də ibtidai sinif müəllimləri həmin şəkillər əsasında şagirdlərdə təbiətə həssas və qayğıkeş münasibətin formalaşdırılmasına təsir göstərən momentləri, nüansları elmi, pedaqoji və metodik cəhətdən əsaslandırmaqla izah etməlidirlər. Məqalədə ibtidai sinif müəllimlərinə metodik göstərişlər vermək üçün praktik nümunələrdən də istifadə olunmuşdur.

Açar sözlər: *təbiət hadisələri, təbiətə qayğı, təbiətə qayğılı münasibət, təbiətə həssas münasibət, bitkilər və heyvanlar, saf su, təmiz hava, bərəkətli torpaq, təbiətdə su, havanın təmizliyi, ana torpaq*

Резюме: Статья посвящена формированию бережливого отношения к природе у учеников второго класса на уроках Познания мира. В статье даны рекомендации по формированию экологического воспитание учителям преподающим во вторых классах. Показываются, что в книгах второго класса по предмету Познания мира картинки с изображениями экологического воспитания и пояснения не соответствуют уровню знаний школьников. Поэтому учителя младших классов с помощью этих картинок, основываясь на педагогические, методические и научные методы должны обьяснить учеником как формируется бережливое отношение к природе. В статье на практические примерах даны методические указания учителям начальных классов.

Ключевые слова: *природные явления, забота о природе, чуствительное отношение природе, растения и животные, прозрачная вода, чистый воздух, плодородная земля, вода в природе, чистота воздуха, родная земля*

Summary: The article is devoted to the formation of a careful attitude to nature in second-grade students in the Knowledge of Life lessons. The article provides recommendations on the formation of environmental education for teachers who teach in the second grades. It is shown that in the books of the second class on the subject of Knowledge of Life, pictures with images of environmental education and

explanation do not correspond to the level of knowledge of schoolchildren. Therefore, teachers of lower grades with the help of these pictures, based on pedagogical, methodical and scientific methods, should explain to the pupil how a thrifty attitude towards nature is formed. In the article on practical examples, methodological instructions were given to primary school teachers.

Keywords: *natural phenomena, concern for nature, sensitive attitude to nature, plants and animals, clear water, clean air, fertile land, water in nature, clean air, native land*

Azərbaycanda uğurla həyata keçirilən təhsil islahatına dair direktiv sənədlərdə şagirdlərin ekoloji tərbiyəsinin təşkilinə dair dəyərli tövsiyələr vardır. Hansı ki, həmin tövsiyələri fənn müəllimləri, xüsusilə ibtidai sinif müəllimləri öz təcrübələrində reallaşdırmaq üçün məqsədyönlü, planlı və mütəşəkkil işlərin həyata keçirilməsinə çalışmalıdırlar. Çünki kiçikyaşlı məktəblilərin ekoloji tərbiyəsinin inkişaf etdirilməsi, formalaşdırılması və təkmilləşdirilməsi baxımından ibtidai sinif müəllimlərinin imkanları daha genişdir. Bir qədər konkret desək ibtidai siniflərdə tədris olunan fənlərin bir çoxunun ekoloji tərbiyə baxımından imkanları genişdir. Bu fənlər içərisində həyat bilgisi fənni şagirdlərin ekoloji tərbiyəsini formalaşdırmaq baxımından mühüm əhəmiyyət kəsb edir. Hansı ki, bu imkanlardan bir qismi də "Həyat bilgisi" dərsliyində yer alan mövzularla bağlıdır.

A. İbrahimova, G. Mehdiyeva, S. İbrahimovun birlikdə tərtib etdikləri "Həyat bilgisi" dərsliyinin ilk mövzusu "Biz şagirdik" adlanır. Həmin mövzuya aid olan səhifədə məktəbli oğlanla, məktəbli qızın məktəb formasında, məktəbin qabağında qoşa dayandıqları yerdə şəkilləri təsvir olunmuşdur. Onlar məktəbin yaşıllıqlara bürünmüş həyətində dayanaraq zəngi gözləyirlər. Şəkildə məktəbin həyətinin yaşıllıqlara qərq olunması, ekoloji cəhətdən təmiz təsvir olunması II sinif şagirdlərinin estetik bədii zövqlərinin inkişafına təsir göstərən amil kimi dəyərləndirilməklə yanaşı onların ekoloji tərbiyəsinin formalaşdırılmasına xidmət göstərə biləcək amil kimi də qiymətləndirilməlidir.

Unutmaq olmaz ki, təbiətin mühafizəsi qlobal, ümumbəşəri problemdir. Həmin problemin həll edilməsi cəmiyyətin, insanın və ətraf mühitin qarşılıqlı fəaliyyətinin xarakteri ilə əlaqədardır.

Ölkəmizdə sənaye və kənd təsərrüfatının inkişafı ilə əlaqədar lazımı ekoloji qaydalara əməl edilmədiyindən sənaye tullantıları, havanı, torpağı, bağları, çəmənlikləri, çiçəkləri, çayları, vadiləri, su hövzələrini, gülləri, hətta dənizləri çirkləndirir, müxtəlif fəsilədən olan canlı aləmə ciddi ziyan vurur, insanların həyat şəraitini pisləşdirir, xüsusilə onların səhhətinə ləkə vurur, sağlamlığını pozur. Bu məsələ ilə əlaqədar olaraq ətraf mühitin çirklənməsinə qarşı mübarizə tədbirləri genişləndirilir.

Mütəxəssislərin fikrincə, dünyada iki ən böyük ekoloji bəla mövcuddur. Birincisi təbiətdə arıların azalması, ikincisi isə meşələrin qırılmasıdır. Statistik məlumata görə arıların azalması nəticəsində yüzdən artıq çiçəklər fəsiləsi məhv olmuş, böyük Britaniyanın ərazisi qədər qırılmış meşə sahəsində isə minlərlə biosfer komponentləri təbiətdən silinmişdir.

Təəssüflə qeyd etmək lazımdır ki, ölkəmizdəki ekoloji bəlaların sayı o qədər artmışdır ki, bu da ağlagəlməz sensasiyaya səbəb olmuşdur. Akademik Həsən Əliyev "Həyəcan təbili" kitabında göstərir ki, nadir ağacları, çiçəkləri, quşları, heyvanları qıranlar ölkəmizi ekoloji bəlaya düçar edirlər (1, 483). Ona görə də II siniflər üçün tərtib olunan dərslikdəki ekoloji mühitin saflaşdırılması ilə bağlı verilən şəkilləri izah edərkən qeyd olunan ekoloji bəlalar barədə də danışmaq vacibdir.

Dərsliyin 25-ci səhifəsində kiçikyaşlı məktəblilərin təbiətə həssas və qayğıkeş münasibətlərinin aşkara çıxarılmasında, inkişaf etdirilərək formalaşdırılmasında mühüm rol oynayan silsilə mövzular vardır. Hansı ki, həmin mövzuların hər biri II sinif şagirdlərinin ekoloji tərbiyəsinin inkişafı üçün müstəsna rola malikdir. "Yer kürəsi", "Günəş, hava, su, torpaq", "Bitkilər və heyvanlar", "Şəhərdə və kənddə", "Biz təbiətin övladlarıyıq", "Təbiət nədir" kimi mövzuların hər biri II sinif şagirdlərini təbiətə həssas və qayğıkeş münasibət bəsləməyə sövq edən mövzulardır.

Şübhəsiz bu mövzuları tədris edərkən sinif müəllimləri II sinif şagirdlərinə təbiətə həssas və qayğıkeş münasibət bəsləməyi öyrətməlidirlər. Bunun üçün ibtidai sinif müəllimlərinin həmin şəkillər əsasında slaydlar hazırlamaları çox faydalıdır. Çünki dərslikdə verilən şəkillərin

altındakı fikirlərin heç biri ekoloji tərbiyə üçün zəruri sayılan elementləri şagirdlərə çatdırmağa imkan vermir. Yəni şəkillərin altında yazılan fikirlərin heç biri II sinif şagirdlərinin təbiətə həssas və qayğıkeş münasibət bəsləməyə alışdırmaq üçün yararlı sayıla bilməz. Ona görə də şəkilləri təqdim etməzdən əvvəl şagirdlərə bir sıra ekoloji bəlalar haqqında məlumatlar vermək çox faydalıdır. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, bu gün şəhər və kəndlərimizdə ağaclarımızı kəsərək yerində firmalar, şirkətlər, gözəl struktur yaradan işbazlar, kapital toplamaq məqsədilə nadir quşlarımızı, balıqlarımızı ovlayan brokonyerlər, gülzara bənzəyən çəmənzarımızı, bağlarımızı məhv edərək yerində marketlər, barlar, restoranlar, şadlıq evləri, sexlər yaradan kommersantlar bu bəlaları gözümüzün qabağında bizə «bəxş» edirlər.

Elmi termin kimi ilk dəfə alman bioloqu Ernest Hekkel tərəfindən işlədilən, elmi əsası ingilis alimi Ç. Darvin tərəfindən qoyulan ekologiya yunan sözü olub mənası eko (olikos)-ev, yurd, məskən, loqos-təlim, elm (məskən haqqında təlim) deməkdir.

Ç. Darvinə görə, təbiətdə bütün canlıların yaşayış uğrundakı mübarizəsi ekoloji təlimin əsasını təşkil edir. Hazırda isə ekoloji mühit anlayışına həm təbii mühit, həmdə sosial mühit, iqtisadiyyat, texnika, texnologiya daxildir. Bildiyimiz kimi, insanın həyat və fəaliyyətini ətraf mühit-təbiət-cəmiyyət sistemindən kənarda təsəvvür etmək olmaz. Bu vəhdət pozulduqda isə ekoloji böhran baş verir. Buna görə uşaqların tərbiyəsinin günün tələbləri səviyyəsinə qaldırılması xüsusi aktuallıq kəsb edir (1, 483-484).

Ekoloji bəlalar haqqında hər gün məlumatların verilməsi çox mühüm aktuallıq kəsb edir. Təbiətə həssas və qayğıkeş münasibətin formalaşdırılması işində ekoloji bəlalarla bağlı şagirdlərə verilən məlumatlar onları ekoloji bəlalara qarşı nifrət bəsləməyə hazırlayır.

Həqiqətən insanların hərtərəfli düşünülməmiş tədbirləri nəticəsində təbiətə çox zərərlər vurulmuş, müəyyən ərazilərdə onun gözəlliyi, zənginliyi itirilmiş, bir çox sahələr səhralara çevrilmişdir. İnsan təbiət qanunlarını öyrənərək ona şüurlu təsir göstərdikdə isə təbiəti daha da gözəlləşdirir, onun nemətlərini artırır, təbii sərvətlərindən səmərəli istifadə edir.

Ətraf mühiti dərindən dərk etmək üçün onun haqqında insanda elmi təsəvvürlə yanaşı, elmi bilik də olmalıdır. Belə olmadıqda təbiətin qorunmasında insanın düzgün mövqeyini, rolunu müəyyən etmək mümkün deyil. Çünki bir çox təbii proseslərin mərkəzində bilavasitə insan durur. İnsan təbiətə əl gəzdirdikdən sonra təbiət özü mürəkkəb prosesləri qarışdırır, birləşdirir. Meydana çıxmış yeni prosesi insan yenidən dərk edir və sonra onun mənbəyini axtarmağa başlayır (1, 484).

Məhz ona görə də, dərslikdəki ekoloji mühiti özündə əks etdirən şəkilləri nümayiş etdirməzdən əvvəl şagirdləri mövcud ekoloji bəlalarla tanış etmək vacibdir. Şagirdləri ekoloji bəlalarla tanış etdikdən sonra şəkillər haqqında müəllimin geniş şərhinə ehtiyac duyulur. Çünki şəkillərdə günəş, su, hava, torpaqla bağlı verilən bədii təsvirlərin özü çox mücərrəd xarakterə malikdir. Niyə? Birincisi söhbət günəşdən getdiyi halda hər iki səhifədəki verilən şəkillərdə günəşin şəkli öz əksini tapmır. İkincisi, şəkillərin altında yazılan 6 cümlənin hər birində günəşə məxsus əlamətlər və keyfiyyətlər şərh olunduğu halda, bu şərhlərin heç birinin təsvirinin digərləri ilə əlaqəsi görünmür. Üçüncüsü, 11-ci səhifədəki şəkillərin altında izahat olmadığı üçün nəinki ikincilər, hətta böyüklər bu şəkilləri ekoloji tərbiyə baxımından izah edə bilməzlər. Fikrimizi daha dəqiq əsaslandırmaq üçün şəkillərin altında yazılan fikirlərə diqqət edək.

11-ci mövzuya rəssam tərəfindən çəkilmiş şəkillərin birində kiçik təpələr təsvir olunur. Zirvələrində ağ, sarı və göy rənglər görünür. Təpələrin ətəyində yaşıl ağaclar və yaşıllıqlar vardır. İkinci şəkildə dağların ətəyində dağ çayı və növünü müəyyənləşdirmək çətin olan ağaclar təsvir olunur. 29-cu səhifədə təsvir olunan 6 şəklin birincisində qış fəsli, ikincisində məlum olmayan fəsil, üçüncüsündə çimərlik, dördüncüsündə payız fəsli, beşincisində səhralıq, altıncısında isə buz təpələrini, Şimal buzlu okeanı xatırladan peyzaj təsvir olunur. 28-ci səhifədəki şəkillərin altında yazılan qeydlərə diqqət edək:

Günəş nəhəng göy cismidir. O daim işıq saçır və ətrafa istilik verir. Günəşin istisi və işığı ətrafa şüalar vasitəsilə yayılır, yeri qızdırır. Bu, canlıların yaşaması üçün çox vacibdir. Əgər günəşin şüaları yerə işıq və istilik verməsə, bütün canlılar məhv olar.

Təbiətdə suyun buxarlanması, qarın əriməsi, küləyin əmələ gəlməsi və bir çox hadisələr Günəşin təsiri altında baş verir (1, 28).

29-cu səhifədəki qeydlər isə belədir: İsti yay günlərində Günəşin altında çox gəzmə: bu, günvurmaya səbəb ola bilər (1, 29).

Göründüyü kimi qeydlərin hər biri günəşlə bağlı olsa da şəkillərdə günəşin təsviri primitiv xarakter daşıyır. Şəkillərin altında qoyulan suallar günəşlə bağlı olduğu halda II sinif şagirdlərinin yaş xüsusiyyətlərinə uyğun olmayan bir tərzdə təsvir olunur. "Gördüyün şəkillərin günəşlə əlaqəsini izah et", "Günəşin həyat üçün əhəmiyyəti haqqında ESSE yaz" kimi tapşırıqların verilməsini də pedaqoji cəhətdən düzgün hesab etmək olmaz. Əslində II sinif şagirdlərinə belə 9 şəklin ardıcıl verilməsi və mövzunun davamı kimi 30-31-ci səhifələrdə daha 5 şəklin verilməsi şagirdlərin artıq yüklənməsi kimi dəyərləndirilməlidir. Şəkilaltı izahlar olmadığı üçün belə izahların hazırlanmasına zəruri ehtiyac duyulur. Bunları nəzərə alaraq "Günəş, hava, su, torpaq" mövzusu üçün verilmiş 14 şəklin hər biri üçün şəkilaltı izahın verilməsini məqsədəuyğun hesab edirik.

30-cu səhifədəki şəkilaltı izahlar:

- Uşaqlar, birinci şəkildə dənizin ümumi mənzərəsini görürsünüz. Elə təsəvvür edin ki, siz Xəzər dənizinə tamaşa edirsiniz. Göründüyü kimi dənizdə dalğa yoxdur, dəniz çox sakitdir. Sakit dənizdə zəngin ekoloji mühit mövcuddur. Dənizdə zəngin balıqlar vəsiləsi yaşayır. Bu balıqlar içərisində ağ balıq adı ilə məşhur olan nadir balıqlar vardır. Onların hər biri Xəzər dənizinə milyonlarla balıqlar hədiyyə edirlər. Xəzərdə dünya dənizlərində, okeanlarında və sularında olmayan nadir balıqlar da vardır. Onlardan biri "iynə" balıqlar, ikincisi isə "çarçaq" balıqlar adlanır. İynə balıqlar çox kiçik olduğu üçün belə adlandırılır. Çarçaq balıqlar da kiçik balıqlardır. Lakin onların nəsil artırmaları qeyri-adidir. Yəni onlar Xəzərdəki digər balıqlar kimi kürüləri tökməklə artmırlar. Onların ata balıqları, ana balıqlarla bir növ ailə qurduqdan sonra nəsillərini artırırlar.

Xəzər dənizində nadir bitkilər fəsiləsi də vardır. İnsanlar Xəzər dənizini qorumaqla həm canlıları, həm də Xəzərin təmizliyini qoruyurlar. Axı, yayda insanlar Xəzər dənizində çimirlər. Xəzər dənizinin ekoloji təmizliyini qorumasalar insanlar Xəzərdə çimə bilməzlər. Ona görə Xəzərin həm dibini, həm saf sularını, həm də çimərliklərini dövlətimiz qoruyur. Bizim hər birimiz də Xəzərin ekoloji mühitinin təmizliyini qorumalıyıq.

İkinci şəkil gördüyünüz kimi meşənin şəklidir. Azərbaycanın bütün rayonlarında meşəliklər vardır. Onların içərisində Masallı, Yardımlı, Lerik meşələri ən qədim meşələr hesab olunur. Oğuz, Qəbələ, Quba, Qusar meşələri də nadir ağaclarla zəngindir. Azərbaycanın meşələrində şam, küknar, palıd, vələs və dəmir ağacları nadir ağaclardan hesab olunur. Azərbaycan meşələrində meyvə ağacları da çoxdur. Alma, armud, gilas, şaftalı, alça, əzgil kimi meyvələr Azərbaycan meşələrinin bəzəyidir. Biz meşələrdəki ağacları qorumaqla Azərbaycanın ekoloji mühitini, təbiətinin saflığını qorumuş oluruq. Çünki meşələr təkcə ağaclardan ibarət deyil. Meşələrimizdə nadir quşlar, heyvanlar yaşayır, nadir bitkilər bitir. Həmin bitkilərdən dərman hazırlayırlar. Biz meşələrimizi qorumaqla həm ekoloji mühitimizin saflığını, həm də sağlamlığımızı qorumuş oluruq.

Üçüncü şəkildə dağ çayı təsvir olunur. Hamımıza məlumdur ki, çayların əksəriyyəti öz mənbələrini dağlardan götürür. Azərbaycanın ən nəhəng çaylarından biri Araz, digəri isə Kür adlanır. Hər iki çay mənbələrini Türkiyənin Ərzurum dağlarındakı Bingöl adlanan göl silsilələrindən götürür. Şəkildə gördüyünüz dağ çayı isə Qafqaz sıra dağlarından süzülüb gələn və kükrəyə-kükrəyə aşıb-daşan, məcrasına sığmayan çaydır. Çünki dağ çayı özü ilə dağlardan iri daşları da qoparıb gətirmişdir. Dağ çayı meşələrin suvarılmasında da mühüm əhəmiyyət kəsb edir.

Dördüncü şəkildə göl təsvir olunur. Azərbaycanda ən məşhur göllərdən biri Göygöl, digəri isə Maralgöl adlanır. Göllərimizdə də nadir balıqlar, nadir bitkilər mövcuddur. Onları qorumaqla biz Azərbaycanın ekoloji mühitini qorumuş oluruq.

Sonuncu şəkil əkin sahəsi adlanır. Gördüyünüz kimi ana torpaq adlandırdığımız torpaqları əkib-becərməklə biz cəmiyyətin qidalan-masını təmin etmiş oluruq. Bizim hər gün qidalandığımız çörəyi, ruzi-bərəkəti biz ana torpaqdan alırıq. Yəni buğdanı torpağa əkirik, sünbülləri yetişdiririk və həmin sünbüllərdən buğda istehsal edirik. Buğdanı üyüdüb unundan çörək bişi-

ririk. Əgər torpaq qorunursa, çirklənmirsə, zəhərlənmirsə deməli, torpaqda yetişdirilən buğda məhsulu da insanların sağlamlığını təmin edəcəkdir. Əks təqdirdə ana torpağın ekoloji tarazlığı pozularsa ruzi-bərəkət adlandırdığımız çörəyin də təmizliyindən danışmaq olmaz.

Onu da qeyd etmək vacibdir ki, elmi-texniki tərəqqinin inkişafı ilə əlaqədar ana torpağa müdaxilələrin sayı da çoxalmışdır. Yəni elm və texnikanın inkişafı biosferə mənfi təsirini artırmışdır. Təbii ehtiyatların tükənməsi eroziya, havanın, suyun, torpağın çirklənməsi, bəzi bitki və heyvan növlərinin insan fəaliyyəti nəticəsində yoxa çıxması, bilavasitə məhv edilməsi insanın təbiətə qeyri-münasib mənfi təsirinin nəticəsidir. Artıq bu gün bir sıra sahələrdə insanın təbiətə qayğısız münasibəti böhranlı vəziyyətə çatmışdır. Ətraf mühitə fasiləsiz olaraq müxtəlif tullantılar daxil olur, sənaye tullantıları atmosferi, suyu, torpağı çirkləndirir, tullantı qazlar isə atmosfer havasını zəhərləyir, saysız-hesabsız maşın və mexanizmlər səs-küyü çoxaldır, müxtəlif yanacaqlardan intensiv surətdə istifadə nəticəsində suyun, havanın, temperaturu yüksəlir. Bu faktlar onu göstərir ki, cəmiyyətin ətraf mühitə laqeyd münasibəti müasir dövrün ən zəruri probleminə çevrilmişdir.

Ona görə də biz ümumtəhsil məktəblərimizdə ekoloji bəlalar haqqında şagirdlərə məqsədyönlü, planlı və mütəşəkkil surətdə məlumatlar verməliyik. Əgər gənc nəsil əvvəllər Sumqayıtdakı zavodların kimyəvi tullantılarının əmələ gətirdiyi ekoloji bəlaların törətdiyi faciələrdən xəbərdar olsalar, onda gələcəkdə bu bəlaların yaranmasına imkan verməzlər.

Təbiət indiyə qədər mövcud olanların, gələcəkdə yaşayacaq insanların mülkiyyətindədir. Təbiətin mühafizəsi sahəsində şagirdlərin mənəvi məsuliyyəti bütövlükdə həyatın qorunmasına aid olan mənəvi məsuliyyətdir.

Ona görə gənc nəslin, xüsusilə məktəbəqədər yaşlı uşaqların, ibtidai sinif şagirdlərinin təbiətə məhəbbət ruhunda tərbiyə edilməsi məktəblərimiz qarşısında duran ən mühüm vəzifələrdən biridir.

Təbiətə insani münasibətləri, əxlaqi cəhətləri vərdiş halına keçirmək, qayğılı münasibət hissi tərbiyə etmək vacibdir (1, 484-485).

Bütün bunları nəzərə alaraq II sinifdə ekoloji tərbiyə ilə bağlı mövzuların tədrisi prosesində şagirdlərə torpağın, suyun, havanın çirkləndirilməsi ilə bağlı informasiyaların verilməsi onları ekoloji bəlalara qarşı mübarizəyə hazırlamış olur. Şagirdlər havanı, torpağı, suyu çirkləndirənlərə qarşı mübarizəyə qalxmaqla cəmiyyətin ekoloji bəlalarına qarşı mübarizəyə qalxmış olurlar. İkinci sinif şagirdləri hər gün qəbul etdikləri suyu çirkləndirənlərə qarşı mübarizəyə qalxsalar onlar gələcəkdə təbiətə qayğılı münasibət bəsləməyi öyrənəcəklər. Şagirdlər bilməlidirlər ki, bir insanın bioloji ehtiyaclarının ödənilməsi üçün gündə təxminən 2-2.5 l su qəbul etməsi vacibdir. Lakin insanın ehtiyac duyduğu su sadəcə həyatını davam etdirmək üçün vacib deyil.

Eyni zamanda onun sağlam yaşamağı üçün lazım olan içmək, yemək bişirmək, təmizlik, hamam, paltar yumaq və s. bu kimi məqsədlərlə istifadə etdiyi suyu nəzərə alsaq, adambaşına gündəlik təxminən 150 litr su düşdüyünü deyə bilərik (2, 25). Əgər suyun saflığı qorunmursa deməli məişətdə, sosial mühitdə insanları bir sıra ekoloji bəlalar gözləmiş olur. Belə informasiyaları ibtidai sinif şagirdlərinə çatdırmaqla biz onların ekoloji tərbiyəsini formalaşdırmış oluruq. Bütün bunlar isə deməyə əsas verir ki, ibtidai siniflərdə bütün fənlərin tədrisi prosesində, xüsusilə həyat bilgisi dərslərində şagirdlərə ekoloji mühitin saflaşdırılması ilə bağlı zəngin məlumatların verilməsi üçün geniş imkanlar vardır. Bu imkanlardan istifadə etməklə müəllimlər ibtidai sinif şagirdlərinə, o cümlədən II sinif şagirdlərinə təbiətə həssas və qayğıkeş münasibət bəsləməyi öyrətməklə yanaşı, onların ekoloji tərbiyəsini günün tələbləri səviyyəsində formalaşdırmış olurlar.

Problemin aktuallığı. Həyat bilgisi fənnini tədris edən müəllimlər kiçikyaşlı məktəblilərin ekoloji tərbiyəsinin formalaşdırılması, onlara təbiətə həssas və qayğıkeş münasibət bəsləməyi öyrətmələri elmi, pedaqoji, metodik cəhətdən mühüm aktuallıq kəsb edir.

Problemin yeniliyi. Kiçikyaşlı məktəblilərə ekoloji bilikləri verməklə yanaşı bu biliklərin fonunda onların şəxsiyyət kimi yetişdirilməsidir. Bu, o deməkdir ki, şəxsiyyətyönlü təhsilin məzmununun yaradılması prosesində kiçikyaşlı məktəblilərə təbiətə qayğılı və həssas münasibətin formalaşdırılması önə çəkilməlidir.

Problemin praktik əhəmiyyəti. Məqalə tərbiyəçilər, müəllimlər, kiçik yaşlı şagirdlər, həmçinin tədqiqatçılar üçün əhəmiyyətli olacaqdır.

Ədəbiyyat

1. Kərimova B., Mehdiyeva G. Həyat bilgisi: 2-ci sinif üçün dərslik. Bakı: Aspoliqraf, 2014.
2. Əli Polad. Bir damcı su. I hissə. Bakı, 2011.
3. Həşimov Ə., Sadıqov F. Azərbaycan xalq pedaqogikası. Bakı,: Ünsiyyət, 2000.
4. Sadıqov F. Pedaqogika: Dərs vəsaiti. Bakı: Adiloğlu, 2012.
5. Sadıqov F., Əliyeva G., Abbasov M.. Ekoloji tərbiyənin etnopedaqoji əsasları. Bakı: Nurlan, 2007.
6. Əliyev F., Bədəlov A., Hüseynov E., Əliyev F. Ekologiya: Ali məktəblər üçün dərslik. Bakı, 2012.

E-mail: veliyeva_1979@bk.ru
Rəyçi: *ped.ü. elm. dok., prof.* **Ş.T. Tağıyev**
Redaksiyaya daxil olub: 05.12.2018

İNFORMATİKANIN TƏDRİSİ METODİKASI

UOT 372.0:002

Roza Nizami qızı Məmmədzadə
Azərbaycan Dövlət Pedaqoji Universiteti

İNFORMATİKA KURSUNUN MƏNİMSƏNİLMƏSİ NƏTİCƏLƏRİNƏ VERİLƏN TƏLƏBLƏR VƏ ŞAGİRD NAİLİYYƏTLƏRİNİN TƏHLİLİ

Роза Низами гызы Мамедзаде
Азербайджанский Государственный Педагогический Университет

ТРЕБОВАНИЯ ПРЕДЪЯВЛЯЕМЫЕ К РЕЗУЛЬТАТОМ УСВОЕНИЕ КУРСА ИНФОРМАТИКИ И АНАЛИЗ ДОСТИЖЕНИЙ УЧАЩИХСЯ

Rosa Mamedzade Nizami
Azerbaijan State Pedagogical University

REQUIREMENTS FOR THE RESULTS OF THE INFORMATICS COURSE AND ANALYSIS OF STUDENT ACHIEVEMENTS

Xülasə: Məqalədə Milli Kurikulumun funksiyaları və ümumi prinsipləri, əsas təhsil pilləsində tədris olunan informatika fənninin əsaslandırılması və ümumi təlim nəticələri şərh edilmişdir. Yuxarı siniflərdə kursun tədrisi zamanı əsas təhsil pilləsində mənimsənilmiş bacarıq və vərdişlər inkişaf etdirilməklə şagirdlərdə informasiya cəmiyyətinin tələblərinə uyğun zəruri məlumatlarla işləmə bacarıqları, kompüterdə daha çox populyar olan proqram vasitələrindən istifadə vərdişləri formalaşdırılır, onların alqoritmik təfəkkürünün və intellektual səviyyəsinin inkişafı, peşə seçiminə hazırlıqları təmin olunur.

Açar sözlər: informatika, informasiya, informasiya prosesləri, alqoritmik təfəkkür, bilik, bacarıq, vərdiş.

Резюме: Статья посвящена функциям и общим принципам национального куррикулума по информатике, обоснованию ввода курса информатики в школьную программу, результатам обучения информатике. Отмечается, что одним из основных целей преподавания информатики в школе является подготовка подрастающего поколения к жизни в условиях информационного общества, привития навыков 21-го века.

Ключевые слова*: информатика, информация, информационные процессы, алгоритмическое мышления, знание, умение, навыки.*

Summary: Article is devoted to the functions and general principles of the national curriculum on informatics, the rationale for entering informatics courses in the school curriculum, and the results of teaching informatics. It is noted that one of the main goals of teaching computer science at school is to prepare the younger generation for life in the conditions of the information society, to develop the skills of the 21st century.

Key words: *computer science, information, information processes, algorithmic thinking, knowledge, skill, skills*

1. MİLLİ KURİKULUMUN FUNKSİYALARI VƏ ÜMUMİ PRİNSİPLƏR

"Kurikulum" latın mənşəli söz olub lüğəvi mənası "kurs", "yol", "istiqamət" deməkdir. Lüğətlərdə "təlim kursu", "tədris planı", "proqram" kimi izah olunur. "Kurikulum" bir pedaqoji anlayış kimi 1990-cı illərin sonlarından başlayaraq Azərbaycan dilində istifadə olunmağa

başlamışdır. 1999-cu ildən etibarən Respublikamızda mərhələ-mərhələ həyata keçirilən Təhsil islahatının 2003-2013-cü illəri əhatə edən üçüncü mərhələsində "Ümumi orta təhsilin keyfiyyəti və real tələbatlara uyğunluğu" adlı komponentin altkomponentlərindən biri kimi "Kurikulum islahatı" təsdiq olunmuş və bu sahədə mütəmadi olaraq işlər görülmüş, tədbirlər həyata keçirilmişdir: Kurikulum Şurası təsis edilmiş, Kurikulum Mərkəzi yaradılmış və təhsil kurikulumlarının hazırlanmasına başlanılmışdır. Ölkə miqyasında tələbyönümlü kurikulumların hazırlanmasına müəllim, tərbiyəçi, məktəb rəhbəri və təhsil mütəxəssislərinin təmsil olunduğu, eləcə də təhsillə bilavasitə bağlı olan cəmiyyət üzvlərinin iştirak etdiyi işçi və ekspert qrupları cəlb olunmuşdur.

İslahat dövründə 2006-cı ildə "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)" sənədi, onun əsasında 2007-ci ildə I-IV siniflər üçün fənn kurikulumları hazırlanaraq təsdiq olunmuşdur. 2011-ci ildə isə V-XI siniflər üçün fənn kurikulumları təsdiq olunaraq istifadəyə verilmişdir. Bundan əlavə, məktəb, eləcə də dərs kurikulumu nümunələri hazırlanmışdır. Təhsil kurikulumları hazırlanarkən onların nəticəyönlü, tələbyönlü, şagirdyönlü, şəxsiyyətyönlü və inteqrativ xarakterə malik olması didaktik tələblər kimi nəzərə alınmışdır.

Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində tədris edilən digər fənlər kimi informatikanın da tədrisi ümumi təhsilin Konsepsiyası - Milli Kurikulum sənədinə əsaslanır. Respublikada həyata keçirilən təhsil islahatlarının nəticəsi olaraq bu sənəd 2008-ci ildən ümumtəhsil məktəblərində tətbiq edilir.

Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası - Milli Kurikulumu konseptual xarakterli çərçivə sənədi olub ümumi təhsil üzrə təlim nəticələrini və məzmun standartlarını, ümumi təhsilin hər bir pilləsində nəzərdə tutulan fənləri, həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının miqdarını, pedaqoji prosesin təşkili, təlim nailiyyətlərinin qiymətləndirilməsi və monitorinqi üzrə əsas prinsipləri, fənn kurikulumlarının strukturunu əhatə edir.

Milli Kurrikulum ictimai-siyasi, mədəni və sosial həyatın qloballaşdığı və universallaşdığı, informasiya-kommunikasiya texnologiyalarının rolunun artdığı, rəqabətin gücləndiyi müasir dövrdə hər bir şəxsin istedad və qabiliyyətinin müstəsna əhəmiyyət kəsb etdiyi nəzərə alınaraq, müstəqil qərarlar qəbul etməsi üçün onun zəruri təhsil səviyyəsinə və bacarıqlara malik olmasına, cəmiyyətin inkişafının əsas hərəkətverici qüvvəsi olan insanın formalaşdırılmasına və problemlərin həllinə yönəlmişdir.

Milli Kurikulum bilavasitə aşağıdakı funksiyaların reallaşdırılmasına xidmət edir:

1. ümumi təhsilin pillələri, bu pillələrdə tədris olunan fənlər arasında əlaqələrin və ardıcıllığın təmin edilməsi;
2. fənlərin məzmununun cəmiyyətin tələbatına uyğun daim təkmilləşdirilməsi və yeniləşdirilməsi;
3. təlim texnologiyalarının çevikliyi və interaktivliyinin təmin olunması;
4. nəticəyönlü fənn kurikulumlarının hazırlanıb tətbiq olunması;
5. təlim mühitinin, təhsil fəaliyyətinin səmərəliliyinin, təlimin inkişafetdirici və qabaqlayıcı xarakterinin, bilik, bacarıq və vərdişlərin təhsil pillələri üzrə konsentrik prinsip əsasında müəyyənləşdirilməsinin təmin olunması;
6. şagird nailiyyətlərinin obyektiv qiymətləndirilməsi və stimullaşdırılmasının təmin edilməsi.

Milli Kurikulum aşağıdakı ümumi prinsiplərə istinad olunmaqla hazırlanmışdır:

1. milli və ümumbəşəri dəyərlərin nəzərə alınması;
2. ümumi inkişafı, meyil və maraqları nəzərə alınmaqla bütün şagirdlərə əlverişli təlim şəraitinin yaradılması;
3. tələbyönlülük;
4. nəticəyönlülük;
5. şagirdyönlülük.;
6. inteqrativlik.

2. ƏSAS TƏHSİL PİLLƏSİNDƏ TƏDRİS OLUNAN İNFORMATİKA FƏNNİNİN ƏSASLANDIRILMASI VƏ ÜMUMİ TƏLİM NƏTİCƏLƏRİ

İnformatika fənnin tədrisi şagirdlərdə ətraf aləmi informasiya sistemi baxımından təhlil və qərar qəbul etmə bacarıqlarının formalaşdırılmasına, onların informasiya və kommunikasiya texnologiyalarından istifadəyə hazırlanmasına xidmət edir. Yuxarı siniflərdə kursun tədrisi za-

manı əsas təhsil pilləsində mənimsənilmiş bacarıq və vərdişlər inkişaf etdirilməklə şagirdlərdə informasiya cəmiyyətinin tələblərinə uyğun zəruri məlumatlarla işləmə bacarıqları, kompüterdə daha çox populyar olan proqram vasitələrindən istifadə vərdişləri formalaşdırılır, onların alqoritmik təfəkküründün və intellektual səviyyəsinin inkişafı, peşə seçiminə hazırlıqları təmin olunur. Kursun məktəb proqramına daxil edilməsinin əsaslandırılması da məhz bu ideyalara əsaslanır.

İnformatika fənninin tədrisinin ümumi nəticələri aşağıdakından ibarətdir. Kursun tədrisi nəticəsində **şagird:**

informasiya və kommunikasiya texnologiyalarının müasir cəmiyyətdə rolunu və əhəmiyyətini şərh edir;

gündəlik həyatda və məişətdə lazım olan məsələləri kalkulyator rejimində həll edir;

kompüterdə istifadə olunan əməliyyat sistemini tənzimləyir;

mətn redaktorunda sadə olmayan mətnləri yığır və formatlaşdırır, mətnə müxtəlif yaddaşlardan şəkillər daxil edir;

qrafik redaktorda müəyyən çətinlik dərəcəsinə malik şəkillər hazırlayır, şəklin atributlarını dəyişdirir, onlara müvafiq mətnlər daxil edir;

obyektin xassələrini, parametrlərini və mühitini təyin edir, obyektlər sistemini təsnif edir;

obyektin informasiya modelini qurur və onun təbii modelini təsvir edir;

informasiyanın xassələrini, kodlaşdırılmasını, qəbul edilməsi və ötürülməsini nümunələr əsasında izah edir;

şəbəkə növləri vasitəsi ilə məlumatları axtarır, toplayır, sistemləşdirir və onlardan məqsədyönlü istifadə edir;

müxtəlif təqdimatlar hazırlayır və nümayiş etdirir;

elektron cədvəllərdən istifadə etməklə yeni sənədlər tərtib edir;

müxtəlif şəbəkə növlərindən, şəbəkənin işini təmin edən proqram təminatından istifadə edir, sadə ”Web” səhifələr yaradır.

Yuxarı siniflərdə isə fənnin tədrisinin ümumi nəticələri aşağıdakından ibarətdir. Kursun tədrisi nəticəsində **şagird:**

informasiyaları ölçür, təsvir edir və informasiya daşıyıcıları ilə işləyir;

sadə məsələlərin həlli üçün müxtəlif strukturlu alqoritmlər tərtib edir, proqramlar hazırlayır və icra edir;

sadə informasiya modellərinə uyğun informasiyaların işlənməsi alqoritmlərini qurur və qurulmuş modeli kompüterdə tədqiq edir;

kompüterdə istifadə olunan əməliyyat sistemini tənzimləyir və lazımi əməliyyatları icra edir;

qrafik redaktorda müxtəlif təsvirlərin hissələrindən istifadə edərək yeni təsvir yaradır, mətn redaktorunda cədvəl-mətnlər yığır, formatlaşdırır, cədvəllər üzərində hesablamalar aparır, sənədləri çap edir;

müxtəlif təqdimatlar hazırlayır, redaktə edir və ona multimedia effektlərini əlavə edir;

elektron cədvəl prosessorunda və verilənlər bazasında müvafiq əməliyyatları icra edir;

internetin əsas xidmətlərindən istifadə edir, müxtəlif dizaynlı “Web” səhifələr yaradır.

İnformatika kursunun tədrisində bu nəticələrin əldə edilməsi, şagirdləri informasiya cəmiyyətində yaşayıb işləməyə, 21-ci əsrin bacarıqlarına yiyələnməyə kömək edəcəkdir.

Problemin aktuallığı. Müasir dünyada sürətlə gedən sosial, mədəni və texnoloji dəyişikliklər qlobal düşünmə tərzinin əhəmiyyətini xeyli artırır. Yuxarı siniflərdə kursun tədrisi şagirdlərin alqoritmik təfəkküründün və intellektual səviyyəsinin inkişafı ilə yanaşı peşə seçiminə hazırlıqlarına da kömək edir.

Problemin elmi yeniliyi. Məqalənin elmi yeniliyi əsas təhsil pilləsində tədris olunan informatika fənninin əsaslandırılması və ümumi təlim nəticələrinin təhlilindən ibarətdir.

Problemin praktik əhəmiyyəti və tətbiqi. Məqalənin mövzu üzrə tədqiqat aparan magistrantlar əsas da orta məktəb informatika müəllimləri üçün faydalı olacağı düşünülür.

Ədəbiyyat:

1. Ümumtəhsil məktəbləri üçün "İnformatika" dərslikləri (1-11-ci siniflər)
2. Əliquliyev R., Mahmudova R. Təhsilin təkamül prosesində informasiya inqilabının rolu / "İnformatika, informasiya texnologiyalarının təhsildə tətbiqi məsələləri" mövzusunda respublika elmi konfransın materialları. Bakı, 2007, 22-23 may
3. www.Müəllim .edu. az.
4. informatik.az

E-mail: roza.memmedzade@mail.ru
Rəyçi: *ped.ü.fəls.dok., dos.* **İ.B. Əhmədov**
Redaksiyaya daxil olub: 30.11.2018

PSİXOLOGİYA VƏ KORREKSİYA PEDAQOGİKASI

UOT 159.9.

Nailə Tofiq qızı Hüseynova
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
kafedra müdiri

RİNOLALİYA ZAMANI DİAFRAQMAL NİTQ TƏNƏFFÜSÜNÜN FORMALAŞDIRILMASI ÜÇÜN DİDAKTİK MATERİAL

Наиля Тофиг гызы Гусейнова
доктор философии по педагогике, доцент
заведующая кафедрой
Азербайджанского Государственного Педагогического Университета

ДИДАКТИЧЕСКИЙ МАТЕРИАЛ ПО ФОРМИРОВАНИЮ ДИАФРАГМАЛЬНОГО РЕЧЕВОГО ДЫХАНИЯ ПРИ РИНОЛАЛИИ

Nailya Tofiq Quseynova
PhD in pedagogy, assistant professor
head of department of
Azerbaijan State Pedaqoqiical University

TEACHING MATERIAL ON THE FORMATION OF DIAPHRAGMATIC SPEECH BREATHING DURING RHINOLALIA

Xülasə: Rinolaliya zamanı uşaqlarla məşğələlər prosesində nitqdə burun çalarının aradan qaldırılması üçün səsin öyrənilməsinə, düzgün tənəffüsün və səsin əmələ gəlməsinin formalaşması üzrə işlərə tələb olandan daha çox diqqət tələb olunur. Diafraqmal tənəffüsün düzgün formalaşması və materialın düzgün seçilməsi üçün daha az vaxt tələb olunur. Məşğələ prosesində aşağıdakı istiqamətlərə diqqət yetirmək vacibdir: səsin gücünün formalaşmasına; orta reqistrinin formalaşmasına; uşağın səs xüsusiyyətlərinin formalaşmasına.

Açar sözlər: *rinolaliya, nitq tənəffüsü, diafraqmal tənəffüs, yumşaq damaq, səsin güclənməsi, səs xüsusiyyətləri*

Резюме: В процессе занятий при ринолалии для устранения носового оттенка уделяется времени больше чем надобно. Для правильного фомирования диафрагмального дыхания и для подбора материала требуется меньше времени. В процессе занятий обязательно нужно развивать и укреплять такие направления как: формирование силы голоса, формирование среднего регистра голоса, учет особенностей голоса. Работа над речевым дыханием и звукообразованием и есть начальный этап работы над звуком.

Ключевые слова*: ринолалия, речевое дыхание, диафрагмальное дыхание, мягкое небо, усиление голоса, особенности голоса*

Summary: In the process of practicing with rhinolalia to eliminate the nasal shade, more time is given than needed. It takes less time to properly form diaphragmatic breathing and to select a material. In the course of training, it is imperative to develop and strengthen such areas as: the formation of voice strength, the formation of an average voice register, the consideration of voice features. Work on speech breathing and sound formation is the initial stage of work on sound.

Keywords: *rhinolalia, speech breathing, diaphragmatic breathing, soft palate, voice enhancement, voice features*

Rinolaliya zamanı uşaqlarla məşğələlər prosesində nitqdə burun çalarının aradan qaldırılması üçün səsin öyrənilməsinə, düzgün tənəffüsün və səsin əmələ gəlməsinin formalaşması üzrə işlərə çox diqqət tələb olunur. Tapşırıqlarda səsin təmizliyini, gücünü, orta reqistri, uşağın səs xüsusiyyətləri nəzərə alınmaqla sinə mərkəzindən səslənməni, bərabər hava axınının alt dodağa tərəf irəli verilməsini möhkəmləndirmək lazımdır. Əgər səs düzgün "gedirsə", bu zaman dodaqlar və dil ucu yüngül titrəmə hiss edəcək. Səs birləşmələrinin və sözlərin tələffüzü zamanı qabırğaaltı (diafraqmal) tənəffüs və istiqamətlənmiş havanın ağızdan buraxılması izlənilir, yumşaq damaq son dərəcə aktivləşdirilir və daim özünü dinləyir. Bu iş çox zəhmət tələb edən, olduqca fərdi, kənardan rəhbər nəzarəti, kompüterdən keyfiyyətli istifadə və müxtəlif özünüdinləmə üsulları tələb edən işdir.

Bu zaman nəzərə almaq lazımdır ki, bərpaetmə təliminin gedişatında sadəcə səs deyil, nitq əmələgətirmə şərtlərində fonasiya prosesi işlənməlidir, belə ki, nitq zamanı səsin təmizliyi, ifadəliyi və qalıcılığı səsin və nitq səsinin əmələ gəlməsinin aerodinamik təminatı da daxil olmaqla, bir çox faktorlardan asılıdır. Burada vacib qırışaltı təzyiq burulğanının dəstəklənməsi, ağızın optimal açılması və dəqiq diksiya, ağız boşluğunda lazımi hava təzyiqinin əmələ gətirilməsi və s. nəzərdə tutulur. Düzgün səs verməyə "əsas mövqe" kömək edir. O, növbə ilə yerinə yetirilən bir neçə hərəkətdən ibarətdir: çiyin, boyun, ənsə əzələsi bölgələrində gərginliyin aradan qaldırılması (öz boynunu, başını "gövdəsi üstündə gül" kimi təsəvvür etmək), rahatlanmış alt çənə və dil divarı, yaxşı yuxarı qaldırılmış yumşaq damaq, həmçinin döş qəfəsinin aşağı hissəsinin yüngülcə genişlənməsi. Vərdişlər arasından rahat və asan əmələ gələn fərdi, təbii səs axtarılır. Bu məqsədə çatmaq üçün əvvəlcə qısa səslənmədən daha uzun səslənməyə keçməklə "külək vıyıltısına" bənzəyən “vvv-vvv-vvv” səsi əks etdirilir, sonra isə ön qapalı “İ”,”E” səsləri də qoşulur, belə ki, rinofoniya zamanı səs kar və əlavə küylü olur. Burun ətrafı boşluq və zonanın, digər üz əzələlərinin qıcıqlandırılması zamanı səs qırışlarının və qırtlaqdaxili əzələlərin funksiyasının tonusu artır. Buna görə də “L” səsinin tələffüzündə birləşmələr və sözlər aşağıda verilmiş bölgələri əvvəlcə sığallama, sonra isə hər iki əlin barmaqlarının yastıqcıqları ilə döyməklə müşayiət olunur:

1) Alın bölgəsi - alının ortasından gicgaha qədər “İ - İ - İ” tələffüz etməklə; alının ortasından qulaq çanağına qədər “İ-İ-İ” tələffüz etməklə;

2) Çənəüstü bölgəsi - burun divarından qulaq çanağına qədər "li- li- li, vi- vi- vi" tələffüz etməklə;

- üst dodağın ortasından qulaq sırğalığına qədər "vi- vi –vi" tələffüz etməklə;

- ağız kənarlarından almacıq sümüyü qövslərinə qədər "ivi- ivi –ivi" tələffüz etməklə.

3) Alt dodaqdan almacıq sümüyü qövsünə qədər zi zi zi tələffüz etməklə. Daha sonra səs üzərində əsas iş mərhələlərinə növbəti tapşırıqlar əlavə edilir.

1. Səsin sazlanması və çənənin sıxılması və boyun, qırtlaq və çiyin kəməri əzələlərinin gərginliyini aradan qaldırmaqla sabit fonasiyanın möhkəmlənməsi.

2. Dodaqlarda nitq səslərini fokuslaşdırmaqla səsin və tənəffüsün işlənilməsi. 3. Səsin incə həmləsinin formalaşdırılması.

4. Səsin geniş diapazonunun inkişafı.

5. Səsin maneəyə davamlığının, parlaqlığının və uçuşunun təmini.

6. Səsin güclənməsi və zəifləməsi bacarıqlarının məşq edilməsi.

Məşğələlər sistemində tənəffüsün formalaşdırılmasına ciddi diqqət verilir. Uşaqlara izah edilir ki, nitq əmələgətirmədə tənəffüs aparatının düzgün işi üçün inkişaf etdirilmiş tənəffüs əzələlərinə sahib olmaq lazımdır və təklif edilmiş tənəffüs gimnastikası ağ ciyərlərin həyat tutumunu, qarın və sinə əzələlərinin hərəkətliliyini, diafraqmaları yüksəltməyə kömək edir, ağızdan nəfəs vermənin intensivliyini və uzunluğunu inkişaf etdirir.

İlk növbədə, diafraqmal tənəffüsü işləmək məqsədəuyğundur, hansı ki, daha dərin, güclü hesab olunur, ağızdan uzun nəfəs vermə zamanı idarə edilir və tənəffüsün tezliyini zəiflədir. Sonuncusu, öz növbəsində, buraxılan havanın sürətini azaldır, bununla da nəfəsin burundan sızmasını zəiflədir, dilin rahatlanmasını və dil arxasının yastılanmasını təmin edir. Diafraqmal tənəffüs üzərində işlər əvvəlcə horizontal vəziyyətdə və ya yarımoturulu halda, sonra isə ayaq üstdə aparılır. Nəfəs alma zamanı qarının üst di-

varı və döş qəfəsinin aşağı hissəsi bir qədər qalxır, nəfəs vermənin vıyıltısı zamanı isə aramla yerinə dartınır. Sonra fasilə verilir, bunun nəticəsində də şagird istirahət edir və damaq, udlaq əzələlərini rahatladır.

Bir qədər sonra tapşırıq təkrarlanır. Qarın divarının və döş qəfəsinin aşağı hissəsinin hərəkəti əlin bükücü əzələsinə yüngül nəzarət edir ki, çiyinlər qalxmasın. Beləliklə, yalnız uzanan deyil, həmçinin təkanşəkilli tənəffüs də işlənilmiş olur (sonuncu diafraqmanın və qarın divarının hərəkətini daha aydın hiss etməyə kömək edir). Məlumdur ki, diafraqma, udlaq və digər bütün rezonatorlar vahid bir idarə sistemi ilə təchiz edilmişdir ki, bu da nitq aparatının müxtəlif orqanlarını gimnastika ilə stimullaşdırmağa imkan verir.

Tənəffüs tapşırıqları zamanı yumşaq damaq qaldırılmış vəziyyətdə saxlanılır. Uşaqlar ekspirator əzələlərinin bərabər aktivliyinin saxlanılması hesabına hava axınını sərf etməyin rasional üsulunu öyrənir (diafraqmaya bərabər təzyiq). Buna görə də oyun materialından nitq materialına keçərkən ilk tədbirlərə ciyərlərdən hava axınının zəifləməsi və bilərəkdən əsnəmə, döşün alt hissəsində dəstəyin hiss olunması fonunda ağızdan sakit, yüngül və istiqamətlənmiş nəfəs vermənin işlənilməsi aiddir. Hərəkətlərin bu cür koordinasiyası tədricən mənimsənilir, dəfələrlə təkrar və möhkəmlənmə tələb edir.

Nitq - səslənən tənəffüsdür. Burada uşaqlara tənəffüs və fonasiya orqanlarını obrazlı şəkildə tərsinə çevrilmiş ağac kimi təsvir etmək yerinə düşər, burada yarpaqlar - ağ ciyərlər, gövdə - traxeyadır, orqan sözündə vurğu ilə oynamaq və rezonanslaşdırmada bronxotraxeya sahəsinin iştirakı haqqında məlumat əldə etmək lazımdır. Vacib aerodinamika şərtlərinin dəstəklənməsi üçün qabırğaaltı növlü tənəffüsdə ağızdan istiqamətlənmiş nəfəsin dozalaşdırılmış enerjisi sazlanmalıdır. Məşqlər diafraqmanın aktivliyini və tonusunu, fonasiya və artikulyasiyanın koordinasiyasını yüksəldir (damağın arxasında nitq səsinin burun boşluğundan sızmasını əngəlləyən sıx qapanmış sahə). Bu zaman saitlər qüvvətli və enerjili tələffüz edilir.

Saitlərlə səslənən ağızdan verilən nəfəs elə təmizdir ki, müxtəlif quruluşlu samit səslər rahatlıqla və gərginliksiz bu sapa muncuq kimi düzülmüşdür. Havanın səs axıntısının enerjililiyini və kəsintisizliyini pozmaq olmaz (əllə hiss etmək). Ağızdan hava axınını tapşırıqlar vasitəsilə uzadırlar ki, bu da uşağa hecalar, sözlər və qısa cümlələr seriyasının effektli tələffüzünə keçməyə imkan verir, belə ki, səslərin motorlu həyata keçirilməsi ən az amplitudla, hərəkətə qənaətlə və saitlərin - köməkçi səslərin uzanması hesabına onların ön proseslərinin zəifləməsilə və samitlərin qısalması ilə baş verir. Tənəffüsün fokuslaşdırılması, "dodaqlanma" açıq yumruq tutulması ilə əlavə boru vasitəsilə düzəlir. Nitq formasından burun səsləri götürülür.

Bəzi müəlliflər nitq tənəffüsünün korreksiyası üçün şar, rezin oyuncaq, kamera üfürüb doldurmağı tövsiyə edirlər. İşin ilk mərhələlərində belə tapşırıqlardan çəkinmək lazımdır, belə ki, şarın və ya kameranın üfürülməsi ağız boşluğunda təzyiqin yüksəlməsi burundan ciddi hava axınının verilməsi və yumşaq damağın gərilmə anına diqqətin zəifləməsinə gətirib çıxarır. Ağızdan verilən nəfəsin istiqamətlənmiş və qənaətli olması üçün növbəti tapşırıqları təklif edirik:

1) Stoldan və ya əldən xırda əşyaları (kağız zolaqları, pambıq, lələk və s.) və dairəvi əşyaları (karandaş, qələm) üfürmək;

2) Dodaq qarmonunda, uşaq tütəyində, sümsüdə və deşikləri olan digər nəfəsli alətlərdə ifa;

3) Hava axınının dodaqların xırda titrəyişi ilə dəstəklənməsi (arabaçı kimi "tprrrr"); sabun köpüklərini üfürmək;

4) Mayenin arasıkəsilməz gurlaması ilə (əvvəlcə qısamüddətli - bölünmüş- uzunmüddətli) şüşə borunun köməyi ilə buraxılan hava axının dəstəklənməsi;

5) Güclü şaxtada olduğu kimi əli isitmək;

6) Yanaqların davamlı bərabər hava ilə şişirdilməsi;

7) Burun dəliklərini sıxmaqla, sonra isə sıxmamaqla, sonra yarıqapalı dodaqlarla fit;

8) Buraxılan hava axını ilə alovu (şamı) söndürmək;

9) Havada selluloid və ya probka şarının saxlanılması, kiçik pambıq topasını üfürməklə havada saxlamaq, içində su olan ləyəndə, çanaqda və ya vannada plastik ördəyi, qazı, balığı, gəmini üfürməklə hərəkət etdirmək;

10) Divarın qarşısında kağıza elə üfürmək ki, kağız divara yapışsın və oradan düşməsin;

11) Havanı ağızda saxlamaq - yanaqları şişirtmək və havanı tez buraxmaq; dodaqları kip sıxmaq, sonra dodaqların vəziyyətini dəyişməklə və alt çənəni yavaş yavaş aşağı salmaqla havanı buraxmaq (i, u, a, o);

12) Ağıza hava yığmaq və onu növbə ilə gah ağızdan, gah burundan buraxmaq;

13) Burun dəliklərini sıxmaqla və sıxmamaqla səslərin hava ilə buraxılması (p, f, t, k).

Bu tapşırıqlar zamanı nəzarət etmək lazımdır ki, nəfəs vermə ağızdan, uzunmüddətli olsun, eyni zamanda, yumşaq damaq yuxarı dartınsın. Tapşırıqlar ara verməklə bir neçə dəfə aparılır, hansı ki, yenidən damaq-udlaq əzələlərinin aktivləşdirilməsi üzrə tapşırıqlarla zənginləşdirilir.

Döş qəfəsinin alt hissəsinin və qarın divarının hərəkətinə nəzarət etməklə, əvvəlcə qısa, yetəri qədər enerjili nəfəs vermənin; daha sonra - uzunmüddətli, davamlı, sonlara doğru zəifləməyən və nəhayət, fit kimi dodaqlara toplanmış nəfəs vermənin işlənilməsi.

Ciyərlərdə havanın olmasına baxmayaraq, işin davamında tez zamanda nəfəsin toplanması, yəni hava ehtiyatı saxlamaq və "əlləri isitmə" üsulu ilə hecaları, sözləri və cümlələri tələffüz etmək. Tənəffüs tapşırıqlarını yerinə yetirərkən şagird burun girişlərinə kiçik güzgü yaxınlaşdıraraq nəfəs verməyə nəzarət edir: burundan nəfəs verildikdə güzgü yaxud parlaq əşya tərləyəcək. Tənəffüsün diferensiallaşdırılması üçün müxtəlif tapşırıqlardan istifadə olunur: burundan nəfəs vermə və alma, burundan nəfəs alma – ağızdan nəfəs vermə, ağızdan nəfəs alma – burundan nəfəs vermə, ağızdan nəfəs alma və vermə. Bu halda yumşaq damağın gərilmə və boşalma kinestetik hissiyyatı işlənilir, ağızdan və burundan nəfəs vermə diferensiallaşdırılır.

Yuxarıda göstərilən tapşırıqlarla və alt çənənin boşalması ilə birgə dil arxasının korreksiyası və ağız kənarlarının bir qədər yanlara hərəkəti ilə burun çalarsız səslərin və ağız rezonansının əmələ gəlməsi üçün şərait yaranır.

Tapşırıq 1. Sonluqları qabarıq deməklə bir nəfəsə birləşmələrin və sözlərin tələffüzü.

Daha sonra verilən bir nəfəs yuxarıda göstərilən üç-dörd sözün, daha sonra isə qısa cümlələrin birlikdə deyilməsi yolu ilə artırılır.

Tapşırıq 2. Bu sonluqlara nəzarət etməklə cümlələrin deyilməsi:

Tapşırıq 3. Dodaqlarda nəfəsin hayqırmaq kimi toplanması:

Tapşırıq 4. Verilən nəfəsin yayılmasına və uzunluğuna, sayma intonasiyası ilə sözlər qrupunu, həmçinin miqdarını artırmaqla say vahidlərini deyirlər.

İstənilən sözlər zəncirini bir neçə dəfə təkrar etməklə, sonradan hər dəfə bir söz əlavə etmək olar; məsələn, tapşırığa nitq materialının dəqiq və tam deyilməsi, hava toplanmadan bərabər və sərbəst nəfəs vermə əlavə edilir. Hər sözlər zəncirinin bir sözlə böyüdülməsi bir həftə ərzində işlənilir. Sözün və rəqəmin sayının artırılmasına o zaman keçmək olar ki, son sözlər "Bir! Get!" tam, rahat, yetərli ağız tənəffüsü ilə və yumşaq damağın yuxarı qaldırılmış vəziyyətdə saxlanılması ilə tələffüz olunsun. Daha sonra, yanıltmac deyildiyi zaman nəfəsin uzun və bərabər yayılması sakit tempdə öyrənilir. Məsələn, verilən nəfəsi bir neçə hissəyə bölməklə ardıcıllığı demək.

Şeir mətninin fasilələrə bölünməklə işlənilməsi, əvvəlcə bir, sonra iki sətrin tələffüzündən sonra fasilə, daha sonra isə birnəfəsə bütün bəndi demək ağızdan nəfəs vermənin rasional istifadəsi nitqin parlaqlığını, dəqiqliyini və aydınlığını, səsin melodikliyinin və xoşahəngliyinin inkişafını, onun zəifləməsinin qarşısının alınmasını təmin edir.

Problemin aktuallığı. Məktəbəqədər yaşlı rinolaliyalı uşaqlarda nitq tənəffüsünün formalaşdırılması işi didaktik materiallardan istifadə edərək, nitqində yaranan çətinliklərə və onların aradan qaldırılması yollarına həsr olunub.

Problemin elmi yeniliyi. Rnolaliya zamani diafraqmal nitq tənəffüsünün formalaşdırılması üçün didaktik material hazırlanmışdır.

Məqalənin praktik əhəmiyyəti. Məqalədə irəli sürülən təkliflər, nəticələr, məktəbəqədər müəssisələrdə, xüsusi məktəb və internatlarda, reabili-tasiya mərkəzlərində təlim-tərbiyə prosesində nəzərə alına bilər.

Ədəbiyyat:

1. Вансовская Л.И. Методы обследования больных с открытой ринолалией // Современные проблемы физиологии и патологии голоса и речи. М., 1979.

2. Вансовская Л.И. Устранение нарушений речи при врожденных расщелинах неба. СПб.: «Гиппократ», 2000.

3. Чиркина Г.В. Нарушение речи при ринолалии и пути их коррекции: Автореф. дис. … д-ра пед. наук. М., 1987.

E-mail: nailyahuseyn72@gmail.com
Rəyçilər*: ped. ü. fəls. dok., dos.* **D.Ə. Dostuzadə**.
ped. ü. fəls. dok. **E.M Kərimova**
Redaksiyaya daxil olub: 04.01.2019.

UOT 159.9.

Gülnarə Həmzəbəyovna Əlixanova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
baş müəllimi

YENİYETMƏLƏRİN TEMPERAMENT TİPİNDƏ YAŞ XÜSUSİYYƏTLƏRİ VƏ FƏRDİ ÜSLUBUN NƏZƏRƏ ALINMASI

Гюльнара Гамзабековна Алиханова
старший преподаватель
Азербайжанский Государственный Педагогический Университет

ВОЗРАСТНЫЕ ХАРАКТЕРИСТИКИ ПОДРОСТКОВ ПО ТИПУ ТЕМПЕРАМЕНТА И С УЧЕТОМ ИНДИВИДУАЛЬНОГО СТИЛЯ

Gulnara Alikhanova Kamzabekuly
Senior lecturer of
Azerbaijan State Pedagogical University

AGE CHARACTERISTICS OF TEENS IN TEMPERAMENT TYPE AND TAKING INTO ACCOUNT THE INDIVIDUAL STYLE

Xülasə. Məqalədə yeniyetmələrin temperament tipində onların yaş xüsusiyyətlərinin əsas təzahürlərinin müəyyənləşdirilməsi, müasir psixologiyanın elmi-nəzəri tələbləri səviyyəsində həmin problemin həlli yolları açıqlanır. Bundan başqa, yeniyetmələrin temperament tipində yaş xüsusiyyətlərinin əsas təzahürlərini öyrənməklə yanaşı, həm də bəzən nəzərə alınmayan və hər bir şagirdin temperament tipi ilə əlaqədar olan fərdi üslub ifadəsi də müəyyənləşdirilir.

Açar sözlər: *temperament, yaş xüsusiyyətləri, fərdi üslub, davamlı xüsusiyyətlər, qarşılıqlı münasibətlər, özünə inam*

Резюме. В статье описывается, как определяются основные проявления у подростков, их возрастные характеристики по типу темперамента и решение этих проблем на уровне научных и теоретических требований современной психологии. Кроме того, определяются основные характеристики возрастных характеристик подростков по типу темперамента у каждого ученика, а также отдельные выражения стиля, которые иногда игнорируются.

Ключевые слова: *темперамент, возрастные характеристики, индивидуальный стиль, непрерывность, взаимоотношения, чувство собственного достоинства*

Summary. The article describes the ways in which adolescents determine the basic manifestations of their age characteristics in the temperament type, and the solution of these problems at the level of scientific and theoretical requirements of modern psychology. In addition, the basic characteristics of the age characteristics of adolescents, as well as the individual style expressions, which are sometimes ignored, and each student's temperament type is defined.

Key words: *temperament, age characteristics, individual style, continuous features, mutual relationships, self-esteem*

Psixologiyada insanların fərdi fərqləri "temperament", "xarakter", "qabiliyyət", "şəxsiyyət" kimi anlayışlarla ifadə olunur. Temperament sözünün latıncadan tərcüməsi "hisslərin lazımi qarşılıqlı nisbəti" deməkdir.

Lap kiçik uşaqlar və hətta yeni doğulmuş körpələr də bir-birindən əhəmiyyətli dərəcədə fərqlənirlər. İlkin olaraq, bu, özünü fiziki əlamətlərdə büruzə verir: saçın və gözün rəngi, bədən quruluşu, üz cizgiləri və s. Onlar ali sinir

sisteminin fəaliyyətinə görə də fərqlənirlər: bəzisi müvazinətli, digəri daha fəal və s. Lakin ali sinir sisteminin mexanizmləri onun psixi xüsusiyyətlərinə cavab verən və irsi olaraq fəaliyyətin müxtəlif növlərində müəyyənləşən birliyindən ibarətdir.

Yeniyetmələrdə temperament xüsusiyyətlərinin öyrənilməsinə aid aparılan tədqiqatlarda sosial – davranış münasibətləri sistemi problemi E. Kreçmer, U. Şeldon, S. Stivers, İ. Pavlov, A.V. Petrovski, B. Teplov, Ə.Y. Seyidov, Ə.S. Bayramov, F.Ə. İbrahimbəyov, Ə.Ə. Əlizadə, M.Ə. Həmzəyev, R.İ. Əliyev və b. araşdırdıqları sahələrdəndir.

Temperament haqqında geniş yayılmış, bütün dünya miqyasında qəbul edilən üçüncü nəzəriyyə sinir sistemi nəzəriyyəsidir. Akad. İ.P. Pavlovun irəli sürdüyü bu nəzəriyyə ali sinir fəaliyyəti (ASF) sahəsində əsas kəşflərdən biri olmuşdur. İ.P. Pavlov bu yolla temperamentin fizioloji əsasları haqqında təlim yarada bilmiş və belə bir qənaətə gəlmişdir ki, temperamentin tipləri sinir sisteminin tiplərinə əsasən formalaşır, yəni, sinir sistemi tipləri temperament tiplərinin fizioloji əsasını təşkil edir. Sinir sisteminin bu tipləri anadangəlmə xarakter daşıyır. Ona görə də İ.P. Pavlov bu tipləri genotip adlandırmışdır (1,447).

Bu xarakterik xüsusiyyətlərinə görə dörd temperament tipi qeyd edilir: sanqvinik, xolerik, melanxolik və fleqmatik. Qeyd etmək lazımdır ki, temperament üçün "yaxşı" və ya "pis" anlayışı qəbuledilməzdir. Bütün temperament tipləri eyni dərəcədə əhəmiyyətlidir. Birinci, onların hamısı təkamül prosesində qorunublar. İkincisi, temperament tipinin hər biri özünün, onun mənfi cəhətlərini kompensasiya edən fərdi xüsusiyyətlərinə malikdir, digər tiplərdə bu xüsusiyyətlər yoxdur.

Temperament tipində yaş xüsusiyyətləri mühüm əhəmiyyət kəsb edir. Əsas əlamətlərdən olan ümumi aktivlik, hərəki fəallıq və emosionallıq müxtəlif yaş dövrlərində, məktəbəqədər, kiçik məktəbli, yeniyetmələk, gənclik, eləcə də sonrakı yaş dövrlərində özünəməxsus xüsusiyyətlərlə meydana çıxır. Uşağın aktivliyi ilə yeniyetmənin aktivliyi, uşağın emosionallığı ilə yeniyetmənin emosionallığı bir-birindən çox fərqlənir. Şagirdlərin yaş xüsusiyyətlərini nəzərə almadan temperament tipi üçün səciyyəvi olan xassələri düzgün təhlil etmək olmaz (2, 102).

Uşaqlar arasında eyni bir temperament daxilində fərdi fərqlər də mövcuddur. Xolerik temperament tipli uşaqlar çox fəaldırlar, işdə ardıcıl deyillər, kütləvi oyunları və yaşıdları ilə qarşılıqlı münasibətdə olmağı xoşlayırlar, tez inciyir və tez qəzəblənirlər. Bu hal davamlı olur və uzun müddət çəkə bilir. Səs - küylü, davakar, tez qərar verən və kinlidirlər.

Sanqvinik temperament tipli uşaqlar maraqlandıqları işlərlə məşğul olduqları zaman məhsuldardırlar. İş dözüm və çoxlu səy tələb edirsə və monotondursa, həmin işə marağı itirir, sakit və darıxdırıcı olurlar. Emosiyalar tez yarandığı kimi, tez də keçir. İti ağıla malikdirlər, yenini tez qavrayırlar, diqqətlərini asan və cəld mərkəzləşdirə bilirlər, dəyişən həyat şəraitinə tez uyğunlaşırlar. Sanqvinik uşaqlar çox maraqlı və çətindirlər: onların çoxlu arzuları vardır, bir neçə işə birdən girişirlər, başladıqları işi sonadək aparmırlar. Tez incisələr də, tez də unudurlar, kinli deyillər. Göz yaşlarını asanlıqla gülümsəməklə əvəz edə bilirlər.

Fleqmatik temperament tipli uşaqlar xarici görünüşcə zəif ifadə olunurlar. Onlarda psixi proseslər kifayət qədər yavaş, nitq tempi aşağı həddə təzahür edir. Sakit, müvazinətli, astagəl, tələsməyən, inadkar və dözümlüdürlər. Maraqları davamlı və uzun müddətlidir. Fleqmatik uşaqlar sakit, mədəni, az ünsiyyətli və introvertdirlər, emosional oyanıqlıqları zəifdir, reaksiya sürəti yavaşdır.

Melanxolik temperament tipli uşaqlar davamlı, uzun müddətli əhval-ruhiyyəyə malikdirlər, öz hisslərini zəif ifadə edirlər (bəzən "partlayışlar" baş verir). Hər şeyi şişirtməyə meyillidirlər, dünyanı boz rəngdə görürlər, tez depressiyaya düşürlər, astagəldirlər, tez yorulurlar. Bu uşaqlar özlərini sakit aparırlar, utancaqdırlar, ünsiyyətdən qaçırlar. Tez inciyirlər və incikliklərı uzun müddət keçmir. Küsəyəndirlər və ən əhəmiyyətsiz xarici müdaxilələrə görə böyük narahatlıqlar keçirməyə meyillidirlər (3, s. 76 – 85).

Aparılmış tədqiqatlara görə, şagirdlərdən biri cisim və hadisələri tez, başqası isə gec qavrayır: biri diqqətini bir cisimdən digərinə asanlıqla keçirdiyi halda, başqası çətinliklə keçirir, biri tez fikirləşir, başqası isə gec fikirləşir. Psixi cəhətdən sağlam uşaqlarda intellektin dinamik

xüsusiyyətləri, o cümlədən psixi proseslərin – diqqət, qavrayış, hafizə, təfəkkür və s. sürəti onların keyfiyyətini xarakterizə etmir. Deməli, insanın əqli imkanları onların temperamenti ilə xarakterizə olunmur.

Təlim prosesində şagirdlərdə özünəməxsus fərdi üslub formalaşdıqda, onlar daha yaxşı oxuyur, ev tapşırıqlarını vaxtında və səliqə ilə yerinə yetirirlər. Fərdi üslub birdən-birə yaranmır. Kiçik yaşdan fərdi üslubun formalaşmasında təlim və tərbiyə mühüm rol oynayır. Şəxsiyyətin davranış xüsusiyyətləri yalnız davranış tərzində və hərəkətlərdə deyil, əqli fəaliyyətdə, məqsəd, maraq və ünsiyyət sahəsində də özünü göstərir.

Bu sahədə aparılmış eksperimentlər sübut edir ki, faktiki olaraq bir sinifdə tamamilə eyni iki şagird tapmaq mümkün deyil. Onlar yalnız biliklərin mənimsənilməsində müxtəlif hazırlıq səviyyəsinə görə deyil, daha dayanıqlı fərdi xüsusiyyətlərinə görə də fərqlənirlər. Bu fərdi xüsusiyyətlərlə dərs prosesinin təşkilinə öz tələblərini irəli sürürlər (4, 153-159).

Müşahidələr göstərir ki, müəllimlərin çoxu təcrübələrinə əsasən şagirdin temperament tipinə cavab verən tempdə sual verməyə uyğunlaşmışlar. Tədris fəaliyyətinin uğurları yalnız temperament tipindən və tədrisin metodikasından asılı deyil. Təlim və tərbiyə temperamenti dəyişməməlidir, əksinə, bu və ya digər temperament tipinin mənfi cəhətlərini üzə çıxararaq, onun müsbət tərəflərini inkişaf etdirmək və ya şəxsiyyətin mövcud temperament cizgilərinin üzərində yaratmaq məqsədi qoyulmalıdır. Hər şagirdin temperament tipini bilən müəllim hər bir şagirdinin fəaliyyətini elə təşkil etməlidir ki, davranışda və tədrisdə şagirdə mane olan mənfi temperament tipinin xüsusiyyətləri mütəmadi olaraq azalmaya doğru getsin.

Xolerik temperament tipinə malik olan şagirdlərdə məşq yolu ilə mütəmadi olaraq inkişaf etməyən tormozlayıcı prosesi inkişaf etdirməli, arzuolunmaz reaksiyaları və özünütormozlama bacarığı vərdiş halına gətirməlidir. Onlarda davamlı olaraq düşünülmüş cavablar, yoldaşları və yaşlılarla münasibətdə, davranışda özünü ələ almaq kimi müsbət xüsusiyyətlər tərbiyə olunmalıdır. Bu zaman xolerikin monoton və gərgin işləri xoşlamadığı da nəzərə alınmalıdır. Xolerikin canıyananlığı, enerjili və fəallığı, məntiqli təklifləri rəğbətləndirilməlidir. Tez-tez affekt vəziyyətdə düşdüyünə görə, onunla qəti və yüksək tonda danışmaq məsləhət deyil, çünki, bu onun gərginliyinin daha da artmasına səbəb olacaqdır (5, 408).

Melanxolik temperament tipinə malik olan şagirdlərə yumşaqlıqla, taktiki olaraq və incəliklə təsir göstərmək lazımdır. Həddən ziyadə ciddilik və tələblərin sərt şəkildə artırılması işə yararlılığı aşağı salır və ya dayandırır. Dərsdə cavabların verilməsi zamanı rahat şərait yaratmaqla tez-tez soruşmaq lazımdır. Bu zaman müəllimin rəğbətləndirməsi, tərifi və fəallaşdırması böyük rol oynayır. Ünsiyyətlilik onları ictimai işlərə cəlb edərək tədricən kollektivə yönəltməklə inkişaf etdirilir.

Müəllimin diqqətini fleqmatik temperament tipinə malik olan şagirdlər də cəlb etməlidirlər. Adətən, bu şagirdlərə kifayət qədər diqqət yetirilmir, çünki onlar sakitdirlər, heç kimə mane olmurlar, oturaqdırlar, ona görə də elə bil ki, onları aparılan sosial işin obyektinə çevirməyə heç bir əsas yoxdur. Lakin fleqmatikdə fəaliyyətə qarşı laqeydlik, həvəssizlik və süstlüyün baş verməməsi üçün onda çatışmayan yüksək hərəkətlilik, fəallıq və cəldlik kimi keyfiyyətləri inkişaf etdirmək lazımdır. Onları təkcə dərs zamanı müəyyən tempdə işləməyə vadar etmək deyil, eyni zamanda, yoldaşlarının və özünün nə etdiyinə emosional münasibət yaratmaq üçün fəallaşdırmaq vacibdir.

Sanqvinik temperament tipinə malik olan şagirdlərdə oturaqlıq, dayanıqlı maraqlar, hər hansı işə daha ciddi münasibət, tələsməmək, hövsələ, bəzən yaranan yüngül fikirlərdən qurtulmaq, işi axıradək bitirmək və s. tərbiyə etmək lazımdır. Öz temperamentini idarə etmək və mənfi təzahürlərini dəf edərək müsbət xüsusiyyətlərin möhkəmləndirilməsi üçün şagirdin özünütərbiyənin məntiqli üslubuna malik olması çox böyük rol oynayır (6, 275).

Fikrimizcə, yeniyetmələrin təlim fəaliyyətlərində temperament tipinin yaş xüsusiyyətlərinin nəzərə alınması probleminin psixoloji təhlili, yeniyetmələrin fərdi üslubunun dərk edilməsinə, temperamentin müsbət xüsusiyyətlərini möhkəmləndirməklə yanaşı, mənfi xüsusiyyətlərinin idarə olunmasına yaxından bələd olmağa köməklik göstərmiş olar.

Problemin aktuallığı təlimdə yeniyetmələrin temperament tipində yaş xüsusiyyətlərinin və fərdi üslubun nəzərə alınması istiqamətlərinin araşdırılıb seçilməsi ilə bağlıdır.

Problemin elmi yeniliyi təlimdə yeniyetmələrin temperament tipində yaş xüsusiyyətlərinin və fərdi üslubun nəzərə alınmasının amilinə xüsusi diqqət yetirilməsindən ibarətdir.

Problemin praktik əhəmiyyəti ondan ibarətdir ki, məqalədən elmi yaradıcılıq işində bu mövzu ilə maraqlananlar, eləcə də ali və orta ixtisas məktəblərinin tələbə və magistrləri istifadə edə bilər.

Ədəbiyyat:

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı: Çinap-çap, 2002.
2. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı, 2010.
3. Kərimov Y.A. Müşahidə pedaqoji tədqiqat metodu kimi. Təhsil Problemləri İnstitutunun Elmi Əsərləri, 2006, №1
4. Небылицын В.Д. Темперамент // Психология индивидуальных различий. М: Изд-во МГУ, 1982, www.psychology.ru.
5. Мерлин В.С. Очерк теории темперамента. М: Наука и факты. 1964.
6. Батаршев А.В. Психология индивидуальных различий. М: ВЛАДОС, 2000.

E-mail: gulnare.alixanova@mail.ru
Rəyçilər: *psix.ü.elm. dok. prof*. **Ə.T. Baxşəliyev**
psix.ü.fəls.dok., dos. **Q.N. Qəhrəmanova**
Redaksiyaya daxil olub:12.12.2018

UOT 159.9.

Telli Rəhim qızı Cabbarova
fəlsəfə doktoru proqramı üzrə dissertant
Gəncə Dövlət Universiteti

ŞƏXSİYYƏTİN ÖZÜNÜDƏRKİ PROSESİNDƏ KOQNİTİV VƏ EMOSİONAL AMİLLƏRİN QARŞILIQLI TƏSİRİ

Телли Рагим гызы Джаббарова
диссертант по программе доктора философии
Гянджинский Государственный Университет

ВЗАИМОДЕЙСТВИЕ ЭМОЦИОНАЛЬНЫХ И КОГНИТИВНИХ ФАКТОРОВ В ПРОЦЕССЕ САМОПОЗНАНИЯ ЛИЧНОСТИ

Telli Rahim Jabbarova
doctorial student in the proqramme of a Ph.D
Ganja State Univercity

İNTERACTION OF EMOTIONAL AND COGNITIVE FACTORS IN THE PROCESS OF SELF-KNOWLEDGE OF PERSONALITY

Xülasə. Şəxsiyyətin özünüdərki prosesində bir-biri ilə qarşılıqlı təsirdə olan koqnitiv və emosional amillər sinergetik əlaqədədirlər. Şəxsiyyətin özünüdərki prosesində koqnitiv amillərdə emosional elementlər müşahidə olunduğu kimi, emosional amillərdə də koqnitiv amillər müşahidə olunur. Koqnitiv və emosional amillər şəxsiyyətin özünüdərki prosesində bir-birini tamamlayır və bir-birinin inkişafına qarşılıqlı təsir göstərirlər.

Açar sözlər: *koqnitiv, emosional, özünüdərk prosesi, fərd, obyekt, subyekt, şəxsiyyət*

Резюме. Когнитивные и эмоциональные факторы, которые взаимодействуют друг с другом в процессе самопознания, являются синергетическими. Когнитивные факторы наблюдаются в эмоциональных факторах, поскольку эмоциональные элементы наблюдаются в когнитивных факторах в процессе самопознания личности. Когнитивные и эмоциональные факторы дополняют друг друга в процессе идентификации и взаимодействуют друг с другом.

***Ключевые слова*:** *когнитивный, эмоциональный, процесс самопознание, индивид, объект, субъект, личность*

Summary. Cognitive and emotional factors that interact with each other in the process of self-knowledge are synergistic. Cognitive factors are observed in emotional factors, as emotional elements are observed in cognitive factors in the process of self-knowledge of the individual. Cognitive and emotional factors complement each other in the identification process and interact with each other.

Key words: cognitive, emotional, process self-knowledge, individual, object, subject, personality

Şəxsiyyətin özünüdərki prosesində koqnitiv və emosional amillər bir-biri ilə qarşılıqlı təsirdədir. Bu problem, koqnitiv və emosional psixologiyanın qarşılıqlı əlaqəsi çərçivəsində müzakirə olunur. Lakin, bu əlaqənin tədqiqi bu günədək zəif inkişaf etmişdir. Çünki psixologiyanın koqnitiv və emosional aspektləri bihevioriz-min zəiflədiyi dövrə qədər ayrı-ayrılıqda araşdırılmışdır. XX əsrin 80-ci illərindən başlayaraq, bu məsələyə diqqət artmışdır. Aparılan araşdırmalar göstərmişdir ki, şəxsiyyətin özünüdərki prosesində koqnitiv (fikir, əqidə, dəyərləndirmə və s.) və emosional (sevinc, kədər, həyəcan, qorxu, qəzəb, mərhəmət və s.) amillər bir-biri ilə qarşılıqlı təsirdə və üzvi əlaqədədirlər. Onları bir-birindən ayırmaq yanlış metodologiyadır.

Çünki şəxsiyyətin özünüdərki prosesində koqnitiv amillərdə emosional, emosional amillərdə isə, koqnitiv amillər mövcuddur. Onlar bir-birini tamamlayır və bir-birinin inkişafına qarşılıqlı şəkildə təsir göstərir. Halbuki, bu günədək belə bir fikir mövcud idi ki, emosional amillər şəxsiyyətin koqnitiv özünüdərk prosesinə və onun məntiqi davranışlarına mənfi təsir göstərir.

Son dövrün araşdırmaları təsdiq edir ki, emosional amillər şəxsiyyətin koqnitiv özünüdərk prosesinə ümumən adaptiv təsir göstərir. Onlar, təfəkkür və davranışın adaptiv funksiyalarının təmin olunmasına şərait yaradırlar [2, 33]. Bu baxımdan, bizim tərəfimizdən şəxsiyyətin özünüdərki prosesində koqnitiv və emosional amillərin bir-biri ilə qarşılıqlı təsirinin araşdırılması məsələsi, həm ümumi psixoloji problemlərin həllində, həm də onların praktiki tətbiqində böyük aktuallıq kəsb edir.

Emosional intellekt məktəbəqədər yaş dövründən başlayır və fərdlərarası ünsiyyət amilinin mühüm əhəmiyyət daşıdığı yeniyetməlik dövründə daha da intensivləşir. Lakin, son dövrdə, yeniyetmələr və digər yaş qrupunda olan fərdlər arasında virtual ünsiyyət amilinin aktuallaşması, emosional inkişafın qarşısını alır. Bu özünü, ətrafda baş verən hadisələrə laqeydlikdə, refleksiv qabiliyyətin və özünüdərk prosesinin zəifləməsində, psikosomatik xəstəliklərə meyildə büruzə verir. Bunlar, müasir empirik araşdırmalar vasitəsilə təsdiq olunur (8). Şəxsiyyətin formalaşması prosesində baş verən bu qeyri-ənənəvi hallar, araşdırılan problemin nə qədər aktual olduğunu göstərir.

Koqnitiv proseslərdə emosional amilləri, emosional proseslərdə koqnitiv amilləri müəyyənləşdirmək üçün nəzəri-konseptual yanaşmaları müqayisəli şəkildə tədqiq etmək və onlardan elmi-nəzəri nəticələr çıxarmaq, eyni zamanda, qoyulan problemlə bağlı empirik tədqiqatlar aparmaq və onların nəticələrini təhlil etmək zəruridir. Nəzəri-konseptual və empirik materialların qarşılıqlı analizi nəticəsində müəyyən elmi nəticələrin əldə olunması mümkündür. Azərbaycanda (təhsil müəssisələrindəki yeniyetmələr arasında) şəxsiyyətin özünüdərk prosesində koqnitiv və emosional amillərin bir-biri ilə qarşılıqlı əlaqəsinin hansı səviyyədə olmasını bu yanaşmalar əsasında tədqiq etmək olar.

Bu sadə tədqiqatlar əsasən iki istiqamətdə aparılır:

1. Koqnitiv proseslər emosional amillərin mənbəyi kimi

Koqnitiv dəyərləndirmə nəzəriyyələri (appraisal theories) müəyyən obyektlərə (varlıqlara və hadisələrə) yönələn emosional prosesin (həzz və qeyri-həzz ilə bağlı psixoloji hisslərin) yaranmasında və inkişafında koqnitiv amillərin rolunu önə çəkirlər [4, 43]. Onlara görə, hər hansı bir obyekt subyekt üçün əhəmiyyət daşıyanda dəyərləndirilir və dəyərləndirmə prosesində onun motivlərindən asılı olaraq emosiyalar yaranır. Subyektin obyekti dəyərləndirmə prosesi koqnitiv amildirsə, dəyərləndirmə prosesində obyektə verdiyi əhəmiyyət və daxili motivlərdən irəli gələn həzz və ya qeyri-həzz hissləri emosional amillərdir. Göründüyü kimi, dəyərləndirmə prosesində koqnitiv və emosional amillər bir-biri ilə üzvi şəkildə bağlıdırlar.

Buna aid bir neçə misal çəkə bilərik. Məsələn, bir valideyn övladının tələbə qəbulu imtahanında uğurlu nəticə əldə etdiyini biləndə sevinir. Çünki valideyn, onun motivasiyasını təşkil edən bu hadisəyə öncədən koqnitiv şəkildə əhəmiyyət verib dəyərləndirdiyi üçün, emosional sevinc hissini keçirir. Bunun əksi olduqda isə, o, kədərlənir. Hər iki halda, valideyn bu hadisəni həm koqnitiv, həm də emosional şəkildə yaşayıb hiss edir. Məlum hadisənin pozitiv və ya neqativ dəyərləndirilməsi, analoji emosiyaların meydana çıxmasına səbəb olur. Əgər valideyn övladının imtahanda uğur qazanıb-qazanmamasına öncədən laqeyd idisə, onun baş verən bu hadisəyə münasibəti qeyri-emosional olur. Çünki onun üçün bu gözlənilən hadisə əhəmiyyət kəsb etmirdi. Koqnitiv dəyərləndirmə olmadığı təqdirdə, emosional amil də mövcud olmur. Onlar ümumi özünüdərk prosesinin bir-biri ilə üzvi şəkildə bağlı olan tərkib hissələri kimi çıxış edirlər.

Yaxud aylarla qəbul imtahanına hazırlaşan abituriyent imtahandan gözlədiyi nəticəni əldə edəndə emosional olaraq sevinc hissi keçirir. Çünki o, bu nəticəni əldə edəcəyinə əvvəlcədən koqnitiv şəkildə əmin idi. Onun keçirdiyi sevinc hissində emosional və koqnitiv amillər bir araya gəlir. Əgər, abituriyent imtahandan gözlədiyi nəticəni əldə etməsə kədərlənəcəkdir. Çünki o, bu nəticəni əldə edəcəyinə əvvəlcədən koqnitiv şəkildə əmin idi. O, əvvəlcədən koqnitiv olaraq bu

nəticəyə əmin olmasaydı, emosional kədər hissi ilə üzləşməyəcəkdi. Deməli, koqnitiv və emosional amillər bir-biri üzvi şəkildə bağlıdırlar.

Bu cür proseslər sosial identiklik məsələləri ilə də əlaqədar meydana çıxır. Məsələn, milli identiklik, koqnitiv olaraq şəxsiyyətin müəyyən sosial dəyər və normalara əhəmiyyət verməsinə səbəb olur. Çünki o, özünü sosial birliyin ayrılmaz bir hissəsi kimi dəyərləndirir. O, buna görə, bu birliyin hər hansı bir nümayəndəsinin uğuruna fərəhlənib qürur hissi keçirir, məğlubiyyətinə isə, kədərlənib məyus olur. Bu özünü, milli futbol komandalarının oyunlarına dəyər verən azarkeşlərin emosional davranışlarında daha qabarıq göstərir. Yaxud, vətən yolunda şəhid olmaya hazır olan vətəndaşların vətənə sevgisi emosional bir amildirsə, onun kökündə vətənə koqnitiv şəkildə verilən əhəmiyyət dayanır.

Fərdlər digər insanlara münasibətdə də analoji hissələri yaşayırlar. Məsələn, yad bir insanın başına gələn ağır bir faciə, bunu seyr edən fərdin emosional olaraq kədərlənməsinə səbəb ola bilər. Yaxud, başqa birisinin uğuru, bunu seyr edən fərdin fərəhlənməsinə şərait yaradır. Bu kimi emosiyalar analoji dəyərləndirmənin nəticəsi kimi meydana çıxır. Çünki həmin insanlar baş verən hadisələrdə öz motivasiyalarının ehtimal olunan emosional nəticələrini seyr edirlər.

Bəzən fərdlər yalan danışdıqlarına görə xəcalət hissi keçirirlər. Bu emosional nəticə "yalan danışmaq olmaz" sosial normasına verilən koqnitiv əhəmiyyətdən və onun fərdin əqidəsində formalaşmış motivasiyasından irəli gəlir. Yalan danışaraq xəcalət hissi keçirməyən fərdlər üçün, bu sosial-mənəvi norma əhəmiyyətsiz bir dəyər kimi dəyərləndirilir. Buna görə də, hər bir emosional nəticənin təməlində koqnitiv dəyərləndirmə dayanır. Bunlar bir çox empirik tədqiqatların nəticələri ilə təsdiq olunur.

Bəzi tədqiqatçılar hesab edirlər ki, həzz və qeyri-həzz ilə bağlı bəzi sensor hissələri vasitəsilə meydana çıxan emosiyalarda koqnitiv amillər mövcud deyildir. Məsələn, gözəl və acı ətirin hisslər vasitəsilə yaratdığı emosiyalarda hər hansı bir dəyərləndirmə yoxdur. Yəni, fərd, həmin əşyaya (gül, istiot) öncədən verdiyi əhəmiyyətə görə deyil, hisslər vasitəsilə qəbul etdiyi informasiyaya görə emosional reaksiya verir. Lakin, koqnitiv dəyərləndirmə nəzəriyyəçiləri bu reaksiyanı emosiya kimi deyil, əhval kimi səciyyələndirməyin tərəfdarıdırlar. Çünki emosiyadan fərqli olaraq, əhvalın konkret və aydın bir obyekti yoxdur. Bu obyektlər subyektin diqqət mərkəzindən kənarda yerləşir və dərk olunmurlar. Yaxud, əhval, bir neçə obyektə yönələn eyni növ emosiyaları özündə birləşdirir [3, 27-28]. Yəni, əhval, emosiyanın özünəməxsus bir forması kimi ortaya çıxır.

Bəzi tədqiqatçılar arasında belə bir fikir də mövcuddur ki, fobiya (şiddətli qorxu) və qəzəb hisslərinin koqnitiv əsası yoxdur. Subyekt təhlükənin olmadığına əmin olduqda belə, fobiya hissindən qurtula bilmir. Məsələn, eksperimentdə ilandan qorxan fərdlərə ilanın rəsmini bir göz qırpımında gözləri önündən keçirdikləri zaman (yəni, onun nə olduğunu anlamağa macal tapmadıqlarında), eyni fobiyanı avtomatik şəkildə yaşayırlar. Koqnitiv dəyərləndirmə nəzəriyyəçiləri bu dəyərləndirməni dərkolunmayan avtomatik dəyərləndirmə hesab edirlər. Affektiv praym inq tədqiqatları bunu təsdiq edirlər [2, 66].

2. *Emosiyaların koqnitiv proseslərə təsiri*

Empirik araşdırmalar təsdiq edir ki, emosiyalar dəyərləndirmə prosesinə və onun nəticəsi olan davranışlara birbaşa və dolayı şəkildə adaptiv (informasiya və motivasiya funksiyaları ilə) təsir göstərirlər [1, 77]. Adaptiv təsir fərdin motivasiyasının (məqsədinin) formalaşmasına, ona çatmaq üçün yararlı məlumatlara malik olmasına və davranışlarının dəyişməsinə şərait yaradır. Bu emosiyanın koqnitiv proseslərə müdaxilə etməsi deməkdir. Çünki emosiyalar fikir prosesini yönəldən məlumatları dəyişmək, onların yaradılması üslub və yollarının müəyyənləşməsinə təsir göstərmək iqtidarındadır.

Emosiyadan azad olan sırf koqnitiv hadisə mümkün deyildir. Cəmiyyətdə sosial-mədəni dəyərlər sistemində emosional amillərin payı daha böyükdürsə, elmi yanaşmalarda koqnitiv amillər üstünlük təşkil edir. Lakin, hər iki istiqamətdə sırf emosional və koqnitiv amillər təcrid olunmuş şəkildə mövcud deyildirlər. İnsanlar hər iki amilin sintezini təşkil edən fəaliyyətləri ilə, onları həm mədəniyyətə, həm də elmə gətirir. Həmçinin, mədəniyyət və elm, təlim-tərbiyə vasitəsilə insanın şəxsiyyətini formalaşdırır. Bu baxımdan, emosional və koqnitiv amillərin sintezi fövqündə şəxsiyyətin formalaşması və təkmilləşməsi prosesləri mövcud deyildir.

Hər bir insan müəyyən sosial mühitdə yetişərək sosial-mədəni kimliklərə sahib çıxır. Onun etnik kimliyi "biz-onlar" konstruksiyası çərçivəsində emosional şəkildə formalaşır. Bu konstruksiya çərçivəsində koqnitiv amillərin təsiri zəifləyir. Şəxsin idrak prosesində emosional-koqnitiv amillər arasında balans pozulduqda radikalizm, separatizm, fundamentalizm, cahillik kimi hallar fəallaşır. Buna, ermənilərin etnik şüurunu misal göstərə bilərik. Erməni kilsəsinin "türk düşmənçiliyi" üzərində formalaşdırdığı neqativ emosional dəyərlərin koqnitiv əsasları çox zəifdir. Buna görə də, bu şüur çərçivəsində hər hansı bir erməni ətrafındakı mühiti obyektiv dəyərləndirə bilmir. Onun etnik şüuru "türk düşmənçiliyi"ndən xilas olsa, özünü və ətrafını daha obyektiv dəyərləndirmək imkanı əldə edər.

Emosiyaların məlumat və motivasiya funksiyaları vardır. Emosiyaların məlumat funksiyası şüurun koqnitiv funksiyalarını fəallaşdırır və müəyyən qərarların verilməsinə şərait yaradır. Lakin, emosiyalar, məlumatı təhrif etmək iqtidarında olduğu kimi, məlumatın koqnitiv dərk olunması prosesinə də təsir edə bilir. Məsələn, məhkəmədə ortaya atılan hər hansı şübhəli bir məlumat, məhkəmə prosesinin gedişinə təsir göstərə bilər. Bu məlumatın emosional xarakter daşıması və heç bir əsasının olmaması mümkündür. Lakin, bu məlumatın vəkillərin və hakimlərin qərarına təsir etməsi imkanları da böyükdür. Buradan göründüyü kimi, emosional məlumat həm məlumatlandırmaq, həm də qərarlara təsir etmək funksiyasında iştirak edir. Buna görə də, bu prosesi bir-birindən təcrid olunan kimi deyil, bir-biri ilə üzvi əlaqədə olan funksiya kimi dəyərləndirmək doğru olardı.

Emosiyanın məlumat nəzəriyyələrinə görə (Clore G. L, Ortony A), şüura ötürülən məlumat adətən aqnostikdir. O, pozitiv (sevinc, fərəh) və neqativ (təhdid, təhlükə) emosiyaları ifadə etməklə şüurun yönləndirilməsinə səbəb olur. A. Ortoniyə görə, bu emosiyalar adekvat reaksiyalar doğurur. Çünki bu emosiyalara reaksiya verən şəxslər koqnitiv olaraq həmin hadisə və ya obyektlə bağlı öncədən müəyyən motivasiyaya malik olurlar. Lakin, onu koqnitiv şəkildə dərk edə bilmədikləri üçün, qeyri-müəyyən emosiyalara qapılırlar [5, 44].

Emosiyalara məxsus cəhətlərdən biri də odur ki, o, əqli nəticə prosesinin sürətlənməsinə və yuvarlaqlaşmasına, qərar qəbuletmə prosesində alternativ davranışlar formalarından birini sürətlə seçməyə təsir göstərir. Affektiv praymінq nəzəriyyələrinə görə, müəyyən məlumatları epizodik və semantik yaddaşa ötürən emosiyalar adekvat reaksiyalar alır. Pozitiv emosiyalar yaddaşda dərk olunan obyekt və ya hadisəylə bağlı pozitiv elementləri oyatdığı kimi, neqativ emosiyalar da neqativ elementləri oyadır. Qəzəb, təhlükə, risk kimi konkret emosiyalar əqli nəticəyə daha effektiv təsir edərək, orada koqnitiv şəkildə mövcud olan qəzəb, təhlükə, risk mənbələrini aktuallaşdırır. Bunlar empirik araşdırmalarla sübut olunmuşdur. Mühakimə prosesində sofizmə və paralogizmlərə yol verməmək üçün, emosional mühitin aktuallığını ortadan qaldırmaq lazımdır.

Göründüyü kimi, emosiya həm informasiya mənbəyi, həm də yaddaşda müəyyən adekvat mənbələr rolunda iştirak edir. Yaddaşı bu mənbələrdən azad etmək mümkün olmadığı kimi, məlumatları da emosional elementlərdən təcrid etmək mümkün görünmür. Araşdırmalar göstərir ki, idrak prosesi emosionallıqdan nə qədər çox təcrid olunursa, bir o qədər koqnitiv funksiyalar da zəifləyir. Bunlar göstərir ki, idrak prosesində koqnitiv və emosional amillərin qarşılıqlı təsiri obyektiv xarakter daşıyır. Lakin, onlar arasında əlaqənin tənzimlənməsi sahəsində müəyyən mexanizmlər ortaya qoymaq mümkündür.

Fərdin özünəməxsus motivasiyasını ifadə edən məqsədi özünü onun təfəkkür prosesində və oradan da onun davranışlarında büruzə verir. Lakin, təfəkkür və davranış proseslərinin əsasında dayanan motivasiya emosional xarakterli olur. Motivasiyanın gerçəkləşdirilməsi prosesində koqnitiv başlanğıc mühüm rol oynayır. Ancaq, bu, motivasiyanın xarakterindən asılıdır. Gedonik motivasiyalarda məqsəd, həzz almaq və ya əzabdan uzaqlaşmaq ilə bağlı olduğu üçün, emosional başlanğıc davranışlara daha çox təsir edir. Emosional motivasiyalar şüurda adekvat emosional mənbələri hərəkətə gətirir və beləliklə, fərdin motivasiyası ilə davranışı arasında əlaqədə koqnitiv faktorlar zəif iştirak edir. Məsələn, qəzəb mexaniki olaraq şüurda aqressiyanı oyadır və bu, özünü cinayətkar davranışlarda ifadə edir [6, 116]. Məsələn, terrorçuların, se-

paratçıların psixoloji durumunda və davranışlarında bunu müşahidə etmək mümkündür.

Emosiyalar dəyərləndirmə prosesində strategiya seçiminə təsir göstərirlər. Neqativ emosiyalar durumunda qərar verən fərd, məlumatları daha dərindən araşdırmağa meyillidirsə, pozitiv emosional durumda fərdlər buna daha az diqqət yetirir və əvvəlki biliklərinə, stereotiplərinə istinad edirlər. A. M. İsen bunun səbəbini onunla bağlayır ki, pozitiv emosional durumda olan fərdlər mövcud durumdan çıxmamaq üçün, özünü ağır və gərgin təfəkkür prosesindən yayındırırsa, neqativ emosional durumda olan fərdlər mövcud durumdan çıxmaq üçün, özünü ağır və gərgin təfəkkür prosesinə vadar edir [7, 25]. N. Şvars və C. Klor hesab edirlər ki, pozitiv emosional durumda olan fərdlərə emosiyaları durumun gərgin olmadığını və onun üzərində dayanmağın əbəs olduğunu təlqin etdiyi üçün, onlar digərlərindən fərqli olaraq özlərinə problem yaratmırlar [8, 23-24]. Fikrini hər hansı bir təhlükəli hadisə və ya obyektə yönəldən fərdin mövcud duruma adaptasiya olması, onu, həm mövcud olan həm də gözlənilən digər durumlar üçün dezadaptiv edir. Çünki mövcud durumda koqnitiv mexanizmin funksiyası zəifləyir.

Problemin aktuallığı. Son dövrdə, yeniyetmələr və digər yaş qrupunda olan fərdlər arasında virtual ünsiyyət amilinin aktuallaşması, emosional inkişafın qarşısını alır və bu bir çox sosial problemlərin yaranmasına səbəb olur.

Problemin yeniliyi. Şəxsiyyətin özünüdərki prosesində koqnitiv və emosional amillərin bir-biri ilə qarşılıqlı təsiri araşdırılır.

Problemin praktik əhəmiyyəti. Məqalə tədqiqatçılar, pedaqoqlar, psixoloqlar üçün faydalı ola bilər.

Ədəbiyyat:

1. Forgas J. P. Affective influences on attituedes and judgments. Handbook of Affective Sciences Oxford: Oxford University Press. 2013.

2. Frijda N. H. Emotions are functional, most of the time. The nature of emotion NY: Oxfor University Press. 2015.

3. Loewenstein G. Lerner J. The role of affect in decision making. Handbook of affective sciences Oxford: Oxford University Press, 2016.

4. Martin L. L. Clore G. L. Theories of mood and cognition. Appraisal processes in emotion: Theory, methods, research. Oxford: Oxford University Press, 2011.

5. Ortony A., Clore G. L., Collins A. The cognitive structure of emotions. New York: Cambridge University Press, 1988.

6. Frijda N. H. Emotions are functional, most of the time. NY: Oxford University Press, 1994.

7. Isen A. M. Toward understanding the role of affect in cognition. New York: Oxford University Press, 1984.

8. Андреева И.Н. Понятие и структура эмоционального интеллекта // Социально-психологические проблемы ментальности: 6-я междунар. науч.-практ. конф. Смоленск: СПГУ, 2004. Ч. 1.

E-mail: ziyacabbarli@mail.ru

Rəyçilər: *fəls.ü.elm.dok., prof.* **Q. Vəliyev,**
ped.ü.fəls.dok. **L.A. Məmmədli**
Redaksiyaya daxil olub: 17.12.2018

İNFORMASİYA KOMMUNİKASİYA TEXNOLOGİYALARININ TƏHSİLƏ TƏTBİQİ

UOT 372.0:002

Səid Seyidağa oğlu Həmidov
Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti

Xumar Savin qızı Calalova
Azərbaycan Dövlət Pedaqoji Universiteti

MULTİMEDİYA TEXNOLOGİYALARININ KÖMƏYİ İLƏ TƏDRİS PROSESİNİN TƏŞKİLİ

Саид Сеидаша оглы Гамидов
доцент
Азербайджанского Государственного Педагогического Университета

Хумар Савин гызы Джалалова
Азербайджанский Государственный Педагогический Университет

ОРГАНИЗАЦИЯ ОБРАЗОВАТЕЛЬНОГО ПРОЦЕССА ПОСРЕДСТВОМ МУЛЬТИМЕДИЙНЫХ ТЕХНОЛОГИЙ

Said Seyidagha Hamidov
assistant professor of
Azerbaijan State Pedagogical University

Xumar Savin Calalova
Azerbaijan State Pedagogical University

ORGANIZATION OF EDUCATIONAL PROCESS THROUGH MULTIMEDIA TECHNOLOGIES

Xülasə: Bu məqalə multimedia texnologiyalarından və onların tədrisdə mühüm əhəmiyyətindən bəhs edir. Multimedia texnologiyalarının iş prinsipi ətraflı şəkildə şərh olunur. Şagirdlərin bu texnologiyalardan istifadə etməsilə tədris prosesinin düzgün yerinə yetirilməsinin mühüm əhəmiyyəti ön plana çəkilir.
Açar sözlər: *informasiya, multimedia, təhsil, təlim*

Резюме: Эта статья посвящена мультимедийным технологиям и их значению в обучении. Автором подробно объясняется принцип работы мультимедийных технологий. Важность правильной реализации учебного процесса подчеркивается использованием этих технологий.
Ключевые слова: *информация, мультимедиа, образование, обучение*

Summary: This article focuses on multimedia technologies and their importance in teaching. The working principle of multimedia technology is explained in detail. The importance of the proper implementation of the teaching process is highlighted by the use of these technologies.
Key words: *information, multimedia, education, training*

Kompüterlərdə səsin, musiqinin, fotoqrafiyanın, video-informasiyanın ötürülməsi, emalı üsulu ilə məşğul olan qurğu multimedia adlanır. Multimedia termini iki sözdən əmələ gəlmişdir:

"multi" - çox , "media" - daşıyıcı. Ona görə də multimedia dedikdə, məlumatların, o cümlədən səsin, qrafiklərin, film kadrlarının və s.-nin yadda saxlanılması və təsviri vasitələri başa düşülür. "Multimedia" terminini ilk dəfə 1966-cı ildə şou təşkil etmiş Bob Qoldşteyn işlətmişdir. Bu, adi işıqlı tamaşa idi, lakin illər keçdikcə həmin terminin məna yükü transformasiyaya uğramışdır.

Qeyd edək ki, müasir kompüterin ən yüksək səviyyədə işləyən audio və video sistemləri var. Kompüterin ilk modellərində müəyyən qədər səs imkanları var idi. Bunun üçün kompüterin daxildə olan dinamik və MS DOS-da olan xüsusi səs çıxardan proqram istifadə olunur. Məlumdur ki, hər not üçün xüsusi tezlik və müddət tapılıb və bütün musiqiləri yaratmaq mümkündür. Basic, Pascal dillərdə xüsusi Sound operatoru var. Məhz bu operatorun köməkliyi ilə musiqi proqramlaşdırılır. Bu səsin keyfiyyəti ən aşağı tələbləri də ödəmir. Səs artırma imkanları yoxdur. Əsil multimedia öz tarixini 1988-ci ildən başlayır, bu vaxt Sinqapurın məşhur Creative Labs kompaniyası Sound Card qurğusunu yaradıb. Hal-hazırda onlarla kompaniya bu qurğudan istehsal edir.

Son zamanlar dünyada ölkələrin rəqabətə davamlılığı artıq ciddi bir faktora çevrilib. Qloballaşma istiqaməti götürən müasir dünyada hər bir ölkənin dayanıqlı və davamlı inkişafı üçün cəmiyyətin bütün sahələrində beynəlxalq rəqabət prinsiplərinə çevik surətdə yiyələnmək tələb olunur.

Qeyd edək ki, bir çox dövlətlərin dövlət siyasətinin əsas istiqamətlərinə informasiya cəmiyyətinin və rəqabətə davamlı yüksək texnologiyalı milli iqtisadiyyatın yaradılması aid edilir. Bu ölkələrdə informasiya və kommunikasiya texnologiyaları (İKT) sahəsi inkişafın ən önəmli amili kimi çıxış edir. Məhz informasiya və kommunikasiya texnologiyaları sahəsi dövlətlərin siyasi, iqtisadi və sosial fəaliyyətinə aktiv təsir edərək, iqtisadiyyatın və ictimai münasibətlərin qloballaşmasını şərtləndirir. Hazırda informasiya cəmiyyətinin ən aktual məsələlərinə təhsil sisteminin necə qurulması, təhsilin modernləşdirilməsi üçün hansı texnologiyalardan istifadə edilməsi aid edilir. Bu gün dünya iqtisadiyyatı biliklərə söykənən iqtisadiyyat xətti götürdüyündən ölkələrin təhsil sistemlərindən də məhz bu tələblərə cavab verən sistemin qurulmasını tələb edir.

Son zamanlar respublikamızda da bu sahədə müəyyən addımlar atılmışdır. Multimediya vasitələrinin tədris prosesində tətbiqi təhsil sahəsində ciddi dəyişiklərin yaranmasına səbəb olmuşdur. Bu sahədə müəyyən proqramlar həyata keçirilmişdir. "Azərbaycanda informasiya - kommunikasiya texnologiyalarının inkişafı üzrə Milli Strategiya (2003-2012-ci illər)" sənədində hazırkı dövrdə Azərbaycan üçün məhz təhsil sahəsi İKT-nin tətbiq istiqamətləri içərisində ən yüksək prioritetə malik istiqamət hesab edilmişdir. Respublikamızda artıq təhsilin modernləşdirilməsi, təhsildə informasiya texnologiyalarının tətbiqi istiqamətində ilkin addımlar atılıb. Azərbaycan hökuməti və bir sıra beynəlxalq qurumlar tərəfindən təhsil sisteminin yenidən qurulması istiqamətində müəyyən proqramlar və layihələr gerçəkləşdirilməkdədir.

Respublikamızda informasiya-kommunikasiya texnologiyalarının təhsildə tətbiqi üzrə bir sıra nəzəri məsələlər araşdırılıb və həm müsbət, həm də mənfi tərəflər ortaya çıxarılıb. Bu Konsepsiya Azərbaycanda orta ümumtəhsil sistemində informasiya-kommunikasiya texnologiyalarının tətbiqində mövcud vəziyyəti nəzərə alaraq əsas prinsiplərin müəyyən edilməsi və inkişaf etdirilməsinə yönəlib. Bu Konsepsiya ölkənin orta məktəblərində informasiya-kommunikasiya texnologiyalarının tətbiqinə sistemli bir baxış olmaqla bu sahədə əsas məqsəd və vəzifələri, fəaliyyət istiqamətlərini, tətbiq olunmalı metod və mexanizmləri özündə ehtiva edir. Respublikamızda təhsildə informasiyalaşma sahəsində yaradılan bu konsepsiyada beynəlxalq təcrübədən, o cümlədən, MDB məkanında bu sahədə müəyyən uğurları olan ölkələrin təc-rübəsindən, ötən dövlət Proqramının icrası müddətində əldə olunan təcrübədən, həmçinin ölkənin təhsil sistemində bir sıra beynəlxalq və yerli qurumlar tərəfindən gerçəkləşdirilən layihələrin təcrübəsindən istifadə olunub.

İnformasiya-kommunikasiya texnologiyalarının təhsildə tətbiqi hazırda respublikamızda öz inkişafının başlanğıc dövrünü yaşayır. Qeyd edək ki, respublikamızda təhsil sisteminin təkmilləşdirilməsinə yönələn islahatlara 1990-cı ildən təkan verilib və bu islahatların istiqamətlərindən biri də təhsildə informasiyalaşdırma

olub. Eyni zamanda, İKT-dən istifadə edilməsi sahəsində son bir neçə ildə bir sıra beynəlxalq və yerli qurumlar tərəfindən də bu istiqamətdə pilot səviyyəsində müxtəlif işlər görülüb. 2003-2007-ci illərdə Dünya Bankının maliyyə dəstəyi ilə Təhsil Sektorunun İnkişafı Layihəsi çərçivəsində təhsilin informasiyalaşdırılması istiqamətində bir sıra mühüm addımlar atılıb. 2004-cü ilin avqustunda Prezident İlham Əliyev tərəfindən imzalanan "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı (2005-2007-ci illər)" ilə bu proses sistemli olaraq başlanılıb. İnformasiyalaşdırılma hazırda ümumtəhsil məktəblərində bu proqrama uyğun şəkildə həyata keçirilir.

Qeyd edək ki, texniki vasitələr və İKT-dən istifadə şagirdlərin tədris olunan mövzunun ətraflı mənimsəməsi, lazımi bacarıq və vərdişlərə yiyələnməsinə stimul verməklə yanaşı müəllimin sərf etdiyi əməyi də qismən yüngülləşdirən yüksək tədris situasiyası yaratmağa qadir olan müasir vasitələrdir. Bu vasitələrdən istifadə şagirdlərdə informasiya bazasının çoxalmasına və mövzunu asanlıqla dərk etmələrinə şərait yaradır.

Təlimin texniki vasitələrindən dinamikliyi, kütləviliyi, mütəhərrikliyi, külli miqdarda informasiya daşıya bilməsi digər əyani və informasiya vasitələri ilə uzlaşdırmağa imkan verir. Ona görə də həmin vasitələr orta ümumtəhsil məktəbləri, eləcə də ali məktəblərdə təlim-tərbiyə işində əvəzedilməzdir.

Təhsil prosesində milli kurikulum İKT-dən geniş istifadəni nəzərdə tutur. Kompüterdən, proyektordan istifadə etməklə mövzunun icmalı qabaqcadan hazırlanır. Motivasiyanın qurulmasında mövzuya aid materiallardan internet qaynaqlarından, fləşkartlardan, əyani vəsaitlərdən, videomateriallardan və s. istifadə etməklə şagirdlərin diqqətini maksimum dərəcədə dərsə cəlb etmək mümkündür. Bundan başqa şagirdlər tədqiqat apararkən, ümumi nəticələr çıxararkən daha dəqiq, daha səlis işləyir, dərslər bugünkü tələblərə uyğun daha fəal, daha canlı keçir.

Şagirdlərin hərtərəfli biliklərlə təmin edilməsi onlarda bacarıq və vərdişlər formalaşdırmalı, yüksək mədəniyyətə və dünyagörüşünə malik şəxsiyyət kimi yetişdirməlidir. Belə tədris prosesi şagirdlərdə özünə inam hissi oyadır ki, bu da onlara sinfin və dərsin təşkilində iştirak etməyə, öz fikirlərini sərbəst şəkildə ifadə etməyə şərait yaradır. Müasir təlim metodları və İKT-dən istifadə sinif mühitində dəyişiklik etməyə və cəmiyyətin dəyərli vətəndaşları olmağa çalışan, aktiv, hər şeylə maraqlanan şagirdlərin təhsil aldığı siniflərin yaradılmasında müəllimlərə yol göstərir.

Problemin aktuallığı. Ümumtəhsil məktəblərində aparılmış müşahidələrdən aydın olur ki, multimedia vasitələrindən istifadə edilməsi şagirdlərdə təlimin daha yaradıcı olması üçün çox vacibdir. Bu vasitələrin köməyilə qurulmuş tədris onlarda yaradıcılıq qabiliyyətlərinin aşılanmasına müsbət təsir göstərir.

Problemin praktik əhəmiyyəti. Məqalənin mövzu üzrə tədqiqat aparan magistrantlar, dissertantlar və ən əsası, orta məktəb informatika müəllimləri üçün faydalı olacağı düşünülür.

Problemin elmi yeniliyi. Respublikamızın ümumtəhsil məktəblərində informatika fənninin tədrisində şagirdlərin yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi zərurəti meydana çıxır. Bu səbəbdən də məqalənin əhəmiyyəti zəruri sayılır.

Ədəbiyyat:

1. Vüqar Haqverdiyev, AMEA, Orta məktəblərdə İKT-nin rolu, Rabitə dünyası. 2010, 30 dekabr
2. Təhsildə Qloballaşma və İKT Mövzusunda Beynəlxalq Konfransın materialları, Bakı, 2008, 17-19 May https://moderntehsil.blogspot.com/2016/07/multimedia-nedir-ve-ondan-nece-istifade.html
3. moderntehsil.blogspot.com, Multimediya nədir və ondan necə istifadə olunur?, 2016, 9 iyun
4. https://az.wikipedia.org/wiki/Multimedia
6. http://anl.az/down/meqale/rabitadunyasi/2010/dekabr/150294.htm
7. https://musabiqe.edu.az/upload/iblock/8ff/multimediya_.pptx/az.trend.az, Müasir innovasiyalardan istifadə: üstünlüklər və risklər (**A. Aslanov - AzərTAc-ın Baş direktoru),** 2011, 12 Yanvar

E-mail: calalova96@inbox.ru
Rəyçi: *ped. ü. fəls.dok., dos.* **S. Həmidov**
Redaksiyaya daxil olub: 03.01.2019.

UOT 372.0:002

Leyla Abuzər qızı Mustafazadə
Azərbaycan Dövlət Pedaqoji Universiteti

İNTERNETİN İNFORMASİYA RESURSLARI VƏ TƏHSİLDƏ TƏTBİQ İMKANLARI

Лейла Абузар гызы Мустафазаде
Азербайджанский Государственный Педагогический Университет

ИНФОРМАЦИОННЫЕ РЕСУРСЫ ИНТЕРНЕТА И ИХ ПРИМЕНЕНИЕ В УЧЕБНОМ ПРОЦЕССЕ

Leyla Abuzar Mustafazade
Azerbaijan State Pedagogical University

INFORMATION RESOURCES OF THE INTERNET AND THEIR APPLICATION IN THE EDUCATIONAL PROCESS

Xülasə: Təhsilin informatlaşmanın mühüm vasitələrindən biri İnternet şəbəkəsində yerləşdirilmiş informasiya tədris resurslarıdır. Bu resursların hesabına tədris prosesinin informasiya ilə təminatı səviyyəsi dəfələrlə artır. Bu resurslardan elmi metodik cəhətdən səmərəli istifadə tədrisin keyfiyyətini və əlyetərliliyini təmin edir. İstənilən zaman, İnternetə çıxışı olan istənilən nöqtədən tədris materiallarını əldə etmək mümkündür.

Açar sözlər: *təhsil, informasiya, informasiya resursları, səpələnmiş informasiya resursları, İnternet, İnternet resursları, müəllim, şagird*

Резюме: Одним из важных средств информатизации образования является информационные ресурсы, размешенные в Интернете. Благодаря этим средствам многократно увеличивается информационное обеспечение образовательной системы. Любой участник образовательного процесса, имеющий доступ к Интернету, имеет доступ к этим ресурсам.

Ключевые слова*: образование, информация, информационные ресурсы, Интернет, ресурсы Интернета, ученик, учитель*

One of the important means of informatization of education is information resources placed on the Internet. Thanks to these means, the information support of the educational system is multiplied. Any participant in the educational process with access to the Internet has access to these resources.

Key words*: education, information, information resources, Internet, Internet resources, student, teacher.*

Müasir telekommunikasiya sistemləri təhsildə və həyatın digər mühüm sahələrində ciddi əhəmiyyət kəsb edir. Telekommunikasiya informasiya fəzasının inkişafına təsir göstərir. Telekommunikasiyanın inkişafına informasiyaların ötürülmə texnologiyaları - ilkin rabitə şəbəkələri, şəbəkə informasiya texnologiyalarının inkişaf səviyyəsi və s. kimi amillər də ciddi təsir göstərir.

Təhsil məqsədləri üçün İnternet şəbəkəsindəki ən əhəmiyyətli servislərdən biri də avtomatlaşdırılmış axtarış sistemləridir. Xüsusi vasitələrdən (informasiya axtarış sistemlərindən) istifadə etməklə az vaxt ərzində şagirdləri maraqlandıran istənilən informasiya resursları haqda məlumat əldə etmək olar. Bunun vasitəsi ilə şagirdləri lazımı informasiyalarla təmin etmək, bu əsasda onların fərdi və kollektiv fəaliyyətini idarə etmək mümkündür. İnternetdə olan təhsil yönümlü informasiya resurslarının təhsildə istifadəsi, təlimdə tətbiqi aşağıdakı imkanlara malikdir:

1. Şagirdlər müstəqil şəkildə İnternetdən informasiyaları tapıb, öz müstəqil işlərini təşkil edirlər.

2. İKT-nin imkanlarından istifadə edərək müxtəlif tədris fəaliyyətləri həyata keçirilir.

3. Tədris prosesində multimedia texnologiyalarının, hipermətn və hipermedia sistemlərinin tətbiqi.

4. Şagirdlərin intellektual imkanlarının, bilik, bacarıq və vərdişlərinin diaqnostikası.

5. Təlim prosesini idarə etmək, təlim fəaliyyətinin nəticəsinə nəzarət səviyyəsini artırmaq, testləşdirməni reallaşdırmaq.

6. Şagirdlərin özünütəlim, özünütəhsil, özünütəkmilləşdirmə və inkişaf məqsədi ilə onların müstəqil fəaliyyətini təşkil etmək.

7. Müasir telekommunikasiya mühitində işəməyi, informasiya axınlarını idarə etməyi öyrətmək.

Beləliklə, müasir İKT vasitələri informasiya ilə işləməyə imkan verən güclü təlim vasitəsi olmaqla yanaşı, insanların ünsiyyətinin xüsusi mühitidir. Müxtəlif fənn müəllimləri müasir İKT vasitələrinin texniki imkanlarını bilməli, onlardan öz peşə fəaliyyətlərində səmərəli istifadə etməlidirlər. Bu günün müəllimləri müasir İKT vasitələrindən didaktik cəhətdən düzgün istifadə etməklə, təhsilin keyfiyyətini yüksəltməyi bacarmalıdır.

İnternetin informasiya resurslarının təhsil sisteminə tətbiqi nəticəsində aşağıdakı imkanlar yaranır:

1. İnternetin elm və tədris saytlarında olan informasiyalardan istifadə etməklə əlavə tədris-metodik materiallar, referat və məruzələr hazırlamaq mümkündür.

2. Tədris müəssisələrinin geniş tanınması məqsədi ilə internetdə onların nümayəndəliyini yaratmaq mümkündür.

3. Konkret fənlər üzrə saytlar yaratmaq və internetdə yerləşdirmək.

4. Ayrı-ayrı novator müəllimlərin qabaqcıl iş təcrübəsini özündə əks etdirən, innovativ müəllimlərin şəxsi saytı, şagirdlərin şəxsi saytını internetdə yerləşdirmək.

İnternet şəbəkəsində olan informasiya resurslarının böyük hissəsi hipermediya prinsipi əsasında hazırlanmış Web səhifələrdən ibarətdir. Web səhifə özündə aşağıdakı məlumatları birləşdirən bir resursdur:

1. Formatlaşmış mətn;

2. Multimedia obyektləri (səs, qrafika, videoklip v.s.);

3. Digər Web səhifələrə və informasiya resurslarına keçid üçün imkanlar;

4. Əvvəlcədən saytda (web səhifədə) yerləşdirilmiş proqram əsasında müəyyən əməliyyatların icrasına imkan verən fəal komponent.

Web səhifə çoxlu sayda fayllardan ibarət mürəkkəb resursdur. Bir səhifədə müxtəlif mövzularda informasiya yerləşdirmək əlverişli deyil. İnformasiya konkret mövzu ətrafında, ümumi tərtibat prinsiplərinə əməl edilərək, qarşılıqlı hipermətn keçidlər əsasında, birləşdirilmiş web səhifələrdən ibarət olaraq yaradılır. Bu fayllar külliyyatı Web səhifə və ya Web qovşağı adlanır. Hər bir Web saytın öz start səhifəsi var. Buna ilkin səhifə və ya ev səhifəsi deyilir.

Son dövrlərə qədər İnternetin informasiya resursarı ilə işləmək üçün müştəri proqramlarının yaradıcıları içərisində iki şirkət - Netscape Communication və Microsoft fəaliyyət göstərirdi. Birinci firmanın məhsulu Netscape Communikatordur. Bu proqramın tərkibində populyar Brauser proqram olan Netcape Naviqator daxildir.

İnternet şəbəkəsinin inkişafı və orada yerləşən resursların həcminin sürətlə artması, zəruri informasiya axtarışı ciddi bir problemdir. Təhsil sistemi üçün İnternetdə informasiya axtarışının əhəmiyyəti ondan ibarətdir ki, milyardlarla informasiyalar içərisindən təhsil yönümlü informasiyanın seçilib, tədrisdə istifadə edilməsi asanlaşır, beləliklə, tədrisin keyfiyyəti də yüksəlir. Bu axtarış İnternetdə olan informasiya resurslar ilə qarşılıqlı əlaqə əsasında həyata keçirilir. Bəşəriyyətin malik olduğu sonsuz informasiya resurslarında (kitabxanalarda və s.) olan informasiyalar sistemləşdirilmiş xüsusi kataloqlarda yerləşir. İnternetdə də informasiyalar sistemləşdirilmişdir və informasiyaların axtarışı bu mexanizmlərlə həyata keçirilir. Söhbət axtarış serverlərindən gedir. İstifadəçi zəruri informasiyanı axtarış maşınları (axtarış proqramları) vasitəsi ilə İnternetdən əldə edə bilər (Google, Rambler v.s). Məzmun etibarilə axtarış funksiyası İnternet şəbəkəsinin xüsusi xidmət növüdür. Axtarış serverləri çoxsaylı və müxtəlifdir. Axtarış serverləri axtarış indeksi və axtarış kataloqları kimi iki yerə bölünür.

Təhsil sistemində İnternet şəbəkəsinin müxtəlif resurslarından istifadə faydalıdır. Bunların arasında təhsildə İnternet portalı (bu həm də resursların kataloqudur), servis, proqram, instrumental vasitələr, müxtəlif nəşrlərin elektron variantları, elektron tədris vasitələri, tədrisin nəticələrinin ölçülməsinin elektron vasitələri və s. ola bilər. Bu resursların xeyli hissəsi dərsdənkənar və məktəbdənkənar məşğələlər üçün nəzərdə tutulmuşdur.

Valideynlər İnternet resursları vasitəsi ilə təhsilin regional və milli səviyyədə inkişafı haqqında məlumat əldə edə bilərlər. Tədris planı və proqramları ilə, qabaqcıl müəllimlərin metodik tövsiyələri ilə tanış ola bilər, öz təkliflərini verə bilərlər. İnternet resurslarından təhsildə istifadədən əvvəl, hər bir fənn müəllimi bu resurslarla yaxından tanış olmalı, onların təlimin məqsəd və məzmununa uyğunluğunu müəyyən etməli, istifadə metodikasını təyin etməlidir. Bu resurslar dərslikdəki informasiyalarla ziddiyyət təşkil etməməlidir. Əksinə, onu tamamlamalı və inkişaf etdirməlidir. Bu resurslardan istifadə metodologiyasına xüsusi diqqət yetirilməlidir.

Problemin aktuallığı. İnformasiya texnologiyalarından düzgün istifadə etməklə yeni biliklər əldə etmək mümkündür. Buna görə də şagirdlərə informasiya texnologiyalarından düzgün istifadə qaydaları aşılanmalıdır.

Problemin elmi yeniliyi. İnternet informasiya resurslarının tədrisdə tətbiq edilməsi ilə tədrisin keyfiyyətinin yüksəldilməsidir.

Problemin praktik əhəmiyyəti informasiya ehtiyatlarından istifadə etməklə təlimin keyfiyyətinin yüksəldilməsindən ibarətdir.

Ədəbiyyat:

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. 24 oktyabr 2013, Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.

2. Əliquliyev R, Mahmudova R. Təhsilin təkamül prosesində informasiya inqilabının rolu. "İnformatika, informasiya texnologiyalarının təhsildə tətbiqi məsələləri" Respublika elmi konfransı, Bakı, 2007, 22-23 may

3. "Təhsildə Qloballaşma və İKT" mövzusunda konfrans materialları. Bakı, 2008.

4. www.Müəllim.edu.az.

5. informatik.az

E-mail: mustafazade_leyla@bk.ru
Rəyçi: *ped.ü.fəls.dok., dos.* **İ.B. Əhmədov**
Redaksiyaya daxil olub: 04.12.2018

MÜƏLLİMİN ÖZÜNÜTƏHSİLİ

UOT 37.

Seyidəli Həsən oğlu Məmmədli
Azərbaycan Turizm və Menecment Universitetinin
Dillər kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ VƏ DÖVLƏT DİLİ

Сеидали Гасан оглу Маммадли
Зав.кафедрой языков Азербайджанского Университета Туризма и Менеджмента,
доктор философии по педагогике, доцент

АЗЕРБАЙДЖАНСКАЯ ДЕМОКРАТИЧЕСКАЯ РЕСПУБЛИКА И ГОСУДАРСТВЕННЫЙ ЯЗЫК

Seidali Hasan Mammadli
Head of the Department of Languages of Azerbaijan University of Tourism and Management,
PhD in pedagogy, associate professor

THE DEMOCRATIC REPUBLIC OF AZERBAIJAN AND THE STATE LANGUAGE

Xülasə. Cəmi 23 ay hakimiyyətdə olan Azərbaycan Xalq Cümhuriyyəti qısa zaman kəsiyində digər sahələrdə olduğu kimi dil, əlifba və tədrislə bağlı çox böyük işlər gördü. Xalqın ana dilini - türk dilini - dövlət dili elan etdi; yeni əlifbaya keçidin elmi əsasını yaratdı. Parlamentin 21 avqust 1919-cu ildə keçirilən iclasında Bakı Dövlət Universitetinin yaradılması və tədris dilinin türk dili olması qərarını verdi. Cümhuriyyətin dil siyasəti bütün dairələrdə həyata keçirilməyə başladı. Birinci və ikinci dərəcəli ibtidai məktəbin, həmçinin orta təhsil müəssisələrinin milliləşdirilməsi haqqında Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası qərar verdi və onun icrasına başlanıldı.

Azərbaycan Xalq Cümhuriyyətinin ömrü az olsa da gördüyü işlər xalqımızın çoxəsrlik tarixində bütöv bir dövr təşkil edir.

***Açar sözlər**: azad, Xalq Cümhuriyyəti, dil, türk dili, dövlət dili, müstəqillik, təhsil, tədris*

Резюме. Азербайджанская Демократическая Республика, которая была у власти всего двадцать три месяца, проделала большие реформы по языку, алфавиту и обучению, а также в других сферах. Она объявила родной язык народа – тюркский язык – государственным языком; создал научную основу для перехода на новый алфавит. На собрании, состоявшемся 21 августа 1919 года, парламент принял решение о создании Бакинского государственного университета и о проведение обучения в университете на тюрском языке. Языковая политика республики стала реализовываться во всех сферах общества. Совет министров Азербайджанской Демократической Республики принял решение о национализации начальных и средних школ, а также средних учебных заведений, и началась его реализация.

Хотя Азербайджанская Демократическая Республика существовала на короткий срок, но ее реформы являются основной частью многовековой истории нашего народа.

***Ключевые слова**: свободный, Демократическая республика, язык, турецкий язык, государственный язык, независимость, образование, обучение*

Summary. The Azerbaijan Democratic Republic, which had been in power for only 23 months, undertook major reforms in language, alphabet and education, as well as in other areas. She declared the native language of the people - the Turkic language - the state language; created a scientific basis for the transition to a new alphabet. At a meeting held on August 21, 1919, the parliament decided to establish the

Baku State University and conduct training at the university in the Turkic language. The language policy of the republic began to be implemented in all spheres of society. The Council of Ministers of the Azerbaijan Democratic Republic decided to nationalize primary and secondary schools, as well as secondary schools, and its implementation began.

Although the Azerbaijan Democratic Republic existed for a short time, but its reforms are the main part of the centuries-old history of our people.

Keywords: *independent, democratic republic, language, Turkish language, state language, inconsistency, education, teaching.*

1918-ci ilin 27 mayında Zaqafqaziya Seyminin müsəlman fraksiyası özünü Azərbaycanın müvəqqəti Milli Şurası elan edərək, Azərbaycanın müstəqilliyini bəyan etmək qərarına gəlib və mayın 28-də Müstəqil Azərbaycan Demokratik Respublikası elan olunub. Təəssüf ki, 1920-ci ilin 28 aprelində AXC-ni devirib yerində bərqərar olan sovet ictimai-siyasi quruluşu mövcud olduğu 70 il müddətində 1918-1920-ci illərin, yəni AXC hakimiyyətinin varlığını və mahiyyətini xalqdan gizlədib və onun haqqında danışanlar "xalq düşməni" elan edilərək cəzalandırılıb. XX əsrin sonunda Azərbaycan öz müstəqilliyinə ikinci dəfə qovuşduqdan sonra aparılan tədqiqatlar iki ilin sirlərini açıb xalqa bəyan etdi. Məlum oldu ki, 28 aprel 1920-ci il tarixi heç də Azərbaycana "günəşin doğduğu tarix" deyil, vətənimizin "qırmızı sovetlər" tərəfindən işğal günüdür. Məlum oldu ki, zorən unutdurulan 23 aylıq qısa zaman kəsiyi xalqımızın, Azərbaycanımızın müstəqillik tarixidir. Müsəlman Şərqində ilk parlamentli respublika, milliyyətindən, siyasi və dini mənsubiyyətindən, cinsindən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquqlar verən, dövlət sərhədlərini müəyyənləşdirən, 113,9 min kv.km əraziyə və müstəqil dövlətçiliyə malik şərəfli tarixdir.

Mürəkkəb siyasi dövrdə fəaliyyət göstərən və 1920-ci il yanvarın 11-də Paris sülh konfransında müstəqil dövlət kimi tanınan Azərbaycan Xalq Cümhuriyyəti özünün dövlət atributlarını qəbul etmiş, iqtisadiyyat, mədəniyyət, hərbi quruculuq, səhiyyə, təhsil, ana dili sferalarda ciddi işlər görmüşdür.

Millətin mənəvi diriliyi, dövlətin isə mühüm atributlarından olan dövlət dili məsələsini AXC hökuməti diqqət mərkəzində saxlamış, 27 iyun 1918-ci il tarixli qərarı ilə türk dilini dövlət dili elan etmişdir. Bu qərar həm də tarixi qərar idi. Çünki həmin gün Bakı Xalq komissarları Sovetinin hərbi birləşmələri ilə Qafqaz İslam ordusu Göyçayda qarşı-qarşıya gəlmiş, AXC-nin müdafiəsinə qalxan Qafqaz İslam ordusu öz tarixi qələbəsini çalmış, bundan sonra qələbələr öz ardıcıllığı ilə davam etmişdir.

Göyçaydakı qələbə və türk dilinin dövlət dili kimi qəbul edilməsi AXC hakimiyyətinin ciddi uğurlarından idi.

27 iyun 1918-ci il tarixli qərarı Gülüstan və Türkmənçay müqavilələri ilə Azərbaycanın ikiyə bölünməsindən sonra ana dilinin dövlət dili kimi işlədilməsinə aid ilk sənəddir. Bu, iyunun 16-da Gəncəyə köçən AXC hökumətinin Gəncədəki ilk qərarlarından biridir.

AXC-nin dövlət dili ilə bağlı atdığı addım düşünülmüş addım idi. Ölkənin məhkəmə, daxili işlər idarələrində və digər sahələrdə çalışanların dövlət dilini bilmələrinə qədər olan müddətdə hökumət müəssisələrində rus dilinin işlənməsinə də icazə verilmişdir. Bu müvəqqəti tədric olmuş, idarəçilikdə milli kadrların yetişməsinə qədər olan müddət üçün nəzərdə tutulmuşdur.

Türk dilinin əsl dövlət dili kimi işlənməsi təcrübəsi ilk olaraq özünü Azərbaycan Parlamentinin dilində əksini tapmışdır. Dövlət müəssisələrində müvəqqəti rus dilinin də işlədilməsi məsələsi parlamentə aid deyildi. Parlamentin istifadə etdiyi dil dövlət dili statusuna malik Azərbaycan türkcəsi idi. Lakin digər millətlərin nümayəndələrinin rus dilində çıxışlarına da icazə verilmişdi.

Azərbaycan Xalq Cümhuriyyətinin Parlament dilində çıxış etiketləri də dil baxımından maraq doğurur. İclas protokollarında Parlament üzvlərinin aşağıdakı müraciət formalarına rast gəlinir: "Həzarat", "Əfəndilər", "Möhtərəm parlament əzası", "Möhtərəm məclis üzvləri", "Möhtərəm məbuslar", "Möhtərəm parlament əzaları", "Möhtərəm parlament üzvləri". İclasların gedişində, bəzi gərginliklər nəzərə alınmazsa, dil etiketi yetərincə gözlənilirdi.

Diqqətəlayiq məsələlərdən biri də türk (Azərbaycan) dilini bilməyənlərin bu dili öyrənmələri üçün kursların təşkil edilməsi, həmin

məqsədlə hökumət tərəfindən 351 min manat vəsaitin ayrılması idi.

Cümhuriyyətin dil siyasəti bütün dairələrdə həyata keçirilirdi. Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri Səməd bəy Mehmandarov 27 dekabr 1918-ci ildə ordunun dilinin türk (Azərbaycan) dili olduğu barədə əmr verdi. Orduda xidmət edən, lakin dövlət dilini bilməyən zabitlərə onu öyrənmək üçün bir ay vaxt müəyyənləşdirildi.

Azərbaycan Xalq Cümhuriyyəti öz dil siyasətini həyata keçirmək üçün təhsilin çox mühüm sahə olduğunu ön plana çəkdi. Hökumət 28 avqust 1918-ci ildə ibtidai və orta təhsil müəssisələrində təhsilin ana dilində aparılması haqqında qərar verdi. Həmin qərarda göstərilirdi:

- Bütün ibtidai təhsil müəssisələrində tədris ana dilində aparılır;
- Dövlət dili icbari qaydada tədris olunur.

AXC dövründə tədrislə bağlı 6 qərar qəbul edilmiş, parlamentin 21 avqust 1919-cu ildə keçirilən iclasında Bakı Dövlət Universitetinin açılması və tədris dilinin dövlət dilində olması məsələsinə xüsusi diqqət yetirilmişdir.

Cümhuriyyət hökuməti qısa zaman kəsiyində dil, tədris və təhsillə bağlı qəbul etdiyi bu qərarlar çox mühüm tarixi rol oynamışdır. 1919-cu ildə Maarif Nazirliyinin xüsusi komissiyasının xətti ilə "Türk əlifbası", "Təzə elmi-hesab", İkinci il", "Yeni məktəb", "Ədəbiyyat dərsləri", "Rəhbər" cəbr dərslikləri nəşr olunmuşdur. Azərbaycanda XIX əsrin sonlarında M.F. Axundzadə ilə başlayan ərəb əlifbasının islah edilməsi, yeni latın əlifbasının qəbulu kimi məsələlər XX əsrin əvvəllərində də aktuallığını saxladığından olduğundan cümhuriyyət dövründə çox qızğın şəkildə müzakirə olunur, müxtəlif müəlliflərin layihələrinə münasibət bildirilirdi. Aparılan ictimai müzakirələrin nəticəsi olaraq hökumət məsələyə müdaxilə edərək "ərəb əlifbası" islahatı üzrə komissiyanın yaradılması haqqında Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 427 saylı qərarı qəbul edilir. Qərara müvafiq olaraq, Xalq Maarifi naziri yanında xüsusi komissiya yaradılır. Komissiya "Son türk əlifbası" adlı layihəni çap etdirir. Lakin bu məsələnin Parlamentdə müzakirəsinə imkan olmur. 28 aprel 1920-ci il dövlət çevrilişi əlifba islahatını saxlayır.

Azərbaycan Xalq Cümhuriyyətinin ömrü zamanca kiçik olsa da, gördüyü işlər xalqımızın çoxəsrlik tarixində bütöv bir dövr təşkil edir.

Cümhuriyyət dövründə dil, əlifba, tədrislə bağlı qəbul olunan qərarlar həmin dövr üçün böyük əhəmiyyət kəsb edirdi. Bunun nəticəsidir ki, həmin dövrdə dil və təhsillə bağlı qəbil olunmuş qərarlar sonrakı dövr üçün də öz aktuallığını qoruyub saxladı.

Problemin aktuallığı. Azərbaycanda ilk Demokratik Cümhuriyyətin yaranması və onun həyata keçirdiyi islahatlar, xüsusilə, dillə bağlı gördüyü işlərin uzun müddət xalqdan gizlin saxlanılmasına rəğmən mövcud müstəqillik illərində varislik prinsipini nəzərə alaraq həmin məsələlərə qayıtmağın vacibliyi.

Problemin yeniliyi. tarixi faktların ortaya çıxarılması, mövcud dövlət dilinin varislik prinsipi əsasında təqdim olunması.

Problemin praktik əhəmiyyəti. dilimizlə bağlı müəyyən suallara cavabların tapılması.

Ədəbiyyat:

1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, I cild. Bakı: Lider, 2004.
2. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, II cild. Bakı: Lider, 2005.
3. Mərdanov M., Quliyev Ə. Azərbaycan təhsili Xalq Cumhuriyyəti illərində. (1918-1920). Bakı: Çaşıoğlu, 2003.
4. Nəzərli Ə. Azərbaycan Respublikasında xalq təhsili. (1918-1920), (rus dilində). Bakı: Nurlan, 2008.
5. Nəzirli Ş. Arxivlərin sirri açılır. Bakı, 1999.

Rəyçilər: ped.ü.fəls.dok., dos. **A.X. Hacıyev,**
ped.ü.fəls.dok., dos. **T.S. Paşayev**
E-mail: aynur.tehmezova@mail.ru
Redaksiyaya daxil olub: 04.01.2019

Təqdim olunan məqalələrə tələblər

1. Digər redaksiyalara təqdim olunmamış məqalələr qəbul edilir.

2. Məqalələr son tədqiqatların nəticələrini əks etdirməli, yeni ideyalarla zəngin olmalı, elmi məqalələrin yazılışına qoyulan tələblər gözlənilməlidir.

3. Məqalənin mətni təxminən 6-8 səhifə olmalıdır. Azərbaycan, rus və ingilis dillərində məqaləyə aid açar sözlər verilir.

4. Məqalənin mətni Azərbaycan dilində latın əlifbası (Times New Roman), rus dilində krill əlifbası və ingilis dilində ingilis (ABŞ) əlifbası ilə Times New Roman – 14 şrift ilə 1,5 intervalla yığılmalı, elektron variantı ilə birlikdə (disklə) təqdim olunmalıdır.

5. Məqalələr üç dildən - Azərbaycan, ingilis və rus dillərindən birində çap olunur. Yazıldığı dildən əlavə digər iki dildə məqalənin xülasəsi təqdim edilir. Xülasədə müəllifin soyadı, adı, atasının adı, məqalənin adı, irəli sürülən başlıca elmi müddəalar, tədqiqatdan alınan nəticələr, problemin nəzəri və praktik əhəmiyyəti öz əksini tapmalıdır.

6. Məqaləyə müəllif haqqında aşağıdakı məlumatlar təqdim olunur: adı, soyadı, iş yeri, vəzifəsi, elmi dərəcəsi və adı, iş və ev telefonları, ünvanı, E-mail.

7. Məqalə aşağıdakı ardıcıllıqla yazılır: birinci sətirdə böyük hərflərlə məqalənin adı; ikinci sətirdə müəllifin adı və soyadı, elmi dərəcəsi və elmi adı; üçüncü sətirdə iş yeri, vəzifəsi, daha sonra elektron poçtu (E-mail).

8. Həmmüəlliflərin üç nəfərdən artıq olması məqsədəuyğun deyildir.

9. Redaksiya məqalədə zəruri dəyişiklər və ixtisarlar, redaktə aparmaq hüququna malikdir.

10. Məqalələrə iki mütəxəssisin rəyi, şöbə və ya kafedranın, həmçinin ali məktəbin Elmi Şurasının və orta ixtisas təhsili məktəbinin Pedaqoji Şurasının iclas protokollarından çıxarışlar əlavə olunur.

11. Məqalədəki faktların, məlumatların dürüstlüyünə müəlliflər cavabdehdir. İrəli sürülən elmi müddəalar müəllifin özünə məxsus olmalı, istifadə edilmiş nəzəri fikirlərin mənbəyi göstərilməlidir.

12. Məqalədə son 5-10 ildə çap olunan əsərlərə istinadlara üstünlük verilməlidir. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı əlifba ardıcıllığı ilə deyil, istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və məsələn, (1) və ya (1, 119) kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

13. Jurnal öz profilinə uyğun məqalələri dərc edir.

14. Elmi məqalələrin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq aktuallıq əsaslandırılmalı, elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməlidir.

15. Plagiatlıq faktları aşkar edildikdə həmin məqalənin nəşri dayandırılır.

16. Məqalə müəlliflərinin hüquqları qorunur.

17. Jurnalda «ardı növbəti nömrədə» adı altında seriya məqalələr dərc olunmur.

18. Məqalələrin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun gəlməlidir.

19. Məqalələrdə müəllif(lər)in işlədiyi müəssisə və onun ünvanı, müəllifin elektron poçt ünvanı göstərilməlidir.

Məcmuə "Mütərcim" Nəşriyyat-Poliqrafiya Mərkəzində
səhifələnmiş və çap olunmuşdur.

Çapa imzalanıb: 10.01.2019
Format: 84x108 1/16. Qarnitur: Times.
Həcmi: 16 ç.v. Tiraj: 200. Sifariş № 38.

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA
MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125/139 b
596 21 44; 497 06 25; (055) 715 63 99
e-mail: mutarjim@mail.ru
www.mutercim.az